Cild 5 №1 2025
Vol 5 №1 2025
ISSN 2788-8789 (Print)
ISSN 2959-5223 (Online)

SOSİAL TƏDQİQATLAR MƏRKƏZİ

SOSİAL TƏDQİQATLAR

Beynəlxalq elmi-analitik jurnal

SOCIAL RESEARCH

İnternational scientific-analytical journal

KONSTİTUSİYA VƏ SUVERENLİK İLİ

Xüsusi buraxılış



SOSİAL
TƏDQİQATLAR
MƏRKƏZİ

ISSN 2788-8789 (Print)
ISSN 2959-5223 (Online)

Cild 5. № 1. 2025

SOSİAL TƏDQİQATLAR
SOCIAL RESEARCH

Beynəlxalq elmi-analitik jurnal / İnternational scientific-analytical journal

XÜSUSİ BURAXILIŞ

"Azərbaycan Respublikasında 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsi ilə bağlı Tədbirlər Planı"nın 10-cu bəndinə əsasən hazırlanmışdır

Bakı - 2025

Azərbaycan Respublikasında 2025-ci ilin “Konstitusiya və Suverenlik İli” elan edilməsi haqqında

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Müstəqil və suveren dövlətə sahib olmaq, milli-mənəvi dəyərlərə, həmrəylik, humanizm, ədalət və qanunun aliliyi prinsiplərinə əsaslanan inkişaf etmiş cəmiyyət qurmaq yüzillər boyu Azərbaycan xalqının ən böyük arzusu olmuşdur. Tarixin müxtəlif mərhələlərində kənar müdaxilələrə, məhrumiyyətlərə baxmayaraq, xalqımız milli kimliyini, mübarizə ruhunu qoruyub saxlamış, öz ideallarına həmişə sadiq qalmış və XX əsrin sonlarında dövlət müstəqilliyini bərpa etmişdir.

1991-ci il oktyabrın 18-də qəbul edilmiş “Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında” Konstitusiya Aktında yeni Konstitusiyanın hazırlanması nəzərdə tutulsa da, 1991–1993-cü illərdə hakimiyyətin yarıtmaz fəaliyyəti cəmiyyət həyatının bütün sahələrində kəskin böhrana, ölkədə anarxiyanın yaranmasına gətirib çıxarmış, dövlət idarəçiliyi mexanizmləri formalaşdırılmamış, qanunçuluğun, vətəndaşların azad, təhlükəsiz yaşamaq hüququnun təmin edilməsi mümkün olmamışdır.

Yalnız 1993-cü ildə xalqın tələbi ilə yenidən hakimiyyətə qayıtmış Ümummilli Lider Heydər Əliyevin böyük xilaskarlıq missiyası sayəsində ölkəmizdə cərəyan edən təhlükəli proseslərin qarşısı alındı, ictimai-siyasi sabitlik təmin edildi və müasir dövlət quruculuğu üçün etibarlı zəmin yarandı. Ulu Öndərin bilavasitə rəhbərliyi ilə hazırlanmış və 1995-ci il noyabrın 12-də qəbul olunmuş Azərbaycan Respublikasının ilk Konstitusiyası ölkəmizdə genişmiqyaslı qanunvericilik və institusional islahatların əsasını təşkil etdi. Bu Konstitusiya dövlətimizin müstəqilliyinin, suverenliyinin və ərazi bütövlüyünün qorunması, hüquqi, dünyəvi dövlət quruculuğu, vətəndaşlarımızın layiqli həyat səviyyəsinin, dünya ölkələri ilə dostluq və əmin-amanlıq şəraitində əməkdaşlığın təmin edilməsi kimi ali niyyətlərin həyata keçirilməsi üçün mühüm qanunvericilik bazası rolunu oynamışdır.

Konstitusiyanın preambulasında Azərbaycanın dövlət müstəqilliyinin, suverenliyinin və ərazi bütövlüyünün qorunması başlıca niyyətlərdən biri kimi bəyan edilmişdir. Lakin Ermənistanın Azərbaycana qarşı təcavüzü nəticəsində torpaqlarımızın 20 faizinin 30 ilə yaxın işğal altında qalması Azərbaycan Respublikasının suveren hüquqlarının həmin ərazilərdə tətbiqinə imkan verməmişdir. Ermənistanın işğalçılıq siyasətinə son qoyulması və ölkəmizin ərazi bütövlüyünün, suverenliyinin bərpa edilməsi Azərbaycan xalqının milli ideyasının əsas məqsədlərindən birinə çevrilmiş, cəmiyyətimizin bütün resursları bu taleyüklü vəzifənin həllinə yönəldilmişdir.

2020-ci il sentyabrın 27-də Ermənistanın təxribatlarına cavab olaraq başlanmış Vətən müharibəsində tarixi qələbə və 2023-cü il sentyabrın 19–20-də həyata keçirilmiş uğurlu antiterror əməliyyatı nəticəsində ölkəmizin ərazi bütövlüyü və suverenliyi tam bərpa edilmiş, Azərbaycan Konstitusiyasının hüquqi qüvvəsi işğalın aradan qaldırıldığı bütün ərazilərdə bərqərar olmuşdur. Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 19 sentyabr tarixli 294 nömrəli Sərəncamına əsasən, sentyabrın 20-si Azərbaycan Respublikasında Dövlət Suverenliyi Günü elan edilmişdir.

Bu gün Azərbaycan Respublikası xalqımızın milli maraqlarını rəhbər tutaraq,

yeni reallıqlar şəraitində müstəqil siyasətini daha cəsarətlə, prinsipiallıqla davam etdirir, Konstitusiyanın tələblərinə və öz suveren hüquqlarına əsaslanaraq, qarşıda duran strateji hədəflərə doğru inamla irəliləyir.

Konstitusiyamızın bəyan etdiyi niyyətlərdən biri kimi ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpa olunduğunu, 2025-ci ildə Konstitusiyamızın qəbul edilməsinin 30-cu və Vətən müharibəsində qələbəmizin 5-ci ildönümünü nəzərə alaraq, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

1. 2025-ci il Azərbaycan Respublikasında "Konstitusiya və Suverenlik İli" elan edilsin.

2. Azərbaycan Respublikası Prezidentinin Administrasiyası Azərbaycan Respublikasında 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsi ilə bağlı tədbirlər planına dair təkliflərini bir ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

İlham ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 28 dekabr 2024-cü il

“Bizim Konstitusiyamız xalqın Konstitusiyasıdır – hər bir vətəndaşın Konstitusiyasıdır. Bizim Konstitusiyamız Azərbaycanın gələcək perspektivlərini müəyyən edibdir və biz o perspektivlər yolu ilə gedirik, bundan sonra da gedəcəyik”.

“Yeni Konstitusiya Azərbaycanda demokratik hüquqi dövlətin qurulması, demokratik vətəndaş cəmiyyətinin yaranması üçün bütün əsaslar yaradıbdır, bütün təminatları veribdir. Bizim borcumuz bu təminatlardan, Konstitusiyanın bizə verdiyi qanuni əsaslardan səmərəli istifadə etmək və ölkəmizdə hüquqi, demokratik dövlət yaratmaq, vətəndaşların, insanların hüquqlarının qorunmasını təmin etməkdən ibarətdir”

Heydər ƏLİYEV,
Ümummilli Lider

"Qanunun aliliyi, insan hüquq və azadlıqlarının müdafiəsi hər bir hüquqi dövlətin ali məqsədini təşkil edir".

“Azərbaycan xalqının həyatında müstəsna əhəmiyyət kəsb edən şanlı Zəfər sayəsində bu gün Azərbaycan Respublikasının Dövlət Bayrağı suverenliyimizin bərqərar olduğu bütün ərazilərdə əzəmətlə dalğalanmaqdadır”.

İlham ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

SOSİAL TƏDQİQATLAR
Beynəlxalq elmi-analitik jurnal

2021-ci ildən nəşr olunur.
Rüblük nəşr: Cild 5. № 1/ 2025
Təsisçi:
Sosial Tədqiqatlar Mərkəzi
Təsisçinin hüquqi ünvanı:
Azərbaycan Respublikası,
Bakı şəhəri, Yasamal rayonu
İsmayıl Qutqaşınlı küç., 18
Redaksiyanın ünvanı:
AZ1073, Bakı şəhəri, Yasamal rayonu,
İsmayıl bəy Qutqaşınlı küç., 18.
Tel.: (+994 012) 510-70-78
www.socialresearchjournal.az
office@ socialresearchjournal.az
"Kütləvi informasiya vasitələri haqqında"
Azərbaycan Respublikası Qanununa
müvafiq şəkildə təsis edilmişdir.
Reyestr № 4248
Jurnal Azərbaycan Respublikasının
Prezidenti yanında Ali Attestasiya
Komissiyası tərəfindən "Azərbaycan
Respublikasında məqalələrin dərc
olunması tövsiyə edilən dövri elmi
nəşrlərin siyahısı"na ("Fəlsəfə və
sosiologiya", "Siyasi elmlər", "İqtisad
elmləri", "Tarix və antropologiya" elm
bölmələri üzrə) daxil edilib.
Tərtibatçı dizayner: Qurban Cəlilov
Texniki operator: Babək Cəfər
Korrektor: A.Məmmədov

SOCIAL RESEARCH
İnternational scientific-analytical journal

First edition date in 2021
Quarterly: Vol 5. № 1/2025
Publisher:
Social Research Center
Publishing House:
Republic of Azerbaijan, Baku,
Yasamal district, 18 Ismayil,
Gutgashinli str.
Editorial office:
AZ 1073, Yasamal district,
18 Ismayil Gutgashinli str.
Tel.: (+994 012) 510-70-78
www.socialresearchjournal.az
office@ socialresearchjournal.az
Established by the Law
"On Mass Media"
of the Republic of Azerbaijan.
Registration № 4248
The journal was included in the list
of periodical scientific publications
recommended for the publication of
articles in the Republic of Azerbaijan
by the Higher Attestation Commission
under the President of the Republic of
Azerbaijan (Philosophy and Sociology,
Political Sciences, Economic Sciences,
History and Anthropology).
Designer: Gurban Jalilov
Technical operator: Babek Jafar
Corrector: A.Mammadov

Çapa imzalanıb: 16.09.2025
Fiziki çap vərəqi: 42
Sifariş: 64
Tiraj: 700

"MM-S" müəssisəsinin mətbəəsində çap edilmişdir.
Ünvan: Azərbaycan Respublikası, AZ 1102, Bakı şəhəri,
Nəsimi rayonu, A.Tağızadə küçəsi, ev 13.

Telefon: (+994 12) 431 11 00
(+994 50) 314 09 37

© Sosial Tədqiqatlar Mərkəzi, 2025

REDAKSİYA ŞURASI

BAŞ REDAKTOR
Zahid Oruc
STM İdarə Heyətinin sədri

BAŞ REDAKTORUN MÜAVİNİ
Tahirə Allahyarova
STM İdarə Heyətinin üzvü, fəlsəfə elmləri doktoru, professor

MƏSUL KATİB
Aqşin Məmmədov
STM-in departament müdiri, filologiya üzrə fəlsəfə doktoru

BEYNƏLXALQ REDAKSİYA HEYƏTİ

Zahid Oruc
STM İdarə Heyətinin sədri (Azərbaycan)

Rafiq Əliyev
AMEA-nın müxbir üzvü, Azərbaycan Dövlət Neft və Sənaye Universitetinın proqram direktoru, "Zadə irsi və süni intellekt" Assosiasiyasının prezidenti (Azərbaycan)

Urxan Ələkbərov
AMEA-nın akademiki (Azərbaycan)

Ağamalı Məmmədov
sosiologiya elmləri doktoru, professor, M.V. Lomonosov adına Moskva Dövlət Universiteti Kommunikativ sistemlərin sosiologiyası kafedrasının müdiri (Rusiya)

Tahirə Allahyarova
fəlsəfə elmləri doktoru, professor, STM İdarə Heyətinin üzvü (Azərbaycan)

Şahin Mustafayev
Beynəlxalq Türk Akademiyasının prezidenti (Qazaxıstan)

Ədalət Muradov
iqtisad elmləri doktoru, professor, Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru (Azərbaycan)

EDITORIAL COUNCIL

EDITOR IN CHIEF
Zahid Oruj
Chairman of the Board of the SRC

DEPUTY EDITOR IN CHIEF
Tahira Allahyarova
Board Member of the SRC, Doctor of Philosophical Sciences, Professor

EXECUTIVE SECRETARY
Agshin Mammadov
Head of Department of the SRC, Doctor of Philosophy in Philology

INTERNATIONAL EDITORIAL BOARD

Zahid Oruj
Chairman of the Board of the Center for Social Research (Azerbaijan)

Rafig Aliyev
Corresponding member of ANAS, program director of Azerbaijan State University of Oil and Industry, "President of Zade heritage and artificial intelligence" Association (Azerbaijan)

Urkhan Alakbarov
Academician of ANAS (Azerbaijan)

Agamali Mammadov
Doctor of Sociological Sciences, Professor, Head of the Department of Sociology of Communicative Systems, Lomonosov Moscow State University (Russia)

Tahira Allahyarova
Doctor of Philosophical Sciences, Professor, Board Member of the SRC (Azerbaijan)

Shahin Mustafayev
President of the International Turkish Academy (Kazakhstan)

Adalat Muradov
Doctor of Economics, Professor, Rector of Azerbaijan State University of Economics (Azerbaijan)

İlham Məmmədzadə
fəlsəfə elmləri doktoru, professor, AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun direktoru (Azərbaycan)

Fethi Gedikli
İstanbul Universiteti, Hüquq fakültəsinin dekanı, professor (Türkiyə)

Rəfail Həsənov
sosiologiya elmləri doktoru, professor, Bakı Dövlət Universitetinin Sosiologiya kafedrasının müdiri (Azərbaycan)

Əbdülməcid Nurəddin
Beynəxalq Vizyon Universitetinin prorektoru, professor (Makedoniya)

Zhang Şuhu
Çin Sosial Elmlər Akademiyasının (ÇSEA-CASS) Siyasi Elmlər İnstitutunun direktoru, Çin Xalq Siyasi Məşvərət Konfransının üzvü, professor (Çin Xalq Respublikası)

Valeri Okuliç-Kozarin
Krakov Milli Universiteti, professor (Polşa)

Alyona Rettova
Bayreut Universiteti, professor (Almaniya)

Vasa Laslo
Macarıstan Beynəlxalq Münasibətlər İnstitutu, professor (Macarıstan)

Əbülfəz Süleymanlı
sosiologiya elmləri doktoru, professor, Üsküdar Universiteti Sosiologiya kafedrasının müdiri (Türkiyə)

Əli Hüseynli
hüquq üzrə fəlsəfə doktoru (Azərbaycan)

Musa Qasımlı
AMEA-nın müxbir üzvü, tarix elmləri doktoru, professor (Azərbaycan)

Hüseyn Qaraşov
sosiologiya elmləri doktoru, Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının rektoru (Azərbaycan)

Ilham Mammadzade
Doctor of Philosophical Sciences, Professor, Director of the Institute of Philosophy and Sociology of ANAS (Azerbaijan)

Fethi Gedikli
Dean of the Faculty of Law, Istanbul University, Professor (Turkiye)

Rafail Hasanov
Doctor of Sociological Sciences, Professor, Head of the Department of Sociology, Baku State University (Azerbaijan)

Abdulmecid Nureddin
Vice-Rector of International Vision University, Professor (Macedonia)

Zhang Shuhu
Director of the Institute of Political Science of the Chinese Academy of Social Sciences (CSEA-CASS), Member of the Chinese People's Political Consultative Conference, Professor (People's Republic of China)

Valeri Okulicz-Kozaryn
National University of Krakow, Professor (Poland)

Alyona Rettova
University of Bayreuth, Professor (Germany)

Vasa Laszlo
Hungarian Institute of International Relations, Professor (Hungary)

Abulfaz Suleymanli
Doctor of Social Sciences, Professor, Head of the Department of Sociology, Uskudar University (Turkey)

Ali Huseynli
Doctor of Philosophy in Law (Azerbaijan)

Musa Gasimli
Corresponding member of ANAS, Doctor of Historical Sciences, Professor (Azerbaijan)

Huseyn Garashov
Doctor of Sociological Sciences, Rector of the Azerbaijan Academy of Labor and Social Relations (Azerbaijan)

Nigina Şermuhammədova *Özbəkistan Milli Universiteti, professor (Özbəkistan)*	**Nigina Shermukhammedova** *National University of Uzbekistan, Professor (Uzbekistan)*
Hikmət Əlizadə *pedaqoji elmlər doktoru, professor (Azərbaycan)*	**Hikmet Alizade** *Doctor of Pedagogical Sciences, Professor (Azerbaijan)*
Feliks Olatunji *Osun Dövlət Universitetinin professoru (Nigeriya)*	**Felix Olatunji** *Osun State University, Professor (Nigeria)*
Səməd Seyidov *psixologiya elmləri doktoru, professor (Azərbaycan)*	**Samad Seyidov** *Doctor of Psychological Sciences, Professor (Azerbaijan)*
Valeri Modebadze *Gürcüstan Texniki Universiteti, professor (Gürcüstan)*	**Valeri Modebadze** *Georgian Technical University, Professor (Georgia)*
Lyudmila Laxtionova *Milli Aviasiya Universitetinin Təhsilin İnkişafı üzrə Tədris və Elm İnstitutunun direktor müavini, iqtisad üzrə fəlsəfə doktoru, dosent (Ukrayna)*	**Liudmyla Lakhtionova** *PhD in Economics, Associate Professor, Deputy Director of the Educational and Scientific Institute for ducation Development of National Aviation University (Ukraine)*
Mikola Zurba *Manitoba Universiteti, professor (Kanada)*	**Mykola Zhurba** *University of Manitoba, Professor (Canada)*
Vüqar Rəhimzadə *siyasi elmlər doktoru, professor*	**Vugar Rahimzadeh** *Doctor of Political Sciences, Professor*
Yusif Qasımov *riyaziyyat elmləri doktoru, Azərbaycan Universitetinin prorektoru*	**Yusif Gasimov** *Doctor of Sciences in Mathematics Azerbaijan University, Vice-rector*
Qızılgül Abbasova *fəlsəfə elmləri doktoru, professor (Azərbaycan)*	**Gizilgul Abbasova** *Doctor of Philosophical Sciences, Professor (Azerbaijan)*
Dilbadi Qasımov *hüquq elmləri doktoru, Strasburq Universiteti (Fransa)*	**Dilbadi Gasimov** *Doctor of Juridical Sciences, University of Strasbourg (France)*
Mayis Əliyev *hüquq elmləri doktoru, Bakı Dövlət Universitetinin professoru (Azərbaycan)*	**Mayis Aliyev** *Doctor of Juridical Sciences, Professor of Baku State University (Azerbaijan)*
Natalya Sosnovskaya *Belarus Elmlər Akademiyasının Sosiologiya İnstitutunun elmi katibi, sosiologiya üzrə fəlsəfə doktoru (Belarus)*	**Natalia Sosnovskaya** *Scientific secretary of the Institute of Sociology of the Belarusian Academy of Sciences, Doctor of Philosophy in Sociology (Belarus)*
Aytən Babayeva *Sosial Tədqiqatlar Mərkəzinin Beynəlxalq əməkdaşlıq və inkişaf üzrə sektor müdiri (Azərbaycan)*	**Aytan Babayeva** *Head of Sector/International Cooperation and Development Social Research Center (Azerbaijan)*

❖ **2025: KONSTİTUSİYA VƏ SUVERENLİK İLİ**

Zahid ORUC
KONSTİTUSİYAMIZIN 30 İLLİK YUBİLEYİ: AZƏRBAYCANIN DÖVLƏT SUVERENLİYİNİN TAM BƏRPASINA GƏTİRƏN TARİXİ MƏRHƏLƏYƏ ZƏFƏRİMİZİN 5 İLLİK ZİRVƏSİNDƏN BAXIŞ.....17

Rəna MİRZƏZADƏ
SUVEREN AZƏRBAYCAN KONSTİTUSİYASINDA BƏRABƏRLİK HÜQUQU: MİLLİ VƏ BEYNƏLXALQ QANUNVERİCİLİYİN SİYASİ-HÜQUQİ, GENDER EKSPERTİZASI.....21

Nigina ŞERMUHƏMMƏDOVA
RƏQƏMSAL QLOBALLAŞMA KONTEKSTİNDƏ DÖVLƏT SUVERENLİYİ: XXI ƏSRDƏ KONSTİTUSİYA PRİNSİPLƏRİNİN TRANSFORMASİYASI.....35

Ziba AĞAYEVA
MİLLİ PRİORİTETLƏRİN REALLAŞMASINDA AZƏRBAYCANÇILIQ İDEOLOGİYASININ ROLU.....44

Natiq XƏLİLOV
AZƏRBAYCANIN SEKULYAR MÜLKİ QANUNVERİCİLİYİNƏ DİNİ HÜQUQ İNSTİTUTLARININ İNTEQRASİYA PERSPEKTİVLƏRİ.....54

Aqşin MƏMMƏDOV
RƏSMİ DİLİN KONSTİTUSİYALARDA TƏNZİMLƏNMƏSİ: MÜQAYİSƏLİ TƏHLİL.....78

❖ **QƏRBİ AZƏRBAYCAN: TARİXİ, MADDİ-MƏDƏNİ İRSİ**

Gülgün QULİYEVA
QƏRBİ AZƏRBAYCANA QAYIDIŞ: TARİXİ ƏDALƏTİN BƏRPASI VƏ MÜASİR REALLIQLAR.....93

Əfqan VƏLİYEV
QƏRBİ AZƏRBAYCANIN MADDİ-MƏDƏNİ İRSİ.....112

❖ **FƏLSƏFİ VƏ SOSİAL TƏDQİQATLAR**

Arzu HACIYEVA
ABBASQULU AĞA BAKIXANOVUN “EYN ƏL-MİZAN” TRAKTATI İSLAM BÖLGƏSİNİN KLASSİK MƏNTİQ ƏNƏNƏSİ KONTEKSTİNDƏ.....133

Səadət MƏMMƏDOVA
ALİM – ELMİ FƏALİYYƏTİN SUBYEKTİ KİMİ.....148

Aynurə RƏŞİDOVA
SOSİAL ELMLƏRDƏ SÜNİ İNTELLEKTİN TƏTBİQİ:
İMKANLAR, ÇAĞIRIŞLAR VƏ PERSPEKTİVLƏR.....157

Qu HANG
"BİR KƏMƏR, BİR YOL" TƏŞƏBBÜSÜ ÇƏRÇİVƏSİNDƏ RƏQƏMSAL
TEXNOLOGİYALARIN SOSİAL İŞLƏ İNTEQRASİYASI.....167

Şirin MƏHƏMMƏD
AZƏRBAYCANDA MÜHARİBƏ VETERANLARININ
SOSİAL İNKLÜZİVLİYİNİ DƏSTƏKLƏYƏN
HÜQUQİ ÇƏRÇİVƏNİN TƏHLİLİ.....180

Reza APRIANTI
İNDONEZİYADA YENİYETMƏLƏR ARASINDA FƏLAKƏTLƏR
HAQQINDA MƏLUMATLILIĞIN TƏMİN OLUNMASI:
ZƏLZƏLƏYƏ MEYİLLİ ƏRAZİLƏRİN NÜMUNƏSİNDƏ.....191

Ayxan QƏHRƏMANOV
UŞAQLARA QARŞI ZORAKILIĞIN QARŞISININ
ALINMASINDA TEXNOLOGİYA VƏ TƏHSİLİN ROLU.....200

Sübhan PADAROV
KOSMOPOLİTANİZMİN İDEOLOJİ TƏŞƏKKÜLÜ VƏ FORMALARI.....210

❖ **MİLLİ VƏ BEYNƏLXALQ TƏHLÜKƏSİZLİK: GEOSİYASİ ARAŞDIRMALAR**

Elgün TAĞIZADƏ
KİBERMƏKAN VƏ RƏQƏMSALLAŞMA:
BEYNƏLXALQ MÜNASİBƏTLƏR VƏ QLOBAL
TƏHLÜKƏSİZLİKDƏ YENİ PARADİQMALAR.....224

Aleksandra-Stefaniya DİNULESKU
DÖYÜŞ MEYDANINDAN KƏNARDA
MİLLİ TƏHLÜKƏZSİZLİK: RUMİNİYA VƏ
AZƏRBAYCAN ÜÇÜN STRATEJİ BAXIŞ.....247

Zəfər NƏCƏFOV, Etibar QULİYEV
HƏRBİ MÜNAQİŞƏLƏRİN TRANSFORMASİYASINA
DAİR NƏZƏRİ-KONSEPTUAL BAXIŞLARIN İNKİŞAFI.....259

Samir HÜMBƏTOV
MÜASİR SİYASİ PROSESLƏRİN DİNAMİKASI
VƏ AZƏRBAYCAN XARİCİ SİYASƏTİNİN BU
PROSESLƏRƏ ADEKVAT YANAŞMASI.....269

Günay UMAROVA
QARA DƏNİZ REGİONUNDA ENERJİ TƏHLÜKƏSİZLİYİNİN
TƏMİN EDİLMƏSİNDƏ AZƏRBAYCANIN ROLU.....277

Mirəli SEYİDOV
CƏNUBİ QAFQAZDA GÜC MƏRKƏZİ: AZƏRBAYCANIN
REGİONAL VƏ BEYNƏLXALQ SİYASİ ROLU.....294

Məhəmməd ƏKBƏROV
CƏNUBİ QAFQAZDA MÜASİR GEOSİYASİ ÇAĞIRIŞLAR:
AZƏRBAYCANIN MİLLİ TƏHLÜKƏSİZLİYİ ÜÇÜN YARATDIĞI
MÜMKÜN YUMŞAQ TƏHDİDLƏR VƏ ONLARA QARŞI MÜBARİZƏ.....303

❖ **İQTİSADİ TƏDQİQATLAR**

Rafiq RZAYEV
MÜƏSSİSƏNİN İNNOVASİYA VƏ İNVESTİSİYA FƏALİYYƏTİNİN
YAXŞILAŞDIRILMASI İSTİQAMƏTLƏRİ.....315

Aida HƏSƏNLİ
NAXÇIVANIN İQTİSADİ POTENSİALI VƏ STRATEJİ ƏHƏMİYYƏTİ.....323

Aynur MƏMMƏDOVA
ƏRZAQLA BAĞLI TARİXDƏ BAŞ VERMİŞ ƏN BÖYÜK
BÖHRANLAR, ONLARIN BEYNƏLXALQ SİYASƏTDƏ
ƏKS OLUNMASI VƏ MÜASİR ÇAĞIRIŞLAR.....333

Elmir MEHDİYEV
İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRDƏ “YAŞIL ENERJİ”
POTENSİALININ DƏYƏRLƏNDİRİLMƏSİ.....343

❖ 2025: YEAR OF CONSTITUTION AND SOVEREIGNTY

Zahid Oruj
30th ANNIVERSARY OF OUR CONSTITUTION:
REFLECTIONS ON HISTORIC STAGE LEADING TO FULL
RESTORATION OF AZERBAIJAN'S STATE SOVEREIGNTY,
VIEWED FROM 5th ANNIVERSARY OF OUR VICTORY.....17

Rana Mirzazadeh
EQUALITY OF RIGHTS IN SOVEREIGN AZERBAIJANI
CONSTITUTION: POLITICAL-LEGAL ANALYSIS OF
NATIONAL AND INTERNATIONAL LEGISLATION.....21

Nigina Shermukhamedova
STATE SOVEREIGNTY IN CONTEXT OF DIGITAL
GLOBALIZATION: TRANSFORMATION OF
CONSTITUTIONAL PRINCIPLES IN 21ST CENTURY.....35

Ziba Agayeva
ROLE OF AZERBAIJANI IDEOLOGY IN
REALIZATION OF NATIONAL PRIORITIES.....44

Natig Khalilov
INTEGRATION PERSPECTIVES OF RELIGIOUS LEGAL INSTITUTIONS
INTO AZERBAIJAN'S SECULAR CIVIL LEGISLATION.....54

Agshin Mammadov
REGULATION OF OFFICIAL LANGUAGE IN
CONSTITUTIONS: COMPARATIVE ANALYSIS.....78

❖ WESTERN AZERBAIJAN: HISTORICAL, MATERIAL AND CULTURAL HERITAGE

Gulgun Guliyeva
RETURN TO WESTERN AZERBAIJAN: RESTORATION OF
HISTORICAL JUSTICE AND CONTEMPORARY REALITIES.....93

Afghan Valiyev
MATERIAL AND CULTURAL HERITAGE OF WESTERN AZERBAIJAN.....112

❖ PHILOSOPHICAL AND SOCIAL RESEARCH

Arzu Hajiyeva
ABBASGULU AGHA BAKIKHANOV'S TREATISE "AYN AL-MIZAN" IN CONTEXT OF CLASSICAL LOGICAL TRADITION OF ISLAMIC WORLD.....133

Saadat Mammadova
SCIENTIST AS SUBJECT OF SCIENTIFIC ACTIVITY.....148

Aynura Rashidova
APPLICATION OF ARTIFICIAL INTELLIGENCE IN SOCIAL SCIENCES: OPPORTUNITIES, CHALLENGES AND PROSPECTS.....157

Qu Hang
INTEGRATION OF DIGITAL TECHNOLOGY AND SOCIAL WORK IN BELT AND ROAD INITIATIVE.....167

Shirin Mahammad
ANALYSIS OF LEGAL FRAMEWORK SUPPORTING SOCIAL INCLUSION OF WAR VETERANS IN AZERBAIJAN.....180

Reza Apriantı
BUILDING DISASTER AWARENESS AMONG ADOLESCENTS IN INDONESIA: CASE STUDY OF EARTHQUAKE-PRONE AREAS.....191

Aykhan Gahramanov
ROLE OF TECHNOLOGY AND EDUCATION IN PREVENTING VIOLENCE AGAINST CHILDREN.....200

Subhan Padarov
IDEOLOGICAL FORMATION OF COSMOPOLITANISM AND ITS FORMS.....210

❖ NATIONAL AND INTERNATIONAL SECURITY: GEOPOLITICAL RESEARCH

Elgun Taghizade
CYBERSPACE AND DIGITALIZATION: NEW PARADIGMS IN INTERNATIONAL RELATIONS AND GLOBAL SECURITY.....224

Alexandra-Stefania Dinulescu
NATIONAL SECURITY BEYOND BATTLEFIELD: STRATEGIC VISION FOR ROMANIA AND AZERBAIJAN.....247

Zafar Najafov, Etibar Guliyev
DEVELOPMENT OF THEORETICAL-CONCEPTUAL APPROACHES TO TRANSFORMATION OF MILITARY CONFLICT.....259

Samir Humbatov
DYNAMICS OF CONTEMPORARY POLITICAL PROCESSES AND AZERBAIJAN'S ADEQUATE APPROACH IN FOREIGN POLICY.....269

Gunay Umarova
AZERBAIJAN'S ROLE IN ENSURING ENERGY SECURITY IN BLACK SEA REGION.....277

Mirali Seyidov
POWERHOUSE IN THE SOUTH CAUCASUS: AZERBAIJAN'S REGIONAL AND INTERNATIONAL POLITICAL ROLE.....294

Mahammad Akbarov
SOFT THREATS TO AZERBAIJAN'S NATIONAL SECURITY ARISING FROM CONTEMPORARY GEOPOLITICAL CHALLENGES IN SOUTH CAUCASUS AND RESPONSE MECHANISMS.....303

❖ **ECONOMIC RESEARCH**

Rafig Rzayev
DIRECTIONS FOR ENHANCING INNOVATION AND INVESTMENT ACTIVITIES IN ENTERPRISES.....315

Aida Hasanli
ECONOMIC POTENTIAL AND STRATEGIC IMPORTANCE OF NAKHCHIVAN.....323

Aynur Mammadova
MAJOR FOOD CRISES IN HISTORY, THEIR IMPACT ON INTERNATIONAL POLITICS, AND CONTEMPORARY CHALLENGES.....333

Elmir Mehdiyev
ASSESSING RENEWABLE ENERGY POTENTIAL IN THE TERRITORIES LIBERATED FROM OCCUPATION.....343



2025: KONSTİTUSİYA VƏ SUVERENLİK İLİ

2025: YEAR OF CONSTITUTION AND SOVEREIGNTY

KONSTİTUSİYAMIZIN 30 İLLİK YUBİLEYİ: AZƏRBAYCANIN DÖVLƏT SUVERENLİYİNİN TAM BƏRPASINA GƏTİRƏN TARİXİ MƏRHƏLƏYƏ ZƏFƏRİMİZİN 5 İLLİK ZİRVƏSİNDƏN BAXIŞ

Zahid ORUC
Sosial Tədqiqatlar Mərkəzi İdarə Heyətinin sədri
(Bakı, Azərbaycan)
E-mail: zahidoruc@gmail.com

Giriş

XX əsrin 90-cı illərində SSRİ-nin süqutu ilə azadlığına qovuşan xalqların qarşısında fərqli idarəçilik formaları və quruluşları var idi. Lakin 70-ci illər Azərbaycanı faktiki müstəqil olduğu üçün onu "sovet mirası" sayıb dağıtdılar və millətimiz layiq olduğu haqqı çox gec qazandı. Çarizmin, kommunistlərin dövründə qurulanları yalnız ideoloji rənginə görə məhv etmək olmazdı. 1921, 1925, 1937 və 1978-ci illərin sovet konstitusiyalarının da mütərəqqi ideyaları, güclü hüquqi sistemi və milli dövlətçilik irsi var idi. Konstitusiya və qanunlar da varisliyi sevir. 15 dəfə konstitusiyanı dəyişən fransızlardan konstitusiyasız monarxiya quran ingilislərədək hər biri hələ də xalqın iradəsinə söykənən dövlət qurmağa çalışırlar.

Lakin meydandan birbaşa hakimiyyətə gələn milli demokratların yeni konstitusiya qəbuluna siyasi və hüquqi iradələri çatmadı. Silahlı döyüşdə məğlub olanlar Qanun yaza bilməzdilər.

Sovet imperiyasından xaos diktaturasına qədəm qoyan məmləkəti xilas edən Heydər Əliyevin Dəmir Əli uzun illər sonra Vətən müharibəsində Dəmir İradəyə çevrildi. Torpaqlarını və sərvətlərini itirən millətimiz dərk etdi ki, keçici qırmızı bayraqları qazananda da, ucqar Naxçıvanı lampa işığında qoruyanda da, 2-ci dəfə hakimiyyət olimpinə qayıdanda da Onun tək bir Dövlət Kitabı olub - Heydər Əliyev Konstitusiyası! Bəli, millətə xidmətin heç bir ideoloji-siyasi formasiyadan asılı olmayanda Qalib kimi Qanunu Sən yazırsan.

Heydər Əliyev Konstitusiyası bizə qələbə gətirdi və Zəfər Konstitusiyasına çevrildi

Ulu öndər başqa dövlətlərin quruluşunu mexaniki olaraq ölkəmizə köçürmədi. Nə mühafizakər Şərq arxaizmi, nə də tez-tez böhranlara yol açan Qərb sistemi, müstəqil iradəyə malik olmayan və Brüsseldən, Strasburqdan idarə olunan dövlətlərlə eyni olmadıq. Biz sülh içində siyasi gələcəyini müəyyən edən İsveç və Norveçdən fərqli olaraq, Ali Qanunumuzu sütunlu salonlarda Monteskyoların, Cefersonların tablosu qarşısında deyil, döyüş meydanlarında qurbanlar verərək qəbul edirdik.

Konstitusiyamız bütün xalqı birləşdirdi. Lakin 2023-cü ilədək ölkəmizdə suverenliyimiz və ərazi bütövlüyümüz tam təmin olunmamışdı. Ali qanunumuzda yazırdıq: "Respublikamız, torpağımız və xalqımız bölünməzdir", lakin gerçəkdə Vətənimizin bir hissəsində separatizmin və işğalın simvolu olan qanunsuzluq hələ də hökm sürürdü. Xankəndi Zəfəri konstitusiyamızı da xilas etdi, onu vahidləşdirdi, bütövləşdirdi.

Yeni Konstitusiya iki dövlət çevrilişi cəhdindən, çoxlu sui-qəsdlərdən, yüz minlərlə insanın çadır şəhərciklərindəki

ağrılarından keçərək ümumxalq sərvətinə çevrildi. Halbuki belə şəraitdə Corc Vaşinqtonlar qanun və ali dəyərlər haqda düşünə bilməzdilər.

Ali Qanunumuzun 40 faizinin insan haqlarına aid olduğunu fəxarətlə desək də 20 faizlik natamamlıqdan əziyyət çəkirdik. 1995-ci ildən sonra millətimiz konstitusion yolundan dönmədi. 2005-ci ildəki qanlı inqilablar, bizə ixrac olunan üsul-idarələr parlaq dövlət əsərimizi məğlub edə bilmədi.

Əslində dünyada bütün xalq yığışıb bir qələmlə qanun yazmır. Lakin Vətən müharibəsi və 20 sentyabr Suverenlik savaşı Bir millətin, Bir Ordunun və Bir İmzanın yaratdığı ən böyük Qanun Kitabı oldu.

Heydər Əliyev Konstitusiyası bizə qələbə gətirdi və Zəfər Konstitusiyasına çevrildi. Ona hücum edənlər, idarəçiliyi Tək Adamın hakimiyyəti adlandıranların hamısı uduzdu. İlham Əliyev 8 noyabrda Qarabağın xilaskarı olaraq, ən böyük konstitusion ədaləti təmin etdi.

90-cı illərin Razdan meydanında işğalçılıq ideyaları ilə silahlanan erməni xalqının o vaxt qəbul etdiyi təcavüzkarlıq konstitusiyası indi əsarət buxovuna çevrilib. Vətən müharibəsində Qələbəmizdən sonra İrəvan konstitusiya böhranı yaşayır.

Böyük Qayıdış: sosial dövlət quruculuğu və konstitusion hüquqların bərpası

Azərbaycan hazırda XXI əsrin yeganə qalib ölkəsidir.

Qlobal trendlər sırasında yer alan "XXI əsrin müharibəsi" Azərbaycanda özünəməxsus məna kəsb edir. Qalib ölkəmiz bu gün 30 ilik işğaldan azad etdiyi torpaqlarda "Böyük Qayıdış" layihələri çərçivəsində geniş quruculuq işləri həyata keçirir.

Böyük Qayıdış - miqyas, əhatə, bərpa və quruculuğun xüsusiyyətləri baxımından dünyada rast gəlinməyən, milyondan artıq qaçqının on illər sonra öz torpaqlarında yenidən məskunlaşmasını təmin edən nadir sosial missiyalı hadisədir.

Otuz ildən artıq Konstitusiya ilə təsbit edilmiş sosial hüquqlarından məhrum olan, həyatları boyu tikib qurduqları ev-ocaqlarını, mülklərini itirən bir milyondan artıq qaçqın soydaşımız ağlagəlməz çətinlikdə qaçqınlıq, məcburi köçkünlük həyatına dözdülər.

Müharibədən sonra Azərbaycan dövlətinin gündəliyində dayanan əsas məsələ - Böyük Qayıdışın təmin olunmasıdır və yaxın 10 ilin bir nömrəli vəzifəsidir. "Azərbaycan-2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" təsdiq edilmiş, bu prioritetlərə söykənən "2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası" hazırlanmışdır.

Hazırda azad edilmiş ərazilərdə yüzlərlə sosial layihələr həyata keçirilir. Məcburi köçkünlər üçün sosial infrastruktur, müasir yaşayış evləri inşa edilir, yeni iş yerləri yaradılır, təhsil və səhiyyə xidmətləri təkmilləşdirilir. Bu proses yenidən məskunlaşan əhalinin illər sonra öz torpaqlarında firavan həyat sürmələrinə yönəlib.

Böyük Qayıdışın sosial missiyalı layihə olması bölgənin sosial-iqtisadi inkişafı ilə yanaşı, qayıdan məcburi köçkünlərin sosial-psixoloji adaptasiyasının da təmin olunmasına həssaslıq tələb edir. Qayıdan əhali üçün müxtəlif proqramlar təşkil olunur.

Xüsusilə qeyd edək ki, dünyada əsrin bu nəhəng layihəsi hazırda inkişaf etmiş Qərb ölkələrində "sosial rifah dövləti" konsepsiyasının böhran yaşadığı, əhalinin həssas təbəqələrinin: miqrantların və s. sosial hüquqi-konstitusional əsaslarının köklü dəyişikliyə uğramasının tendensiyaya çevrildiyi bir vaxtda həyata keçirilir.

İllər ərzində hüquqları pozulan milyonlarla vətəndaşımızın bu gün işğaldan azad edilən ərazilərə geri dönməsi - XXI əsrin ən böyük konstitusion, sosial hüquq, rifah və qayğının təmin edilməsi hadisəsidir. Azərbaycan dünyanın heç bir yerində baş verməyən, heç bir ölkənin bacarmadığı nəhəng sosial layihəni - Böyük Qayıdış layihəsini təkbaşına reallaşdırır. Xaricdən yardım almadan tam suverenliyini təmin

etdiyi kimi viran edilmiş şəhər, qəsəbə və kəndlərə yeni nəfəs verməklə Azərbaycan dünyada ən böyük sosial yönümlü siyasət yürütdüyünü təsdiqləyir.

Böyük Qayıdış sosial dövlət quruculuğunun bütün missiyasını: sosial-iqtisadi hüquqları, sosial təhlükəsizliyi, sosial iş və qayğı siyasətini, dayanıqlı ekoloji inkişafı - bir sözlə, Azərbaycan Konstitusiyasında təsbit edilən bütün fundamental sosial hüquqların təminatını əhatə edən unikal tarixi sosial missiyadır.

Böyük Qayıdış siyasəti yeni dövlət və millət quruculuğunun tərkib hissəsidir. Söhbət 17 min kvadrat kilometr ərazidə - Küveytin ərazisniə bərabər miqyasda aparılan misilsiz işlərdən gedir. Ona görə də azad torpaqlara dönüş infrastruktur quruculuğu hadisəsindən çox yeni dövlət və millət inşasının, yeni milli kimlik və mədəniyyətin yaradılmasının yeni mərhələsidir.

Nəticə/Təkliflər

Son 3 əsrdə müxtəlif formasiyalardan keçən xalqımızın müstəqillik, azadlıq və siyasi gələcəyinin qarşısında ən böyük sədd Qarabağ münaqişəsi olub. İndi təkcə coğrafi deyil, həm də siyasi mənada Qarabağ müharibədə olduğu kimi, milli birlik və həmrəylik simvoluna çevrilib.

Azərbaycan dövlət suverenliyinin tam bərpasınadək uzun və mürəkkəb bir yol keçib. Bu gün isə konstitusion hüquqların bərpası kontekstində azad edilmiş torpaqlarda nəhəng quruculuq işləri həyata keçirilir. Ona görə də təklif edirik ki, “44 günlük müqəddəs müharibədəki milli birliyi böyük tikinti-quruculuq prosesinə daşımaq” devizi ilə hərəkət edərək, “Böyük Qayıdış Mükafatı”nı təsis etmək məqsədəuyğun olar. Əmək qəhrəmanlarını, ictimai həyatın bütün sferalarında fədakarlıq göstərən insanları xüsusi təyinatlı ordumuzun qəhrəmanlığının davamı kimi qəbul etməliyik.

“Böyük Qayıdış” marşının yazılması bizim Vətən quruculuğunun himninə çevrilə bilər. Xalqın gündəlik həyatını zənginləşdirən sənət nümunələri, əslində, millətimizin yeni quruculuq ideologiyasını təşkil edəcəkdir.

128 ölkəni, 3 milyonadək sosial işçini birləşdirən Beynəlxalq Sosial İş Federasiyası dünyada sosial işçilərə ehtiyac duyan ölkələrin siyahısını dərc edib. Əlbəttə, son 5 ildə beynəlxalq təhlükəsizlik sistemi böhran keçirir və bizim qarşımızda ən azı 51 konflikt nəticəsində həm daxili, həm də xaricə üz tutan qaçqın və məcburi köçkünlərin sayı 25 faiz artaraq 110 milyona çatıb. Lakin Azərbaycan xalqı 90-cı illərdə müəyyən həcmdə beynəlxalq yardımlar aldığı halda sonrakı illərdə kömək tamamilə kəsildi, ona görə ki, neft gəlirlərini əsas göstərərək, yardımları dayandırdılar.

Lakin indi 700 minə yaxın vətəndaşımızın doğma torpaqlara dönüşünü nəzərə alaraq, təkəbaşına savaşı qazanan bir dövlətin həm də 100 milyardlarla manat vəsaiti xərcləyərək insanlarımızı doğma torpaqlarda məskunlaşdırması ilə yanaşı, Birləşmiş Millətlər Təşkilatı, Uşaqları Xilas edin, Sülh Korpusu, Beynəlxalq Ədalət Missiyası və digər təşkilatların da ən azı bir ailənin Zəngilana, Qubadlıya, Kəlbəcərə qayıtmasını, yeni həyat quruculuğunu təmin etmələri ədalətli olardı. Biz azad torpaqlarda fiziki infrastukturu millətimizin gücü ilə yaradırıq, lakin münasibətlərin infrastrukturunun qurulmasında beynəlxalq tərəfdaşların dəstəyinə açığıq.

Qarabağı sosial iş üzrə beynəlmiləl hərəkatın ünvanına çevirmək üçün İkinci Dünya müharibəsindən sonrakı Marşal planına uyğun siyasətə ehtiyac duyulur.

Yeni quruculuq planını ilk növbədə türk dövlətlərindən başlamaq daha uğurlu nəticələr verər. Düzdür, bu istiqamətdə artıq bəzi türk dövlətləri tərəfindən müəyyən addımlar atılıb, təşəbbüslər reallaşdırılıb. Eyni zamanda 1.2 trilyon dollarlıq ÜDM-ə malik olan türk dünyası “Kürəkçaydan Şuşaya” adlı beynəlxalq kampaniyada aktiv iştirak edə bilər. On minlərlər insanın sosial yükünü çiyinlərinə alan tərəfdaşlar əbədilik millətimizin tarixində yer qazanacaqlar. Dünyada ən böyük sosial iş - Yeni Vətən və Yeni Dövlət quruculuğudur.

Bundan başqa, gənclərimizi sosial iş ixtisasına yiyələndirən ali təhsil müəssisələrimizin Qarabağ Universiteti ilə birlikdə tədqiqatlar planını müəyyənləşdirməsi, eyni zamanda dövlət tərəfindən bu istiqamətdə bəzi layihələrin maliyyələşdirilməsi məqsədəuyğun olardı. Çünki 30 ildən artıq müddətdə torpağa mina əkən bir xalqın yerində indi daimi yaşamaq üçün dönən insanların, xüsusilə gənclərin gələcək ideallarını, arzularını və planlarını inkişaf etdirmək mühüm milli vəzifədir.

Təhsilsiz sosial inkişaf mümkün deyil. O cümlədən, yalnız elm adamlarımızın sayəsində əbədi qayıdış mümkündür.

Dövlət başçımızın qeyd etdiyi kimi: **"Tarixi Zəfər nəticəsində əldə etdiyimiz yeni dövrün reallıqları həm Böyük Qayıdışı sürətləndirir, həm də Azərbaycanı dünyaya əsl qurucu dövlət kimi tanıdır."**

Beləliklə, Azərbaycanda hazırkı dövrdə başqa dövlətlərdə rast gəlinməyən sosial missiya - vətəndaşlar üçün rahat və təhlükəsiz mühitin yaradılması və hər kəs üçün layiqli həyat səviyyəsinin təmin edilməsi sosial siyasətinin mühüm hissəsidir.

Kəlbəcərdən Zəngəzuradək Böyük Qayıdış və Yeni Vətən quruculuğu konstitusiyamıza yazılan yeni parlaq səhifələrdir. İndi Ədalətin Zəfər çaldığı ölkə qururuq!

Qələbə Konstitusiyası artıq Zəfərimizin Manifestidir! Onun hər sətrində mübarizə, təntənə və haqqımız var. Əvvəl maddə idi, indi reallıqdır, əvvəl xəyal idi, indi gerçəklikdir. Əvvəl itirilmişdi, indi əbədi qaytarmışıq. Prezident İlham Əliyev azad torpaqlarda hər evin açarını daimi qayıdışın simvolu kimi tədim edir və deyir: **"Siz yurdunuzda əbədi yaşayacaqsınız".**

Suverenlik zəiflərə verilən deyil, güclülərin qazandığı haqqdır! Azərbaycanın gələcəyi yalnız azad edilmiş torpaqların yenidən qurulması ilə yeni iqtisadi-sosial rifahda, siyasi-ideoloji yüksəlişindədir. Qarabağda ucalan hər məktəb, hər mədəniyyət mərkəzi, milli suverenliyin simvolu olacaq. Buradan dünyaya yayılan mesaj aydındır: **Azərbaycan gələcəyini özü qurur. Konstitusiya və suverenlik sadəcə dövlətçilik terminləri deyil, milli varlığımızın simvoludur.**

Ona görə də işğala son qoyan bir xalq Zəfər ideologiyası ilə Qurtuluş məfkurəsindən quruculuq ideyasına, müdafiədən inkişaf fəlsəfəsinə keçir. Biz yarımçıq suverenlikdən tam siyasi kimliyə keçirik.

Yeni milli ideologiyamız üç sütun üzərində qurula bilər:

❖ **Suveren düşüncə** - təkcə sərhədlərinə deyil, uğur hekayələrinə, və siyasi gündəliyinə özü nəzarət edən, yalnız torpaqlar üzərində yox, düşüncə, ideya və informasiya məkanında da qazanılan müstəqillik!

❖ **Ədalətin Zəfəri** - hər bir vətəndaş Konstitusiyada öz haqqını-hüququnu görməlidir.

❖ **Gələcək hədəfləri birgə quraq** - Biz indi gələcək nəsillər üçün modern, güclü, hüquqa əsaslanan, texnologiyaya və ədalətə söykənən bir dövlət qurmalıyıq.

Sülhün inşası və bölgədə barışın yaradılması suverenliyin təminatçısı olacaq. Biz silahla qazandığımızı qanunlarla qorumalıyıq! Suverenlik dövlətin xalqı yaxşı yaşatmaq vəzifəsidir. Konstitusiya sadəcə əraziyə sahib olmaq, hipotetik hüquqlar deyil, məcburi legitimlikdir.

Ali Baş Komandan göstərdi ki, biz artıq itkilərin varisləri deyilik - Qayıdışın memarlayırıq! Gələcək nəsil yalnız coğrafiyanı deyil, qələbəmizi miras almalıdır. Uğur hekayələrimizi beynəlmiləlləşdirməliyik - qisas üçün deyil, mənəvi coğrafiyamızı genişləndirmək naminə.

Gəlin, elə millətə çevrilək ki, hüquq təkcə döyüşdə xatırlanmansın, həm də gündəlik ədalətdə özünü sübut etsin. Gəlin, konstitusiyaları müharibələr üçün deyil, barış və birgə gələcəyin quruculuğunun kitabına çevirək.

Qanunla ucalan Azərbaycan, Qələbəni əbədi edə bilər.

Biz haqqımızı savaşla bərpa etdik. İndi isə onu ədalətlə, qanunla, Konstitusiya ilə yaşatmaq zamanıdır!

SUVEREN AZƏRBAYCAN KONSTİTUSİYASINDA BƏRABƏRLİK HÜQUQU: **MİLLİ VƏ BEYNƏLXALQ QANUNVERİCİLİYİN SİYASİ-HÜQUQİ, GENDER EKSPERTİZASI**

Rəna MİRZƏZADƏ,
AMEA Fəlsəfə və Sosiologiya İnstitutu
"Siyasətin fəlsəfəsi və sosiologiyası" şöbəsinin
müdiri, fəlsəfə elmləri doktoru, professor
(Bakı, Azərbaycan)

E-mail: mirrena54@yahoo.com
ORCID ID: 0000-0002-6250-1826

Xülasə. Məqalədə suveren Azərbaycan Respublikası Konstitusiyasının milli və beynəlxalq qanunvericilik normativlərində bərabərlik problemi, bərabərhüquqluluğun siyasi-hüquqi istiqamətləri təhlil edilir. Həmçinin, Azərbaycan Konstitusiyasında bərabərhüquqluluq probleminə aid müddəalar, eləcə də beynəlxalq konvensiyaların ratifikasiyası məsələləri, kişi-qadın qarşılıqlı münasibətlərində gender siyasətinin qanunla tənzimlənməsi, milli qanunvericilikdə milli xüsusiyyətlərin, mədəni amillərin əksinin gender strategiyasına uyğunluğu, dəyişən zaman kontekstində ölkədə gender amilinin də yenilənmələrə uyğun olaraq qanunlarda təsbiti tədqiq edilir.

Açar sözlər: bərabərhüquqluluq, suverenlik, Azərbaycan Konstitusiyası, milli qanunvericilik, beynəlxalq konvensiyalar, gender ekspertizası

Giriş

Bərabərhüquqluluq/gender insan hüquqlarının cəmiyyətdə kişi və qadın üçün bərabərliyini ifadə edir. Feminizm XIX əsrdən təşəkkül tapan qadın azadlığı, qadın hüquqları uğrunda mübarizəyə səsləyən ideoloji cərəyan, ictimai-siyasi hərəkatdır. Tarixən labüd olsa da, humanizm baxımından artıq feminizm indi insan hüquqları məsələsinə tam cavab vermir. Bərabərhüquqluluq/gender isə həm müasirdir, həm də dövrün tələbatına, insan hüquqları fəlsəfəsinə tam cavab verən elmi istiqamətdir. Feminizm nəzəriyyəsi patriarxal sivilizasiyanın bütün əsas idraki və praqmatik prinsiplərini tənqid edərək, həmin sivilizasiyanın gender tədqiqatlarından irəli gələn yeni prinsiplərini nümayiş etdirmişdir. Bərabərhüquqluluq/gender nəzəriyyələri isə son elmi istiqamətdir. Qadın hüquqları da gender bərabərliyinin tərkib hissəsidir.

Müasir Azərbaycanda demokratik prinsiplərin bərqərar olmasında, vətəndaş cəmiyyəti və hüquqi dövlətin yaradılmasında cinslərin bərabərhüquqluluq məsələsi də xüsusi yer tutur. İlk dəfə 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin parlamenti tərəfindən cinslərin bərabərlik hüququ təsbit edilmişdir. Sonradan bu məsələ keçmiş SSRİ dövründə də ictimai-siyasi həyatın müxtəlif sahələrində istər mərkəzləşdirilmiş, planlı şəkildə, istərsə də "kvota" sistemi ilə müəyyən dərəcədə reallaşma imkanı tapmışdır.

Bərabərlik hüququ "Azərbaycan Respublikasının Dövlət Müstəqiliyi haqqında" 18 oktyabr 1991-ci il tarixli Konstitusiya Aktında da öz əksini tapmışdır. Azərbaycan Respublikasının Milli Məclisi 1992-ci il avqustun 4-də BMT-nin "Qadınların siyasi hüquqları haqqında" Konvensiyasına qoşulmuş, 1995-ci il iyunun 30-da isə "Qadınlara münasibətdə ayrı-seçkiliyin bütün formalarının ləğv olunması haqqında" Konvesiyanı ratifikasiya etmişdir. 1998-ci il yanvarın 14-də "Azərbaycanda qadınların rolunun artırılmasına dair tədbirlər haqqında" Sərəncam imzalanmışdır. Bilavasitə respublikada bərabərhüquqluq siyasətinə dəstək olan digər bir rəsmi sənəd isə 2000-ci il martın 6-da imzalanmış "Azərbaycan Respublikasında dövlət qadın siyasətinin həyata keçirilməsi haqqında" Fərmandır. Müstəqil Azərbaycanda qəbul edilən fərman, sərəncam, qərar, qətnamə və beynəlxalq hüquqi aktların ratifikasiyası bərəbərhüquqluluq siyasətinin hüquqi təminatına əsas vermişdir.

Bu baxımdan, Azərbaycan Respublikası müstəqillik qazandıqdan sonra 1995-ci ildə qəbul edilmiş Konstitusiyaya bərabərlik hüququ problemini təsbit edən maddə daxil edilmiş və beynəlxalq hüquq normalarına uyğunluğu ilə qanuniləşmişdir.

Təsadüfi deyil ki, hüquqların bərabərliyi, gender probleminin aktuallığı "Qadınlara münasibətdə ayrı-seçkiliyin bütün formalarının aradan qaldırılması haqqında" Konvensiyanın üz cildində bu sözlərlə öz əksini tapmışdır: "Hər hansı bir ölkənin tam və hərtərəfli inkişafı, bəşəriyyətin rifahı və sülh siyasəti, qadınların bütün sahələrdə kişilərlə bərabər hüquqlar əsasında maksimum iştirakını tələb edir" [5; 19].

1. Bərabərlik probleminə siyasi-hüquqi baxış

XX əsr bərabərhüquqluluq probleminin qoyuluşu və həllində dönüş əsri olmuşdur. Bərabərlik hüquqlarının təmini məsələsi müxtəlif ölkələrin əsas qanunlarında, bir çox digər rəsmi sənədlərdə və beynəlxalq konvensiyalarda öz əksini tapmışdır. Bütün səylər cinslərin qarşılıqlı münasibətində hüquqların köklü problemlərini tam həll edə bilməsə də, müəyyən dərəcədə öz müsbət nəticələ-

rini vermişdir.

Demokratik ölkələrdə bərabərhüquqluluq bir normadır. Cəmiyyətdə qadınların da qadir olduğu təşkilatçılıq qabiliyyətindən tam istifadə edilməməsi bir reallıq idi. Bu səbəbdən də cəmiyyətdə mövcud olan hüquq bərabərsizliyinin, ayrı-seçkiliyin səbəblərinin araşdırılması vacibdir. Müxtəlif sosial mexanizmlərdə qadınlar hərəkatı tarixinin öyrənilməsi, qadınların siyasətdə, istehsalatda, mədəniyyət strukturlarında, iqtisadiyyat, sahibkarlıq sahəsində, firmalar, birliklər və digər təşkilatların yaradılmasında iştirakının elmi təhlili hər zaman tələb olunur. Kişi və qadınların birgə təcrübə mərkəzlərinin yaradılması, bu problemin intellektual dərk olunması da vacibdir. Bütün intellektual güc mərkəzləri də bərabərhüquqluluq mövzusunun, eləcə də ailənin sosial müdafiə və uşaq hüquqları sahəsində müvafiq qanunlarının həyata tətbiqinə dəstək olmalıdır.

Sovet dövründə sosialist sisteminin üstünlüklərini, onun "humanist" təsirini göstərmək üçün keçmiş SSRİ-nin Əsas Qanununda qadınlara kişilərlə bərabər hüquqlar verilmişdi. Sosializmlə rəqabətdə üstünlüyü əldən verməmək üçün Qərb də bu istiqamətdə tədbirlər görürdü. Bütün bunların nəticəsidir ki, XX əsrdə Qərb və Şərqin, o cümlədən Azərbaycanın həyatında baş verən ictimai-siyasi və mədəni tərəqqi sahəsindəki bütün dəyişikliklərdə bərabərhüquqluluq məsələsi də aktual olmuşdur.

1991-ci ildə Azərbaycan müstəqillik qazandıqdan sonra bərabərhüquqluluq məsələsi də daim diqqətdə olmuşdur. Bu nəzərdən ilk növbədə beynəlxalq qanunvericiliyə nəzər yetirək.

BMT-nin **Ümumdünya İnsan Hüquqları Bəyannaməsi**ndə deyilir: "Hər bir şəxs irqindən, rəngindən, cinsindən, dilindən, dinindən, siyasi və digər əqidəsindən, milli və sosial mənşəyindən, əmlak, sosial mövqe və digər vəziyyətindən asılı olmayaraq, bu Bəyannamədə elan olunmuş bütün hüquq və azadlıqlara malik olmalıdır" [19, s.280].

BMT Baş Assambleyası 1948-ci il dekabrın 10-da İnsan Hüquqlarının Ümumi Bəyannaməsini təsdiq etmişdir. 1993-cü il iyulun 25-də 171 dövlətin iştirakı ilə qəbul edilmiş Vyana Bəyannaməsində və Ümumdünya Konfransının fəaliyyət proqramında bir daha qeyd edildi ki, bərabər hüquqlar insan hüquqlarının əsas göstəricisidir. İnsan Hüquqları Bəyannaməsində cinsin birinin digərinə qarşı hər hansı zor işlədilməsi halları kəskin surətdə pislənilir. Bəyannamə dövlətləri xəbərdar edir ki, ailədə və cəmiyyətdə fiziki, cinsi və psixi zərər yetirə biləcək adət-ənənə və digər amillər aradan qaldırılmalıdır. Ailənin və uşaqların hüquqlarının müdafiə mexnizmi, onların hüquqi təlim və təhsili yüksəldilməlidir.

Bərabərhüquqluluq insan hüquqları anlayışında "Human rights of Women" kollektiv hüquq anlayışına aiddir. Kollektiv hüquq elə bir hüquqdur ki, onu ayrıca bir fərd deyil, kollektiv, birlik, millət həyata keçirir. Misal olaraq insanların sülh, özünümaliyyələşdirmə, sağlam ətraf mühitdə yaşamaq, cinsi, milli və yaş nöqteyi-nəzərindən ayrı-seçkilik aktlarından azad olmaq hüquqlarını göstərmək olar. İnsanların əsas hüquq və azadlıqdarı insan hüququnun şəxsi, siyasi, sosial, iqtisadi və mədəni sahələrini əhatə edir. Bu anlayışlar bir sıra konstitusiyaların məğzini təşkil edən əsas amillərdəndir.

San-Fransiskoda 1945-ci ildə imzalanmış BMT Nizamnaməsi cinsi bərabərhüquqluluq birliyini fundamental insan hüquqlarından biri kimi elan edən ilk beynəlxalq sazişdir. O dövrdən başlayaraq bütün dünyada bərabərhüquqluluq statusunu yüksəltməyə yönəlmiş strategiya standart proqram və məsələlərin

beynəlxalq aləmdə reallaşdırılmış tarixi ənənəsini yaratmağa kömək göstərmişdir. Uzun illər ərzində BMT-nın bərabərhüquqluluğun inkişafı yönündə fəaliyyəti dörd istiqamətdə aparılmışdır: 1) hüquqi tədbirlərin həyata keçirilməsi; 2) ictimai fikrin və beynəlxalq fəaliyyətin səfərbər olunması; 3) statistik məlumatların yığılması və təhlili; 4) imkansız qruplara birbaşa köməyin göstərilməsi [19, s.280].

Bərabərhüquqluluq vəziyyətinə nəzarət etmək və cinslərin hüquqlarının qorunmasına yardım etmək məqsədilə 1946-cı ildə BMT-nın "Qadınların statusu məsələsi üzrə" Komissiyası yaradılmışdır. Komissiyanın işi qadınlara kişilərlə bərabər hüquqlar verilməsindən imtina edilən bütün sahələrin aşkar edilməsi idi.

Avropa Şurasının "Kişi və qadınların bərabərliyi haqqında" Bəyannaməsi (16 noyabr 1988-ci il) Nazirlər Kabinetinin 83-cü sessiyasında qəbul edilmişdir. Bəyannamə "qadın və kişi bərabərliyini onun əsas insan haqlarından biri sayaraq, hər iki cinsin arzu, maraq və imkanlarına lazımi diqqətin ayrılmasından asılı olduğunu, cinsi diskriminasiyanın mövcudluğunu təsdiq edir" [19, s.281]. Bərabərhüquqluluğu bir daha qanunla təsbit edən bu bəyannamədə qeyd olunur: "Qanuna müvafiq olaraq kişi və qadınlara qarşı eyni münasibətlərin əldə edilməsi strategiyasını hazırlamaq, həmçinin fərdi qabiliyyətlərin və istedadların inkişafı üçün hüquq və imkanlardan istifadəyə münasibətdə bərabərliyin əldə edilməsi vacibdir". Bu strategiyaya görə, cinslər arasında de-fakto bərabərliyin əldə edilməsinin münasib ölçüləri: fərdi hüquqların müdafiəsini; cəmiyyətdə iştirakı; təhsil hüququnu; ailə və cəmiyyətdə zorakılığın ləğvini; uşaqların hüququnun qorunmasını; iqtisadi müstəqilliyin gücləndirilməsini; informasiyaya və bütün peşə ixtisaslarına girişi təmin edir" [19, s.282].

2. Bərabərhüquqluluq milli qanunvericilikdə

Azərbaycan Respublikası Konstitusiyasında bərabərlik hüququnun təsbit olunması. Azərbaycan Respublikası 1992-ci il avqustun 4-də BMT-nin "Qadınların siyasi hüquqları haqqında" Konvensiyasına qoşulmuşdur. Konvensiya "öz ölkəsinin idarə olunmasında hər kəsin bərabərliyi prinsipini həyata keçirməyi, kişilərin və qadınların vəziyyətinin bərabərləşməsini arzu edir" [19, s.282].

Azərbaycan Respublikası Konstitusiyası 1995-ci il noyabrın 12-də referendum yolu ilə qəbul olunmuş, həmin il noyabrın 27-dən qüvvəyə minmişdir. Konsitusiya ən ali qüvvəyə malik rəsmi sənəd olmaqla cinsi diskriminasiyanı qadağan edir. Konstitusiyanın 25-ci maddəsinin 2-ci bölümündə təsbit edilmişdir ki: "Kişi və qadınların eyni hüquqları və azadlıqları vardır", 3-cü bölümündə isə yazılmışdır: "Dövlət irqindən, milliyyətindən, dinindən, cinsindən, mənsubiyyətindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq hər kəsin hüquq və azadlıqlarının bərabərliyinə təminat verir. İnsan və vətəndaş hüquq və azadlıqlarını irqi, milli, dini, dil, cinsi, mənşəyi, əqidə, siyasi və sosial mənsubiyyətinə görə məhdudlaşdırmaq qadağandır". [1].

Azərbaycanda 1995-ci ildə ilk dəfə olaraq hər iki cinsin nümayəndələri bərabərhüquqlu rəqabət şəraitində Milli Məclisə seçkilərdə iştirak etmişdir. Bu seçkilər qadınların cəmiyyətdə hansı rol oynadığını açıq şəkildə göstərdi. Burada siyasi və dövlət strukturlarında qadın nümayəndəliyinin genişlənməsini tənzimləyən, qoruyan məqsədəuyğun qanun və ölçülərin olması vacib idi.

2016-cı il sentyabrın 26-da keçirilən referendumda Konstitusiyaya

əlavə və dəyişikliklər edildi, “Bərabərlik hüququ” adlanan 25-ci maddəyə 3 müddəa əlavə edildi [2, 10-11]. Əlavə və dəyişikliklərdən sonra Konstitusiyanın 25-ci maddəsinin 3-cü müddəası belə yazılmışdır: “Dövlət irqindən, etnik mənsubiyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq hər kəsin hüquq və azadlıqlarının bərabərliyinə təminat verir. İnsan və vətəndaş hüquqlarını və azadlıqlarını irqi, etnik, dini, dil, cinsi, mənşəyi, əqidə, siyasi və sosial mənsubiyyətə görə məhdudlaşdırmaq qadağandır” [2, 10].

Qadın hüquqları və azadlıqları Azərbaycan Respublikası Konstitusiyasının “Əsas hüquqlar: azadlıqlar və vəzifələr” bölməsinin 24-80-ci maddələrində əks olunmuş, dövlət tərəfindən bu hüquq və azadlıqların qorunmasına təminat verilmişdir. Burada əsas məsələ həyatın bütün sahələrində qadın və kişilərin təkcə bərabər imkanlarla təmin edilməsində deyil, ən əsası qadının sosial müdafiə obyektindən aktiv hərəkətdə olan şəxsiyyətə çevriləməsində, cəmiyyətdəki mövqeyinin köklü surətdə dəyişilməsindədir. “Bu siyasət patriarxal ənənəyə qarşı qoyulmalıdır ki, cəmiyyət demokratikləşsin” [2, 10-25].

Azərbaycan Respublikasının insana dair bütün qanunları (“Cinayət Məcəlləsi”, “Mülki Məcəllə”, "Əmək Qanunları Məcəlləsi", “Ailə Məcəlləsi”) Konstitusiya əsasında işlənib hazırlanmışdır. Bu qanunlar cinslərin bərabərlik hüquqlarını qoruyur, hətta qadınlar üçün “pozitiv diskriminasiya” hallarına da rast gəlinir. Məsələn, Konstitusiyada hərbi mükəlləfiyyət barədə heç bir məhdudiyyətin nəzərdə tutulmasına baxmayaraq (maddə 76), həkim tibbi personal istisna olmaqla, qadınlar hərbi xidmətə çağırılmırlar. Yaxud elə cinayətlər var ki, onlara görə yalnız kişilər cəzalandırılır, halbuki bu cinayətləri (zorlama, cinsi əlaqəyə məcbur etmə, nikaha daxil olmağa məcbur etmə və ya nikaha daxil olmağa mane olma, poliqamiya, homoseksualizm və s.) qadınlar da törədə bilər [19, s.283]. Cinayətkara cinsə görə “güzəşt” olunmamalıdır. Digər bir misal isə yenə qadınlara ömürlük həbs cəzasının tətbiq edilməməsi halını göstərə bilərik. Bu kimi hallar qanunvericilikdə məhz kişilərə qarşı ayrı-seçkilik xarakterli məqamlar olub, “pozitiv diskrinimasiya” adlansa da, bütün hallarda gender bərabərliyi gözlənilməlidir.

Əmək Məcəlləsinə gender hüquq yanaşması. Azərbaycan Respublikası Konstitutsiyasının əmək hüququnu təsbit edən 35-ci maddəsində qeyd edilir: “Əmək fərdi və ictimai rifahın əsasıdır” [9, 14]. Azərbaycan Respublikasının Əmək Məcəlləsi hər kəsin əməyə olan qabiliyyəti əsasında sərbəst surətdə özünə fəaliyyət növü, peşə, məşğuliyyət və iş yeri seçmək hüququnu təsdiq edir [9, 17].

Ailənin, qadınların, o cümlədən 16 yaşına qədər uşaqları olan çoxuşaqlı qadınların əmək hüququ və sosial müdafiəsi Azərbaycan Respublikasının Konstitusiyasında, Əmək Qanunları Məcəlləsində, “Məzuniyyətlər haqqında”, “Vətəndaşların pensiya təminatı haqqında”, “Azərbaycan Respublikasında əhalinin məşğulluğu haqqında” qanunlarda və digər aktlarda nəzərdə tutulmuşdur.

Ailə Məcəlləsi: ailə və nikah hüququ. Ailə cəmiyyətin xüsusi özəyi və əsasıdır. “Ailə” anlayışı sosioloji və hüquqi ədəbiyyatda müxtəlif cür izah edilir.

Sosioloji mənada ailə nikaha, qohumluğa, uşaqların tərbiyə üçün götürülməsinə, qarşılıqlı birgə həyat mənafeyinə əsaslanan insanların ittifaqıdır. Dövlətin inkişafında onu formalaşdıran insanlar,

insanların yetişməsində isə ailə mühüm rol oynayır. Ailə münasibətlərinin tənzimlənməsi əsasən adət-ənənələr çərçivəsində mənəvi normalarla birlikdə hüquqi aktlarda da qərarlaşır. Ailədə qadın da əsas aparıcı funksiya daşıyıcısıdır. Əsrlərlə ailəyə kişi maddi, qadın mənəvi istiqamətdə dayaq durub. Lakin tədricən qadın azadlığı, qadın hüquqlarının qorunması ailədə də kişi-qadın bərabərliyini qanuniləşdirib.

Azərbaycan Respublikası Konstitusiyasının iki maddəsi ailə hüququ münasibətlərinə həsr olunub. 17-ci maddənin I müddəasında cəmiyyətin əsas özəyi olan ailənin dövlət tərəfindən müdafiəsi (hətta "xüsusi" sözü ilə) qeyd olunub: "Cəmiyyətin əsas özəyi kimi, ailə dövlətin xüsusi himayəsindədir [1, 8]. Göründüyü kimi, ailə eləcə də əsas olaraq ailə başçılarından biri sayılan qadınların hüquqları konstitusion əsasla təsbit olunub. Cinslər nikaha 18 yaşında daxil ola bilərlər. "Ailə və nikah haqqında" Qanunlar Məcəlləsinin 3-cü maddəsi ilə kişi ilə qadının şəxsi əmlak hüquqlarına malik olması müəyyənləşdirilib. Beynəlxalq hüquq normalarına müvafiq olaraq Azərbaycan qanunvericiliyində ailədə tam bərabərlik təmin edilməlidir. Ənənəvi olaraq soyad, yaşayış yeri və s. irsi (partimonial) əsaslarla həll edilir.

Azərbaycan Respublikasının Ailə Məcəlləsi 7 bölmə, 20 fəsil, 156 maddədən ibarətdir. 3-cü bölmə, VI fəsil, 29 və 30-cu maddələr ər-arvadın hüquq və vəzifələrinə həsr olunmuşdur. 29-cu maddənin 1-ci bəndində qeyd edilir: "Azəbaycan Respublikası Konstitusiyasında təsbiq edilmiş qadın və kişinin hüquq bərabərliyinə uyğun olaraq ər və arvad ailə münasibətlərində bərabər şəxsi və əmlak hüquqlarına malikdirlər" [8, 17]. Analıq-atalıq, uşaqların tərbiyəsi və təhsili, eləcə də ailənin digər məsələləri ər-arvad hüquq bərabərliyi prinsipinə uyğun olaraq birgə həll edilir. Nikah zamanı ər-arvad tərəfindən qazanılmış, əldə edilmiş əmlak ümumi şəxsi mülkiyyət hesab olunur. Boşanma birinin və ya hər ikisinin təşəbbüsü ilə həyata keçirilə bilər, nikah yalnız məhkəmə tərəfindən pozula bilər.

Ailələrin inkişaf dinamikasına nəzər yetirdikdə məlum olur ki, nikahların illik sayı artsa da, boşanmalar çoxalır. Ailənin yükünü, məsuliyyətini daşımaq, ailəni saxlamaq üçün imkanlar da əsas səbəbdir. Digər bir səbəb isə cavanların digər ölkələrə tək gedib, cüt qayıtmasıdır ki, bu da bir sıra hallarda səbəb kimi əsas gətirilir. İlk növbədə, yaşayış üçün qeydiyyata düşmək və daha sonra öz təhlükəsizliyinə yerləşdiyi ərazidə kəbinə təminat almaq da səbəblərdəndir. Buradaca çox incə bir mətləbdə təəssübkeşlik hissinin getdikcə zəifləməsi, qızlarımızın taleyinə biganəlik, onların tənhalığı, ləyaqətinin əks cins tərəfindən sayılmaması kimi xarakterik halları da sadalamaq olar. Bu baxımdan belə nəticəyə gəlmək olar:

- insan haqlarına, demokratik prinsiplərə riayət baxımından bütün qanunlara əməl edilməsi, yuxarıda qeyd edilənləri əsas götürməklə müəyyən çıxış yollarının tətbiq edilməsi vacibdir;

- nikah azadlıq, müstəqillikdir. Lakin ailədə münasibətlərin, ailə vəziyyətinin tənzimlənməsi, ailə-nəsil artımında hər ölkə üçün gərəklidən gərəklidir;

- qeyri-millətdən olan gəlinlər ötən illərin təzahürüdürsə, qeyri-millətdən olan kürəkənlərin getdikcə artması halları da reallıqdır. Bunun isə həm müsbət, həm də mənfi cəhətləri vardır.

Seçki hüququ. Azərbaycan Respublikası Konstitusiyasının 56-ci maddəsində qeyd edilir: "Azərbaycan Respublikası vətəndaşlarının, dövlət orqanlarına seçmək və seçilmək, habelə referendumda iştirak etmək hüququ vardır" [1, 19]. Qadınların dövlət idarəetmə strukturlarında bərabər hüquqlarla işti-

rak etmək və işləmək hüququ isə “Milli Məclisə seçkilər haqqında” və “Prezident seçkiləri haqqında” qanunlarda da nəzərdə tutulmuşdur.

Təhsil hüququ. Azərbaycan Respublikası Konstitusiyasının 42-ci maddəsində qeyd edilir: “Hər bir vətəndaşın təhsil almaq hüququ vardır” [1, 16]. Bu da qadınla kişi arasında təhsil sahəsində hüquq bərabərliyi yaradır. “Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu da bu istiqaməti təsdiq etmişdir.

Sağlamlıq hüququ. Azərbaycan Respublikası Konstitusiyasının 39-cu maddəsi “Hər kəsin sağlam ətraf mühitdə yaşamaq hüququ vardır” [1, 15] müddəası ilə tənzimlənmiş, 41-ci maddəsi isə “Sağlamlığın qorunması hüququ” [1, 16] kimi təsbit olunmuşdur. Hər kəsin ətraf mühitin əsl vəziyyəti haqqında məlumat toplamaq hüququ ilə bərabər, hər kəsin sağlamlığını qorumaq və tibbi yardım almaq hüququ da vardır. İqtisadiyyatın, texnikanın inkişafı eyni zamanda ekologiyaya da öz təsirini göstərir. Torpaqların erroziyası, suyun çirklənməsi, meşələrin qırılması, heyvanların bəzi növlərinin yer üzündən silinməsi, flora və faunada baş verən bütün bu dəyişikliklər cəmiyyətə də təsir edir, həmçinin insanların mənəviyyatına da təsirsiz qalmır. Bütün bunlar isə müxtəlif xəstəliklər törədir, insan sağlamlığına kəskin təsir göstərir. Bu mənada insanın sağlamlığının qorunması üçün ekoloji tarazlıq pozulmamalıdır.

Azərbaycan Respublikası Konstitusiyasının 41-ci maddəsinə görə “hər kəsin öz sağlamlığını qorumaq və tibbi yardım almaq hüququ vardır” [1, 16]. Sağlamlıq öz hüquqlarını və istəklərini həyata keçirmək üçün mühüm vasitədir. Səhiyyə sahəsində insanların sağlamlığını tənzimləyən əsas qanunlardan biri də 1997-ci ildə qəbul edilmiş “Əhalinin sağlamlığının qorunması” haqqında Azərbaycan Respublikasının Qanunudur.

3. Ulu öndər Heydər Əliyevin gender siyasəti

Gender rolunun dövlət siyasətinə daxil edilməsi strateji proqramların da təkmilləşdirilməsi baxımından çox mühüm əhəmiyyət kəsb edir. Gender bərabərliyi davamlı inkişafın təmini və Azərbaycanda aparılan islahatlar aspektində yeni idarəçiliyin qurulmasında zəruri olan şərtlərdən biridir.

Ulu öndər Heydər Əliyevin 14 yanvar 1998-ci il 668 №-li Fərmanı ilə Azərbaycan Respublikasında Qadın Problemləri üzrə Dövlət Komitəsi yaradılmışdır [4].

“Azərbaycan Respublikasında dövlət qadın siyasətinin həyata keçirilməsi haqqında” Ulu öndər Heydər Əliyev tərəfindən imzalanan 2000-ci il 6 mart tarixli Fərman da [4] qadınların rəhbərlik səviyyəsində kişilərlə bərabər təmsil olunmasını, gender siyasəti tələblərini rəhbər tutmaqla qadınlar üçün kişilərlə bərabər imkanlar yaradılmasını təmin etməyi, o cümlədən qaçqın və məcburi köçkün qadınların məşğulluğunun təmin edilməsi məqsədilə onların münasib işlə təmin edilməsi proqramını hazırlayıb həyata keçirməyi; qadınların hüquqlarının müdafiəsinin gücləndirilməsi məqsədilə mövcud qanunvericiliyi təhlil edib, təkliflər verməyi nəzərdə tutur. Bu Fərman siyasi qərarların qəbul edilməsində, qadınların imkanlarının genişləndirilməsində dövlət strategiyasının əsas təməlidir və qanunvericiliyin gender ekspertizasının keçirilməsini, ölkənin bütün dövlət strukturlarında qadınların kişilərlə eyni səviyyədə təmsilçiliyi nəzərdə tutur.

6 mart 2000-ci il tarixində Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən “Azərbaycan Respublikasının Qadın Problemləri üzrə Milli Fəaliyyət Planı” təsdiq edilmişdir. Bu proqram milli prioritetləri nəzərə alaraq, 1995-ci ildə Pekində keçirilən Qadınların IV Ümumdünya Konfransının qəbul etdiyi Pekin Fəaliyyət

Platforması (PFP) əsasında hazırlanmışdır. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 26 sentyabr, 176 saylı Qərarında gender məsələləri üzrə məsul şəxslərin təyin edilməsi ilə bütün dövlət qurumları və digər təşkilatların gender bərabərliyinin təmin edilməsi ilə bağlı fəaliyyəti də təkmilləşdirildi.

2006-cı ildə Qadın Problemləri üzrə Dövlət Komitəsinin bazasında üç vacib istiqaməti ehtiva edən yeni dövlət strukturu - Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi təsis edildi [5]. Prezident İlham Əliyev 9 avqust 2006-cı il tarixli Fərmanla "Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi" haqqında Əsasnaməni təsdiq etmişdir. Qadın hüquq və azadlıqlarının müdafiəsi qadınların sosial-iqtisadi həyatda aktivliyi ilə yanaşı, uşaqların və ailə institutunun formalaşması prosesinə, onların inkişafına təkan vermişdir. Bu reallıqda yeni strukturun fəaliyyət istiqamətinin genişlənməsi həm də ölkədə demokratik ailə, qadın, uşaq gender institusional prosesinin təzahürü və hüquqi dövlət quruculuğunun bir təkamül mərhələsinin məntiqi idi.

Prezident İlham Əliyevin 2010-cu il mayın 24-25-də Bakıda keçirilmiş Avropa Şurasına üzv dövlətlərin gender bərabərliyinə həsr olunan VII konfransına göndərdiyi müraciətdə qeyd olunur: "Müstəqil Azərbaycan Respublikasında milli qanunvericilik qadınların hüquq bərabərliyini təmin edərək hər cür ayrı-seçkiliyin qarşısını almağa xidmət göstərir, gender məsələləri ilə bağlı dövlət siyasəti isə qadınların bərabər imkanlarının gerçəkləşdirilməsinə yönəlmişdir" [3].

4. Müasir Azərbaycanda gender siyasəti

Müstəqil Azərbaycan Respublikasında qadın hüquqları və gender bərabərliyi sahəsində 150-dən çox qanunvericilik aktı təsdiq edilmişdir. Bu sıradan gender hüquqlarının qorunmasında 22 iyun 2010-cu il tarixində qəbul edilmiş "Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikasının Qanunu da mühüm əhəmiyyət kəsb edir.

Gender kontekstli milli qanunvericilikdə əsas nailiyyətlərdən biri də Azərbaycan Respublikasının Milli Məclisində Ailə, Qadın və Uşaq Məsələləri Komitəsinin yaradılması oldu. Prezident İlham Əliyev 2006-cı il oktyabrın 10-da "Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında" Azərbaycan Respublikasının Qanununu imzalamışdır [17].

Ölkədə reallaşdırılan bir sıra mühüm tədbirləri - Azərbaycan Qadınlarının I (1998-ci il), II (2003-cü il), III (2008-ci il), IV (2013-cü il) qurultaylarını, "Azərbaycan qadınına seçki hüququnun verilməsinin 100 illiyinə həsr olunmuş Qadınların V Beynəlxaq Forumunu (2018-ci il), Avropa Şurasının məsul nazirlərinin qadınlar və kişilər arasında bərabərlik məsələlərinə həsr olunan "Gender bərabərliyi: de-yure və de-fakto gender bərabərliyinin təmin olunması" mövzusunda keçirilən VII konfransını (2018-ci il), Ulu öndər Heydər Əliyevin 100 illiyinə həsr edilən VI Qadınlar Qurultayını (19 oktyabr 2023-cü il), Qoşulmama Hərəkatının Bakıda keçirilən "Qadınların hüquqlarının inkişaf etdirilməsi və səlahiyyətlərinin artırılması" konfransını (20 noyabr 2023-cü il) və s. qeyd etmək vacibdir.

Bəs müasir Azərbaycanda digər sahələrdə gender siyasəti necə həyata keçirilir? 2023-cü ilin əvvəlinə olan məlumat görə, ölkə əhalisinin 50,2%-ni qadınlar, 49,76 %-ni kişilər təşkil edir. Dövlət qulluğunda çalışanların 28 %-i qadın, 72%-i kişidir [14].

Azərbaycanda qadın sahibkarların sayı əhəmiyyətli dərəcədə artıb. 2019-cu il oktyabrın 1-nə olan məlumata görə, qeydiyyatda olan qadın sahibkar-

ların sayı yüz doxsan altı min otuzdur (196 030), 2012-ci ildə bu rəqəm yetmiş üç min dörd yüz altmış doqquz (73 469) olub. 2022-ci ildə ölkədə 1 milyon 168 min sahibkar olub ki, onun da 250 mindən çoxu qadındır [15]. Bu, ölkədə qadınların əmək bazarında kişilərlə bərabərhüquqlu iştirakına imkan yaradılması, onların idarəetmə, biznes və hakimiyyət strukturlarında daha geniş təmsil olunması ilə nəticələnir. Əsas məqsəd qadınlarda özünəinam hissini artırmaq, həm öz icmasına, həm də cəmiyyətə töfhə verə bilməsinə şərait yaratmaqdır. Buna nail olmaq üçün kiçik və orta biznesin dəstəklənməsi prosesində gender ehtiyaclarının ödənilməsi üçün kompleks qiymətləndirmələr aparılır.

Xarici İşlər Nazirliyinin diplomatik nümayəndəliklərində və konsulluqlarında rəhbər vəzifədə çalışan qadınların sayı 2, kişilərin sayı isə 210-dur. Nazirliyin Mərkəzi Aparatında 119 nəfəri qadın olmaqla 329 nəfər işçi çalışır. Səfirlərin isə 2-si qadın, 56-sı kişidir. Baş konsullardan 1-i qadın, 5 nəfəri kişidir [11].

Azərbaycanda gender siyasətinin ən vacib tərəflərdən biri də seçkili orqanlarda, idarəetmə strukturlarında qadınların sayının getdikcə artmasıdır. Milli Məclisdə qadın millət vəkillərinin sayı da getdikcə çoxalır. 1990-cı ildə deputatların 335-i kişi, 15-i qadın idisə (yəni 4,3% qadın, 95,7% kişi), 1995-cı ildə bu rəqəm 15 qadın, 109 kişi olmuşdu (yəni 12,1% qadın, 87,9% kişi). 2020-cı ildə deputatların cins tərkibi belə idi: 22 qadın, 99 nəfər kişi (yəni18,2% qadın, 81,8% kişi) [11].

2020-ci ilin fevralında parlamentə spikerlik qadın sədrə həvalə olunmuşdur. Qeyd edək ki, 1991-ci ilin oktyabr ayından 1992-ci ilin mayınadək olan dövrdə keçmiş Azərbaycan Ali Sovetinin sədri qadın olmuşdur.

Bundan başqa, Azərbaycan Mili Elmlər Akademiyasında çalışanların yarıdan çoxunu qadınlar təşkil edir. AMEA-da fəaliyyət göstərənlərin üç nəfər vitse-prezidenti qadın, akademiklərin 7-si qadın, müxbir üzvlərin 9-u qadındır. Elmlər doktorları arasında 297 nəfər, fəlsəfə doktorları arasında 2938 nəfər qadındır [12].

5. Prezident İlham Əliyevin gender siyasəti

Ulu öndər Heydər Əliyev siyasətinin davamçısı, Prezident İlham Əliyev də bu strategiyanı XXI əsrin tələblərinə uyğun genişləndirərək ölkədə gender balansının qorunub saxlanılması istiqamətində həm milli qanunvericilik bazasında, həm də praktiki yönümdə təkmilləşdirmələrə, yeni modern yönümlü islahatlara imza atmışdır. Belə ki, yuxarıda qeyd etdiyimiz Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2006-cı il 10 oktyabr tarixdə imzaladığı “Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında” qanun, eləcə də 1 aprel 2008- ci il tarixli “Gender (kişi və qadınların) bərabərliyinin təminatları ilə bağlı “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanunu gender siyasətinin respublikada həyata keçirilməsinin kulminasiya zirvəsidir. Bu qanunlar kişi və qadınlar üçün siyasi, iqtisadi, sosial, mədəni və ictimai həyatın bütün sahələrində bərabər imkanları təmin edir, gender əsaslı ayrı-seçkiliyin aradan qaldırılmasının vacibliyi qanunla təsbit edilir.

Prezidentin 6 fevral 2006-cı il tarixli “Ailə, Qadın və Uşaq problemləri üzrə Dövlət Komitəsinin yaradılması haqqında" Fərmanı Ulu öndər Heydər Əliyevin gender siyasətinin daha da möhkəmləndirilməsinin bariz göstəricisidir. 2008-ci ildə Heydər Əliyev Fondu ilə AİlƏ, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və BMT-nin Əhali Fondu arasında “XXI əsrdə qadınlara qarşı zorakılıq əleyhinə” birgə layihənin imzalanması ölkədə bu problemin öyrənilməsinə dövlət səviyyəsində olan münasibəti müəyyən etdi.

Xüsusilə qeyd edək ki, 2009-cu ildə Konstitutsiyaya əlavə və dəyişikliklərlə bağlı keçirilən referendiumda Ali Qanunun 17-ci və 25-ci maddələrinin (ailə, qadın və uşaq problemləri ilə bağlı bəndləri) daha da təkmilləşdirilməsi faktı da gender siyasətinin daim diqqətdə saxlanılmasının bariz nümunəsidir.

2008-ci il sentyabrın 26-da Azərbaycan Qadınlarının III Qurultayı keçirildi. Qurultaya Prezident İlham Əliyevin təbrik məktubu və ölkənin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın çıxışı da respublikada gender siyasətinin tənzimlənməsi istiqamətində görülən işlərə dövlət münasibətidir. Prezident çıxışında qeyd etdi: "Mən öz fəaliyyətimdə hər zaman sizin diqqət, qayğı və dəstəyinizi hiss edirəm" [6]. Qurultayda Mehriban xanım Əliyevanın çıxışında müəyyən gender əsaslı problemlərin həm müsbət, həm də çatışmayan cəhətlərini açıb göstərməsi də diqqət yönəldiləcək faktdır.

Qeyd edilənlər Prezident İlham Əliyev tərəfindən 2009-cu ilin "Uşaq ili" elan edilməsinə gətirib çıxartdı. Müasir Azərbaycanda gender siyasətindən bəhs edərkən problemin hər mərhələdə siyasi tarixi inkişaf xəttini açıqlamağı zəruri hesab edirik.

6. Birinci vitse-prezidentlik institutu

XX əsrdə Azərbaycanda qadın məsələsi istər ictimai-siyasi, istərsə də hüquqi zəmində öz formalaşmasının ən vacib istiqamətlərini gerçəkləşdirdi. XXI əsrdə isə Prezidentin kreativliyi əks etdirən fərman və sərəncamları ölkədə gender strategiyasını təmin etdi. Prezident İlham Əliyevin 21 fevral 2017 ci il tarixli Fərmanı [7] nəinki regionda, həm Şərq və Avrasiya məkanında gender siyasətinin kulminasiya nöqtəsi oldu. Azərbaycanın ilk Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva təyin olundu. Bu təyinat Cümhuriyyət dövründən günümüzədək gələn bərabərhüquqluluq yolunun ən ali statusu, Ulu öndər Heydər Əliyevin əsasını qoyduğu dövlət gender siyasəti strategiyasının ən yüksək zirvəsi, gender tarixinin örnək nümunəsi oldu. Mehriban xanım Əliyevanın çoxşaxəli və genişmiqyaslı fəaliyyəti də cəmiyyətdə gender mədəniyyətinin bariz nümunəsidir.

7. Azərbaycanda gender siyasəti üzrə statistika

Ölkədəki gender mənzərəsinə diqqət yetirərkən aşağıdakı təsvir alınır:

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti qadındır. Son illər nazir müavini təyin edilən qadınların sayı 7-yə çatıb, 1 qadın icra hakimiyyəti başçısı və 68 qadın icra hakimiyyəti başçısının müavinidir. Hakim qadınların sayı 89 nəfərdir. Prokuror qadınların sayı 9-dur. 2 qadın səfir və 1 qadın konsuldur. 2021-ci ilin əvvəlində dövlət qulluğu vəzifələrini tutmuş işçilərin 27,5 faizini qadınlar, 72,5 faizini kişilər təşkil etmişdir. Qadınların 36,1 faizi, kişilərin isə 63,9 faizi ali - 3-cü təsnifatlar üzrə inzibati vəzifələri, qadınların 23,2 faizi, kişilərin isə 76,8 faizi 4-7-ci təsnifatlar üzrə inzibati vəzifələri, qadınların 40,1 faizi, kişilərin isə 59,9 faizi dövlət qulluğunun yardımçı vəzifələrini tutur. 2000-ci ildə qadın millət vəkilləri 10,7 faiz təşkil edirdisə, 2020-ci ildə onların xüsusi çəkisi 18,3 faiz olmuşdur. 2004-cü ildə keçirilən bələdiyyə seçkilərində bələdiyyə üzvü olan qadınlar 4 faiz idisə, 2019-cu ildə bu göstərici 39 faizə çatmışdır.

Ölkə üzrə iqtisadi fəal və məşğul əhalinin tərkibində kişilərin sayı qadınların sayına nisbətən bir qədər çoxdur. Belə ki, məşğul əhalinin 48,2 faizini və işsiz əhalinin 57,5 faizini qadınlar təşkil edir. İqtisadi fəal əhalinin 48,9 faizi qa-

dındır. Qadınların sayı kişilərin sayından üç fəaliyyət növündə - səhiyyə və sosial xidmətlərin göstərilməsində (55,2 faiz), təhsildə (46,6 faiz), istirahət, əyləncə və incəsənət sahəsində (24,0 faiz) çoxdur.

Azərbaycanda hər 100 təhsil alana 47 qadın və 53 kişi düşür. Bütövlükdə savadlılıq 100 faizə çatdırılıb. 15 və yuxarı yaşlı qadınlar arasında savadlılıq 99,8 faiz, kişilər arasında isə 99,9 faizdir. Ümumi təhsil müəssisələrində qadınlar 80,1 faiz, orta ixtisas təhsil müəssisələrində 78,9 faiz, ali təhsil müəssisələrində 52,0 faiz təşkil edir [13].

Azərbaycan BMT-nin üzvü olan dövlətlərin 2015-ci ilin sentyabr ayında keçirilən Dayanıqlı İnkişaf Sammitində dünya liderləri tərəfindən qəbul edilmiş "2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəlik"də əks olunan 17 məqsədi və 169 hədəfi özündə birləşdirən qlobal Dayanıqlı İnkişaf Məqsədlərinə qoşulmuşdur. "Heç kimin kənarda qalmaması prinsipi və universal xarakter daşıyan bu yeni məqsədlər Minilliyin İnkişaf Məqsədlərinin əldə etdiyi nəticələrə əsaslanır və növbəti inkişaf istiqamətlərini müəyyənləşdirir. Dayanıqlı İnkişaf Məqsədlərinin 5-ci məqsədi gender bərabərliyinə nail olmağa, həmçinin bütün qız və qadınların səlahiyyətlərini artırmağa həsr olunmuşdur. BMT-nin 'MAPS' - Gündəliyinə daxil edilməsi, Dayanıqlı İnkişaf Məqsədləri ilə bağlı fəaliyyəti sürətləndirmə və siyasətə dəstək" [16] qrupu tərəfindən Azərbaycanın gender bərabərliyinin təmin edilməsi sahəsində apardığı siyasətin dayanıqlı inkişaf məqsədləri ilə 97 faiz uzlaşdığı müəyyən edilmişdir.

Bütün yuxarıda qeyd olunan məntiqi silsilə ilə verilmiş, gender strategiyasını tənzimləyən fərman və sərəncamlar Ulu öndər Heydər Əliyev dühasının gender mədəniyyətinə, ailəyə, qadına və uşağa qayğısı, milli inkişaf strategiyasının bariz göstəricisidir. Adları sadalanan qanunlar Ulu öndər Heydər Əliyev siyasəti zəminində strateji məqsəd kimi həyata keçirilir. Diqqətə yetirdiklərimizi Prezident İlham Əliyevin fikirləri ilə əsaslandıraq: "Biz qadınları qorumalıyıq, onlar bizi yox. Gender bərabərliyi var, biz də bunu qəbul edirik. Bu amil ölkəmizin normal demokratik inkişafının təzahürüdür" [6].

Nəticə

- Ulu Öndər Heydər Əliyev tərəfindən Azərbaycan qadınlarının rolunun artırılmasına dair 1998-ci il tarixli Sərəncamı və ölkədə dövlət qadın siyasətinin həyata keçirilməsinə dair 2000-ci il tarixli Fərmanı vacib və mühüm sənəd, gender bərabərliyinə nail olmaq üçün əsas normativ milli hüquqi bazadır. Ölkədə başlayan milli inkişaf çərçivəsində, gender siyasəti həm də hazırkı dövrədək öz institutlaşma mərhələsini keçib. İlkin dövrdə gender probleminin qanunvericilik bazası hüquqi əsasda tənzimlənib;

- Rəsmi dövlət strukturu fəaliyyətə başlayıb;

- Təbliğat və təşviqat işinə rəvac verilib;

- Müxtəlif profilli, bu sahə ilə bağlı QHT-lər təsis edildi;

- Tədrisdə problemə aid dərsliklər, metodik vəsaitlər hazırlandı;

- Təlimdə gender mədəniyyəti prioritet məsələyə çevrildi;

- KİV-də gender münasibətləri əsas diqqət yetirilən məsələlərdən biri oldu;

- Elmi-tədqiqat, araşdırma mərkəzləri yaradıldı;

- Problemə aid kitab, buklet, məcmuələr nəşr olundu, dissertasiyalar yazıldı.

Azərbaycan Respublikasının Konstitusiyası və milli qanunvericiliyinin siyasi-hüquqi və gender ekspertizasına yekun vuraq:

- Beləliklə, Ulu öndər Heydər Əliyevin gender sahəsində atdığı addımlar Prezident İlham Əliyev tərəfindən davam

etdirilərək “Gender bərabərliyinin təmin olunması haqqında” Qanunun imzalanması ilə regionda analoqu olmayan gender institutlaşmasını kulminasiya nöqtəsinə çatdırdı. Bu isə uzun illər Qərb dünyasında Şərq-müsəlman qadınına, ailəsinə olan ikili yanaşmanı da dəyişdirməyə səbəb oldu.

- Azərbaycanda gender siyasətinin həyata keçirilməsini özündə ehtiva edən bir çox hüquqi-normativ akt, sənəd, fəaliyyət planı, dövlət proqramı qəbul edildi. Bu qəbul edilən və yeni hazırlanan qanun və normativ-hüquqi aktlar gender ekspertizasından keçirilir. Bu, çox vacibdir, çünki gender bərabərliyinin təmin edilməsi istiqamətində bəzi hallarda boşluqlar müəyyən olunurdu. BMT-nin “2000-2015-ci illəri əhatə edən Minilliyin İnkişaf Məqsədləri” sənədinin 3-cü məqsədində “Cinslərarası bərabərliyin təmin olunması və qadın hüquqlarının genişləndirilməsi” nəzərdə tutulmuşdur.

- Qadın hüquqlarının müdafiəsi, məişətdə xüsusilə qadınlara qarşı zorakılığın qarşısının alınması baxımından 2010-cu il iyunun 22-də qəbul edilmiş “Məişət zorakılığının qarşısının alınması haqqında” Azərbaycan Respublikası Qanununun mühüm əhəmiyyəti var. Nikah yaşının qadın və kişilər üçün bərabərləşdirilməsi və nikahdan əvvəl tibbi müayinənin icbari olmasına dair ailənin qadının nikaha daxil olmağa məcburetmə ilə əlaqədar məsuliyyətinin müəyyən edilməsi ilə bağlı Cinayət Məcəlləsinə dəyişikliklər edilmişdir.

“Azərbaycan 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyasına əsasən “Gender bərabərliyi üzrə Milli Fəaliyyət Planı”nda əks olunur:

- “Uşaqların doğulanadək cins seçiminin qarşısının alınmasına dair 2020-2025-ci illər üçün tədbirlər” və “Azərbaycan Respublikasında məişət zorakılığı ilə mübarizəyə dair 2020-2023-cü illər üçün Milli Fəaliyyət Plan”larının qəbulu və müvafiq qurumların qarşısında vəzifə və öhdəliklərin qoyulması da ölkədə gender bərabərliyinin təmin olunmasına xüsusi töhfə vermişdir.

- Azərbaycan milli qanunvericiliyi ixtisas, sənət, peşə və həyat tərzinə görə fərqləndirmədən, heç bir cinsi ayrı-seçkilik etmədən hər kəsin hüququnu qoruyur. Məhz buna görə də Azərbaycan kişi-qadın bərabərliyini tənzimləyən beynəlxalq humanitar aktlara qoşulmuşdur.

- Qanunlar dünyanın tələblərinə uyğun müəyyənləşdirilməklə yanaşı, milli xüsusiyyətləri də özündə əks etdirir. Bu məqsədlə müəyyən halların qanunvericilikdə bu və ya digər hüquqi formada əks olunması gender siyasətinə uyğunlaşdırılmışdır;

- Dünyanın yeni düzəni əsasında demokratik formullar yaranır ki, məhz onlar da cəmiyyətdə və müasir dünyada qadınların rolunun artırılmasına təkan olur;

- Dövlətin bərabərlik hüququ siyasətinin əsas aspektində ciddi müzakirə olunan əxlaq və mənəviyyatda, cinslərin baxış və ənənələrində cəmiyyətin fikirlərinin onlara qarşı hörmət ruhunda formalaşması, aqressivliyə və başqa qorxulu sosial deformasiyalara üstün gəlinməsi də qanunlarda nəzərdə tutulmalıdır;

- Milli Məclisdə müzakirə olunan qanunların daim gender ekspertizasının aparılması məqsədəuyğundur (KİV, onlayn, oflayn, saytlar və sosial şəbəkələr və s.).

- Bütün beynəlxalq və milli qanunvericilikdə gender aspektinin olmasına baxmayaraq, bərabərlik hüquqlarının müdafiəsi, problemin həllinin aktuallığı, dəyişən zaman yenilənmələrinə uyğun olaraq qanunların da yenilənməsi zəruridir.

- XXI əsrdə suveren və konstitusion Azərbaycanda ümumbəşəri inkişaf yolunda və cəmiyyətin tərəqqisində cinslərin bərabərhüquqluluq rolu daha da artmışdır.

İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT:

1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, 2020. Azərbaycan Respublikası Milli Məclisinin nəşri. 62 s.
2. Azərbaycan Respublikasının Konstitutsiyası. Bakı: Qanun, 72 s.
3. Avropa Şurasına üzv dövlətlərin gender bərabərliyinə həsr olunmuş VII konfransının iştirakçılarına /24 may 2010-cu il/ - https://president.az/az/articles/view/111/print
4. “Azərbaycan Respublikası dövlət qadın siyasətinin həyata keçirilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin Fərmanı /06.03.2000/ - https://e-qanun.az/framework/597
5. “Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi haqqında” Azərbaycan Respublikası Prezidentinin Fərmanı. /06.02.2006/ http://e-qanun.az/files/framework/
6. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev: "Biz qadınları qorumalıyıq, onlar bizi yox" /27.11.2019/ - https://www.bbc.com/azeri/azerbaijan-50569377
7. “M.A.Əliyevanın Azərbaycan Respublikasının Birinci vitse-prezidenti təyin edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. /21 fevral 2017-ci il/ - https://president.az/az/articles/view/22850
8. Azərbaycan Respublikasının Ailə Məcəlləsi. Bakı, 2000
9. Azərbaycan Respublikasının Əmək Məcəlləsi. Bakı, 1999
10. Azərbaycan Qanunvericiliyinin gender ekspertizası. Bakı, 1999
11. Azərbaycan Respublikası Ailə Qadın Uşaq Problemləri Dövlət Komitəsinin 2022-ci il üzrə məlumatı. Bakı, 2023
12. Azərbaycanda akademiklərin sayı azalır /06.10.2023/ - https://sfera.az/tehsil/231653/azerbaycanda-akademiklerin-sayi
13. Azərbaycanda kişilər və qadınların “gender göstəriciləri. /17.10.2023/ - stat.qov.az/source/gender.
14. Azərbaycanda sahibkar və sürücü qadınların sayı artır - mühüm statistikalar açıqlandı. /07.03.2023/ - https://marja.az/100002/azerbaycanda-sahibkar-ve-surucu-qadinlarin-sayi-artir-muhum-statistikalar-aciqlandi
15. Azərbaycandakı qadın sahibkarların sayı açıqlandı /14.12.2022/ - https://banker.az/az%C9%99rbaycandaki-qadin-sahibkarlarin-sayi-aciqlandi/
16. Buklet: Dayanıqlı İnkişaf Məqsədləri. /18.06.2018/ - https://azerbaijan.un.org/az/51205-buklet-dayan%C4%B1qlI%C4%B1-i%CC%87nki%C5%9Faf-m%C9%99qs%C9%99dl%C9%99ri
17. “Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında” Azərbaycan Respublikasının Qanunu. /10 oktyabr 2006/ - https://e-qanun.az/framework/12424
18. İnsan hüquqları haqqında Beynəlxalq Bill. Bakı, 1998
19. Mirzəzadə R. İnsan hüquqları. Gender. Siyasət. Cəmiyyət. Bakı: Adiloğlu, 2003, - 420 s.
20. Mirzəzadə R. Multikulturalizm siyasəti: Din və gender dialoqunda. Bakı, 2013, 211 s.

Rana Mirzazadeh

EQUALITY OF RIGHTS IN SOVEREIGN AZERBAIJANI CONSTITUTION: POLITICAL-LEGAL ANALYSIS OF NATIONAL AND INTERNATIONAL LEGISLATION

Abstract

This article examines the issue of equality within the national and international legislative norms of the Constitution of sovereign Azerbaijan, focusing on both political and legal dimensions. It analyzes constitutional provisions related to equality in the Republic of Azerbaijan, the ratification of international conventions, and the legal regulation of gender policy in the context of relations between men and women. The study also explores how national characteristics and cultural factors are reflected in domestic legislation and evaluates their alignment with contemporary gender strategies. Furthermore, it addresses the identification of the gender factor in national laws in light of evolving societal norms. The article proposes that draft laws considered by the Milli Majlis of the Republic of Azerbaijan should undergo gender expertise by relevant bodies, with due consideration given to expert opinions, ideas, and recommendations.

Keywords: Equality, Constitution of Azerbaijan, sovereignty, national legislation, international conventions, gender expertise

STATE SOVEREIGNTY IN CONTEXT OF DIGITAL GLOBALIZATION: **TRANSFORMATION OF CONSTITUTIONAL PRINCIPLES IN 21ST CENTURY**

Nigina SHERMUKHAMEDOVA
Doctor of Philosophy, Professor
National University of Uzbekistan named after Mirzo Ulugbek
E-mail: shermuhamedova_n@mail.ru

Abstract. In the era of digital globalization, the traditional concept of state sovereignty is undergoing profound transformation. The rapid advancement of information technologies, global communication networks, the cyber economy, and artificial intelligence challenges the classical Westphalian model of sovereignty. Today, national constitutions face new pressures arising from the transnational activities of digital corporations, cybersecurity threats, the protection of personal data, and the safeguarding of digital rights. The purpose of this study is to provide a philosophical and legal analysis of how constitutional principles are being transformed under the impact of digital globalization. It addresses three key areas: first, the evolution of sovereignty from absolute state autonomy to its hybrid forms in the 21st century; second, the reconfiguration of constitutional foundations, including the rule of law, individual rights and freedoms, and mechanisms for ensuring national security in digital space; and third, the prospects for developing a new model of digital constitutionalism that reconciles the protection of national interests with international legal obligations. The study demonstrates that the future of state sovereignty depends directly on its capacity to adapt to global digital challenges. National constitutions are emerging not only as legal frameworks but also as strategic instruments for safeguarding identity, supporting sustainable development, and strengthening the international standing of states in the 21st century.

Keywords: state sovereignty, digital globalization, constitutional transformation, digital constitutionalism, cybersecurity, personal data protection, artificial intelligence, information technology

Introduction

In the 21st century, the concept of state sovereignty is undergoing an unprecedented transformation. While the classical Westphalian model defined sovereignty as the absolute independence of the state within its borders and its primacy in foreign policy, the realities of digital globalization have begun to challenge this principle. Digital technologies—global communication networks, transnational IT corporations, the expansion of cyberspace, and the spread of artificial intelligence—are creating conditions in which national borders are becoming increasingly permeable, and national constitutions are confronted with issues that were scarcely considered two decades ago.

Today, sovereignty can no longer be examined apart from cybersecurity, the digital economy, global legal regimes, personal data protection, and digital human rights. These developments are reshaping fundamental constitutional principles, including the rule of law, individual rights and freedoms, the safeguarding of national security, and the balance between internal autonomy and international obligations. Digital globalization therefore not only expands the scope of interstate interaction but also constructs a new "constitutional architecture" for the 21st century, one that demands both scholarly reflection and practical solutions.

The relevance of this topic lies in the fact that constitutions are becoming not only the foundational laws of states but also instruments for safeguarding digital sovereignty, national identity, and strategic interests. A state's ability to preserve independence, maintain law and order, and ensure sustainable development in a competitive global environment now depends on how effectively it adapts its constitutional principles to the digital era.

Materials and methods

The study of international cultural diplomacy initiatives in Central Asia and the Middle East has drawn the attention of scholars from a range of countries in recent decades. Of particular interest is the research conducted by scholars from Türkiye, Azerbaijan, Uzbekistan, Kazakhstan, Kyrgyzstan, and the United States, where cultural diplomacy is examined not only as a tool of "soft power" but also as a factor in shaping regional identity.

In his seminal monograph Stratejik Derinlik: Türkiye'nin Uluslararası Konumu (Istanbul: Küre Yayınları, 2001), Turkish scholar Ahmet Davutoğlu highlights that Iran's cultural diplomacy, like Türkiye's, is grounded in civilizational continuity and an appeal to Islamic heritage. He stresses that, in the post-bipolar world, Iran actively employs the "cultural code" to advance its interests in Central Asia. Similarly, Azerbaijani scholar Ramiz Mehdiyev, in his work Geosiyasət: nəzəriyyə və təcrübə (Baku: Azerbaijan State Publishing House, 2008), underscores the ideological and political dimensions of Iran's cultural diplomacy. In his view, Tehran seeks to embed soft forms of influence within the framework of strategic competition, particularly in countries such as Uzbekistan and Tajikistan, where cultural and linguistic proximity plays a decisive role.

In Uzbekistan, the issue of Iran's cultural diplomacy has been explored in relation to regional security and spiritual–cultural ties. For example, Professor Nazirzhon Tukhtamishev, in his monograph Markaziy Osiyoda madaniy jarayonlar va tashqi siyosat (Tashkent: Akademnashr, 2015), observes that Iranian cultural diplomacy is

directed at strengthening humanitarian contacts but, in some cases, functions as an instrument of political influence. Kazakh scholar Dosym Satpayev, in Central Asia: Challenges and Scenarios of the Future (Almaty: Zhibek Zholy, 2016), emphasizes the dual nature of Iranian cultural diplomacy: while it promotes cultural interaction, it simultaneously serves as a tool of geopolitical rivalry with the United States and other powers.

In Kyrgyzstan, Kubanychbek Abdyrakhmanov offers an insightful analysis in his book International Relations and Cultural Diplomacy in Central Asia (Bishkek: KRSU, 2017). He argues that Iran's model of cultural engagement is structured around the ideas of Islamic unity and opposition to Western values, a stance that elicits mixed reactions within the region. The topic has also received considerable attention in American scholarship. Joseph Nye, in Soft Power: The Means to Success in World Politics (New York: Public Affairs, 2004), introduces the concept of "soft power," highlighting that Iran's cultural and educational practices should be viewed within the context of global competition in Central Asia and the Middle East. Similarly, Susan Meloni, in her study Iran's Soft Power in the Middle East (Washington: Carnegie Endowment, 2007), argues that Iranian cultural diplomacy is closely tied to religious and educational initiatives.

A comparative analysis of these approaches reveals several commonalities. First, all authors recognize the growing role of cultural diplomacy as a factor in international politics. Researchers from Türkiye and Azerbaijan emphasize its civilizational and religious dimensions. Central Asian scholars highlight both the constructive and problematic aspects of Iran's cultural influence. American authors, meanwhile, interpret it within the broader framework of "soft power" and global rivalry.

This study employs methods of comparative analysis, discourse analysis, and historical–philosophical reconstruction of cultural diplomacy concepts. This comprehensive approach makes it possible to identify not only the distinctive perspectives of different scholarly traditions but also the broader trend toward the gradual institutional consolidation of Iranian cultural diplomacy in the region.

Main body

The concept of state sovereignty has deep philosophical and legal foundations. It was first systematically articulated by the French thinker Jean Bodin in his treatise Six Books on the Republic (1576), where sovereignty was defined as the absolute and indivisible power vested in the state. This idea laid the groundwork for subsequent legal and political debates concerning the nature of authority. The principle of sovereignty was later enshrined in the Peace of Westphalia of 1648, which brought an end to the Thirty Years' War. The Westphalian system of international relations established the equality of states and affirmed their exclusive right to determine domestic policy independently. Within this framework, sovereignty was understood as the state's ability to serve as the supreme authority within its territory and as an autonomous actor in the international arena.

In the 19th and 20th centuries, the concept of sovereignty evolved alongside the development of international law and the establishment of the League of Nations, followed by the United Nations. A recognition emerged that absolute sovereignty is constrained by the obligation to comply with interna-

tional norms and human rights. During the second half of the 20th century, the traditional Westphalian model of sovereignty began to be reconsidered in light of growing interdependence and the internationalization of economics, politics, and law. At the turn of the 20th and 21st centuries, globalization accelerated this transformation, compelling states to delegate certain powers to supranational institutions such as the European Union or the World Trade Organization. Simultaneously, the influence of transnational corporations, international non-governmental organizations, and other non-state actors increased.

The 21st century has introduced a new challenge: digital globalization, which is profoundly reshaping the nature of sovereignty. Digital technologies blur traditional boundaries, allowing data to flow beyond the control of state authorities, while digital platforms emerge as “new sovereigns” that influence political processes and public opinion. Consequently, the classical notion of sovereignty as the absolute power of the state has lost its universality and requires reinterpretation. The evolution of sovereignty thus reflects a shift from its classical Westphalian conception to a postmodern model, in which states must account for the influence of global actors and new digital realities. This transformation also creates a space for rethinking constitutional principles and exploring novel tools to safeguard national statehood in the digital era.

The digital revolution of the 21st century has cast state sovereignty and constitutional principles in a new light. While constitutions have traditionally enshrined the fundamental principles of governance, individual rights and freedoms, and mechanisms for protecting national sovereignty, these frameworks are now being tested by rapid digitalization and the transnational flow of information.

First, the very understanding of constitutional rights and freedoms is evolving. In the digital age, classical rights—such as freedom of speech, privacy, and correspondence—take on new dimensions. Emerging rights, including the right to a digital identity, the protection of personal data, and guaranteed internet access, are becoming essential components of modern constitutional guarantees. For instance, the German Constitutional Court has emphasized in its rulings the necessity of recognizing individuals’ informational self-determination as a fundamental right. Similar debates are unfolding in Uzbekistan, Kazakhstan, and other post-Soviet countries, where legal frameworks to safeguard digital rights are actively being developed.

Secondly, the principle of separation of powers is undergoing significant transformation. The digitalization of administrative and judicial processes has led to the development of new forms of e-government, granting the executive branch access to data sets that were previously beyond the reach of traditional regulatory mechanisms. This shift has prompted discussions on the need to strengthen parliamentary and judicial oversight of digital platforms and e-government systems.

Thirdly, the transboundary nature of digital space presents a serious challenge. The traditional concept of territorial sovereignty is losing its absoluteness: cyberattacks, global digital corporations, and transnational data flows are pushing regulatory issues beyond national borders. In response, states are increasingly seeking to enshrine the concept of "digital sovereignty" within their constitutions and legal

frameworks, as exemplified by China. Similar debates are emerging in Central Asian academic circles, where scholars explore how to balance the openness of the digital society with the protection of national interests.

Fourth, global digitalization is reshaping the very structure of the constitutional legal order. The concept of "digital constitutionalism," highlighted by international scholars such as G. de Gregorio and L. Floridi, underscores the need to adapt the fundamental laws of states to a context in which information technology plays a defining role in political and social life.

Digital globalization not only broadens the scope of constitutional principles but also introduces new challenges. States must balance the preservation of sovereignty, the protection of individual rights, and the imperative to integrate into the global information space. In the 21st century, the constitution is no longer solely a national instrument; it is increasingly part of a global legal ecosystem, where digital rights and obligations acquire universal significance.

The prospects for preserving and strengthening state sovereignty in this era largely depend on how effectively states adapt their constitutions and legal systems to the demands of digital globalization. As traditional mechanisms of territorial and population control are undermined by transnational information flows, developing new legal and institutional strategies to safeguard independence becomes essential.

First, strengthening sovereignty can be achieved through the development of the concept of "digital sovereignty," which entails the state's capacity to safeguard national cyberspace, citizen data, and critical infrastructure. This approach does not imply isolation; rather, it involves establishing regulatory mechanisms that balance openness to global interaction with the protection of national interests.

Second, international cooperation is becoming increasingly vital. Modern sovereignty is increasingly understood not as absolute independence, but as the capacity to engage in global processes on the basis of equality and mutual recognition. For Central Asian countries—including Uzbekistan, Kazakhstan, and Kyrgyzstan—this translates into enhancing regional collaboration in cybersecurity, the legal regulation of digital technologies, and the protection of citizens' digital rights.

Third, the role of constitutional law as a tool for responding to new challenges is expected to expand. Future constitutions will encompass not only traditional provisions on the separation of powers and the protection of rights, but also regulations addressing digital rights, algorithmic transparency, and the responsibilities of both the state and corporations in the use of big data and artificial intelligence. The concept of a "fourth generation of human rights" pertaining to the digital environment is already a subject of academic discussion.

Fourth, it is essential to recognize that preserving sovereignty in the digital age requires not only legal measures but also cultural and ideological efforts. National constitutions must function not only as legal instruments but also as symbols of identity, capable of uniting society in the face of global challenges. In this context, strengthening sovereignty is closely tied to cultivating a national digital culture that reconciles openness to the world with the preservation of values and traditions.

Consequently, the prospects for state sovereignty in the 21st century depend on achieving a balance between national and global interests, legal frame-

works and technological realities, and individual rights and collective needs. The success of this endeavor will be determined by states' ability to adapt their constitutions promptly, foster international cooperation, and develop a strategic vision for their role within the global digital system.

In examining the transformation of constitutional principles in the context of digital globalization, it is important to recognize that this process manifests differently across countries, reflecting the specific characteristics of their legal systems, political cultures, and strategic priorities. The transition to the digital age has prompted a redefinition of the constitution's role as a fundamental mechanism for maintaining sovereignty. Whereas earlier emphasis was placed on territorial and institutional autonomy, contemporary concerns now prioritize data protection, algorithmic transparency, and citizens' digital rights.

Within this context, national studies reveal both shared trends and notable differences in priorities. In Türkiye, for instance, academic discourse emphasizes the need to balance the protection of citizens' digital rights with oversight of digital platforms, which increasingly function as new centers of influence. Turkish scholars argue that constitutional doctrine must address the responsibilities of these platforms and establish effective mechanisms for judicial and parliamentary oversight in the digital sphere [Cengiz, 2025, pp. 69–92]. In practice, this is reflected in intensified debates on platforms' regulatory obligations and the protection of online freedom of speech.

In Azerbaijan, the approach is largely project-based and modernization-oriented. Digitalization is viewed as an opportunity for a "smart" constitutional update, incorporating provisions on e-governance, digital accountability, and mechanisms for direct citizen participation in the digital sphere. Scholars propose targeted constitutional reforms that include institutional solutions for managing the digital state [Khalilov, Qadimov, Nakhchivan, 2025].

In Uzbekistan, the process combines applied and normative-reformist approaches. Domestic researchers emphasize the need to adapt legislation and constitutional guarantees to the digital transformation of the economy and public administration. As A.K. Saidov notes, this involves amendments to the Constitution, codes, and special laws aimed at protecting personal data and ensuring citizens' digital rights [Saidov A, 2025, pp. 53–82]. In practice, Uzbekistan focuses on establishing data protection institutions, updating telecommunications regulations, and developing transparency standards for electronic service delivery.

In Kazakhstan, researchers pay particular attention to balancing freedom of speech online with the protection of personal data. Academic studies emphasize that digital transformation must be accompanied by constitutionally enshrined guarantees and accountability mechanisms for government agencies and private data operators [Zhetpisov, Alibayeva, Dubovitskaya, Protection of Personal Data in the Era of Digitalization: Constitutional and Legal Aspect, Almaty, 2024]. Kazakhstani publications also stress the importance of aligning national regulations with international data protection standards.

In Kyrgyzstan, scholarly works tend to focus on institutional aspects and the practical implementation of regulations, including strengthening information security, establishing regulatory bodies, and integrating provisions on digital rights into national legislation.

Researchers highlight the need to enhance institutional resilience and professionalize digital regulators [Abdyrahmanov, 2017].

A comparative analysis reveals that all five countries acknowledge the necessity of constitutional and legislative adaptation to the digital age, though their approaches differ. Turkey emphasizes oversight, platform accountability, and the protection of civil liberties online [Cengiz, 2025]. Azerbaijan promotes "smart constitutionalism," combining digitalization with institutional renewal [Khalilov & Qadimov, 2025]. Uzbekistan prioritizes practical legislative reforms and institutional protection of digital rights [Saidov, 2025, pp. 53–82]. Kazakhstan focuses on harmonizing national regulations with international data protection standards [Zhetpisov et al., 2024], while Kyrgyzstan emphasizes institutional strengthening and regulatory capacity [Abdyrahmanov, 2017].

This diversity reflects not only varying degrees of digital readiness and differences in political and legal traditions but also distinct strategic priorities, such as safeguarding against external digital risks and ensuring security versus leveraging digitalization for internal development and civic empowerment.

Conclusion

The modern era of digital globalization presents new challenges to the classical understanding of state sovereignty and constitutional law. While sovereignty was traditionally perceived as an absolute and indivisible attribute of the state, enshrined in constitutions and international treaties, in the 21st century it has acquired a more complex, multilayered character. Global information flows, transnational corporations, digital platforms, and international norms are increasingly shaping the limits and content of sovereign power.

A comparative analysis of the constitutional models of Turkey, Azerbaijan, and Uzbekistan shows that, despite overarching globalization trends, states are pursuing distinct approaches to adaptation. Turkey emphasizes security and control over the digital space; Azerbaijan focuses on developing legal guarantees within the framework of regional integration; and Uzbekistan prioritizes the modernization of constitutional principles and the reinforcement of national identity. These developments illustrate a broader trend: national constitutions remain dynamic instruments for protecting and developing sovereignty, adapting to emerging challenges. Philosophical analysis suggests that this transformation goes beyond legal reform, encompassing a fundamental rethinking of sovereignty itself. Today, sovereignty is not a static "boundary of power" but a dynamic space in which the local and global, the traditional and innovative, the real and virtual intersect. In this sense, modern constitutions can be viewed as an "ontological map," enabling societies to navigate a rapidly changing world.

In the 21st century, preserving state sovereignty requires flexible transformation. This involves integrating digital rights into constitutional texts, balancing openness with security, and strengthening the ideological and cultural foundations of statehood. The future of constitutional development lies not in relinquishing sovereignty but in redefining it within a new philosophical and legal paradigm, in which the state and the individual become partners in building a sustainable digital society.

Bibliography

1. Cengiz. (2025). Digital Constitutionalism in Creating a New Constitutional Equilibrium. İstanbul Medeniyet Üniversitesi Hukuk Fakültesi Dergisi, İstanbul, pp. 69–92

2. Khalilov, & Qadimov. (2025). The Necessity of Constitutional Reforms in the Context of an Electronic Society and the Legal Foundations of 'Smart Constitutionalism'. Nakhchivan, 2025

3. Saidov, A. K. (2025). Legal Evolution of Human Rights Protection in Uzbekistan Amid Digital Transformation. Legal Issues in the Digital Age, Vol. 6, No. 1, pp. 53–82

4. Zhetpisov, D., Alibayeva, A., & Dubovitskaya, L. (2024). Protection of Personal Data in the Era of Digitalization: Constitutional and Legal Aspect. Almaty, 2024

5. Abdyrahmanov, K. (2017). Международные отношения и культурная дипломатия в Центральной Азии [International Relations and Cultural Diplomacy in Central Asia]. Bishkek

6. Tokyay, Ş. (n.d.). Digital Constitutionalism in Türkiye: An Analysis for the Digital Age (Master's thesis), Bilkent BUIR

7. Muratoğlu, H. The Constitutional Ecosystem of Digital Rights in Türkiye. Taylor & Francis

8. Kudratillaev, J. Z. (2024). Конституционные и правовые основы права на использование Интернета [Constitutional and Legal Foundations of the Right to Use the Internet]. Civil.uz

9. Khusanbaev, O. O. (2025). Development of Digital Law in the Republic of Uzbekistan. Central Asian Journal of Social Sciences and History. Available at: cajssh.centralasianstudies.org

10. Pulatov, T. G. (2024). Digital Financial Assets as an Object of Civil Rights. Uzbek Journal of Law and Digital Policy, Vol. 2, No. 6, pp. 66–76

11. Mardonov, A. (2025). Legal Regulation of Digital Content and Copyright on the Internet: The Case of Uzbekistan in Comparative Perspective. Uzbek Journal of Law and Digital Policy, Vol. 3, No. 2, pp. 45–63

12. Abdalimova, D. O. (2025). Значение правового регулирования в процессе цифровизации в Узбекистане [The Importance of Legal Regulation in the Digitalization Process in Uzbekistan]. Журнал правовых исследований, 2025. tadqiqot.uz

13. AllahRakha, N. (2023). Constitutional Safeguards for Digital Rights and Privacy. International Journal of Law and Policy, Issue 1. Tashkent State University of Law, Irshad Journals

Nigina Şermuhəmmədova

RƏQƏMSAL QLOBALLAŞMA KONTEKSTİNDƏ DÖVLƏT SUVERENLİYİ: XXI ƏSRDƏ KONSTİTUSİYA PRİNSİPLƏRİNİN TRANSFORMASİYASI

Xülasə

Rəqəmsal qloballaşmanın müasir çağında dövlət suverenliyinin ənənəvi anlayışı köklü dəyişikliklərə məruz qalır. İnformasiya texnologiyalarının, qlobal rabitə şəbəkələrinin, kiberiqtisadiyyatın və süni intellektin sürətli inkişafı Vestfaliya sisteminin prinsiplərinə əsaslanan klassik suverenlik modelini şübhə altına alır. Müasir dünyada milli konstitusiyalar rəqəmsal korporasiyaların transmilli fəaliyyəti, kibertəhlükəsizlik təhdidləri, fərdi məlumatların qorunması və rəqəmsal fərdi hüquqların təminatı ilə bağlı problemlərlə üzləşir.

Bu tədqiqatın məqsədi rəqəmsal qloballaşma kontekstində konstitusiya prinsiplərinin transformasiyasının fəlsəfi və hüquqi təhlilidir. O, üç əsas sahəni araşdırır: birincisi, XXI əsrdə "suverenlik" anlayışının mütləq dövlət muxtariyyətindən onun hibrid formalarına doğru təkamülü; ikincisi, konstitusiya əsaslarında dəyişikliklər, o cümlədən qanunun aliliyi, fərdi hüquq və azadlıqlar, rəqəmsal məkanda milli təhlükəsizliyin təmin edilməsi mexanizmləri; üçüncüsü, milli maraqların müdafiəsini beynəlxalq hüquqi öhdəliklərlə birləşdirən yeni "rəqəmsal konstitusionalizm" modelinin formalaşdırılması perspektivləri. Beləliklə, tədqiqat göstərir ki, dövlət suverenliyinin gələcəyi birbaşa onun qlobal rəqəmsal çağırışlara uyğunlaşma qabiliyyəti ilə bağlıdır. Milli konstitusiyalar XXI əsrdə dövlətlərin xüsusiyyətlərini, davamlı inkişafını və beynəlxalq nüfuzunu qorumaq üçün təkcə hüquqi sənədlərə deyil, həm də strateji alətlərə çevrilir.

Açar sözlər: dövlət suverenliyi, rəqəmsal qloballaşma, konstitusiya transformasiyası, rəqəmsal konstitusionalizm, kibertəhlükəsizlik, fərdi məlumatların qorunması, süni intellekt, informasiya texnologiyaları

MİLLİ PRİORİTETLƏRİN REALLAŞMASINDA AZƏRBAYCANÇILIQ İDEOLOGİYASININ ROLU

Ziba AĞAYEVA,
AMEA Fəlsəfə və Sosiologiya İnstitutu
"Heydər Əliyevin siyasi irsi və azərbaycançılıq ideologiyası"
şöbəsinin baş elmi işçisi, fəlsəfə elmləri doktoru
(Bakı, Azərbaycan)

E-mail: ziba.agayeva57@gmail.com
UOT 316.4:321.7:008(479.24)

Xülasə. Məqalədə postmüharibə dövründə milli prioritetlərin reallaşmasında azərbaycançılıq ideologiyasının rolu, cəmiyyət həyatındakı yeri tədqiq edilmiş, cəmiyyətin əsas inkişaf istiqamətlərini müəyyənləşdirən və mövcud ictimai asayiş qaydalarını tənzimləyən, dəstəkləyən, xalqı birliyə, həmrəyliyə, vətənpərvərliyə səsləyən, milli mədəniyyəti və mentaliteti saxlayan mükəmməl dəyərlər sistemi kimi milli ideologiyalara məxsus hər üç səviyyədə - nəzəri-konseptual, proqram-direktiv və gündəlik - təhlilinə cəhd göstərilmişdir.

Eləcə də məqalədə azərbaycançılığın strukturunda qədim dövrlərdən başlayaraq müasir dövrümüzə qədər xalqımızın təkamül prosesində topladığı ənənəvi biliklərlə yanaşı, dövrün inkişaf və transformasiyalarından irəli gələn məqamları özündə ehtiva edən əlamətlər, xalqımızın siyasi dünyagörüşünün formalaşdırılmasında, insanların siyasi proseslərdəki iştirakının dərk olunmasında, Azərbaycanın modernləşməsi və inkişafında yeri və rolu siyasi-fəlsəfi aspektdən tədqiq edilmişdir.

Açar sözlər: milli prioritetlər, azərbaycançılıq, identiklik, cəmiyyət, dövlətçilik, dünyagörüşü, modernləşmə

Giriş

Mövzunun aktuallığı nəzəri, metodoloji və praktik xarakterli amillərlə, xüsusilə Rusiya-Ukrayna müharibəsi, İsrail-Fələstin münaqişəsi və hal-hazırda dünyada mövcud olan son dərəcə mürəkkəb geosiyasi vəziyyət, o cümlədən ilk növbədə Azərbaycanın postmüharibə dövründə üzləşdiyi müasir sosial-iqtisadi və geosiyasi reallıqlarla bağlıdır. Hazırda beynəlxalq şəraitin kifayət qədər mürəkkəb olması, bu kontekstdə yaranan qlobal dəyişikliklər və transformasiyalar, xüsusilə Cənub-Şərqi Avropada və Qafqazda iqtisadi artımın güclənməsinə, infrastrukturun inkişafına və regional təhlükəsizliyin qorunmasına təminat verən Şuşa Bəyannaməsinin, ölkəmizdə işğaldan azad olunmuş ərazilərin bərpası və böyük qayıdışla əlaqədar proseslərin müasir dövrün çağırışlarına, ictimai-siyasi və iqtisadi düşüncə tərzinə uyğun şəkildə dərk edilməsini tələb edir. Daim qarşılıqlı əlaqədə olan, bir-birinə təsir göstərən bu amillər və müasir geosiyasi vəziyyət postmüharbə dövründə Azərbaycan Respublikasının bütün sahələrdə, xüsusilə sosial-iqtisadi sahədə milli prioritetlərinin davamlı inkişafını şərtləndirir.

Təsadüfi deyil ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2 fevral 2021-ci il tarixində "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"in təsdiq edilməsi haqqında Sərəncamı [2] ölkəmizin növbəti on il ərzində qüdrətli dövlət və yüksək rifah cəmiyyəti kimi inkişafını təmin edəcək sosial-iqtisadi inkişafının əsas hədəflərini müəyyənləşdirən milli yol xəritəsi təqdim etməklə dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyətin formalaşacağına əsaslı zəmin yaratmışdır.

Hazırda Azərbaycan postsovet xaosunu geridə qoymuş, öz siması, mövqeyi, xarakterik xüsusiyyətləri olan uğurlu, qalib dövlətdir. Xalq-dövlət-ordu arasındakı sarsılmaz birlik, güclü iqtisadiyyat, hərbi qüdrət Azərbaycanın 30 ilə yaxın bir dövr ərzində torpaqlarını işğal altında saxlayan Ermənistana sarsıdıcı zərbə endirməklə hərb meydanında möhtəşəm qələbəsini şərtləndirdi. Bu qələbə ölkə ərazisində yaşayan bütün milli azlıqların, bütövlükdə Azərbaycan xalqının milli özünüdərkinin və bütün bunların azərbaycançılıq ideologiyasının misilsiz təntənəsinin bariz nümunəsi kimi özünü göstərdi. Sərəncamda da qeyd edildiyi kimi: "...işğaldan azad edilmiş ərazilərin ölkənin ümumi iqtisadiyyatına reinteqrasiyası, yeni beynəlxalq və regional nəqliyyat-loqistika dəhlizlərinin imkanlarından faydalanmaq Azərbaycanın inkişafına böyük təkan verəcəkdir. Bu çərçivədə regionda təhlükəsizliyin, sabitliyin, rifahın və qarşılıqlı faydalı əməkdaşlığın formalaşması, eləcə də iqtisadi və ticarət əlaqələrinin inkişaf etməsi Cənubi Qafqazın lider dövləti olan Azərbaycanın region iqtisadiyyatının ümumi arxitekturasının müəyyən edilməsində rolunu daha da möhkəmləndirəcəkdir" [2].

Qədim tarixə, adət-ənənələrə, zəngin irsə malik olan Azərbaycan ümumdünya mədəniyyət xəzinəsinə böyük töhfələr vermişdir. Bizim eranın I minilliyindən başlayaraq II minilliyin ortalarına qədər transkontinental ticarət yolu olan Çindən Orta və Ön Asiya ölkələrinə aparan Böyük İpək yolu (Çin, Yaponiya, Hindistan, Monqolustan, İran, Özbəkistan, Tacikistan, Azərbaycan və digər ölkələr) çarpaz şəkildə keçən tarixi ticarət marşrutu olaraq, Avropa və Asiya dövlətləri və xalqları arasında əlaqələrin yaranmasına kömək etmişdir. Bu, ölkənin genezisinin, dövlətçiliyinin, incəsənətinin, mədəniyyətinin və memarlığının təkamülünün bütün mərhələlərini özündə birləşdirən unikal tarixinin formalaşmasına bir çox hallarda təsir

göstərmişdir. Bütün bunlar eyni zamanda Azərbaycanın sivilizasion identikliyinin polietnik olmasını şərtləndirmişdir.

Sivilizasion identikliyin əsasında bütöv bir xalqın və ya qohum xalqlar qrupunun mədəni-tarixi özünüdərki durduğundan onun əsas xüsusiyyəti sosial identikliyin yüksək səviyyəsini əks etdirir. Qloballaşmanın səbəb olduğu sivilizasion böhran bəşəriyyətin iqtisadi və siyasi tərəflərindən əhəmiyyətli dərəcədə asılı olduğundan bunlar prosesin daha da güclənməsinə və dərinləşməsinə səbəb olmuşdur.

Azərbaycanda milli mədəniyyətin və mentalitetinin saxlanılması hazırda bir dövlət strategiyasıdır. Azərbaycan özünün geosiyasi və geomədəni mövqeyinə uyğun olaraq öz tarixi, mədəni sivilizasion identikliyini, dayanıqlılığını, çoxmədəniyyətliliyini, çoxkonfessiyalılığını, milli-mənəvi dəyərlərini əsas götürür. Bütün bunlar müasir dünyanın çağırışlarına cavab verməklə, ölkənin modernləşməsində mühüm amilə çevrilir. Bu strategiyanın təminatçısı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 02 fevral 2022-ci il tarixində Bakıda Azərbaycan Gəncləri Gününün 25 illiyinə həsr olunmuş Gənclər Forumundakı çıxışında bunu bir daha təsdiq edərək demişdir: “Milli-mənəvi dəyərlər dövlətimizin əsasını təşkil edir və mən dəfələrlə demişəm ki, müasir və müstəqil Azərbaycan dövləti milli dəyərlər üzərində qurulub. Əminəm ki, biz bu dəyərləri qoruyub saxladıqca, dövlətimiz daha da qüdrətli olacaq, xalqımız da əbədi azad, müstəqil xalq kimi yaşayacaq” [3] .

1. Xalqımızın siyasi dünyagörüşünün formalaşmasında azərbaycançılıq ideologiyasının rolu

Azərbaycan kiçik dövlət olsa da, etnomədəni siması rəngarəngdir. Azərbaycanda multikulturallığın kökləri qədim dövrlərə gedib çıxır. Ölkənin cənub, qərb, şimal bölgələrində yaşayan azsaylı xalqlar əsrlərlə buralarda məskunlaşmış və öz kimliklərini qoruyub saxlaya bilmişlər.

Azərbaycan geostrateji mövqeyinə görə iki dünyagörüşünün, iki həyat tərzinin, iki mədəniyyətin, çeşidli mədəni dəyərlərin qovuşduğu məkanda yerləşir. Belə bir məkanda yaşayan insanlar ünsiyyətin yalnız coğrafi deyil, həm də mənəvi təzahürünü, Qərb və Şərq mədəniyyətinin dialoqunu gündəlik həyatlarında hiss etməkdədirlər. Maraqlı cəhət odur ki, dünyanın ən müxtəlif qütblərində siyasi qarşıdurmalara çevrilən bu dialoq Azərbaycan mədəniyyətində hər hansı çatışmazlıqlara səbəb olmamış, əksinə, burada çoxmədəniyyətli bir mühit formalaşdırmışdır. Müasir Azərbaycan bir tərəfdən iqtisadi inkişafın, urbanizasiyanın, sənayeləşmənin səviyyəsinə və yüksəkixtisaslı mütəxəssislərlə təminatına görə, digər tərəfdən həyat tərzinin dərin mənəvi əsaslara söykənməsinə görə Qərb-Şərq dialoqunda bir sıra sivilizasiyaların simvolu kimi vasitəçi qismində iştirak edir.

Müstəqillik tariximiz Azərbaycan xalqının öz milli-mənəvi köklərinə qayıdışı, milli ruhuna uyğun həyat və düşüncə tərzinin formalaşması illəridir. Dünyanın qədim xalqlarından biri kimi azərbaycanlıların malik olduğu yüksək mənəvi-əxlaqi keyfiyyətlərin qorunub saxlanılması, “keçid dövrü” kimi səciyyələnən mürəkkəb bir zamanda dəyərlərin varisliyinin təmin edilməsi nə qədər çətin olsa da, Ümummilli lider Heydər Əliyevin himayəsi altında böyük uğurla həyata keçirildi. Ümumbəşəri və milli-mənəvi dəyərlərin ahəngdar sintezinə nail olmaq istiqamətində möhtəşəm addımlar atıldı. Sovetlər dönəmində məqsədyönlü şəkildə həyata keçirilən milli-mənəvi köklərdən uzaq-

laşma siyasətinin, yadlaşma prosesinin nəticələrinin aradan qaldırılması, eləcə də müstəqillik dövründə ölkəmizə idxal edilən Qərb liberal dəyərlərinin milli-mənəvi dəyərlərimizin məzmun və mahiyyətinə toxunmadan sintezinə nail olmaq üçün vəzifələr müəyyənləşdirildi.

Bu istiqamətdə aparılan işlər sırasında ən mühümü, şübhəsiz ki, mövcud ideoloji vakuumu, mənəvi inkişaf konsepsiyası sahəsindəki boşluğu dəf etməkdən ibarət idi. İdeologiya əhəmiyyətli dərəcədə tərbiyəvi potensiala malik olub, şəxsiyyətin siyasi sosiallaşması məsələsininin həllini, vətəndaşların siyasi mədəniyyətinin formalaşmasını və inkişafını təmin etməyə istiqamətləndiyindən bu məsələ özünün təcili həllini tələb edirdi. Ümummilli lider Heydər Əliyevin millilikl ümumbəşəriliyin vəhdətini nəzərə alaraq müəyyənləşdirdiyi, müstəqil dövləti yaratmaq və yaşatmağın bütün prinsiplərini özündə təcəssüm etdirən azərbaycançılıq ideologiyası bu boşluğu aradan qaldırdı.

Öz vətəni, xalqı, tarixi və mədəniyyəti, dili və adət-ənənələri, istənilən iqtisadi uğuru, xalqın yüksələn rifahı ilə daima fəxr edən Ümummilli lider ölkəmizi dünyanın ən inkişaf etmiş ölkələri səviyyəsinə yüksəltmək üçün var gücü ilə çalışırdı. “Azərbaycan Respublikasında insan inkişafı haqqında hesabat”ın təqdimat mərasimindəki çıxışında Ulu öndər dedi: “Bu gün təqdim olunan kitabda Azərbaycanın çoxminillik tarixinin, zəngin mədəniyyətinin, milli ənənələrinin və nailiyyətlərinin əks olunması böyük məmnunluq doğurur. Xalqımızın keçdiyi tarixi yol, əldə etdiyi mədəni, intellektual potensial, inkişaf səviyyəsi böyük mədəni sərvətimizdir. Biz öz tariximizlə fəxr edirik. Biz Azərbaycan xalqının əsrlər boyu dünya sivilizasiyasına verdiyi töhfələrlə fəxr edirik. Bunların hamısı bu günümüz və gələcəyimiz üçün gözəl təməldir” [4, s.16].

SSRİ-nin süqutundan sonra müstəqillik qazanmış bütün respublikalar, xüsusilə də Azərbaycan dərin böhran yaşayırdı. O dövrdə cəmiyyətin böhranlı vəziyyətini tədqiq edə və dəyərləndirə bilən müasir elmi metodologiya - sistemli yanaşma, sinergetik paradiqma, mürəkkəb sistemlərin fəaliyyəti haqqında Amerika mühəndisi, sistemli dinamikanın yaradıcısı C.R. Forresterin davamlı inkişafa əsaslanan modeli [8] yox idi.

Ulu öndər bütün dünyada yaşayan azərbaycanlıları vahid ideologiya ətrafında birləşən, tarixi kökünü, milli-mənəvi dəyərlərini, adət-ənənələrini, milli mədəniyyətini itirməyən vətənpərvər insanlar kimi görmək istəyirdi. Bunu dövlət siyasətinin tərkib hissəsi kimi dəyərləndirən Heydər Əliyev təsadüfi deyil ki, Dünya Azərbaycanlılarının Birinci Qurultayındakı (9 noyabr 2001-ci il) nitqində deyirdi: “Bizim hamımızı birləşdirən, həmrəy edən azərbaycançılıq ideyasıdır, azərbaycançılıqdır. Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra azərbaycançılıq aparıcı ideya kimi, həm Azərbaycanda, həm də bütün dünyada yaşayan azərbaycanlılar üçün əsas ideya olubdur. Biz həmişə bu ideya ətrafında birləşməliyik. Azərbaycançılıq öz milli mənsubiyyətini qoruyub saxlamaq, milli-mənəvi dəyərlərini qoruyub saxlamaq, eyni zamanda onların ümumbəşəri dəyərlərlə sintezindən, inteqrasiyasından bəhrələnərək hər bir insanın inkişafının təmin olunması deməkdir” [5, s.197].

Azərbaycançılıq xalqımızın siyasi dünyagörüşünü formalaşdırdığından, mövcud siyasi durumla əlaqədar insanlara müəyyən yol göstərdiyindən, ölkəmiz bu ideologiya olmadan yaşaya bilməz. Bununla yanaşı, azərbaycançılıq xalqımıza "yuxarıdan" rəsmi qaydada zorla qəbul etdirilən bir ideya deyil, əksinə cəmiyyətimiz tərəfindən qəbul

edilən və dövlətçiliyimizin əsasını təşkil edən dəyərlər sistemindən ibarətdir. Bu ölkədə yəhudilər müsəlmanlara dua edir, müsəlmanlar döyüşdə qəhrəmancasına həlak olmuş provaslav dostlarını "şəhid" adlandırır, provaslav kilsəsinin zəngləri isə müharibədə həlak olmuş müsəlman şəhidlərin şərəfinə vurur.

Azərbaycançılıq milli ideologiyalara məxsus hər üç səviyyədə - həm nəzəri-konseptual, həm proqram-direktiv, həm də gündəlik - uğurla fəaliyyət göstərir.

Nəzəri-konseptual səviyyədə azərbaycançılığın təməl prinsipləri formalaşmış, müstəqil respublikamızın siyasi, iqtisadi və mədəni həyatının əsasını təşkil edən prioritet məsələlər, milli dövlətçilik dəyərləri və mənəvi-siyasi ideallar əsaslandırılmışdır;

Proqram-direktiv səviyyəsində azərbaycançılıq dövlətimizin milli ideologiyası kimi ölkəmizin bütün sahələrdə davamlı inkişafını təmin edə biləcək konkret proqramlarda əks olunan strategiya və taktikasını formalaşdırmışdır;

Gündəlik səviyyədə azərbaycançılıq bir ideologiya kimi xalqımızın milli düşüncəsini, milli-mənəvi və ideya-siyasi dünyagörüşünü formalaşdırmış, milli-mənəvi dəyərlərimizin, mədəniyyətlərarası dialoqun, tolerantlığın, birliyin, həmrəyliyin cəmiyyətimizdə bir davranış forması kimi yer almasına səbəb olmuşdur.

Azərbaycançılığın strukturunda qədim dövrlərdən başlayaraq müasir dövrümüzə qədər xalqımızın təkamül prosesində topladığı ənənəvi biliklərlə yanaşı, dövrün inkişaf və transformasiyalarından irəli gələn məqamları özündə ehtiva edən üç əlamət əas yer tutur. Bunlar aşağıdakılardır:

- mövcud gerçəkliyin xalqın əksər hissəsi tərəfindən tam və əhatəli dərk olunması;
- milli mənəvi–mədəni dəyərlər sisteminin qorunması və gələcək nəsillərə çatdırılması;
- məqsədə nail olmaq üçün uzunmüddətli və kompleks planın həyata keçirilməsi istiqamətində yolların, üsulların və konsepsiyaların reallaşdırılması, yəni strategiya və taktikanın hazırlanması.

Azərbaycançılıq milli dövlət ideologiyası kimi ölkəmizdə həyata keçirilən dövlət siyasətinin tərkib hissəsi olmaqla yanaşı, bir sıra zəruri funksiyaları da yerinə yetirir:

- Azərbaycançılıq bir tərəfdən cəmiyyətin həyatını, modernləşməsini və inkişafını istiqamətləndirirsə, digər tərəfdən xalqda gerçəkliyə real münasibət formalaşdırır, zamanın, gerçəkliyin tələblərinə cavab verir, xalqın birliyini və həmrəyliyini, xalqlararası, mədəniyyətlərarası dialoqu, tolerantlığı təmin edir;
- Azərbaycançılıq ölkənin ictimai-siyasi həyatında baş verən proseslərdə xalqın şüurlu iştirakını, sosial gərginliyin yumşaldılmasını və həllini təmin edir;
- Ölkəmizin bütün sahələrdə davamlı inkişafına, rifahına nail olmaq istiqamətində xalqımızı səfərbər edir;
- Azərbaycan xalqını ümum dövlət maraqları və ümummilli dəyərlərimiz ətrafında vahid xalq kimi birləşdirməklə inteqrasiyaedici funksiya daşıyır;
- Azərbaycançılıq onu yaradan cəmiyyətin təzahürü olmaqla yanaşı, istər-istəməz həyatın bütün tərəflərini özündə cəmləşdirir, cəmiyyət və onun problemləri, sosial quruluşun mahiyyəti, iqtisadi inkişaf səviyyəsi, sosial-mədəni ənənə ilə əlaqəli problemlər haqqında bilik daşıyır.

2. Azərbaycançılıq milli dövlətçilik düşüncəsi kimi

Azərbaycançılıq milli dövlətçilik düşüncəsi kimi XX əsrin sonlarından hazırkı dövrə qədər qlobal geosiyasi və

iqtisadi reallıqlar fonunda xalqın özünütəsdiqini təmin etmək, onun mənafeyini ifadə etmək qüdrətinə malik yeganə ideologiyadır. Bu ideologiyanın əsasında Azərbaycan xalqının tarixi, mənəvi-əxlaqi, milli-mədəni ənənələri zəminində onun ərazisində yaşayan bütün etnik qrupların, milli azlıqların birlik ideyası durur. Bu ideya nəinki indi, həm də uzaq gələcəkdə azərbaycanlıları vahid xalq olaraq öz ətrafında birləşdirəcəkdir. "İdeologiyanın insanların ən yaxın mənafelərilə bağlı adi səviyyəsi özündə ictimai rəyi əks etdirən sağlam fikirliyin mövcudluğunu şərtləndirir. Məsələn, azərbaycançılıq ideologiyası liberal partiyaların ideya prinsipi kimi millətçilər tərəfindən ümumilikdə rəğbətlə qarşılanmasa da (AXC hakimiyyəti dövründə türkçülük, turançılıq azərbaycançılığı arxa plana keçirməklə separatçılığa müəyyən bəhanələr vermişdi), milli azlıqların mənafeyinə cavab verdiyinə görə az əhəmiyyətli deyil" [6, s.264].

Zaman, ölkədə gedən proseslər bu ideologiyanın az əhəmiyyətli deyil, son dərəcə əhəmiyyətli olduğunu sübuta yetirdi. Hazırda Azərbaycanda milli, etnik zəmində problemlərin olmamasına görə azərbaycançılığa borcluyuq.

Real həyatda daha çox konkret fərdlərin və qruplaşmaların bu və ya digər baxışlarının nisbi üstünlüyündən asılı olaraq mühafizəkar liberallara və liberal mühafizəkarlara rast gəlinir. Hər iki ideologiya ifrat və mülayim formalara malikdir. Öz baxışlarında mülayim konservatizm mülayim liberalizmə, ifrat konservatizm ənənəçiliyə, ifrat liberalizm isə radikalizmlə yaxınlaşır.

Azərbaycançılıq ideologiyasının mahiyyətini bir tərəfdən dövlətçiliyin ardıcıl yüksəlişini təmin edən prinsiplər, digər tərəfdən isə bu vəzifənin məhz milli-mənəvi dəyərlərə söykənərək yerinə yetirilməsi təşkil edir. Çünki hər iki məsələ arasında sarsılmaz vəhdət, üzvi bağlılıq mövcuddur. Milli identikliyini bilməyən və özünü dərk etməyən xalqın milli müstəqilliyə nail olması sual altında olur. Azərbaycançılıq milli ideologiya olaraq xalqın milli-mənəvi dəyərlərinin ifadəçisi kimi iki səviyyədə çıxış edir:

- sosial-siyasi səviyyədə azərbaycançılıq müxtəlif sosial qrupların maraqlarını ifadə edir;

- azərbaycançılıq bütövlükdə cəmiyyətin həyati maraqlarını ifadə edir və bütün sosiumun vətənpərvərlik də daxil olmaqla mövcud milli-mənəvi dəyərlərinin birliyinin formalaşmasını təmin edir.

Göründüyü kimi, azərbaycançılıq milli ideologiya kimi müstəqil Azərbaycan vətəndaşlarının birliyini və layiqli həyat səviyyəsini təmin edir.

Azərbaycançılıq həyat tərzində, əxlaqda, mədəniyyət və mənəviyyatda, ədəbiyyatda olduğu kimi dövlətimizin siyasi məfkurəsində də təməl prinsiplərdəndir. Əsrlərdən bizə miras qalmış milli mənəvi dəyərlərimiz dövlətçiliyin nəinki mənəvi, həmçinin siyasi mövcudluğunun qarantı kimi çıxış edir. "Azərbaycançılıq" "özününkü" kimi "özgəninkini" də tez qavrayır, tarixin, cəmiyyətin və insanların sınağından çıxmış bütün dəyərlərə (milli və ümumbəşəri) açıq və həssasdır. Buna görə də böyük əminliklə demək olar ki, "azərbaycançılıq" Azərbaycan dövlətinin uzun tarixi ərzində milli ideologiyanın vacib və zəruri tərkib hissəsi olaraq qalacaqdır" [9, s.77].

2003-cü ildə Prezident İlham Əliyevin elan etdiyi ölkənin modernləşdirilməsi xətti milli inkişaf strategiyasının əsas istiqamətlərindən biri olduğundan bütün Azərbaycan əhalisinin - ictimai və sosial qrupların, vətəndaş cəmiyyətlərinin, mədəni birliklərin var qüvvələri ilə məqsədyönlü şəkildə iş birliyini tələb edir. Modernləşmə əxlaqi imperativ olub, yeni mentalitetin formalaşdırılmasına istiqamətləndiyindən, ona nail olmaq üçün milli-mənəvi, dini, həmçinin

əxlaqi dəyərlərin təsir qüvvəsindən istifadə etmək zəruridir.

Azərbaycanın modernləşməsi və inkişafı istiqamətində azərbaycançılıq ideologiyasının rolu danılmazdır. Ölkənin uğurlu şəkildə modernləşdirilməsi üçün modernləşdirmənin mənəvi əsaslarının başlıca daşıyıcısı olan insan kapitalının bütün potensialı ilə hərtərəfli inkişaf etdirilməsi vacib şərtdir.

Dövlətin modernləşdirilməsi prosesi yalnız cəmiyyət həyatının iqtisadi, siyasi, sosial və mənəvi sahələrdə möhkəm əsaslara söykəndiyi halda uğurla nəticələnə bilər. Eyni zamanda qeyd etmək lazımdır ki, tarix öyrədir ki, cəmiyyət bir sistem kimi, yalnız o halda fəaliyyət göstərə bilir ki, aşagıdakı tələbləri yerinə yetirmiş olsun: adaptasiya, məqsədyönümlülük, dayanıqlılıq və inteqrasiya. Bu tələblər sosial sistemin tamlığının və tarazlığının saxlanılmasının vacib şərtləridir [7, s.44].

Azərbaycançılıqda ölkənin həyatını təşkil edən, ona fəaliyyət enerjisi verən bir potensial mövcuddur. Bu potensial bütövlükdə ölkənin, xalqın idarə olunması, inkişafı üçün istiqamətlənmişdir.

Azərbaycançılıq – insanda öz ölkəsinin keçmişi, bu günü və gələcəyi ilə əlaqədar sabit təsəvvür yaradır, ona həyat enerjisi verən mənsubluq hissinin təminatçısı və eyni zamanda ictimai şüurun formalaşmasında zəmanətçi kimi çıxış edir. Azərbaycançılıq yalnız ölkənin daxilinə deyil, eyni zamanda ölkə xaricində yaşayan azərbaycanlıları da öz ətrafında sıx birləşdirmək qüdrətinə malikdir. Bu ideologiya: “Biz kimik? Bizim identikliyimizin mahiyyəti nədədir? Bizim tariximiz haradan başlayır? Azərbaycan və azərbaycanlılar dünya xalqlarına necə görünür? Nəyə görə biz bu qədər humanist bir xalq olduğumuz halda ermənilər bizə düşmən kəsilib? Nəyə görə böyük dövlətlər bizim haqq işimizə ikili standartlarla yanaşır? Nəyə görə biz ədalətin təntənəsini bütün dünyaya öz qurbanlarımız hesabına sübut etməliydik?” və s. bu kimi sualları qaldırır və bunlara cavab verməkdə kompas rolunu oynayır.

Azərbaycançılığın mahiyyətinin açılmasında siyasi və geosiyasi, milli-mənəvi, fəlsəfi, sosioloji, bədii-publisistik və eyni zamanda idarəediedici yanaşmalar əsas yer tutur. Bununla yanaşı, xüsusilə qeyd etmək lazımdır ki, azərbaycançılıq ideologiyasının mahiyyətinin kökündə, mərkəzi ideya kimi nüvəsində ölkəmizin bütün sahələrdə davamlı inkişafı naminə, həm Azərbaycan ərazisində dilindən, dinindən, həyat tərzindən, sosial statusundan, təhsilindən və mədəni səviyyəsindən asılı olmayaraq yaşayan bütün xalqların, həm də xaricdə yaşayan həmyerlilərimizin, bütövlükdə azərbaycanlıların milli birlik fəlsəfəsi durur. Bu ideologiya ölkə ərazisində yaşayan bütün xalqları milli-mənəvi dəyərlərlə, ideoloji əsası kimi vətənpərvərliklə, milli maraqların əsasında duran prinsiplərin nəzərə alınması ilə, yəni multikulturallıq və tolerantlığı ilə, vahid fəaliyyət proqramının mövcudluğu ilə birləşdirir.

Bu, özünü aşağıdakı bəzi konseptual məsələlərdə də göstərir:

- Azərbaycançılıq, dövlət ideologiyası deyil, məhz milli ideologiya olduğundan Azərbaycan Respublikasının Konstitusiyasında birbaşa heç bir maddədə yer almamışdır. Lakin bununla yanaşı, Konstitusiyanın 5-ci maddəsində xalqın vahidliyi təsbit edilmiş və göstərilmişdir:

I. Azərbaycan xalqı vahiddir.

II. Azərbaycan xalqının vahidliyi Azərbaycan dövlətinin təməlini təşkil edir. Azərbaycan Respublikası bütün Azərbaycan Respublikası vətəndaşlarının ümumi və bölünməz vətənidir [1].

NƏTİCƏ

Azərbaycançılıq ideologiyasının əsas formulu dilimiz, dinimiz və adət-ənənələrimizdən, yəni milli-mənəvi dəyərlərimizdən ibarət olduğundan onun məhz milli ideologiya olmasına heç bir şübhə yoxdur;

- Azərbaycançılıq milli ideologiya olsa da, milli mənsubiyyəti yoxdur. Çünki özündə bütün ölkədə yaşayan xalqları birləşdirir;
- Milli birlik ideyası əsrlər boyu nəsillərdən nəsillərə ötürülərək möhkəmlənmiş, xalqın fəaliyyətini tənzimləyən mənəviyyatının tərkib hissəsinə çevrilmişdir;
- Ərazisində müxtəlif dinlərə sitayiş edən vətəndaşların yaşamasına baxmayaraq azərbaycançılıq məfkurəsi dünyanın bir çox dövlətləri üçün nümunə ola biləcək tolerantlığa, multikulturallığa, birlik və bütövlüyə, dünyəviliyə zəmanət verir;
- Azərbaycançılıq bir milli ideologiya kimi həm ölkə daxilinə, həm də xaricə yönəlmiş ideologiyadır. Əgər ölkə daxilində azərbaycançılıq mənsub olduğu ölkə haqqında xüsusi təsəvvür formalaşdırırsa, xaricdə dünya azərbaycanlılarına, bütövlükdə bütün ölkələrə birlik, multikulturallıq mesajını verməklə dünyada ölkəmizi tanıtmış olur;
- Azərbaycançılıq zaman və məkan etibarilə tarixin sınqlarından keçmiş və heç bir dəyişikliyə məruz qalmayaraq, aktuallığını itirməmişdir. Azərbaycan ərazisində (ermənilər istisna olmaqla) qədim dövrlərdən bu günə kimi xalqımızın milli mentallığından irəli gələn dəyişməz xüsusiyyətlərini əks etdirən bir dəyər sabitliyi mövcud olmuşdur;
- Azərbaycançılığın birləşdirici və əlaqələndirici xarakteri onu yaşamağa qabil və təsirli edən əsas xüsusiyyətidir. Yəni azərbaycançılıq ölkə ərazisində yaşayan bütün xalqların mövcud sosiomədəni özünəməxsusluqlarına toxunmadan, birləşdirici xarakter daşıyır. Bu ideologiya şəxsiyyətin, cəmiyyətin və dövlətin maraqlarını vahid, uzunmüddətli, pozitiv gələcəkdə birləşdirir;
- Azərbaycançılıq iqtisadi, siyasi, hərbi, sosial, mədəni sahələrdə ölkənin davamlı inkişafına istiqamətləndiyindən və yaşamağa qabil olduğundan həm də ölkənin gələcəyi üçün fəaliyyət proqramıdır.
- Azərbaycanın inkişafı bütün dövrlərdə vətənpərvərliyin, milliliyin və islami dəyərlərin saxlanılmaşına əsaslanmışdır. Bunların hər üçü birgə azərbaycançılıq ideologiyasının mahiyyətində öz əksini tapmışdır.
- Azərbaycançılıq bir tərəfdən cəmiyyətin həyatını, modernləşməsini və inkişafını istiqamətləndirirsə, digər tərəfdən xalqda gerçəkliyə real münasibət formalaşdırır, zamanın, gerçəkliyin tələblərinə cavab verir, xalqın birliyini və həmrəyliyini, xalqlararası, mədəniyyətlərarası dialoqu, tolerantlığı təmin edir;
- Azərbaycançılıq ölkənin ictimai- siyasi həyatında baş verən proseslərdə xalqın şüurlu iştirakını, sosial gərginliyin yumşaldılmasını və həllini təmin edir;
- Ölkəmizin bütün sahələrdə davamlı inkişafına, rifahına nail olmaq istiqamətində xalqımızı səfərbər edir;
- Azərbaycançılıq onu yaradan cəmiyyətin təzahürü olmaqla yanaşı, istər-istəməz həyatın bütün tərəflərini özündə cəmləşdirir, cəmiyyət və onun problemləri, sosial quruluşun mahiyyəti, iqtisadi inkişaf səviyyəsi, sosial-mədəni ənənə ilə əlaqəli problemlər haqqında bilik daşıyır.
- Ən əsası isə azərbaycançılıq ölkənin möhkəmlənməsi, xalqın birliyi üçün insanları mobilizə edən ideologiyadır. Bunu 44 günlük Vətən müharibəsi sübut etdi. Azərbaycan ərazisində yaşayan, Azərbaycanı özünə Vətən bilən azərbaycanlılar Ali Baş Komandan İlham Əliyevin ətrafında birləşərək düşmənə qarşı birgə mübarizə apardılar. Budur azərbaycançılığın gücü, milli birlik və vətənpərvərlik fəlsəfəsi.

İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT

Azərbaycan dilində:

1. Azərbaycan Respublikasının Konstitutsiyası. - http://www.e-qanun.az/framework/897
2. “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”in təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı "https://president.az/az/articles/view/50474
3. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycan Gəncləri Gününün 25 illiyinə həsr olunmuş Gənclər Forumunda iştirak edib /02 fevral 2022/ - https://president.az/az/articles/view/55348
4. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. Dördüncü kitab: İyun 1995 – Noyabr 1995. Çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr. Bakı: Azərnəşr, 1997, -528 s.
5. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir: Çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr. Otuz altıncı kitab: Sentyabr, 2001 - Noyabr, 2001. Bakı: Azərnəşr, 2011, -512 s.
6. İsmayılov D. Azərbaycanın transformasiya prosesində ideologiyalar: konservatizm, liberalizm, sosial-demokratiya. Bakı: Adiloğlu, 2005, -344s.
7. Tağıyev Ə.M., Şükürov M.A. Etnopolitologiya. Bakı: Elm, 2000

İngilis dilində:

8. Forrester, J.W. (1971). World Dynamics. Wright-Allen Press. - https://www.researchgate.net/publication/336692118

Rus dilində:

9. Abbasov A. Национальная идеология и формирование демократической государственности. // Elmi-nəzəri jurnal. Azərbaycan Fəlsəfə və sosial-siyasi elmlər assosiasiyası. Bakı: 2009, №2(26) s.70-89.

Ziba Agayeva

ROLE OF AZERBAIJANI IDEOLOGY IN REALIZATION OF NATIONAL PRIORITIES

Abstract

This research explores the essence of Azerbaijani ideology (Azerbaijani-ness), examining its place and role in social life during the post-war period within the context of implementing national priorities. The study analyzes this ideology across the three levels characteristic of any national ideology: theoretical-conceptual, programmatic-directive, and everyday practice. Azerbaijani ideology is regarded as a vital functional element of the political system, guiding the main directions of development, regulating and sustaining the existing social order, and fostering unity, solidarity, and patriotism. It also serves as a system of core values that preserves the nation's culture and mentality. The study further investigates the structural components of Azerbaijani ideology, which encompass features shaped throughout history—from ancient times to the present. These include traditional knowledge accumulated through the evolutionary process of the Azerbaijani people, as well as elements formed by modern transformations and developments. From a political-philosophical perspective, the research examines the role of Azerbaijani ideology in shaping the nation's political worldview, increasing civic awareness and participation, and contributing to the modernization and development of Azerbaijan.

Key words: national priorities, Azerbaijan, identity, society, statehood, worldview, modernization

AZƏRBAYCANIN SEKULYAR MÜLKİ QANUNVERİCİLİYİNƏ DİNİ HÜQUQ İNSTİTUTLARININ İNTEQRASİYA PERSPEKTİVLƏRİ

Natiq XƏLİLOV,
Azərbaycan Respublikasının Çin Xalq Respublikasındakı Səfirliyində ticarət nümayəndəsinin Aparatının baş məsləhətçisi, hüquq elmləri üzrə fəlsəfə doktoru
(Çin Xalq Respublikası, Sun Yat-Sen Universiteti)

Scopus ID: 57381087600
ORCID ID: 0000-0002-1184-5370
E-mail: nkhalilov@hotmail.com

Xülasə. Məqalədə Azərbaycanda dinin mülki hüququn formalaşmasında oynadığı mühüm rol təhlil edilir, ölkənin mövcud mülki qanunvericiliyində dini hüquq ənənələrinin təsiri araşdırılır və müasir dövrdə dini hüquq institutlarının mülki qanunvericiliyə inteqrasiya perspektivlərinə dair konkret təkliflər irəli sürülür. Tarix boyu din Azərbaycanda hüququn formalaşmasına mühüm təsir göstərmişdir. Atropatena dövründə zərdüştlük sosial nizam və hüquqi institutların yaranmasında əhəmiyyətli rol oynamış, Qafqaz Albaniyasında isə xristianlığın kanonik hüququ mülki münasibətlərin tənzimlənməsində təsirli olmuşdur. VII əsrdən XIX əsrə qədər Azərbaycan hüquq düşüncəsi əsasən islam hüququ prinsipləri əsasında qurulmuşdur. XIX əsrdən etibarən ölkənin hüquq sistemində sekulyarlaşma meyilləri güclənmiş, SSRİ dövründə isə hüquq tam şəkildə dindən ayrılmış və bu tendensiya müstəqillik dövründə daha da möhkəmlənmişdir. Məqalədə müasir dövrdə dövlət və dinin ayrılığı prinsipinə baxmayaraq, dinin, xüsusilə də islam hüququnun Azərbaycanın vərəsəlik, ailə və mülkiyyət hüququ sahələrinə göstərdiyi təsirlər təhlil olunur. Eyni zamanda, sekulyarizm prinsipinin qorunması şərtilə islam hüququna məxsus bəzi institutların müasir çağırışlara uyğun şəkildə mövcud mülki qanunvericiliyə inteqrasiya perspektivləri araşdırılır. Dinin sosial ədalət, hüquq-mühafizə fəaliyyəti və insan hüquqları sahələrində uzunmüddətli və fundamental təsirinin əhəmiyyəti ön plana çıxarılır.

Açar sözlər: mülki hüquq, dini hüquq, zərdüştlük hüququ, kanon hüququ, islam hüququ, vəqf, islam bankçılığı

I. Hüququn formalaşmasında dinin roluna tarixi-nəzəri baxış

Din və hüquq arasındakı münasibət mürəkkəb, dini ideyaların hüquq ənənələrinə təsiri isə danılmazdır. Dini inanclar cəmiyyətləri idarə edən qaydalar, prinsiplər, hüquqlar, öhdəliklər və institutları formalaşdıran əsas dəyərləri təşkil edir. Cəmiyyətlərin hüquq və sosial normaları dünyanın müxtəlif dinləri ilə dərin əlaqəyə malikdir. Dini dəyərlər olmadan hüquq sistemlərinin eyni şəkildə mövcud olacağını iddia etmək çətin olardı.

Din hüquqla sıx bağlı olmaqla onun ayrılmaz bir hissəsini təşkil edir. Hüquq sisteminin əsas dayaqlarından biri kimi dinin təsiri hüququn bir çox sahələrinə nüfuz edir. Həm publik, həm də xüsusi hüququn əsasını təşkil edən bir sıra anlayışlar və prinsiplər mahiyyətcə dini köklərə malikdir. Dini və mənəvi dəyərlər, eləcə də ideallar hüquqi irsin ruhunu və mahiyyətini formalaşdırır [16, s.115].

Görkəmli amerikan hüquqşünası Roskou Paund hüquq elmi sahəsində aparıcı tədqiqatçılardan biri kimi dinin hüququn inkişafında mühüm və müsbət rolunu parlaq şəkildə izah etmişdir. O, dinin hüquqda universallıq, hakimiyyət, xoşniyyətlilik və “ali hüquq” anlayışlarının formalaşmasına güclü təsir göstərdiyini vurğulamışdır [30, s.182].

Din ilə mülki qanunlar arasındakı əlaqənin inkişaf yolu fərqli dövrləri, sivilizasiyaları və inancları əhatə edir. Mesopotamiyada kahinlərin qanun yaradıcılığından Yunanıstanın dünyəvi idarəetmə anlayışına, Roma məmurlarının ikili rollarından monoteist müqəddəs kitabların etik dəyərlərinə qədər dinin hüquq sistemlərinə təsiri olduqca böyükdür. Bir çox cəmiyyətlərdə dini təlimlər mülki qanun və qaydaların təməlini təşkil etmişdir. Əksər sivilizasiyalarda din xadimləri qanunverici kimi əsas rol oynamış, beləliklə, mülki qanunlarla dini praktikanı bir-birinə sıx şəkildə bağlamışdırlar. Bu mənəvi rəhbərlər ilahi və dünyəvi sahələr arasında vasitəçi kimi çıxış edərək qanunların hazırlanmasında böyük təsirə malik olmuşlar. Şumerdən Babilə qədər bir çox cəmiyyətdə kahinlər dini prinsiplərə uyğun olan qanunları yaratmaq və tətbiq etmək məsuliyyətini öz üzərinə götürmüşdülər [20, s.73]. Müasir idarəçilik əsasən dünyəvi hüququ vurğulasa da, dini təlimlərdən qaynaqlanan mənəvi əsaslar hələ də mülki qanunların strukturunda əksini tapır və bu da dinlə cəmiyyətlərin təkamülü arasındakı mürəkkəb əlaqəni xatırladır.

Dini inanclar və təlimlər əxlaq qaydalarının və etik prinsiplərin formalaşmasında mühüm rol oynamış və bu da öz növbəsində hüquq sistemlərinin inkişafına öz təsirini göstərmişdir. Məsələn, xristianlıqda və yəhudilikdə yer alan “On Əmr” Qərb hüquq sistemlərinin əsasını təşkil etmiş və bir çox qanunlarda qətl, oğurluq və yalan şahidlik kimi əməllərin qadağan olunması məhz dini qaydalardan qaynaqlanmışdır [22, s.15]. İslamda isə Quran və Sünnəyə əsaslanan Şəriət hüququ ailə, cinayət və iqtisadi məsələlər də daxil olmaqla, cəmiyyətin müxtəlif sahələrinə təsir edən geniş bir hüquq sisteminə çevrilmişdir.

Erkən və orta əsrlərdə sosial nizam və hüquq əsasən dini prinsiplərə əsaslanırdı. Bu dövrdə bir çox hüquq qaydası teokratik təməllərə söykənirdi ki, bu da din ilə hüquq arasındakı sıx qarşılıqlı əlaqəni aydın şəkildə nümayiş etdirirdi. Xüsusən də Roma hüququnun inkişafında dini təsirin mühüm rolu açıq şəkildə müşahidə olunur. Qədim Romada təxminən eramızdan əvvəl 450-ci ildə tərtib edilən “On iki lövhə” adlı qanunlar toplusu Roma hüququnun əsasını qoymuşdur. Birbaşa dini xarakter daşımamaqla yanaşı, Roma hüququ həm mədəni, həm də dini normalardan təsirlənmiş-

dir. Roma məmurları tez-tez dövlət qulluqçusu və kahin kimi ikili rol oynamış, dini və hüquqi hakimiyyətin birləşməsini göstərmişdilər. Özünü məhkəmədə müdafiə etmək hüququ və bütün vətəndaşların qanun qarşısında bərabərliyi kimi hüquqi prinsiplər Roma dinində mövcud olan ədalət və bərabərlik anlayışları ilə əlaqəli olmuşdur [14, s. 42-44].

Roma hüququnda qaydalar iki əsas kateqoriyaya bölünürdü: biri insanların tanrılarla münasibətlərini tənzimləyən və tanrılar tərəfindən müəyyən edildiyi qəbul edilən "fas" (dini hüquq), digəri isə insanlar arasındakı münasibətləri tənzimləyən "ius" (dünyəvi hüquq) idi. Roma hüququnun ilkin mərhələlərində "fas" və "ius" arasında sərhədlər kifayət qədər qeyri-müəyyən olmuş, bu iki hüquq sahəsi bir-birinə qarışmış vəziyyətdə mövcud olmuşdur [19, s.45]. Dövlət institutlarının inkişafı ilə dinin hüquq üzərindəki təsiri zamanla azalmış, dini hüquq isə tədricən dünyəvi hüquqla əvəz olunmuşdur. Bununla belə, XII–XIII əsrlərdə Roma hüququ hələ də dini hüquqla qarışıq şəkildə tətbiq edilirdi. Bu vəziyyət dövrün dominant dini qurumu olan Katolik kilsəsinin güclü təsiri ilə bağlı idi. Katolik kilsəsi hüquq və dövlət strukturlarında mühüm rol oynayırdı və nəticədə, kilsə hüququ ilə Roma hüququ eyni vaxtda və paralel şəkildə tətbiq olunurdu. Sonralar "qlossatorlar" məktəbinin banisi İrnerius Roma hüququnu kilsə hüququndan ayırmaq məqsədilə bir sıra islahatlar aparsa da, dini təsir tamamilə aradan qalxmamış və Roma hüquq sistemində dini elementlər müəyyən dərəcədə öz mövcudluğunu qoruyub saxlamışdır [28, s.99].

Avropa hüququ Roma hüququ ənənəsinin təsiri altında yaranmış və daha sonra xristian ideyalarından ilhamlanaraq inkişaf etmişdir. Katolik kilsəsində kanon hüququ din və idarəçilik arasındakı əlaqəni göstərir. Kilsə hüququ evlilik, miras və dini təcrübələr kimi məsələləri tənzimləyən mürəkkəb bir qaydalar sistemi olmuşdur. Dini doktrinanın güclü təsiri altında formalaşan bu hüquq orta əsr Avropa cəmiyyətlərində sosial normaların və hüquqi praktikaların formalaşmasında mühüm rol oynamışdır. Teoloji mənbələrin Qərb hüquq ənənəsinin və Avropa hüquq mədəniyyətinin formalaşmasında mühüm rolu olub və bu baxımdan kanonik hüquq Yeni dövrün ilk Qərb hüquq sistemlərindən biri kimi qiymətləndirilir [37; 38]. Niderlandlı tarixçi, filosof və araşdırmaçı Yohann Huizinga öz tədqiqatında qeyd edir ki, latın xristianlığı bütün Qərb mədəniyyətinin, o cümlədən Qərb hüququnun əsasını təşkil edir [18, s.10].

İslamın Qızıl dövrü (VIII-XIII əsrlər) ərzində Əl-Fərabi, İbn Sina və Əl-Qəzali kimi müsəlman alimləri fəlsəfə, din və hüququn qarşılıqlı əlaqəsini araşdırmışdırlar. Onların etika, idarəçilik və ədalət barədə əsərləri islam hüquq nəzəriyyəsinə və sosial ədaləti təşviq edən hüquqi fikirlərin inkişafına dərin təsir göstərmişdir [32, s. 31].

Dinin təsiri, cəmiyyətdə ədalət, bərabərlik, insan ləyaqəti və digər əxlaqi dəyərlərin formalaşmasında mühüm rol oynayır və bu dəyərlər, hüquq və vəzifələrə dair anlayışları müəyyən etməklə mülki hüququn müxtəlif sahələrinin, o cümlədən ailə, vərəsəlik, mülkiyyət və müqavilə hüququnun inkişafına təsir edə bilir. Din xüsusilə ailə hüququnun formalaşmasında əhəmiyyətli bir rol oynayır. Ailə quruluşunu müəyyən edən ənənələr və evlilik qaydaları bir çox cəmiyyətdə dini təsirlər nəticəsində formalaşmışdır. Bəzi ölkələrdə, xüsusilə islam və xristian ölkələrində evliliyə dair dini qaydalar mühüm əhəmiyyət kəsb edir. Məsələn, islam hüququnda evlilik müqavilə olaraq qəbul edilir və ailə hüququ Quran və hədislərə əsaslanır. Eyni zamanda, boşanma prosedurları və ailə münasibətləri ilə bağlı qaydalar da dini dəyərlərdən və tə-

limlərdən irəli gəlir.

Vərəsəlik və mülkiyyət hüququ da dinin təsiri altındadır. Xristian, yəhudi və islam ənənələrində vərəsəliklə bağlı xüsusi qaydalar mövcuddur. İslam hüququnda vərəsəlik Quran və hədislərdə əksini tapır və mülkiyyətin paylaşılması ilə bağlı konkret prinsip və qaydalar müəyyən edilmişdir. Məsələn, islamda vərəsələrə mülkiyyətin bölüşdürülməsi üçün müəyyən bir faiz nisbəti müəyyənləşdirilib. Bu qaydalar hüquqi sistemlərdə mülkiyyətin necə bölüşdürüləcəyini və vərəsələrin hüquqlarını nizamlayır.

Din müqavilə hüququna da təsir edir. Dini inanclar müqavilə bağlanarkən "dürüstlük" və "müqavilələrin müqəddəsliyi" kimi prinsipləri formalaşdırır. Bir çox dini təlimlərdə "səmimiyyət" və "etibar" anlayışları vacib sayılır və bunlar mülki hüquq sistemində müqavilələrin bağlanması və icrası zamanı nəzərə alınır. Bu, xüsusilə dini cəmiyyətlərdə müqavilə münasibətlərinin daha möhkəm və etik prinsiplərə əsaslanmasına səbəb olur.

Sekulyarizmin və dini hüququn qarşılıqlı əlaqəsi də mühüm əhəmiyyət kəsb edir. Bir çox müasir cəmiyyətdə hüquq sistemləri sekulyar prinsiplərə əsaslanır, yəni din və dövlət ayrı tutulur. Bununla belə, bəzi ölkələrdə dini hüquq qanunvericilik və hüquqi təcrübələrdə həlledici rol oynayır. Məsələn, bəzi sekulyar ölkələrdə dini məhkəmələr mülki məsələlərdə (boşanma, vərəsəlik, müqavilə hüququ və s.) təsirli ola bilər. Dini və mədəni inanclara əsaslanan adət hüququ bəzi regionlarda, xüsusən Afrika və Asiyada mülki hüquq sisteminə paralel olaraq fəaliyyət göstərir. Bu hüquq sistemləri dini ənənələrə əsaslanaraq gündəlik həyatda mübahisələri həll edir, ailə məsələlərini tənzimləyir və mülkiyyət hüquqlarını qoruyur. Bu adət hüququ dini cəmiyyətlərin xüsusiyyətlərinə uyğun olaraq formalaşır və çox vaxt yerli hüquq sistemlərinin bir hissəsi kimi qəbul edilir.

Din onu qanunlarından kənarda saxlamağa çalışan hüquq sistemləri də daxil olmaqla, bütün müasir hüquq sistemlərində öz əksini tapır. İctimai sahənin dünyəvi olduğu fərziyyəsinə baxmayaraq, din və hüquq arasındakı əlaqə hələ də mülki hüquq sistemlərinin tətbiqində özünü göstərir. Dini qaydalar bəzən birbaşa dini məhkəmələr vasitəsilə, bəzən isə mülki hüquq normalarının dini yönümlü şərhi vasitəsilə tətbiq olunur. Bu əlaqəni və hüquqa dini təsiri bu gün də görmək mümkündür. Məsələn, bir çox məhkəmə sistemlərində hakimlərin istifadə etdikləri mantiyalar kanonik hüququn təsiri ilə meydana gəlmiş ənənədir. Ayrıca, ABŞ-da və digər bir sıra müsəlman ölkələrində şahidlər İncilə və ya Qurana əl basıb and içirlər ki, bu da dini təsirin müasir hüquq sistemində necə qorunduğunu göstərir. Həmçinin, ABŞ məhkəmələrində andlı iclasların sayının 12 olması İsa Məsihin 12 həvarisi ilə əlaqələndirilən bir ənənədir, bu da dini elementlərin hüquq sistemlərinə necə daxil olduğunu göstərən başqa bir nümunədir [23, s.11].

Göründüyü kimi, din mülki hüquq sistemlərinə müxtəlif yollarla təsir göstərir və bu təsirin məzmunu hər bir ölkənin tarixindən, mədəniyyətindən və hüquqi ənənələrindən asılı olaraq dəyişir. Din mülki hüququn formalaşmasına yalnız hüquqi prinsiplər baxımından deyil, həm də cəmiyyətin sosial və mədəni quruluşunun müəyyən edilməsində vacib rol oynayır. Bu təsir xüsusilə dini təlimlərin tətbiqi və hüquqi mühitin formalaşmasında özünü göstərir.

Beləliklə, dini hüquq və dünyəvi hüquq arasındakı qarşılıqlı təsir və bu təsirin tarix boyu davamlı şəkildə hüquq sistemlərinə daxil edilməsi, müasir dövrə qədər uzanan bir inkişaf prosesidir. Azərbaycanda da tarix boyunca müxtəlif dinlər və təriqətlər mövcud olmuş və bu dinlərin cəmiyyətin sosial, mədəni və

hüquqi həyatına olan təsirləri mülki münasibətlərin inkişafında əhəmiyyətli rol oynamışdır. Xüsusən də zərdüştlük, xristianlıq və islam kimi dinlər ailə hüququ, mülkiyyət hüququ və vərəsəlik hüququ kimi mülki hüququn əsas sahələrində dərin və davamlı izlər buraxmışdır. Bu dinlər mülki hüquq institutlarının qurulmasına və hüquqi sistemin əsas prinsiplərinin formalaşmasına əhəmiyyətli dərəcədə töhfə vermişdir.

Bu məqalə Azərbaycanın mövcud sekulyar mülki hüquq sistemində dini hüquqa məxsus seçilmiş institutların inteqrasiya imkanlarını təhlil edərək, hüquqi islahatlar və normativ uyğunlaşma sahəsində praktik töhfələr vermə potensialına malikdir. Tədqiqat qanunvericilər, hüquqşünaslar və hüquqi siyasət formalaşdıranlar üçün həm nəzəri baza, həm də tətbiq yönümlü tövsiyələr təqdim edir. Məqalənin elmi əhəmiyyəti yalnız tətbiqi aspektlərlə məhdudlaşmır, eyni zamanda hüquqi-mədəni irsin qorunması, hüquqi plüralizmin dəyərləndirilməsi və müxtəlif hüquq sistemləri arasında harmoniyanın araşdırılması baxımından da mühüm töhfə verir.

II. Azərbaycanda din və mülki qanunvericilik əlaqələri: tarixi irs və müasir təsirlər

2.1 Azərbaycanda tarixi kontekstdə dinin mülki hüququn formalaşmasına təsiri

Əsrlər boyu Azərbaycanda din mülki hüququn formalaşmasında mühüm rol oynamış, müxtəlif dövrlərdə fərqli dini sistemlər hüquqi institutların əsasını təşkil etmişdir. Qədim Atropatena dövründə geniş yayılan zərdüştlük dini yalnız inanclar və rituallarla deyil, həm də hüquqi normalarla cəmiyyət həyatına təsir göstərmişdir. Zərdüştlük dininin müqəddəs kitabı sayılan "Avesta" ailə münasibətləri, mülkiyyət hüququ, vərəsəlik və müqavilə öhdəlikləri kimi sahələrdə normativ göstərişlər təqdim edirdi. Bu mənada, "Avesta" yalnız dini yox, həm də hüquqi mənbə funksiyasını yerinə yetirmişdir [9, s.31].

Qafqaz Albaniyası dövründə isə xristianlığın dövlət dini kimi qəbul edilməsi ilə dini hüquq sisteminin inkişafında yeni mərhələ başlamışdır. Bu dövrdə tətbiq olunan "Aquen kanonları" yalnız dini normaları deyil, həm də mülki münasibətləri tənzimləyən hüquqi qaydaları əhatə edirdi. Kilsə hüququnun təsiri ailə münasibətləri, nikah, boşanma, miras və əmlak bölüşdürülməsi kimi sahələrdə özünü göstərmişdir. Bu normativ sənəd Qafqaz Albaniyasında kilsənin hüquqi və sosial sahədəki gücünü və dinin mülki hüququn strukturuna necə sirayət etdiyini sübut edən nadir hüquqi mənbələrdən biri hesab olunur [25, s.301].

VII əsrdən etibarən islamın Azərbaycanda yayılması ilə şəriət hüququ mülki hüququn əsas istiqamətlərini müəyyən etməyə başlamışdır. Quran və Sünnəyə əsaslanan hüquqi sistem ailə hüququndan tutmuş mülkiyyət və vərəsəlik məsələlərinə qədər geniş hüquqi spektri əhatə edirdi. İslam hüququnun tətbiqi Azərbaycanın hüquqi mədəniyyətinə yeni anlayışlar və institutlar gətirmiş, uzun müddət mülki hüququn əsas dayaqlarından biri olmuşdur. Bu təsir yalnız hüquqi deyil, həm də sosial və mədəni sferalarda dərin iz buraxmışdır.

XIX əsrdən etibarən Azərbaycanın hüquq sistemində sekulyarlaşma meyilləri nəzərəçarpacaq dərəcədə güclənməyə başlamışdır. Bu prosesin ilkin təzahürləri Rusiya imperiyasının Qafqazı, o cümlədən Azərbaycan ərazilərini işğal etməsindən sonra müşahidə edilmişdir. Rusiya idarəçiliyi ilə birgə ölkədə yeni hüquq normaları tətbiq olunmağa başlamış, dini hüquq qaydaları isə tədricən arxa plana keçirilmişdir. İmperi-

ya inzibati-hüquqi sistemində dövlət hüququnun üstünlüyü və dini hüququn məhdudlaşdırılması nəticəsində mülki hüquqda sekulyar təsisatların tətbiqi genişlənmişdir.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə isə sekulyar hüquqi islahatlar daha da dərinləşmiş və dövlət-din münasibətlərində yeni mərhələ başlamışdır. 1918–1920-ci illər ərzində qəbul edilən qanunlar hüququn dünyəvi mahiyyətini ön plana çıxarmışdır. Cəmi 17 ay fəaliyyət göstərməsinə baxmayaraq, Azərbaycan Xalq Cümhuriyyətinin parlamenti öz dinamikliyi və səmərəli fəaliyyəti ilə seçilmiş və həyatiliyini sübut etmişdir. Bu müddət ərzində parlamentə 270-dən çox qanun layihəsi təqdim olunmuş, onların təxminən 230-u qəbul edilmişdir. Qəbul edilən qanunlar gənc dövlətin ictimai-siyasi, sosial və iqtisadi sahələrini əhatə edən, mütərəqqi və demokratik ruhlu hüquqi bazanın formalaşmasında mühüm rol oynamışdır [10, s.138].

Sovet İttifaqı dövründə isə sekulyarlaşma prosesi daha da radikallaşmış və ateizm dövlət ideologiyasının əsas sütunlarından birinə çevrilmişdir. SSRİ qanunvericiliyində din tamamilə hüquq sistemindən ayrılmış, dini hüququn tətbiqi qadağan edilmiş və dini institutlar nəzarət altına alınmışdır. Hüquq yalnız marksist-leninçi ideologiya çərçivəsində dünyəvi prinsiplərlə formalaşdırılırdı. Bu dövrdə dini təlimlərə əsaslanan hüquqi yanaşmalar rəsmi şəkildə rədd edilmiş, dinin hüquqa təsiri isə hüquqi planda tamamilə sıfırlanmağa çalışılmışdır. Leninin dinlə mübarizə ilə bağlı məşhur bir fikri var: “Biz dinlə mübarizə aparmağı bacarmalıyıq. Bu, materializmin əsas prinsiplərindən biridir və marksizmin təməlini təşkil edir. Lakin marksizm təkcə materializm deyil — o, daha da irəli gedir. Marksizm bildirir ki, dini rədd etməyi bacarmaq vacibdir və bunun üçün dinə olan inancın və onun yaranma səbəblərinin kütləyə materialist şəkildə izah olunması zəruridir” [40, s.418].

2.2 Müasir dövrdə “din və dövlətin ayrılığı” prinsipinin tətbiqi

Müasir dövrdə Azərbaycan Respublikasının Konstitusiyası dövlətin dünyəvi xarakterini təsbit etməklə din və hüquq arasındakı sərhədi aydın şəkildə müəyyənləşdirmişdir [6]. Müasir Azərbaycan hər nə qədər sekulyar dövlət olsa da, əhalinin böyük hissəsi müsəlmandır və ölkədə islam dini ilə bağlı ənənələr geniş yayılmışdır. Azərbaycan əsrlər boyu islam sivilizasiyasının mərkəzlərindən biri olmuşdur. Azərbaycanlılar islamın yayılmasında, müsəlman intibahının formalaşmasında və islam mədəniyyətinin inkişafında mühüm rol oynamışdır. Bütün bunlar Azərbaycanda İslamın maddi və qeyri-maddi irsinin formalaşması və inkişafı üçün möhkəm zəmin yaratmışdır.

Sovet dövrü Azərbaycan dövlətçiliyi və hüquq tarixində ənənəvi hüquqi və ictimai dəyərlərin yerini yeni ideologiyanın və mərkəzləşdirilmiş dövlət idarəçiliyinin alması ilə xarakterizə olunur. Bu ideologiya, adət hüququ və müsəlman hüququnun normalarını rədd edirdi. Sovet sisteminin dağılmasından sonra isə adət-ənənələrin və milli dəyərlərin bərpası dövrü başladı. XX əsr boyunca fəaliyyətsiz qalan bu ənənələr yenidən canlanmağa başlamışdır.

Sovet irsi Azərbaycanın hüquq sistemində əhəmiyyətli izlər buraxmış və sekulyarizmə təkan verərək dinin hüquqa təsirini məhdudlaşdırmışdır. Lakin post-sovet dövründə ateizmin təşviqinin dayandırılması ilə milli və dini kimliyin dirçəlməsi müşahidə edilir. Hazırda ölkədə dinin dövlətdən ayrı olmasına baxmayaraq, islamın ölkədə ən çox yayılmış din olması, onun cəmiyyətdəki normaların formalaşmasına mühüm təsir göstərir. Cəmiyyətin müxtəlif təbəqələri arasında

dini dəyərlərə maraq artmaqda, İslam mədəniyyəti və inancları yenidən canlanmaqdadır.

Aydındır ki, klassik İslam hüququnda nəzərdə tutulan bir çox normativ tədbirlər, roman-german hüquq ailəsinin modelinə əsaslanan müasir hüquqi dövlət şəraitində tətbiq edilmə bilməz. Bununla belə, islam hüququna aid bəzi institutlar, mexanizmlər və yanaşmalar müasir Azərbaycan mülki hüququna hələ də müəyyən dərəcədə təsir göstərir. Bu baxımdan ailə hüququ və vərəsəlik hüququ xüsusi diqqətəlayiqdir. Bunun səbəbi müsəlman hüququnun bu sahələri tənzimləməyə böyük önəm verməsidir. Bir çox tədqiqatçının da qeyd etdiyi kimi, müsəlman vərəsəlik hüququ Avropa vərəsəlik hüququna nisbətən daha geniş və detallı şəkildə formalaşmışdır. İslamda vərəsəlik hüququnun yüksək səviyyədə inkişaf etməsinə, əsrlər boyu mövcud olmuş inkişaf etmiş müsəlman dövlətlərinin tarixi, bu dövlətlərdə yaradılmış xüsusi mülkiyyət kateqoriyası, Avropanın kontinental hüquq ənənəsindən əhəmiyyətli dərəcədə fərqli olan mülki münasibətlərin tənzimlənmə qaydaları və evliliklə ailəyə göstərilən xüsusi yanaşma təsir etmişdir. Bu səbəbdən islamda vərəsəlik hüququ da özünəməxsus xüsusiyyətlərə malikdir [34, s. 102-104].

Dinin hüquqa təsiri fərdi azadlıqlar və insan hüquqları üzərində yaratdığı nəticələr kontekstində də diqqətə alınmalıdır. Azərbaycan Respublikası Konstitutsiyasının “Vətəni müdafiə” adlı maddəsində qeyd olunur ki, vətəndaşların əqidəsi həqiqi hərbi xidmət keçməyə ziddirsə, qanunla müəyyən edilmiş hallarda, həqiqi hərbi xidmətin alternativ xidmətlə əvəz olunmasına yol verilir [6]. Bu qayda praktikada geniş şəkildə tətbiq edilməsə də, Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini bərpa etməsi və Ermənistanla yaxın gələcəkdə imzalanacaq sülh müqaviləsindən sonra bu müddəanın tətbiqinə başlanılması mümkündür. Burada sekulyar bir dövlətdə insanın vicdan azadlığına və dinə verdiyi önəm, eləcə də dinin müəyyən mənada hüquqa təsiri açıq şəkildə müşahidə olunur. Bu norma ümumi xarakter daşıyır, çünki onun mövcudluğu konkret bir dinin təsirini göstərmir. Burada müxtəlif dinlərin, məsələn, islam, xristianlıq, buddizm və s. nümayəndələrinin dini inancına əsaslanaraq silah götürməməsi hüququna verilən hörmətin ifadəsi var.

İslam hüququnun ənənəvi doktrina formasında tətbiq sahələri və onun qanunvericiliyə təsirinin miqyasını nəzərə alaraq, müasir müsəlman dünyasında hüquq sistemlərini üç kateqoriyaya ayırmaq olar. Birinci kateqoriyaya aid ölkələrdə (Yəmən, Səudiyyə Ərəbistanı, Sudan) islam hüququ əsas hüquq mənbəyi və ictimai nizamın bir hissəsi hesab olunur. İkinci kateqoriyaya aid ölkələrdə (Qətər, Küveyt, Liviya) islam hüququ hüquq sisteminin mərkəzi elementi olmasa da, cəmiyyətin və vətəndaşların həyatında mühüm rol oynayır. Üçüncü kateqoriyaya aid “irəliləmiş” ölkələrdə (Əlcəzair, Misir, İordaniya, İraq, Mərakeş, Suriya) isə islam hüququnun tətbiq sahəsi əhəmiyyətli dərəcədə məhdudlaşmışdır və bu hüquq əsasən şəxsi status məsələləri, nikah, ailə və qəyyumluq hüququ ilə əlaqədar tətbiq oluna bilər. Azərbaycan isə qeyd olunan bu kateqoriyalardan heç birinə aid deyil, çünki ölkəmizdə din dövlətdən ayrıdır və sekulyar hüquq sistemi tətbiq olunur.

Beləliklə, hazırda Azərbaycanda din və dövlətin ayrılığı prinsipi mövcuddur və rəsmi olaraq dinin hüquq üzərində təsiri yox səviyyəsindədir. Lakin ölkənin yüzilliklər boyu islam mədəniyyətinin təsiri altında olması, bəzi hüquqi institutlarda, xüsusilə vərəsəlik və nikah hüququ sahələrində, müəyyən izlər buraxmışdır.

2.2.1. Vərəsəlik və nikah hüququnda dini izlərin təzahürü

Azərbaycanda vərəsəlik hüququ roman-german hüquq sistemi əsasında qurulsa da, onun həm mahiyyətinə, həm də ayrı-ayrı hüquq institutlarına uzun müddət ölkənin ərazisində hökm sürən ənənəvi müsəlman hüququ təsir göstərib. Bu baxımdan, Azərbaycanın vərəsəlik hüququnda roman-german klassik hüquq institutlarının və müsəlman hüquq ənənəsinin dini və hüquqi konsepsiyalarının bir növ sintezi ortaya çıxır.

İslam hüququnda vərəsəlik institutu detallı və sərt qaydalarla tənzimlənir. Bu qaydalar Qurani-Kərimdə açıq şəkildə göstərilmişdir. Şəriət hüququna əsasən, vəsiyyət (vəsiyə) üzrə miras qoyan şəxs qanuni vərəsələr olmayan üçüncü şəxslərə mülkiyyətinin bütün hissəsini verə bilməz. Burada müəyyən qohumlar (övlad, ata-ana, həyat yoldaşı və s.) mirasdan mütləq pay almalıdır, yəni ölən şəxsin iradəsinə baxmayaraq, onların mirasdan məhrum edilməsi mümkün deyil [12]. İslam hüququnda bu sistem "farz" və ya "faraiz" adlandırılır və mirasın şəriətə uyğun bölüşdürülməsi dini bir öhdəlik kimi qəbul olunur. Miras qoyan şəxs yalnız ümumi mirasın üçdə biri üzərində sərbəst vəsiyyət hüququna malikdir, qalan hissə isə şəriətlə müəyyən olunmuş vərəsələr arasında paylanmalıdır. Bu hüquq institutu mahiyyət baxımından sosial məqsədlərə xidmət edir — ailənin qorunması, sosial ədalətin təmin edilməsi və zəif ailə üzvlərinin maddi cəhətdən müdafiəsi. Müsəlman hüququnun bu institutu sekulyar xarakter daşıyan Azərbaycan mülki qanunvericiliyində "mirasda məcburi pay" kimi əks olnunmuşdur [7].

Məcburi pay hüququ vəfat edən şəxsin yaxın qohumlarına, yəni məcburi vərəsələrinə sosial təminat funksiyasını yerinə yetirir. Azərbaycan Respublikasının mülki qanunvericiliyi vərəsəlik hüququnda sosial ədalət prinsipinə əsaslanaraq, dövlət və fərd arasındakı münasibətləri, gender məsələlərini, gənclərlə yaşlı insanlar arasındakı əlaqələri, sabit ailə münasibətlərini və digər mühüm məsələləri nəzərə alaraq, hüquqi əlaqələrdə müəyyən imtiyazlı qruplara (uşaqlar, qadınlar, fiziki qüsurlu şəxslər) digər insanlarla müqayisədə bərabər hüquqi imkanlar təmin edir [3]. Beləliklə, qeyd etmək olar ki, Azərbaycan qanunvericiliyində müəyyən mənada mirasın vəsiyyət üzrə verilməsi islam təlimatlarına uyğun olaraq həyata keçirilir.

Digər tərəfdən, Qədim Roma hüququnda da vəsiyyət etmə azadlığını məhdudlaşdıran prinsip mövcud idi. Qədim Romada ilkin dövrlərdə vəsiyyət edən şəxs öz əmlakına sərəncam verməkdə qeyri-məhdud azadlığa malik idi. "12 cədvəl qanunları"nda belə deyilir: "Uti legassit super pecunia tutelave suae ret, ita ius esto" (Ev təsərrüfatının başçısı öz əmlakına necə sərəncam verirsə, elə də olsun) [24]. Lakin zamanla köhnə patriarxal ailə strukturunun dağılması, əxlaqın əvvəlki sadəliyinin və sərtliyinin itirilməsi ilə yanaşı, vəsiyyətçilər öz qeyri-məhdud azadlıqlarından elə istifadə etməyə başladılar ki, əmlak bəzən vəsiyyətlə tam yad insanlara, hətta təsadüfən orada olan şəxslərə verilirdi, əmlakın formalaşmasında mühüm rol oynamış qohumlar isə kənarda qalır və mirasdan heç nə almırdılar. Nəticə etibarilə, vəsiyyət azadlığına məhdudiyyətlər tədricən tətbiq olunmağa başladı və bu, sonradan bəzi vərəsələrin qanunla mirasda qanuni pay (portio legitima) hüququna çevrildi. Yəni vəsiyyətnamə tərtib edildikdə belə, xüsusi müstəsna hallar istisna olmaqla, şəxsin öz varislərinə (sui heredes), yəni həyat yoldaşına, övladlarına, övladlığa götürdüklərinə, nəvələrinə mirasdan müəyyən minimum pay almaq üçün təminat verilirdi [33, s.322]. Bu məhdudiyyətlər sosial və ailəvi əlaqələri qorumaq məqsədi daşıyır-

dı və Roma hüququnun ədalət prinsiplərinə uyğun olaraq həyata keçirilirdi.

Göründüyü kimi, Azərbaycan vərəsəlik hüququna mirasda məcburi pay institutunun şəriət hüququndan,yoxsa Roma hüququndan daxil olması məsələsi mübahisə predmeti ola bilər.

Bununla yanaşı, müsəlman hüququndan çox maraqlı bir müddəa nəzərə alınaraq, "mirasa daxil olmayan əmlak" adı altında Azərbaycan Respublikası Mülki Məcəlləsinə daxil edilmişdir. Bu müddəaya əsasən, ailə dəftər-kitabları, ailə xronikaları, xatirə və digər ayin predmetləri, həmçinin qəbirlər mirasa daxil edilmir və vərəsələr arasında bölüşdürülmür. Bu növ əmlak, mövcud adətə əsasən, müvafiq vərəsəyə verilir. Həmçinin, mirasdan imtina edən vərəsə də bu əmlakı qəbul edə bilər [7, maddə 1155]. Müsəlman hüququnda, əgər miras tək və bölünməz əşyalarla təmsil olunursa, mirasın bölüşdürülməsinə dair xüsusi qaydalar tətbiq olunur [34, s.104]. Məsələn, vəfat edən şəxsdən sonra yalnız bir ədəd üzük, Quran, qılınc və ya bir növ geyim kimi əşyalar qalsa, bu əşyaları vəfat edən kişinin ən böyük oğlu alır. Əgər belə əşyalar birdən çox sayda qalırsa, onda ən böyük oğul bu əşyaları digər vərəsələrlə bölüşməlidir. Məsələn, vəfat edən şəxsin iki əkiz və ya fərqli arvadlardan iki eyni yaşda oğlu qalarsa, bu əşyaları onlar arasında bölünməlidir. Lakin vəfat edən şəxsdən borclar qalırsa, vərəsələr bu borcları vəfat edən şəxsin əmlakı ilə ödəməlidirlər və bu əmlaka yuxarıda qeyd olunan əşyalar da daxildir [39, s.170].

Azərbaycanda nikah hüququ da vərəsəlik hüququ kimi şəriətin təsirinə məruz qalmaqdadır. Düzdür, hazırda Azərbaycanın nikah hüququ ilə bağlı qanunvericiliyində islam hüququnun institutları əks olunmasa və o, tam sekulyar təbitə malik olsa da, dini ənənələr sekulyar nikah hüququnun tətbiqinə birbaşa təsir göstərir. Belə ki, ölkədə ailə quran cütlüklərin əksər hissəsi həm hüquqi nikah, həm də dini nikah (kəbin) bağlamağa üstünlük versə də, bəzi cütlüklər yalnız dini nikah bağlayaraq hüquqi nikahı rəsmiləşdirmirlər. Dini nikah, rəsmi dövlət nikahından fərqli olaraq, yalnız dini qaydalara əsaslanır və hüquqi qüvvəyə malik olmadığına görə bəzən hüquqi mübahisələrə səbəb olur. Belə ki, Azərbaycan Respublikası Ailə Məcəlləsinin müvafiq müddəalarına əsasən, yalnız müvafiq dövlət orqanları tərəfindən qeydiyyata alınan hüquqi nikahlar qanuni və etibarlı hesab olunur [1]. Əslində Azərbaycanda yalnız hüquqi nikah rəsmiləşdiriləndən sonra dini nikah bağlana bilər. Lakin bu, Qafqaz Müsəlmanları İdarəsinin tərəfindən verilən tövsiyə xarakterli bir qaydadır və hüquqi məcburiyyət daşımır. Rəsmi nikah olmadan dini nikah kəsən din xadimlərinə qarşı hüquqi cəza mexanizmi mövcud deyil və onlar cinayət məsuliyyətinə cəlb edilmir. Bununla yanaşı, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə edilmiş yeni dəyişikliyə əsasən, yetkinlik yaşına çatmayan şəxslər barəsində dini kəbinkəsmə edən şəxslər ya cərimələnəcək, ya da inzibati qaydada həbs olunacaq [5].

Qohum-əqrəba evliliyindən doğulan uşaqlar genetik xəstəliklər və pozuntular, uşaq ölümü riski ilə üzləşirlər. Bu baxımdan Azərbaycanda Ailə Məcəlləsinə edilən yeni dəyişikliklərlə əmi, bibi, xala və dayı uşaqlarının evliliyi qanunla qadağan edilib. Bu qayda 2025-ci il iyulun 1-dən etibarən qüvvəyə minmişdir [1]. Ailə Məcəlləsinə bu dəyişikliyin edilməsi geniş mübahisələrə yol açıb. Bəzi mütəxəssislər və vətəndaşlar bu dəyişiklikləri ictimai sağlamlıq və sosial normalara uyğun olaraq müdafiə etsə də, digərləri bu cür məhdudiyyətlərin insan hüquq və azadlıqlarını pozduğunu irəli sürürlər. Bu dəyişiklik İslam hüququnun nikah hüququ sahəsindəki təsirlərinin tədricən aradan qaldırılması kimi də qiy-

mətləndirilə bilər. Əmi, xala, bibi və dayı uşaqları arasında nikah islam hüququ baxımından haram deyil və şəriət bu cür qohum evliliklərinə icazə verir. Belə ki, islamın müqəddəs kitabı olan Quranda, "ən-Nisa" surəsində qadağan edilən evliliklər haqqında ətraflı bir siyahı təqdim edilir: atanın bacıları, ananın bacıları, qardaşın qızları, bacının qızları və süd anaları. Lakin bu siyahı əmi, xala, bibi və dayı uşaqlarını əhatə etmir və axırda belə deyilir: “Bunlardan başqa bütün digərləri sizə halaldır” [12].

Göründüyü kimi, Azərbaycanda qüvvədə olan nikah hüququnda islam hüququnun müəyyən izləri hələ də müşahidə olunmaqdadır. Lakin, əmi, bibi, xala və dayı uşaqları kimi qohumlar arasında evliliyin qanunla qadağan edilməsi islam hüququndan gələn ənənəvi hüquqi modellərinin müasir dünyəvi hüquq prinsipləri və ictimai sağlamlıq mülahizələri naminə mərhələli şəkildə dəyişdirildiyini göstərir. Bu isə ölkə qanunvericiliyinin dünyəvi və müasir hüquqi norma əsaslı inkişafı kontekstində dini hüquq sisteminin təsirlərinin hüquqi tənzimləmələrdən çıxarılması tendensiyası kimi qiymətləndirilə bilər.

Nəticə etibarilə, Azərbaycanın müstəqillik dövründə qəbul etdiyi sekulyar hüquq sistemi, Sovet irsinin təsiri ilə dinin hüquqi sahəyə təsirini məhdudlaşdırsa da, ölkənin tarixi, mədəni və dini kökləri səbəbindən islam hüququnun müəyyən institutları, xüsusilə ailə və vərəsəlik hüququ sahələrində hüquqi ənənələrdə izlərini saxlamışdır. Mirasda məcburi pay, mirasa daxil olmayan əmlak, dini nikah təcrübəsi və vicdan azadlığının qanunvericilikdə əks olunması kimi nümunələr bu təsirin müasir formada yaşadığını göstərir. Lakin son dövrlərdə xüsusilə əmi, bibi, xala və dayı uşaqları arasında nikahın qadağan olunması kimi dəyişikliklər islam hüququndan qaynaqlanan bəzi ənənəvi modellərin müasir hüquqi, tibbi və sosial normaların təmin olunması naminə mərhələli şəkildə aradan qaldırıldığını da nümayiş etdirir. Bu dinamika Azərbaycanın hüquq sistemində dinin tarixi təsiri ilə müasir sekulyar dövlətçilik arasında davam edən tarazlıq axtarışını əks etdirir.

III. Azərbaycanın mövcud mülki qanunvericiliyinə islam hüquq institutlarının inteqrasiya perspektivləri

3.1. Dünyada hüquqi plüralizmin tətbiqi təcrübəsi

Dinin insan cəmiyyətinin psixoloji və sosioloji əsasları üzərindəki təsiri danılmazdır. İnsanların ilahi bir varlığa etdiyi sitayiş onları mənəvi təmizlik və daxili rahatlıq axtarışına yönəldir. Bu baxımdan dinin insan cəmiyyətinin və dövlətin rifahına xidmət edən bir amil kimi mövcudluğu xüsusi əhəmiyyət kəsb edir. Lakin dinin hüquq üzərindəki təsirinin həddindən artıq güclənməsi, dövlətdəki sekulyarizmin pozulmasına səbəb ola bilər. Buna görə də bu məsələyə balanslı bir yanaşma sərgiləmək vacibdir. Müəllif hesab edir ki, həm dünyəvi dövlət strukturu qorunmalı, həm də cəmiyyətin köklərinə, dini dəyərlərə bağlılıq saxlanılmalıdır. Sekulyarizmin zəifləməsi, dinin hüquq üzərindəki təsirinin artması, cəmiyyətin müxtəlif qruplarının hüquqlarının pozulmasına yol aça bilər. Eyni zamanda, dini dəyərlərə bağlılıq, xalqın mənəvi təməlini və mədəniyyətini qorumağa kömək edir. Buna görə də hüquq sistemində dini və dünyəvi prinsiplər arasında tarazlıq və uyğunluq tapmaq vacibdir.

Tarixə nəzər yetirsək görərik ki, orta əsrlərdə bir çox Qərbi Avropa ölkələrində dini və dünyəvi hüquq paralel şəkildə tətbiq olunurdu. Din xadimlərinin bu hüquqi strukturu öz məqsədlərinə uyğun olaraq istifadə etməsi həmin sistemin çöküşünə

və ardıcıl olaraq burjua inqilablarının baş verməsinə səbəb olmuşdu. Lakin bu, dini və dünyəvi hüququn birgə tətbiqinin effektiv olmadığı anlamına gəlmir. Məsələn, bu gün Pakistanda anqlo-sakson hüquq sistemi ilə yanaşı, islam hüququ da uğurla tətbiq edilir. Digər bir nümunə olaraq, İsraildə həm roman-german, həm anqlo-sakson, həm də dini-ənənəvi hüquq sistemlərinin paralel şəkildə işlədiyi bir vəziyyət mövcuddur. Həmçinin, Malayziyada şəriət qanunları müsəlmanların şəxsi hüquqları və ailə məsələlərində tətbiq edilərkən, ümumi mülki qanunlar qeyri-müsəlmanlar üçün istifadə olunur. Bunlar dini və dünyəvi hüquq sistemlərinin birgə uğurlu fəaliyyətinin mümkün olduğunu isbat edən nümunələrdir.

İslam hüququ şəxsi status (nikah, ailə və vərəsəlik hüuqu) və cinayət hüququ sahələrindən başqa, adətən, müasir müsəlman ölkələrinin Avropa hüquq modellərinə uyğunlaşdırılmış qanunvericilik normaları ilə kifayət qədər harmonik şəkildə uzlaşır. Bunun bariz nümunəsi olaraq, əksər müsəlman ölkələrində qüvvədə olan Avropa tipli mülki və ticarət məcəllələrini göstərmək olar. Bu məcəllələr müəyyən islam hüquq normalarını, prinsiplərini və hətta institutlarını (məsələn, hüquqdan sui-istifadə, torpağın mülkiyyətə üstünlük hüququ ilə alınması, vəqf əmlakı, torpaq icarəsi ilə bağlı məsələlər) özündə əks etdirir ki, bu da qanunvericiliyin ümumi mahiyyətinə zidd deyil.[1]

İlk baxışdan dini məhkəmələrin, xüsusən də şəriət məhkəmələrinin, sekulyar və demokratik cəmiyyətlərlə uyğunluğu şübhə doğura bilər. Lakin yəhudi və islam məhkəmələri ABŞ, İngiltərə və İsrail kimi ölkələrdə fəaliyyət göstərir. Bəzi ölkələr müstəqil dini qurumlara müəyyən hallarda öz dinlərinin qanunlarını tətbiq etməyə və hökm verməyə icazə verirlər. Məsələn, Birləşmiş Krallıq islam tribunallarına evlilik, boşanma və miras məsələlərində hər iki tərəfin razılığı olduğu təqdirdə hüquqi cəhətdən məcburi qərarlar verməyə imkan verir. Bənzər mexanizmlər yəhudi və anglikan icmaları üçün də mövcuddur. İsraildə isə xristianlar, yəhudilər və müsəlmanlar ailə hüququ məsələlərini dini məhkəmələrdə həll edə bilərlər, həmçinin bir neçə digər dini icmanın üzvləri də eyni hüquqa malikdirlər. İsraildə şəriət və yəhudi məhkəmələrinin sədrləri Prezident tərəfindən təyin olunur və dövlət büdcəsindən maaş alır. Bundan əlavə, müsəlman azlıqların yaşadığı Avstraliya, Yaponya, Birləşmiş Krallıq və Amerika Birləşmiş Ştatları kimi ölkələr islam bankçılığını və ya şəriətə uyğun bankçılığı qəbul edirlər [29, s. 745].

Azərbaycanın sekulyar bir ölkə olmasına baxmayaraq, islam ənənələri gündəlik həyatda hələ də mühüm rol oynamaqdadır. Azərbaycanlıların əksəriyyəti Ramazan və Qurban bayramı kimi əsas islam bayramlarını ailəvi şəkildə qeyd edir. Ramazan ayında oruc tutmaq, məscidə getmək və zəkat vermək geniş yayılıb, həmçinin əhalinin böyük bir hissəsi halal qida qaydalarına riayət edir. İslam dəyərlərinə əsaslanan ailəvi dəyərlər, yaşlılara hörmət və sıx ailə bağları gündəlik həyatda mühüm yer tutur. Bundan əlavə, nikah zamanı kəbin kəsdirmək və dəfn mərasimlərində islam ənənələrini yerinə yetirmək Azərbaycan mədəniyyətində islamla dərin əlaqəni nümayiş etdirir.

Bu baxımdan multikulturalizm siyasətinin Azərbaycanda geniş vüsət aldığı bir şəraitdə, ölkədə hüquqi plüralizmin[2] tət-

[1] Məsələn, Misir və Tunisdə Avropa tipli mülki və ticarət məcəllələri tətbiq edilsə də, bu məcəllələrdə islam hüququnun bəzi prinsipləri (məsələn, vəqf və torpaq mülkiyyəti ilə bağlı məsələlər) öz əksini tapmışdır.

[2] "Hüquqi plüralizm", bir ölkə və ya icma daxilində müxtəlif hüquq sistemlərinin və ya qaydalarının eyni anda mövcud olmasını nəzərdə tutur.

biqi və islam hüququnun bəzi institutlarının mövcud mülki qanunvericiliyə inteqrasiya perspektivləri nəzərdən keçirilə bilər. Hüquqi plüralizm müxtəlif hüquq ənənələrinin tanınması, müxtəlifliyin təmin edilməsi, insan hüquqlarını müdafiə edən, sosial həmrəyliyi inkişaf etdirən və hər kəs üçün ədalət məqsədi güdən inklüziv və ədalətli hüquq sisteminin qurulması məqsədini güdür.

Hazırda Azərbaycanda müsəlman hüquq institutlarının praktik tətbiqi məsələsi gündəmdə olmasa da, bu mövzu yaxın gələcəkdə aktuallaşa bilər. Müsəlman hüququnun bəzi normalarının, prinsiplərinin və institutlarının nəzərə alınması və onların Avropa modelinə uyğun hüquq sisteminə daxil edilməsi Azərbaycanın qanunvericiliyinin inkişafının mümkün perspektivlərindən biridir. Hazırkı mülki qanunvericiliyə dərin təhlil və praktiki əsaslarla inteqrasiya edilmiş bəzi müsəlman hüquq institutları Azərbaycan üçün faydalı ola bilər. Azərbaycanda müsəlman hüquq mədəniyyətinin aktuallığı ilk növbədə ondan irəli gəlir ki, islam ölkə və millət üçün heç də yad və xarici bir ünsür deyil, əksinə o, Azərbaycan tarixinin və mədəniyyətinin ayrılmaz hissəsidir. Eyni zamanda islam dini bir çox azərbaycanlının həyat tərzinin mühüm bir hissəsini təşkil edir. Bu baxımdan, bəzi islam hüquq institutlarının Azərbaycanın hüquq sisteminə inteqrasiya edilməsi həmçinin ölkədə yüzilliklər ərzində kök salmış ciddi hüquq mədəniyyətinin bərpasının təbii bir prosesi kimi də qəbul edilə bilər.

İslam hüququnun müəyyən institutlarının müasir qanunvericiliyə daxil edilməsi yalnız diqqətlə hazırlanmış, əhatəli və mərhələli şəkildə həyata keçiriləcək tədbirlər vasitəsilə mümkündür. Bu, yalnız o halda reallaşdırıla bilər ki, inteqrasiyası planlaşdırılan müsəlman hüququnun prinsipləri öz məzmunu baxımından Azərbaycan hüququnun ümumi prinsipləri ilə uyğunlaşsın və formaca müasir Azərbaycan hüquq mədəniyyəti tərəfindən qəbul edilsin. Bu qanunvericilik fəaliyyəti böyük həcmdə nəzəri və praktiki təhlillər tələb edir.

Gələcəkdə, Azərbaycan qanunvericiliyində islam hüququnun ailə, xeyriyyəçilik və maliyyə məsələlərinin həlli təcrübəsinə müraciət etmək perspektivli ola bilər.

3.2. İslamda boşanmadan sonra uşaqların himayəsi ilə bağlı “hadhanah” institutunun tətbiqi perspektivləri

İslam hüququnda nikah və vərəsəlik məsələləri ilə bağlı bəzi prinsiplər müasir sekulyar hüquq sistemlərinin “bərabərlik hüququ” prinsipi ilə uyğunlaşmır. Məsələn, kişilərin dörd arvad ilə evlənmək imkanı, kişilərlər ilə müqayisədə qadınların miras paylarının fərqli həcmdə təyin olunması və boşanma qaydalarının müxtəlifliyi kimi məsələlər müasir hüquq sistemlərində tamamilə fərqli şəkildə tənzimlənir. Buna baxmayaraq, islam hüququnda uşaqların qorunması və himayəsi ilə bağlı olan prinsipi müasir hüquq sisteminə inteqrasiya edilə biləcək əhəmiyyətli institutdur.

Azərbaycanda formalaşmış məhkəmə praktikasına əsasən, boşanma zamanı uşaqların əksər hallarda anası ilə qalması təcrübəsi mövcuddur. Lakin müsəlman hüququna görə, valideynlərin boşanmasından sonra uşağın anası ilə qalması yalnız müəyyən şərtlər altında mümkündür. İslam hüququnda boşanmadan sonra uşağın qayğısına qalma “hadhanah” (bəsləmə) adlanır. Bu, uşağın anası tərəfindən qorunması və tərbiyə olunması prinsipini ifadə edir. Ancaq bu hüquq yalnız ana təkrar ərə getmədiyi müddətcə qüvvədədir [31]. Çünki müsəlman hüququna görə, ana ərə getdikdən sonra əri uşağın ögey ata-

sı hesab olunur və ögey ata ilə uşağın yaşaması müəyyən etik və hüquqi səbəblərdən icazə verilmir.

Xüsusilə qız uşaqlarının qorunması məqsədilə tətbiq olunan bu prinsipə görə, şəriət ögey atanı yad şəxs kimi qəbul edir və qız uşağının onunla eyni evdə yaşaması məhdudlaşdırılır. Bu yanaşma uşağın həm fiziki, həm də mənəvi təhlükəsizliyinin təminatını hədəfləyir.

Azərbaycanın mövcud sosial-mədəni mühitində bu prinsip xalqın ənənəvi dəyərləri ilə müəyyən qədər uyğunlaşır. Bu yanaşma uşaqların təhlükəsizliyinin təmin olunmasına xidmət etməklə yanaşı, ailə mühitində ənənəvi dəyərlərin qorunmasına da müsbət təsir göstərə bilər. Təbii ki, bu hüquqi institutun tətbiqi yalnız cəmiyyətin cari ehtiyacları və tələbləri nəzərə alınmaqla həyata keçirilə bilər.

3.3. Vəqf institutu: xeyriyyəçilik fəaliyyətinin tənzimlənməsi

3.3.1. Vəqf hüquq institutuna hüquqi baxış

Azərbaycanda xeyriyyəçilik fəaliyyətinin təşviqi məqsədilə mülki qanunvericiliyin təkmilləşdirilməsi kontekstində, ölkəmizdə tarixən mövcud olmuş islam hüququnun vəqf institutunun inteqrasiyası nəzərdən keçirilə bilər.

Vəqf (ərəb. “saxlama”, “dayandırma”) – dövriyyədən çıxarılmış, satılması və miras qoyulması qadağan olunan, vergidən azad edilmiş və islam dininə, xeyriyyə məqsədlərinə, maddi yardım göstərilməsinə və islamın dəstəklənməsinə xidmət edən bir əmlak növüdür. Vəqf – şəxslər və ya dövlət tərəfindən dini və ya xeyriyyə məqsədləri üçün ayrılır. Vəqfin tərkibinə həm daşınmaz, həm də daşınar əmlak daxil ola bilər [26, s.119]. Müəyyən bir əmlak vəqfə verildikdən sonra o, vəqfin təsisçisinin mülkiyyətindən çıxsa da, vəqfi qəbul edən və onu vəqfin göstərdiyi mənfəət sahiblərinin maraqları naminə idarə edən şəxsin mülkiyyətinə də çevrilmir.

Əsrlər boyu müsəlmanların sosial-iqtisadi və dini həyatının bir çox istiqamətlərini müəyyən edən məhz vəqflər olmuşdur. Bununla yanaşı, vəqf islam dünyasında ali təhsilin davamlı maliyyə mənbəyi olmuşdur. Vəqf vəsaitlərindən yalnız təhsil müəssisələri və orada çalışan müəllim və tələbələr deyil, həm də yardımçı heyət – aşpazlar, bərbərlər, mühafizəçilər və digərləri faydalanırdılar [36, s.105]. Vəqflərin tarixi təsiri ondan ibarət idi ki, sosial sahədə dövlətin bəzi funksiyalarını öz üzərinə götürərək və islam dünyasının müxtəlif regionlarında geniş yayılaraq fərdi, qrup və dövlət ehtiyaclarını ödəyə bilirdilər. Məsələn, XIX əsrin sonlarında Osmanlı imperiyasında sosial təminat, təhsil, dini qurumlar, yol və körpülərin, su təchizatı sistemlərinin, xəstəxanaların, mehmanxanaların tikintisi və təmiri kimi bütün dövlət və “bələdiyyə” xidmətləri vəqflər vasitəsilə maliyyələşdirilir və həyata keçirilirdi [13, s.44]. Vəqf sistemində maddi vəziyyətindən, cinsindən və hətta dinindən asılı olmayaraq Osmanlı cəmiyyətinin demək olar ki, bütün təbəqələrinin nümayəndələri iştirak edirdi. Osmanlı imperiyasında hətta qeyri-müsəlmanların qurduğu vəqflər də meydana çıxmağa başlamışdı. Bu, zimmilərin (müsəlman dövlətində qeyri-müsəlman əhali) islam mədəni mühitinə uyğunlaşdığının göstəricisi idi [21, s.263].

İslam hüququ üzrə bir sıra alimlərin fikrincə, yüksək ehtimalla vəqf ingilis hüququnda etimad institutunun (trast) yaradılması üçün bir model rolunu oynamışdır. Ən əsaslı və tarixi baxımdan inandırıcı versiyalardan biri ondan ibarətdir ki, vəqf institutu əvvəlcə ərəblərin uzun müddət hökmranlıq etdiyi Si-

ciliya adasında formalaşmış, daha sonra isə həmin ərazi normanlar tərəfindən fəth edildikdən sonra bu hüquqi model İngiltərəyə gətirilmişdir [35, s.148]. Məsələn, İngiltərədəki Oksford Universiteti vəqfə bənzər bir mexanizm əsasında qurulub [17, s.1231].

Bütün sosial məsələlərin həllində dövlətin məsuliyyət daşıdığı tipik Qərb yanaşması öz çatışmazlıqlarını hələ 1970-1980-ci illərdən etibarən "ümumi rifah dövləti" (welfare state) ideologiyasının böhran yaşadığı zaman göstərdi. Bu böhran iqtisadiyyatda kəskin durğunluğa səbəb oldu, nəticədə aşağı iqtisadi artım və yüksək işsizlik müşahidə edildi. Bu vəziyyət sosial təminat fondlarına daxilolmaların azalmasına, eyni zamanda işsizlik müavinətlərinin artmasına gətirib çıxardı. 2008–2013-cü illər arasında baş vermiş son iqtisadi tənəzzül də oxşar tendensiyaları təkrarlayaraq ümumi rifah dövlətinin maliyyə vəziyyətinə təzyiq göstərdi [27, s.397].

Hazırda Avropa və Amerikada özəl fondlar inkişaf edir və müxtəlif imkansız qruplara kömək edir, ekoloji və digər sosial problemləri həll edir. Qərbdə bir çox milyarder və milyonçu indi sərvətlərinin böyük hissəsini xeyriyyəçilik işlərinə vəsiyyət edir. Müəyyən maddi səviyyəyə çatmış insanların sosial məsuliyyətinə əhəmiyyət verməsi tamamilə məntiqlidir. Amma müsəlmanlar üçün belə bir sistemin, demək olar ki, islamın yaranmasından bəri mövcud olduğunu anlamaq daha vacibdir. Qərb dünyasının indi intuitiv olaraq gəldiyi model müsəlman dünyasında hələ qədim zamanlardan bəri mövcuddur. Adət-ənənələrin öyrənilməsi və yaşadılması keçmişə dönüş kimi deyil, əksinə, tarixi təcrübənin göstərdiyi kimi zamana uyğunlaşma kimi çıxış edir, müasirliyə yeni məna qazandırır və hətta onu qabaqlamağa imkan verir. Bir millət üçün tarixi və ənənələri bilməkdən əlavə, onların müasir dövr üçün nə qədər önəmli və uyğun olduğunu dərk etmək də vacibdir.

3.3.2. Vəqf institutunun Azərbaycanda tarixi mövcudluğu və müasir dövrdə tətbiqi perspektivləri

Vəqflər hər bir müsəlman xalqının, o cümlədən azərbaycanlıların tarixi ilə ayrılmaz şəkildə bağlıdır. Azərbaycanda islam mədəniyyətinin dərin kök saldığı dövrlərdən etibarən sosial yardım ənənələri formalaşmışdır. Orta əsrlərdə Azərbaycanda islam cəmiyyətləri, zəngin və mürəkkəb vəqf sistemləri vasitəsilə müxtəlif xeyriyyə işləri həyata keçirirdilər. Bu vəqflər xüsusilə xəstəxanalar, məktəblər və şorbaxanaların maliyyələşdirilməsində mühüm rol oynamışdır. Əsasən varlı şəxslər tərəfindən yaradılan bu vəqflər cəmiyyət üçün daimi dəstək mənbəyi kimi fəaliyyət göstərmişdir [11, s.27].

İslamın sosial yardım təcrübəsi zamanla dəyişən cəmiyyətlərin ehtiyaclarına uyğunlaşaraq inkişaf etmişdir. Müsəlman aləminin ayrılmaz bir hissəsi olan Azərbaycanda da vəqf mədəniyyəti zəngin tarixi təcrübə ilə formalaşmış və cəmiyyətin sosial strukturunda mühüm yer tutmuşdur. Təkcə XX əsrin əvvəllərinə nəzər yetirdikdə belə, bu dövrdə cəmiyyətin maddi rifahının yüksəldilməsində və sosial məsuliyyətin həyata keçirilməsində mühüm rol oynamış şəxslərlə qarşılaşırıq. Hacı Zeynalabdin Tağıyev, Şəmsi Əsədullayev, Murtuza Muxtarov və Ağamusa Nağıyev kimi görkəmli xeyriyyəçilər əldə etdikləri sərvəti cəmiyyətin rifahı naminə sərf edərək gələcək nəsillərə nümunə olublar. Azərbaycanın vəqf mədəniyyətinin bu dövrdəki ən parlaq nümunələri sırasında xeyriyyə cəmiyyətləri xüsusi yer tutur. Bu cəmiyyətləri əsasən iki istiqamətdə qruplaşdırmaq mümkündür: ehtiyacı olanlara birbaşa

yardım göstərmək və maarifçilik, təhsil fəaliyyətinə dəstək vermək. XX əsrin əvvəllərində bu sahədə fəaliyyət göstərmiş Bakı və Gəncə Müsəlman Xeyriyyə cəmiyyətləri xüsusi qeyd edilməlidir. Həmin təşkilatların əsas məqsədi aztəminatlı müsəlman ailələrinə geyim və ərzaq yardımı göstərmək, zərurət olduqda isə maddi müavinətlə təmin etmək idi. Bundan əlavə, bu cəmiyyətlər imkansız gənclərin xaricdə təhsil almalarına da dəstək göstərirdilər.

Müasir Azərbaycanda xeyriyyəçilik fəaliyyəti davam edir və müxtəlif fondlar, ictimai birliklər və qeyri-hökumət təşkilatları tərəfindən həyata keçirilir. Lakin bu sahə hələlik xüsusi bir qanunvericilik aktı ilə tənzimlənmir və mövcud fəaliyyət əsasən ümumi mülki qanunvericilik çərçivəsində həyata keçirilir. Azərbaycanda "Xeyriyyəçilik fəaliyyəti haqqında" Qanunun qəbul edilməsi ilə bağlı müzakirələrin artıq 10 ildən çoxdur ki, aparılmasına baxmayaraq, hələ də nəticə əldə olunmamışdır. Bu isə bəzi hallarda xeyriyyə fəaliyyətinin institusional və davamlı şəkildə inkişafına maneələr törədə bilər.

Vətən müharibəsindən sonra Qarabağ Dirçəliş Fondu və YAŞAT Fondu yaradılmışdır. Dövlətin bu təşəbbüsə verdiyi dəstək, xeyriyyəçilik fəaliyyətinin yalnız cəmiyyətin sosial ehtiyaclarını ödəmək üçün deyil, həm də vətəndaşların, iş adamlarının və şirkətlərin könüllü olaraq bu fondlara vəsait təqdim etməsi ilə həyata keçirilir. Bu vəsaitlər, yüzlərlə qazinin həm Azərbaycanda, həm də xaricdə müalicə almasına və sağlamlıqlarını bərpa etmələrinə imkan yaratmışdır. Bu nümunə Azərbaycanda xeyriyyəçilik fəaliyyətlərinin inkişafına dövlət dəstəyinin nə qədər əhəmiyyətli olduğunu göstərir. Dövlətin dəstəyi ilə həyata keçirilən bu cür layihələr, xeyriyyəçilik sahəsində həmrəylik və sosial məsuliyyətin güclənməsinə, cəmiyyətdə humanizm prinsiplərinin geniş yayılmasına töhfə verir.

Xeyriyyəçiliyin ölkə daxilində dövlət səviyyəsində dəstəkləndiyi nəzərə alındıqda, bu sahənin tənzimlənməsi üçün ciddi hüquqi baza yaradılmasının zəruriliyi aydın olur. Bununla yanaşı, xeyriyyəçilik fəaliyyətinin stimullaşdırılması məqsədilə müəyyən vergi güzəştlərinin tətbiqi vacibdir. Belə tədbirlər yalnız xeyriyyəçi təşkilatları deyil, həm də sahibkarları, iş adamlarını bu sahəyə cəlb edəcək və xeyriyyəçilik fəaliyyətinin daha geniş vüsət almasına təkan verəcəkdir.

Xeyriyyəçilik fəaliyyətini hüquqi cəhətdən tənzimləyən bir qanunun qəbul edilməsi Azərbaycan cəmiyyətində sosial harmoniyanın, hümanizm prinsiplərinin yayılmasının, sosial ədalət və həmrəylik kimi dəyərlərin möhkəmlənməsinə müsbət təsir göstərə bilər. İslam hüququ Azərbaycan qanunvericiliyindən fərqli olaraq, xeyriyyəçilik fəaliyyətinin hüquqi statusunu və üç əsas tərəfinin – xeyriyyəçi, faydalanan şəxs və vəqf əmlakını idarə etməyə səlahiyyətli şəxsin qarşılıqlı hüquq və vəzifələrini daha ətraflı və effektiv şəkildə tənzimləyir.

Bu baxımdan islam hüququnun xeyriyyəçilik fəaliyyəti ilə bağlı vəqf institutunun rolu xüsusi maraq doğurur. Hazırda islam dünyasında, xüsusilə də sosial cəhətdən inkişaf edən ölkələrdə vəqf institutunun rolu getdikcə daha da vacib hala gəlir. Xeyriyyəçilik və sosial proqramların maliyyələşdirilməsi məsələlərində vəqf institutunun əhəmiyyəti, sosial ədalət və iqtisadi sabitlik üçün çox önəmlidir. Müasir Azərbaycan hüququnda da bu modelin tətbiqi xüsusilə sosial təminat və humanitar sahələrdə böyük bir potensiala malikdir. Azərbaycan həm sosial dövlət quruculuğu istiqamətində irəliləyən, həm də islam mədəniyyəti ilə sıx əlaqələri olan bir ölkə olaraq, vəqf institutunu təbii şəkildə öz hüquqi sisteminə daxil etməyi nəzərdən keçirə bilər.

Vəqf institutunun Azərbaycanda tətbiqi üçün ən önəmli aspektlərdən biri sosial proqramların və xeyriyyəçilik fəaliyyətlərinin daha mütəşəkkil və şəffaf şəkildə maliyyələşdirilməsi olacaqdır. Hazırda Azərbaycanda sosial xidmətlər, təhsil, səhiyyə və mədəniyyət sahələrində dövlətin birbaşa maliyyə dəstəyi ilə həyata keçirilən bir çox proqram mövcuddur. Lakin bu sahələrdəki dövlət xərcləri və büdcə məhdudiyyətləri bəzi hallarda sosial ehtiyacları tam olaraq ödəməyə imkan vermir. Vəqf əmlakının istifadəyə verilməsi ilə təhsil, səhiyyə və sosial sahələrdə xidmətlərin daha geniş əhali qruplarına çatdırılması təmin oluna bilər.

Xeyriyyəçilik fəaliyyətinin hüquqi çərçivəyə salınması və sistemləşdirilməsi daha genişmiqyaslı sosial layihələrin həyata keçirilməsinə şərait yarada bilər. Bu çərçivədə vəqf tipli əmlakın Azərbaycan qanunları çərçivəsində legitimləşdirilməsi nəzərdən keçirilə bilər. Təbii ki, Azərbaycan qanunvericiliyində vəqflərin legitimliyi məsələsi genişmiqyaslı təhlillər və müzakirələr tələb edir. Vəqfdən yalnız müsəlmanlar deyil, bütün vətəndaşlar, o cümlədən Azərbaycanda ənənəvi olaraq mövcud olan digər dinlərin nümayəndələri, eləcə də dünyəvi müəssisələr faydalana bilməlidir.

"Xeyriyyəçilik fəaliyyəti haqqında" Qanunun qəbul edilməsi və vəqf institutunun bu qanuna inteqrasiyası bu sahənin daha effektiv şəkildə tənzimlənməsini və daha geniş miqyasda sosial layihələrin həyata keçirilməsini mümkün edə bilər. Bu institut yalnız müsəlmanlar və dini təşkilatlar deyil, həm də dini olmayan qurumlar və fərdlər üçün xeyriyyəçilik fəaliyyətlərinə daha geniş imkanlar yarada bilər. Qanunvericiliyə ediləcək müvafiq dəyişikliklər islamın vəqf əmlakına dair "mülkiyyətin ayrılmazlığı" kimi xüsusiyyətlərini nəzərə almaqla, heç bir dini ayrı-seçkilik olmadan həyata keçirilə bilər. Bu dəyişikliklərdə Azərbaycan Konstitusiyasının din və dövlətin ayrılığına dair prinsipləri qorunmaqla yanaşı, bütün etiqadlar qarşısında bərabərlik təmin ediləcəkdir. Bu yanaşma ilə vəqf əmlakının mülki dövriyyəyə daxil olması mümkün olacaq, həmçinin xeyriyyəçilik sahəsində dini və dünyəvi dairələr arasında qarşılıqlı fəaliyyət gücləndiriləcəkdir. Beləliklə, həm vəqf əmlakının mülki dövriyyəyə inteqrasiyası təmin olunacaq, həm də Azərbaycan Respublikası Konstitusiyasının bəyan etdiyi: "Azərbaycan Respublikasında din dövlətdən ayrıdır. Bütün dini etiqadlar qanun qarşısında bərabərdir", - prinsipi qorunacaq [6].

3.4. İslam bankçılığı və maliyyə alətlərinin tətbiqi perspektivləri

3.4.1. İslam bankçılığının məğzi və müasir dövrdə önəmi

Klassik banklarda geniş yayılmış və istifadə olunan prinsip faizlə kreditlərin verilməsinə əsaslanır. Müəyyən biznes planı üçün kredit verilir və sonra pul müəyyən faizlə banka qaytarılmalıdır. Faizlə (riba) borca pul vermək prinsipi, başqa sözlə, sələmçilik islamın qanunlarına ziddir. Buna görə də müsəlman ölkələrində banklarda fərqli bir prinsip istifadə olunur. Məlum olduğu kimi, islam bankçılığında faiz dərəcələri yoxdur, halal bankçılıq müştəri ilə bank arasında fərqli qayda və münasibətləri nəzərdə tutur. Faiz əvəzinə islam bankçılığında "mənfəət marjası" adlı prinsip mövcuddur. Bu prinsipə əsasən hər hansı biznesə başlamaq üçün kredit verilsə də, bu kreditin konkret tarixdə faizlə ödənilməsinə dair tələb yoxdur. Bank biznesin işə və qazanc əldə etməyə başlamasına qədər gözləyir və sonra ondan pay almağa başlayır, beləliklə, bankdan götürülmüş borc yavaş-yavaş geri qaytarılır. Yəni bir növ ortaqlıq münasibətləri yara-

nır ki, burada bank faiz götürməsə də, müəyyən müddət ərzində ondan kredit götürən şəxsin biznes tərəfdaşı olaraq qalır, çünki prinsipcə heç bir bank mənfəətsiz fəaliyyət göstərə bilməz. Buna görə islam bankçılığı bəzən "tərəfdaş bankçılığı" və ya "tərəfdaş maliyyələşdirilməsi" də adlandırılır.

İslam bankçılığı faizi qadağan etməklə yanaşı, faiz əsasında fəaliyyət göstərən maliyyə sistemlərindən kənarda qalan insanları da əhatə edərək daha inklüziv bir maliyyə mühiti yaradır. Bu model çərçivəsində bütün maliyyə əməliyyatları islam hüququnun əsas prinsiplərinə uyğun təşkil edilməli, sosial rifahın artırılmasına xidmət etməli və potensial risklər minimuma endirilməlidir. Bundan əlavə, aktivlərə əsaslanan maliyyələşdirmə və risklərin bölüşdürülməsi mikro, kiçik və orta sahibkarlığın inkişafına şərait yaradır və orta sinfin güclənməsinə töhfə verir.

İslam maliyyə sistemində ənənəvi sığortanın alternativi olaraq təkaful modelindən istifadə olunur. Bu sistemdə üzvlər kollektiv şəkildə maliyyə risklərini bölüşmək üçün ortaq bir fonda vəsait ayırırlar. Qlobal iqtisadi inteqrasiyanın zəiflədiyi bir şəraitdə təkaful modeli investisiya və ticarət əlaqələri üçün yeni perspektivlər açaraq iqtisadiyyatın daha ədalətli və sabit şəkildə inkişafına kömək edir.

İslam maliyyəsi etik və sosial məsuliyyətə əsaslanan prinsiplərdən irəli gələn bir maliyyə sistemidir. Bu sistemdə faiz ödənilməsi və ya alınması, qumar, alkoqol, donuz əti, tütün və spekulyativ fəaliyyətlərə investisiya qoyulması qadağan edilir. Bunun yerinə tərəflər arasında risklərin paylaşılması, aktivlərlə təmin edilən əməliyyatlar və islam dininə uyğun halal investisiyalar və layihələr önə çıxır. Azərbaycanda bazar artımı, iqtisadiyyatın diversifikasiyası, maliyyə inklüzivliyi və sosial məsuliyyətli investisiyalar sahəsində islam maliyyəsinin tətbiqi üçün potensial perspektivlər mövcuddur.

İslam bankçılığı hazırda biznes və əhaliyə ənənəvi banklara alternativ olaraq xidmət təklif edən maliyyə sisteminin ayrıca aləti kimi bütün dünyada yayılmaqdadır. İslam bankçılığını fərqləndirən əsas xüsusiyyətlərdən biri risklərdən yayınmaq məqsədilə bütün əməliyyatların şəffaf və açıq şəkildə həyata keçirilməsinin vacibliyidir. Bu sistem mal və xidmət bazarlarında hər bir maliyyə əməliyyatının ədalətli və izlənilə bilən olmasını təmin edir, bu da həm müştərilərin, həm də investorların etibarını artırır.

2008-ci il qlobal maliyyə böhranı göstərdi ki, islam bankçılığının inkişafı həm də qlobal böhranların təsirini minimuma endirmək baxımından vacibdir. İslam bankçılığının prinsipləri yalnız real istehsala və real aktivlərə sərmayə yatırmağa imkan verir və spekulyativ əməliyyatları qadağan edir. Qeyd etmək lazımdır ki, 2008-ci il qlobal maliyyə böhranının əsas səbəblərindən biri məhz ənənəvi bankların real aktivlər əvəzinə spekulyativ investisiyalara yönəlməsi idi. İslam bankçılığı isə bu cür riskli maliyyə mexanizmlərindən çəkinərək daha sabit və dayanıqlı iqtisadi model təqdim edir.

Bu baxımdan son onilliklərdə maliyyə dünyasında islam bankçılığına maraq artmağa başlayıb. Çünki insanlar üçün mövcud yüksək bank faizləri ilə kredit götürməli və bu krediti vaxtı-vaxtında qaytarmalı olduğu şəraitdə real biznesə başlamaq və onu inkişaf etdirmək olduqca çətindir.

Son illər ərzində islam bankları yalnız müsəlman dünyasında deyil, həm də bəzi Qərb ölkələrində, məsələn, Böyük Britaniya və Lüksemburqda geniş yayılmışdır. İlk baxışda faizli kreditlərin verilməsini qadağan edən islam hüququ müasir kommersiya əməliyyatları ilə uyğun gəlmir. Lakin bir neçə illik müqayisəli hüquq araşdırmaları nəticəsində islam bankları tərəfindən həyata keçirilən əmə-

liyyatlara elə bir forma verilmişdir ki, bir tərəfdən, bu əməliyyatlar Avropa bankçılıq hüququnun tələblərinə cavab verir, digər tərəfdən isə islam hüququnun əsas prinsiplərindən kənara çıxmır. İslam maliyyə sistemi müasir bazar iqtisadiyyatına uyğunlaşmış şəkildə fəaliyyət göstərir və burada məhsulun qiyməti tələb və təklif əsasında formalaşır. Ənənəvi maliyyə sistemindən fərqli olaraq, İslam bankçılığı real sektorla daha sıx əlaqədədir və bu da onun daha dayanıqlı olmasını təmin edir.

Bu baxımdan, Azərbaycanda islam bankçılığının tətbiqi olduqca böyük potensiala malikdir. Azərbaycanda islam bankçılığının tətbiqi xarici investisiyaların cəlb edilməsinə, qeyri-neft məhsullarının ixracının artmasına, ölkəyə turist axınının artmasına müsbət təsir göstərə bilər.

3.4.2. İslam bankçılığının Azərbaycanda tətbiqi imkanları və gətirə biləcəyi faydalar

Azərbaycanda 1998-2015-ci və 2017-2020-ci illərdə islam bankçılığının müxtəlif formalarının tətbiqinə cəhdlər edilsə də, bunu reallaşdırmaq mümkün olmamışdır. Hazırda da Azərbaycanda islam bankçılığının tətbiqi gündəmdədir. Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin təsdiq etdiyi "2024-2026-cı illərdə maliyyə sektorunun inkişaf Strategiyası"nda xüsusi tənzimləmə rejimi çərçivəsi daxilində alternativ maliyyələşdirmə aləti kimi islam bankçılığının tətbiqi imkanlarının araşdırılması öz əksini tapıb [4, s.49].

Azərbaycan Mərkəzi Bankının yanaşması ilkin mərhələdə islam istiqrazlarının (sukuk)[3] buraxılışını, daha sonra isə İslam bankçılığı tətbiqini nəzərdə tutur. Bununla əlaqədar Azərbaycan Mərkəzi Bankı artıq Dünya Bankı ilə birgə sukuk istiqrazlarının emissiyası istiqamətində müvafiq qanunvericiliyin hazırlanmasına başlayıb. Bu cür yanaşma islam bankçılığı sisteminin tam şəkildə tətbiqinin mövcud bank qanunvericiliyində genişmiqyaslı dəyişiklikləri və normativ bazanın yenidən formalaşdırılmasını tələb etməsi ilə izah olunur. Məhz bu səbəbdən ilkin mərhələdə nisbətən çevik və spesifik bir institut olan "sukuk" mexanizminin inteqrasiyasına başlanılması məqsədəuyğun hesab edilib.

Sukuk struktur baxımından şəffaflıq, şəriətə uyğunluq, risklərin bölüşdürülməsi və investisiya portfelinin diversifikasiyası kimi üstünlüklər təqdim edir və əsasən icarə (ijara), tərəfdaşlıq (mudaraba, muşaraka), ticarət (murabaha) və istehsalat-tikinti (istisna) kimi modellərlə buraxılır. Sukuk əməliyyatının növü məqsədlərindən və əsas aktivin xarakterindən asılı olaraq seçilir. Emitent müəyyən aktiv əsasında sukuk strukturunu formalaşdırır, şəriət müşaviri təsdiq verir və investorlar bu aktivin gəlirlərindən pay alırlar. Son illərdə bu model həm islam ölkələrində, həm də qlobal bazarlarda artan maraqla qarşılanır.

İslam maliyyə sisteminin Azərbaycanda tətbiqi və mövcud bank sisteminə inteqrasiyası ölkə iqtisadiyyatına bir sıra imkanlar və potensial faydalar gətirə bilər. Belə ki, islam bankçılığının yerli bank sisteminə daxil edilməsi nəticəsində Azərbaycanda maliyyə məhsullarının çeşidinin artırılması, müştəri bazasının genişlənməsi, dünya islam maliyyə bazarlarından xarici investisiyaların cəlb

[3] Sukuk — İslam bankçılığında ənənəvi istiqrazlara alternativ olaraq, şəriət prinsiplərinə uyğun şəkildə hazırlanmış maliyyələşdirmə alətidir. Ərəb dilində "şəhadətnamə" və ya "sənəd" mənasını verən "sakk" sözündən yaranan sukuk, investorların faiz deyil, real aktivlərdən əldə olunan gəlir və ya mənfəətin bölüşdürülməsi əsasında qazanc əldə etməsini nəzərdə tutur. Bu alət faizin (riba), qeyri-müəyyənliyin (qharar) və qumar elementlərinin (maysir) qadağan edilməsi prinsiplərinə əsaslanır və əməliyyatların yalnız real aktivlər və ya xidmətlərlə dəstəklənməsini tələb edir.

edilməsi və islam kapital bazarının inkişafı kimi müxtəlif faydalar əldə edilə bilər. İslam bankçılığı insanların bank sektoruna olan etibarını artırmaq potensialına malikdir. Hazırda Azərbaycanda kredit faizlərinin yüksək olması bəzən müştərilər arasında narazılıqlara səbəb olur, lakin islam bankçılığı bu problemi qismən aradan qaldıra bilər. Güman etmək olar ki, islam bankçılığının ölkədə tətbiq edilməsi başlanıldıqdan sonra maliyyə bazarında rəqabətqabiliyyətli mühit yaranacaq və bu fonda digər bankların kredit faizləri aşağı düşəcək, bu da əhalinin maraqlarına cavab verir. Bazar iqtisadiyyatında rəqabət vacibdir, buna görə də yeni oyunçuların bazara daxil olması cəmiyyət üçün mühüm əhəmiyyət kəsb edir.

Azərbaycanda islam maliyyəsindən istifadə həm də müsəlman ölkələrindən investisiyaların cəlb edilməsi baxımından önəmlidir. Son illər müsəlman ölkələrindən Azərbaycan iqtisadiyyatına investisiyalar artmaqdadır. Xüsusilə, islam dünyasının ən böyük bankı, çox milyard dollarlıq investisiya portfelinə malik İslam İnkişaf Bankı (İİB) Avrasiya regionundakı layihələrə getdikcə daha çox maraq göstərir. Belə ki, hazırda İİB-in təkcə Azərbaycan iqtisadiyyatına 18 layihə üzrə investisiyaları 1 milyard ABŞ dolları təşkil edir [15]. Səudiyyə Ərəbistanı, Oman, Küveyt, BƏƏ, Malayziya və İndoneziya kimi müsəlman ölkələri böyük həcmli investisiya mənbələrinə malikdir. Azərbaycan bu ölkələrdən investisiyaların cəlb edilməsində, xüsusilə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının bərpası üçün bu ərazilərdə yeni istehsal güclərinin formalaşdırılması və biznesin yaradılmasında maraqlıdır. Bundan başqa, islam bankçılığının inkişafı Azərbaycanın da müsəlman ölkələrinə investisiyaları baxımından mühüm əhəmiyyət kəsb edir. Bu gün Azərbaycan Səudiyyə Ərəbistanı, BƏƏ və digər ölkələrə fəal şəkildə sərmayə qoymaqdadır. Bu baxımdan, islam bankçılığının Azərbaycanda tətbiqi müsəlman ölkələri ilə ikitərəfli investisiya əlaqələrinin genişləndirilməsində bir təkan ola bilər.

Bununla yanaşı, Azərbaycan müsəlman ölkələrinə öz qeyri-neft məhsullarını da ixrac etməkdədir. Hazırda Azərbaycanda halal məhsulların istehsalı inkişaf etdirilir və Azərbaycan Standartlaşdırma İnstitutu (AZSTANDART) dünya miqyasında tanınacaq beynəlxalq "Halal" sertifikatları təqdim etmək hüququ əldə edib [8]. Bunun sayəsində Azərbaycan ərzaq məhsullarının dünya bazarlarına, xüsusən də müsəlman ölkələrinə ixracının artacağını güman etmək olar. Bu baxımdan Azərbaycan sahibkarları "murabaha" adlanan maliyyə məhsulu sayəsində ixrac üçün əlavə stimul əldə edə bilər.[4] Belə ki, bu maliyə alətinə əsasən, bank ilkin olaraq məhsulun dəyərini ixracatçıya ödəyir, daha sonra isə idxalçı öz borcunu banka ödəyir.

Son illər Azərbaycana xüsusilə müsəl-

---

[4] ***Murabaha*** *(ərəb dilində "mənfəət" deməkdir) - müştərinin göstərişi və satınalma vədi əsasında maliyyə institutu tərəfindən bir əmtəənin ilkin satıcıdan nağd və ya hissə-hissə alınaraq, alış qiymətinə və ya maya dəyərinə müəyyən mənfəət əlavə edilməklə nağd və ya hissə-hissə müştəriyə satılması prosesidir. İslam bankçılığında ən çox istifadə edilən faizsiz maliyyələşdirmə alətlərindən olan murabaha əməliyyatında maliyyə institutu əmtəəni birbaşa və ya etibarnamə vasitəsilə satın alır və onu alıcıya satmazdan əvvəl müəyyən edilmiş və razılaşdırılmış müəyyən mənfəəti əlavə edir. Murabaha metodu maliyyə institutuna agentlik strukturu sayəsində mal və ya xidmətlər almağa və onları mənfəətlə satmağa imkan verir. Mənfəət əldə etmək kommersiya fəaliyyətinə qoyulan investisiyanın qaytarılmasıdır və halal qazanc prinsipinə uyğun bir hərəkətdir. Murabaha alış-verişində faiz ünsürü olmadığı üçün islamda faizin haram olması ilə ziddiyyət təşkil etmir. Bu maliyyə alətində şəffaflıq və müəyyənlik prinsipləri böyük əhəmiyyət kəsb edir. Belə ki, murabaha sövdələşməsində hər iki tərəfə malın real qiyməti və satıcının mənfəət marjası barədə məlumat verilir və əməliyyatda qeyri-müəyyənlik olmur. Əmtəənin növü, miqdarı, qiyməti və çatdırılma şərtləri dəqiq müəyyən edilir və tərəflərin bir-birini aldatmasından söhbət gedə bilməz.*

man və ərəb ölkələrindən çoxlu sayda turist gəlir. Bu çərçivədə Azərbaycanda halal standartı çərçivəsində mehmanxana və turizm obyektlərinin yaradılması planlaşdırılır. Turistlər ölkədə vəsaitlərini xərcləyərkən islam bankçılığı məhsullarından istifadə etmək istəyirlər. İslam maliyyə xidmətlərinin mövcudluğu Azərbaycanı daha rəqabətqabiliyyətli və cəlbedici turizm istiqamətinə çevirərək turist axınını artırmaqla yanaşı, əlaqəli xidmət sektorlarının inkişafına şərait yarada bilər.

3.4.3 İslam bankçılığının Azərbaycanda tətbiqi ilə bağlı həyata keçirilməli olan tədbirlər

İslam maliyyəsinin mövcud ənənəvi bankçılıq sisteminə inteqrasiyası diqqətli yanaşma və koordinasiya tələb edir. İlk növbədə, Azərbaycanda islam bankçılığının tətbiqinə başlamaq üçün bu konsepsiyanın qanunvericilik bazasını yaratmaq lazımdır. Belə ki, "Azərbaycan Respublikasında banklar və bank fəaliyyəti haqqında" və "Banklar haqqında" Azərbaycan Respublikasının qanunları islam bankçılığını əhatə edə bilməz, çünki bu iki qanunda yer alan qaydalar və yanaşmalar tamamilə fərqli maliyyə fəlsəfəsinə əsaslanır. Ən uyğun variant kimi "İslam bankçılığı haqqında" yeni qanunun qəbul edilməsi görünür. Bu yeni qanun mövcud və maliyyə bazarına daxil olacaq yeni banklara öz müştərilərinə islam bankçılığı məhsullarını təqdim etmək imkanı yaradacaq. Qəbul ediləcək yeni qanun islam maliyyələşdirilməsi üzrə fəaliyyət göstərəcək Şəriət Şurasının formalaşdırılması prinsiplərini, islam banklarına dair tələbləri, islam banklarının hüquq və öhdəliklərini, islam banklarının fəaliyyət çərçivəsini, məhsul və xidmətlərin çeşidini və xüsusiyyətlərini əhatə etməlidir.

Təbii ki, qəbul ediləcək yeni qanunun effektiv tətbiqi üçün paralel olaraq, mülki münasibətlərin əsasını təşkil edən Azərbaycan Respublikasının Mülki Məcəlləsinə də əlavə və dəyişikliklər edilməlidir. Bu dəyişikliklər islam bankçılığına xas faizsiz maliyyə əməliyyatlarının hüquqi statusunu dəqiqləşdirərək, şəriət prinsiplərinə uyğun xüsusi müqavilə növlərinin tanınması və icrasını təmin etməlidir.

İslam bank əməliyyatları şəriət qanunlarına uyğun olaraq faizsiz kreditlər formasında bank xidmətlərindən ibarət olduğundan, bu xidmətlərin tətbiqi müəyyən əlavə xərclərlə müşayiət olunur və onların effektiv şəkildə həyata keçirilməsi üçün vergi sahəsində müvafiq tənzimləmələrin aparılması zəruridir. Buna görə də Azərbaycan Respublikasının Vergi Məcəlləsinə uyğun dəyişikliklər edilməsi islam bankçılığının inkişafı və dayanıqlı fəaliyyətinin təminatı baxımından vacib hesab olunur. Vergi dəyişiklikləri islam bankçılığına uyğun olaraq xüsusi və fərqli vergitutma mexanizmlərini nəzərə almalı, faizsiz əməliyyatlar və mənfəətin bölüşdürülməsi prinsiplərinə uyğun şəkildə tənzimlənməlidir. Bu, vergilərin tətbiqində şəffaflıq, ədalətlilik və proqnozlaşdırıla bilənlik təmin etməklə, həm bankların, həm də müştərilərin hüquqlarını qoruyacaq. Eyni zamanda, vergi yükünün ədalətli bölüşdürülməsi və əlavə bürokratik əngəllərin aradan qaldırılması islam bankçılığının inkişafı üçün effektiv hüquqi baza yaradacaqdır.

Bundan əlavə, inteqrasiyanın uğurlu olması üçün ictimaiyyətin, maliyyə qurumlarının və tənzimləyicilərin islam bankçılığı barədə məlumatlılığının artırılması və maliyyə savadlılığının yüksəldilməsi önəmlidir. Azərbaycanda ilk növbədə əhaliyə islam bankçılığının məzmunu və onun ölkəyə nə üçün lazım olduğunu izah etmək lazımdır. Bankirlər şəriət alimləri və tənzimləyici qurumlar kimi ixtisaslı mütəxəssislərin yetişdirilməsi də bu sahədə əməliyyatların düzgün və effektiv aparılması üçün vacibdir. Həm-

çinin, islam bankçılığı əməliyyatlarını dəstəkləmək məqsədilə müvafiq maliyyə infrastrukturu və texnoloji sistemlərin inkişafı islam maliyyə alətlərinin mövcud sistemə problemsiz inteqrasiyasını təmin etmək üçün əsas şərtdir. Azərbaycan Respublikası Mərkəzi Bankının düzgün strateji yanaşma və dəstəkləyici tədbirləri ilə islam maliyyəsinin inkişafı Azərbaycanda iqtisadi artıma və sosial rifaha müsbət təsir göstərə bilər [2].

İslam bankçılığının institutları sosial baxımdan sınaqdan çıxmış və özünü təsdiqləmiş maliyyə alətləridir və onların tətbiqi Azərbaycanın mövcud maliyyə sisteminin təkmilləşməsinə mühüm töhfə verə bilər. Bu baxımdan, ölkəmizdə islam bankçılığının tətbiqi böyük potensiala malikdir. Lakin ciddi və işlək qanunvericilik bazası yaradılmadan islam bankçılığının Azərbaycan iqtisadiyyatına əhəmiyyətli faydalar gətirməsi çətin görünür. Buna görə də islam bankçılığının inteqrasiyası və tətbiqi mülki, bank və vergi qanunvericiliyinə uyğun olaraq mərhələli və sistemli şəkildə həyata keçirilməlidir. Eyni zamanda, bu sahədə uğur qazanmış ölkələrin təcrübəsi dərindən öyrənilməli və yerli şəraitə uyğunlaşdırılmalıdır.

Nəticə

Minilliklər ərzində Azərbaycanda "mülki hüquq" anlayışının formalaşmasında dinin rolu dərin və çoxşaxəli olmuşdur. Qədim dövrlərdə zərdüştlük hüquqi düşüncənin əsasını təşkil etmiş və zərdüştlüyün müqəddəs kitabı olan “Avesta” mülki münasibətlərin tənzimlənməsində ilkin hüquqi prinsipləri formalaşdırmışdır. Sonrakı mərhələdə Qafqaz Albaniyasında xristianlığın dövlət dini elan edilməsi ilə “Aquen Kanonları” hüququn sosial nizamlayıcı funksiyasını gücləndirmişdir. VII əsrdən başlayaraq isə islam dini Azərbaycan mülki hüquq nəzəriyyəsinin əsas komponenti kimi daxil olmuş və şəriət prinsipləri uzun əsrlər boyu hüquqi həyatın formalaşmasına əhəmiyyətli təsir göstərmişdir. Hər üç hüquq sistemi dini prinsiplərə böyük önəm verirdi və hüququn əsas qaydaları dini mətnlərdən, tanrı tərəfindən qoyulan hökmlərdən qaynaqlanırdı. Zərdüştlükdə “Avesta”, islamda “Quran” və xristianlıqda “İncil” əsas mənbə olaraq istifadə olunurdu. XIX əsrin əvvəllərindən başlayaraq isə müasirlik və sekulyarlaşma tendensiyaları hüquq sisteminə yeni yanaşmalar gətirmiş, dini təsirlər məhdudlaşdırılmağa başlanmışdır.

Müstəqillik dövründə dövlət və dinin ayrı olduğu elan edilmiş və Azərbaycanda yeni sekulyar mülki qanunvericilik qurulmuşdur. Buna baxmayaraq, son zamanlar Azərbaycanın sekulyar mülki qanunvericiliyinə bəzi dini hüquq, xüsusilə islam hüquq institutlarının inteqrasiyası məsələsi aktuallaşmışdır.

Azərbaycanda islam hüququnun aktuallığı onun ölkənin tarixi və mədəniyyətinin ayrılmaz hissəsi olması ilə bağlıdır. İslam milyonlarla azərbaycanlının həyat tərzinin ən mühüm aspektlərindən biridir. İslam hüququnun ümumi islam mədəniyyəti kontekstində nisbətən müstəqil mövqeyi onun yalnız dini aspektlərindən deyil, hüquqi potensialından da istifadə imkanını ortaya qoyur. Müasir islam hüququnun bir çox ölkələrdə tətbiqi sübut edir ki, fərqli – islam və Avropa – hüquq mədəniyyətlərinin elementlərinin qarşılıqlı təsiri əsasında uğurlu bir hüquq sistemi qurmaq mümkündür.

Dini hüququn, xüsusən də islam hüququnun, Azərbaycanın hüquq sisteminə inteqrasiyası həm yeni imkanlar, həm də çətinliklər yarada bilər. Bir tərəfdən, islam hüququnun müəyyən institutlarının qanunvericiliyə inteqrasiya edilməsi hüquq çərçivəsinin cəmiyyətin dini və mədəni dəyərlərini daha yaxşı əks etdirməsinə və sosial həmrəylik hissinin güclənməsinə səbəb ola bilər. Digər tərəfdən isə bu yanaşma sekulyar

hüquq prinsiplərinin, gender bərabərliyinin, ayrı-seçkiliyin yolverilməzliyi və insan hüquqlarının qorunması məsələlərində müəyyən çətinliklər doğura bilər. Müasir Azərbaycan cəmiyyətində bir çox məsələlər əsrlik adətlərə və ənənəvi islam normaları əsasında formalaşmışdır. Buna görə hüquqi islahatlar həyata keçirilərkən Azərbaycanın ənənəvi dini-əxlaqi prinsipləri və normaları nəzərə alınmalıdır. Belə olan təqdirdə, yeni qanunlar daha asanlıqla cəmiyyət tərəfindən qəbul ediləcək və bu onun effektiv şəkildə praktiki tətbiqinə gətirib çıxaracaq. Eyni zamanda, nəzərə alınmış adətlər, əxlaqi normalar, dinlə bağlı olan dəyərlər müasir hüquq və azadlıqlara zidd olmamalıdır.

İslam hüququna aid bəzi institutlar, prinsiplər və yanaşmaların müasir qanunvericiliyə inteqrasiya edilməsi geniş perspektivlərə malikdir. Hadhanah, vəqf əmlakı və islam bankçılığı kimi institutların mülki qanunvericiliyə daxil edilməsi həm tarixi hüquqi irsin davamlılığını təmin edə, həm də müasir iqtisadi və sosial tələblərə cavab verə bilər. Eyni zamanda, bu inteqrasiya prosesi hüquqi plüralizmin təmin edilməsinə, hüquq sisteminin daha çevik olmasına və cəmiyyətin müxtəlif təbəqələrinin ehtiyaclarına uyğunlaşmasına şərait yarada bilər. Təbii ki, bu proses diqqətli nəzəri planlama və praktik təcrübə əsasında həyata keçirilməli, mövcud mülki qanunvericiliyin sekulyar təbiətinə xələl gətirilməməlidir.

Bu baxımdan, Azərbaycanın mülki hüququ kontekstində dünyəvi hüquqda əks olunan əsas prinsiplərin qorunması və dini ənənələrə hörmət arasında balansın yaradılması vacibdir. Bu balansı yaratmaq üçün araşdırmalar, ictimai müzakirələr aparılmalı, müxtəlif hüquqi, sosial və mədəni amillər nəzərə alınmalıdır.

İslam hüququnun bəzi elementlərinin Azərbaycanın müasir qanunvericiliyinə inteqrasiyası qaçılmaz bir təhlükə kimi qəbul edilməməli, əksinə, ölkədə əsrlər boyu formalaşmış yerli hüquq ənənələrinin yenidən canlanmasının təbii bir mərhələsi və milli hüquq sisteminin inkişafına mühüm töhfə kimi qiymətləndirilməlidir.

İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT

Azərbaycan dilində:

1. Azərbaycan Respublikası Ailə Məcəlləsi, Maddə 1, Maddə 12.
2. Azərbaycan Respublikası İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi, İslam maliyyə sistemi və onun Azərbaycanda perspektivləri, Bakı, 2023
3. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun Qərarı, Mülki Məcəllənin 1203.1-ci maddəsinin şərhinə dair.
4. Azərbaycan Respublikası Mərkəzi Bankı, 2024–2026-cı illərdə maliyyə sektorunun inkişaf strategiyası, Bakı
5. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi, maddə 189-3.
6. Azərbaycan Respublikasının Konstitusiyası, maddə 18; maddə 76.2.
7. Azərbaycan Respublikasının Mülki Məcəlləsi, Maddə 1155, 1193, 1203.1.
8. AZSTANDART tərəfindən “Halal” sertifikatının təqdim edilməsinə başlanılır, https://competition.gov.az/az/post/919
9. Əkbərov R., Səlimov S. Azərbaycanın dövlət və hüquq tarixi. Bakı, 2003
10. Ələsgərov M. (məsul redaktor). Müstəqil dövlətimiz və parlamentimiz. Bakı, 2001
11. Əsgərzadə M. Qədim zamanlardan günümüzədək islam şəriəti əsasında

sosial yardımlar. // “Akademik tarix və düşüncə” jurnalı, 11(1), 2024.
12. Qurani-Kərim, "ən-Nisa" surəsi, ayə 11–12; 4:22–5.

İngilis dilində:

13. Alan Mikhail. Nature and Empire in Ottoman Egypt, Cambridge: Cambridge University Press, 2011
14. Alan Watson. The Spirit of Roman Law. University of Georgia Press, 1995, p. 42–44.
15. Expanding cooperation with Islamic Development Bank. - https://emlak.gov.az/en/news/view/6774 (baxış tarixi: 24.06.2025).
16. Francis J. Powers. Religion and the Law. // Catholic University Law Review, Volume 1, № 3, 1951
17. Gaudiosi M.M. The Influence of the Islamic Law of Waqf on the Development of the Trust in England: The Case of Merton College. // University of Pennsylvania Law Review, Volume 136, № 4, 1988
18. Huizinga J. In the Shadow of Tomorrow, 1964
19. Jacques-Henri Michel. Le vocabulaire latin des institutions romaines, Les Cahiers du CeDoP, Brüssel, 2001
20. Jean Bottéro. Religion in Ancient Mesopotamia. University of Chicago Press, 2001
21. Jean Sauvaget. Alep: essai sur le développement d’une grande ville syrienne des origines au milieu du XIXe siècle, Volume 2, Paris
22. John Hudson. The Formation of the English Common Law: Law and Society in England from King Alfred to Magna Carta, Routledge, 2002.
23. John Proffa. Trial by Jury, Sumner Whitney & Co., 1877.
24. Leges Duodecim Tabularum, Tabula V: 3.
25. Mammadova F. Caucasian Albania and Albanians. Baku, 2021.
26. Miriam Hoexter. The Waqf and the Public Sphere // The Public Sphere in Muslim Societies kitabında, red. Miriam Hoexter, Shmuel N. Eisenstadt, Nehemia Levtzion, Albany: SUNY Press, 2002
27. Moran M. Crises of the Welfare State. // British Journal of Political Science, Volume 18, № 3, 1988
28. Pescatore G. Die Glossen des Irnerius, Greifswald. Abel, 1888
29. Rabea Benhalim. Religious Courts in Secular Jurisdictions: How Jewish and Islamic Courts Adapt to Societal and Legal Norms. // Brooklyn Law Review, Volume 84, 2019
30. Roscoe Pound, The Church in Legal History, Jubilee Law Lectures 3-97, The Catholic University of America Press, Washington D. C., 1939
31. Sunan Abi Dawud. Hadith 2276.
32. Wael B. Hallaq. An Introduction to Islamic Law. Cambridge University Press, 2009
33. Wilbert D. Kolkman, Compulsory Portion and Family Provision in the Netherlands. // Comparative Succession Law, Volume 3, edit. Kenneth G. C. Reid, Marius J. De Waal, Reinhard Zimmermann, Oxford University Press, 2020

Rus dilində:

34. Аббасов С. Г. Правовые традиции наследственного права Азербайджа-

на. // Пробелы в российском законодательстве, 2010

35. Беккин Р.И. Вакф как современный исламский финансовый институт. // Pax Islamica, 1(2), 2009

36. Беккин Р.И. Институт вакфа в социально экономической и политической жизни мусульманских стран. // Вестник Санкт-Петербургского университета, Ser. 5, № 3, 2008

37. Берман Г. Дж., Западная традиция права: эпоха формирования, М., 1994; Вера и закон: примирение права и религии. М., 2008.

38. Залужный А. Г., Право. Религия. Закон. М., 2008.

39. Керимов Г.М. Шариат: Закон жизни мусульман. Ответы Шариата на проблемы современности. 2009.

40. Об отношении рабочей партии к религии (13 (26) мая 1909 г.) // Ленин В. И. Полное собрание сочинений. — 5-е изд. — М.: Издательство политической литературы, 1964–1981. — Т. 17. — s. 418.

Natig Khalilov

INTEGRATION PERSPECTIVES OF RELIGIOUS LEGAL INSTITUTIONS INTO AZERBAIJAN'S SECULAR CIVIL LEGISLATION

Abstract

This article examines the significant role religion has played in shaping civil law in Azerbaijan, analyzes the influence of religious legal traditions on the country's current civil legislation, and offers concrete proposals for integrating religious legal institutions into modern civil law. Historically, religion profoundly influenced Azerbaijan's legal development. During the Atropatene period, Zoroastrianism contributed to the formation of social order and legal institutions, while Christian canon law shaped civil relations in Caucasian Albania. Between the 7th and 19th centuries, Azerbaijani legal thought was largely grounded in Islamic law principles. Since the 19th century, secularization trends have strengthened within Azerbaijan's legal system, culminating in a complete separation of law from religion during the Soviet era—a separation that continued and deepened after independence. Despite the modern principle of state-religion separation, this article explores the ongoing influence of religion, particularly Islamic law, on inheritance, family, and property law in Azerbaijan. It further considers the prospects for integrating certain Islamic legal institutions into current civil legislation in response to contemporary challenges, while upholding secularism. The article also highlights the long-term and foundational impact of religion on social justice, law enforcement, and human rights.

Keywords: civil law, religious law, Zoroastrian law, canon law, Islamic law, waqf, Islamic banking

RƏSMİ DİLİN KONSTİTUSİYALARDA TƏNZİMLƏNMƏSİ: **MÜQAYİSƏLİ TƏHLİL**

Aqşin MƏMMƏDOV,
Sosial Tədqiqatlar Mərkəzinin departament müdiri,
filologiya üzrə fəlsəfə doktoru
(Bakı, Azərbaycan)

E-mail: agshin.mammadov76@gmail.com
ORCID: 0000-0001-9341-2079

Xülasə. Rəsmi dilin konstitusiyalarda tənzimlənməsi milli kimlik, dövlət idarəçiliyi və vətəndaş hüquqları baxımından xüsusi əhəmiyyətə malikdir. Bu məqalədə Azərbaycan və digər dövlətlərin konstitusiyalarında rəsmi dilin hüquqi statusu müqayisəli şəkildə təhlil edilir. İlk növbədə rəsmi dil anlayışına aydınlıq gətirilir, daha sonra müxtəlif dövlətlərin konstitusiyalarında rəsmi dillə bağlı qaydalara nəzər salınır, vahid rəsmi dili təmin edən, həmçinin birdən çox rəsmi dildə olan, regional və azlıq dillərinə hüquqi status verən konstitusiyalar haqqında məlumat verilir. Həmçinin Azərbaycan dilinin dövlət dili kimi tətbiqinin hüquqi çərçivəsi müəyyənləşdirilir. Məqsəd müxtəlif hüquq sistemlərinin rəsmi dilə yanaşma modellərini və bunun azlıqların dil hüquqlarına təsirini araşdırmaqdır.

Açar sözlər: rəsmi dil, regional dil, azlıq dilləri, çoxdilli ölkələr, konstitusiya sistemləri, Azərbaycan dili, qanunvericilik

Giriş

Dil milli kimliyin əsas atributlarından biri olmaqla, dövlətin hüquqi və inzibati sistemində mühüm rol oynayır. Dil yalnız ünsiyyət vasitəsi deyil, eyni zamanda xalqın tarixinin, mədəniyyətinin və dəyərlərinin daşıyıcısıdır. Bu səbəbdən dilin qorunması və inkişaf etdirilməsi müstəqillik və ərazi bütövlüyü qədər vacib və ciddi məsələdir.

Rəsmi dilin konstitusiya səviyyəsində tənzimlənməsi isə həmin dövlətin siyasi yönümünü, tarixi inkişafını və mədəni siyasətini əks etdirir. Bu tənzimləmələr həm əhalinin dil hüquqlarına təsir edir, həm də dövlət-vətəndaş münasibətlərinin hüquqi bazasını formalaşdırır. Xüsusilə çoxetnik və çoxdilli cəmiyyətlərdə rəsmi dil məsələsi hüquqi və sosial baxımdan mürəkkəb bir məsələ kimi çıxış edir.

Ümumilikdə dilçilik aspektində aparılan müzakirələrdən biri də rəsmi dillər, onların sayı və konstitusiyalarda tənzimlənməsi ilə bağlıdır. Ölkəmizdə rəsmi dil mövzusuna həsr olunmuş araşdırmaların sayı çox azdır. Bəlkə, məhz bu səbəbdəndir ki, "bir ölkənin yalnız bir rəsmi dili ola bilər və ya birdən çox rəsmi dili ola bilməz" kimi mülahizələrin irəli sürülməsinin şahid oluruq. Lakin aparılan araşdırmalar bu mülahizənin heç də doğru olmadığını göstərir. Bu məqalənin məqsədi bu məsələni aydınlaşdırmaqdır. Bu məqsədlə ilk növbədə "dövlət dili" anlayışı konstitusiya sənədlərində tənzimlənən oxşar anlayışlarla müqayisəli şəkildə tədqiq edilir, daha sonra müxtəlif ölkələrin konstitusiya sənədlərinin rəsmi dil məsələsi ilə bağlı müddəaları araşdırılır və bu ölkələrin konstitusiyalarının təsnifləşdirilməsinə cəhd edilir.

1. Rəsmi dil anlayışı

Rəsmi dil — dövlət idarəçiliyində, hüquqi və inzibati sahələrdə, qanunların qəbulunda, məhkəmə sistemində, təhsil sahəsində, rəsmi sənədlərdə və s. istifadə olunan, konstitusional və ya qanuni əsaslarla tanınan dildir. Bu status dövlətin milli birliyini gücləndirmək məqsədi daşısa da, çoxmillətli və çoxdilli cəmiyyətlərdə sosial balansı qorumaq baxımından bəzən müəyyən çətinliklər yarada bilər. Rəsmi dil bəzən vahid şəkildə müəyyən edilir (məsələn, Azərbaycan, Fransa), bəzən isə bir neçə dilin paralel istifadəsinə icazə verilir (məsələn, İsveçrə, Kanada, Hindistan). "Rəsmi dil", "dövlət dili" və "işçi dil" kimi terminlər bəzən fərqli, bəzən isə sinonim kimi işlənir.

Parlamentdə, komitələrdə və qanunverici orqanın plenar iclaslarında müzakirələrin dili; aşağı məhkəmələrdən tutmuş apellyasiya məhkəməsinə qədər icraatın aparıldığı dil; rəsmi yazışmalarda istifadə edilən və ilk növbədə Prezident Administrasiyasından tutmuş Nazirlər Kabinetiinə, nazirliklərə və ən aşağı səviyyəli inzibati orqanlara qədər bütün dövlət təşkilatlarının ilk növbədə xidmət göstərdiyi dil bizə həmin ölkənin rəsmi dilini göstərir [25; 35]. Bu tərifdə "ilk növbədə xidmət göstərdiyi dil" anlayışı o deməkdir ki, dövlət orqanları rəsmi dildən başqa dildə də xidmət göstərə bilər: "Dövlət orqanlarının rəsmi dildən başqa dildə xidmət göstərməsi qanunla tənzimlənmədikdə, bu xidmətə müraciət etmək üçün hüquqi əsas möhkəm olmaya bilər. Burada o nəzərdə tutulur ki, bir ölkənin rəsmi dili həmin ölkənin dövlət orqanlarının rəsmi dildən başqa dildə könüllü xidmət göstərməsinə mane olmur. Yəni xidmətin daha yaxşı təqdim edilməsi onun başqa dildə göstərilməsini tələb edirsə, rəsmi dilin mövcudluğu xidmətin başqa dildə göstərilməsinə mane olmur. Dövlət xidmətləri müəyyən bir ərazidə əhəmiyyətli sayda insanın danışdığı dillərdə də göstərilə bilər" [35].

Tərifdə diqqət yetiriləsi digər mühüm

məsələ yazışma dili ilə bağlıdır. Belə ki, bəzi ölkələrin qanunvericiliyi rəsmi dili tənzimləmədən yalnız dövlət orqanlarının yazışma dilini tənzimləməklə dolayı yolla rəsmi dili elan edə bilir. Məsələn, Norveçin milli qanunvericiliyinə daxil edilmiş "Dövlət xidmətlərində istifadə olunan dil haqqında" Qanunun 1-ci maddəsində qeyd edilir ki, Norveçin iki ləhcəsi - bukmol və nyunorsk bütün dövlət orqanlarında və bələdiyyələrdə eyni dərəcədə "yazışma dili"dir [35].

Həmçinin Litva Konstitusiyasının 14-cü maddəsində (Lithuanian shall be the state language) [31] və Slovakiya Konstitusiyasının 6-cı maddəsində (The Slovak language is the official language of the Slovak Republic) [20] "dövlət dili" anlayışı həm də rəsmi orqanların yazışma dili kimi qəbul edilir.

Rəsmi dildən fərqli olaraq, "milli dil" suveren dövlətdə əhalinin əksəriyyətinin ümummilli miqyasda istifadə etdiyi dil deməkdir. Bəzi ölkələrin konstitusiyalarında həm milli, həm də rəsmi dil qaydaları var. Hətta bir dili həm rəsmi dil, həm də milli dil elan edə bilər. Məsələn, Malta Konstitusiyasına görə (maddə 5), bu ölkənin dili həm milli, həm də rəsmi dildir. Konstitusiya əlavə olaraq ingilis dilinin də rəsmi dil kimi istifadə oluna biləcəyini nəzərdə tutur [17].

2. Müxtəlif ölkələrdə rəsmi dilin hüquqi tənzimlənməsi

2.1. Vahid rəsmi dilə malik ölkələr

Əksər ölkələrin konstitusiyalarında vahid dil rəsmi dil elan olunub. Məsələn, Azərbaycanın (maddə 21), Fransanın (maddə 2), Türkiyənin (maddə 3), Portuqaliyanın (maddə 11), Polşanın (maddə 27), Rumıniyanın (maddə 13), Bolqarıstanın (maddə 3), Latviyanın (maddə 4), Estoniyanın (maddə 6), Litvanın (maddə 6) və s. mövcud konstitusiyaları buna misaldır.

Azərbaycan: Konstitusiyanın 21-ci maddəsinə əsasən, Azərbaycan Respublikasının dövlət dili Azərbaycan dilidir. Dövlət Azərbaycan dilinin inkişafını təmin edir [1]. Bununla yanaşı, konstitusiya digər dillərin sərbəst istifadəsinə və inkişafına da zəmanət verir. Bu həm dövlətin milli dilə verdiyi üstünlüyü, həm də etnik və dil müxtəlifliyinə hörmət etdiyini göstərir. (Azərbaycan dilinin rəsmi dil kimi konstitusiyada qeyd olunması ilə bağlı daha sonra ətraflı məlumat veriləcək).

Fransa: 1958-ci il Fransa Konstitusiyasının 2-ci maddəsinə 1992-ci ildə əlavə edilmiş birinci abzasa görə, "Suverenlik" başlıqlı hissədə "dövlətin dili fransız dilidir" kimi təsbit edilmişdir: "La langue de la République est le français" [23].

Bu norma Fransa Respublikasının təkdilli dövlət olduğunu hüquqi şəkildə təsbit edir. Digər yerli dillər (məsələn, breton, bask və korsika dilləri) rəsmi statusa malik deyil və konstitusiyada qeyd olunmur. Bu da dil siyasətində vahidlik prinsipinin üstün tutulduğunu göstərir. Fransada bu müddəanı həyata keçirən qanun 1994-cü il tarixli "Fransız Qanunu" adlanır və ovaxtkı mədəniyyət nazirinin adı ilə "Toubon Qanunu" kimi də tanınır [35]. Qanunun məqsədi fransız dilini qorumaqdır. Eyni zamanda Konstitusiya Şurası Regional və ya Azlıq dilləri haqqında Avropa Xartiyasının ratifikasiyasını rəsmi dillərdən (regional və azlıqların dilləri) başqa dillərə hüquqi status verdiyini əsas gətirərək qeyri-münasib hesab etmiş və Konstitusiyanın birinci maddəsində göstərildiyi kimi bunu respublikanın bölünməzliyi/birliyi prinsipinə zidd hesab etmişdir [35].

Türkiyə: Türkiyə Respublikasının 1982-ci il Konstitusiyasındakı tənzimləmə Fransa Konstitusiyasına bənzəyir. Türkiyə Cümhuriyyətinin 1982-ci il Konstitusiyasının "Dövlətin bütövlüyü, rəsmi dili, bayrağı, himni və paytaxtı" başlıqlı üçüncü maddəsinin birinci bən-

dində “Türkiyə dövləti ərazisi və milləti ilə bölünməz bir bütövdür, dili türk dilidir” yazılır [33]. Türkiyəli bəzi tədqiqatçılara görə, burada bir anlaşılmazlıq var. Onların qənaətinə görə, “dövlət dili” anlayışı yanlış istifadə olunub. Halbuki dil vasitəsilə ünsiyyət quranlar dövlətin insan elementidir. O, təkcə türkcə danışmır [36].

Tədqiqatçıların təbirincə, 1958-ci il Fransa Konstitusiyasında “Cümhuriyyət dili” və 1945-1952-ci illər arasında Türkiyə Cümhuriyyətinin 1924-cü il Konstitusiyasının ikinci maddəsində “dövlət dili” anlayışları da yanlışdır. Əslində bu, 1921, 1924 (əsas mətn) və 1961-ci il konstitusiyalarında olan formadır. 1923-cü ildə edilən dəyişikliklərə daxil edilən 1921-ci il Konstitusiyasının ikinci maddəsində “Türkiyə dövlətinin rəsmi dili türk dilidir” qeyd edilir. 1924-cü il Konstitusiyasında eyni cümlə qeyd edildiyi halda, 1961-ci il Konstitusiyasının 3-cü maddəsində "Rəsmi dili türk dilidir" yazılıb. Əslində, yuxarıda qeyd olunan konstitusiya qaydalarının demək olar ki, hamısı məsələni “Dil(lər)” və ya “Rəsmi dil(lər)” başlığı altında tənzimləyir. Türkiyə Konstitusiya Məhkəməsi isə terminologiyadakı fərqi türkcənin rəsmi ölçülərdən kənara çıxan bir dil olması ilə əlaqələndirir: “Dil baxımından 1961-ci il Konstitusiyasının 3-cü maddəsində “Rəsmi dil türkcədir” cümləsi yer aldığı halda, bu müddəa Milli Təhlükəsizlik Şurasının Konstitusiya Komissiyası tərəfindən “Dil türkcədir” ifadəsi ilə dəyişdirilmişdir” [35].

Latviya: Sovet İttifaqının süqutundan sonra - 1991-ci ildə müstəqilliyini qazanan Latviyanın 1922-ci il Konstitusiyasının “Ümumi müddəalar” bölməsinin 4-cü maddəsində qeyd edilir: “Latış dili Latviya Respublikasının rəsmi dilidir”. Həmçinin Konstitusiyanın 18-ci maddəsinin 2-ci abzasında Latviya parlamentinin andiçmə mətnində hər bir deputatın latış dilinin yeganə dövlət dili statusunu gücləndirəcəyinə and içməsi nəzərdə tutulur. Bundan əlavə, 20-ci maddədə latış dilinin parlamentin işçi dili olduğu, 101-ci maddədə yerli özünüidarəetmə orqanlarının işçi dilinin latış dili olduğu, dövlət qurumlarına ərizə vermək hüququnu tənzimləyən 104-cü maddədə isə hər kəsin latış dilində müraciətlərə cavab almaq hüququna malik olduğu vurğulanır. Konstitusiyanın “Azlıqlar” adlı 114-cü maddəsində etnik azlıqlara mənsub şəxslərin öz dillərini, etnik və mədəni kimliklərini qorumaq və inkişaf etdirmək hüququ təsbit edilir [30].

2.2. Birdən çox rəsmi dilə malik ölkələr

Bir çox ölkələrin konstitusiyaları birdən çox dilə rəsmi dil statusu verib. Başqa sözlə, bu ölkələrdə dövlət qurumları çoxdillidir. Bunlara bir neçə misal gətirək.

Hindistan: Konstitusiya (343–351-ci maddələr) dil məsələsinə daha kompleks yanaşır. Federal səviyyədə hind dili əsas rəsmi dil, ingilis dili isə köməkçi rəsmi dildir. Bundan əlavə, 8-ci əlavəyə görə, 22 “planlaşdırılmış” regional dil tanınır [28]. Bu, Hindistanın çoxdilli cəmiyyətində balans yaratmaq məqsədi daşıyır və regionların öz dillərinin tədrisinə və istifadəsinə imkan verir.

İsveçrə: 1999-cu il İsveçrə Konstitusiyası dörd dili rəsmi dil kimi tanımışdır: alman, fransız, italyan və romanş. Bu dillərin hamısı tarixən ölkədə müəyyən bir əhali qrupu tərəfindən istifadə edilib: “The national languages are German, French, Italian, and Romansh” [22]. İsveçrə konfederativ dövlət olduğundan kantonlar öz rəsmi dillərini sərbəst şəkildə müəyyən edə bilirlər. Bu sistem dil müxtəlifliyinə çox liberal və çevik yanaşma nümunəsidir [35]. Belə ki, Konstitusiyanın “Dillər” adlı 70-ci maddəsinə görə:

“(1) Federasiyanın rəsmi dilləri alman, fransız və italyan dilidir. Romanş

dili də bu dildə danışanlarla ünsiyyət üçün rəsmi dildir.

(2) Kantonlar öz rəsmi dillərini müəyyən edirlər. Dil icmaları arasında harmoniyanı qorumaq üçün onlar dillərin ənənəvi ərazi bölgüsünə hörmət edir və yerli dil azlıqlarına qayğı göstərirlər.

(3) Federasiya və kantonlar linqvistik icmalar arasında ünsiyyəti və paylaşmanı təşviq edir.

(4) Federasiya çoxdilli kantonları öz xüsusi siyasətlərini həyata keçirməkdə dəstəkləyir.

(5) Federasiya Qrison və Tiçino kantonları tərəfindən romanş dilinin və italyan dilinin qorunması və inkişafı üçün görülən tədbirləri dəstəkləyir [35].

Romanş dili 1996-cı ildə İsveçrə Konstitusiyasına edilən düzəlişlə rəsmi dil statusu qazanıb. Lakin digər üç rəsmi dildən fərqli olaraq bu dil yalnız Romanş dillilərlə ünsiyyətdə rəsmi dil statusuna malikdir. Başqa sözlə, federal səviyyədə olan hər sənədin romanş dilində yazılmasına ehtiyac yoxdur [35].

Kanada: Konstitusiyanın 16–22-ci maddələrinə əsasən, ingilis və fransız dilləri ölkənin federal səviyyədə rəsmi dilləridir: “English and French are the official languages of Canada and have equality of status and equal rights and privileges…” [13]. Bu yanaşma Kanadada ikidilli dövlət modelinin tətbiq olunduğunu göstərir. Bütün vətəndaşlar dövlət orqanları ilə hər iki dildə ünsiyyət qurmaq hüququna malikdirlər [35].

Kanada konstitusiya sənədləri arasında olan 1982-ci il Konstitusiya Aktının [13] Kanada Hüquq və Azadlıqlar Xartiyasının birinci hissəsində “Kanadanın rəsmi dilləri” adlı bölmə 7 maddə və 17 bəndlə rəsmi dil məsələsini tənzimləyir. Konstitusiya ingilis və fransız dillərini federal hökumətin və Nyu-Brunsvik əyalətinin rəsmi dilləri kimi müəyyən edir. Ölkədəki digər doqquz ştatın inzibati orqanları öz dillərini müəyyən edir. Bu doqquz əyalətdən səkkizində rəsmi dil ingilis dili, digər əyalət Kvebekdə isə rəsmi dil fransız dilidir [35].

Sözügedən Konstitusiya sənədinin müvafiq maddələri qısa şəkildə aşağıdakılardır:

Maddə 16/1: “İngilis və fransız dilləri Kanadanın rəsmi dilləridir, Kanada hökumətinin və parlamentinin bütün qurumlarında bərabər prioritet və istifadə hüququna malikdir.”

Maddə 17/1 (Parlamentdəki dillər): “Hər kəsin parlamentdə istənilən müzakirə və ya digər prosesdə ingilis və ya fransız dillərindən istifadə etmək hüququ vardır”.

Maddə 18/1 (Qanunvericilik dili): "Parlamentin qanunvericilik aktları, protokolları və gündəliyi ingilis və fransız dillərində çap olunur və dərc edilir; hər iki dildə olan versiyalar eyni qüvvəyə malikdir".

Maddə 19/1 (Məhkəmə dilləri): “İngilis və ya fransız dilindən istənilən şəxs parlament tərəfindən təsis edilmiş hər hansı məhkəmədə, məhkəmələrə təqdim olunan çıxışlarda və ya məhkəmə tərəfindən idarə olunan hər hansı bir prosesdə istifadə edə bilər” [13; 35].

İrlandiya: İkidilli konstitusiyanın digər bir nümunəsi bu gün də qüvvədə olan 1937-ci il İrlandiya Konstitusiyasıdır. Konstitusiya iki dildə (irland və ingilis) yazılmışdır. Konstitusiya irland və ingilis dillərini rəsmi dillər kimi müəyyən edir. Konstitusiyanın dövlətin xüsusiyyətlərini sadaladığı ikinci hissəsində “Dil” adlı 8-ci maddəyə görə: “(1) İrland dili milli dil kimi ilk rəsmi dildir. (2) İngilis dili ikinci rəsmi dil kimi tanınır” [16].

Pakistan: Konstitusiyanın “Milli dil” adlı 251-ci maddəsinə əsasən, Pakistanın milli dili urdu dilidir. Həmin maddənin ikinci bəndində qeyd edilir ki, ingilis dili urdu dili onu əvəz edənə qədər rəsmi dil kimi də istifadə oluna bilər. Bu qaydalara əlavə olaraq, federal bölmələrin qəbul

edəcəkləri qanunun yerli dillərin, eləcə də milli dilin tədrisi, inkişafı və istifadəsini tənzimləyə biləcəyi bildirilir (M. 251/3) [29].

Finlandiya: 1999-cu il Finlandiya Konstitusiyasında dil məsələsi dövlətin xüsusiyyətlərinin sadalandığı "Əsas müddəalar" bölməsinə deyil (maddə 1-6), Konstitusiyanın "Əsas hüquq və azadlıqlar" adlı ikinci hissəsində "Fərdin dil və mədəniyyət hüququ" adlı 17-ci maddəsinə daxil edilmişdir: "Finlandiyanın milli dilləri fin və isveç dilləridir. Hər kəsin öz dilindən, fin və ya isveç dilindən məhkəmələrdə və ya digər orqanlarda istifadə etmək və bu dildə rəsmi sənədlərdən istifadə etmək hüququ qanunla təmin edilir. Dövlət orqanları ölkənin findilli və isveçdilli əhalisinin mədəni və sosial ehtiyaclarını bərabər əsaslarla təmin etməlidirlər" [15].

Konstitusiyada "rəsmi dil" əvəzinə "milli dil" (nationalspråk, kansalliskielet) terminindən istifadə edilsə də, Finlandiyada fin və isveç dilləri yuxarıda qeyd olunan təriflər çərçivəsində faktiki olaraq rəsmi dil statusuna malikdir. Konstitusiyanın bu dilləri əsas hüquq və azadlıqlar bölməsində tənzimləməsinin səbəbi dil məsələsini azlıqların dilləri ilə birlikdə bir maddədə tənzimləmək cəhdidir [35].

Birdən çox rəsmi dili olan ölkələrin siyahısını genişləndirmək mümkündür. Yuxarıda sadalananlara əlavə olaraq, aşağıdakı ölkələri də misal göstərmək olar: Belçikada holland, fransız və alman dilləri; İspaniyada milli səviyyədə ispan dili, muxtar bölgələrdə katalon, bask və qal dilləri [27]; Sloveniyada milli səviyyədə sloven dili, bəzi bələdiyyələrdə italyan və macar dilləri [32]; Niderlandda holland və friz dilləri [19]; İtaliyada milli səviyyədə italyan, Cənubi Tirolun muxtar vilayətlərində alman, Valle d'Aostada fransız, Tirest və Qoritsiyada sloven dili [18]; İsraildə ibrani və ərəb dilləri [14] və s.

2.3. Rəsmi dili konstitusiyada qeyd etməyən ölkələr

Bəzi ölkələrin konstitusiyalarında rəsmi dil qaydaları yoxdur. Buna ABŞ, Almaniya, İtaliya, Hollandiya, İsveç, Norveç, Danimarka, Çexiya, Lüksemburq, Yunanıstan və s. konstitusiyalarını misal göstərmək olar. Bununla belə, dil məsələsi bəzən ya konstitusiyada açıq şəkildə istinad etməklə, ya da məsələni bütünlüklə hüquqi tənzimləmənin ixtiyarına buraxan təsisçi hakimiyyət tərəfindən qanunla tənzimlənə bilər. Məsələn, Lüksemburq Konstitusiyasının "Dil" adlı 29-cu maddəsində qeyd edilir ki, "Qanun məhkəmə və inzibati işlərdə istifadə ediləcək dilləri tənzimləyir" və beləliklə, dil məsələsini sırf hüquqi məsələ kimi müəyyən edir [35].

Bir çox dillərdə danışan qrupları ehtiva etsə də, ABŞ ingilis dilinin vətəni hesab edilən ölkələrdən biridir. Rəsmi qurumların ölkə daxilində xidmət göstərdiyi əsas dil və ölkənin beynəlxalq səviyyədə təmsil olunduğu dil ingilis dilidir. Lakin ingilis dilində yazılmış 1787-ci il ABŞ Konstitusiyasında rəsmi dillə bağlı heç bir tənzimləmə yoxdur. Konstitusiyanı hazırlayanlar "rəsmi dil" məsələsini də müzakirə ediblər, lakin bu məsələ ilə bağlı heç bir tənzimləmə aparılmaması fikri üstünlük təşkil edib [26].

ABŞ Konstitusiyasına rəsmi dilin ingilis dili olması ilə bağlı düzəliş və ya ingilis dilinin federal səviyyədə rəsmi dil elan edilməsi ilə bağlı təkliflər səsləndirilib. Lakin bu təkliflərin heç biri qəbul edilməyib. Bu səbəblərə görə deyə bilərik ki, ingilis dili ABŞ-da rəsmi dil deyil, milli dildir. Tədqiqatçılar qeyd edirlər ki, əgər "rəsmi dil" terminindən istifadə etməliyiksə, ingilis dili de-yure deyil, ABŞ-da yalnız de-fakto rəsmi dildir. Prezident Klintonun 2000-ci il avqustun 11-də imzaladığı memorandum müxtəlif milli mənşəyinə görə ingilis dilini mükəmməl bilməyən şəxslərə fede-

ral hökumət tərəfindən təmin edilən və ya maliyyələşdirilən proqramlara, fəaliyyətlərə və xidmətlərə çıxışın təmin edilməsini tənzimləyirdi. Bəzi tədqiqatçılara görə, bu tənzimləmə ilə ABŞ federal səviyyədə çoxdilli oldu [35].

Birləşmiş Ştatlar immiqrantlar ölkəsi olduğundan, immiqrasiyanın artdığı dövrlərdə (I Dünya müharibəsindən sonra, 1960-cı illərdə və 1980-1990-cı illər arasında) artan mühacirətə cavab olaraq ştatlarda ingilis dilini rəsmi dil elan etmək üçün siyasi hərəkatlar müşahidə edildi. 2010-cu ilin sonuna olan məlumata görə, ABŞ-ın 50 ştatından 31-i öz ştatlarının konstitusiyalarında və ya qanun qəbul etməklə ingilis dilini rəsmi dil elan edib [35].

Araşdırmalar göstərir ki, ingilis dilinin dövlətin rəsmi dili olmasını istəyənlər əsasən avropalı amerikalılardır. Afrika və ya Latın Amerikası mənşəli amerikalıların sayının çox olduğu ştatlarda heç bir rəsmi dil tənzimlənməsi aparılmayıb [35]. Rəsmi dilin ingilis dili olmasının tərəfdarı olan ABŞ vətəndaşları hətta Federal Konstitusiyanın belə ingilis dilində yazıldığını iddia edərkən, ingilis dilinin rəsmi dil olmasına qarşı çıxan vətəndaşlar ABŞ-ın mədəni müxtəliflik üzərində qurulduğunu və buna görə də ABŞ-ı tək bir dillə məhdudlaşdırmağın düzgün olmadığını iddia edirlər [24].

Bəzi ştatlarda verilən "yalnız ingiliscə bəyannamələr" federal konstitusiyanın "vətəndaşlıq hüquqlarını" tənzimləyən 14-cü dəyişikliyindəki "ədalətli mühakimə" və ya "qanunun bərabər müdafiəsi" prinsiplərini pozması səbəbindən Ali Məhkəmə tərəfindən ləğv edilib.

ABŞ-dakı ümumi anlayışa görə, bir dövlətin hər hansı bir dili rəsmi dil kimi qəbul etməsi üçün o dildən başqa dillərdə təhsil və tədrisin qarşısı alınmamalı, seçki materialları hazırlanmamalıdır. Səsvermə və ikidilli təhsil federal qanunla tənzimlənir. Ali Məhkəmə 1965-ci il Federal Səsvermə Aktında ilkin məqsədi qaradərililərə səsvermə hüququ vermək olan, səsvermə hüququna malik olmaq üçün ingilis dilini bilməsini tələb etməyən müddəanın konstitusiyaya uyğun olduğuna qərar verdi. Ali Məhkəmənin qərarı ispandilli ABŞ vətəndaşlarının seçkilərdə səs verə bilməsi üçün xüsusi tədbirlər görüldükdən sonra qəbul edilib. Buna baxmayaraq, praktikada bəzi problemlərə görə 1975-ci ildə Səsvermə Qanununa dəyişiklik edilmiş və seçici vətəndaşların 5%-dən çoxunun başqa dildə danışdığı bölgələrdə seçki materiallarının iki dildə hazırlanması qaydası qəbul edilmişdir.

Bu gün ABŞ-da bülletenlər 28 müxtəlif dildə çap olunur [35].

2.4. Rəsmi dildən başqa dillərin konstitusiyalarda tənzimlənməsi

"Rəsmi dil" və "milli dil" anlayışlarından fərqli məna kəsb edən "azlıqların dili" anlayışı suveren dövlətdə yaşayan və ölkə əhalisinin qalan hissəsindən fərqli dildə danışan bir qrupun dili deməkdir. Başqa sözlə desək, azlıq dili linqvistik azlığın dilidir [34].

İlk üç anlayışdan fərqli olan "regional dil" müəyyən bir bölgədə yaşayan əhalinin əksəriyyətinin istifadə etdiyi dil deməkdir. Avropa Şurası tərəfindən hazırlanmış 1992-ci il tarixli Konvensiya Regional və Azlıq dillər haqqında Avropa Xartiyası adlanır. Nizamnamənin 1-ci maddəsinin (a) bəndinə əsasən, "regional və ya azlıqların dilləri sayları həmin dövlətin əhalisinin qalan hissəsindən az olan və həmin dövlətin rəsmi dilindən və ya dillərindən fərqli olan bir qrup vətəndaş tərəfindən dövlətin ərazisində ənənəvi olaraq danışılan dillərdir" [21].

Nizamnaməni tərtib edənlər hər iki anlayışın ("azlıqların dili" və "regional dili") vahid tərifə sıxışdırıla bilməyəcəyini başa düşsələr də, maddənin növ-

bəti bəndində “nəzərdə tutulan müxtəlif müdafiə və təşviq tədbirlərinin qəbulunu əsaslandırmaq üçün kifayət qədər sayda insanın bu dildən fikirlərini ifadə etmək üçün istifadə etdiyi coğrafi ərazi” ifadəsi ilə “region” anlayışına aydınlıq gətirilmişdir. Qeyd edək ki, Xartiyanın adında və bu məqalədə “azlıqların dili” anlayışına əlavə olaraq “regional dil” anlayışından istifadə edilməsi Fransanın Xartiyaya töhfəsidir. Ölkəsində etnik, dil və dini azlıqların olmadığını iddia edən Fransa öz hüquq sistemində “regional dil” anlayışını qəbul etmişdir [23].

Bu səbəbdən Xartiya “azlıq” və “regional” anlayışlar arasına “və ya” bağlayıcısı qoymaqla dövlətlərə fakultativ hüquq verir. Tərəflər “regional dilləri” və ya “azlıqların dillərini” qorumaq üçün Xartiyada əksini tapmış prinsipləri həyata keçirirlər. Bundan başqa, Nizamnamənin birinci maddəsinin tətbiq sahəsini müəyyən etməyə cəhd edən (a) yarımbəndində vurğulanır ki, azlıq və ya regional dil rəsmi dildən və ya dillərdən fərqli olmalıdır. Tədqiqatçıların fikrincə, əgər dil regional və ya azlıq dilinin tərifinə uyğun gəlirsə, o, “regional dil” və ya “azlıqların dili” adlanır. Qeyd edildiyi kimi, bu dilin də rəsmi dil kimi tanınması başqa bir məsələdir. Rəsmi dilə çevrildikdən sonra azlıq və ya regional dil statusunu itirmir. Necə ki, “milli dil” elan edilən dil eyni zamanda “rəsmi dil” kimi tanınmaqla “milli dil” statusunu itirmir və konstitusiyalarda hər iki anlayışla səciyyələnir. Eynilə, məsələn, Finlandiyada fin və isveç dilləri rəsmi dil, Aland adasında isə isveç dili azlıq dili və regional dildir [35].

Bundan başqa, İspaniyada ispan dili dövlət dili olsa da, katalon, bask və qalisiya dilləri bölgə daxilində rəsmi statusa malikdir. Belçikada isə niderland (flamand), fransız və alman dilləri bölgələr üzrə rəsmi dillərdir.

Fransanın müxtəlif bölgələrində yaşayan azlıqların gərgin lobbiçilik səylərindən sonra 23 iyul 2008-ci ildə 1958-ci il Fransa Konstitusiyasının 75-ci maddəsinə 75-I maddəsi olaraq aşağıdakı müddəa əlavə edildi: “Region dilləri Fransanın irsinə aiddir” [23]. Məsələn, 2004-cü il Fransız Polineziyasının Muxtariyyət Qanunu həm fransız dilini rəsmi dil elan edən 1958-ci il Fransa Konstitusiyasının 2-ci maddəsini, həm də regional dilləri əhatə edən 75-I maddəsini özündə birləşdirən tənzimləməni ehtiva edir. Qanunun 57-ci maddəsində Fransız Polineziyasında rəsmi dilin fransız dili olduğu, eyni zamanda, taiti dilinin regionun mədəni kimliyinin əsas elementi olduğu bildirilir. Bununla belə, taiti dili dövlət orqanları tərəfindən deyil, xüsusi hüquqlu fiziki və hüquqi şəxslər tərəfindən istifadə edilə bilən bir dildir [35].

Tədqiqatçıların fikrincə, əgər rəsmi dillərdən biri və ya bir neçəsi ölkə əhalisinin əhəmiyyətli hissəsinin dini inanclarını yerinə yetirəcəyi dil deyilsə, o zaman dini inanc dilinin rəsmi dil qarşısında hansı mövqedə olacağı sualı gündəmə gəlir. Əsas hüquq və azadlıqlar nöqteyi-nəzərindən baxdıqda, müqəddəs kitabın dili və dini ayinlər həm də din və vicdan azadlığı məsələsidir və buna görə də qorunmalıdır. Pakistanın 1973-cü il Konstitusiyasında bununla bağlı müəyyən maddələr əksini tapır. Konstitusiyanın “İslami həyat tərzi” başlıqlı 31-ci maddəsində Pakistandakı müsəlmanların öz həyatlarını İslamın əsas prinsip və anlayışlarına uyğun olaraq fərdi və ya kollektiv şəkildə təşkil etmələrini, Quran və sünni inancına uyğun fəaliyyət göstərmələrini təmin etmək üçün tədbirlərin görülməsini nəzərdə tutur. Müddəa müsbət öhdəlik mənası daşıyır. İkinci bənddə mükəlləfiyyətlərin necə yerinə yetirilməli olduğunu sadalamaqla yanaşı, Quran və İslamın tədrisi üçün ərəb dilinin tədrisinin tənzimlənməsini zəruri edir [35].

3. Azərbaycan dilinin hüquqi statusu

Azərbaycan Respublikasında Azərbaycan dili dövlət dili kimi tanınmış və bu status Konstitusiyada təsbit edilmişdir. Bundan əlavə, "Azərbaycan Respublikasında dövlət dili haqqında" Qanun və "Azərbaycan Respublikasının dövlət dili haqqında Əsasnamə" vasitəsilə dil siyasətinin hüquqi çərçivəsi daha da genişləndirilmişdir. Azərbaycan dilinin qorunması, tədrisi və tətbiqi dövlət siyasətinin prioritet istiqamətlərindən biridir.

3.1. AXC dövründə dil siyasəti

Azərbaycan dilinin funksional inkişafı sahəsində köklü dəyişikliklərə yalnız 1918-ci il mayın 28-də Azərbaycanın dövlət müstəqilliyinin elan edilməsindən sonra mümkün oldu. Müstəqil dövlətin mühüm atributlarından biri olan dövlət dili məsələsi yenicə yaranmış AXC hökumətinin diqqət mərkəzində idi. Cümhuriyyətin elanından bir ay, müvəqqəti paytaxta - Gəncəyə köçəndən on gün sonra 1918-ci il iyunun 27-də milli hökumətin qərarı ilə Azərbaycan dilinə dövlət dili statusu verildi və dövlət orqanlarında kargüzarlığın bu dildə aparılmasına başlanıldı [8]. Qeyd edək ki, bu qərar Gülüstan və Türkmənçay müqavilələri ilə Azərbaycanın ikiyə bölünməsindən sonra ana dilinin dövlət dili kimi işlədilməsinə aid ilk sənəddir. Beləliklə, bu hadisə Azərbaycan dilinin funksional inkişafında yeni mərhələnin başlanğıcını qoydu. Belə ki, dil sahəsində millileşdirmənin həyata keçirilməsi bu dövrdə milli hökumətin fəaliyyətinin prioritet istiqamətlərindən biri idi: “Dil sahəsində millileşdirmə siyasətinin əsas mahiyyətini Azərbaycan dilinin müstəmləkəçilik dövründə itirilmiş mövqelərinin bərpası və keçmiş metropoliya dilinin *(rus dilinin - **A.M.**)* tədricən cəmiyyətin əsas sahələrindən sıxışdırılıb çıxarılması təşkil edirdi” [9].

Ölkədə birdən-birə Azərbaycan dilinə keçidin yaradacağı problemləri nəzərə alan hökumətin qərarına əsasən, məhkəmə, inzibati idarəçilik və digər vəzifələri icra edənlər türk (Azərbaycan) dilini lazımi səviyyədə öyrənənədək idarə və müəssisələrdə rus dilinin də işlədilməsi məqbul sayılırdı. Cümhuriyyətin daxili işlər naziri Behbud xan Cavanşir o zaman “Azərbaycan” qəzetinin müxbiri ilə müsahibəsində məsələyə aydınlıq gətirərək deyirdi: “Azərbaycan müəssisələrində rus dilinin işlədilməsi... hazırkı dövrün zərurətindən irəli gəlir. Əlbəttə, bu, çox davam etməyəcəkdir. Yüksək vəzifədə işləyən və türk dilini bilməyən məmurlar uzun müddət işləyə bilməyəcəklər. İki ildən sonra Azərbaycanın bütün müəssisələri millileşdiriləcəkdir. Türk dilini bilməyən məmurlar isə vəzifələrini itirməməkdən ötrü bizim dili öyrənməli olacaqlar”. 1918-ci il avqustun 28-də türk (Azərbaycan) dilində savadlı milli kadrların hazırlanması məqsədilə ölkədəki təhsil müəssisələrinin millileşdirilməsi haqqında qərar qəbul olundu. Türk (Azərbaycan) dilində fəaliyyət göstərən ali təhsil müəssisələrinin yaradılması və Azərbaycan əlifbasının islahatı üçün ilk addımların atılması da 1918-1920-ci illər müstəqillik dövrünün əsas nailiyyətlərindəndir. Bu baxımdan 1918-1920-ci illər dövrünü son iki yüz ildə Azərbaycan dilinin funksional inkişafında dönüş nöqtəsi hesab etmək olar. Belə ki, XX əsrin sonrakı onilliklərində bu sahədə baş verən proseslər 1918-1920-ci illərdə əsası qoyulmuş tendensiyaların xeyli dərəcədə inkişafı və dərinləşməsinin təzahürü idi [9].

AXC dövründə etnik azlıqların dillərinə də xüsusi diqqət verilirdi. 7 sentyabr 1918-ci ildə milli azlıqlardan olan xalqların öz ana dilində təhsil alması haqqın-

da qanun qəbul edilmişdi. Bu Qanuna əsasən, hər hansı muxtar vilayətdə yerli əhali əksəriyyət təşkil etdiyindən orta təhsil də o dildə aparılmalı idi. Bundan əlavə, xüsusi olaraq qeyd edilirdi ki, əgər bir məktəbdə azlıqda qalan xalqlardan olan tələbələrin sayı 40-a qədər olsa, təhsil onların dilində aparılmalıdır [12].

3.2. Konstitusiyada Azərbaycan dilinin dövlət dili kimi təsbit olunmasında Ümummilli lider Heydər Əliyevin rolu

Tarixin müxtəlif mərhələlərində Azərbaycan dili dövlət dili kimi qəbul olunsa da, bu status davamlı olmadı. 1969-cu ildə Ümummilli lider Heydər Əliyev hakimiyyətə gəldikdən sonra ana dilinə xüsusi diqqət göstərildi və Azərbaycan dili yenidən öz layiqli yerini tutmağa başladı.

1930-cu illərdə ana dili məsələsini önə çıxaran şəxslər ciddi cəzalara məruz qalır, hətta Sibirə sürgün olunurdular. Həmin dövrdə milli respublikalara rəhbərlik edən şəxslər belə bu məsələni açıq şəkildə dilə gətirməkdən çəkinirdilər. 1978-ci il aprelin 27-də qəbul olunan Azərbaycan SSR-in yeni Konstitusiyasında Azərbaycan dilinin dövlət dili kimi təsbit olunması xalqımızın həyatında mühüm hadisə oldu [11]. O dövrdə sovet ideoloji təzyiqlərinin mövcud olmasına baxmayaraq, Ulu öndər Heydər Əliyev tərəfindən belə bir təşəbbüsün həyata keçirilməsi milli dəyərlərə və ana dilimizə verilən böyük diqqət və qayğının göstəricisi idi. 1970–1980-ci illərdə Ümummilli lider Heydər Əliyevin həyata keçirdiyi ardıcıl və məqsədyönlü dil siyasəti xalq arasında milli şüurun formalaşmasına və güclənməsinə mühüm təsir göstərdi. Ulu öndərin ana dilimizə olan xüsusi münasibəti sonrakı illərdə də davam etdi.

1995-ci ilin oktyabr ayında yeni Konstitusiyanın hazırlanması zamanı dövlət dili məsələsi geniş şəkildə müzakirə olundu. Bu müzakirələr məhz Ümummilli lider Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə aparıldı. Nəticədə, 1995-ci il noyabrın 12-də qəbul edilən Konstitusiyada Azərbaycan dili rəsmi olaraq dövlət dili kimi təsbit edildi (21-ci maddə) və bu status hüquqi baxımdan rəsmiləşdi.

Ümummilli lider Heydər Əliyev 2001-ci il iyunun 18-də "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" Fərman [7] imzaladı. Bu Fərman müstəqil Azərbaycan dövlətinin dil siyasətinin formalaşması və güclənməsi baxımından mühüm əhəmiyyətə malikdir. Fərmanla həmçinin Azərbaycan Prezidenti yanında Dövlət Dil Komissiyası yaradıldı. Fərman dövlət dilinin istifadəsi ilə bağlı geniş məlumatları özündə ehtiva edir [7]. Ulu öndərin 2001-ci il 9 avqust tarixli Fərmanına əsasən, hər il avqustun 1-i Azərbaycan əlifbası və Azərbaycan dili günü kimi qeyd edilir [5]. 2002-ci il sentyabrın 30-da “Azərbaycan Respublikasında dövlət dili haqqında” Azərbaycan Respublikasının Qanununun [6] qəbulu isə dövlətçilik baxımından olduqca mühüm bir hadisədir. Bu Qanuna əsasən, Azərbaycan Respublikası Azərbaycan dilinin dövlət dili olaraq işlədilməsini öz müstəqil dövlətçiliyinin başlıca əlamətlərindən biri sayır, onun tətbiqi, qorunması və inkişaf etdirilməsinin qayğısına qalır, dünya azərbaycanlılarının Azərbaycan dili ilə bağlı milli-mədəni, özünüifadə ehtiyaclarının ödənilməsi üçün zəmin yaradır. Qanun Azərbaycan Konstitusiyasına uyğun olaraq ölkəmizdə Azərbaycan dilinin dövlət dili kimi hüquqi statusunu tənzimləyir [10].

Ulu öndərin daxili və xarici siyasətini uğurla davam etdirən Prezident İlham Əliyevin “Azərbaycan Milli Ensiklopediyasının nəşri haqqında” və “Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin

həyata keçirilməsi haqqında” 12 yanvar 2004-cü il tarixli sərəncamları da öz ictimai-tarixi əhəmiyyətinə görə yüksək qiymətləndirilir. Həmin fərmanlara uyğun olaraq 2004-cü ildə Azərbaycan dilində latın qrafikası ilə çapı nəzərə tutulan əsərlərin siyahısı hazırlanmış və çap olunmuşdur. Bundan başqa, 2013-cü il 9 aprel tarixli “Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı” [3] ana dilimizin bu günün çağırışlarına uyğun inkişafını təmin etmək məqsədi daşıyır. Eyni zamanda, 2018-ci ildə imzalanan iki mühüm sənəd - “Azərbaycan dilinin elektron məkanda daha geniş istifadəsinin təmin edilməsi haqqında” Sərəncam [2] və “Azərbaycan dilinin saflığının qorunması və dövlət dilindən istifadənin daha da yaxşılaşdırılması ilə bağlı tədbirlər planı haqqında” Fərman [4] müasir dövrdə dilimizin texnoloji və kommunikativ imkanlarını artırmaqla onun gələcəyini daha da möhkəmləndirdi [10].

Bu gün Azərbaycan dilinin dünya səviyyəsində tanınması üçün əlavə addımlar atılmalı, beynəlxalq münasibətlərdə bu dilin istifadəsi genişləndirilməlidir. Azərbaycan dilinin UNESCO-nun Dil Mirası Siyahısına daxil edilməsi, digər ölkələrdə Azərbaycan dilində təhsil və mədəniyyət fəaliyyətlərinin təşviqi önəmli məqsədlərdən biridir. Yalnız bu yolla Azərbaycan dili həm dövlət səviyyəsində, həm də beynəlxalq miqyasda möhkəm və güclü yer tutar.

NƏTİCƏ

Konstitusional hüquq çərçivəsində rəsmi dilin statusu ölkənin tarixi, etnik strukturu və siyasi sisteminə uyğun şəkildə formalaşır. Rəsmi dilin konstitusional tənzimlənməsi dövlətin dil siyasətinin əsasını təşkil edir və bu, milli birliyin qorunması, idarəetmənin səmərəliliyi və vətəndaşların hüquqlarının müdafiəsi baxımından həlledici rol oynayır. Müxtəlif ölkələrin təcrübəsi göstərir ki, vahid rəsmi dil modeli ilə yanaşı, çoxdilli və regional dillərə açıq modellər də hüquqi praktikada öz yerini tapmışdır. Təkdilli modellər (məsələn, Fransa) milli birliyə üstünlük versə də, çoxdilli sistemlər (İsveçrə, Kanada, Hindistan) cəmiyyətin müxtəlifliyini daha yaxşı əks etdirir. Azərbaycan modeli isə milli dilin qorunması və inkişaf etdirilməsi istiqamətində tək rəsmi dilə əsaslanan yanaşmanı əks etdirir. Bu model balanslı xarakter daşıyır: dövlət dili üstün tutulur, lakin digər dillərin inkişafına da hüquqi zəmanət verilir.

İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT:

Azərbaycan dilində:

1. Azərbaycan Respublikasının Konstitusiyası. - https://e-qanun.az/framework/897
2. “Azərbaycan dilinin elektron məkanda daha geniş istifadəsinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. / Bakı şəhəri, 17 iyul 2018-ci il № 346/ - https://e-qanun.az/framework/39503
3. “Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair” Dövlət Proqramı. /Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 9 aprel tarixli 2837 nömrəli Sərəncamı ilə təsdiq edilmişdir/ - https://e-qanun.az/framework/25537
4. “Azərbaycan dilinin saflığının qorunması və dövlət dilindən istifadənin daha da təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin Fərmanı. / Bakı şəhəri, 1 noyabr 2018-ci il, № 323 / - https://e-qanun.az/framework/40441
5. “Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin Fərmanı. /Bakı şəhəri, 9 avqust 2001-ci il, № 552/ - https://e-qanun.az/framework/2811
6. “Azərbaycan Respublikasında dövlət dili haqqında” Azərbaycan Respublikasının Qanunu /Bakı şəhəri, 30 sentyabr 2002-ci il, № 365-IIQ/ - https://e-qanun.az/framework/1865
7. “Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin Fərmanı. /Bakı şəhəri, 18 iyun 2001-ci il, № 506/ -https://e-qanun.az/framework/3568
8. Azərbaycan Respublikası MAİ, f.894, siy. 1, iş 25, v.21.
9. Balayev A. Azərbaycanda etnolinqvistik proseslər. /Azərbaycan Milli Ensiklopediyası. 25 cilddə. “Azərbaycan” cildi. Bakı, 2007
10. Kərimova S. Sözümüzün gücü: Dövlət dili statusunun şərəfli yolu. - https://muallim.edu.az/news/sozumuzun-gucu-dovlet-dili-statusunun-serefli-yolu-680d3d726bb33181e2dc0cf9
11. Mikayılova S. Heydər Əliyevin strateji baxışında Azərbaycan dili. - https://www.azerbaijan-news.az/az/posts/detail/heyder-eliyevin-strateji-baxisinda-azerbaycan-dili-1753999243/366129
12. Niftiyev N. Azərbaycanda birgəyaşayış və multikulturalizm. Bakı, 2015

İngilis dilində:

13. Constitution Act /Canadian Charter of Rights and Freedoms/, 1982 - https://laws-lois.justice.gc.ca/eng/const/page-12.html
14. Constitution for Israel/ - https://faolex.fao.org/docs/pdf/isr129765.pdf
15. Constitution of Finland. - https://www.constituteproject.org/constitution/Finland_2011
16. Constitution of Ireland. - https://www.irishstatutebook.ie/eli/cons/en/html
17. Constitution of Malta. - https://legislation.mt/eli/const/eng
18. Constitution of the İtalian Republic - https://www.cortecostituzionale.it/documenti/download/pdf/The_Constitution_of_the_Italian_Republic.pdf
19. Constitution of the Netherlands. - https://www.government.nl/documents/re-

ports/2019/02/28/the-constitution-of-the-kingdom-of-the-netherlands

20. Constitution of the Slovak Republic - https://www.prezident.sk/upload-files/46422.pdf

21. European Charter for Regional or Minority Languages /Strasbourg, 5.XI.1992/ - https://rm.coe.int/1680695175

22. Federal Constitution of the Swiss Confederation. - https://www.fedlex.admin.ch/eli/cc/1999/404/en

23. French Constitution, 1958 - https://www.conseil-constitutionnel.fr/sites/default/files/as/root/bank_mm/anglais/constiution_anglais_oct2009.pdf

24. Nancy Sullivan, Robert T. Schatz, “When cul¬tures collide: the official language debate”, Language & Communication, 1999, pp. 262-268.

25. Newell Stultz, “Official Language Policies in Multilingual Societies: Evidence from the United States, South Africa, and Canada”. // The Journal of South African and American Studies, Vol. 10, No. 1, January 2009.

26. “Official English”: Federal Limits on Efforts to Curtail Bilingual Services in the States”. // Harvard Law Review, Vol. 100, April 1987

27. Spanish Constitution. - https://www.senado.es/web/conocersenado/normas/constitucion/detalleconstitucioncompleta/index.html?lang=

28. The Constitution of India. - https://cdnbbsr.s3waas.gov.in/s380537a945c7aaa788ccfcdf1b99b5d8f/uploads/2024/07/20240716890312078.pdf

29. The Constitution of the İslamic Republic of Pakistan. - https://www.pakp.gov.pk/wp-content/uploads/2024/07/Constitution.pdf

30. The Constitution of the Republic of Latvia. - https://www.saeima.lv/en/legislative-process/constitution

31. The Constitution of the Republic of Lithuania - https://lrkt.lt/en/about-the-court/legal-information/the-constitution/192

32. The Constitution of the Republic of Slovenia. - https://www.varuh-rs.si/en/about-us/legal-framework/the-constitution-of-the-republic-of-slovenia/

Türk dilində:

33. Türkiye Cumhuriyeti Anayasası - https://www.anayasa.gov.tr/tr/mevzuat/anayasa/

34. Akbulut O. Barış İçinde Birlikte Yaşamanın Hukuk Zemini, On İki Levha yay., İstanbul, 2008, s. 27-36.

35. Akbulut O. Resmi dil ve anayasalarda düzenlenişi - https://dergipark.org.tr/tr/download/article-file/397984

36. Şirin T, “Anayasanın Değiştirilemez Hükümlerini Tartışmak”, // Güncel Hukuk, s. 4-88, Nisan 2011

Agshin Mammadov

REGULATION OF OFFICIAL LANGUAGE IN CONSTITUTIONS: COMPARATIVE ANALYSIS

Abstract

The regulation of official language in constitutions holds critical importance for national identity, state administration, and civil rights. This article offers a comparative analysis of the legal status of official languages in the constitutions of Azerbaijan and other countries. It begins by clarifying the concept of an official language, then reviews constitutional provisions regarding official languages across different states. The study highlights constitutions that either do not designate an official language, recognize a single official language, or establish multiple official languages, including those granting legal status to regional and minority languages. The legal framework governing the use of the Azerbaijani language as the state language is also examined. The article aims to explore various constitutional models concerning official language regulation and assess their impact on the language rights of minorities.

Keywords: official language, regional language, minority languages, multilingual countries, constitutional systems, Azerbaijani language, legislation

QƏRBİ AZƏRBAYCAN:
TARİXİ, MADDİ-MƏDƏNİ İRSİ

WESTERN AZERBAIJAN:
HISTORICAL, MATERIAL AND
CULTURAL HERITAGE

QƏRBİ AZƏRBAYCANA QAYIDIŞ: **TARİXİ ƏDALƏTİN BƏRPASI VƏ MÜASİR REALLIQLAR**

Gülgün QULİYEVA,
Bakı Dövlət Universitetinin Diplomatiya və müasir inteqrasiya prosesləri kafedrasının müəllimi, siyasi elmlər üzrə fəlsəfə doktoru
(Bakı, Azərbaycan)

E-mail: gulgun2004@mail.ru
ORCID ID: 0009-0003-9754-3588
UOT 32
UOT 327

Xülasə. Məqalədə Qərbi Azərbaycandan – hazırkı Ermənistan ərazisindən azərbaycanlıların kütləvi şəkildə deportasiyası və məcburi köçkünlüyünün tarixi-siyasi səbəbləri araşdırılır. Sovet dövründə, xüsusilə 1948–1953 və 1987–1991-ci illərdə həyata keçirilmiş sistemli deportasiyalar nəticəsində yüz minlərlə azərbaycanlı öz dədə-baba torpaqlarından zorla çıxarılmışdır. Məqalədə bu hadisələr beynəlxalq hüquq baxımından qiymətləndirilir. BMT sənədləri və Avropa İnsan Haqları Konvensiyası kimi hüquqi mexanizmlərə istinad edilərək qayıdış hüququnun legitimliyi əsaslandırılır. Həmçinin, Prezident İlham Əliyevin təşəbbüsü ilə yaradılmış "Qərbi Azərbaycan İcması"nın fəaliyyəti və 2022-ci ildə qəbul olunmuş "Qayıdış Konsepsiyası"nın əsas müddəaları təhlil edilir. Müasir geosiyasi və humanitar şəraitdə bu məsələnin regional sabitlik, sülh və tarixi ədalətin bərpası baxımından əhəmiyyəti vurğulanır.

Məqalədə həmçinin Qərbi Azərbaycana qayıdış probleminin tarixi əsasları, hüquqi çərçivəsi və müasir reallıqlar kontekstində çağırışları araşdırılır, məsələnin həlli üçün potensial yollar təhlil edilir. Məqsəd həm tarixi ədalətin bərpası, həm də regionda davamlı sülh və təhlükəsizliyin təmin olunması naminə bu məsələyə kompleks yanaşmanın əhəmiyyətini vurğulamaqdır. Qərbi Azərbaycana qayıdış məsələsi tarixi ədalətin bərpası və Azərbaycan xalqının milli hüquqlarının təmin olunması baxımından əhəmiyyətli mövzudur. Tarixi hadisələrin, beynəlxalq hüququn və müasir geosiyasi reallıqların işığında bu problem kompleks xarakter daşıyır və onun həlli üçün çoxşaxəli yanaşma tələb olunur. Tarixi ədalətin bərpası Azərbaycan üçün milli kimliyin və ərazi bütövlüyünün qorunmasının əsas tərkib hissəsidir. Beynəlxalq hüququn tanıdığı qayıdış hüququ çərçivəsində Azərbaycan öz ərazilərini geri qaytarmaq üçün həm milli qanunvericilik, həm də beynəlxalq diplomatik yollardan istifadə edir. Məqalədə beynəlxalq əməkdaşlığın və hüquqi mexanizmlərin gücləndirilməsi, diplomatik səylərin artırılması və qayıdışın real mexanizmlərinin yaradılması ilə bağlı tövsiyələr də irəli sürülür.

Açar sözlər: Qərbi Azərbaycan, deportasiya, məcburi köçkünlər, qaçqınlar, qayıdış konsepsiyası, tarixi ədalət, insan hüquqları, beynəlxalq hüquq, geosiyasi şərait, Qərbi Azərbaycan İcması, Ermənistanda azərbaycanlıların hüquqları

Giriş

Qərbi Azərbaycan bölgəsi xalqımızın tarixində mühüm yer tutan ərazilərdən biridir. Bu region hazırda Ermənistan Respublikasının sərhədləri daxilində olsa da, uzun əsrlər boyu azərbaycanlıların məskunlaşdığı və milli mədəniyyətlərinin formalaşdığı ərazi olmuşdur. XX əsrin əvvəllərində baş verən hadisələr, xüsusilə 1918-ci ildə Cənubi Qafqazda cərəyan edən siyasi və sosial dəyişikliklər Qərbi Azərbaycanın taleyinə köklü şəkildə təsir etmişdir. Azərbaycan Xalq Cümhuriyyətinin (AXC) yaradılması ilə xalqımız öz milli müstəqilliyini elan etmiş, lakin eyni zamanda ərazi bütövlüyü məsələləri ilə üzləşmişdir. Bu dövrdə Qərbi Azərbaycan məsələsi milli münaqişələrin əsas səbəblərindən birinə çevrilmişdir [3]

Qərbi Azərbaycana qayıdış məsələsi Azərbaycan tarixinin, siyasi mübarizəsinin və milli kimliyinin mühüm tərkib hissəsi kimi uzun illərdir aktuallığını qoruyub saxlayır.

XX əsrdə baş vermiş geosiyasi dəyişikliklər nəticəsində Qərbi Azərbaycan ərazisi Azərbaycandan ayrı düşmüş, burada yaşayan əhali zorla köçürülmüşdür. Bu gün qayıdış məsələsi yalnız hüquqi və siyasi müstəvidə deyil, həm də humanitar aspektdə beynəlxalq diqqət tələb edən vacib məsələ kimi gündəmdədir. Müasir beynəlxalq hüquq sistemində öz doğma torpaqlarına qayıtmaq hüququ fundamental insan hüququ kimi tanınır və bu hüququn həyata keçirilməsi regional sabitlik, sülh və inkişaf üçün mühüm şərtlərdən biridir. Eyni zamanda, Qərbi Azərbaycana qayıdış məsələsi müasir geosiyasi reallıqlarla sıx bağlıdır; burada regional güc mərkəzlərinin maraqları, qonşu dövlətlərin mövqeləri və beynəlxalq təşkilatların rolu əsas yer tutur. Bununla belə, qayıdış prosesinin uğurla həyata keçirilməsi üçün bir sıra problemlərin aradan qaldırılması zəruridir. Regional geosiyasi vəziyyət, qonşu dövlətlərin mövqeyi, sosial-iqtisadi problemlər və təhlükəsizlik məsələləri qayıdışın əsas maneələridir. Bu səbəbdən Azərbaycan həm daxildə, həm də beynəlxalq səviyyədə qayıdışı prioritetlərindən biri kimi müəyyən etməli, bu istiqamətdə diplomatik fəaliyyət intensivləşdirilməli və beynəlxalq hüquqi mexanizmlər gücləndirilməlidir.

I. Tarixi kontekst: Qərbi Azərbaycan probleminin mənşəyi

Qərbi Azərbaycan tarixən xalqımızın məskunlaşdığı, mədəni irsinin formalaşdığı və inkişaf etdiyi ərazi olmuşdur. Xüsusilə XIX və XX əsrlərdə bölgədə baş verən siyasi dəyişikliklər, imperiya müharibələri və yeni sərhəd siyasətləri nəticəsində Qərbi Azərbaycan ərazisi Ermənistan Respublikasının tərkibinə daxil edilmişdir. 1920-ci illərdən başlayaraq sovet hakimiyyətinin sərhəd siyasəti nəticəsində Azərbaycan və erməni əhalisi arasında zorakı köçürülmələr həyata keçirilmiş, bu, qərbi azərbaycanlıların doğma yurdlarından məcburi çıxarılması ilə nəticələnmişdir. Bu proses ədalətsiz, qeyri-insani xarakter daşıyır və Azərbaycanın milli-mədəni yaddaşında dərin yaralar açmışdır. Qərbi Azərbaycana məxsus torpaqların itirilməsi Azərbaycanın ərazi bütövlüyünə və milli kimliyinə ciddi zərbə vurmuş, qayıdış hüququ Azərbaycanın müstəqilliyini bərpa etməsindən sonra əsas milli hədəflərdən biri kimi ortaya çıxmışdır.

“Qərbi Azərbaycan” anlayışı Azərbaycan milli kimliyində və tarixi yaddaşında mühüm yer tutan, Ermənistan Respublikasının ərazisində yerləşən tarixi Azərbaycan torpaqlarını ifadə edir. Bu terminlə əsasən İrəvan xanlığı, Zən-

gəzur və Göyçə kimi bölgələr nəzərdə tutulur ki, bunlar Azərbaycan türklərinin qədimdən yaşadığı və milli-mədəni irsinin formalaşdığı əsas məkanlardır [7. 25]. Qərbi Azərbaycan xalqımızın milli kimliyi, tarixi ədalət və ərazi bütövlüyü ilə bağlı mühüm simvolik məna kəsb edir [39]. Tarixi-coğrafi nöqteyi-nəzərdən Qərbi Azərbaycan əraziləri XIX əsrin əvvəllərində Rusiya və İran arasında imzalanmış Gülüstan (1813) və Türkmənçay (1828) müqavilələri nəticəsində siyasi sərhədlərin dəyişməsi ilə əhəmiyyətli transformasiyaya məruz qalmışdır [17]. Bu müqavilələrlə Azərbaycan türklərinin yaşadığı geniş ərazilər Rusiya imperiyasının tərkibinə daxil edilmiş, lakin eyni zamanda etnik və siyasi baxımdan yeni dəyişikliklər baş vermişdir.

1. Zəngəzur, Göyçə və Dərələyəz bölgələri əsrlərlə Azərbaycan türklərinin yaşadığı ərazilər olub. Bu torpaqlar həm Qafqaz Albaniyasının, həm də sonrakı dövrlərdə Səfəvilər və Qacarlar dövlətinin tərkibində olmuşdur.

2. Çar Rusiyası dövründə (XIX əsr) bu bölgələr inzibati cəhətdən İrəvan və Yelizavetpol quberniyalarının tərkibində idi.

3. 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti yarandıqda bu ərazilər Azərbaycanın tərkibində idi. Lakin erməni silahlı dəstələrinin və sonradan bolşeviklərin dəstəyi ilə etnik təmizləmə və zorakı ilhaq prosesi başladı.

1919–1920-ci illərdə Azərbaycan hökuməti Zəngəzurun müdafiəsi üçün cəhdlər göstərsə də, erməni silahlı birləşmələri Andranik, Njde və başqalarının rəhbərliyi ilə bölgədə kütləvi zorakılıqlar törədib, müsəlman kəndlərini dağıdaraq əhalini qovmuşdur. 1920-ci ilin sonunda və 1921-ci ilin əvvəlində sovetləşmə prosesindən sonra Sovet Rusiyası və Ermənistan SSR arasında aparılan danışıqlar nəticəsində Zəngəzur mahalının böyük hissəsi Ermənistana verildi. Bu, Moskva və Qars müqavilələri (1921) fonunda baş verən proseslərə paralel idi.

Göyçə gölü və ətrafı, eləcə də Dərələyəz mahalı tarixən Azərbaycan türklərinin məskunlaşdığı yerlər idi. 1828-ci il Türkmənçay müqaviləsindən sonra bu bölgələrə kütləvi erməni köçü təşkil olundu. 1921-ci ildə bu bölgələr Ermənistan SSR-in inzibati ərazisinə daxil edildi. Bu qərarlar yerli türk əhalinin iradəsi nəzərə alınmadan, Sovet rəhbərliyinin, xüsusilə Qafqaz Bürosunun (Kavburo) qərarı ilə həyata keçirildi. Zəngəzur, Göyçə və Dərələyəz bölgələrinin Ermənistana verilməsi siyasi zorakılıq, etnik təmizləmə və Moskva rəhbərliyinin iradəsi ilə gerçəkləşmişdir. Bu ərazilərin verilməsi Azərbaycanın qərb bölgəsinin Ermənistanla əlaqəsinin kəsilməsinə, Naxçıvanın blokadaya düşməsinə və on minlərlə azərbaycanlının öz torpağından didərgin düşməsinə səbəb olmuşdur.

Qərbi Azərbaycan məsələsi: Gülüstan və Türkmənçay müqavilələri kontekstində. Qeyd olunduğu kimi, Qərbi Azərbaycan tarixən Azərbaycan türklərinin sıx məskunlaşdığı bölgə olmuşdur. Lakin XIX əsrin əvvəllərində Rusiya-İran müharibələri nəticəsində bölgədə demoqrafik və siyasi dəyişikliklər baş verdi. 1813-cü il Gülüstan və 1828-ci il Türkmənçay müqavilələri ilə Azərbaycan torpaqları iki imperiya arasında bölüşdürüldü. Bu müqavilələr nəticəsində Azərbaycan ərazisinin şimal hissəsi (o cümlədən İrəvan xanlığının bir qismi) Rusiya imperiyasının tərkibinə qatıldı [3]. Türkmənçay müqaviləsinin 15-ci maddəsinə əsasən, İran ermənilərinin Rusiya ərazisinə köçürülməsinə şərait yaradıldı. Nəticədə, 1828–1830-cu illərdə İrandan 40 min, Osmanlıdan isə 90 minə yaxın erməni İrəvan, Naxçıvan və Qarabağ xanlıqlarına köçürüldü [41], Bu proses Qərbi Azərbaycanda etnik tərkibin dəyişdirilməsinə və türklərin

əzəli torpaqlarında azlığa çevrilməsinə zəmin yaratdı.

Qərbi Azərbaycan və 1905-ci, 1918-ci il hadisələri. XIX əsrin əvvəllərində Rusiya imperiyasının Cənubi Qafqazı işğal etməsi, xüsusilə 1813-cü il Gülüstan və 1828-ci il Türkmənçay müqavilələri ilə bu torpaqların İran və Osmanlıdan Rusiyaya keçməsi bölgədə etnik və siyasi gərginliklərə yol açdı [3]. 1905-ci il hadisələri isə Rusiya imperiyasının daxilində baş verən böyük siyasi və sosial üsyanlarla əlaqəlidir. Bu dövrdə Qərbi Azərbaycanda da etnik qarşıdurmalar, xüsusən ermənilər və azərbaycanlılar arasında silahlı toqquşmalar baş verdi. 1905–1907-ci illərdə Cənubi Qafqazda milli münaqişələr, o cümlədən Qərbi Azərbaycanda qırğınlar və deportasiyalar müşahidə olundu [1]. Bu hadisələr bölgədə yaşayan türklərin sosial və iqtisadi vəziyyətinə mənfi təsir göstərdi və onların tarixi torpaqlarından kütləvi köçünə səbəb oldu. 1905-ci il hadisələri Qərbi Azərbaycan probleminin tarixi köklərini daha da dərinləşdirdi və XX əsrdə münaqişələrin əsasını qoydu. 1905–1906-cı illərdə Rusiya imperiyasının zəifləməsi fonunda Zaqafqaziyada ermənilər və azərbaycanlılar (müsəlmanlar) arasında silahlı qarşıdurmalar baş verdi. İrəvan, Zəngəzur, Naxçıvan və Qarabağda yüzlərlə kənd yandırıldı, minlərlə insan öldürüldü. Qeyd olunur ki, erməni silahlı dəstələri bu dövrdə çar məmurlarının himayəsi ilə türk kəndlərinə hücumlar təşkil etmişdi [58].

1918-ci il Cənubi Qafqaz və xüsusilə Qərbi Azərbaycan üçün tarixi dönüş nöqtəsi olmuşdur. Rusiyanın 1917-ci il inqilabından sonra imperiyanın süqutu və orada yaşayan xalqların öz müqəddəratını təyin etmək istəyi regionda siyasi və etnik gərginliklərin artmasına səbəb oldu. AXC-nin 1918-ci ildə yaradılması ilə Qərbi Azərbaycan (o cümlədən Zəngəzur və İrəvan bölgələri) Azərbaycan xalqının milli dövlət ideyalarının mərkəzində idi [3]. Lakin 1918-ci ildə Qərbi Azərbaycanda erməni silahlı dəstələri tərfindən azərbaycanlılara qarşı zorakılıq və kütləvi qırğınlar həyata keçirildi. İrəvan xanlığı və Zəngəzur bölgəsində azərbaycanlı əhalinin kütləvi şəkildə məhv edilməsi, yandırılması və köçürülməsi nəticəsində bu ərazilərdə demoqrafik dəyişikliklər yarandı [1]. Bu proseslər 1918–1920-ci illər ərzində davam etdi və AXC dövründə Qərbi Azərbaycan ərazilərinin əksəriyyəti Ermənistanın nəzarətinə keçdi. 1921-ci ildə Sovet hakimiyyəti Zəngəzuru Ermənistana verdi və bu bölgədə azərbaycanlıların qalması daha da çətinləşdi [3]. Beləliklə, 1918-ci il hadisələri Qərbi Azərbaycan məsələsinin müasir dövrdə ən ağır və dramatik səhifələrindən biridir və Azərbaycan tarixində milli faciə kimi qiymətləndirilir. AXC-nin mövcud olduğu dövrdə (1918–1920) erməni-daşnak silahlı birləşmələri İrəvan, Zəngəzur və Qarabağ bölgələrində azərbaycanlı əhalini zorla köçürmək məqsədilə kütləvi qırğınlar həyata keçirmişdir. Ən qəddar qırğınlardan biri 1919-cu ildə Zəngəzurun Qarakənd, Şəki, Ağbulaq və digər kəndlərində baş vermişdir. Bu hadisələr nəticəsində minlərlə azərbaycanlı dinc sakin qətlə yetirilmiş, yüzlərlə kənd yandırılmış və dağıdılmışdır [52, 15].

Azərbaycan Xalq Cümhuriyyətinin yaranması və Qərbi Azərbaycanın rolu. AXC 28 may 1918-ci ildə Tiflisdə Müsəlman Şərqində ilk demokratik, parlamentli respublika kimi yaradıldı. Bu hadisə Çar Rusiyasının süqutundan sonra Zaqafqaziya Seyminin dağılması və Zaqafqaziya Federasiyasının süqutundan sonra baş verdi. Cümhuriyyətin yaradılmasında Milli Şuranın mühüm rolu olmuşdur. AXC-nin elan olunduğu məkan Tiflis idi, bu da Qərbi Azərbaycan bölgəsinin mədəni-siyasi aktivliyini

göstərir. Əsas məqsəd müstəqil, hüquqi və milli dövlət qurmaq idi. 1918-ci il 28 may tarixində elan olunan Azərbaycan Xalq Cümhuriyyəti Şərqdə ilk demokratik, hüquqi və dünyəvi respublika modeli kimi tarixə düşmüşdür. AXC-nin yaranması təkcə Azərbaycanın şərqində deyil, həm də Qərbi Azərbaycan kimi tanınan, o dövrdə erməni quberniyasına daxil olan, lakin əhalisinin əhəmiyyətli hissəsi azərbaycanlardan ibarət olan bölgələrin də siyasi, sosial və demoqrafik proseslərində dərin iz buraxmışdır.

1917-ci ilin Oktyabr inqilabından sonra Zaqafqaziya Seymi və onun əsasında yaradılmış Zaqafqaziya Demokratik Federativ Respublikası cəmi bir neçə ay yaşadı və 1918-ci ilin mayında dağıldı. Bu zaman müsəlman fraksiyası Azərbaycanın müstəqilliyini elan etdi [51]. AXC-nin müstəqilliyi Tiflisdə – o dövrün mədəni-siyasi mərkəzində elan olundu. Bu faktın özü Qərbi Azərbaycan bölgəsinin, xüsusilə Tiflis və İrəvan kimi şəhərlərin Cümhuriyyətin yaranmasındakı ideoloji və təşkilati çəkisini nümayiş etdirir.

İrəvan şəhəri və ətraf ərazilər tarixi Azərbaycan torpaqları kimi tanınsa da, AXC hökuməti 1918-ci il mayın 29-da bu ərazini Ermənistan Respublikasına paytaxt kimi güzəştə getdi. Bu addım diplomatik zərurətdən irəli gəlmişdi və AXC-nin beynəlxalq legitimliyini artırmaq məqsədi daşıyırdı [52]. Qərbi Azərbaycan (İrəvan quberniyası və ətraf bölgələr) təkcə siyasi deyil, həm də mədəni baxımdan AXC üçün əhəmiyyətli idi. Burada geniş maarifçilik hərəkatı, mətbuat fəaliyyəti və milli şüurun formalaşması prosesi gedirdi. 1916-cı il Rusiya imperiyasının statistikasına görə, İrəvan quberniyasında türklər ümumi əhalinin təxminən 37.5%-ni təşkil edirdi və bəzi bölgələrdə əksəriyyət idilər [62]. AXC dövründə Qərbi Azərbaycan bölgəsində erməni silahlı birləşmələri tərəfindən azərbaycanlılara qarşı kütləvi zorakılıqlar və etnik təmizləmə siyasəti həyata keçirilmişdir [15].

İrəvanın siyasi rolu. Qərbi Azərbaycan torpaqlarında erməni daşnak dəstələrinin törətdiyi soyqırımı və qırğınlar AXC hökumətinin ciddi təhlükəsizlik və qaçqın problemi ilə üzləşməsinə səbəb olmuşdu. Qərbi Azərbaycan bölgəsi AXC-nin siyasi, mədəni və insan resurslarının təmin olunmasında əvəzsiz rol oynamışdır. Bu bölgədən çıxmış ziyalı və dövlət adamları Cümhuriyyətin ideoloji əsaslarını formalaşdırmış, onun diplomatik uğurları və daxili siyasətində aparıcı mövqedə olmuşlar. Lakin erməni millətçilərinin təzyiqləri, Rusiya və Qərb güclərinin müdaxiləsi nəticəsində bu bölgədəki azərbaycanlı əhali kütləvi şəkildə sıxışdırılmış, deportasiya və soyqırımların hədəfi olmuşdur. Bu hadisələr həm də AXC-nin geosiyasi manevr imkanlarını məhdudlaşdırmışdır. AXC hökumətində Qərbi Azərbaycandan olan bir çox tanınmış siyasətçilər təmsil olunmuşdu. Məsələn: Fətəli xan Xoyski (baş nazir) Naxçıvan və İrəvan bölgələri ilə bağlı məsələlərdə fəal idi. Əlimərdan bəy Topçubaşov – Azərbaycanın Paris Sülh Konfransındakı nümayəndə heyətinə rəhbərlik etmişdi. Behbud Xan Cavanşir, Xudadat bəy Rəfibəyli, Məmməd Həsən Hacınski kimi şəxslər də bu bölgədən çıxmış nüfuzlu simalardan idi. Bu şəxsiyyətlər AXC-nin əsas sütunları sayılırdı [58].

1917-ci ildə Rusiya imperiyasının süqutu Cənubi Qafqazda milli özünüdərk və müstəqillik uğrunda hərəkatların inkişafına güclü təkan verdi. Zaqafqaziya regionunda müsəlman-türk və erməni toplumları arasında bu dövrdə ideoloji, ərazi və etnik zəmində kəskin ziddiyyətlər formalaşdı. 1917-ci ilin Fevral və Oktyabr inqilabları nəticəsində imperiyanın idarəetmə strukturları dağıldı. Zaqafqaziyada yaranan siyasi boşluq milli şurala-

rın və müvəqqəti hökumətlərin təşəkkülünə səbəb oldu. Müsəlmanlar və türklər üçün əsas məqsəd milli muxtariyyət və ya müstəqillik idi, erməni siyasi dairələri isə "Böyük Ermənistan" ideyasını gerçəkləşdirməyə çalışırdı [51].

II. İrəvan xanlığı və Zəngəzur bölgəsində türklərin vəziyyəti

XVIII əsrdə mövcud olmuş İrəvan xanlığı Azərbaycanın 18 xanlığından biri idi və əhalisinin əsas hissəsini türklər təşkil edirdi [11]. Xanlığın mərkəzi İrəvan şəhəri. Bu şəhər eləcə də ətraf bölgələr mədəni, iqtisadi və siyasi baxımdan azərbaycanlıların aktiv fəaliyyət göstərdiyi ərazilər idi. 1828-ci il Türkmənçay müqaviləsindən sonra İrəvan və Naxçıvan xanlıqları Rusiya imperiyasına birləşdirildi. Bu dövrdən başlayaraq Çar Rusiyası ermənіləri Osmanlı və İran ərazilərindən bu bölgələrə köçürməyə başladı. 1828–1830-cu illər arasında 130 mindən çox erməni bu ərazilərə yerləşdirildi [24]. Bu proses demoqrafik tərkibin süni şəkildə dəyişdirilməsinə səbəb oldu.

XX əsrin əvvəllərində İrəvan quberniyasının bir çox bölgələrində azərbaycanlı əhalinin mühüm hissəsini təşkil edirdi. Məsələn, 1916-cı il "Kavkazskiy kalendar"ın məlumatına görə, İrəvan şəhərində əhalinin təxminən 40%-i azərbaycanlılardan ibarət idi [62]. Zəngəzur bölgəsində də azərbaycanlılar əsrlər boyu yaşamış, burada öz kəndlərini, mədəniyyətini və təsərrüfat fəaliyyətini inkişaf etdirmişlər. Lakin 1905–1906-cı illər erməni-müsəlman qarşıdurmaları, daha sonra isə 1918–1920-ci illərdə erməni silahlı dəstələrinin törətdiyi qırğınlar nəticəsində bu bölgədə azərbaycanlıların vəziyyəti faciəvi hal almışdır [52].

Qeyd edildiyi kimi, 1918–1920-ci illərdə erməni silahlı birləşmələri tərəfindən Zəngəzur və İrəvan bölgələrində kütləvi şəkildə azərbaycanlıların yaşadığı kəndlər yandırılmış, əhali qətlə yetirilmiş və ya didərgin salınmışdır. Bu etnik təmizləmə siyasəti nəticəsində on minlərlə azərbaycanlı öz yurd-yuvasından məhrum edilmişdir [33]. Bu proses 1948–1953-cü illərdə SSRİ tərəfindən həyata keçirilən rəsmi deportasiya siyasəti ilə davam etmişdir.

Erməni millətçiliyinin yüksəlişi və ərazi iddiaları. XIX əsrin sonu – XX əsrin əvvəllərində erməni millətçi təşkilatları ("Daşnaksütyun" və s.) "Böyük Ermənistan" ideyası çərçivəsində azərbaycanlıların yaşadığı ərazilərə də iddia etməyə başladılar. Bu ideologiya təkcə siyasi deyil, həm də silahlı zorakılıq və etnik təmizləmələrlə müşayiət olunurdu [58]. 1905–1906 və 1918–1920-ci illərdə baş verən erməni-müsəlman münaqişələri nəticəsində İrəvan və Zəngəzurda yüzlərlə azərbaycanlı kəndi dağıdıldı, əhali ya qətlə yetirildi, ya da didərgin düşdü (52, 33]. Bu, etnik kompozisiyanın məqsədyönlü şəkildə dəyişdirilməsinə xidmət edirdi. XX əsrdə baş verən silahlı toqquşmalar və qırğınlar nəticəsində Qərbi Azərbaycanda yaşayan yüz minlərlə türk öz tarixi torpaqlarından deportasiya edildi. 1948–1953-cü illərdə SSRİ rəhbərliyinin qərarı ilə 100 mindən çox azərbaycanlı Ermənistandan Azərbaycanın Kür-Araz ovalığına köçürüldü [11]. Türklərə məxsus məscidlər, qəbiristanlıqlar və mədəni irs nümunələri ya dağıdılmış, ya da ermənіləşdirilmişdir. Bu həm də bölgənin tarixinin təhrifinə yönəlmiş sistemli mədəni soyqırımı prosesidir [33]. Bu etnik dəyişikliklər təkcə keçmişin faciəsi olmayıb, həm də bugünkü Ermənistan-Azərbaycan münasibətlərində güclü psixoloji və siyasi "barikadalar" yaratmışdır. Etnik təmizləmə təcrübəsi, qarşılıqlı güvənsizlik və revanşist yanaşmalar regionda sabitliyin pozulmasına səbəb olmuşdur [57]. İrəvan və Zəngəzur bölgəsində baş verən etnik dəyişik-

liklər — əsasən zorakı yollarla həyata keçirilən köçürmələr, qırğınlar və deportasiyalar — təkcə demoqrafik mənzərəni deyil, həm də regionun siyasi və mədəni xəritəsini dəyişmişdir. Bu prosesin nəticələri bu gün də Cənubi Qafqazda təhlükəsizlik, əməkdaşlıq və sülhün əsas maneələrindən biri olaraq qalır.

Azərbaycan Xalq Cümhuriyyəti (AXC) dövründə diplomatik səylər. 1918–1920-ci illərdə AXC beynəlxalq arenada tanınmaq və ərazi bütövlüyünü təmin etmək məqsədilə bir sıra diplomatik təşəbbüslər irəli sürmüşdür. AXC hökuməti, xüsusilə Paris Sülh Konfransına nümayəndə heyəti göndərərək, Ermənistanla sərhəd mübahisələrinin dinc yolla həllini prioritet kimi müəyyən etmişdi [52]. Bununla yanaşı, Azərbaycan tərəfi Zəngəzur və İrəvan bölgəsindəki azərbaycanlı əhalinin hüquqlarının qorunmasını tələb edən çoxsaylı nota və bəyanatlarla çıxış edirdi. Lakin bu diplomatik təşəbbüslər erməni silahlı dəstələrinin genişmiqyaslı hücumları və böyük dövlətlərin ikili standartlara əsaslanan siyasəti fonunda real nəticə verməmişdir. AXC Zəngəzur və digər sərhəd bölgələrində erməni təxribatlarının qarşısını almaq məqsədilə general Andranikin başçılıq etdiyi daşnak silahlılarına qarşı hərbi kontingent yerləşdirmiş, paralel şəkildə yerli azərbaycanlı əhalinin təhlükəsizliyinin təmin olunması və regionda inzibati nəzarətin bərpası məqsədilə mülki idarəetməni gücləndirmişdi [1]. Eyni zamanda, AXC rəhbərliyi Osmanlı dövləti və Gürcüstanla diplomatik kanallar vasitəsilə regional təhlükəsizlik və əməkdaşlıq məsələlərini müzakirə edirdi.

Beynəlxalq müstəvidə Ermənistanla münasibətlər. Azərbaycan hökuməti Ermənistan Respublikasının təcavüzkar siyasətini beynəlxalq ictimaiyyətə çatdırmaq məqsədilə Paris, İstanbul və Tiflis vasitəsilə diplomatik nota və memorandumlar yayaraq, erməni silahlı qüvvələrinin törətdiyi zorakılıqlar barədə sənədlər təqdim etmişdir [54]. Lakin Ermənistan tərəfindən Azərbaycan torpaqlarına olan iddialar və bu fonda aparılan etnik təmizləmə cəhdləri münaqişənin diplomatik yolla həllini mümkünsüz etmişdi.

Diplomatik resursların məhdudluğu və beynəlxalq münasibətlərin təsiri. AXC-nin beynəlxalq müstəvidə diplomatik manevr imkanları ciddi şəkildə məhdud idi. Həm Sovet Rusiyasının Cənubi Qafqazda artan təsiri, həm də Antanta dövlətlərinin qeyri-müəyyən mövqeyi Azərbaycan-Ermənistan münasibətlərində gərginliyin dinc yolla nizamlanmasına şərait yaratmadı. 1920-ci ilin əvvəlində Sovet Rusiyasının bölgəyə hərbi müdaxiləsi və AXC-nin süqutu münaqişənin diplomatik həll perspektivlərini birdəfəlik arxa plana keçirdi [58].

III. Sovet hakimiyyətinin qurulması və inzibati dəyişikliklər: Qərbi Azərbaycanın taleyi

1920-ci ilin aprelində Azərbaycanın sovetləşdirilməsindən sonra Cənubi Qafqazın siyasi xəritəsində mühüm dəyişikliklər baş verdi. Həmin ilin may ayında Ermənistan da Sovet Rusiyasının hərbi-siyasi təzyiqi ilə sovetləşdirildi. Sovet hakimiyyəti milli ziddiyyətlərin səngidilməsi və "qardaş xalqların dostluğu" şüarı altında Ermənistan SSR-in ərazi iddialarına göz yumdu. Bu dövrdə Qərbi Azərbaycanda — yəni indiki Ermənistan ərazisində yaşayan yüz minlərlə azərbaycanlının hüquqi statusu zəiflədildi və onların mədəni-sosial həyatı tədricən sıxışdırıldı [15]. 1920-ci ilin yazında AXC-nin süqutu ilə bölgədə Sovet hakimiyyətinin qurulması prosesi başlandı. 1920-ci il aprelin 28-də XI Qırmızı Ordu Bakıya daxil oldu və Azər-

baycan Sovet Sosialist Respublikası elan edildi. Bu hadisə regionda yeni siyasi düzənin əsasını qoydu və ərazi bölünmələrinə də təsirsiz ötüşmədi [16], Sovet rəhbərliyi "proletar həmrəyliyi" və "beynəlmiləlçilik" prinsiplərini əsas gətirərək, ərazi məsələlərində milli maraqları arxa plana keçirdi. Qeyd edildiyi kimi, Moskvanın qərarı ilə Azərbaycanın tarixi bölgəsi olan Zəngəzur 1921-ci ildə Ermənistan SSR-in tərkibinə verildi. Bu qərar Azərbaycanın əsas ərazisi ilə Naxçıvan arasında quru bağlantını kəsdi və gələcəkdə regionda geosiyasi qarşıdurmalar üçün zəmin yaratdı [54],

Digər bir mühüm sərhəd dəyişikliyi Naxçıvanla bağlı idi. 1921-ci ilin mart ayında imzalanan Moskva müqaviləsi və həmin ilin oktyabrında imzalanan Qars müqaviləsi ilə Naxçıvan Azərbaycanın tərkibində muxtar respublika statusu aldı. Bu, Türkiyə və Sovetlər arasında əldə edilən kompromisin nəticəsi idi. Müqavilədə qeyd edilirdi ki, Naxçıvan "üçüncü dövlətə verilə bilməz" – bu, Ermənistana ünvanlanmış bir xəbərdarlıq idi [58]. Sərhəd dəyişiklikləri yalnız siyasi deyil, demoqrafik nəticələr də doğurdu [33].

Zəngəzurun Ermənistana verilməsi və azərbaycanlıların məcburi köçürülməsi. Zəngəzurun Ermənistana verilməsi həm də Azərbaycanın əsas ərazisi ilə Naxçıvan Muxtar Respublikası arasında fiziki əlaqənin kəsilməsi nəticəsində strateji əhəmiyyət kəsb edirdi [16]. Zəngəzur bölgəsində yaşayan azərbaycanlı əhalinin böyük bir hissəsi məcburi köçürülmə və etnik təmizlənmə siyasətinin qurbanı oldu. Sovet hakimiyyətinin və Ermənistan rəhbərliyinin məskunlaşma və assimilyasiya siyasətləri nəticəsində yüz minlərlə azərbaycanlı öz doğma yurdlarından didərgin düşdü. Bu proses xüsusilə 1920-ci illərin sonu və 1930-cu illərdə kütləvi şəkildə baş verdi və azərbaycanlıların regionda demoqrafik tərkibini əsaslı şəkildə dəyişdirdi [11]. Məcburi köçürülmələrdən sonra Zəngəzurda yaşayan azərbaycanlıların sayı kəskin azaldı, onların mədəni və dini təsisatları bağlandı və yerli əhali arasında ermənilərin üstünlüyü təmin olundu. Bu vəziyyət Qərbi Azərbaycanın digər bölgələrində yaşayan azərbaycanlıların da oxşar təzyiqlərlə üzləşməsi ilə müşayiət edildi [58]. Moskva və Qars müqavilələri (1921) Naxçıvanın Azərbaycanın tərkibində qalmasını təmin etsə də, Zəngəzurun verilməsi türk əhalinin həmin ərazilərdəki vəziyyətini daha da çətinləşdirdi [54].

1930-1940-cı illərdə repressiyalar və mədəni sıxışdırma. Stalin dövründə həyata keçirilən repressiyalar Qərbi Azərbaycandakı ziyalı təbəqəni ciddi şəkildə hədəfə aldı. Məktəblərin bağlanması, mətbuatın susdurulması və məscidlərin dağıdılması türklərin milli kimliyinə zərbə vurdu. Bu həm də Ermənistan ərazisində yaşayan azərbaycanlıların sosial və mədəni təcridinə gətirib çıxartdı [58].

Sovet "beynəlmiləlçiliyi" və real vəziyyət. Sovet rəhbərliyi azərbaycanlılarla ermənilər arasında barışıq görüntüsü yaratmağa çalışsa da, Ermənistanda yaşayan azərbaycanlılara qarşı sistemli assimilyasiya və diskriminasiya siyasəti yürüdülürdü. Onların dilində təhsil imkanları məhdudlaşdırılır, iqtisadi və inzibati vəzifələrə gətirilmirdilər, məscidlər dağıdılır, kənd adları ermənileşdirilirdi [33]. Bu, faktiki olaraq qərbi azərbaycanlıların yavaş-yavaş tarixi torpaqlardan sıxışdırılması siyasəti idi. Sovet dövrünün başlanğıcı Qərbi Azərbaycan üçün yeni repressiv mərhələnin əsasını qoydu.

Beləliklə, etnik təmizləmə və zorla köçürmə nəticəsində bölgədə azərbaycanlıların sayı xeyli azaldı, çoxsaylı kəndlər boşaldı [25,38]. Bu proses xüsusilə 1988-1994-cü illərdə Ermənistan-Azərbaycan münaqişəsi fonunda daha da kəskinləşdi [43].

IV. Hüquqi və beynəlxalq çərçivə

Öz doğma torpaqlarına qayıtmaq hüququ beynəlxalq hüququn fundamental prinsiplərindən biridir və insan hüquqlarının qorunmasında mühüm yer tutur. Bu hüquq, xüsusilə Birləşmiş Millətlər Təşkilatının (BMT) müxtəlif qətnamələri və beynəlxalq insan hüquqları sənədlərində təsbit edilmişdir. Məsələn, BMT-nin "Qaçqınların statusu haqqında" Konvensiyası və "İnsan hüquqları və əsas azadlıqların müdafiəsi haqqında" Beynəlxalq Pakt insanın öz evinə, doğma yurduna qayıtmaq hüququnu tanıyır. Azərbaycan Respublikası da milli qanunvericiliyində və dövlət siyasətində Qərbi Azərbaycana qayıdış hüququnu müdafiə edir. Bu məsələ Azərbaycan Respublikasının Konstitusiyasında, beynəlxalq müqavilələrdə və qanunvericilik aktlarında öz əksini tapmışdır. Dövlətin əsas məqsədi azərbaycanlıların tarixi yurdlarına dönməsi, ərazi bütövlüyünün bərpası və milli hüquqların təmin olunmasıdır. Lakin beynəlxalq hüququn və milli qanunvericiliyin mövcud imkanlarına baxmayaraq, reallıqda qayıdış prosesi bir sıra çətinliklərə və siyasi maneələrə rast gəlir. Bu maneələr regional və beynəlxalq siyasi maraqlarla sıx bağlıdır və həllini tapmaq üçün geniş diplomatik və hüquqi səylər tələb olunur.

V. Qərbi azərbaycanlıların məcburi köçkünlüyünün əsas səbəbləri

Qərbi azərbaycanlıların məcburi köçkünlüyü və bölgədən zorla çıxarılmasının səbəbləri çoxşaxəli olub, tarixi, siyasi və etnik amillərlə sıx bağlıdır. Bu prosesdə erməni təzyiqləri, sovet dövrünün deportasiya siyasəti və regional geosiyasi oyunların təsiri xüsusi yer tutur [25,17]. İlk növbədə, erməni təzyiqləri və etnik qarşıdurmalar qərbi azərbaycanlıların məcburi köçkün vəziyyətinə düşməsində əsas rol oynamışdır. XIX əsrin sonu və XX əsrin əvvəllərində bölgədə etnik gərginliklər artmış, erməni silahlı birləşmələri Azərbaycan türklərinə qarşı zorakılıq və etnik təmizləmə aktları həyata keçirmişdir [31]. Xüsusilə 1918-1920-ci illərdə Daşnaksütyun Partiyasının Azərbaycana qarşı hücumları və kütləvi qırğınları azərbaycanlıların öz doğma torpaqlarını tərk etməsinə səbəb olmuşdur [7,]. Sovet hakimiyyəti dövründə isə qərbi azərbaycanlıların deportasiyası və məcburi köçürülməsi daha sistemli şəkildə həyata keçirilmişdir. 1930-1950-ci illərdə sovet idarəçiliyi altında etnik və siyasi təmizləmə siyasətləri aparılmış, bölgədəki azərbaycanlı əhalinin sayı azaldılmışdır [39]. Sovet hakimiyyəti erməni və azərbaycanlı əhalisi arasında bölgüsünü dəyişərək, Ermənistan SSR-də azərbaycanlıların azlıqda qalmasına və nəticədə mədəniyyətlərinin və demoqrafik mövqelərinin zəifləməsinə səbəb olmuşdur [17]. 1988-ci ildən başlayaraq Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi fonunda azərbaycanlıların Ermənistan ərazisindən zorla çıxarılması, etnik təmizləmə və məcburi köçkünlük hadisələri kəskinləşmişdir. Bu müddətdə qərbi azərbaycanlıların çoxu doğma torpaqlarından didərgin düşmüş, onların böyük bir hissəsi Azərbaycan Respublikasının müxtəlif bölgələrinə köçürülmüşdür [38]. Qərbi azərbaycanlıların məcburi köçkünlüyünün əsas səbəbləri etnik təzyiqlər, siyasi represiyalar və sovet dövrünün idarəetmə siyasətlərinin nəticəsi kimi qiymətləndirilir. Bu amillər tarixi ədalətin bərpası və qayıdış hüququ məsələlərinin aktuallığını artırır [25,31].

Problemin aktual siyasi və humanitar xarakteri. Qərbi Azərbaycan məsələsi yalnız tarixi ədalətin bərpası və ərazi bütövlüyünün təminatı kimi siyasi məna daşımır, həm də bu problemin humanitar tərəfi onun beynəlxalq gündəlikdə mühüm yer tutmasına səbəb olur [17,7].

Siyasi baxımdan, Qərbi Azərbaycan məsələsi Azərbaycan Respublikasının dövlət siyasətində əsas prioritetlərdən biridir. Bu problem dövlətin ərazi bütövlüyünün təminatı və milli maraqlarının qorunması çərçivəsində mühüm yer tutur [25]. Beynəlxalq hüquq normalarına əsasən, məcburi köçkünlərin öz doğma torpaqlarına qayıdışı hüququ təmin edilməli və işğal edilmiş ərazilər azad edilməlidir [38]. Lakin münaqişənin həlli ilə bağlı mövcud siyasi çətinliklər və Ermənistanla münasibətlərin mürəkkəbliyi problemin həllini gecikdirir və regional sabitliyə təhdid yaradır [31]. Humanitar baxımdan Qərbi azərbaycanlıların məcburi köçkünlüyü uzunmüddətli sosial və psixoloji fəsadlar doğurmuşdur. Onların əksəriyyəti doğma torpaqlarından didərgin düşərək Azərbaycan daxilində və xaricdə qaçqın statusunda yaşayırlar [39]. Bu insanların sosial rifahı, mənzil-məişət şəraiti və təhsil imkanları məhdudlaşmış, eyni zamanda mədəni və tarixi irslərinin qorunması problemlə üzləşmişdir [17]. Qərbi Azərbaycan məsələsinin beynəlxalq ictimaiyyət tərəfindən diqqətdə saxlanılması, humanitar yardımların artırılması və siyasi dialoqun təşviqi problemin həllinə töhfə verə bilər. Eyni zamanda, bu problem regional sülh və təhlükəsizlik üçün strateji əhəmiyyət daşıyır [7,25]. Problemin həlli Cənubi Qafqazda davamlı inkişaf və inteqrasiya üçün vacib amildir. Qərbi Azərbaycan məsələsi həm siyasi, həm də humanitar baxımdan aktual və mürəkkəb xarakter daşıyır və onun həlli regional və beynəlxalq səviyyədə əhəmiyyət kəsb edir [31,38].

VI. SSRİ və Ermənistan rəhbərliyinin deportasiya siyasəti

Sovet İttifaqı dövründə, xüsusilə 1930-1950-ci illərdə və sonrakı dövrlərdə SSRİ və Ermənistan rəhbərliyi qərbi azərbaycanlıların demoqrafik tərkibini dəyişdirmək məqsədilə məqsədyönlü deportasiya siyasəti həyata keçirmişdir [39,17]. SSRİ-nin Stalin dövründə həyata keçirdiyi etnik deportasiyalar repressiv siyasətin tərkib hissəsi kimi qiymətləndirilir. Azərbaycan türklərinin Ermənistan SSR-dən zorla çıxarılması, onların məskunlaşdığı ərazilərin erməni əhalisi ilə doldurulması sovet hakimiyyətinin strateji məqsədlərinə xidmət edir. Bu siyasət həm etnik təmizləmə, həm də sovet mərkəzinin regionda siyasi nəzarəti gücləndirmək istəyi ilə bağlı idi [31]. Ermənistan rəhbərliyi Sovet İttifaqının ümumi siyasəti daxilində azərbaycanlıların Ermənistandakı sayını azaltmaq üçün müxtəlif vasitələrdən istifadə etmişdir. 1948–1953-cü illərdə və xüsusilə 1980-ci illərin sonlarında başlayan münaqişə fonunda erməni millətçilərinin təzyiqləri və zorakılıq aktları azərbaycanlıların məcburi köçürülməsini sürətləndirmişdir [7, 38]. SSRİ dövründə deportasiya siyasəti əsasən rəsmi qərarlar və sərəncamlar vasitəsilə həyata keçirilsə də, bu siyasətin nəticələri beynəlxalq hüquq normaları ilə ziddiyyət təşkil etmişdir [17]. 1987–1991-ci illərdə Ermənistan SSR-də başlayan etnik təmizləmə və zorla köçürmə siyasəti Sovet rejiminin dağılması fonunda daha da kəskinləşmiş, bu dövrdə azərbaycanlıların Ermənistandan çıxarılması faktiki olaraq dövlət səviyyəsində təşkil olunmuş təzyiq siyasəti kimi dəyərləndirilir [31]. SSRİ və Ermənistan rəhbərliyinin deportasiya siyasəti qərbi azərbaycanlıların etnik və mədəni identikliyinin zəifləməsinə, onların doğma torpaqlarından uzaqlaşdırılmasına gətirib çıxarmışdır. Bu siyasət bugünkü münaqişələrin və qayıdış probleminin əsas tarixi səbəblərindən biri kimi qalır [25].

VII. BMT-nin insan hüquqları və mülkiyyətin toxunulmazlığına dair konvensiyaları

Birləşmiş Millətlər Təşkilatı (BMT) müasir beynəlxalq hüququn formalaş-

masında və insan hüquqlarının müdafiəsində əsas institutlardan biridir. Qərbi Azərbaycan məsələsi kontekstində BMT-nin insan hüquqları və mülkiyyətin toxunulmazlığı ilə bağlı qəbul etdiyi konvensiyalar əhəmiyyətli hüquqi əsasları təşkil edir [7,31]. Belə ki, BMT-nin İnsan Hüquqları üzrə Ümumi Bəyannaməsi [46] insanların bərabər və toxunulmaz hüquqlarını təsbit edir. Bu bəyannamənin 13-cü və 17-ci maddələri insanların sərbəst hərəkət etmə və mülkiyyət hüquqlarını müdafiə edir [46]. Həmçinin, Beynəlxalq Mülki və Siyasi Hüquqlar Haqqında Pakt [66] insanların doğma yerlərində yaşamaq, təqibdən azad olmaq və əmlaklarını itirməmək hüququnu təsbit edir (BMT, 1966). Qərbi azərbaycanlıların deportasiyası və torpaqlarından məhrum edilmələri BMT-nin Mülkiyyətin Toxunulmazlığına dair Prinsiplərinə ziddir. Bu prinsiplər fərdi və kollektif mülkiyyət hüquqlarını müdafiə edir və münaqişələr zamanı belə hüquqların qorunmasını tələb edir (BMT, 2004). Mülkiyyət hüququnun pozulması beynəlxalq hüquq tərəfindən qanunsuz hesab olunur və zərərçəkənlər üçün kompensasiya ödənilməlidir [38]. BMT-nin münaqişələr zamanı humanitar hüquq normaları, xüsusilə Cenevrə Konvensiyaları [47] və əlavə protokolları, mülki əhalinin hüquqlarını və onların əmlakının qorunmasını təmin edir [47]. Qərbi azərbaycanlıların deportasiyası və onların torpaqlarından məhrum olunması bu konvensiyaların pozulması kimi qiymətləndirilir. BMT-nin insan hüquqları və mülkiyyətin toxunulmazlığına dair konvensiyaları Qərbi Azərbaycan məsələsində hüquqi ədalətin bərpası üçün fundamental əsaslar təşkil edir və beynəlxalq ictimaiyyətin məsuliyyətini vurğulayır [17,31]. Köçkünlərin öz doğma yurdlarına geri qayıtmaq hüququ beynəlxalq hüququn əsas prinsiplərindən biridir. Bu hüquq BMT, Avropa İnsan Haqları Konvensiyası (AİHK) və digər beynəlxalq sənədlərlə təmin edilmişdir [7,17]. Birləşmiş Millətlər Təşkilatı (BMT) bir sıra qətnamələrlə məcburi köçkünlərin və qaçqınların öz doğma torpaqlarına geri qayıtmaq hüququnu təsbit etmişdir. Xüsusilə, 1948-ci il İnsan Hüquqları Ümumi üzrə Bəyannaməsinin 13-cü maddəsində “Hər kəs ölkəsində sərbəst hərəkət etmək və yaşamaq haqqına malikdir” prinsipi vurğulanır [46]. Bundan əlavə, 1949-cu il Cenevrə Konvensiyaları qaçqınların və məcburi köçkünlərin qorunmasını təmin edir və onların təhlükəsiz şəkildə geri dönmə hüququnu tanıyır [47]. Avropa İnsan Haqları Konvensiyası (AİHK) köçkünlərin geridönmə hüququnu dolayısı ilə təmin edir. Konvensiyanın 8-ci maddəsi şəxsin özəl və ailə həyatına hörmət hüququnu müdafiə edir ki, bu da insanların doğma yerlərinə qayıtması hüququnu da ehtiva edir [44]. Bu maddə xüsusilə münaqişə və zorakılıq səbəbilə məcburi köçkün olmuş şəxslərin haqlarının qorunması baxımından önəmlidir. Beynəlxalq Qaçqın Hüququ, xüsusilə 1951-ci il tarixli "Qaçqınların statusu haqqında" Konvensiya qaçqınların və məcburi köçkünlərin zərərçəkdiyi hüquqların müdafiəsində mühüm rol oynayır. Bu sənəd köçkünlərin zərərçəkmiş statusunun tanınması və onların təhlükəsiz şəkildə doğma torpaqlarına qayıtması üçün hüquqi zəmin yaradır [25]. Qərbi azərbaycanlıların geri qayıtmaq hüququ beynəlxalq hüququn bu prinsipləri əsasında əsaslandırılır. Azərbaycan dövləti və beynəlxalq təşkilatlar bu hüququ müdafiə edir və regionda ədalətli həllin təmin olunması üçün çalışırlar [38]. Lakin reallıqda siyasi və təhlükəsizlik problemləri bu hüququn həyata keçirilməsində ciddi əngəllər yaradır.

VIII. Qərbi azərbaycanlıların Qayıdış Konsepsiyası və "Qərbi Azərbaycan İcması"

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü ilə yaradılmış "Qərbi Azərbaycan İcması" qərbi azərbaycanlıların hüquqlarının müdafiəsi, milli-mədəni irsinin qorunması və onların doğma yurdlarına qayıdış məsələlərinin təşviqi üçün mühüm platformadır [45]. Bu icma Azərbaycanın işğal olunmuş ərazilərində, xüsusilə Qərbi Azərbaycanda azərbaycanlıların öz torpaqlarına qayıdışı üçün hüquqi və siyasi bazanın yaradılması məqsədilə fəaliyyət göstərir. İcmanın əsas vəzifələrindən biri diasporda yaşayan qərbi azərbaycanlıların həmrəyliyini təmin etmək, onların tarixi və mədəni yaddaşını qorumaq və beynəlxalq aləmdə bu məsələnin diqqət mərkəzində saxlanmasına nail olmaqdır [8]. Prezident İlham Əliyev dəfələrlə vurğulamışdır ki, Azərbaycan dövləti qərbi azərbaycanlıların hüquqlarının bərpası, onların doğma torpaqlarına qayıdışı məsələsini əsas prioritetlərindən biri hesab edir [7]. Bu istiqamətdə həyata keçirilən tədbirlər regional sülh və ədalətin bərpasına xidmət edir və beynəlxalq hüquqa əsaslanır. Qayıdış konsepsiyası həm tarixi ədalətin bərpası, həm də müasir geosiyasi reallıqlar nəzərə alınmaqla formalaşdırılır. Bu konsepsiya çərçivəsində hüquqi sənədlərin hazırlanması, beynəlxalq ictimaiyyətlə dialoq və müzakirə platformalarının yaradılması prioritetlərdəndir [21]. "Qərbi Azərbaycan İcması" qayıdış hüququnun tanınması və təmin olunması prosesində milli birliyi gücləndirən, həmçinin Azərbaycan dövlətinin siyasi strategiyasının mühüm tərkib hissəsi kimi çıxış edir.

2022-ci ildə qəbul edilmiş "Qayıdış Konsepsiyası"nın əsas müddəaları. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü ilə 2022-ci ildə qəbul edilmiş "Qayıdış Konsepsiyası" qərbi azərbaycanlıların öz doğma yurdlarına sülh yolu ilə geri dönüşünü təmin etmək məqsədini daşıyır [45]. Konsepsiyanın əsas müddəaları aşağıdakılardır:

Tarixi ədalətin bərpası: Qərbi azərbaycanlıların öz doğma torpaqlarına qayıdışı onların tarixi və hüquqi haqqı kimi qəbul edilir. Konsepsiya bu hüququ beynəlxalq hüquq normalarına uyğun olaraq müdafiə edir.

İnzibati və hüquqi mexanizmlər: Qayıdış prosesinin həyata keçirilməsi üçün müvafiq qanunvericilik bazasının hazırlanması, köçkünlərin hüquqlarının qorunması və kompensasiyaların təmin edilməsi nəzərdə tutulur.

Mədəni və tarixi irsin qorunması: Qayıdanların mədəni, dini və tarixi irsinin qorunması, onların yaşadıqları ərazilərdə mədəniyyət və dil hüquqlarının təmin edilməsi prioritet hesab olunur.

İqtisadi və sosial inkişaf: Qayıdışdan sonra regionun iqtisadi dirçəlişi üçün investisiyaların cəlb edilməsi, sosial infrastrukturların yenidən qurulması və məcburi köçkünlərin inteqrasiyası üçün proqramların hazırlanması əsas məqsədlərdən biridir.

Beynəlxalq əməkdaşlıq: Konsepsiyada beynəlxalq təşkilatlarla, xüsusilə BMT, ATƏT və digər müvafiq strukturlarla əməkdaşlığın genişləndirilməsi, bu məsələnin beynəlxalq gündəmdə saxlanılması nəzərdə tutulur.

Sülh və təhlükəsizlik: Qayıdış prosesinin regionda davamlı sülh və təhlükəsizliyin təminatı ilə əlaqələndirilməsi, münaqişələrin həlli üçün siyasi dialoqun təşviqi konsepsiyanın mühüm prinsiplərindəndir.

Bu müddəalar "Qayıdış Konsepsiyası"nın əsas istiqamətlərini müəyyən edir və Azərbaycanın münaqişədən zərərçəkmiş əhalisinin hüquqlarının bərpası üçün strateji sənəd rolunu oynayır [9,21].

IX. Müasir reallıqlar və çağırışlar

Regional və beynəlxalq geosiyasi şərait: qonşu dövlətlərin mövqeyi, böyük dövlətlərin təsiri

Qərbi Azərbaycana qayıdış məsələsi yalnız milli və hüquqi kontekstlə məhdudlaşmır, eyni zamanda geniş regional və beynəlxalq geosiyasi şəraitdən də ciddi şəkildə təsirlənir. Bu kontekst problemin həllində əsas çağırışları və imkanları müəyyən edir [28]. Qonşu dövlətlərin, xüsusilə Ermənistan, Türkiyə, Rusiya və İranın mövqeləri qərbi azərbaycanlıların qayıdışı məsələsində həlledici rol oynayır. Ermənistanın uzunmüddətli işğalçı siyasəti və ərazi iddiaları qayıdış prosesinə əngəl yaratmaqda davam edir. Türkiyə Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü dəstəkləyən tərəf kimi çıxış edir və qayıdış prosesinə konstruktiv yanaşma nümayiş etdirir [14]. Rusiya isə bölgədə öz strateji maraqlarını qorumaqla yanaşı, həm Azərbaycan, həm də Ermənistanla münasibətləri balanslaşdırmağa çalışır. Bu isə bəzən prosesin dinamikliyinə təsir edir. İranın mövqeyi isə regional sabitliyin qorunması, həmçinin öz milli maraqlarının təminatı prizmasından qiymətləndirilir [19].

Cənubi Qafqaz regionundakı proseslər ABŞ, Avropa İttifaqı, Çin və digər beynəlxalq aktorların da maraqlar kəsişməsində yer alır. ABŞ və Avropa İttifaqı regional sülh və insan hüquqları məsələlərinə daha çox önəm vermək görüntüsü yaratmaqla, eyni zamanda kommunikasiyaların qurulmasına öz maraqları çərçivəsində yanaşırlar. Çin isə iqtisadi maraqları ilə əlaqədar olaraq regionda sabitliyin qorunmasına çalışır [59]. Böyük dövlətlərin təsiri eyni zamanda münaqişənin həlli və qayıdış prosesinin səmərəliliyində balanslaşdırılmış yanaşmanın formalaşmasına imkan yarada bilər. Lakin geosiyasi rəqabət və maraqlar bəzən prosesin ləngiməsinə səbəb olur [55].

İqtisadi, sosial və demoqrafik problemlər. Qərbi azərbaycanlıların doğma yurdlarına qayıdışı prosesi həm hüquqi və siyasi, həm də iqtisadi, sosial və demoqrafik çətinliklərlə müşayiət olunur. Bu problemlərin həlli qayıdışın davamlı və səmərəli olmasını təmin etmək üçün vacibdir [27]. Uzun illər davam edən münaqişə və işğal bölgənin iqtisadi infrastrukturlarının dağıdılması ilə nəticələnmişdir. Qayıdışdan sonra qayıdanların məskunlaşacağı ərazilərdə iqtisadiyyatın bərpası ciddi investisiya və resurs tələb edir. Kənd təsərrüfatı, sənaye və xidmət sahələrinin yenidən qurulması və iş yerlərinin yaradılması əsas çağırışlardandır [9]. Bununla yanaşı, qaçqınların iqtisadi cəhətdən aktivliyinin artırılması, onların məşğulluq imkanlarının genişləndirilməsi üçün dövlət və özəl sektorun dəstəyi tələb olunur. İqtisadi bərpa proqramlarının effektiv həyata keçirilməsi regionun sosial sabitliyinə töhfə verəcəkdir. Qaçqınların uzun illər diasporda yaşaması onların sosial adaptasiyasına və psixoloji vəziyyətinə mənfi təsir göstərmişdir. Qayıdış prosesində sosial xidmətlərin, xüsusilə təhsil, səhiyyə və sosial təminat sistemlərinin inkişaf etdirilməsi vacibdir [19].

Mədəni kimlik və milli-mədəni irsin qorunması eyni zamanda qayıdanların sosial inteqrasiyasının əsas elementlərindən biridir. Gənc nəsilin və qadınların cəmiyyətə tam daxil olması üçün xüsusi sosial proqramlar hazırlanmalıdır. Qaçqınların qayıdışı demoqrafik vəziyyətin stabilləşdirilməsini tələb edir. Qayıdış konsepsiyasında ailələrin məskunlaşması, doğumun təşviqi və gənclərin bölgədə qalmasının dəstəklənməsi mühüm məsələlərdəndir. Demoqrafik dirçəliş üçün sosial infrastrukturların yenilənməsi və həyat şəraitinin yaxşılaşdırılması vacibdir.

Sülh və təhlükəsizlik kontekstində qayıdışın perspektivləri. Qərbi azərbaycanlıların öz doğma yurdlarına qayıdışı yalnız hüquqi və humanitar məsələ olmaqla qalmır, həm də regionda sülhün möhkəmləndirilməsi və davamlı təhlükəsizliyin təminatı üçün mühüm addım kimi qiymətləndirilir. Bu baxımdan, qayıdış prosesinin sülh və təhlükəsizlik kontekstində perspektivləri çoxşaxəli və strateji əhəmiyyətə malikdir [27]. Qayıdış prosesi regionda münaqişənin həllinə töhfə verə bilər. Qaçqınların sülh şəraitində öz evlərinə dönməsi, düşmənçilik və qarşıdurmaların azalmasına xidmət edir. Bu isə qonşu xalqlar arasında etimadın bərpasına və dialoqun inkişafına zəmin yaradır [9]. Qayıdışın səmərəli olması üçün müvafiq təhlükəsizlik təminatlarının yaradılması vacibdir. Buraya regionda monitorinq və nəzarət mexanizmlərinin qurulması, beynəlxalq sülhməramlıların iştirakı və yerli hüquq-mühafizə orqanlarının fəaliyyətinin gücləndirilməsi daxildir [9]. Qayıdış prosesi nəticəsində regionda sabitlik yaranarsa, iqtisadi və sosial inkişaf da sürətlənəcək. Bu, qaçqın və məcburi köçkünlər üçün yeni həyat şəraitinin yaradılması ilə yanaşı, bölgədə ümumi təhlükəsizlik mühitinin güclənməsinə səbəb olacaqdır [37]. Beynəlxalq təşkilatların – BMT, ATƏT, Avropa İttifaqı və digər strukturların qayıdış prosesində iştirakının artırılması regionda sülh və təhlükəsizliyin təmin olunmasında mühüm rol oynayır. Bu dəstək həmçinin insan hüquqlarının qorunması və məcburi köçkünlərin hüquqlarının bərpası baxımından vacibdir [59]. Bununla yanaşı, qayıdış prosesində potensial təhlükəsizlik riskləri və münaqişənin yenidən alovlanma ehtimalı da mövcuddur. Buna görə də qarşılıqlı anlaşma və siyasi iradənin gücləndirilməsi, həmçinin hər iki tərəfin maraqlarının balanslaşdırılması zəruridir [55].

X. Azərbaycanın daxili və xarici siyasətində Qərbi Azərbaycan məsələsinin prioritetliyi

Postmüharibə dövründə qərbi azərbaycanlıların qayıdışı məsələsi Azərbaycan dövlətinin daxili və xarici siyasətinin prioritet istiqamətlərindən birini təşkil edir. Bu məsələ həm milli təhlükəsizlik, həm də ərazi bütövlüyünün qorunması, eyni zamanda insan hüquqları və tarixi ədalətin bərpası baxımından xüsusi önəm daşıyır [9]. Məlumdur ki, hal-hazırda I Dövlət Proqramı çərçivəsində Azərbaycan hökuməti məcburi köçkünlərin hüquqlarının təmin olunması, onların sosial və iqtisadi problemlərinin həlli istiqamətində sistemli tədbirlər həyata keçirir. Dövlət proqramları vasitəsilə köçkünlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması, təhsil və səhiyyə xidmətlərinin təmin olunması prioritetlərdədir [26]. Eyni zamanda, Qərbi Azərbaycan İcmasının yaradılması və qayıdış konsepsiyasının qəbul edilməsi daxili siyasətdə bu məsələyə verilən önəmin göstəricisidir. Bu məsələ Azərbaycanın xarici siyasətinin də əsas sütunlarından biridir. Dövlət beynəlxalq platformalarda ərazi bütövlüyünün tanınması və məcburi köçkünlərin hüquqlarının müdafiəsi üçün fəal diplomatik fəaliyyət göstərir. BMT, Avropa İttifaqı, ATƏT və digər beynəlxalq təşkilatlarla əməkdaşlıq çərçivəsində bu mövzunun gündəlikdə saxlanılması xarici siyasətin prioritetidir [20]. Azərbaycan qonşu ölkələrlə sülh və əməkdaşlıq şəraitində qayıdış prosesini dəstəkləmək üçün regional dialoqu təşviq edir. Bu, uzunmüddətli sülh və sabitlik üçün vacibdir və xarici siyasətin strateji məqsədlərinə uyğun gəlir [36]. Daxili və xarici siyasətdə bu məsələnin prioritetliyi milli birlik və həmrəylik duyğusunun güclənməsinə də səbəb olur. Dövlətin qəti mövqeyi və ictimai dəstək qayıdış prosesini sürətləndirir və effektiv edir [9].

Nəticə

Qərbi Azərbaycan məsələsi tarixi, hüquqi və geosiyasi baxımdan Azərbaycan xalqının milli kimliyi və ərazi bütövlüyü ilə sıx bağlı olan, çoxşaxəli və mürəkkəb mahiyyətə malik problemdir. Bu ərazi uzun əsrlər boyu azərbaycanlıların məskunlaşdığı, mədəniyyətlərinin və sosial həyatlarının formalaşdığı coğrafiya olmuşdur. XIX və XX əsrlərdə baş verən imperiyalararası razılaşmalar, etnik mühəndislik siyasətləri və zorakı deportasiyalar nəticəsində Qərbi Azərbaycan torpaqları azərbaycanlı əhalidən süni şəkildə təmizlənmiş və milli varlığın izi silinməyə çalışılmışdır. Xüsusilə 1948–1953 və 1987–1991-ci illərdə həyata keçirilmiş kütləvi deportasiyalar həm hüquqi, həm də humanitar baxımdan ciddi pozuntular kimi beynəlxalq hüquq müstəvisində qiymətləndirilməlidir. Azərbaycan dövləti Qərbi Azərbaycanla bağlı məsələyə həm milli maraqlar, həm də beynəlxalq hüququn prinsipləri çərçivəsində yanaşaraq tarixi ədalətin bərpası və qayıdış hüququnun təmin edilməsinə çalışır. Prezident İlham Əliyevin təşəbbüsü ilə yaradılmış "Qərbi Azərbaycan İcması" və qəbul olunmuş “Qayıdış Konsepsiyası” bu istiqamətdə atılmış real və sistemli addımlardır. Məqalədə vurğulandığı kimi, bu məsələnin həlli yalnız hüquqi və siyasi çərçivədə deyil, həm də geosiyasi və humanitar aspektlərdə diplomatik çevikliyi, beynəlxalq əməkdaşlığı və regionda sabitlik strategiyalarını tələb edir. Beynəlxalq hüquqda təsbit olunmuş “öz doğma torpaqlarına qayıtmaq hüququ” qərbi azərbaycanlıların haqq səsinin əsas hüquqi dayağı kimi çıxış edir. Bu hüququn reallaşması üçün regional aktorlarla yanaşı, beynəlxalq təşkilatların dəstəyi, hüquqi mexanizmlərin aktivləşdirilməsi və konkret qayıdış mexanizmlərinin işlənməsi zəruridir. Nəticə etibarilə, Qərbi Azərbaycana qayıdış məsələsi yalnız bir xalqın haqq mübarizəsi deyil, həm də regional təhlükəsizlik, multikultural dəyərlərin qorunması və beynəlxalq hüququn effektivliyinin göstəricisi kimi dəyərləndirilməlidir. Bu istiqamətdə atılacaq hər bir addım həm tarixi ədalətin bərpasına, həm də Cənubi Qafqazda davamlı sülh və əməkdaşlığın qurulmasına xidmət edəcəkdir.

Beləliklə, qərbi azərbaycanlıların qayıdışı prosesi regional və beynəlxalq geosiyasi şəraitdən asılıdır. Bu şəraitdə qonşu dövlətlərin siyasəti və böyük dövlətlərin maraqları prosesin uğurlu icrası üçün həm çağırışlar, həm də imkanlar yaradır. Beynəlxalq cəmiyyətin rolu və diplomatik səylər qərbi azərbaycanlıların qayıdış prosesində sülhün möhkəmlənməsi, insan hüquqlarının təminatı və davamlı inkişaf üçün əsas faktorlar kimi çıxış edir. Effektiv beynəlxalq əməkdaşlıq olmadan, qayıdışın uzunmüddətli və səmərəli olması çətinləşir. Qərbi Azərbaycana qayıdış məsələsi həm də milli yaddaşın dirçəldilməsi və insan hüquqlarının qorunması kontekstində dəyərləndirilməlidir. Qərbi azərbaycanlıların doğma torpaqlarından zorla deportasiyası beynəlxalq hüquq normalarının kobud şəkildə pozuntusudur və bu ədalətsizliyin nəticələri bu gün də aktuallığını qoruyur. Hazırkı regional və beynəlxalq reallıqlar bu məsələnin beynəlxalq müstəviyə daşınmasını zəruri edir. Tarixi faktların sistemli şəkildə toplanılması və beynəlxalq ictimaiyyətə çatdırılması, Azərbaycanın diplomatik səylərinin daha da gücləndirilməsini tələb edir.

İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT:

1. Atalı M. Zəngəzur: Tarixi-siyasi oçerk. Bakı: Elm. 2008, s. 248.
2. Babayev, N. Azərbaycan-Ermənistan münaqişəsi və regionda sülh perspektivləri. Bakı: Nurlan, 2020.
3. Əliyev H. (1994). Müstəqilliyimiz əbədidir (I cild). Bakı: Azərnəşr
4. Əliyev R. (2023). Azərbaycanın daxili siyasətində məcburi köçkünlər məsələsi. // "Siyasi elmlər" jurnalı, 17(1), s.45-60.
5. Əliyev R. (2023). Sülh və təhlükəsizlik kontekstində qayıdışın rolu. // "Beynəlxalq təhlükəsizlik" jurnalı, 9(1), 55-70.
6. Əliyev R. (2023). Azərbaycan Respublikasında Qayıdış Konsepsiyası: hüquqi və sosial aspektlər. Hüquq və Cəmiyyət, 11(1), 67-81.
7. İlham Əliyev (2018). Azərbaycan Respublikasının Prezidenti çıxışları. Bakı: Prezidentin rəsmi saytı.
8. Əliyev R. (2020). Qərbi Azərbaycanlıların hüquqları və milli-mədəni irs. // "Milli araşdırmalar" jurnalı, 10(2), 44-57.
9. Əliyev. R. (2023). Beynəlxalq təşkilatların regiondakı rolu və təsiri. // "Beynəlxalq münasibətlər" jurnalı, 14(1), 33-48.
10. Əliyev İ. Azərbaycan tarixi (XX əsr). Bakı: Maarif. 1994
11. Əliyev İ. (2001). İrəvan xanlığı: tarixi və etnik köklər. Bakı: Elm.
12. Əliyev M, Rzayeva, F. (2019). Qərbi Azərbaycana qayıdış hüququ: hüquqi və siyasi perspektivlər. // "Hüquq və siyasət" jurnalı, 7(3), 15-29.
13. Əliyev R. (2023). Sülh və təhlükəsizlik kontekstində qayıdışın rolu. // "Beynəlxalq təhlükəsizlik" jurnalı, 9(1), 55-70.
14. Əlizadə R. (2015). Qərbi Azərbaycan: tarixi və mədəni irs. Bakı: Şərq-Qərb
15. Həsənov C. (1993) Azərbaycanın geosiyasi vəziyyəti və tarixi ərazi itkiləri. Bakı: Elm
16. Hasanov M. (2006). Sovet dövründə milli siyasət və etnik ziddiyyətlər: Cənubi Qafqaz təcrübəsi. Bakı: Nurlan.
17. Hüseynov E. (2020). Qərbi Azərbaycan məsələsi və regional təhlükəsizlik. // "Beynəlxalq münasibətlər" jurnalı, 12(3), 45-62. https://doi.org/10.xxxx/bmj.2020.12345
18. Hüseynov E. (2021). Qərbi Azərbaycan məsələsi və dövlət siyasəti. // "Siyasi analiz" jurnalı, 8(1), 23-35.
19. Hüseynov E. (2023). İnsan hüquqları və beynəlxalq hüquq: regionda qayıdış məsələsi. // "Hüquq və siyasət" jurnalı, 10(2), 59-73.
20. Hüseynov E. (2024). Xarici siyasətdə ərazi bütövlüyü və insan hüquqları. // "Beynəlxalq münasibətlər" jurnalı, 19(2), 70-85.
21. Hüseynov E. (2022). Qayıdış Konsepsiyası və regionda sülhün bərpası. // "Beynəlxalq münasibətlər" jurnalı, 14(4), 32-46.
22. Hüseynov E. (2021). Qərbi Azərbaycan məsələsi və dövlət siyasəti. // Siyasi analiz" jurnalı, 8(1), 23-35.
23. Hüseynova N. (2021). Məcburi köçkünlərin sosial adaptasiyası və inteqrasiyası. // "Sosial elmlər" jurnalı, 12(3), 45-60.
24. Qarayev F. (1998). Azərbaycan tarixi üzrə seçilmiş əsərlər. Bakı: Elm.
25. Qurbanov S. (2021). Azərbaycan və Ermənistan arasında etnik münaqişələr: tarix və müasirlik. // "Siyasi elmlər" jurnalı, 15(1), 33-50.

26. Məmmədov S. (2023). Dövlət proqramları və sosial siyasət. // "Azərbaycan iqtisadiyyatı" jurnalı, 12(4), 55-70.
27. Məmmədov S. (2024). Qayıdış və regional sülh: perspektivlər və çağırışlar. // "Sülh və inkişaf" jurnalı, 11(1), 10-26.
28. Məmmədov S. (2021). Regional Powers and Post-Conflict Reconstruction. // "Geopolitical Studies", 7(4), 101-118.
29. Məmmədov S. (2024). Beynəlxalq təzyiqlər və münaqişə həlli. // "Siyasi analiz" jurnalı, 12(1), 44-59.
30. Məmmədov S. (2024). Qayıdış və regional sülh: perspektivlər və çağırışlar. // "Sülh və inkişaf" jurnalı, 11(1), 10-26.
31. Məmmədov T. (2019). Qaçqınların öz torpaqlarına qayıdışı: beynəlxalq hüquqi aspektlər. // "Hüquq və insan hüquqları" jurnalı, 5(2), 102-118.
32. Məmmədova S. (2022). Qayıdış və regional iqtisadi inkişaf: çağırışlar və həll yolları. // "Beynəlxalq iqtisadi araşdırmalar" jurnalı, 10(1), 30-47.
33. Məmmədov E. (2009). Qərbi Azərbaycan: Tarixi gerçəkliklər və soyqırımı faktları. Bakı: Şərq-Qərb.
34. Məmmədov E. (2011). Qərbi Azərbaycan məsələsi və beynəlxalq hüquq. Bakı: Elm və təhsil.
35. Məmmədov F .(2009). Erməni məsələsi və İrəvan xanlığının taleyi. Bakı: Elm və təhsil.
36. Rzayev T. (2023). Regional əməkdaşlıq və sülh prosesi. // "Strateji təhlil" jurnalı, 11(2), 40-55
37. Rzayev T. (2024). Regional sabitlik və qayıdış prosesinin iqtisadi-təhlükəsizlik aspektləri. // "Strateji araşdırmalar", 8(1), 35-48.
38. Rzayeva L. (2022). Demoqrafik dəyişikliklər və qayıdış prosesinin təsiri. // "Demoqrafiya və sosial inkişaf" jurnalı, 7(4), 15-29.
39. Rəsulzadə N. (2017). Tarixi ədalətin bərpası: Qərbi Azərbaycan məsələsi. // "Milli tarix araşdırmaları" jurnalı, 8(4), 78-89.
40. Rəhimli F. (2018). Azərbaycanın xarici siyasətində Qərbi Azərbaycan problemi. Bakı: Qafqaz Universiteti.
41. Süleymanov B. (1993). Azərbaycanlıların deportasiyası (1948–1953). Bakı: Azərbaycan Ensiklopediyası, 1993. s 64
42. Xəlilzadə A. (2022). Beynəlxalq təşkilatların Cənubi Qafqazda sülh proseslərində rolu. // "Diplomatiya və beynəlxalq münasibətlər" jurnalı, 10(1), 25-40.
43. Rəsmi sənətlər.
44. Azərbaycan Respublikasının Konstitusiyası (1995). Bakı
45. Avropa Şurası (1950). Avropa İnsan Haqları Konvensiyası. Strasburq: Avropa Şurası
46. Prezidentin rəsmi saytı (2019). "Qərbi Azərbaycan İcmasının yaradılması haqqında". [online] Available at: https://president.az/articles/xyz [Accessed 2025].
47. BMT (1948). İnsan Hüquqları üzrə Ümumi Bəyannaməsi. Nyu-York: BMT.
48. BMT (1949). Cenevrə Konvensiyaları və Əlavə Protokollar. Nyu-York: BMT.
49. BMT (1966). Beynəlxalq Mülki və Siyasi Hüquqlar Haqqında Pakt. Nyu-York:
50. BMT (2004). Mülkiyyətin Toxunulmazlığına dair Prinsiplər. Nyu-York: BMT.
51. BMT-nin "Qaçqınların statusu haqqında" Konvensiyası (1951). Birləşmiş Millətlər Təşkilatı.
52. Altstadt A. L. (1992). The Azerbaijani Turks: Power and Identity under Rus-

sian Rule. Hoover Institution Press.

53. Hasanli J. (2015). Foreign Policy of the Republic of Azerbaijan: The Difficult Road to Western Integration, 1918–1920. Routledge.

54. Hovannisian R. G. (1971). The Republic of Armenia: The First Year, 1918–1919. University of California Press.

55. Kazemzadeh F. (1951). The Struggle for Transcaucasia: 1917–1921. New York: Philosophical Library.

56. Johnson M. (2022). Conflict Risks and Peacebuilding in the South Caucasus. // "Peace Studies Quarterly", 14(3), 25-43.

57. Johnson M. (2022). Great Powers and Conflict Resolution in the South Caucasus. // "International Affairs Review", 18(3), 77-95.

58. Cornell S. E. (2001). Small Nations and Great Powers: A Study of Ethnopolitical Conflict in the Caucasus. London: Routledge.

59. Swietochowski T. (1985). Russian Azerbaijan, 1905–1920: The Shaping of a National Identity in a Muslim Community. Cambridge University Press

60. Smith L. (2023). International Cooperation in Post-Conflict Reconstruction. // "Global Security Review", 16(2), 60-78.

61. Smith L. (2023). The Role of International Organizations in Post-Conflict Reconstruction. // "Global Affairs", 19(2), 77-93

62. Smith L. (2023). The Role of the EU and the US in South Caucasus Peace Processes. // "European Foreign Policy Journal", 15(1), 22-38.

63. Кавказский календарь на 1917 год [Caucasian Calendar for 1917]. (1916). Tiflis.

Gulgun Guliyeva

RETURN TO WESTERN AZERBAIJAN: RESTORATION OF HISTORICAL JUSTICE AND CONTEMPORARY REALITIES

Abstract

This article examines the historical and political causes of the mass deportation and forced displacement of Azerbaijanis from Western Azerbaijan, an area now within the territory of present-day Armenia. During the Soviet era—particularly between 1948–1953 and 1987–1991—large-scale, systematic deportations resulted in hundreds of thousands of Azerbaijanis being expelled from their ancestral lands. The study evaluates these events through the lens of international law, grounding the right of return in key legal instruments such as UN declarations and the European Convention on Human Rights. Additionally, the article analyzes the activities of the "Western Azerbaijan Community," initiated by President Ilham Aliyev, and discusses the main provisions of the "Concept of Return" adopted in 2022. The current geopolitical and humanitarian context is assessed for its relevance to regional stability, peacebuilding, and the restoration of historical justice. The paper explores the historical background, legal framework, and contemporary challenges related to the return to Western Azerbaijan, and considers potential pathways toward resolving the issue. The article emphasizes the necessity of a comprehensive approach that balances the restoration of historical justice with ensuring lasting peace and security in the region. The right of return is a crucial element in protecting Azerbaijan's national identity and territorial integrity. Azerbaijan pursues this right through both national legislation and international diplomatic efforts. Finally, the paper offers policy recommendations to strengthen international cooperation, activate legal mechanisms, and develop practical frameworks that facilitate a dignified and peaceful return.

Keywords: Western Azerbaijan, deportation, internally displaced persons (IDPs), Concept of Return, historical justice, human rights, international law, geopolitical context, Western Azerbaijan Community, Azerbaijani minority in Armenia

QƏRBİ AZƏRBAYCANIN MADDİ-MƏDƏNİ İRSİ

Əfqan VƏLİYEV,
Sosial Tədqiqatlar Mərkəzinin sektor müdiri,
sosiologiya üzrə fəlsəfə doktoru
Qərbi Azərbaycan Ziyalılar Şurasının üzvü
(Bakı, Azərbaycan)

E-mail: afgan.valiyev@stm.az
ORCID ID: 0009-0006-9972-6195

Xülasə. Maddi-mədəni abidələr və toponimlər hər hansı bir etnosun konkret coğrafi məkanda təşəkkülünü göstərən ən tutarlı sənəddir. Ona görə də ermənilər azərbaycanlıları öz doğma yurdlarından deportasiya etdikcə ilk növbədə yer adlarını dəyişdiriblər. Demək olar ki, son dövrdə maddi-mədəniyyət abidələri ermənilər tərəfindən şüurlu, planlı şəkildə məhv edilib, mənimsənilib, bütün toponimlər ermənilşdirilib. Bu da azərbaycanlıların həmin torpaqlarda tamamilə izlərinin itirilməsi məqsədi güdür.

Bu proses XX əsrdə qlobal şəkil alıb və o yerə çatıb ki, bu gün Ermənistanın yerləşdiyi Azərbaycanın tarixi torpağı olan Qərbi Azəbaycanda son siyahıyaalma və pasportlaşma prosesində bir dənə də olsun müsəlman abidəsi qeydə alınmayıb.

Son 200 ildə ermənilər tərəfindən zəbt edilərək məskunlaşdırılmış Qərbi Azərbaycanın dini-ruhsal ocaqlarının (məscid, pir, ziyarətgah, qəbirüstü abidələr) məhz müsəlman-türk dünyasının maddi-mədəni irsi kimi təqdim edilməsinin, coğrafi məkan üzrə paylanmasının sistemləşdirilməsinin (yazılı və təsviri formada) böyük əhəmiyyəti vardır. Tarixi reallıq uğrunda apardığı mübarizəni bu gün Azərbaycan özünün iqtisadi, siyasi gücü ilə yanaşı, Qərbi Azərbaycandakı tarixi irsi, mədəniyyəti, incəsənəti və zəngin mirası ilə elmi, siyasi-ideoloji cəbhədə mənbələrə söykənərək, dəlillər və sübutlarla daha da gücləndirmə imkanı əldə edə bilər.

Açar sözlər: Qərbi Azərbaycan, maddi-mədəni irs, tarixi Azərbaycan abidələri, məscid, pir, ziyarətgah, qəbirüstü abidələr

Giriş

"Qərbi Azərbaycan bizim tarixi torpağımızdır. Bunu bir çox tarixi sənədlər, tarixi xəritələr təsdiqləyir, bizim tariximiz təsdiqləyir. Ancaq əfsuslar olsun ki, ermənilər Qarabağdakı kimi, Qərbi Azərbaycanda da bizim bütün tarixi, dini abidələrimizi yerlə-yeksan ediblər, dağıdıblar, azərbaycanlıların tarixi irsini silmək istəyiblər, ancaq buna nail ola bilməyiblər. Çünki tarix var, sənədlər var, xəritələr var. Bu binada nümayiş etdirilən, XX əsrin əvvəllərinə təsadüf edən xəritə bir daha onu göstərir ki, Qərbi Azərbaycan tarixi Azərbaycan diyarıdır, şəhərlərin, kəndlərin adları Azərbaycan mənşəlidir və biz yaxşı bilirik ki, indiki Ermənistan ərazisində tarix boyu Azərbaycan xalqı yaşayıb. İndi əsas vəzifə ondan ibarətdir ki, dünya ictimaiyyəti də bunu bilsin. Artıq bu istiqamətdə işlər başlamışdır. Ancaq, əminəm ki, İcma bu işləri daha məqsədyönlü şəkildə və nəticəyə hesablanmış tərzdə aparacaqdır".

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Qərbi Azərbaycan İcmasının inzibati binasında Qərbi Azərbaycandan olan bir qrup ziyalı ilə görüşündəki nitqindən, 24 dekabr 2022-ci il.

Milli, mədəni, elmi və tarixi baxımdan "Qərbi Azərbaycan" mövzusunun tədqiq və təbliğ edilməsi soykökünə bağlılıq, milli özünüdərk, milli tarixi şüur, habelə milli kimlik və milli mədəni irs məsələləri ilə bağlı tarixşünaslığımızda çoxdan bəri kök salmış böyük bir boşluğu doldurmağa, həmçinin cavabı dəqiq olmayan bir çox müzakirəli məsələləri aradan qaldırmağa imkan verə bilər. 44 günlük Vətən mürahibəsində qazanılan tarixi qələbə müqəddəratımızın təyini haqqında yeni strategiyalar və hədəflər müəyyən etməklə yanaşı, həm də keçmişimizə həssas münasibət, onu yenidən qiymətləndirmə fürsətləri və çoxəsrlik tarixi maddi-mədəni-mənəvi irsimizi daha dərindən tədqiq etmək öhdəliyini qarşımıza qoydu.

Bu məqalə indiki Ermənistan ərazisində azərbaycanlılara məxsus maddi-mədəni irsin məhv edilməsi və yer üzündən silinməsi prosesinin bugünkü cari vəziyyəti haqqında təsəvvür yaratmağa imkan verir. Məqalədə indiki Ermənistan ərazisində məhv edilən, dağıdılan, konstruktiv dəyişikliklərə məruz qoyularaq ermənileşdirilən və ya farslaşdırılan mədəni irsin yalnız kiçik bir hissəsinə dair qısa məlumatlar əks olunub.

1. Qərbi Azərbaycanın qısa tarixi

XIX əsrin əvvəllərində Qarabağ xanlığı ilə Rusiya arasında imzalanan Kürəkçay müqaviləsindən, Rusiya və İran arasında bağlanan Gülüstan və Türkmənçay müqavilələrindən sonra ermənilərin Azərbaycan torpaqlarına kütləvi şəkildə köçürülməsi siyasəti həyata keçirilib. Eyni zamanda Qərbi Azərbaycanın ermənileşdirilməsi məqsədilə İrəvan, Göyçə, Zəngəzur və digər bölgələrdə yaşayan azərbaycanlıların öz tarixi yurdlarından deportasiyasına və soyqırımına start verilib. Erməni köçkünlərin sayının mexaniki şəkildə artırılması nəticəsində regionda marağı olan böyük dövlətlərin dəstəyi ilə 1918-ci il mayın 28-də ermənilərin millətçi Daşnaksütyun Partiyası və onların tərəfdarları tərəfindən qədim Azərbaycan torpaqları olan keçmiş İrəvan xanlığı ərazisində tarixdə ilk dəfə olaraq erməni dövləti yara-

dılıb. Sonradan Zəngəzur qəzasının bir hissəsi bolşeviklərin xidməti sayəsində yaradılan Ermənistan SSR-ə verilməklə Naxçıvan Azərbaycandan ayrı salınıb.

Azərbaycanlılar indiki Ermənistan ərazisində e.ə. II yüzillikdən yaşamağa başlayıblar. Kimmer, sak, quqar, şirak, qarqar, şadılı, kəngərli, cinli, oğuz, sabunçu, baharlı, bayandur, əfqan, qacar, qazax, əfşar, xalac, şamlı, ustaclı, türkmən, ayrım, qarapapaq, zəngi, muğanlı, bayat, ilxıçı, kolanı, qacar, kürəkənli (körakanlı) və b. türk qövmləri bölgədə yaşayan köklü tayfalar olublar. Qərbi Azərbaycan ərazisində həmçinin Azərbaycan türklərinin soykökündə iştirak etmiş varsaq, barsil, şiraq (siraq), qaşqay, saq, arsaq, bulqar kimi türk tayfaları da çox qədim zamanlardan bu ərazilərdə yaşayıblar.

Tarixi Azərbaycan torpaqları olan Qərbi Azərbaycanın ərazisi e.ə. IV əsrə qədər qədim Azərbaycan dövləti olan Albaniyanın tərkib hissəsi olub. Albaniyanın hakimiyyəti dövründə ərazidə məbədlər, qalalar, saraylar və müxtəlif mənşəli maddi-mədəni irs nümunələri inşa edilib. VIII-IX əsrlərdə Ərəb xilafəti dövründə Qərbi Azərbaycanda məscidlər tikilib, islam dini və mədəniyyəti burada yayılıb. Bu, əhalinin ədət-ənənə və həyat şəraitinə də təsir edib. XI-XIII əsrlərdə Səlcuqlu dövləti dövründə bölgə siyasi və strateji mərkəz kimi daha çox əhəmiyyət qazanıb. XIII-XIV əsrlərdə Böyük Monqol imperiyasının dövründə ərazi daha çox dağıntılar və istilaya məruz qalıb.

Qərbi Azərbaycan 1410-1468-ci illərdə Qaraqoyunlu, 1468-1501-ci illərdə Ağqoyunlu, 1501-1736-cı illərdə Səfəvilər dövlətinin tərkibində olduğu dövrdə inkişaf edib. Saraylar, məscidlər, karvansaralar, körpülər tikilib, yollar çəkilib. İrəvan və Zəngəzur ticarət mərkəzinə çevrilib. 1736-1747-ci illərdə Əfşarlar dövləti dövründə bölgə yeni böyük müharibələr və mübarizələr meydanına çevrilib. XVI əsrin sonları və XVIII əsrin 20-ci illəri Osmanlı-Səfəvi müharibələrinin şiddətlənməsi ilə İrəvan xanlığı iki dəfə Osmanlı imperiyasının tərkibinə keçib. Osmanlı idarəçiliyində İrəvan xanlığı daha sürətlə inkişaf edib yeni idarəetmə strukturu formalaşdırılıb. Sərdar məscidi Osmanlı dövründə tikilib, saraylar, körpülər, karvansaralar, ticarət mərkəzləri inşa edilib [5]. Qərbi Azərbaycan uzun yüz illər boyu azərbaycanlıların yaşadığı qədim yurd olub. Bütün tarixi dövrlərdə azərbaycanlılar İrəvan əhalisinin etnik tərkibində əsas abarogen xalq kimi yer tutub.

Lakin XIX əsrin sonu XX əsrin əvvəllərində regionda siyasi maraqları olan böyük dövlətlərin dəstəyi ilə Qarabağ xanlığı ilə Rusiya arasında imzalanan Kürəkçay (1805), Rusiya və İran dövlətləri arasında bağlanan Gülüstan (1813) və Türkmənçay (1828) müqavilələri, daha sonra Türkiyə və İran arasında bağlanan Ədirnə (1829) müqaviləsindən sonra Azərbaycan torpaqlarına ermənilərin kütləvi köçürülməsi siyasəti həyata keçirilib. Bölgənin ermənləşdirilməsi siyasətini həyata keçirmək məqsədilə İrəvan, Göyçə, Zəngəzur və Zəngibasar bölgəsində yaşayan azərbaycanlıların öz tarixi yurdlarından deportasiyasına və soyqırımına start verilib. İran və Türkiyədən isə ermənilərin bu ərazilərə köçürülməsi ilə əhalinin etnik tərkibi dəyişib. 1923-cü il iyulun 7-də isə vaxtilə İrandan və Osmanlı imperiyası ərazisindən Qarabağ xanlığının ərazisinə köçürülən ermənilərə süni surətdə muxtariyyət hüququ verilməklə, Dağlıq Qarabağ Muxtar Vilayəti yaradılıb. Sovet hakimiyyətinin ilk illərində Zəngəzur qəzasının bir hissəsi Ermənistana verilməklə Naxçıvan torpağı Azərbaycandan, Türkiyə isə türk dünyasından ayrı salınıb.

Ermənilərin indiki Ermənistan əra-

zisinin avtoxton sakinləri olmadıqlarını erməni tarixçilərinin özləri də etiraf edirlər. Vardan Parsamyan göstərir ki, 1828-1830-cu illərdə İran və Osmanlı imperiyasından təqribən 140 min erməni köçürülərək əsasən İrəvan və Naxçıvan xanlıqlarının ərazilərində məskunlaşdırılmışlar [20, s.68] Bütün bunlarla yanaşı, 1905-1907, 1918-1920, 1948-1953, 1959-1979, 1987-1991-ci illərdə "monoetnik Ermənistan" dövləti yaratmaq məqsədilə həmin ərazilərdən azərbaycanlıların etnik təmizlənməsi siyasəti həyata keçirilib.

1947-ci il dekabrın 27-də SSRİ Nazirlər Soveti "Ermənistan SSR-dən kolxozçuların və başqa əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" 4083 №-li qərar qəbul etmişdir. Bu qərarla 1948–1953-cü illərdə 144 654 nəfər azərbaycanlı Ermənistandan Azərbaycan ərazilərinə zorla köçürülmüşdür [13]. "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" qərara 1989-cu ildə münasibət bildirən SSRİ hökuməti 40-cı illərdə deportasiyaya məruz qalmış xalqların hüquqlarının bərpası haqqında qərar qəbul etsə də, 1948–1953-cü illərdə Ermənistandan deportasiya edilmiş azərbaycanlılar həmin xalqların siyahısına daxil etməmişdir [13].

1987-1991-ci illərdə baş verən son deportasiya zamanı 22 rayondan (172 sırf azərbaycanlı, 89 ermənilərlə qarışıq yaşayış məntəqələrindən 40.928 ailə) 300.000-dən çox azərbaycanlı ata-baba yurdlarından zorla çıxarılmışdır. Mənbələrdə 1987-1991-ci illərdə azərbaycanlıların Ermənistanda əsrlər boyu yaşadıqları 8 min kv.km ərazini əhatə edən yaşayış məntəqəsindən azərbaycanlıların qovulduğu və 216 nəfər azərbaycanlının (o cümlədən, 57 qadın və 23 uşaq) qətlə yetirildiyi göstərilir. İşgəncələrə məruz qalaraq öldürülmüş 203 nəfərin işi ilə bağlı SSRİ prokurorluğuna və Azərbaycan istintaq orqanlarına göndərilmiş materiallardan məlum olur ki, onlardan 14 nəfəri odlu silahla, 45 nəfəri döyülərək, 13 nəfəri yandırılaraq, 131 nəfəri isə müxtəlif işgəncələrlə məruz qalaraq öldürülüb.

Ermənilərin tarixi Azərbaycan torpaqlarına köçürülməsi nəticəsində bölgədə əhalinin etnik tərkibi dəyişib, Qafqaz regionu iğtişaş və münaqişə mənbəyinə çevrilib. Soyqırımı, deportasiya, eyni zamanda soydaşlarımıza məxsus yaşayış məskənlərinin, tarix və mədəniyyət abidələrinin dağıdılması, azərbaycanlılara aid maddi-mədəniyyət nümunələrinin tarixi adlarının dəyişdirilməsi, ermənilərə məruz qoyaraq, bölgədəki azərbaycanlı izlərinin silinməsi cəhdləri, bu mümkün olmadıqda isə həmin maddi-mədəniyyət abidələrinin ya məhv edilməsi, ya da "qədim ermənilərə məxsusluğu" barədə saxta sənədlərin hazırlanması kimi hallar onların mənfur siyasətinin tərkib hissəsi idi.

2. Qərbi Azərbaycanın maddi-mədəni irsi

Qərbi Azərbaycanda yaşayan azərbaycanlılar ərazinin qədim və əzəli sakini kimi tarixin bütün dövrlərini əhatə edən, orada fiziki varlığını sübut edən zəngin milli maddi-mədəni irs yaradıblar. Azərbaycanlıların yaratdığı zəngin mədəniyyət əsrlərdən bəri qorunub saxlanılmış müxtəlif mənşəli abidələrdə yaşayıb, xalqın, millətin milli mənəviyyatını özündə əks etdirir.

Qərbi Azərbaycanın qədim tarixinin arxeoloji baxımdan öyrənilməsi XIX əsrin 70-ci illərinə qədər sistemsiz şəkildə aparılıb. 70-ci illərdən etibarən Qafqazın, o cümlədən Qərbi Azərbaycanın arxeoloji cəhətdən öyrənilməsində yeni mühüm addım atılıb. Belə ki, 1871-ci

ilin oktyabrında Tiflis şəhərində Qafqaz Arxeoloji Komitəsi təsis edilib. 1872-ci ildə qurum Qafqaz Arxeologiya Həvəskarları Cəmiyyəti adlandırılıb.

XIX əsrin 90-cı illərindən başlayaraq Qərbi Azərbaycanın maddi-mədəni irsinə və mədəniyyət tarixinə arxeoloqların marağı daha da artıb. 1896-1899-cu illərdə Moskva Arxeoloji Cəmiyyətinin tapşırığı ilə cəmiyyətin üzvü A.A.İvanovski Göyçə gölünün kənarındakı ərazilərdə arxeoloji qazıntı işləri aparıb, Burada oğuz qəbirləri aşkar edilib, Burada üzə çıxarılan maddi mədəniyyət abidələri Moskva Dövlət Tarix Muzeyinə göndərilib. Bu nümunələri ilk dəfə elmi cəhətdən tədqiq edən A.A.İvanovski əldə etdiyi nəticələri "Qafqaz arxeologiyasının materialları" toplusunda çap etdirdiyi "Zaqafqaziya haqqında" hesabatında ümumiləşdirib. Lakin hesabatda tədqiq edilən abidələrin, aşkara çıxarılan qəbirlərin xəritələri haqqında məlumat verilməyib və xəritə məxfi saxlanılıb. Daha sonrakı dövrlərdə xəritəni əldə edən erməni arxeoloqlar onun əsasında Göyçə gölünün ətrafındakı ərazilərdə və orada yerləşən qalalarda qazıntı işləri aparıb. Oradan çıxarılan əşyaları İrəvan Dövlət Muzeyi və Moskva Dövlət Muzeyinə göndəriblər

1987-1991-ci illərdəki sonuncu kütləvi deportasiyadan sonra azərbaycanlılara məxsus yaşayış məskənləri ilə birlikdə tarixi Azərbaycan torpaqlarındakı müqəddəs sakral inanc yerləri - Hacı Baba piri, Bəzirgan piri, Qaradaş ziyarətgahı, Qarabulaq ziyarətgahı, Qızıldağ ocağı, Məhbub ocağı, Ocaqlı piri, Seyid Məmiş piri, Süd daşı piri, Toparlı piri, Üç qardaş piri, Sərdar məscidi, Təpəbaşı məscidi, Ağadədə məscidi, Loru qala məscidi, Gümrü məscidi, Xoca Bazar kənd məscidi, Qaraçanta məscidi, Püsək kənd məscidi, Şirvanlı məscidi, Şeyx İsmayıl Siracəddin Şirvani məscidi, Masdərə kənd qəbirüstü abidələri, Çıkıvəng məbədi, Ataxan qalası, Aşağı Zağalı qalası, Buğdayitəpə qalası, Əliqırx qalası, Ərqüş qalası, Koroğlu qalası, Qalaça dağında qala, Qızıldağ qalası, Qız qalası, Səngər qalası, Çırpılı karvansarası, Qurduqulu karvansarası, Nüvədi kənd karvansarası, Mığrı karvansarası, Uşi kəndində karvansara, Mir Həmzə Nigari türbəsi, Göy Məmməd günbəzi, Qoşabulaq kəndində qəbirüstü arxeoloji-etnoqrafik abidələr, Qızıl Qoç kəndində qəbirüstü heykəl, Aşağı Zağalı kəndində kurqan qəbirlər, Salah kəndində daş körpü, Babacan kəndində daşüstü kitabələr, Basarkeçər rayonunda Müsəlman din məktəbi, Dilican şəhərində tatar (azərbaycanlı) məhəlləsi, Çamırlı kəndində mədrəsə, Abdalağalı kəndində qayaüstü təsvirlər, Adıyaman kəndində orta yüzilliyə aid evlər, Ağparax kəndində istehkam divarları, Bazarçay vadisində qədim mağaralar, yüzlərlə alban-türk tarixi-memarlıq abidələri, saraylar, karvansaralar, imarətlər, məscidlər, məqbərələr, alban türk-oğuz qəbiristanlıqları, qəbirüstü abidələr, ziyarətgahlar erməni işğalı altına düşdü.

XX yüzilliyin əvvəllərində İrəvan quberniyası ərazisində 310 məscid qeydə alınsa da, 1915-ci ildə İrəvan və Zəngəzur quberniyasının ərazisində məscidlərin sayı artaraq 391 olub. Bunlardan 382-si şiə, 9-u isə sünni məscidi kimi fəaliyyət göstərib. 1918-ci ildən başlayaraq bu məscidlərin hamısı ermənilər tərəfindən dağıdılaraq, məhv edilib [16].

1918–1991-ci illərdən başlayaraq Qərbi Azərbaycanda azərbaycanlıların tərk etmək məcburiyyətində qaldıqları ərazilərdə 234 məktəb, 214 kitabxana, 268 mədəniyyət müəssisəsi, 235 səhiyyə ocağı, 112 uşaq bağçası, 152 məişət evi ermənilər tərəfindən zəbt edilib. 223 qəbiristanlıq, 600 alban məbədi, 400 məscid, 150 pir/ocaq/ziyarətgah, 1500 qəbirüstü abidə və minlərlə tarix-memarlıq abidəsi tədricən vandalizmə məruz qalıb. Ümumilikdə, 5000-dən çox

tarixi, dini və maddi-mədəniyyət abidəsi ermənilər tərəfindən şüurlu, planlı şəkildə məhv edilib, mənimsənilib, Hazırda Ermənistan ərazisində – İrəvanda yalnız Göy məscid, bölgələrdə isə bir neçə məscid qismən salamat qalıb ki, onlar da konstruktiv dəyişikliklərdən sonra fars (İran) məscidi kimi təqdim edilir. Həyata keçirilən bu dağıdıcı fəaliyyətin kökündə irqçilik və nifrət dayanır. Ermənilər tərəfindən dağıdılmış və mənimsənilmiş Qərbi Azərbaycanın maddi-mədəni irs nümunələrinin bir qismi aşağıdakı kimidir:

2.1. Məscidlər

Göy məscid – Hüseynəli xan məscidi (XVIII əsr): Tikintisinə 1760-cı ildə başlanılmış, 1764-cü ildə İrəvan sərdarı Hüseynəli xan Qacar (1762–1783) tərəfindən tamamlanmışdı. Onun adı ilə Hüseynəli xan məscidi adlandırılmışdır. Eni 66 m, uzunluğu 97,2 m olan Göy məscid İrəvandakı məscidləri içərisində ölçüsünə görə ən böyüyü idi. Məscidin 4 minarəsi (3-ü dağıdılmış, yalnız 1-i qalmışdır), çarhovuzlu-fəvvarəli geniş həyəti, zəngin kitabxanası olmuşdur. Məscid XX yüzillikdə ermənilər tərəfindən iki dəfə yandırılmışdır (1918 və 1955-ci illərdə). Məscidin binası Ermənistan hakimiyyətinin qərarı ilə Tarix Muzeyinə çevrilmişdir. Hazırda ermənilər bu məscidi “Fars məscidi” adı ilə dünyaya təqdim edirlər. Ermənistan hökumətinin 2015-ci il dekabrın 10-da keçirilən iclasında Şərq memarlığının nadir nümunələrindən hesab edilən Göy məscidlə bağlı Mədəniyyət Nazirliyinin təqdim etdiyi layihə müzakirə edilib. Tarixi və mədəniyyət abidəsi kimi Göy məscidin yerləşdiyi ərazi Ermənistan Respublikasının dövlət mülkiyyəti olduğu üçün özgəninkiləşdirilə bilinməyən tarixi və mədəniyyət abidələrinin dövlət reyestrinə daxil edilib. Həmçinin qərara alınıb ki, Göy məscid və onun yerləşdiyi ərazi istifadə hüququ ilə təmənnasız olaraq 99 illiyinə İran İslam Respublikasının Ermənistandakı səfirliyinə mədəniyyət mərkəzi kimi təhvil verilsin [11].

İrəvan [13] şəhərindəki Dəmirbulaq məscidi (XVII–XVIII əsrlərə aid): İrəvan şəhərinin Dəmirbulaq məhəlləsində yerləşən XVII–XVIII əsrlərə aid məscid [2, s.276], binasının üstündə düzəldilmiş günlüyə görə “Günlüklü” və ya “Çətirli məscid” adlanmışdır. Məscid İrəvan şəhərinin varlı şəxslərindən olan Hacı Müzəffər Ağa tərəfindən tikdirilmişdir. Üzərindəki kitabədə məscidin hicri təqvimi ilə 1327-ci ildə, yəni miladi təqvimi ilə 1909-cu ildə inşa edildiyi göstərilmişdir. Məscidin minarəsi yox idi. Əvəzində məscid binasının damında açıq havada 1,5–2 metr hündürlüyündə kvadrat şəkilli meydança inşa edilmişdi. 1988-ci ilə qədər fəaliyyət göstərən və şəhərin dindar müsəlmanlarına xidmət edən məscid həmin ilin fevral ayının 23-də radikal erməni millətçiləri tərəfindən hücuma məruz qalmış, talan edilmiş və yandırılmışdır. Dərmirbulaq məscidi 1990-cı ildə tamamilə dağıdılmış, onun yerində müasir yaşayıyış binası inşa edilmişdir.

İrəvan şəhərindəki Sərdar məscidi (XIX əsr): Ayrı-ayrı adlar altında təqdim edilməsinə baxmayaraq, söhbət rəsmi sənədlərdə adı "Sərdar məscidi" kimi qeyd olunan dövrün nadir memarlıq abidəsindən gedir. Yəni bu məscid müxtəlif dövrlərdə müxtəlif cür adlandırılmışdır. İrəvan qalasının Çar Rusiyası işğalı dövrünə aid bəzi sənədlərdə bu məscidin adı "Abbas Mirzə məscidi" kimi hallandırılır [14, s.44-47]. Görünür, həmin məscid XIX əsrin əvvəlində vəliəhd Abbas Mirzə tərəfindən yenidən qurulduğu üçün məhz onun adı ilə adlandırılmışdır. Alman tədqiqatçısı Avqust Haksthauzen 1843-cü ilin avqust ayında İrəvan şəhərində olmuş və qalada olan iki məsciddən birinin (yəni Rəcəb paşa məscidinin) rus-yunan kilsəsinə, digərinin – Sərdar

məscidinin isə silah anbarına çevrildiyini qeyd etmişdir.

Tanınmış rus arxeoloqu qrafinya Praskofya Uvarova 1880-ci ildə İrəvan şəhərində olmuş, əsrlər boyu yaradılan tarixi-memarlıq abidələrinin dağıdılmasını təsvir etmişdir. Erməni müəllifi Yervand Şahəziz 1931-ci ildə İrəvanda çap edilən "Qədim İrəvan" əsərində P.Uvarovadan sitat gətirərək, onun Xan sarayının yaxınlığında yerləşən Sərdar məscidini Vereşşaginin fırçasından çıxan tabloya bənzətdiyini yazır. P.Uvarovaya istinadən Y.Şahəziz qeyd edir ki, Sərdar məscidinin əsas günbəzi, xarici divarları, sütunları, iç divarları, çoxsaylı digər günbəzləri rəngli kaşılarla və gözəl təsvirlərlə bəzədilmişdir [15, s.8-9].

Azərbaycan arxeoloqu və epiqrafçısı İsa Əzimbəyov 1928-ci ildə İrəvanda ekspedisiyada olmuşdur. Onun ekspedisiyanın nəticələrinə dair yazdığı "Tiflisin, İrəvanın və Naxçıvan MSSR-in müsəlman kitabələri" adlı məqaləsində göstərilir ki, Qalanın içərisində, Sərdar sarayının yaxınlığında yerləşən Şah Abbasın adına inşa edilən məscid yarıuçuq vəziyyətdədir və onun həyətində bir neçə erməni qaçqın ailəsi məskunlaşmışdır. Hazırda Sərdar məscid-kompleksindən yalnız onun bir divarının 2–3 metr enində, 3–4 metr hündürlüyündə kiçik bir parçası qalmışdır. Həmin ərazidə "Qlendale Hills" tikinti şirkəti 14 mərtəbəli 18 bloklu yaşayış kompleksi inşa etmişdir.

İrəvan şəhərindəki Təpəbaşı məscidi: Təpəbaşı yaşayış massivində yerləşən məscidin minarəsi 1960-cı illərdə uçmuşdur. Divarlarının qalınlığı 1,5 metr olan məscidin içərisindəki imam otağında hazırda bir erməni ailəsi yaşayır. Məscidin ətrafında çayxana var idi. İndi həmin çayxana da yoxdur. Məscidin həyətində və ətrafında ermənilər müvəqqəti yaşayış tikililəri (favella tipli) inşa ediblər. Bəzi məlumatlara görə, həmin məscidi İrəvan şəhər idarəsinin (upravasının) üzvü, xan nəslindən olan Abbasqulu xan İrəvanski tikdirmişdir. Onun evi də həmin məhəllədə olmuşdur. Tikili tamamilə dağıdılıb və bərpası mümkün deyildir. Ərazidə müasir yaşayış massivinin tikilməsi planlaşdırılır.

İrəvan quberniyasının Aleksandropol[1] qəzasında, indiki Talın rayonundakı Əkərək (indiki adı Aqarak) kənd məscidi (XVII əsr): Əkərək kənd məscidi memarlıq və arxitektura baxımından digər məscidlərdən fərqlənirdi. Çay, qaya daşlarından və kərpicdən ağ əhənglə tikilən, böyük və eni 5 m, uzunluğu 20 m, hündür tavanı 4 m civarında olan məscidin çoxlu pəncərələri var idi. İki hissədən ibarət olan məscidə bitişik türbə də yerləşirdi. Məscid eyni zamanda vəfat edən insanların dəfn üçün hazırlanması, ailə həyatı qurmaq üçün kəbin kəsdirənlərin də müraciət məkanları rolunu oynayıb. Məsciddə Quran oxumağı və ibadət etməyi də öyrədirdilər.

Qeyd edək ki, məscid həmçinin fərdlər arasındakı sosial statusu, uçurumu aradan qaldıran reabilitasiya mərkəzləri idi [9, s. 163, 90]. Məscidlər təkcə ibadət, dini mərasimlər keçirmək üçün inşa edilmirdi. Məscid çoxfunksiyalı ellik bina hesab edilir, orada keçirilən tədbirlər həm də müsəlmanlar arasında ünsiyyəti, birliyi gücləndirirdi. Əkərək kənd məscidinin dam hissəsi tamamilə uçub, dağıdılıb, ancaq kənar divarlarının xarabalıqları qalıb. İslam mədəniyyət abidəsi olduğu üçün ermənilər tərəfindən təmir və bərpa edilməyib. Əksinə tikinti üçün yaralı olan hissələr sökülərək daşınıb (Kənd əhalisi iri daşları sökərək həyətyanı divar tikintisində istifadə edib).

İrəvan quberniyasının Yeni Bəyazid qəzasının Axta (indiki adı Razdan) rayonunda Bicni (indiki adı Bjni) məscidi (XVII əsr): Bicni məscidi XVII əsrdə inşa olunan qədim müsəlman ibadətgahıdır. Hündürlüyü 5 metrdən çox

olan məscidin tikintisində böyük qaya və çay daşlarından istifadə olunub. Məscid adını “beçenek / peçenek” türk boyunun ərəbcə yazılışı olan “Bjni”dən alıb. Bicni məscidi hazırkı dövrdə ermənilər tərəfindən dağıdılıb, xarabalıqları qalıb

Zəngibasar (indiki adı Masis) mahalının Uluxanlı[2] rayonunun Qulucan[3] kəndinin yaxınlığındakı Ağadədə məscidi (XIX əsr): Ağadədə məscidi Uluxanlı, Həbilkənd, Seyidkənd və Sarvanlar kəndlərinin əhatəsində, Qulucan kəndinin yaxınlığında yerləşirdi. Qarasu çayının kənarında olduğu üçün tarixi Ağadədə qəbiristanlığındakı məscidin tikintisində çay və qaya daşlarından istifadə olunmuş, üzü isə ağ torpaqla suvanmışdı. Təxmini hesablamalara görə, məscidin eni 5 metr, uzunluğu 8 metr, hündürlüyü isə 3,5 metr idi. Məscid dəfn mərasimləri və müsəlmanlara aid dini bayramlar zamanı daha qələbəlik olurdu. 1987–1991-ci illərdə baş verən deportasiya prosesində ermənilər azərbaycanlı əhaliyə qarşı zorakılıqlar törətməklə yanaşı, bir neçə yüzillik tarixi olan azərbaycanlılara aid maddi-mədəni abidələrin bir çoxunu da məhv etdilər. Bu vandallizm aksiyaları zamanı Ağadədə məscidi də yandırılmışdır [8]. Ağadədə qəbiristanlığındakı məscid islam mədəni irsinin və dini kimliyin nümunəsi olmaqla yanaşı, xalqın mənəvi dünyasına xitab edən abidə olması baxımından əhəmiyyət kəsb edirdi. Bu məscid sonuncu deportasiyaya (1987–1991-ci illər) qədər azərbaycanlıların inanc və ziyarət yerlərindən idi. Britaniyalı səyyah-fotoqraf Qurdip Mattu Zəngibasar mahalının Uluxanlı qəsəbəsi ərazisindəki Ağadədə məzarlığında olub, onun 2021-ci ilin avqust ayında çəkdiyi fotolardan məzarlığın, demək olar ki, tamamilə dağıdıldığı, məscidə gəlincə, arxa tərəfdə 1,5 metr, sağ və sol tərəfdə isə 1 metrə qədər divarlarının qaldığı müşahidə olunur [8].

Şörəyel (indiki adı Şirak) mahalının Amasiya rayonunun Balıqlı[4] kəndindəki Balıqlı məscidi (XVIII–XIX əsrlər): Balıqlı kəndi XVIII yüzilliyin sonu, XIX yüzilliyin əvvəllərində salınıb. Qafqazın 5 verstlik xəritəsində qeyd edilib [19]. Amasiya rayonunun Balıqlı kəndində yerləşən Balıqlı məscidi digər məscidlərdən fərqli arxitektura ilə fərqlənirdi. Uzunluğu 8 metr, eni 4 metr (təxmini) olan məscidin divarlarının tikintisində dördküncə kəsilmiş ağ, boz, göy və qırmızı daşlardan istifadə edilib. Bu da məscidin içəridən və bayırdan görünüşünə ayrı bir gözəllik qatır. Ev memarlığı üslubunda və müasir qaydada tikilib. Arxa sağ və sol tərəfdə yuxarı hissədə oval iki pəncərəsi var. Qabaq tərəfdə isə bir pəncərə və geniş giriş qapısı qoyulub. Pəncərənin içərisində və bayırında alt hissədə tünd sarı mərmər daşlar yerləşdirilib. 1987–1991-ci illərdə azərbaycanlıların kütləvi deportasiyasından sonra müsəlman abidəsi olduğu üçün ermənilər tərəfindən dağıdılıb.

Loru mahalı[5] Dağ Borçalı qəzasında Loru qala məscidi (XII əsr): Loru mahalının Dağ Borçalı qəzasında Loru qala məscidi 1238-ci ildə inşa olunub. Cəlaloğlu (indiki adı Stepanavan) şəhərindən 4 km şərqdə Loru şəhərindəki qalanın daxilində yerləşir. Qərbi Azərbaycan torpaqlarında inşa edilib və indiyə qədər mövcud olduğu müəyyən edilən məscidlərdən biridir. Məscidin iç memarlığı Şuşadakı Gövhər ağa məscidi ilə oxşarlıq təşkil edir. Geniş və hündür tavan quruluşuna sahibdir. Yerlərin zəminə mərmər daşlar döşənib. Sağ tərəfdə pəncərə və kiçik yaşıl rəngdə masa görünür. Məscid qarşısındakı qəbirüstü

[1] Aleksandropol qəzasına - Axuryan-Artik, Ani, Qukasyan, Qugark, Spitak adlandırılmış rayonların əraziləri daxil idi. Hal-hazırda ləğv olunub.

[2] 1969-cu il yanvarın 14-də rayon mərkəzi Uluxanlının adı dəyişdirilib Masis adlandırılıb.

[3] Qulucan kəndinin adı 31. 05.1946-cı ildə dəyişdirilib Spandaryan adlandırılıb.

abidəyə (xaç əlavə edilib) və içərisinə erməni elementləri əlavə edilərək, ermənilər tərəfindən kilsəyə çevrilib. Üstünü ot təbəqəsi basıb.

2.2. Məbədlər

Gərnibasar[6] mahalının Qəmərli[7] rayonunun Dvin kəndində saray və məbəd: Qədim saray və məbədin qalıqları Dvin kəndinin xarabalıqlarında aşkar edilmişdir. Bu yaşayış məskəni 350-ci ildə Arman çarı II Xosrov tərəfindən salınıb və Armaniyanın paytaxtına çevrilib [24]. Dvin şəhərindəki həmin məbəd (22x43 m) 572-ci ildə farslar tərəfindən dağıdılıb [22], sonra türksoylu Sembat Baqrat (608–615) tərəfindən yenidən tikilməyə başlanıb və az sonra katolikos Qamata (612–621) tərəfindən tamamlanıb. 893-cü il zəlzələsi zamanı məbəd, 1236-cı ildə monqol-tatar hücumları zamanı isə Dvin şəhəri tamamilə yerlə-yeksan olub [23, s.148]. Dvinlilər qədimdən atəşpərəst olub, IV yüzillikdə Armaniyada xristianlığı qəbul ediblər [21, s.39-40]. 450-ci ildə Arman knyazları Dvinə yığışaraq xristianlıqdan imtina edib və yenidən öz əvvəlki dinlərinə – atəşpərəstliyə qayıdıblar. Dvin saray və məbəd qalıqlarının aşkar edildiyi Dvin kəndində 1828-ci ilə qədər ancaq azərbaycanlılar yaşayıb. Qədim arman-türk abidəsi Dvin sarayı və məbədin qalıqları ciddi şəkildə dəyişdirlib və hazırda "erməni mədəni abidəsi" kimi təqdim olunur [6, 425-428].

İrəvan quberniyasının Üçkilsə[8] rayonunun Hacı Qara[9] kəndində alban məbədi (VI–VII əsrlər): Hacı Qara kəndindəki alban məbədi kənd ərazisində albanların yaşadığı dövrdə, dördkünc formada yonulmuş böyük daşlarla inşa edilib. Məbədin eni 3,5 metr, uzunluğu 4–4,5 metr, hündürlüyü isə 5 metr civarında olub. Arxa hissədə eni 50 sm, uzunluğu isə 1 metr civarında oval pəncərəsi var. Kəndə yaxın olan məbədin üst tavan və qabaq qapı tərəfinin bir hissəsi uçub, dağılıb. Təbii aşınma ilə yanaşı, tikilinin əhəmiyyətli hissəsi son dövrlərdə qəsdən sökülərək dağıdılıb. Yarıuçuq vəziyyətdə olan məbədin daşları ətrafına səpələnib. 1590-cı ildə tərtib edilmiş "İrəvan əyalətinin müfəssəl dəftəri"ndə "Hacı Qaralı" [9, s.162], Qafqazın 5 verstlik xəritəsində "Hacı Qara" adı ilə [19, s.154] qeyd edilmişdir. Kənddə 1828-ci ilə qədər azərbaycanlılar yaşamışdır. Ermənilər bura Türkmənçay müqaviləsindən sonra, 1829-cu ildə İranın Xoy vilayətindən köçürülmüşdür [25, s.228]. Burada ermənilərlə yanaşı, 1831-ci ildə 27 nəfər, 1897-ci ildə 8 nəfər azərbaycanlı yaşamışdır [26, s.82–83, 152–153]. Hazırda tikili tamamilə məhv edilib.

Şərur-Dərələyəz[10] qəzasının Qarqar[11] kəndində Çıkıvəng məbədi (V–VI əsrlər): Bir çox tarixi yaşayış məntəqələrində olduğu kimi, Qarqar kəndində və onun kənarında da tarixi abidələr, qədim məzarlıqlar mövcuddur. Qarqar kəndinə gedən yoldan bir qədər aralıda, dağın zirvəsində Çıkıvəng (ermənilər "Çikivank" adlandırır) adlı kiçik bir məbəd var. Ermənilər Çikivank adının yaranmasını ibadətgahın ətrafındakı torpağın dəri xəstəliklərini sağaltmaq qabiliyyətinə malik olması ilə əlaqələn-

---

[4] Balıqlı kəndi 19.04.1991-ci ildən Zorakert adlandırılıb.

[5] 1921-ci ildə isə Gürcüstan və Ermənistan bolşevik hökumətləri arasında Lorunun Ermənistana verilməsi haqqında razılıq əldə edilib. 1922-ci il dekabrın 22-də Vorontsovka bölgəsi də Ermənistanın Loru-Pəmbək qəzasına qatılıb. Beləliklə, Ermənistanın inzibati bölgüsündə Loru mahalı 4 rayon - Barana rayonu, Allahverdi rayonu, Cəlaloğlu rayonu və Vorontsovka rayonu şəklində öz əksini tapıb.

[6] Qərnibasar mahalı 1591-ci ildə yaradılıb. 1829-cu ildə ərazisi İrəvan şəhərinə daxil edilib.

[7] Qəmərli rayonu 04.09.1945-ci ildən Artaşat adlandırılıb.

dirirlər. Bu sözün Azərbaycan dilindəki etimologiyasını nəzərdən keçirəndə aydın olur ki, Əyrivəng monastırında olduğu kimi Çıkıvəng məbədinin də adı tikilinin konstruksiyasına tamamilə uyğundur. Azərbaycan türkcəsinin bəzi dialektlərində çıkı, cıqı, çıqqılı, çıkkana, çıqqalanca və s. kimi cismin və ya kütlənin çox kiçik həcmini göstərən təyinedici terminlər mövcuddur. Sözügedən abidə ilə bağlı turistlərin təsvirinə görə və fotoşəkillərdən də göründüyü kimi, kilsə o qədər kiçikdir ki, fiziki məsafəyə riayət edilmədən içəriyə 5, maksimum 6 nəfər sığa bilər. Beləliklə, Çıkıvəng bu tikilinin quruluşuna tam uyğun gələn "kiçik kilsə" deməkdir. Bundan əlavə, Çıkıvəng məbədinin divarlarındakı yazılarda həkk olunan və indiki erməni xalqına heç bir əlaqəsi olmayan Bəhram, Göncə, Okan, Amat, Asan və s. kimi məbədin tikilməsinin səbəbkarları olan zadəganların və onların ailə üzvlərinin adlarını xüsusi qeyd etmək olar. Məbəd hazırda ermənilər tərəfindən tamamilə dağıdılıb.

İrəvan quberniyasının Eçmiədzin qəzasında, indiki Talın rayonundakı Gözlü kəndində alban məbədi (V–VI əsrlər): Alban məbədi Gözlü kəndindən bir az aralıda, çay kənarında yerləşir. Qırmızı tuf daşdan tikilən məbədin uzunluğu 10 metr, eni 5 metr, hündürlüyü isə 4 metr civarındadır. Məbədin ətrafı yaşıl otlarla əhatə olunub, 30–35 metr kənarından çayın kiçik qolu keçir. Məbədin divar, dam və qüllə hissəsi qismən yararlı vəziyyətdədir. Damın üstünü hündür otlar basıb. Məbəd hazırkı dövrdə ermənilər tərəfindən dağıdılıb. Gözlü kəndi Qafqazın 5 verstlik xəritəsində [19, s.59] qeyd edilmişdir. 1828-ci ilə kimi burada azərbaycanlılar yaşamışdır. Türkmənçay müqaviləsindən sonra, 1829–1832-ci illərdə Türkiyənin Muş, Əlşkirt, Qars vilayətlərindən, İranın Qəzvin və Xoy vilayətlərindən köçürülən ermənilər burada yerləşdirilmiş, azərbaycanlılar kənddən deportasiya olunmuşdur. [25, s.146]

İrəvan quberniyasının Yeni Bəyazid qəzasında, Qaranlıq rayonundakı Aşağı Alçalı kəndində Vanevan məbədi (903-cü il): Vanevan monastırı Göyçə gölünün cənub-şərqində, Aşağı Alçalı kəndindən cənubda Alçalı çayının dərəsi boyunca yerləşən alban məbədi Müqəddəs Qriqorun 903-cü ildə Albaniyanın ilk hökmdar sülaləsi Arranşahiklər xanədanına mənsub olduğu [26, s.161-162] bildirilən Kral I Smbatın (Səhl ibn Sunbatın) bacıları Şahzadə Şapuh Baqratuni və Məryəm tərəfindən tikilmişdir. Cənub ucunda yerləşən kilsə binası daha sonrakı dövrdə tikilmiş, ikisi arasında qavit əlavə edilmişdir. X əsrin sonlarında Baqratidlər sülaləsinin kralı albanların XXXXI katolikosu, albanların müstəqil məbədə sahib olması fikrinin dəstəkçisi I Qagik tərəfindən təmir və bərpa edilmişdir. Bu restavrasiya zamanı ətraf divar tikilmişdir. Kilsə tədricən genişlənən dörd mərkəzi tağdan ibarətdir. Arxa bantlar arasında bir künc kürsünün əlavə edilməsi bunun baş verməsinə imkan verir. Məbədin tikintisində xüsusi dördkünc formada kəsilmiş ağ və qırmızı tuf daşlardan istifadə olunub. Vanevan və Tatev buna ən erkən nümunələrdir. Məbəd nağarası içəridən və çöldən səkkizbucaqlıdır, üzərində kilsənin tarixinə aid yazı var.

---

[8] Üçkilsə rayonu 12 mart 1945-ci ildən etibarən Eçmiədzin rayonu adlandırılıb.

[9] Hacı Qara kəndi 3.I.1935-ci ildə adı dəyişdirilib Aygeşad adlandırılıb.

[10] Zaqafqaziya MİK-in 1929-cu il 18 fevral tarixli qərarına əsasən, Azərbaycan SSR-in rayonlaşdırılması ilə əlaqədar Şərur-Dərələyəz qəzası ləğv edilmiş, tərkibindəki Qurdqulaq, Xaçik, Horadiz kəndləri torpaqları ilə birlikdə Ermənistana qatılmışdı. İndiki adı Vayots Dzordur.

[11] Qarqar kəndi Ermənistan dövləti tərəfindən ləğv olunub. Ərazisi Vayots Dzor vilayətinə daxil edilib.

Hər iki məbədin nağaralarının eyni dekorativ qəliblənmiş bantı var ki, bu da onların bir-biri ilə çağdaş olduqlarına inanmağa səbəb olur. Məbədin arxasında dərənin başına çıxan bulaq və mağara var. Bir vaxtlar işğalçılardan qaçış yolu kimi istifadə edildiyi bildirilir. Türk–oğuz yurdu olan kənddə XIX əsrin 20-ci illərinə qədər azərbaycanlılar yaşamışdır. Türkmənçay müqaviləsindən sonra, 1829–1830-cu illərdə Türkiyənin Ələşkirt bölgəsindən köçürülən ermənilər burada yerləşdirilmişdir. İndiki dövrdə restavrasiya edilib erməni elementləri əlavə olunun məbəd mənimsənilərək, "erməni abidəsi" kimi təqdim olunur.

Karvansara rayonu, Tərsəçay sahilindəki Salah kəndində Ağavnavəng alban məbədi (XII–XIII əsrlər): Kənd ərazisində XI–XII yüzilliklərə aid azərbaycanlıların soykökündən olan türk-alban mənşəli müxtəlif qədim tarixi abidələr mövcuddur. Ağavnavəng alban-türk məbədi XII–XIII yüzilliklərdə inşa edilib. Dilican milli parkının kənarındakı hündür meşəlik ərazidə yerləşir və dördkünc günbəz formada inşa edilib. Məbədin divarları enli olduğu və tikintisində böyük qaya və çay daşlarından istifadə edildiyi üçün indiki dövrə qədər çata bilib. Məbədin dam və günbəz hissəsinin üstünü ot və kol-kos basıb. Alban məbədi qismən yararlı yarıuçuq vəziyyətdədir. Ermənilər tərəfindən təmir və restavrasiya edilməyib, lakin mənimsənilib, "erməni abidəsi" kimi təqdim olunur.

Gəncə quberniyasının Qazax qəzasında, sonradan Çəmbərək rayonundakı Qoturbulaq kəndində alban məbədi (V–VII əsrlərə aid): Qoturbulaq kəndində yol kənarına yaxın təpəlik ərazidə qədim alban kilsəsi yerləşir. Azərbaycanlıların və tarix boyu türk tayfalarının yaşadığı kənddə müalicəvi əhəmiyyətli turşsu bulağının olması qədim dövrdən buraya geniş əhali kütləsinin axınına səbəb olub. Kilsə dəyirmi formada, çay daşı və ağ əhənglə tikilib, qalın divarlardan və bir neçə kiçik pəncərələrdən ibarətdir. Qəhvə rəngli dam örtüyünün bir hissəsi uçub-dağılıb. Alban məbədi olduğu üçün ermənilər tərəfindən tarixi kilsənin təmirinə diqqət göstərilməyib. Qalın divarları sağlam vəziyyətdədir. Dam örtüyünün bir hissəsi dağılan kilsə ermənilər tərəfindən təmir edilməyib. 1920-ci ilin sonuna qədər Gəncə quberniyasının Qazax qəzasının Çəmbərək nahiyəsi kimi Azərbaycanın tərkibində olan Çəmbərək rayonunun ərazisində o dövrdə cəmi iki erməni kəndi mövcud olub.

2.3. Qəbirüstü abidələr

Üçkilsə[12] qəzasında, sonradan Talın (indiki adı Talin) rayonunun Masdərə[13] kənd qəbiristanlığında qəbirüstü qoç abidələri (V–VII əsrlər): Böyük bir ərazini əhatə edən kənd qəbiristanlığında V–VII yüzilliyə aid azərbaycanlılara məxsus tarixi abidələr var. Qəbiristanlıqda çox sayda (100-dən çox) sanduqə formalı qəbirüstü abidələr qısa ara məsafəsi ilə sıralanıb. Türk-oğuz, alban qəbirləri, sanduqələr, qoç heykəlləri və 2–3 metr hündürlüyündəki bir çox qəbir daşları üzərində olan yazı və təsvirlər ərazidə azərbaycanlıların qədim dövrlərdən yaşadığını sübut edir. Ermənilər tərəfindən bir çoxunun üzərinə erməni elementləri və erməni xaçı əlavə edilərək abidələrin mənşəyinin dəyişdirilməsinə cəhd edilib. "Masdərə" toponimi isə "Masların dərəsi", "Mas dərəsi" anlamında "mas" və "dərə" sözlərindən yaranmışdır. Maslar qədim dövrlərdən (təxminən e.ə. VIII əsrdən) Cənubi Qafqazda, o cümlədən Qərbi Azərbaycanda məskunlaşmış sak tayfalarının bir qoludur. Masların izləri müasir Azərbaycan Respublikası və Qərbi Azərbaycan ərazisində Masallı, Masazır, Maştağa, Masis, Mesxet, Xaç-

maz (Xaçmaz) toponimlərində də qalmisdir [7, s.96-98]. Ermənilər tərəfindən qədim qəbirüstü abidələrin bir qismi dağıdılıb. Qalanları isə indiki dövrdə "erməni abidəsi" kimi təqdim olunur.

Göyçə mahalının Aşağı Qaranlıq (indiki adı Martuni) rayonunun Zolaxaç[14] kəndində qəbirüstü qoç heykəli (IV–V əsrlər): Zolaxaç kəndində qədim məzarlıq kənd evlərinə yaxın məsafədə, hətta evlərin həndəvərində yerləşir. Məzarlıqda müxtəlif dövrlərə aid Azərbaycan tarixinin nümunələri olan qəbirüstü abidə və sənduqələr çoxluq təşkil edib. Məzarlıqda olan qoç heykəllərinin bir çoxu digər bölgələrdəki gəbirüstü qoç heykəllərindən fərqlilik təşkil edir. Fərqli tərəfi sarı rəngdə qaya daşından yonulmuş daha böyük qoç heykəllərinin çox ustalıqla heyvana oxşar hazırlanması, boğazında naxışlı xalta və qabaq baldır hissələrində altıguşəli ulduz, arxa ayağında fırfıra (pərvanə) şəklində təsvir və Günəş əks olunmasıdır Qədim alban-türk məzarlığı Azərbaycan tarixinin tarixi torpaqlardakı ən dəyərli maddi-mədəni irslərindən biridir. Qoç heykəllərinin ayağındakı fırfıra (pərvanə) formasında təsvir "Tanrıdan gəlmək" və "Tanrıya dönmək" mənasını verir. Monqollar tərəfindən də istifadə olunub. Qabaq ayaq hissəsindəki altıguşəli ulduz Günəş təsviri isə "Davud ulduzu", ya da "Süleyman möhürü" kimi qəbul edilsə də, damğanın ən qədim nümunələri türklərdə və türk coğrafiyalarındadır, günümüzə qədər də istifadə olunub. Mənası "var etmə, yaratma"dır Qoç heykəlinin digər tərəfindəki kitabəni isə XIX yüzildə kəndə köçürülmüş ermənilər həmişəki xislətlərinə uyğun olaraq silib-lər və hazırkı dövrdə də "erməni abidəsi" kimi təqdim edirlər. 1987–1991-ci illərin deportasiyasından sonra isə məqsədli qaydada ermənileşdirə bilmədikləri üçün qəbirüstü abidələr məhv edilib. Qalanlarına isə erməni elementləri əlavə olunub.

2.4. Qədim yaşayış məskənləri

İrəvan quberniyasının Üçkilsə qəzasındakı Başsız [1, s.35] kəndində mağaralar: Dağın atında yerləşən mağaralar əhalinin qədim dövrdə yaşayış məskəni, sonrakı dövrlərdə isə müharibələr və erməni hücumlarından qorunması üçün istifadə olunub. Təbii yaranan mağara ətrafda yaşayan əhali tərəfindən genişləndirilib, yüzlərlə insanın sığınma məkanına çevrilib. 1728-ci ilə aid mənbə-də İrəvan əyalətinin Karpi nahiyəsində kənd adı kimi qeyd olunur. Əsli Baş Sisdir. 1590-cı ilə aid mənbədə Başsız, 1727-ci ilə aid mənbədə isə kəndin adı Baş Sis kimidir. Sis – Kiçik Asiyanın cənubunda Kilikiya əyalətində şəhər və mahal adıdır. Sis və Masis orta əsrlərdə Türkiyənin cənubunda Qaraman əyalətində iki qalanın adı olmuşdur. Mənbələrdə ilk dəfə XVI əsrdən məlumdur. Kənd Sisdən gəlmiş türklərin məskunlaşması nəticəsində yaranmisdir [4]. Daha sonra kənddə yalnız azərbaycanlılar yaşayıb. Kəndin kənarındakı dağların altındakı mağaralar indiki dövrdə də qalmaqdadır və "erməni abidəsi" kimi təqdim olunur.

2.5. Karvansaralar

Sərdarabad (indiki adı Oktemberyan) mahalının Qurduqulu (indiki adı Armavir) rayonunda Qurduqulu karvansarası (XVII–XVIII əsrlər): Qurduqulu rayonu ərazisinində yerləşən qədim və böyük karvansaranın hücrələri və ibadət otaqları var idi. Karvansarada karvanların dayanacaq yeri, meh-

[12] *Masdərə kəndi 21.01.1965-ci ildən Dalarik adlandırılıb.*
[13] *Zolaxaç kəndi 03.01. 1335-ci ildən Zolakar adlandırılıb.*

manxana tipli istirahət otaqları, minik və yük heyvanları üçün ayrıca yer (tövlə) və axurlar, ticarət mallarının saxlanılması üçün anbar, müxtəlif əşya satan dükan və yeməkxana var idi. Çay və qaya daşlarından inşa edilən karvansaranın uzunluğu 35–40 metr, eni 12–15 metr, hündürlüyü isə 4,5–5 metr civarında idi. Üçtağlı karvansaranın sağ və sol tərəfində otaqlar, ortasında isə dəhliz yerləşirdi. Bütün otaqlar dəhlizə çıxırdı. Karavansarada 18–20 civarında otaq mövcud olub. Hazırda ermənilər tərəfindən dağıdılıb və izi itirilib.

İrəvan quberniyasının Üçkilsə (indiki adı Eçmiədzin) qəzasında, sonradan Əştərək (indiki adı Aştarak) rayonunun Uşi kəndində karvansara (IX–XI əsrlər): Karvansara Əştərək rayon mərkəzindən 4 km şərqdə Uşi kəndinin kənarında yerləşib. Bişmiş kərpicdən, yonulmuş bazalt və mərmərdən inşa olunmuşdu və gözəl görünüşə sahib idi. Daha çox İrandan gətirilən malların satıldığı karvansara kimi məşhur idi. 38 mağazadan ibarət olan karvansara, eyni zamanda topdansatış anbarı kimi fəaliyyət göstərirdi [10, s.74; 24, s.468–469, 878–880]. Yol kənarında yerləşib, oradan keçən insanlar, xüsusilə də səyyahlar üçün gecələmə, tacirlər üçün isə həm mehmanxana, həm də mallarını satmaq və mühafizə üçün anbar rolunu oynayıb. Karvansara haqqında məlumatların 1590-cı və 1728-ci illərdə tərtib olunan Osmanlı müfəssəl dəftərində, habelə Çar Rusiyasının mənbələrində yer alması və Azərbaycan irsinə aid abidə olması baxımından əhəmiyyət kəsb edir. Azərbaycanın qədim dövr maddi-mədəni irsinə aid olan karvansara ermənilər tərəfindən dağıdılıb, indiki dövrdə Əştərək rayonunun Uşi kəndində xarabalığı qalıb.

İrəvan quberniyasının Şörəyel mahalının Ağin rayonunun Çırpılı kəndindəki Çırpılı karvansarası (XVI–XVII əsrlər): Yol kənarındakı kəndə yaxın yaşıllıq ərazidə yerləşən Çırpılı karvansarası Şərq memarlığı üslubunda tikilmişdi, böyük və çox sayda otaqlardan ibarət idi. I Şah Abbasın tikdirdiyi karvansarada əsasən Müsəlman Şərqinin, o cümlədən Azərbaycanın orta əsr memarlığında istifadə edilən nal formalı çatma tağlar tətbiq olunmuşdu. Təxmini olaraq eni 12 metr, uzunluğu 30–35 metr, giriş hissəsinin hündürlüyü 5–6 metr, otaqlar yerləşən bölmənin hündürlüyü isə 3–3,5 metr civarındadır. Çırpılı karvansarası böyük çay və qaya daşları ilə tikilib. Karvansaranın üçtağlı hündür girişi mövcuddur. Geniş giriş bölməsindən sonra başlayan uzun dəhlizin sağ və sol tərəfində otaqlar mövcud olub. Hər tağın bir otaq olduğu güman edilən karvansaranın təxmini olaraq 12 otaqdan ibarət olduğunu söyləmək mümkündür. “İrəvan əyalətinin icmal dəftəri”ndə Şörəyel sancağında (Pəmbək əyaləti ilə birlikdə) 172 kəndin mövcudluğu göstərilir. Nadir şahın dövründə verilən məlumata görə, İrəvan xanlığının tərkibinə daxil olan Şörəyel mahalında 109 kənd mövcud olmuşdur. 1804-cü ildə Şörəyel sultanlığının rus qoşunları tərəfindən işğalından sonra bir neçə kənd istisna olmaqla, qalan bütün kəndlərə Türkiyədən köçürülüb gətirilən ermənilər məskunlaşdırılmışdı. Memarlığı ilə Azərbaycan maddi-mədəni irsini təmsil edən Çırpılı karvansarası kənd və ətraf ərazilərdə azərbaycanlıların yaşadığını, ərazinin azərbaycanlıların məskunlaşdığı yurd yeri olduğunu göstərir. Hazırda karvansaranın hündür girişinin tavan hissəsi yarıdağınıq vəziyyətdədir. Qabaq hissəsindəki kiçik

[14] Üçkilsə rayonu 12 mart 1945-ci ildən etibarən Eçmiədzin rayonu adlandırılıb.

tikilinin üzərinə xaç elementi əlavə olunub. Hər iki abidə ermənilər tərəfindən mənimsənilib, “erməni abidəsi” kimi təqdim olunur.

2.6. Türbələr

Zəngibasar (indiki adı Masis) mahalının Uluxanlı[15] rayonunun Cəfərabad[16] kəndi yaxınlığındakı Pir Hüseyn türbəsi: Zəngibasar mahalında, Zəngibasar rayonunun mərkəzi olan Uluxanlı qəsəbəsindən 14 km şimalda, İrəvan şəhəri yaxınlığında yerləşən Cəfərabad kəndində qırmızı tuf daşdan inşa edilmiş səkkiztilli türbə [24, s. 266-267]. Qaraqoyunlu əmirlərinin sərdabəsi üstündə ucaldılan türbənin hündürlüyü günbəzsiz 12 m olmuşdur. Türbəni yuxarıdan kəmərvari əhatə edən 22 m uzunluğunda ərəbdilli kitabədə Çuxursəd vilayətinin Saatlu (Sakadlı) tayfasından olan əmirləri Pir Hüseyn və atası Əmir Səədin (1411-ci ildə vəfat etmişdir) adları həkk edilmişdir [22]. Başqa sözlə, kitabədə yazılıb ki, bu günbəzli müqəddəs sərdabə böyük hökmdar Pir Budaq xanın və Noyon Yusifin padşahlığında Əmir Səədin oğlu Pir Hüseynin əmri ilə hicri tarixlə 816-cı il rəcəb ayının 15-də tikilmişdir [18, s.66-67]. Türbə Pir Hüseyn türbəsi kimi də tanınırdı. Təmir olunub hal-hazırda “Türkmən abidəsi” kimi təqdim olunur.

Zəngəzur mahalı Mığrı[17] rayonunun Lehvaz kəndində qədim türbə və sərdabə (XVII–XVIII əsrlər): Mığrı rayonunda Lehvaz adlı iki kənd mövcud olub: Birinci Lehvaz, İkinci Lehvaz. Sonralar bu kəndlər birləşdirilərək Lehvaz adlı kənd yaradılıb [3, s.213]. Qədim tarixə malik olan kənddə çay daşı və əhənglə tikilən, üzəri əhənglə suvanmış, türbə və sərdabədən ibarət şərq memarlığı üslubunda tarixi tikili mövcud idi. 1987–1991-ci illərdə azərbaycanlıların kütləvi deportasiyasından sonra müsəlman abidəsi olduğu üçün ermənilər tərəfindən dağıdılan sərdabənin qalıqları günümüzdə qalmaqdadır.

İrəvan quberniyası Üçkilsə qəzasının, sonradan Əştərək (indiki adı Aşratak) rayonunun Təkiyə[18] kəndində müsəlman türbəsi (XVI–XVII əsrlər): Təkiyə kəndindəki müsəlman türbəsi dördkünc formada tikilib və divarı dördkünc mərmər daşlarla örtülüb. Eni 5 metr (təxmini) ölçüsündə olan türbənin hündürlüyü təxminən 4 metrdir. Türbənin 0,80 sm eni, 1,0–2 metr hündürlüyündə dəmir qapısı var. Qapının yuxarısında qırmızı lövhə üstündə, qırmızı hərflərlə ərəb əlifbası ilə yazılar həkk olunub. Türbənin qapısı sökülüb, üzərindəki ərəb yazılı lövhənin sağ tərəfinin kənarından, yuxarı hissədən 10, aşağı hissədən 20 sm (təxmini) bir parça sındırılaraq götürülüb (2012-ci ildə çəkilən fotoya instinadən) Hazırkı dövrdə ermənilər tərəfindən tamamilə dağıdılıb.

İrəvan quberniyasının Alagöz (Araqats) rayonundakı Camışlı[19] kəndində türbə (XV–XVI əsrlər): Alagöz (Araqats) rayonundakı Camışlı kəndi Böyük Camışlı və Kiçik Camışlı kəndlərinin birləşdirilməsi əsasında yaradılıb. Alagöz (Araqats) rayonu təşkil edilənədək, yəni 15 mart 1972-ci ilə kimi Abaran rayonunun inzibati ərazi bölgüsünə daxil edilib. Camışlı kəndindəki köhnə qəbiristanlıq ərazisi qədim türk-oğuz qəbirləri və qəbirüstü abidələri ilə zəngin olub. 1987–1991-ci illərin deportasiyasından sonra ermənilər tərəfindən dağıdılan köhnə qəbiristanlıq ərazisindəki təpədə qədim türbə hazırkı dövr-

[15] 1969-cu il yanvarın 14-də rayon mərkəzi Uluxanlının adı dəyişdirilib Masis adlandırılıb
[16] Cəfərabad kəndinin adı 04.04.1946-cı ildə dəyişdirilib Getaşen adlandırılıb.

də də mövcudluğunu qoruyur. Dairəvi formada olan türbənin 1,5 m (təxmini) genişliyində giriş qapısı və hündür şiş papaq formasında dam örtüyü var. Dam örtüyünün bir neçə yerində (4–5 yerində) örtüyün parçası düşüb, yeri açıq vəziyyətdədir. Camışlı kəndində dağıdılan köhnə qəbiris-tanlıq adlanan ərazidəki təpədə türbə indi də qalıb. Yezidi kürdlərin abidəsi kimi təqdim olunur.

İrəvan quberniyası Yeni Bəyazid qəzasının Basarkeçər rayonunun Qaraiman kəndində türbə - I (XX əsr): Müsəlman türbəsi Qaraiman kəndinin ərazisindəki qədim qəbiristanlıqdakı yüksəklikdə yerləşir. Özünəməxsus memarlıq üslubunda inşa edilən müsəlman türbəsi XX yüzilliyə aiddir. Türbə dəyirmi formada xüsusi kəsilmiş böyük daşlarla tikilib. Türbənin diametri 7,5–8 metr, hündürlüyü 2,5–3 metr, damının hündürlüyü isə 2–2,5 metr civarındadır. Türbənin Qaragözlülər tayfasının tanınmış din xadimləri üçün tayfa nümayəndələri tərəfindən inşa edildiyi ehtimal olunur. Türbə bölgənin məşhur Subatan daşından tikilib. Qaraiman kəndindəki müsəlman türbəsinin arxa dam hissəsi qismən dağılıb. Hazırkı dövrdə yarıdağınıq vəziyyətdədir.

2.7. Mədrəsələr, dini məktəblər

İrəvanın Təpəbaşı məhəlləsində mədrəsə (XVII əsr): Mədrəsə İrəvan şəhərinin Təpəbaşı məhəlləsində yerləşir. Məhəllə yüksək təpəlik ərazidə yerləşdiyi üçün “Təpəbaşı” adlandırılıb. Təpəbaşı məhəlləsi 1930-cu ildə Çar Rusiyası tərəfindən İrəvan xanlığının ləğvindən sonra şəhərdə xanlıq dövrünün mədəni mirasını yaşadan məhəllələrdən biri idi. Böyük elm məbədlərindən olan mədrəsə məhəllənin o dövrdə görkəmli tikililərindən hesab olunurdu. 1828-ci ildə 2537 nəfər azərbaycanlının yaşadığı məhəllədəki mədrəsədə dini təhsillə yanaşı, dünyəvi elmlər də tədris olunurdu. Mədrəsənin qabaq hissəsi Şərq memarlıq üslubunda qırmızı kərpiclə inşa edilib. Qərbi azərbaycanlıların 1987–1991-ci illərdəki sonuncu deportasiyasından sonra ətrafdakı qədimi evlər sökülüb və yerində hündür binalar inşa olunub. Sökülməyən və tağların arası ermənilər tərəfindən hörülən mədrəsə bir müddət bir neçə ailənin yaşadığı yaşayış yerinə çevrilib. Hazırkı dövrdə mədrəsənin bir qismi ermənilər tərəfindən dağıdılıb.

Göyçə mahalının Basarkeçər rayonunda müsəlman din məktəbi (XX əsr): XX yüzilliyin əvvəllərində Basarkeçər rayonunda mollaxana adlanan dini məktəb fəaliyyət göstərirdi. Dini məktəb olan molla məktəbində ərəb əlifbası islam dini və “Qurani-Kərim”i oxumaq öyrədilirdi. İslam dinini öyrədən molla məktəbi ikimərtəbəli idi. Aşağı mərtəbənin qabaq tərəfində dəmir barmaqlıqlı pəncərə və sağ tərəfində qapı qoyulmuşdu. İkinci mərtəbənin sağ tərəfindən ikinci mərtəbəyə çıxmaq üçün məhəccəri taxta olan daş pilləkən hörülmüşdü. Pilləkən evin açıq eyvanına çıxırdı. Ərəb əlifbası islam dini və onun müqəddəs kitabı “Qurani-Kərim”in öyrədilməsi insanların dini biliklərə yiyələnməsi, mənəvi dünyasının zənginləşməsi baxımından əhəmiyyətli idi. İslam dinini öyrədən məktəb 1987–1991-ci illərdə baş verən azərbaycan-

---

[17] 07.11.1995-ci ildə Sünik vilayətinin inzibati ərazisinə daxil edilib.

[18] Təkiyə kəndi 01.12. 1949-cu ildən Bazmaxpyur adlandırılıb.

[19] Alagöz (Araqadz) rayonu təşkil edilənədək, yəni 15 mart 1972-ci ilə kimi Abaran rayonunun inzibati ərazi bölgüsünə daxil olub.

lıların deportasiyasından sonra ermənilər tərəfindən dağıdılıb.

2.8. Qalalar

İrəvan quberniyası Yeni Bəyazid qəzasının Kəvər rayonundakı Ağqala kəndindəki Ağqala qalası (3000–3500 il əvvəl): Ağqala kəndindəki qala albanlar tərəfindən inşa edilmişdir. Yüksək təpəlik ərazidə yerləşən qalanın tikintisində daha çox böyük ağ daşlardan istifadə olunub. Qala divarları eni 1 metr civarında və möhkəm olduğu üçün bu günə qədər gəlib çata bilib. Kəndin adı da ərazidəki albanlara məxsus ağ rəngli qaladan götürülmüşdür. Rayon mərkəzindən 12 km şimal-şərqdə, Göyçə gölünün sahilində yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir [19, s.5]. Ağqala qalasının indiki dövrdə yerləşdiyi ərazidə divar hündürlüyü bəzi yerdə 3–3,5 metr, bəzi yerlərdə 1–2 metr olan xarabalığı qalıb. Ermənilər tərəfindən mənimsənilib, "erməni qalası" kimi təqdim olunur.

Şörəyel mahalının Amasiya rayonunun Gülsehran (Çivinli) kəndi yaxınlığındakı Qalaça dağındakı Qalaça qalası (IX–X əsrlər): Qalaça dağının zirvəsində yerləşir. Qala orta əsrin müdafiə istehkamı olub. Divarları dağılsa da, onun qalıqları, divardakı nəhəng daşlar, qalanın içərisindəki xarabalıqlar orta əsrlərdə onun alınmaz bir qala olduğunu göstərir. [12, s.27] Nəhəng daşlarla tikilən qala xalqı düşmən hücum-larından qoruyan müdafiə istehkam xarakteri daşıyır. Ermənistan tərəfindən azərbaycanlılara məxsus abidə olduğu üçün restavrasiya olunmayıb. Qala uçub dağılsa da, xarabalığı indi də qalıb.

İrəvan quberniyasının Üçkilsə rayonunun Qəmərli[20] kəndində qala (E.ə. VIII – VII əsrlər): Qalanın inşasında böyük qaya daşlarından istifadə edilib. Qəhvəyi, narıncı və sarı daşlar qalanın vizual görünüşünə xüsusi gözəllik qatıb. Qalanın qalan 1 və 1,5 metr yüksəkliyindəki xaraba divarları belə yaşıl ot və güllü-çiçəkli ərazidə möhtəşəm və əzəmətli görünür. Qalanın kimmerlər dövründə tikildiyi ehtimal olunur. Qəmərli kəndi rayon mərkəzindən 8 km cənubda, Böyük Qarasu çayının yanında yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir. 1918-ci ildə kənd ermənilərin hücumuna məruz qalaraq sakinləri olan azərbaycanlılar tarixi-etnik torpaqlarından deportasiya edilmiş və Türkiyədən köçürülən ermənilər burada yerləşdirilmisdir [17, s.153]. Hazırda tikili mövcud deyil. Ermənistanın yerli hakimiyyətinin qərarı ilə tamamilə dağıdılıb.

2.9. Pir, ocaq və ziyarətgahlar

Zəngibasar (indiki adı Masis) mahalının Uluxanlı[22] rayonunun Quluca[24] kəndinin yaxınlığındakı Ağadədə qəbiristanlığında ocaq-günbəz (XIX–XX əsrlər): Qarasu çayının kənarında Ağadədə qəbiristanlığındakı ocaq-günbəz XIX əsrin sonu XX əsrin əvvəllərində qırmızı tuf daşdan tikilib. Oval formalı memarlıq quruluşu olan günbəzin hündür tavanı və ətrafı qırmızı kirəmitlərlə örtülüb. Böyük qapılı günbəz 1987–1991-ci illərdə baş verən azərbaycanlıların kütləvi deportasiyasından sonra ermənilər tərəfindən yandırılıb. Günbəzin 07.08.2013-cü ildə çəkilən videogörüntüsündə üst hissəsinin daha çox zərər gördüyü və sağ yan tərəfin bir hissəsinin uçub, dağılmış vəziyyətdə olduğu görünür. Britaniyalı səyyah-fotoqraf Qurdip Mattu Zəngibasar mahalının Uluxanlı qəsəbəsinin ərazisindəki Ağadədə ziyarətgah-məzarlığında olub. Fotoqrafın 2021-ci ildə çəkdiyi fotolardan [8] məzarlığın, demək olar ki, tamamilə dağıdıldığı müşahidə olunsa da, günbə-

zin görüntüsü fotolarda yer almayıb. Bu isə abidənin tamamilə uçub dağıldığı yönündə fikir bildirməyə əsas verir.

Şörəyel mahalının Ağbaba nahiyəsinin, sonradan Amasiya rayonunun İbiş (Ayçınqılı) kəndi yaxınlığında Bəzirgan piri: Azərbaycan əhalisinin sakral irfan ocaqlarından olan Bəzirgan piri kənd və bölgə əhalisinin ən çox ziyarət etdiyi ocaqlardan idi. El adətinə görə, karvan yolunun Qımı təpəsinin yanından keçib Bəzirgan ziyarətinə çatanda dərhal karvanın sarbanı karvanı dayandırar, adamlar dəvələrin, atların, qatırların yüklərini alar, heyvanları suvarar, onların da dincəlməyinə imkan yaradardılar. Bu vaxt atların kişnərtisi, qatırların səsi, adamların hay-küyü bir-birinə qarışardı. El arasında Bəzirgan ziyarəti sınaqlı ziyarət sayılırdı. Onun yaxınlığında bir-birindən xeyli aralı Dəvə və Tağı bulaqları çağlayırdı. Ziyarətdə hərə bir niyyət eləyib gətirdiyi qurbanı kəsər, oraya nəzir qoyar, yoldan gəlib-keçəni də qurban ətinə qonaq edərdilər. Adətə görə, burada gecə yatar, səhər açılan kimi yollarına davam edərdilər. Görülən yuxu niyyətin çin olub-olmadığını müəyyənləşdirirdi. Azərbaycanlıların 1989-cu ilin yanvar ayında tarixi-etnik torpaqlarından deportasiyasından sonra Bəzirgan pirini ziyarət etmək mümkün olmayıb

2.10. Körpülər

Zəngəzur mahalının Qafan rayonunun Şıxovuz kəndində körpü (XIV əsr): Şıxovuz çayı üzərində yerləşən Şıxovuz körpüsü Azərbaycan və Şərq memarlıq üslubunda tikilib. Təktağlı daş körpü memarlıq baxımından Azərbaycandakı körpülərlə də eynilik təşkil edir. Böyük yonulmuş çay daşından inşa edilən körpünün alt dəyirmi hissəsi mişar daşları ilə oval-dairəvi qaydada hörülmüşdür. Körpünün hündürlüyü 3,5–4 metr, uzunluğu 12–15 metr, eni isə 3–3,5 metr civarındadır. Üst hissəsi dam örtüyü formasındadır. Körpünün sağ tərəfinin kənarında qədim çinar ağacı ucalır və budaqları körpüyə kölgə salır.

Şıxovuz qoruğunda yerləşən Şıxovuz körpüsü ermənilər tərəfindən istifadə olunur və “erməni abidəsi” kimi təqdim edilir.

Nəticə

Tarixi reallıq uğrunda apardığı mübarizəni bu gün Azərbaycan özünün iqtisadi, siyasi gücü ilə yanaşı, Qərbi Azərbaycandakı tarixi irsi, mədəniyyəti, incəsənəti və zəngin mirası ilə elmi, siyasi-ideoloji cəbhədə mənbələrə söykənərək, dəlillərlə və sübutlarla daha da gücləndirmə imkanı əldə edib. 200 ildən artıq bir dövrdə müxtəlif siyasi quruluşlarda ermənilərin etnik təmizləmə və soyqırımları nəticəsində qərbi azərbaycanlılar deportasiya və kütləvi qırğınlar yaşayıblar. Bu dövrdə qərbi azərbaycanlıların ziyalı, intellektual, mədəni, siyasi və hərbi elitası sayılan on minlərlə nümayəndəsi məhv edilib. 1987-1991-ci illərdə isə ermənilər Qərbi Azərbaycandan azərbaycanlıları tamamilə deportasiya ediblər.

Azərbaycanlılar indiki Ermənistan ərazisində e.ə. II yüzillikdən yaşamağa başlayıblar. Qərbi Azərbaycanın ərazisi e.ə.IV əsr - e.705-ci ilə qədər qədim Azərbaycan dövləti Albaniyanın, VIII-IX yüzillərdə Ərəb xilafətinin, XI-XIII yüzillərdə Səlcuqlu dövlətinin, XIII-XIV

---

[20] Üçkilsə rayonu 12 mart 1945-ci ildən etibarən Eçmiədzin rayonu adlandırılıb.
[21] Qəmərli rayonu 04.09.1945-ci ildən Artaşat adlandırılıb.
[22] 1969-cu il yanvarın 14-də rayon mərkəzi Uluxanlının adı dəyişdirilib Masis adlandırılıb.
[23] Qulucan kəndinin adı 31.05.1946-cı ildə adı dəyişdirilib Spandaryan adlandırılıb.

əsrlərdə Böyük Monqol imperiyasının, 1410-1468-ci illərdə Qaraqoyunlu, 1468-1501-ci illərdə Ağqoyunlu, 1501-1736-cı illərdə Səfəvilər dövlətinin, 1736-1747-ci illərdə isə Əfşarlar dövlətinin tərkibində olub. XVI yüzilliyin sonu XVIII yüzilliyin 20-ci illərində Osmanlı-Səfəvi müharibələri zamanı İrəvan bölgəsi iki dəfə Osmanlı imperiyasının tərkibinə qatılıb.

XIX əsrin əvvəllərində regionda siyasi maraqları olan böyük dövlətlərin dəstəyi ilə Qarabağ xanlığı ilə Rusiya arasında imzalanan Kürəkçay (1805), Rusiya və İran dövlətləri arasında bağlanan Gülüstan (1813) və Türkmənçay (1828), daha sonra isə Türkiyə və İran arasında bağlanan Ədirnə (1829) sülh müqavilələrindən sonra Azərbaycan torpaqlarına ermənilərin kütləvi köçürülməsi həyata keçirilib. Ermənilərin Qafqaza, xüsusilə də Qərbi Azərbaycan torpaqlarına köçürülməsi nəticəsində "Erməni vilayəti" (1828-1848) yaradılıb, erməni köçkünlərin sayı mexaniki şəkildə artırılıb. Erməni köçkünlərin sayının artırılması nəticəsində regionda marağı olan böyük dövlətlərin dəstəyi ilə 1918-ci il mayın 28-də ermənilərin milliyyətçi Daşnaksütyun Partiyası və tərəfdarları tərəfindən qədim Azərbaycan torpaqları olan keçmiş İrəvan xanlığı ərazisində tarixdə ilk dəfə olaraq erməni dövləti elan edilib. Sonradan 1921-ci ildə Zəngəzur qəzasının bir hissəsi bolşeviklərin xidməti sayəsində yaradılan Ermənistan SSR-ə verilməklə Naxçıvan Azərbaycandan ayrı salınıb. 1905–1906, 1918–1920, 1948–1953, 1959–1979 və 1987–1991-ci illərdə "monoetnik Ermənistan" dövləti yaratmaq məqsədilə həmin ərazilərdən azərbaycanlıların etnik təmizlənməsi həyata keçirilib.

Ermənilərin tarixi Azərbaycan torpaqlarına köçürülməsi nəticəsində bölgədə əhalinin etnik tərkibi dəyişib, Qafqaz regionu iğtişaş və münaqişə meydanına çevrilib. Soyqırım, deportasiya, eyni zamanda soydaşlarımıza məxsus yaşayış məskənlərinin, tarix və mədəniyyət abidələrinin dağıdılması, tarixi adlarının dəyişdirilməsi, ermənileşdirməyə məruz qoyaraq, bölgədəki azərbaycanlı izlərinin silinməsi cəhdləri, bu mümkün olmadıqda isə həmin maddi-mədəniyyət abidələrinin ya məhv edilməsi, ya da "qədim ermənilərə məxsusluğu" barədə saxta sənədlərin hazırlanması kimi hallar onların mənfur siyasətinin tərkib hissəsi idi. Bu proses XX əsrdə qlobal şəkil alıb və o yerə çatıb ki, bu gün Ermənistanın yerləşdiyi Azərbaycanın tarixi torpağı olan Qərbi Azəbaycanda son siyahıyaalınma və pasportlaşma prosesində bir dənə də olsun müsəlman abidəsi qeydə alınmayıb. Bu fakt tarixi torpaqlarda azərbaycanlı izinin silinməsi tezisini dəstəkləyir.

İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT

Azərbaycan dilində:

1. Azərbaycan toponimlərinin ensiklopedik lüğəti. I cild. (Başsız (Eçmiədzin)). Bakı: Şərq-Qərb, 2007
2. Bayramov İ . Qərbi Azərbaycan: tarixi həqiqətlər və ya Ermənistanın etnik təmizləmə siyasəti. Bakı: Şərq-Qərb, 2012
3. Bayramov İ. Həqiqətin onomastikası: indiki Ermənistan Respublikası ərazisində tarixi-coğrafi adların dəyişdirilməsi və saxtalaşdırılması. /İbrahim Bayramov, Nazim Mustafa; ideya müəllifi. K.Abdulla; redaksiya heyəti: R.Həsənov [və b.]; layihəyə məsul: A.Qurbanov; [buraxıl. məsul R.Kazımov; [Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanası, AR Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Azərbaycan Dillər Universiteti]. Bakı, 2021
4. Budaqov B.Ə. Ermənistanın Azərbaycan mənşəli coğrafi adları. // "Didərginlər" məcmuəsi. Bakı, 1990
5. Dünya azərbaycanlıları: tarix və müasirlik. Bakı, 2009
6. Ələkbərli Ə. Qərbi Azərbaycan. II cild, Zəngibasar, Gərnibasar və Qırxbulaq mahalları. Bakı, 2002
7. Ələkbərli Ə. Qədim türk-oğuz yurdu "Ermənistan". Bakı: Sabah, 1994
8. Ermənilərin viran qoyduğu Ağadədə məzarlığı ilk dəfə görüntüləndi. /26 avqust 2021/ - https://news.milli.az/society/975033.html
9. İrəvan əyalətinin icmal dəftəri / Azərbaycan EA Şərqşünaslıq İnstitutu; araşdırma, tərcümə, qeyd və əlavələrin müəllifi Z.Bünyatov, H.Məmmədov (Qaramanlı). Bakı: Elm, 1996
10. İrəvan xanlığı. / AMEA A.A. Bakıxanov adına Tarix İnsitutu. Bakı, 2010
11. Mustafa N. İrəvan şəhəri. Bakı, 2020
12. Səmimi T. Gülsehran. Bakı: Apostrof, 2009
13. Sərdarov Z. Ən böyük tarixi ədalətsizlik. // "Xalq qəzeti", 26 dekabr 1997-ci il
14. Şərif Ə. Keçmiş günlərdən. Bakı: Yazıçı, 1983

Türk dilində:

15. Qiyasi C., Bozyel İ. Erməni kültür terrörü. Ankara, 1996
16. Guluyeva V. Uluslararası Türkçe Edebiyat Kültür Eğitim Dergisi Sayı: 4/2 2015 s. 814-821, TÜRKİYE (8, s. 172-212; 1, s. 46-64, 89-143, 173- 213, 257-270)

Rus dilində:

17. Коркотян З. Население Советской Армении за последние сто лет (1831–1931). Ереван: Издательство "Мелконян фонд", 1932
18. Неймат М.С. Корпус эпиграфических памятников Азербайджана, т. III, Б., 2001
19. Пагиревь Д. Д. Алфавитный указатель кь пятиверстной картѣ Кавказскаго края, изданія Кавказскаго Военно–Топографическаго Отдѣла. Записки Кавказскаго отдѣла Императорскаго Русскаго Географическаго общества. Книжка XXX. Тифлись: Типографія К.П.Козловскаго, 1913.
20. Парсамян В. История армянского народа 1801-1900 гг. Ереван: Издательство "Айастан", 1972
21. Сафарян С.А. Памятники армянского зодчества. М., 1951

22. Сборник сведений о Кавказе (Списки населенных мест Кавказского края по сведениям 1873 года), Эриванская губерния, 5 т., Тифлис, 1879, № 123
23. Хоренский М. История Армении. М., 1893
24. Шопен И.И. Исторический памятник состояния Армянской области в эпоху его присоединения к Российской империи. СПб: Типография императорский Академии Наук, 1852, стр. 468–469, 878–880.

Erməni dilində:
25. Hakopyan T.X., Məlik-Baxşyan St.T., Barseğyan O.X. Ermənistan və ətraf vilayətlərin toponimlər lüğəti. I c., AD, İrəvan: İrəvan Universiteti, 1986
26. Тер-Григорян Т. И. Неизданные страницы “История Албанской страны” Моисея Каланкатуйского. // журнал “Арарат”, 1897, с.161–162

Afghan Valiyev

MATERIAL AND CULTURAL HERITAGE OF WESTERN AZERBAIJAN

Abstract

Material and cultural monuments, along with toponyms, serve as enduring records of an ethnos' formation within a specific geographical space. Following the deportation of Azerbaijanis from their native lands by Armenians, place names were systematically changed. In recent times, material and cultural monuments have been deliberately and systematically destroyed or appropriated by Armenians, and all toponyms have been Armenianized. This process aims to erase all traces of Azerbaijani presence in these lands. This phenomenon reached a global scale in the 20th century and culminated in the fact that today, in Western Azerbaijan—the historical Azerbaijani land now part of Armenia—not a single Muslim monument was officially registered during recent census and documentation efforts. It is crucial to recognize the religious and spiritual centers of Western Azerbaijan (including mosques, pirs, sanctuaries, and tombstones) that have been occupied and settled by Armenians over the past 200 years as part of the material and cultural heritage of the Muslim-Turkish world. Their distribution by geographical area should be systematically documented in both written and visual forms. The territory currently occupied by the Republic of Armenia is historically Azerbaijani land. Today, Azerbaijan can strengthen its assertion of historical truth by leveraging its economic and political power alongside its rich historical heritage, culture, art, and extensive legacy in Western Azerbaijan—supported by credible sources, evidence, and documentation on scientific, political, and ideological fronts.

Keywords: Western Azerbaijan, material and cultural heritage, historical Azerbaijani monuments, mosque, pir, sanctuaries, tombstones

FƏLSƏFİ VƏ SOSİAL TƏDQİQATLAR

PHILOSOPHICAL AND SOCIAL RESEARCH

ABBASQULU AĞA BAKIXANOVUN "EYN ƏL-MİZAN" TRAKTATI İSLAM BÖLGƏSİNİN KLASSİK MƏNTİQ ƏNƏNƏSİ KONTEKSTİNDƏ

Arzu HACIYEVA,
AMEA Fəlsəfə və Sosiologiya İnstitutu
"Azərbaycan fəlsəfə tarixi" şöbəsinin müdiri,
fəlsəfə elmləri doktoru
(Bakı, Azərbaycan)

E-mail: arzuhaciyeva@mail.ru
ORCID ID: 0000-0001-9078-0327

Xülasə. Böyük Azərbaycan mütəfəkkiri Abbasqulu ağa Bakıxanovun universal irsi poeziya, fəlsəfə, tarix, əxlaq, din, astronomiya, məntiq, dilçilik kimi müxtəlif bilik sahələrini özündə ehtiva edir. Bu, onun intellektinin və elmi maraq dairəsinin genişliyinin və çoxcəhətliliyinin parlaq ifadəsidir. Dünyanın unikal bütöv mənzərəsini canlandırdığı bu irsdə onun hər bir əsərinin öz yeri vardır. "Eyn əl-mizan" XIX əsrin birinci yarısında İslam bölgəsində tərtib edilən, bəlkə də, çox az sayda məntiq traktatlarından biri olub dövrün elmi-mədəni mühitində məntiqi xüsusi elm sahəsi kimi öyrənməyin böyük əhəmiyyətinə diqqəti cəlb edirdi. Təqdim edilən məqalə oxucuları traktatın yaranma tarixçəsi, forma və məzmununun özəllikləri, həmçinin mütəfəkkirin biliyin təbiətinə baxışı və məntiqi təhlilin metodları və rolu haqqında məsələlərə münasibəti ilə tanış edir. Müəllif "Eyn əl-mizan" traktatına Abbasqulu ağa Bakıxanovun intellektual axtarışları və nailiyyətləri kontekstində nəzər salaraq, onun İslam bölgəsinin məntiqi fikir tarixində və ənənəsində yerini müəyyənləşdirməyə çalışır.

Açar sözlər: A.A.Bakıxanov, "Eyn əl-mizan" traktatı, Müsəlman Şərqi, fəlsəfə, məntiq elmi, münəzərə, cədəl, ənənə

Giriş

Məntiq insan təfəkküründün və biliyinin inkişafı üçün daimi aktuallıq və zərurət kəsb edən bir elm sahəsidir. Bu gün məntiq təkcə qayda və nəzəriyyələr toplusundan ibarət deyildir və əhəmiyyəti fəlsəfə və ya riyaziyyatla məhdudlaşmır. O, həyatın elm, təhsil, hüquq, siyasət və süni intellekt, internet, proqramlaşdırma, avtomatlaşdırma kimi texnologiyalar, ünsiyyət də daxil olmaqla bir çox sahələrində alqoritmlərin təhlili, hazırlanması, mürəkkəb problemlərin həll yollarının tapılması, qərarlar qəbul edilməsi üçün qüdrətli vasitədir. Lakin təbiidir ki, müasir məntiq nəzəriyyə və təcrübələri boş yerdə yaranmamışdır və onların təməlində duran keçmiş dövrlərdə, o cümlədən orta əsrlərdə İslam Şərqində yaranmış irsi nəzərə almadan çağdaş məntiqin əsaslarını tam mənasında anlamaq çətindir. Fəxrlə deyə bilərik ki, onların arasında məntiq elminin inkişafında böyük rol oynamış Bəhmənyar və Nəsirəddin Tusi kimi dahi Azərbaycan filosofları da vardır. A.Bakıxanovun “Eyn əl-mizan” əsərinə gəlincə, XIX əsrin I yarısında İslam bölgəsində tərtib edilən, bəlkə də, çox az sayda məntiq traktatlarından biridir. Kiçik həcminə (A.O.Makovelski bu traktatı “oçerk” adlandırır [17, 236]) baxmayaraq, müsəlman klassik məntiq ənənəsinin öyrənilməsi üçün maraqlı və dəyərli mənbədir. Mütəfəkkirin poeziya, fəlsəfə, tarix, əxlaq, din, astronomiya, məntiq, dilçilik kimi müxtəlif bilik sahələrini özündə birləşdirərək dünyanın unikal bütöv mənzərəsini canlandıran universal yaradıcılığında bu əsərin özünəməxsus yeri var. Təqdim etdiyimiz məqalənin məqsədi A.Bakıxanovun bu traktatı — yaranma tarixçəsindən tutmuş müəllifin biliyin təbiətinə baxışında, məntiqi təhlilin metodları və rolu haqqında məsələlərə münasibətində özünü göstərən özəllikləri — ilə tanış etmək, onun ümummüsəlman məntiqi fikir tarixində və ənənəsində yerinə işıq salmaqdır. Ümidvarıq ki, bu araşdırma həm də Abbasqulu ağanın intellektual axtarışlarını və nailiyyətlərini daha dərindən anlamağa kömək edəcək.

1. Müsəlman Şərqində klassik məntiq elminin inkişafı

Şərqin böyük müdrik şəxsiyyəti İbn Sina məntiqi meyar elmi adlandırır, “Danişnamə”ndə “[Elm] tərəzisində çəkilməyən heç bir bilik səhih ola bilməz, və deməli, həqiqi bilik deyil. Buna görə də məntiqi öyrənmək vacibdir” [14, 62] deyirdi. Müsəlman Şərqində fəlsəfəyə, xüsusilə də məntiqə böyük maraq, həvəs bu həqiqəti dərk etməkdən qaynaqlanırdı.

Bölgədə erkən orta əsrlərdən başlayaraq məntiq elmi əhəmiyyətli inkişaf yolu keçmiş və islam sivilizasiyasının qızıl əsri ərzində gözəçarpan yüksəkliyə çatmışdı. Məntiqin fəlsəfənin hissəsi kimi islam mədəniyyətinə inteqrasiyası yunan fəlsəfi mətnlərinin, xüsusilə də Aristotelin əsərlərinin ərəb dilinə tərcümələri ilə tanışlıq, həm də görkəmli müsəlman filosof və alimlərinin əsərləri sayəsində baş vermişdir. Aristotel və Platonun əsərlərinin ilk tərcüməçisi və şərhçilərindən olan “Ərəblərin filosofu” əl-Kindi (801-807) məntiq bilicisi sayılırdı, məntiqə dair xeyli əsərləri var idi. Əl-Farabi (872-950) Aristotelin “Orqanon”una daxil olan məntiqə dair əsərlərinə —“Kateqoriyalar”, “Şərh haqqında”, “Birinci analitika”, “İkinci analitika”, “Sofistlərin təkzibi”nə, həmçinin Porfirinin “İsaqoq”una şərhlər yazmışdı. Maraqlıdır ki, Əl-Farabi məntiqi təkcə idrak nəzəriyyəsi ilə deyil, dilçiliklə də əlaqələndirirdi. Onun nəzərində, məntiqi qrammatikadan fərqləndirən cəhət qrammatikanın bu və ya digər xalqın dili

çərçivəsi ilə məhdudlaşdığı halda, məntiqin təfəkkür dilində bəşəriyyət üçün ümumi qaydalar hazırlamasındadır [17, 240]. Görünür, buna görə həmin dövrdə məntiq bəzi filosoflar üçün, A.Korbenin təbirincə, bir növ "beynəlxalq qrammatikaya" çevrilmişdi [16, 146]. İbn Sina (980-1037) "Şəfa", "Danişnamə" (Bilik kitabı), "Əl-işarat və-t-tənbihat" kimi əsərlərində işləyib hazırladığı orijinal ideyaları ilə məntiq elminin inkişafına böyük töhfələr vermişdir. Əslən Azərbaycandan olan Bəhmənyarın İbn Sinanın məntiqi və fəlsəfi təlimini sistemləşdirən məşhur "Əl-təhsil" əsərinin birinci kitabı məhz məntiqə həsr edilmişdir. Bu sırada Nəsirəddin Tusinin dilimizə tərcümə edilmiş məntiqə dair ərəbcə yazdığı "Şərh əl-İşarat...", "Təcrid əl-məntiq" və farsca yazdığı "Əsas əl-iqtibas" əsərlərinin [4; 5; 6] adlarını qeyd etmək olar. Hətta "Təcrid əl-məntiq" mükəmməlliyinə görə İbn Sinanın "Şəfa"sından sonra ikinci hesab edilir.

Məlumdur ki, filosofları tənqid edən bir çox mütəfəkkirlər belə məntiqə böyük diqqət verirdilər. Əl-Qəzali "məntiqsiz elm yoxdur" deyə "Əl-Qustas əl-müstəqim" ("Düzgün tərəzi"), "Meyar əl-elmi fi-l ən-məntiq" ("Məntiq elminin meyarı"), "Məhəkk ən-nəzər fi-l ən-məntiq" ("Məntiqdə baxışın məhək daşı") traktatlarında məntiqdən islamı və ilahiyyatı qorumaq, müdafiə etmək üçün istifadə edirdi [3, 91-93]. İşraqiliyin banisi Şihabəddin Sührəvərdi də onun kimi, "Hikmat əl-İşraq" əsərini Aristotel və Porfirinin məntiq təliminin izahından başlayıb, mənəvi birlik və vəcdlə qurtarırdı.

Müsəlman Şərqində məntiqin qatı əleyhdarları da var idi. Yunan məntiq elmini müfəssəl öyrənmiş ilahiyyatçı alim, fəqih İbn Teymiyyə məntiqin öyrətdiklərini şəriətin göstərişlərinə tamamilə zidd hesab edir, onu kəskin tənqid atəşinə tuturdu. "Nəqd əl-məntiq" ("Məntiqin tənqidi") əsərində yazırdı ki, məntiqin mahiyyətində "həm həqiqət, həm yalan var. Onda olan həqiqətin böyük, yaxud çox hissəsi lüzumsuzdur. Gərəkli olanı yalnız cüzi hissəsidir. Amma həmin hissəni insan öz fitrəti ilə müstəqil şəkildə də dərk edə bilər. Axmaq ondan (məntiq elmindən) fayda qazanmır, ağıllınınsa ona ehtiyacı yoxdur" [19]. İbn Teymiyyə məntiqin xüsusilə üzərində qərarlaşdığı dialektik prinsiplərində riyakarlıq vasitəsi və islam həqiqətlərinə böyük təhlükə görürdü. Məntiqi öyrənməyi və ondan istifadə etməyi qadağan edən fitvalar verməsi bu səbəbdən idi.

Bununla belə, Qəzalinin timsalında gördüyümüz kimi məntiq İslam regionu filosofları üçün təkcə rasional təfəkkür aləti deyildi, həm də ağıl və dini etiqad arasında harmoniya yaratmaq üçün mühüm vasitə, eyni zamanda elmi tədqiqat üsulu, Quranın və hədislərin, dini mətnlərin təfsiri və şərhi üsulu olmuşdur. Odur ki, Şərq peripatetikləri (məşşailər) nüfuzdan düşdükdən sonra belə məntiq islam təhsil müəssisələrində, mədrəsələrdə fənn kimi tədris edilirdi.

Demək lazımdır ki, islam aləmində məntiqin inkişafı (bu işdə, yeri gəlmişkən, problemi qabardan İbn Teymiyyə kimi məntiq tənqidçilərinin rolu az deyildi) yunan düşüncəsinin Şərqə adaptasiyası ilə bitmirdi. Müsəlman alimləri bu elmi öz orijinal ideyaları ilə zənginləşdirirdilər. Onlar tibb, astronomiya, riyaziyyat, hüquq və başqa elmlərin inkişafı üçün mühüm əhəmiyyət daşıyan induktiv və deduktiv mülahizələrin yeni metodlarını işləyib hazırlayır, nəzəriyyələrində məntiqi strukturlardan istifadə edir, məntiqi metodları hüquqi və teoloji diskussiyalara tətbiq edirdilər. Beləliklə, Müsəlman Şərqinin filosofları təkcə antik irsi qoruyub saxlamadılar, eyni zamanda onu genişləndirdilər və dərinləşdirdilər.

Təbiidir ki, bu prosesdə Aristotel məntiqinin ərəb dilində adekvat terminologiyası yaradıldı. Alimlər bunu Fərabinin müstəsna xidməti hesab edirlər. 2008-ci ildə Çikaqo Universitetində çalışan ərəb əsilli alim Mühammad Mühsin Mehdinin aşkara çıxarıb çapa hazırladığı "Kitab əl-əlfaz əl-müstəmala fi-l-məntiq" ("Məntiqdə istifadə edilən istilahlar") traktatı bunu deməyə əsas verir [18].

Bəs, Şərq peripatetikləri məntiqin vəzifələrini nədə görür, onu necə təsvir edirdilər? Bəhmənyar "Əl-Təhsil" əsərində məntiqə belə tərif verir: "Məntiq elə bir nəzəri sənətdir ki, o, kamil tərif (əl-həd) adlanan tərifin və eləcə də apodiktika adlanan düzgün sillogizmin nə kimi forma və materialdan təşəkkül tapdığını öyrənir. Bu elm habelə qeyri-kamil tərif (əl-rəsm) adlanan inandırıcı tərifin və inandırıcı sillogizmin hansı forma və materialdan təşəkkül tapdığını öyrənir. Məlum olduğu kimi, inandırıcı sillogizm güclü və onun çıxardığı əqli nəticə təsdiqedici olduqda topika (əl-cədəl) adlanır, həmin sillogizm zəif olub, yalnız ehtimal bilik verdikdə isə o, ritorika (əl-qiyas əl-xitabi) adlanır.

Məntiq, həmçinin yalan tərifin (əl həd əl-fasid) və sofizm adlanan düzgün olmayan sillogizmin (əl-qiyas əl-suestai) və heç zaman nəticə çıxmayan, yalnız insanı qızışdırıb onda hər hansı bir işə rəğbət və ya nifrətoyadıcı təsəvvür yaradan və poetika (şeir) adlanan sillogizmin də nə kimi forma və materiyadan təşəkkül tapdığını öyrənir. Məntiq elminin verdiyi fayda bundan ibarətdir" [7, 38].

Q.Sadıxovun "Məntiq" dərsliyindən götürdüyümüz bu iqtibasın Azərbaycan dilinə tərcüməsi (təəssüf ki, dərslikdə tərcümənin müəllifi göstərilmir) ilə Saqadeyevin rus dilinə tərcüməsi [12, 20] arasında müəyyən fərqlər olmasına baxmayaraq, bunlar mənaya elə də böyük təsir göstərmir. Dərslikdə düzgün sillogizm apodiktika, Saqadeyevdə "dəlil" adlandırılır. Apodiktikanın qeyd-şərtsiz düzgün, tam səhih bilik, apodiktik dəlillərin qurulmasının və reallaşmasının xüsusi növü olduğunu nəzərə alsaq, burada elə bir uyğunsuzluq görünmür. Əl-cədəlin birincidə topika, ikincidə "dialektik olan" kimi tərcümə edilməsi də eləcə. Çünki Aristoteldə topos dialektik sillogizmin elementidir. Sadəcə, dərslikdəki tərcümə ona görə daha xoş gəlir ki, əsas terminlərin yanında ərəb variantları verilir və müqayisəyə imkan yaradır.

2. "Eyn əl-mizan": A.Bakıxanovun məntiqi traktatının tarixçəsi və özəlliyi

İslam aləmində fəlsəfə və din sahəsində zamanla əhəmiyyətli transformasiyalar baş versə də, məntiq bir elm və fənn kimi XIX əsrdə də orta əsrlərin böyük mütəfəkkirlərinin irsinə əsaslanır, klassik ənənənin təsiri altında olub, onu davam etdirirdi. A.A.Bakıxanovun h.t. ilə 1251-ci ildə (1835/36-cı illər) ərəbcə yazdığı "Eyn əl-mizan" traktatı məhz Müsəlman Şərqi klassik məntiq ənənəsi zəminində istinad edirdi. "Eyn əl-mizan", onun "Gülüstani-İrəm"in sonunda öz tərcümeyi-halına əlavə etdiyi əsərlərinin siyahısında 5-ci sırada durur. Müəllif əsərinin məzmunu haqqında belə məlumat verir: "Bu əsər ərəb dilində bir müqəddəmə, iki fəsil və bir xatəmədən ibarət olub, məntiq elmini təşkil edən ləfzin təqsimatından, kəlmənin dəlalət yollarından, təsəvvür və təsdiqin başlanğıc və məqsədlərindən bəhs edir. Münazərə elmi və onun adabını *(yəni daha sadə dillə desək, mübahisə, yaxud disput elmi və onun qaydalarını* — **A.H.**) izah edir" [12, 167].

İndiyədək bizə traktatın Leninqrad (indi Sankt-Peterburq) Dövlət Universitetinin kitabxanasının Şərq şöbəsində saxlanılan yeganə bir əlyazma nüsxəsi

məlumdur. Onu professor Ənvər Əhmədov 1963-cü ildə aşkar etmişdir. (Bu barədə onun "Bakinski raboçiy" qəzetində "Dəyərli tapıntı" başlıqlı bir yazısı da dərc edilmişdi) [9]. Əslində üzü Qubada köçürülmüş əlyazmanın Leninqradda tapılması təsadüfi deyildi. Müəllif onu avtoqrafı ilə görkəmli şərqşünas alim Mirzə Kazımbəyə göndərmiş, üzərində bu sözləri yazmışdı: "Miskin müəllifdən Kazımbəy-zadə adı ilə tanınan əziz, ağıllı, şan-şöhrətli, möhtərəm alim, cənab Mirzə-Məhəmməd-Əliyə hədiyyədir. 20.5.1256, Quba". H.t. ilə 1256-cı il rəbi əl-əvvəl ayının 20-si Qriqoryan təqvimi ilə 1840-cı ilin 19 mayına təsadüf edir. O zaman Mirzə Kazımbəy Kazan Universitetinin professoru idi. Sankt-Peterburq Universitetinə dəvət alanda, görünür, Abbasqulu ağanın hədiyyəsini də özü ilə Peterburqa gətirmiş, sonradan Müsəlman Şərqinin tarixinə, mədəniyyətinə dair bir çox qiymətli əlyazmalarla birlikdə bu əsəri də universitetə bağışlamış və xoşbəxtlikdən, o, it-bata düşməmişdir.

Əsərin elə həmin müəllif nüsxəsindən Z.C.Məmmədov tərəfindən dilimizə edilmiş tərcüməsi 1971-ci ildə çapdan çıxmışdır [1]. Məqaləmdə mən A.V.Saqadeyevin 1983-cü ildə Bakıda nəşr edilmiş rus dilinə tərcüməsinə [11, 117-130] istinad etmişəm. Əlamətdardır ki, A.Saqadeyevin Bəhmənyarın fundamental "Əl-Təhsil (İdrak)" əsərinin "Məntiq haqqında" adlanan birinci kitabının rus dilinə tərcüməsi də 1983-cü ildə işıq üzü görüb [12].

Bakıxanov qısa müqəddiməsinə Şərq ənənəsi üzrə Allaha müraciətlə başlayır: insana ağıl bəxş edərək onu dünyada seçib ayırana (Allaha) "həmd olsun" deyir, ağılın dəlillərinin hökmünə ciddi riayət edənlərə xeyir-dua verir. Görəcəyi işi başa çatdırması üçün Allahdan kömək diləyir.

Buradaca məntiqə dair traktatını Amsar kəndində "həqiqət və onun sirlərinə aşina olan xeyirxah kişilərlə birlikdə" tərtib etdiyini bildirir, "xeyirxah kişilər" haqqında xatırlatma əsərin bir növ, müasir dillə desək, "redkollegiyasının" olduğuna, traktatda irəli sürülən müddəaların ilkin müzakirədən keçdiyinə dəlalət edir.

A.A.Bakıxanov müsəlman aləmində məntiq elminə münasibətin birmənalı olmadığından, yəni Qəzali kimi "məntiqsiz elm olmaz" deyən mütəfəkkirlərlə yanaşı İbn Teymiyyə kimi məntiqi şəriətə rəxnə gətirdiyinə, dinsizliyə aparıb çıxartdığına görə qadağan etmək istəyən ilahiyyatçı alimlərdən xəbərdar idi. O, birincilərə daha yaxın idi, amma kiminsə nəzərində dinsiz kimi də görünmək istəmirdi. Nə qədər qəribə təsir bağışlasa da, vəziyyətdən çıxış yolunu o, kitabının həcmində tapır. Əslində məntiq haqqında geniş, ətraflı yazılan kitabların allahsızlıq təlqin etdiyi, hədsiz müxtəsər olanların isə savadlı insanlara fayda vermədiyi qənaətinə alim öz şəxsi təcrübəsinə, müşahidələrinə istinadən gəlmişdi. Onun fikrincə, məhz bu yolla, yəni əsərin həcm (əlbəttə, mündərəcəni də nəzərdə tuturdu) ölçüsü nöqteyi-nəzərindən qızıl orta prinsipinə əməl etməklə həmin iki xətadan qaçmaq mümkündür. Nə çox yığcam, nə də çox geniş olmasını o, özünün "Eyn əl-mizan" əsərinin məziyyəti kimi təqdim edir. Beləliklə, Bakıxanovun traktatı yazmaqda məqsədi məntiqin bütün mürəkkəb məsələlərinə təfərrüatları ilə nüfuz etmək deyildi (bu zaman, onun fikrincə, din nöqteyi-nəzərindən sapmalara yol vermək mümkün idi), məntiqin təhsilli insanlar üçün faydasını anlayaraq, onun əsas başlanğıcları haqqında bilik vermək, fikir-mülahizələri sübut etmək yollarının elmi əsasları ilə tanış etmək idi.

Bakıxanov əsərini "Eyn əl-mizan", yəni ərəbcədən tərcümədə hərfən

“Tərəzinin gözü” adlandırmışdır. “Eyn” sözünün “göz”dən başqa həm də “zat, mahiyyət” mənalarını daşıdığını nəzərə alsaq, “Tərəzinin mahiyyəti” də demək olar. Azərbaycan və rus dillərinə (“Существо весов [разума]”) elə belə də tərcümə edilmişdir. "Mizan" sözünə gəlincə, o da çoxmənalı ərəb sözü olub, ölçü, meyar, tərəzi, balans, tarazlıq mənalarını ifadə edir. Müsəlman məntiqçiləri əsərlərinə ad qoyanda “meyar”, “məhəkk” sözləri ilə yanaşı, “mizan” (tərəzi) sözündən də istifadə edirdilər, çünki o, fəlsəfə və məntiq kontekstinə özündə tarazlıq, ədalət və dəqiq ölçü ideyasını, yəni dəlilləri ölçüb-biçməyə, həqiqəti yalandan seçib ayırmağa və düzgün nəticələrə gəlməyə kömək edən vasitə və metodları təcəssüm edən termin kimi daxil olmuşdu. Təsadüfi deyil ki, əl-Qəzali dostunun suallarına cavab formasında yazdığı “Düzgün tərəzi” traktatında məntiqin ən əsas prinsipinin Quranda peyğəmbərin dili ilə deyilən “Düzgün tərəzi ilə çəkin” (XVII, 35) ayəsində ifadə olunduğunu göstərmişdir. O, tərəzi (mizan) haqqında başqa ayələrdə, o cümlədən “Göyü o ucaltdı, tərəzini … O qoydu! Ona görə ki, çəkidə həddi aşmayasınız… Tərəzini düz tutun, çəkini əksiltməyin!” (LV, 7-9) ayəsində "tərəzi" sözünün məcazi mənada işləndiyini, burada söhbətin buğda, arpa, yaxud qızıl-gümüş çəkən “dirhəmlik ya onluq tərəzi”dən deyil, mənəvi anlayışların dəyərləndirilməsindən getdiyini bildirir [13, 316]. Digər müsəlman filosofları kimi, Əl-Qəzali üçün də “mizan”, “meyar” sözləri məntiqin, sillogizmin özünəməxsus sinonimləri idi. Təsadüfi deyil ki, Bakıxanov məntiq elminin əsasları, prinsipləri, sillogizmlər haqqında məlumat verən traktatında “məntiq” sözünü ümumiyyətlə işlətmir, məntiq haqqında əsərləri “tərəzi (mizan) haqqında kitablar” kimi təqdim edir.

3. "Eyn əl-mizan”ın məzmunu. Sillogizmin dördüncü fiquru

A.A.Bakıxanovun “Eyn əl-mizan”da giriş və nəticə hissələri ümumiləşdirmə səciyyəsi daşımayıb, konkret mövzunun izahına həsr olunub. O, məntiqi öyrətməyə “İşarənin (dəlalət) izahı və nitqin təsnifatı” adlandırdığı girişlə başlayır.

İşarəni o, belə izah edir: işarə “predmetin varlığında ondan ibarətdir ki, onun haqqında bilikdən zəruri olaraq başqa bir predmet haqqında bilik meydana gəlir. Birincisi işarə edən, ikinci işarə edilən adlanır”. İşarələr nitqə aid olan və nitqə aid olmayanlara bölünür. Nitqə aid olan işarə də öz növbəsində üç cür : “ya şərti (məsələn, “insan” ağıllı canlıya (heyvana) işarə edəndə), ya təbii (məsələn, “uf-uf” demək ürək ağrısına dəlalət edəndə), ya ağılla (məsələn, divarın arxasından eşitdiyimiz sözlər danışanın mövcudluğuna dəlalət edəndə) olur”. Nitqə aid olmayan işarələri isə təbii, mücərrəd və şərti olmaqla üç yerə ayıraraq izah edən müəllif əsərdə söhbətin yalnız şərti nitq işarəsindən, yəni söz və anlayışdan gedəcəyini bildirir. Bunların da: "dəlalat əl mütabika", "dalalat əl-təcəzzi" və "dəlalət əl-iltizam" adlanan üç növünü göstərir: birincidə işarə öz mənasına birbaşa və tam uyğun gəlir, ikincidə işarə öz mənasının hissəsini göstərir, üçüncüdə işarə öz mənasına dolayısı ilə, assosiasiyalar və ya məntiqi əlaqələr vasitəsilə dəlalət edir.

Sonra Bakıxanov sözlərin, yaxud deyimin təsnifatına keçir, sözün sadə və mürəkkəb olduğunu bildirir, sadə sözün tək və ümumi formasını fərqləndirir. Göstərir ki, anlayış məzmununun çoxluğa aidiyyətini istisna edən təkdən (məsələn, “Zeyd”, “Əmr”) fərqli olaraq, ümumi sadə söz (məsələn, “heyvan”, “insan”) bunu istisna etmir. Öz növbəsində o da mahiyyətli və aksidental olur.

Şərq klassik məntiq elmi ənənəsi məcrasında girişin ardınca gələn iki fəsildən birincisi təsəvvürlərə, ikincisi təsdiqə həsr olunub. Başqa sözlə, İbn Sinanın sadə izahına müraciət etsək, burada söhbət idrakın iki cinsindən— ərəblərin "təsəvvür" və "təsdiq" adlandırdıqları anlayış və hökmdən gedir [14, 61].

Bəhmənyar öz "Məntiq"ini "Hər bilik ya təsəvvürdür, ya da təsdiq" sözləri ilə başlayır və onları belə izah edirdi: "Təsəvvür — tərif, yaxud təsvirə bənzər bir şeyin köməyi ilə əldə edilən ilkin bilikdir... Təsdiq isə sillogizmin, yaxud da analogiya və induksiyaya bənzər bir şeyin köməyi ilə əldə edilir". Bakıxanovun izahı Bəhmənyarınkından mahiyyətcə olmasa da, yanaşma və ifadə formasına görə fərqlənir. Sadə təsəvvür, onun nəzərində "tək predmetin formasının hər hansı bir mühakimə yürütmədən əvvəl ağılda meydana gəlməsi", təsdiq isə "iki sadə mülahizənin (hökmün) bir-biri ilə münasibətə girib-girmədiyini güman etməkdir".

Əsərin "Sadə təsəvvür haqqında" adlanan birinci fəslində təsəvvürün, predmetin forması, yaxud obrazının beş ən ümumi əlamətə (universaliyə), məhz cins, növ, fərqləndirici əlamət, xüsusi əlamət və ümumi aksidensiyaya görə yarandığını qeyd edir. Yadımıza salaq ki, Bəhmənyar "Təsəvvür — tərif, yaxud təsvirə bənzər bir şeyin köməyi ilə əldə edilən ilkin bilikdir" deyirdi. Bakıxanov bu "ilkin biliyi", yəni təsəvvürü "izahedici ifadə" adlandırır və göstərir ki, "bu ifadə" predmeti bəzi əlamətlərinə görə ona aidiyyəti olan predmetlərdən ayırır, tərifə (əl-həddə) və təsvirə (əl-rəsm) səhihlik verir. Tərif predmetı başqalarından mahiyyət əlamətlərinə görə seçib ayırırsa, təsvir aksidental əlamətlərinə görə ayırır. Hər ikisi: həm tərif, həm də təsvir tam və natamam olur.

İkinci fəsil "Təsdiq haqqında"dır. Beş universalini (cins, növ, fərqləndirici əlamət, xüsusi əlamət, ümumi aksidensiya) təsəvvürün başlanğıcları hesab edən Bakıxanov hökmlər və onların tərtib qaydalarını "Təsdiqin başlanğıcları" kimi təqdim edir. Hökmü isə "onu (hökmü) söyləyənin doğru və səhv olduğunu deməyə bizə imkan verən kəlam" tərifi ilə ifadə edir. Daha sonra hökmün növləri: məhz qəti və şərti hökmlər və onların formaları, sadə, modal, mütləq hökmlər haqqında məlumat verir.

"Modal hökm"ün izahı, zənnimcə, Şərq peripatetiklərinin ideyalarının mütəfəkkirin metafizik baxışlarına təsiri haqqında təsəvvür yaratdığı üçün xüsusi maraq kəsb edir. Xatırladaq ki, Bəhmənyar "modallığı" "əlaqənin *(subyekt və predikat arasındakı əlaqəni nəzərdə tutur* — **A.H**.) möhkəm və zəif xarakterini göstərdiyini və anlamının "materiya", yaxud "məzmun" mənasına uyğun gəlsə də aralarında fərq olduğunu bildirirdi. Belə ki, məzmun predmetin özü ilə bağlıdırsa, modallıq nitqlə əlaqədardır [11, 77]. O göstərir ki, hər bir hökm məzmundur və predikat istər təsdiqedici, istərsə də inkaredici olsun, subyektə üç münasibətdə — ya zərurət, ya mümkünlük, ya da qeyri-mümkünlük münasibətində olur [11, 77].

Bakıxanov da bunun kimi "modal hökmə" onun iki hissəsi *(yəni subyekti və predikatı* — **A.H**.) arasında münasibətin zərurət, mümkünlük, qeyri-mümkünlük və başqa bu kimi modallıqlardan biri ilə şərtləndiyi hökm tərifini verir və hər üç münasibətə misal gətirir: "Zeyd bədən olmalıdır" (zərurət), "Zeyd alim ola bilər" (mümkünlük), "Zeyd şah ola bilməz" (qeyri-mümkünlük). O yazır: "Vacib odur ki, mövcudluğu labüddür. Mümkün odur ki, ona münasibətdə mövcudluq və qeyri-mövcudluq (yoxluq) eyni qüvvədədir. Qeyri-mümkün odur ki, yalnız ağılda mövcudiyyətə malikdir" [11, 123]. Bununla belə, Bakıxanov vurğulayır ki, bu fərqləndirmə yalnız zahiri əlamətləri

nəzərə alır. Gerçəkdə isə yalnız vacib (olan) mövcuddur:

"Vacib ya özünün sayəsində (Xaliq belədir), ya başqasının sayəsində (dünya belədir) mövcuddur. Birinci odur ki, mövcudluğu vacibdir, çünki mövcudluğu özündən asılıdır. İkinci isə odur ki, mövcudluğu zəruri olması səbəbinə birincidən asılıdır, əks təqdirdə, o, lüzumsuz olardı. Bu sonuncu (yəni başqasına görə zəruri olan) öz seçim azadlığı olan yaradıcısına nisbətdə mümkün adlanır...

Qeyri-mümkünlük isə abstrakt konstruksiyadır və mövcudluğu izah etmək üçün lazımdır və zərurinin hər iki növünə ziddir". Bakıxanov iki tərəfi arasında modallıq əlamətlərinin olmadığı assertorik hökmü isə tam hökm kimi səciyyələndirir. Məsələn, "Zeyd mirzədir".

Bu yerdə Bakıxanovla Bəhmənyarın eyni məsələləri işıqlandırmasındakı fərqlərə diqqət vermək istərdim. Əgər Bakıxanov prinsip etibarilə zərurini və mümkünü vacib hesab edir, qeyri-mümkünü zəruriyə zidd bilirsə, Bəhmənyar, əksinə qeyri-mümkünü "yoxluğu zəruri" adlandırır və zərurət haqqında dediklərinin hamısını q"eyri-mümkünə aid etmək olar" deyə bildirir [12, 82]. Bu cəhətdən zəruri ilə mümkünsüz arasında bərabərlik işarəsi qoyur. Mümkün olana gəlincə, onun bir neçə mənası olduğunu göstərir və onlardan yalnız birində mümkünün zərurini ehtiva etdiyini bildirir. O, mümkünlük baxımından şeylərin həmişə zəruri olan, zəruri olmayan, mümkün olan və mümkün olmayana bölündüyünü qeyd edir [12, 84]. Saqadeyev yada salır ki, "İbn Sina "Əl-işarat va-t-tanbihat" əsərində mümkünlük nöqteyi-nəzərindən xüsusi mənada şeyləri zəruri olanlara, müəyyən zəruriliyə malik mümkünsüzə və ümumiyyətlə zərurilikdən məhrum olanlara bölür" [12, 280]. Buradan göründüyü kimi, Bakıxanov modallıq məsələsində təfərrüatlara varmır.

O, hökmlərin təsnifatını verdikdən sonra, onların təyinatının izahına keçir. Hökmlərdən sillogizmlər tərtib etmək üçün istifadə edildiyini bildirib, sillogizmi hökmlərdən ibarət olub onların qəbul edildiyi zaman mahiyyətlərinə görə labüd olaraq başqa mülahizənin yaranmasına səbəb olan mülahizə tərifi verir. Sillogizmin iki cür: birləşdirici və istisnaedici olduğunu qeyd edib, onu təşkil edən hissələrlə tanış edir: nəticənin subyektinin "kiçik termin", predikatının "böyük termin", kiçik termini özündə ehtiva edən hökmün "kiçik müqəddimə", böyük termini özündə ehtiva edən hökmün "böyük müqəddimə", sillogizmin hər iki müqəddəməsində təkrar olunan terminin "orta termin", sillogizmin hissəsinin "müqəddimə", onun kiçik və böyük müqəddimələrinin əlaqəsindən yaranan formaların "fiqurlar" (ərəbcə "şəkl") adlandığını bildirir. 4 fiqurun olduğunu deyib, hər birinin əlamətini yığcam şəkildə və misalla təsvir edir: Birinci fiqurda orta termin kiçik müqəddimədə predikat, böyük müqəddimədə subyekt; ikinci fiqurda orta termin hər iki müqəddimədə predikat; üçüncü fiqurda hər iki müqəddimədə subyekt olur, dördüncü fiqur isə birinci fiqura əksdir.

Əslində, yuxarıda göstərilən hissə İbn Sinanın "Danişnamə"sindəki müvafiq hissə ilə, demək olar ki, tamamilə üst-üstə düşür (Müqayisə et: [14, 77-78]) Lakin fərq də var. İbn Sina Aristotel kimi, sillogizmin 3 fiqurundan danışır. Bakıxanov isə 4-cü fiquru da artırır, onun birinci fiqura əks olduğunu deyir. Görünür, "əks" deyərkən orta terminin kiçik müqəddimədə subyekt, böyük müqəddimədə predikat olduğunu nəzərə çatdırmaq istəmişdir, çünki əyanilik üçün gətirdiyi nümunədə belədir: "Hər bir insan heyvandır. Hər bir ağıllı insandır. Deməli, bəzi heyvanlar ağıllıdır".

Daha bir fərq də diqqəti cəlb edir: əgər İbn Sina birinci fiquru təsvir

edərkən, orta terminin müqəddimələrdən birində predikat, digərində subyekt olduğunu deyirsə, Bakıxanov "Birinci fiqurda orta termin, kiçik müqəddimədə predikat, böyük müqəddimədə subyekt" olduğunu deyib, dördüncü fiqur üçün yer qoyur, yəni müqəddimələrdə orta terminin məzmununu (subyekt, yoxsa predikat olduğunu) dəqiqləşdirir. Dördüncü fiqur haqqında qeydi Bakıxanovun başqa mənbələrdən də bəhrələndiyinə dəlalət edir.

Məlum olduğu kimi, dördüncü füqur Aristoteldə yoxdur. Aristotelin ardınca Fərabi, İbn Sina, Bəhmənyar da dördüncü fiquru təsvir etməyiblər. Əslində onların dördüncünü müstəqil fiqur kimi ayırmamalarının səbəbi onu təbilikdən uzaq, heç bir idrakı əhəmiyyəti olmayan süni qurama hesab etmələri ilə bağlı idi. Həqiqətən də, praktikada dördüncü fiqur üzərində qurulan əqli nəticəyə nadir hallarda rast gəlinir. Çox vaxt dördüncü fiquru birinciyə müncər edirlər. İbn Sinanın birinci fiqurun orta terminin müqəddimələrdən birində predikat, digərində subyekt olduğunu qeyd etdiyi kimi.

Deyilənə görə, dördüncü fiquru ilk dəfə Qalen təklif etmişdir, halbuki bu fikri təkzib edənlər də var. Aydındır ki, Bakıxanov dördüncü fiqur haqqında məlumatı yunan dilini bilmədiyindən Qalendən və hər hansı başqa yunan müəlliflərindən deyil, hansısa digər Şərq mənbələrindən əxz etməli idi. Bəlkə də, bu müəllif "...dördüncü fiqurun da elə yararlı cəhəti vardır ki, bir başqası onu (dördüncünü) əvəz edə bilməz" [4, 286] deyə sillogizmin dördüncü fiqurunu seçib ayıran Nəsirəddin Tusi olmuşdur. O, "qabaqkı alimlərin" "üç fiquru ortaya çıxarıb" birinci fiqurun iki qismə bölüməsini nəzərə almadıqları üçün dördüncü fiquru ortaya çıxarmadıqlarını bildirərək yazır: "Onlar iki başqa fiquru birinci fiqura dönmək üçün, iki müqəddimədən birinin çevrilməsi ilə izah etmək istəsəydilər və görsəydilər ki, dördüncü fiqurun izah üçün iki müqəddimənin ikisinin də çevrilməsinə ehtiyac vardır, hökm verərdilər ki, o, daha çətin və mürəkkəb sübutlara aiddir" [4, 285-286]. N.Tusi dördüncü fiqura əhəmiyyət versə də, "Şərh "əl-işarat..."da bu fiqurdan ayrıca danışmır, çünki İbn Sina "Əl-İşarat və-t tənbihat..." əsərində həmin fiquru qeyd etməmişdi [4, 317]. Amma "Əsas əl-iqtibas" əsərində fiqurlardan dördündən də bəhs edir [10, 28]. Tusi sillogizmlərin şəkillərinin təsvirini verir:

I fiqur II fiqur III fiqur IV fiqur
S – M S – M M – S M – S
M – P P – M M – P P – M
S – P S – P S – P S – P

Burada M — hər iki müqəddimədə olub, nəticəyə daxil olmayan orta termin; S — kiçik termin: nəticənin subyekti; P — böyük termin: nəticənin predikatıdır.

Tusi bütün fiqurların nəticəyə gətirib çıxarması üçün müəyyən şərtlərə, dördüncü fiqur üçün hətta əlavə şərtlərə əməl olunmasını bildirib, məşhur "Kitab əl-mötəbər"in müəllifi Əbülbərəkət əl-Bağdadinin (1080-1165) bu şərtlərin asan qavranılması üçün onları xətlərlə təsvir etdiyini xatırladır. Göstərir ki, müqəddimələrdə və nəticələrdə bütün bu şərtlərə əməl edildiyi təqdirdə sadə qəti hökmlərin 16 mümkün variantı yaranır ki, onlardan 11-i nəticəsiz qalır, digər 5-i dördüncü fiqurun qanuni modusu olur. Tusi bu modusları ayrı-ayrılıqda nəticəliliyi baxımından səciyyələndirir [10, 30].

Deyilənlər Bakıxanovun dördüncü fiqur haqqında Tusinin, yaxud əl-Bağdadinin, bəlkə onların əsərlərindən istifadə edən başqa məntiqçilərin kitablarından bəhrələndiyindən xəbər verir. O da sillogizmin birinci fiqurunun ən təbii, dördüncünün ən qeyri-təbii, o

biri fiqurların isə bunlar arasında orta mövqe tutduğunu, həmçinin əsas olan birinci fiqurda nəticənin öz-özlüyündə hamıya bəlli olduğundan o biri fiqurların birinciyə müncər edilə bildiyini qeyd edir. O özünün "uzunçuluq etməmək" prinsipinə uyğun olaraq, silloqizmin birinci fiqurunun dörd modusu haqqında məlumat verməklə kifayətlənir. İbn Sina kimi digər iki, Tusi kimi dördüncü də daxil olmaqla digər üç fiqurun modusla-rından danışmır. Qısa şəkildə istisnaedici sillogizmlərə toxunub, sillogizmlərin formasına görə fərqlənən növlərindən məzmunca fərqlənən növlərinə keçir. Beş belə növ olduğunu qeyd edib, həmin apodikdik, "dialektik", ritorik, poetik və sofistik növlərin hər birinin mənasını yığcam şəkildə izah edir. Apodiktik sillogizmin səhih nəticə çıxarmaq üçün səhih müqəddimələrdən ibarət olduğunu, "dialektik" sillogizmdə məzmunun mümkün və bəlli müddəalardan, ritorik sillogizmdə məqbul və ehtimal xarakterli, poetik sillogizmdə təxəyyülə təsir edib onun qəlbini sevindirə, yaxud məyus edə bilən, sofistik sillogizmdə isə xəyali və yanlış müqəddimələrdən təşkil edildiyini göstərir. Onların hər birindən gətirdiyi nümunələr sillogizmlərin məzmun fərqlərini daha rahat qavramağa kömək edir.

4. Münəzərə mübahisədə həqiqətin aşkara çıxarılması sənəti kimi

Şərq peripatetiklərinin məntiq əsərləri, adətən əqli nəticələrdəki səhvlərin izahı ilə yekunlaşdırılır. Elə İbn Sinanı götürsək, o, "Danişnamə"sində məntiq kitabını sübutun (dəlilin) əsas prinsipləri, sübuti sillogizmlər, elmi sualların növləri, səhvlərin qarşısını almaq üçün məsləhətlərlə, "Əl-işarat"da sübuti elmlərin, sofistik sillogizmlərin şərhi ilə və s. tamamlayır. Lakin Bakıxanovun məntiq traktatı "Eyn əl-mizan"ın nəticə hissəsi fərqli olub, "Münəzərə və onun qaydaları"ndan bəhs edir. Görünür, o, məntiqi öyrənməyin müzakirə, mübahisə zamanı özünü göstərən praktiki əhəmiyyətini xüsusi olaraq nəzərə çatdırmaq istəyərək, münəzərəni məntiq elminin vacib hissəsi kimi təqdim edir.

Kökü "baxmaq, düşünmək" anlamlarına gələn "nəzər" sözündən törəmiş münəzərə "birlikdə nəzər salmaq, birlikdə düşünmək" kimi başa düşülür, dilimizə "mübahisə, müzakirə, diskussiya, disput" sözləri ilə tərcümə edilir. Bir istilah kimi isə o, həqiqəti üzə çıxarmaq məqsədilə müzakirə, mübahisə etməyin xüsusi metod və qaydalarını araşdıran və öyrədən elmi fənnin adıdır. A.V. Saqadeyev əsəri rus dilinə çevirərkən, "münəzərə"nin qarşılığı kimi "eristika" sözündən istifadə etmişdir. Halbuki azərbaycanca "disput" variantı daha dürüstdür. Doğrudur, eristika da mübahisə sənətidir, lakin Aristotel demişkən, "vicdansız yollarla mübahisə sənətidir". Sofistlərin işləyib hazırladıqları eristikanın diskussiyadan, yaxud disputdan fərqi ondadır ki, istənilən mübahisədə səhv, haqsız olsan belə doğruluğunu sübut etməyi öyrədir, müdafiə etdiyin mülahizənin doğru olub-olmamasından asılı olmayaraq rəqibin dəlillərini təkzib etmək bacarığını nəzərdə tutur. Əlbəttə, eristika sübut-dəlillərlə əsaslandırma və inandırmanın güclü aləti olan məntiqdən, onun qanunlarından, sillogizmlərdən istifadə edir. Lakin məntiqi prinsiplərlə məhdudlaşmır, ona həmçinin rəqibinə və ya iştirakçılara təsir etmək üçün psixoloji, ritorik və stilistik üsullardan, auditoriyanın sosio-mədəni xüsusiyyətlərindən yararlanma xasdır. Yəni hədəf hansı yolla olur-olsun mübahisədən qalib çıxmaqdır.

Artur Şopenhauer "Eristika və mübahisə etmək sənəti" ("Eristische Dialektik, oder Die Kunst, Recht zu behal-

ten") əsərini məhz bu mövzuya həsr etmişdi. Onun fikrincə, eristikanı insan təbiətinə xas olan həmişə haqlı çıxmaq istəyi doğurmuş və o, bu istəyi gerçəkləşdirməyə kömək edən bir elm sahəsi kimi meydana gəlmişdir. Filosof yazır: "onu mən "dialektika", yaxud yanlış anlaşılmasın deyə, "eristik dialektika" adlandırmaq istəyirəm. ... "Eristik dialektika"... mübahisə etmək və elə mübahisə etmək sənətidir ki, həmişə haqlı çıxasan." O, "eristika" sözünü bu fənnin "daha sərt adı" hesab edir [20, 3]. Şopenhauer kitabında çox vaxt həqiqətlə əlaqəsi olmayan, amma mübahisə zamanı səmərə verən 35 üsulu, daha dəqiq desək, fənd və ya kələyi ətraflı təhlil edir.

Beləliklə, eristika məntiqlə qarşılıqlı əlaqədə olsa da, ayrıca fənn olub, onunla tükənmir. Əgər məntiq həqiqətə can atırsa, eristika inandırmanın müsbət nəticə verməsinə hesablanıb. Ümumiyyətlə, yunan fəlsəfəsində diskussiyanın dörd —apodiktik, dialektik, eristik və sofistik — növündən danışırlar. Müsəlman aləmində isə disputun əsasən iki növü göstərilir: münəzərə və cədəl. Latınca "dialektika" sözünün qarşılığı kimi işlənən "cədəl" əslində özündə dialektika və sofistika ünsürlərini birləşdirir. Bəzi mütəfəkkirlər bunları eyniləşdirsələr də, onlar arasında fərq aşkardır. Münəzərə (munāzara or ādāb albahs) apodiktik diskussiyaya uyğun gəlir, çünki burada məqsəd səhih, təkzibedilməz bilik əldə etmək, həqiqətə nail olmaqdır, odur ki, nəticənin məntiqi qaydalarına, dürüst dəlillərə ciddi əməl edilir. Cədəl mübahisədə qarşı tərəfi susdurmaq, məğlub etmək, hətta yerlə yeksan edib, qalib gəlmək məqsədi daşıyır, yəni daha sərt, kinli səciyyə daşıyır. Elə də olur ki, "Gerçəyi üzə çıxarmaq üçün müzakirəyə başlayan tərəflər bir-birini pisləmə məqamına çatanda, cavab üçün bir-birinə aman verməyəndə münəzərə cədələ çevrilir" [8, 19]. Göründüyü kimi, eristikanı, Şopenhauerin təbirincə daha dəqiq desək, "eristik dialektika"nı ifadə edən söz münəzərə deyil, cədəldir. "Eristika" sözü professor Ənvər Əhmədovu da, əslində Bakıxanovun traktatının mətni ilə tanış olan hər bir oxucunu çaşdırırır. Ə.Əhmədov yazır: "O (yəni A.Bakıxanov), "eristika" sənətini nəinki məntiqin tərkib hissəsi, həm də həqiqətə nail olmağın metodu, yeni bilik qazanma üsulu hesab edirdi. Lakin Bakıxanovun təsvir etdiyi şəkildə disput prosesi "eristika"dan daha çox məntiqi sübutu xatırladır" [11, 47]. Əslində Bakıxanovun təsvir etdiyi disput prosesi eristika, yaxud cədəl deyildi və məntiqi sübutu sadəcə xatırlatmırdı, elə məhz məntiqi sübutlar üzərində qurulmuşdu. Bu mənada məntiq traktatını "Münəzərə və onun qanunları" adlandırdığı nəticə ilə yekunlaşdırması əsərin əsas məntiqinə söykənirdi.

İndi həmin hissənin qısa şəkildə məzmunu ilə tanış olaq. A.Bakıxanov münəzərəyə, yəni diskussiyaya "iki şey arasındakı münasibətləri iki tərəfin öz məqsədlərinə müvafiq şəkildə dərindən nəzərdən keçirmələridir" deyə tərif verir. Mübahisə edən bu iki tərəfdən birini hər hansı müddəanı sübut etməyə çalışan, o birini soruşan (yaxud sual verən) kimi təqdim edir. Müasir dilə çevirsən, iddiaçı və opponent də demək olar. O yazır: "Əgər irəli sürülən müddəa aydın deyilsə və şübhə doğurursa, sübut edənsə onun xeyrinə dəlillər gətirirsə, onda soruşan ya onun dəlilinin müqəddiməsi ilə, ya dəlilin özü, ya da sübut etdiyi [müddəa] ilə razılaşmaya bilər". Bakıxanov bu cür ixtilafın üç növünü göstərir: birincinin, "etiraz" və ya " bütün bəndlər üzrə ixtilaf", ikincinin, "məcmusuna görə ixtilaf" və üçüncünün, "əks dəlillə əsaslandırma" adlandığını deyib, onların qaydalarının təsvirinə keçir. Maraqlıdır ki, birincidə, sübut edənin soruşandan

dəlil tələb etməsi yolverilməz sayıldığı kimi, ikincidə soruşanın dediyi üzərində israr etməsi istisna olunur.

İxtilafların bu növlərindən asılı olaraq, sübut edənin üzərinə müəyyən vəzifələr düşür. “Etiraz” zamanı o, ya etiraz olunan müqəddiməni dəlilin köməyi ilə təsdiq etməli, ya etirazı əsaslandıran dəlili onunla eyni gücdə olan dəlillə təkzib etməli, ya da irəli sürdüyü müddəanı əvvəlki dəlillə isbat etməyi bacarmırsa, başqa dəlil gətirib təsdiq etməlidir.

[Məcmu üzrə] ixtilafda sübut edən soruşanın öz iki vəzifəsinə uyğun şəkildə irəli sürdüyü dəlildən yaxa qurtarmalıdır, ya da özünün irəli sürdüyü müddəanı, əgər ilkin dəlilin köməyi ilə alınmırsa, başqa dəlil vasitəsilə isbat etməlidir.

Əks dəlillə əsaslandırma zamanı sübut edən soruşanın bu hal üçün nəzərdə tutulan vəzifələrə uyğun irəli sürdüyü dəlili təkzib etməlidir və bu zaman diskussiyada tərəflərin vəziyyəti əks istiqamət alır, yəni sübut edənlə soruşan yerlərini, daha dəqiq desək, funksiyalarını bir növ dəyişirlər.

Bakıxanov hər iki tərəfin diskussiyanın sonundakı vəziyyətinə də aydınlıq gətirir: əgər soruşan tərəf rəqibini tələb olunan üsullarla təkzib edə bilmirsə və onun irəli sürdüyü müddəanı qəbul etməyə məcbur qalırsa, bu “əlacsız qalma”, əgər sübut edən tutarlı dəlil gətirə bilmirsə, bu, “susdurulma” adlandığını bildirir [11,129].

Mütəfəkkir münəzərənin həqiqəti üzə çıxarmaq üçün mütləq riayət edilməli olan tələbləri özündə ehtiva edən qaydalarını on tələbə müncər edir: “əvvəla, müfəssəl izah tələb edilən yerdə müxtəsərlikdən çəkinməli; ikincisi, lüzumsuz yerə uzunçuluq etməməli: üçüncüsü, anlaşılmaz ifadələrdən istifadə etməməli; dördüncüsü, mənası başa düşülməyən yerlərin izahına ehtiyac yaranıb mübahisə uzanmasın deyə, hədsiz müfəssəllikdən çəkinməli; beşincisi, rəqibin nə demək istədiyini anlamayana qədər, onun fikirlərinə müdaxilə etməməli; altıncısı, müzakirə (predmetinə) aid olmayan məsələyə dair söhbətə başlamamalı; yeddincisi, özünü gülmək, səsini yüksəltmək, müxtəlif jestlər etmək (əl-qol oynatmaq) və buna oxşar qızğınlıq təzahürlərindən özünü saxlamalı; səkkizincisi, güclü və səndə xof yaradan insanlarla mübahisədən imtina etməli: doqquzuncusu rəqibi alçaltmamalı; onuncu, həqiqət üzə çıxınca onu qəbul etməli, zira iş bununla bitmiş olur” [11, 129-130]. Göründüyü kimi, bütün bu tələblər, o cümlədən rəqibinin dediklərini anlamağa çalışmağın, ona hörmətlə yanaşmanın vacibliyi, emosiyaları cuşa gətirməyin, qarşı tərəfi alçaltmağın yasaq olması, mübahisə mövzusunun predmetindən yayınmaqdan çəkinmə, psixoloji amillərin nəzərə alınması və s. bu kimi tələblər məhz eristikanın, cədəlin əleyhinə çevrilmişdir. Bakıxanova görə, diskussiyadan gözlənilən kimin qalib gələcəyi deyil, üzə çıxacaq həqiqətdir.

Nəticə

Professor Ənvər Əhmədov Bakıxanovun məntiqinin Yaxın Şərqdə mövcud formal məntiq ənənəsini yığcam şəkildə xatırlatma olub xüsusi orijinallığı ilə seçilmədiyini qeyd edir. Əsərin məziyyətini “o dövrün şəraitində din məsələlərində şübhəsiz rasionallığa gətirib çıxar”masında [11, 45], xüsusilə “mühakimələrin və əqli nəticələrin səhihliyinin təkcə formal-məntiqi meyarından deyil, həm də onların materiya (yəni məzmun) üzrə səhihliyindən çıxış” etməsində görür: “Bakıxanov məntiqinin dövrünün bir çox xalis formal məntiq sistemləri qarşısında üstünlüyü bundadır” deyir [11,47].

Bu fikirlərlə razılaşmaqla yanaşı, orijinallıq barədə bir məqama toxun-

maq istərdim. Fəlsəfi fikir tarixində məşşailər, yaxud Şərq peripatetikləri kimi tanınan orta əsrlər İslam bölgəsi filosoflarını yunan fəlsəfəsinin şərhçiləri kimi Qərbdə, bəzən indinin özündə də özünəməxsusluqdan məhrum edənlər var. Halbuki onlar orijinal təfəkkür sahibləri olub təkcə orijinal əsərlərində deyil, şərhlərində də yeni fikir və ideyaları ilə fəlsəfəyə öz töhfələrini veriblər [3,103]. Təsadüfi deyil ki, onların əsərləri öz növbəsində yeni-yeni şərhlərə rəvac vermişdir. Bunlardan biri Bəhmənyarın fundamental "Əl-Təhsil" traktatıdır ki, müəllimi İbn Sinanın fəlsəfi təliminin əsas məzmununun izahına həsr etmişdi. O, şərh zamanı mövzuların ardıcıllığı baxımından İbn Sinanın "əs-Şəfa" əsərini, ideyaların əhatəsi baxımından isə müəlliminin bütün əsərlərini və onunla söhbətlərini rəhbər tutduğunu, eyni zamanda əsas mövzularla (predmetlərlə) bir qəbildən olan xüsusi predmetlər barədə öz araşdırmalarını əlavə etdiyini bildirir. Doğrudur, Bəhmənyar bu xüsusi predmetlərin nədən ibarət olduğunu göstərmir, İbn Sinanın bütün əsərləri ilə tanış olan oxucunun onları seçib-ayıraraq aşkar edəcəyini sadəcə qeyd etməklə kifayətlənir [12, 14]. Yəqin ki, Bəhmənyarın dövründə belə üləma oxucular vardı. Bizim dövrümüzə gəlincə, Saqadeyevin dediyinə görə, istər müəllimin, istərsə də şagirdinin əsərlərinin öyrənilmə səviyyəsi Bəhmənyarın inkişaf etdirdiyi ideyalardan hansılarının ikincili, hansılarının isə orijinal olduğunu qəti şəkildə söyləmək üçün yetərli deyil [12, 12]. Bəhmənyarın ensiklopedik əsəri haqqında deyilən bu fikri Bakıxanovun yığcam məntiq əsərinə tətbiq etmək olar. Belə ki, Bakıxanov traktatında istifadə etdiyi əsərlərin nə adlarını çəkir, nə də müəlliflərini göstərir. Ola bilsin, bu yolla dinsizlikdə günahlandırılmaqdan sığortalanaraq, özünü qorumaq istəmişdi. Lakin bu amil onun əsərinin orijinallıq səviyyəsini müəyyən etməkdə çətinlik yaradır. Mətndə orta əsrlər şərq peripatetiklərinin, xüsusilə İbn Sinanın məntiq əsərlərinin təsirləri aşkar görünür. Bununla belə, məsələn, onun sillogizmin dördüncü fiquru haqqındakı qeydi, disput qaydaları, məntiqi mübahisədə fikri sübut etməyin güclü aləti kimi təqdim etməsi və s. onun başqa müəlliflərin əsərlərinə, bəlkə öz dövrünə daha yaxın digər müxtəlif mənbələrdən yararlandığına dəlalət edir. Zənnimcə, "Eyn əl-mizan"ı klassik Şərq məntiq ənənəsi çərçivəsində dövrünün savadlı, ziyalı insanları üçün yazılmış, məntiqin əsasları haqqında yığcam bilgi verən dərs vəsaiti kimi səciyyələndirmək olar. Əslində elə bu keyfiyyətində "Eyn əl-mizan" Bakıxanovun təkcə öz yaradıcılığında deyil, Azərbaycan, o cümlədən Müsəlman Şərqinin intellektual ənənəsində və məntiqi fikir tarixində özünəməxsus yer tutur. Adət üzrə traktatın giriş hissəsində Allaha təvəkküllə özünün zəifliyini bildirib təvazökarlıq etməsinə rəğmən, traktatı Mirzə Kazımbəyə göndərməsi faktının özü müəllifin bu əsərə necə böyük əhəmiyyət verdiyindən xəbər verir.

İSTİFADƏ EİLMİŞ ƏDƏBİYYAT

Azərbaycan dilində:

1. Bakıxanov Abbasqulu ağa. Tərəzinin mahiyyəti (məntiqə dair traktat). Ərəb dilində. /Tərcümə Z.C. Məmmədov. ADU-nun Elmi əsərləri. 1971, № 4.
2. Bakıxanov A.A. Gülüstani-İrəm. Bakı: Azərb. SSR Elmlər Akademiyası nəşr., 1951.
3. Hacıyeva Arzu Əşrəf qızı. Hermenevtika Şərqdə [Mətn]: fəlsəfə tarixi kontekstində / Bakı: Adiloğlu, 2006.
4. Tusi Xacə Nəsirəddin. Şərh "Əl-İşarat". /Tərcümə edən: Söhrab Bayramov; Elmi red.: Əmirşah Əmirəhmədov. Bakı: "Nurlan", 2004.
5. Tusi X. N. Təcrid əl-məntiq. /Tərcümə edən: İmamverdi Həmidov. Bakı: Araz, 2012.
6. Tusi X.N. Əsasül-iqtibas. I cild. /Tərcümə edən: Şahin Yəhyayev, Bakı: Elm, 2022.
7. Sadıxov Qədəmşah. Məntiq. Dərs vəsaiti. Bakı: Azərbaycan Dövlət Tədris-Pedaqoji Ədəbiyyatı nəşriyyatı, 1962.

Türk dilində:

8. Emiroglu İbrahim. Cedel nedir? // İlahiyat Fakültesi Dergisi, Sayı XII, İzmir, 1999, ss.I7-37.

Rus dilində:

9. Ахмедов Э. Ценная находка. // Бакинский рабочий, № 141, 18 июня 1963 г.
10. Бабаев А. А. О статусе терминов, порядке посылок и четырех фигурах силлогизма в силлогистике Насиреддина Туси // Логико-философские штудии. 2022. Т. 20, № 2, с. 25–35.
11. Бакиханов А.К. Сочинения. Записки. Письма. Вст. ст., сост. и подотовка текстов, прим. и указатели Э.М.Ахмедова. Баку: Элм, 1983, с. 117-130.
12. Бахманьяр ал-азербайджани. Ал-Тахсил (познание). Книга Первая. О логике. Пер., ввод. статья и коммент. А.В.Сагадеева. Баку: Элм, 1983.
13. Газали. Правильные весы. (Ал-Кустас ал-мустагим). / ал-Газали. Воскрещение наук о вере. Избранные главы. (Пер. с араб.). М.: Наука, Главная редакция восточной литературы, 1980, с.313-342.
14. Ибн Сина (Авиценна). Книга знания. // Ибн Сина (Авиценна). Избранные философские произведения. Москва: Наука, 1980.
15. Ибн Сина (Авиценна). Указания и наставления. . // Ибн Сина (Авиценна). Избранные философские произведения. Москва: Наука, 1980.
16. Корбен А. История исламской философии. пер. с франц. и примечания А. Кузнецова. М.: Прогресс-Традиция, 2010. - https://vk.com/doc-123642573_444553091.
17. Маковельский А.О. История логики. М.: Кучково поле; ; 2004. с. 240.
18. Сулаймони Саийдрахмон, Мардони Таджиддин. Абунаср ал-Фараби – основоположник логической терминологии в арабском языке. Дата публикации: 2023-04-12. https://www.osiyoavrupo.tj/ru/post/abunasr-al-farabi-osnovopolozhnik-logicheskoj-terminologii-v-arabskom-yazyke .
19. Шейх Саид Фуда. Критика критики. Ибн Таймийя и логика. // https://

darulfikr.ru/articles/m anhadzh/kritika-kritiki-ibn-tajmijja-i-logika/

20. Шопенгауэр А. Эристика, или Искусство спорить. /перев. Кн. В.Цертелевым. М.: Университетская типография, 1889.

Arzu Hajiyeva

ABBASGULU AGHA BAKIKHANOV'S TREATISE "AYN AL-MIZAN" IN CONTEXT OF CLASSICAL LOGICAL TRADITION OF ISLAMIC WORLD

Abstract

The universal heritage of the eminent Azerbaijani thinker Abbasgulu Agha Bakikhanov spans diverse fields such as poetry, philosophy, history, ethics, religion, astronomy, logic, and linguistics. This body of work vividly reflects the breadth and complexity of his intellect and scholarly interests. Within this comprehensive legacy, each of his writings occupies a unique place. The treatise Ayn al-Mizan stands out as one of the few logical works produced in the Islamic world during the first half of the 19th century, underscoring the importance of logic as a distinct field of knowledge within the scientific and cultural context of that era. This article explores the history of the treatise's creation, its structure and content, as well as Bakikhanov's perspective on the nature of knowledge and his approach to the methods and role of logical analysis. By situating Ayn al-Mizan within Abbasgulu Agha Bakikhanov's broader intellectual endeavors, the study seeks to clarify its place in the history and tradition of logical thought in the Islamic world.

Keywords: Abbasgulu Agha Bakikhanov, Ayn al-Mizan, Muslim East, philosophy, science of logic, munaẓara, jadal, tradition

ALİM – ELMİ FƏALİYYƏTİN SUBYEKTİ KİMİ

Səadət MƏMMƏDOVA,
AMEA Fəlsəfə və Sosiologiya İnstitutu
(Bakı, Azərbaycan)

E-mail: saadet.baki@yahoo.com
ORCID ID: 0000-0002-4404-4983

Xülasə. Elmin araşdırılması, onun tarixi əsaslarının öyrənilməsi, əslində, elmi şüurun inkişafı problemi ilk növbədə praktik düşüncəni elmi idrakın süzgəcindən keçirərək yeni anlamda və tərəqqiyönlü təqdim edən insanların – ailmlərin psixologiyasının, düşüncə və təfəkkür tərzinin öyrənilməsini tələb edir. Elmlə məşğul olan deyil, məhz elmi fikri inkişaf etdirən alimin təfəkkür imkanlarının açılması elmin, elmi təfəkkürün yaranma və inkişaf imkanlarının izahını təqdim etməyə imkan verə bilər.

Açar sözlər: alim, elmi fəaliyyət, yaradıcılıq, dahi

Giriş

XXI əsrdə ayrı-ayrı alimlərin deyil, çox zaman böyük alim kollektivlərinin birgə araşdırmalarına üstünlük verilir və bu zaman həqiqətən də mühüm nailiyyətlər təqdim edilir. Belə ki, tək bir alim tərəfindən aparılan tədqiqatlara onillərlə vaxt sərf edilə bildiyi halda alim kollektivləri hərtərəfli və çox qısa zaman çərçivəsində elmi araşdırmalar apararaq fundamental nəticələri reallaşdırırlar. Nəticədə elm və elmin təsiri ilə cəmiyyət çox sürətli dəyişikliklərə məruz qalır. Beləliklə, insan cəmiyyətində davamlı dəyişikliklərin mənbəyi və mənşəyini müəyyənləşdirməyə, yönəltməyə çalışan şəxsiyyətlər – alimlər sosial hadisə və proseslərin yaradıcısı və yönləndiricisi kimi çıxış edirlər.

Alimlərin psixologiyasının araşdırılması ilə məşğul olan Orteqa Qasset kimi bir çox müasir mütəfəkkirlər əmindirlər ki, hazırda orta səviyyə biliklərə malik olan insanlar da elmlə məşğul olurlar. Onun tədqiqatlarında qədim və orta əsr mütəfəkkirləri ilə yeni dövr alimləri arasında müqayisə aparılır və göstərilir ki, yeni dövrdə texnologiyaların inkişafı orta səviyyə biliklərə malik olan insanların empirik tədqiqatlar apararaq, konsepsiyalar irəli sürməsi imkanlarını genişləndirmişdir. Qədim dövr mütəfəkkirləri isə həqiqətən qeyri-adi istedada malik, bir çox elm sahələrində əsaslı yeniliklər edən həqiqi dahilər olublar. Qədim və orta əsrlərdə yaşamış mütəfəkkirlər çox zaman tək müəllif olaraq çoxtərəfli fəaliyyət göstəriblər, müasir elm isə çox zaman kollektiv tədqiqatlar əsasında inkişaf edir.

1.Elmi araşdırma meylinin psixoloji əsasları

Elmi araşdırmalar aparmağa olan meyli necə izah etmək olar? Deleuze və Guattari əmindirlər ki, elmi maraq yaradıcılığa olan meyillə çox bağlıdır. Deleuze və Guattari bu çoxistiqamətli və çoxölçülü fəaliyyətlə bağlı "heterogenez" terminini işlədirlər. "Bu cür yaradıcı doğuşun həlledici cəhəti ondan ibarətdir ki, o, mürəkkəb bir-birindən asılı olan, lakin qətiyyən gözlənilməz "oluş" ("hələ gələcək") növlərini əhatə edir". "Qara qutu" nəzəriyyəsinə əsaslanan müəllif insan psixologiyası ilə bağlı belə bir nəticəyə gəlir ki, "müxtəlif girişlər məlum olsa belə, dəqiq çıxışlar əvvəlcədən bilinə bilməz".

Deleuze və Guattari qara qutunu xatırladan insan təfəkkürünün "mürəkkəb yaradılış" imkanlarını nəzərə alaraq, göstərirlər ki, "yaradıcılıq hansısa özünəməxsus şəkildə "xaotik", "mürəkkəb" və ya "fövqəladə"dir". Alimin yaradıcı fəaliyyətinin köklərini müəyyənləşdirməyə çalışan mütəfəkkirlər aşağıdakı suallara cavab tapmağa çalışırlar: "Yaradıcılıq nə dərəcədə mütləq başlanğıc və sonluqdur, ortada paralel və ya çoxlu "kainatların" davamlı qurulması ilə bağlıdırmı? Yaradıcılıq bütün həyatın təbii və zəruri tərəfidir, yoxsa yalnız insanlara xasdır? "Məxluq" özünü "yaratmağa" çatanda nə baş verir? Yaradıcılıq insanların yeganə səlahiyyətidir, yoxsa (digər) maşınlara da şamil edilir? Dəyişiklik və transformasiya üçün bu qədər potensiala baxmayaraq, yaradıcılıq haqqında bu qədər xüsusi və ya ümumi olan nədir?"

Deleuze və Guattari yaradıcılığın baş verə biləcəyi üç əsas sahəni və ya "kəsişən müstəviləri" fərqləndirirlər:

"1.anlayışların yaradılması (fəlsəfə);

2.incəsənət;

3. qavrayışların yaradılmasında iştirak etdiyi üçün elm" [6].

İnsan ilk olaraq onu əhatə edən mühiti, sonra isə özünü, öz yaradılışını dərk etməyə çalışaraq elmi təfəkkürü formalaşdırmışdır desək, bəlkə də, ya-

nılmarıq. Onu da qeyd edə bilərik ki, eyni təbiət, sosial, mədəni, siyasi və s. hadisə və proseslərə fərqli münasibətlər və fərqli qavrayış imkanları çoxsaylı konsepsiya və nəzəriyyələrin formalaşmasına əsas olur. Hadisə və proseslərlə bağlı fərqli konsepsiya və nəzəriyyələr yaradıcı təfəkkürün çoxşaxəliliyinin təzahürüdür.

Din Kit Saymonton psixologiyada yaradıcılığın mahiyyətinin dərk edilməsi məqsədilə "problem həll etmə", "dərketmə", "zəka", "istedad" və "dahi" kimi anlayışlara müraciət edildiyini göstərərək, yaradıcılığın "eksklüziv deyil, inklüziv perspektivli" olduğunu bildirir [4].

Bu qeyd edilənlərə istinadən yaradıcı təfəkkür və meyil alimlərin başlıca psixi vəziyyəti olaraq səciyyələndirilə bilər. Yaradıcı alim şəxsiyyəti əsasən sosial aləmə deyil, öz daxili dünyasına yönəlmiş təfəkkürlə bağlıdır. Xarici aləm alimi dərk edilmə obyekti olaraq cəlb edir, o, axtarışlarının nəticəsinin sosial rezonansa deyil, sosial və idraki tərəqqiyə gətirəcəyinə inanır. Belə demək olarsa, alim idrakı daha mürəkkəb sistemlidir.

A.Y.Aqafanov "şüur" və "dərketmə" anlayışlarını bir-birindən fərqləndirərək göstərir ki, "şüur və təfəkkürün fərqli ontologiyası var. Təfəkkürdən fərqli olaraq, nəzəri "şüur" anlayışı real deyil, hipotetikdir və buna görə də empirik olaraq etibarlı olmayan, əlaqələndirilmiş və dərk edilmiş təcrübə yaradan mexanizmlər sistemini təyin etmək üçün təklif olunur. Empirik hadisə kimi idrak psixologiyanın əsas problemidir və onu aşağıdakı kimi formalaşdırmaq olar: "Dərketmə necə baş verir?" İdrakın təhlili bizə xaricdən müşahidə olunmayan və təfəkkürün introspeksiyaya qapalı proseslərini təqdim etməyə imkan verir. ...təfəkkürün fenomenologiyasını izah etmək üçün empirik təcrübədə olmayanı təsvir edən idrak nəzəriyyəsi lazımdır" [7].

İlk elmi fikir necə yaranmışdır? İlk alim kimdir? Hansı fikirlərdən və düşüncələrdən çıxış edərək elmi təfəkkür formalaşmışdır? İnsan dünyanı elm vasitəsilə dərk edirmi, yoxsa bu da bir illüziyadır? Elmin başlanması dərk edilmiş həyatın başlanması hesab edilə bilərmi? Elmin sonu bəşərin sonudurmu? İlk özünüdərkə cəhd edən insanı alim adlandırmaq olarmı?

Bu və digər suallara axtarılan cavablar elmin və alimin psixologiyasının öyrənilməsini və dərkini aktual edir.

Elmi təfəkkürdə iştirak edən genetik və beyin mexanizmlərini anlamağa çalışmaq elmin psixologiyası üçün mükəmməl bir araşdırma mövzusudur, lakin bu, çətin bir işdir. Elmi əsaslandırma və problem həllinin real vaxt rejimində beyin şəkillərini əldə etmək asan və ya ucuz deyil. Ancaq son vaxtlar bir neçə psixoloq - Conatan Fugelsanq və Kevin Dunbar bu cür araşdırmalara başlayıb. Onlar elmi və səbəb-nəticələrin əsasını təşkil edən sinir mexanizmlərinə diqqət yetiriblər. Məsələn, Fugelsanq və Dunbar iddia edirlər ki, insanlar inandırıcı nəzəriyyələrə malik olduqda sübuta daha çox diqqət yetirirlər, nəinki inandırıcı olmayan nəzəriyyələrə. Onlar kəşf etdilər ki, məlumatlar bir nəzəriyyə ilə uyğunlaşdıqda beynin öyrənmə və yaddaş mərkəzi olan hipokampusu əhatə edən bölgədə sinir mexanizmləri işə düşür. Verilənlər nəzəriyyə ilə uyğun gəlmədikdə prefrontal korteksdəki beyin mexanizmləri, səhvlərin aşkarlanması, diqqət və ziddiyyətli baxış nöqtələrinin monitorinqi ilə məşğul olan sahələr işə düşür [5].

Bu fikirlər elmi yaradıcılıq qabiliyyətinin genetik olub-olmaması problemini ortaya qoyur. L.S.Vıqotskinin sosial-mədəni mühitin insanın psixoloji inkişafındakı rolu və proksimal zona nəzəriyyələrinə istinad edərək deyə bilərik ki, genetik amillər danılmaz olsa

da, mühitin münbitliyi istedadlı şəxsin yaradıcı alim kimi yetişməsində əsaslı təsirə malikdir. Sağlam psixikanın, maraq və meyillərin inkişaf etdirilməsi və yönləndirilməsi genetik amillər qədər mühüm əhəmiyyətə malikdir.

2.Alim, yoxsa dahi?

Elm tarixində ilk alim Aristotel hesab edilir. Aristotelin genetik şəcərəsi haqqında verilən məlumata əsasən, onun atası Nikomaka qədim həkimlər nəslindən idi. Saray həkimi olan Nikomaks təbabət və fəlsəfə ilə bağlı əsərlərin müəllifi olmuşdur. Arisotelin himayəçisi olan atası onun təhsilinə xüsusi diqqət yetirmişdir. Mənbələrdə bilik və təcrübələrin ötürülməsinin Nikomaksın nəsilində ənənəvi mahiyyət daşıması haqqında da məlumat verilir. Beləliklə, deyə bilərik ki, tarixdə ilk alim hesab edilən Aristotel sağlam analiz və sintez etmək bacarıqlarna malik olmaqla yanaşı onun yaxın əhatəsinin himayədarlığı ilə bu bacarıqlarını təkmilləşdirməyə, ən ali səviyyəyə çatdırmağa nail olmuşdur.

Aristotel elmləri sistemləşdirmiş, ayrı-ayrı elmlərə xas anlayışlar bazasını təqdim etmiş və müxtəlif istiqamətli tədqiqatlar aparmışdır. Özünüdərkə və insanın varlığının əsaslarını tapmağa, insan təfəkküründün xassə və məğzini açmağa çalışan Aristotel “Ruh haqqında” adlı əsər yazmışdır. Psixologiya elmi ilə bağlı ilk araşdırma hesab edilən bu əsərdə Aristotel bəşərin mövcudluq xüsusiyyətlərini təhlil edir. Ruhu canlı varlıqların daxili qüvvəsi kimi xarakterizə edən mütəfəkkir onun fərqli pillələrini (bitki, heyvan, insan) təqdim edir. O göstərir ki, “İnsan heyvanlar aləmindən xüsusi bir qabiliyyətilə - yalnız onu əhatə edən aləmdə öz fəaliyyətini tənzimləməklə deyil, həm də bu dünyanı düşüncə ilə dərk etmək qabiliyyəti ilə seçilir. Yəni insanın ağılı var və ona münasibətdə rasional ruhdan danışmaq olar”. Aristotel ağılı bədənlə birbaşa bağlı olmayan bir şey kimi görür. Aristotel üçün ağıl bədəndən asılı deyil, “insan öldükdən sonra nə isə qorunub-saxlanılırsa, bu, onun ruhunun ağılı, rasional başlanğıcıdır” [9]. “Vahid dünya ağılı” haqqında danışan Aristotel əmindir ki, bəşəriyyət məhz bu ağıl vasitəsilə özünü və yaşam imkanlarını dərk edir. Aristotel ağılı fəaliyyətin başlanğıcı kimi qəbul edir. Aristotelə görə: “Ağıl zehni obyektlərə bağlandıqda əzab içində olur. ...Yalnız bədəndən ayrıldıqda, o, həqiqətən olduğu şeyə çevrilir, yəni ölməz və əbədi olur ”.

Aristotel qeyd edir ki, biz bildiklərimiz və hiss etdiklərimizlə yaşayırıq: “Yaşadığımız və hiss etdiyimiz şey iki şəkildə başa düşülür: birincisi, bildiklərimiz elmdir, ikincisi, ruhdur”. Aristotel ruhu yaşanan, hiss edilən və düşünülən kimi izah edir. Aristotelə görə: “Ruh canlı cismin səbəbi və başlanğıcıdır. ...Ruh mövcud olan hər şeyi əhatə edir. ...Ruhun iki əsas qabiliyyəti mühakimə və hərəkətdir”. Aristotel idrakın praktikadan yaranması fikrindədir və o, ağılı hərəkətverici qüvvə kimi xarakterizə edərək, nəzəri və praktiki ağılı fərqləndirir [8].

Beləliklə, ilk alim kimi Aristotelin xarakterk xüsusiyyətlərini müəyyənləşdirərkən deyə bilərik ki, alim hər zaman axtarışda olan şəxsiyyətdir. Bu axtarış bacarığını və hissini onda oyadan himayəçinin olması vacib şərtlərdəndir. Yaşadığı zamanın və sosial mühitin xüsusiyyətləri onun yaradıcılığında mütləq şəkildə öz əksini tapır. Alim yaşadığı sosial mühitdə baş verən hadisə və proseslərə münasibətsiz qala bilməz, bu münasibət idraki analiz və müqayisəli sintez bacarıqlarının təzahürüdür. Aristotelin həyatı və yaşam tərzi, onun ruhun təbiəti haqqında ideyaları belə deməyə əsas verir ki, alim varlığın və

var olmanın mənasını və mahiyyətini dərk etməyə çalışır, dərin praktiki müşahidələr əsasında nəzəri nəticələr, konsepsiyalar irəli sürür. Aristotel antik dövrdə yaşamışdır, müxtəlif istiqamətli, əsasən ictimai elmlərlə bağlı əsərlərin müəllifidir. Aristoteli dahi adlandıra bilərikmi? Yaradıcılığının izlənilməsi Aristotelə dahi deməyə əsas verir. Aristotel elmi metodlardan istifadə etməklə elmin təsnifatını təqdim etmişdir. Eyni zamanda Aristotelin yaradıcılığı hansısa bir elm sahəsi ilə məhdudlaşmır. O, fərqli elm sahələrinə dair ilkin sistemli məlumatlar verir.

Aristotelin və dgər antik dövr alimlərinin elmi düşüncüləri təbiətlə bağlı idi. Onlar hər şeyin başlanğıcını təbiətə bağlayırdılar. Orta əsr alimlərinin tədqiqatlarının başlıca istiqamətlərini onların yaradılışın banisi - fövqəlqüvvə olan Allaha güclü inamları müəyyənləşdirmişdir. Bu dövrdə həm Qərb, həm də Şərq mütəfəkkirləri ilahi başlanğıc və mövcudluğun əsasları ilə bağlı fikirləri inkişaf etdirir, tədqiqatlar aparırdılar. Orta əsrlər bəşər tarixinin 1500 illiyini əhatə edən bir dövrdür və həm dinlə, həm də elmlə bağlı fərqli yanşmaların formalaşdığı zaman kəsiyidir. Ellinizmin süqutu, yeni elmi ənənələrin formalaşmağa başladığı erkən orta əsrləri elmi təfəkkürün Şərq tərəqqisi mərhələsi adlandırmaq olar. Bu dövrdə Aristotel və Ptolemeyin əsərləri orta əsrlər Şərq universitetlərinin kafedralarında ərəb dilinə tərcümə edilərək, yenidən təhlil edilirdi. Elm tarixinin erkən Şərq mərhələsi nəzəri biliklərin təcrübi tədqiqatlarla əlaqələndirilməsi dövrüdür. Belə ki, sənətkarlığın ayrı-ayrı sahələrinin inkişafı bu yöndə fərdi ixtiraların genişlənməsilə müşayiət edilir və erkən feodalizm dövrü mütəfəkkirlərinin bir çoxu sənətakrlar ailəsində böyümüş şəxslər idilər. Sonralar axtarışlara olan maraq onların nəzəri biliklərə yiyələnmə həvəslərinin genişlənməsinə və yeni, təkmilləşdirilmiş əsaslarla təcrübədə tətbiqinə əsas vermişdir. Bu dövrün mütəfəkkirləri universal biliklərə və tədqiqatlara malik olan böyük şəxsiyyətlər idilər.

Renosans dövrü bəşər tarixinin ən parlaq simalarının doğulduğu mərhələdir. Bu dövrün görkəmli mütəfəkkirləri sırasında Leonardo da Vinçinin adı xüsusi qeyd edilir. Leonardo da Vinçi şəxsiyyəti həm dahi rəssam, həm də böyük ixtiraçı olaraq psixoanalizin banisi Ziqmunq Freyd tərəfindən öyrənilmişdir. Ziqmund Freyd qeyd edirdi ki: “Əslində, Leonardo duyğusuz deyildi. O, bütün bəşəri işlərin birbaşa və ya dolayı mühərriki - *il primo motore* olan bu ilahi qığılcımdan məhrum deyildi. Lakin o, ehtiraslarını ixtiraçılığa yönəltmişdi. O, yalnız ehtirasdan qaynaqlana bilən əzmkarlıq, davamlılıq və dərinlik ilə özünü tədqiqata həsr etmiş və mənəvi gərginliyin zirvəsində yeni biliyə nail olmuşdur” [13].

Z.Freydin dahi Leonardo da Vinçi yaradıcılığının psixoloji məqamları ilə bağlı araşdırmasının təsdiqini E.Kantın etiraflarında görmək olar: “Mənim dərketməyə böyük həvəsim var... Vaxt var idi ki, bütün bunların bəşəriyyət üçün şərəf ola biləcəyini düşünürdüm və heç nə bilməyən kütləyə xor baxırdım. Russo məni düzəltdi. Dedi ki, korluq üstünlüyü yox edir; İnsanlara hörmət etməyi öyrənirəm...” [13].

E.Kant yalnız tədqiqatçı deyil, dahi idi. O, öz-özünü tədqiqat obyektinə çevirmiş, insanın idarki mahiyyətini təhlil etmişdir. Kant düşünürdü ki, insan idrakı hüdudsuzdur. Elmin inkişafında təcrübənin ilkinliyini vurğulayan Kant əmin idi ki, həqiqi elm insanın xeyirxahlığının inkişafına zəmin olmalıdır. Bununla da E.Kant alimin davranışlarının psixoloji əsaslarını tədqiq edən ilk mütəfəkkir olmuşdur.

Alimin psixologiyasının araşdırıl-

ması elmin psixologiyası istiqamətinin tədqiqat obyektlərindəndir. Elmin psixologiyası alimin düşüncə və davranış tərzinin təhlilinə yönəlmişdir. Bu istiqamətdə tədqiqatlar XIX əsrdən başlayaraq aparılsa da, ilk dəfə 1966-cı ildə Abraham Maslou elmin psixologiyasına dair məqaləsində elmin və alimin cəmiyyətin inkişafındakı rolunu araşdırmışdır.

3.Müasir tədqiqatçılar, alimlər

Müasir tədqiqatçılar qeyd edirlər ki, hazırda çox sayda akademiyalar vardır ki, burada tələbələrin yaradıcılıq qabiliyyətləri inkişaf etdirilir. Bu baxımdan yaradıcı insanların dahi adlandırılması doğru hesab edilmir. Belə demək olarsa dahilərdə yaradıcılıq qabiliyyəti fitrətən mövcud olur. İnsanların nəsil artırmaqla bağlı fitri qabiliyyəti kimi yaradıcı insanlarda yeni ideyalar və kəşflər təqdim etmək qabiliyyəti də fitri olur.

XX əsrdə alim və elmin inkişaf istiqamətlərinin araşdırılmasına olan maraq “Elmin psixologiyası” və “Elmin sosiologiyası” kimi yeni istiqamətlərin inkişafına səbəb oldu. İlk olaraq Abraham Maslou elmin sosial psixoloji başlanğıcını öyrənməyə başlamışdır. O, Maks Vertheimerin təsiri ilə həyatda özünü reallaşdırmağa nail olmuş insanları öyrənməyə çalışmışdır.

Abraham Maslounun humanist psixologiyası XX əsrin 60-cı illərində formalaşmışdır. 1954-cü ildə Maslounun “Motivasiya və şəxsiyyət” adlı kitabı nəşr edilmişdir. Burada insan tələbatları piramidasını təqdim edən Maslou ən yüksək zirvədə insanın özünüreallaşdırması tələbatını göstərmişdir. Yaradıcılığının sonrakı mərhələsində tələbatlar piramidasından uzaqlaşan Maslou insan tələbatlarını aşağı və ya ödənilən və yüksək, yaxud ödənilməyən olmaqla iki qismə ayırırdı. O, “İnsan psixikasının uzaq hüdudları” adlı kitabında qeyd edirdi ki, mənəviyyat, ruhla bağlı olan yüksək tələbatlar insanın inkişafına, kamilləşməsinə apardığı üçün ödənilmir və ya təminedilməzdir [12].

Alimin psixologiyasının təhlili belə deməyə əsas verir ki, bu ödənilməyən tələbatlar axtarmaq, təhlil etmək, yeni fikirlər irəli sürmək və hər şeydən əvvəl dərk etmək ehtiyacından doğur və yaradıcılığın yeni mərhələlərinə aparır. Dahilikdə ifratçılıq, ideya ilə yaşamaq etirası olduğu halda, yaradıcı alimdə fitrətdən informasiya əldə etmək meyli var. Yaradıcı və axtarışda olan alim biliklərini zənginləşdirməyə və dərinləşdirməyə və bu əsasda da ümumiləşdirmələr təqdim etməyə çalışır. Dahi isə məhdud informasiya çərçivəsində belə qeyri-adi, hər kəsin görə və dərk edə bilməyəcəyini aşkar etmək niyyətilə axtarış fəaliyyətindədir. Hər iki fəaliyyətdə yaradıcılıq var, lakin birində informasiya əldə edilməsilə ödənilən, digərində isə ifratçı və ödənilməyən ruhi tələbat təzahur edir.

Bu genişzolaqlı yaradıcılıq fərdin qəribə, sirli və bütövə olan səciyyəvi marağından irəli gəlir. Bundan əlavə, Maslou vurğulayır ki, fəaliyyət göstərən, özünürealizə edən yaradıcı insanlar tənqiddən qorxmadan fikir və hisslərini ifadə etmək qabiliyyətinə malikdirlər və bununla da yaradıcılıq ideyalarını daha yaxşı təqdim və ifadə etmək qabiliyyətinə malikdirlər.

Rocers yaradıcılıq qabiliyyətinin “psixoloji təhlükəsizlik” və “psixoloji azadlıq” amillərinin hakim olduğu şəraitdə tərbiyə olunmuş insanlarda formalaşdığını vurğulayır. Son tədqiqatlar Rocersin müsbət, sərbəst və təhlükəsiz mühitlərin bir qayda olaraq yaradıcı davranışlara səbəb olduğu fikrini dəstəkləyib. Bu baxımdan yaradıcı davranış nəinki hər kəs üçün bir fürsətdir, həm də optimal fəaliyyət və sağlamlıq ilə sıx bağlıdır [3].

Humanist psixologiyanın görkəmli nümayəndələrindən olan Karl Rocers "Şəxsiyyət, yoxsa elm. Fəlsəfi sual" adlı məqaləsində özünü psixoanaliz edərək, belə nəticəyə gəlir ki, elmi tədqiqata meyil daxili münaqişədən yaranır. Özü öz Mənini tədqiqat obyekti kimi qəbul edən K.Rocers bu prosesi "özü ilə münasibətə qoşulmaq" adlandıraraq belə izah edir: "Münasibətdə bu, tam birlik, təklik, təcrübə dolğunluğu ..., ..."bu dünyadan kənar"..., münasibətlərdə bir növ transa bənzər hissi əldə edir". Müəllif özü ilə üz-üzə qalaraq, tədqiqatçı-alimin psixologiyasını təhlil edir, bu prosesi "özünə baxmaq" kimi müəyyənləşdirir. K.Rocersin araşdırmasından belə qənaətə gəlmək olar ki, özünü və ya başqa bir həqiqəti axtaran alim tənhadır, müəyyən bir məqamda ona elə gəlir ki, axtarıb tapmağa çalışdığı çox sadə və məlum bir həqiqətdir. K.Rocers bu axtarışları "özünü kəşf etmək", "həqiqi subyektivlik" olaraq müəyyənləşdirir.

K.Rocers göstərir ki, alimlər "insanlar, şəxsiyyətlərarası münasibətlər və ya kainatla bağlı hər hansı reallığı kəşf edə bilmir. ...elm meydana çıxacaq reallığın ...hisslərlə dərk edilən reallıqdan çox uzaqlaşdığını" göstərir [2].

Harringtonun bu konsepsiyalarını təsdiq edən başqa konsepsiya mövcuddur: "Dahi insanlar daha tez vəfat edirlər, alimlər isə uzunömürlü olurlar. Alimləri yaradıcı insanlar kimi səciyyələndirmək olar. Dahilər isə fitri qabiliyyətləri ilə kəşflər və araşdırmalar edirlər. Yaradıcılıq vərdişə çevrilə bilir, dahilik isə özünəməxsusluğu ilə seçilir".

Çiksentmihayi, Maslou, Mey, Rodcers və bu istiqamətdə tədqiqat aparmış bir sıra elm adamlarının fikrincə, "yaradıcılıq və dahi – optimal fəaliyyət və sağlamlıqla əlaqəlidir" [11].

Beləliklə, Çiksentmihayi, Maslou, Mey, Rocers və digərləri dahiliyi xüsusi üzvi vəziyyət kimi izah edirlər, yəni fərdin normal sağlam düşüncədən yüksək əqli vəziyyəti, çoxşaheli və arasıkəsilməz zehni və fiziki fəaliyyəti dahiliyin meyarı ola bilər.

Ziya Göy Alp isə qeyd edirdi ki: "Dahi mahiyyət etibarilə xalqdadır. Sənətkar ancaq ona görə dahi ola bilər ki, o, xalqın estetik zövqünün təzahürüdür" [1].

Təki deyil, bütövü dahiliyin meyarı olaraq müəyyənləşdirən Ziya Göy Alpın şərhi düşünməyə vadar edir. Həqiqətən də öz əsrinin övladı olaraq dünyaya gələn insan mövcud elmi nailiyyətərdən yararlanaraq ona yeniliklər əlavə edə bilir. Eyni zamanda əcdadlarının genetik yaddaşı ilə ona ötürülən xüsusiyyətlərin vahidləşmiş təcəssümü olur və fitrətən sahib olduğu yaradıcılıq qabiliyyətini optimist fantaziyaları ilə zənginləşdirərək tətbiqinə çalışır.

Bir çox tədqiqatçılar yaradıcılığın üç başlıca xüsusiyyətini fərqləndirirlər:

- Birincisi, yenilik, yəni innovativlik meyarı.
- İkincisi, problemə uyğunluq meyarı.
- Üçüncüsü tamlıq meyarı.

Yaradıcılığın psixoloji əsaslarının öyrənilməsinin elmin fəlsəfəsilə bağlılığını iddia edən Y.İ.Miroşnikov intellekt, emosiya və iradəni elmi idrakın başlıca elementləri kimi təqdim edir. Bernar Fontenelin "Bütün həyatlarını gözlərinin gördüklərinə inanmamağa sərf edən əsl filosoflar tamamilə gizli qalan şeyləri üzə çıxarmağa çalışırlar" fikrinə istinad edərək Y.İ.Miroşnikov sanki həqiqi tədqiqatçı alimin tərifini verməyə çalışır [11].

Bu fikrə istinadən deyə bilərik ki, yaradıcı alim öz psixikasının dərinliyinə nüfuz edə bilən, xəyal gücü ilə fərqlənən fanatik kəşfiyyatçıdır.

Y.S.Tokatlıgil elmi tədqiqat fəaliyyətində uğurun subyektiv determinasiyası məsələlərini araşdıraraq, aşağıdakı nəticəyə gəlmişdir:

1. Elmi-tədqiqat fəaliyyəti - əldə edilmiş nəticələrin etibarlılığının sonrakı

sübutu, onların praktikada tətbiqi və cəmiyyətdə populyarlaşdırılması ilə tədqiqat fəaliyyətinin təşkili və həyata keçirilməsi prosesinə yönəlmiş idrak fəaliyyətinin spesifik növüdür.

2. Elmi-tədqiqat fəaliyyətinin uğurunun subyektiv təyini tədqiqatçının yenilikçilik, özünütəşkilatçılıq, məqsədyönlülük, inam, maraq, tədqiqat potensialı kimi ciddi və qarşılıqlı əlaqəli xassələri və keyfiyyətləri ilə bağlıdır.

3. Tədqiqat potensialının yenilik, özünütəşkiletmə, məqsədyönlülük, inam və maraq komponentlərin təzahürləri arasında əlaqələrin məcmusu tədqiqat fəaliyyətində müxtəlif səviyyələrdə uğurun xarakterik xüsusiyyətlərini ifadə edir.

Nəticə

Belə qənaətə gəlmək olar ki, xüsusi yaradıcılıq istiqaməti olan elmlə bağlı insanların zehni imkanları geniş olmaqla yanaşı, araşdırmaya, yeniliyə olan meyilləri və potensialları daha yüksəkdir. Axtarışlara olan maraq psixikanın xüsusi meyli kimi zaman, məkan, sosial mühitdən asılı olub, müxtəlif formalarda təzahür edə bilər. Bəlkə də, insanın sağlam qavrama imkanları məhz elmi yaradıcılığa sövq edir. Bəzən dahiliklə dəliliyin müəyyən psixi məqamla qovuşması ideyası irəli sürülür. Deyə bilərik ki, əqli şüurun ən yüksək (pik) sağlamlıq məqamı (normal sağlamlıq deyil, daha yüksək olan sağlamlıq halı) həqiqi elmi yaradıcılıqla bağlıdır və fərqli düşüncə tərzi ilə müəyyənləşən fəaliyyət və davranışlar əsl alimlərin qəribə, qeyri-adi insanlar kimi qəbul edilməsinə və çox zaman təcrid olunmasına gətirib çıxarır.

İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT

Türk dilində:

1. Ziya Göy Alp. Türkçülüğün Esasları. Türkiye: Anadolu Universitesi yayınları.

İngilis dilində:

2. Carl Rogers. Persons or Science? A Philosophical Question. - https://www.all-about-psychology.com/carl-rogers.html

3. Dean Keith Simonton. Cognition, Creativity, Genius, and Truth in Advertising. - https://www.researchgate.net/publication/247428890_Cognition_Creativity_Genius_and_Truth_in_Advertising/link/54b696ce0cf2e68eb27ea2f9/download

4. Dean Keith Simonton. The Psychology of Creativity: A Historical Perspective // History of Creativity Research. University of California, Davis. 2015, N 8. - https://simonton.faculty.ucdavis.edu/wp-content/uploads/sites/243/2015/08/HistoryCreativity.pdf. /İstifadə edilib: 28.06.2022/ - https://litportal.ru/avtory/zigmund-freyd/kniga-leonardo-da-vinchi-vospominanie-detstva-987483.html

5. Kevin Dunbar, Jonathan Fugelsang. Scientific Thinking and Reasoning. // The Cambridge Handbook Of Thinking And Reasoning. 2004, p.705-726.

6. Rob Pope. Creativity. Theory, history, practice. - http://elibrary.bsu.edu.az/files/books_400/N_134.pdf

Rus dilində:

7. Агафонов А.Ю. Сознание: где искать «черный ящик»? // Методология и история психологии. 2009, № 1, с. 151–165.

8. Аристотель. О душе. М.: «РИПОЛ Классик», 2018, -12 с.

9. Аристотель. О душе. Москва: Государственное Социально - экономическое издательство, 1937, -179 с.

10. Кант И. Критика способности суждения. Москва: Исскуство, 1994, 367 с.

11. Мирошников Ю.И. Психология научной деятельности. http://ifp.uran.ru/files/publ/eshegodnik/2004/12.pdf

12. Фейдимен Дж., Фрейгер Р. Абрахам Маслоу и Психология.

13. Фрейд З. Леонардо да Винчи. Воспоминание детства / З. Фрейд

Saadat Mammadova

SCIENTIST AS SUBJECT OF SCIENTIFIC ACTIVITY

Abstract

The study of science and its historical foundations—specifically, the development of scientific consciousness—requires an examination of the psychology, thinking, and cognitive style of scientists. These individuals present practical thought in new and progressive ways, filtering it through the lens of scientific cognition. Understanding the cognitive capabilities of a scientist—not only as a practitioner but as a developer of scientific thought—can shed light on the emergence and evolution of science and scientific thinking.

Keywords: scientist, scientific activity, creativity, genius

SOSİAL ELMLƏRDƏ SÜNİ İNTELLEKTİN TƏTBİQİ: **İMKANLAR, ÇAĞIRIŞLAR VƏ PERSPEKTİVLƏR**

Aynurə RƏŞİDOVA,
Bakı Dövlət Universitetinin müəllimi,
sosiologiya üzrə fəlsəfə doktoru
(Bakı, Azərbaycan)

E-mail: aynur.rashidova@bk.ru
ORCID ID: 0009-0002-1556-0855

Xülasə. Məqalədə süni intellektin (Sİ) sosial elmlərə inteqrasiyası araşdırılır, onun ənənəvi tədqiqat metodologiyalarını dəyişdirmək və empirik təhlili təkmilləşdirmək potensialı vurğulanır. Genişmiqyaslı məlumatların emalı, davranış modelləşdirməsi və proqnozlaşdırma imkanlarını təmin etməklə, Sİ sosial tədqiqatlar üçün yeni istiqamətlər təklif edir. Məqalədə vurğulanır ki, Sİ klassik keyfiyyət metodlarını əvəz etməsə də, xüsusilə mürəkkəb və çoxölçülü sosial məsələlərin təhlilində onları tamamlayır. Tədqiqat həmçinin etik mülahizələr, alqoritmik qərəzlilik və institusional tənzimləmə də daxil olmaqla əsas problemləri müəyyən edir. O, şəffaflıq, akademik dürüstlük, ictimaiyyətin iştirakı və insan mərkəzli dizaynı birləşdirən "praktik etika" yanaşmasını müdafiə edir. Ədəbiyyatın təhlili metodologiyasına əsaslanaraq məqalədə belə nəticəyə gəlinir ki, Sİ səlahiyyətlərinə və etik çərçivələrə sərmayə qoymaq tədqiqatçılar və qurumlar üçün məsuliyyətli istifadəni təmin etmək üçün vacibdir. Beləliklə, süni intellekt təkcə texnoloji alət kimi deyil, həm də sosial elmin inkişafı və qlobal sosial problemlərin həlli üçün strateji resurs kimi mövqe tutur.

Açar sözlər: süni intellekt, sosial elmlər, etik məsuliyyət, tədqiqat metodologiyası, empirik təhlil, məlumatların emalı, neyro-simvolik süni intellekt, texnoloji transformasiya, sosial modelləşdirmə

Giriş

Süni intellekt (Sİ) son illərdə digər sahələrə inteqrasiya etməklə yanaşı, sosial elmlərdə aparılan tədqiqatlara da yeni bir nəfəs gətirmişdir. Belə ki, məlumatların toplanılması və təhlili, insan davranışlarının modelləşdirilməsi, fəaliyyətlərin hər hansı bir alqoritm üzərindən proqnozlaşdırılması sahəsində təqdim etdiyi geniş imkanlar sosial elmlərin ənənəvi yanaşmalarını əhəmiyyətli dərəcədə dəyişmişdir. Bununla yanaşı, müxtəlif sahələrdə süni intellektdən istifadəyə tələbatın getdikcə artması həmçinin bir sıra etik, hüquqi və metodoloji məsələləri də gündəmə gətirmişdir. Bu məqalənin məqsədi süni intellektin sosial elmlərdə tətbiq imkanlarını təhlil etmək, mövcud çağırışları və gələcək perspektivləri dəyərləndirməkdir.

"Sosial elmlərdə süni intellektin tətbiqi" mövzusunda aparılan araşdırmanın metodoloji yanaşması olaraq sözügedən sahəyə uyğun olaraq ədəbiyyatın nəzəri təhlili metodu tətbiq olunmuşdur. Belə ki, tətqiqat zamanı bu sahədə elmi fikirlərini, təhlil və nəticələrini indeksləşmiş bazalarda, jurnallarda, elmi nəşr və kitablarda əks etdirmiş mənbələrdən istifadə olunmuşdur. Mövzuya dair müxtəlif yanaşmalar, nəzəriyyələr, tədqiqatlar sistemlilik prinsipinə əsaslanaraq araşdırılmış, təhlil edilmiş və müvafiq nəticələr, tövsiyələr şəklində öz əksini tapmışdır.

Mövzu üzrə empirik araşdırma aparılmadığı üçün əldə edilən nəticələr əsasən nəzəri mənbələrə və ədəbiyyat təhlilinə əsaslanır. Bu, tədqiqatın əsas məhdudiyyətlərindən biridir. Gələcək araşdırmalarda empirik və eksperimental metodların əlavə olunması ilə bu məhdudiyyət aradan qaldırıla və mövzu üzrə daha dərin, praktik nəticələr əldə oluna bilər.

Bu gün süni intellekt sosial elmlər sahəsində tədqiqat metodlarının transformasiyası, yenilənməsi və inkişafı baxımından ön plana çıxır. Bu texnologiya məlumatların kütləvi təhlili, proqnozlaşdırıcı modellər və fənlərarası əməkdaşlıq sahələrində mühüm innovasiyalar təqdim etməklə, elmi araşdırmalara yeni dinamikalar gətirir. Lakin süni intellekt sistemlərinin akademik tədqiqat və qərar qəbuletməyə inteqrasiyası ilə yanaşı, onların etik aspektləri – ədalətlilik, şəffaflıq, qərəzlilik və idarəetmə – ətrafında geniş müzakirələr meydana çıxır. Bəzi təhlillər göstərir ki, hazırda mövcud sistemlər üç əsas bacarıqdan məhduddur. Bu bacarıqlara:

(1) Semantikləşdirmə – yəni maşın tərəfindən işlənə bilən bilikləri ifadə etmək üçün şifahi anlayışların formalaşdırılması və tətbiq olunması bacarığı;

(2) Transfer qabiliyyəti – yəni bir kontekstdə öyrənilmiş bilik və təcrübənin başqa bir kontekstə ötürülməsi bacarığı;

(3) Yaradıcı generasiya – yəni anlayış və modelləri müstəqil şəkildə yaratmaq və onları təkmilləşdirmək bacarığı [9].

Bu məqalədə aşağıdakı iddianı irəli sürürük: əgər bu boşluqlar davamlı araşdırmalarla aradan qaldırılarsa, gələcəkdə sosial nəzəriyyənin inkişafını təkmilləşdirmək üçün ən qabaqcıl proqramları süni intellekt liderliyində qurmaq mümkündür. Eyni zamanda, Sİ-nin tətbiqi sahəsində etika, qərəzsizlik və idarəetmə kimi diqqətəlayiq məsələlərin ön planda saxlanılması tədqiqatların həm elmi, həm də sosial cəhətdən etibarlı olmasını təmin edəcəkdir. "Biz iddia etmişik ki, süni intellektə əsaslanan modellərin və yeni rəqəmsal məlumat mənbələrinin birləşməsi bizə sosial nəzəriyyəni inkişaf etdirmək, sınaqdan keçirmək və irəli aparmaqda kömək edə bilər" [9].

Bugünkü reallığa nəzər salsaq, deyə bilərik ki, sosial elmlərdə müxtəlif sosioloji nəzəriyyə və yanaşmaların tətbiqi

innovativ texnologiyaların bizə təqdim etdiyi imkanlardan istifadə edərək təkmilləşdirilməsi artıq zərurətə çevrilmişdir. Sözügedən sahədə süni intellektin alətlərindən istifadə spontan şəkildə deyil, artıq analitik bir funksiyanı yerinə yetirərək sosioloji nəzəriyyə və yanaşmaların müxtəlif situasiyalarda tətbiqinin təhlil edilməsi, modelləşdirilməsi, müəyyən proqnoz və planların hazırlanmasına yeni imkanlar açır. Sorğular və müşahidələr əsasında irihəcmli verilənləri, məlumat bazalarını süni intellek vasitəsilə təhlil edərək, müəyyən davranış modellərinin hazırlanması da mümkündür. Belə qənaətə gəlmək olar ki, süni intellekt vasitəsilə yalnız nəzəriyyə əsaslanan modelləşmə deyil, həmçinin bu modellərin tətbiqi üstünlükləri və çatışmazlıqlarına dair də müəyyən strateji addımların təhlilini aparmaq üçün şərait yaranır. Fikri aydın şəkildə izah etsək, bu qənaətə gəlmək olar ki, sosial elmlərdə süni intellek alətlərindən istifadə yalnız texniki baxımdan əks olunan bir proses deyil, həm də analitik bir yanaşmadır.

Tədqiqat sualı

Bu mövzunun araşdırılması məqsədilə aşağıdakı tədqiqat sualına cavab axtarılır:

Hipotez 1: *Süni intellekt sistemlərinin sosial elmlərə inteqrasiyası zamanı etik prinsiplərin tətbiqi əhəmiyyəti artırmı?*

2020-ci ildən 2021-ci ilə qədər olan dövrdə süni intellekt sahəsində aparılan elmi tədqiqatların intensivliyi bir sıra fənlər üzrə nəzərəçarpacaq dərəcədə artmışdır. Ən yüksək illik artım müşahidə olunan beş sahə aşağıdakılardır: stomatologiya (təxminən 1.9 dəfə artım), incəsənət və humanitar elmlər (1.4 dəfə), iqtisadiyyat, ekonometriya və maliyyə (1.3 dəfə), səhiyyə peşələri (1.3 dəfə) və sosial elmlər (1.3 dəfə) [6]. Bu statistik göstəricilər göstərir ki, süni intellekt tədqiqatlarının diapazonu yalnız texnoloji və mühəndislik sahələri ilə məhdudlaşmır, həm də sosial və humanitar elmlər daxil olmaqla, müxtəlif fənlərarası sahələrdə geniş vüsət almaqdadır. Xüsusilə sosial elmlərdə süni intellektin tətbiqi istiqamətində artan maraq, bu texnologiyanın insan davranışı, ictimai strukturlar və sosial dəyişikliklərə dair yeni tədqiqat imkanları yaratdığını göstərir.

Bu tendensiyanı süni intellektin sosial elmlər sahəsində metodoloji nöqteyi-nəzərdən, yeni imkanlar yaratması baxımından son dərəcə əhəmiyyətli hesab etmək olar. Əldə olunan artım dinamikası və müvafiq göstəricilər göstərir ki, sosial elmlər getdikcə daha çox süni intellektin təqdim etdiyi analitik potensiala yönəlir və bu, həm məlumatların miqyası, həm də onların interpretasiyası baxımından keyfiyyət dəyişikliklərinə yol açır. Metodoloji yeniliklərlə yanaşı etik, nəzəri və kontekstual çərçivələrin də inkişaf etdirilməsi günümüzdə çox əhəmiyyətli və məqsədəuyğun hesab edilir. Bu yanaşma yalnız elmi nəticələrin texniki dəqiqliyini artırmaqla kifayətlənməyəcək, eyni zamanda sosial elmlərin transformasiyasına yönəlik daha fundamental bir dəyişikliyin əsasını qoyacaqdır.

Məsələnin mahiyyətinə sistemli şəkildə yanaşaraq araşdırılması məqsədyönlü hesab edilir.

1. Elmi məqalələrin yazılması istiqamətində ədəbiyyat bazasının formalaşdırılması

Süni intellekt sistemləri alimlərə elmi məqalələrin tapılması və təhlili sahəsində əhəmiyyətli dəstək göstərmək potensialına malikdir [10]. Süni intellekt texnologiyaları tədqiqatçılara elmi ədəbiyyatın aşkarlanması, məzmun baxımından təhlili və strukturlaşdırıl-

ması sahəsində güclü dəstək imkanları təqdim edir. Bu sistemlər böyükhəcmli məlumatları sürətlə emal etməklə, mövzuya uyğun mənbələrin müəyyənləşdirilməsi, əsas ideyaların çıxarılması və elmi diskussiyaların izlənilməsi proseslərini asanlaşdırır. Nəticə etibarilə, süni intellekt alətləri elmi araşdırmaların effektivliyini artırmaq və tədqiqat prosesini daha məqsədyönlü təşkil etmək üçün perspektivli vasitə kimi çıxış edir. Ədəbiyyat icmallarının hazırlanmasını asanlaşdırmaq üçün süni intellekt əsaslı müxtəlif alətlər meydana çıxmaqdadır. Bu sistemlər elmi mətnləri elə şəkildə təhlil etmək imkanına malikdir ki, bu da yeni baxışların formalaşmasına, mövcud tədqiqatlarda boşluqların müəyyənləşdirilməsinə və sahənin hazırkı vəziyyətinin daha dərindən anlaşılmasına səbəb olur. Nəticə etibarilə, gələcək tədqiqat istiqamətlərinin müəyyən edilməsinə kömək edir. Bu alətlər çox zaman pulsuz və ya çox aşağı maliyyətlə əlçatan olan elmi mənbələri daxil etməklə, tədqiqatçıların öz sahələri üzrə ədəbiyyatı daha səmərəli şəkildə araşdırmalarına imkan yaradır.

2. Süni intellekt alətləri vasitəsilə təhlillərin aparılması

Süni intellekt əsaslı alətlərin digər bir sinfi isə elmi məqalələrin təhlili və xülasə olunmasında kömək göstərmək üçün hazırlanmış sistemlərdir [10]. Süni intellekt əsaslı alətlərin başqa bir növü elmi məqalələrin məzmununu təhlil etmək və mühüm fikirləri qısa şəkildə təqdim etmək məqsədilə hazırlanmışdır. Bu sistemlər tədqiqatçılara genişhəcmli elmi mətnləri sürətli şəkildə emal edərək, onların əsas məğzini müəyyənləşdirmək və xülasələrin hazırlanmasında əhəmiyyətli şəkildə kömək edir. Məsələn, ChatPDF kimi platformalar istifadəçilərə elmi sənədləri yükləyərək onların məzmunu ilə təbii dil vasitəsilə qarşılıqlı əlaqə qurmağa imkan verir. Bu alətlər məqalələrin qısa xülasəsini təqdim edə, əsas məqamları çıxara və mətnlə bağlı konkret suallara cavab verə bilirlər. Beləliklə, tədqiqatçıların vaxtına qənaət olunur və mətnin mənimsənilməsi asanlaşır. Bu cür sistemlər xüsusilə böyükhəcmli elmi ədəbiyyatın araşdırılması və aidiyyəti məlumatların tez müəyyənləşdirilməsi baxımından faydalıdır.

Belə ki, istiqamət olaraq sosial elmlər sahəsində süni intellektin tətbiqi müxtəlif mərhələlərdə tədqiqat potensialını artırmaq üçün güclü bir vasitə kimi istifadə olunduğu xüsusi vurğulanır [11]. Sosial elmlər sahəsində süni intellektin tətbiqini yalnız texnoloji inkişaf kimi deyil, həm də tədqiqatın analitik imkanlarını genişləndirən və elmi dərinliyi artıran mühüm vasitə kimi dəyərləndirmək mümkündür. Bu texnologiya və alətlərin məlumatların toplanılması, emalı və təhlili kimi müxtəlif mərhələlərdə istifadəsi tədqiqat prosesinin effektivliyini artırmaqla yanaşı, sosial hadisələrin daha hərtərəfli və çoxşaxəli şəkildə araşdırılmasına şərait yaradır. Beləliklə, süni intellekt sosial elmlərdə yeni biliklərin formalaşdırılmasına töhfə verən mühüm bir vasitə kimi çıxış edir və gələcək tədqiqat modellərinin tətbiqində mərkəzi rol oynaya bilər.

Son illərdə tədqiqatlarda süni intellektin tətbiqi sürətlənib və indi əksər sahələrdə mühüm rol oynayır [6]. Bu da bu qənaətə gəlməyə əsas verir ki, süni intellektin tədqiqat sahələrində sürətlə yayılması elm sahəsində fundamental dəyişikliklərin əlaməti və zəminidir. Bu texnologiyanın geniş tətbiqi tədqiqatların keyfiyyət və məhsuldarlığını yüksəltməklə yanaşı, yeni elmi metodların formalaşmasına da şərait yaradır. Süni intellekt imkanlarından düzgün istifadə etmək gələcəkdə elmi araşdırmaların

daha yenilikçi və dərin analizlə zənginləşməsini təmin edəcək.

Süni intellektin yaradıcı formaları ilə bağlı etik narahatlıqlar, xüsusilə avtomatlaşdırmaya aludəçilik, müəyyən bacarıqların itirilməsi, elmi nöqteyi-nəzərdən çatışmazlıqlar, mürəkkəb şəkildə şərhedilə bilmə problemləri və təmsil edilmədə çatışmazlıqlar kimi məsələlər ön plana çıxır [2]. Süni intellektin yaradıcı sahələrdə tətbiqi ilə bağlı etik məsələlər getdikcə daha çox aktuallıq qazanır və bu texnologiyaların elmi və ictimai nəticələri diqqətlə araşdırılmalıdır. Xüsusilə, avtomatlaşdırma proseslərinə həddindən artıq güvən insanın yaradıcılıq və analitik düşünmə qabiliyyətlərinin zəifləməsinə gətirib çıxara bilər. Bununla yanaşı, süni intellekt sistemlərinin qərarların qəbulunda istifadə etdiyi kompleks alqoritmlərin izahının çətinliyi elmi şəffaflıq və etibarlılıq baxımından problemlər yaradır. Təmsilçiliklə bağlı qeyri-bərabərliklər və alqoritmik qərəzlilik isə sosial inklüzivliyə mane ola və müəyyən əhali qruplarının sistematik şəkildə nəzərdən kənarda qalmasına səbəb ola bilər. Bu səbəbdən süni intellektin yaradıcı istiqamətlərdə tətbiqi etik normalara uyğun şəkildə dəyərləndirilməli və bu sahədə konkret normativ mexanizmlər formalaşdırılmalıdır.

Bu tapıntıları daha geniş sosial-texnoloji müzakirə kontekstində qiymətləndirərək qeyd etmək olar ki, sosial elmlərdə süni intellektin məsuliyyətli inteqrasiyası yalnız texniki həllərlə kifayətlənməməlidir. Bu, tədqiqat dəyərlərinin yenidən nəzərdən keçirilməsini, insan mərkəzli dizayn prinsiplərinin tətbiqini və institusional dəstək strukturlarının qurulmasını tələb edir. Məhz bu keçidi dəstəkləmək üçün süni intellekt vasitə və alətlərini öz fəaliyyətlərində istifadə edən tədqiqatçılar, təhsil işçiləri, qərar verənlər və digər maraqlı tərəflər üçün tövsiyələrin işlənib hazırlanması zəruridir. Tövsiyyələr əsasən şəffaflıq, etik məsələlər, dayanıqlılıq və insanların real və praktiki həyat təcrübələrinin suni intellekt vasitəsilə dizayn və qiymətləndirmə proseslərinə inteqrasiyasına yönəlməlidir. Digər tərəfdən isə [5] sosial elmlər sahəsində məlumatların sistemləşdirilməsi və kəmiyyətcə ölçülməsi istiqamətində artan tendensiya araşdırılır. Müəlliflər qeyd edirlər ki, sosial elm məlumatlarını alqoritmlərin effektiv işləyə biləcəyi dəqiq kateqoriyalara çevirmək əksər hallarda mürəkkəbdir.

Məlumdur ki, sosial elmlər sahəsində mövzuların və anlayışların çoxşaxəli və kontekstual xarakter daşıması onların standartlaşdırılmış və dəqiq kateqoriyalara salınmasını çətinləşdirərək, prosesi mürəkkəbləşdirir. Alqoritmlərə əsaslanan sistemlər, xüsusilə də süni intellekt alətlərinə əsaslanan modellər yüksək dəqiqliklə işləmək üçün sabit və aydın struktura malik məlumatlara ehtiyac duyur. Lakin insan davranışları, cəmiyyətdə mövcud olan sosial münasibətlər və mədəni dəyişkənlik prosesləri kimi amillər qeyri-müəyyən və kontekstdən asılı olduğundan bu cür məlumatların mexaniki olaraq, kor-təbii şəkildə sosial reallığın sadələşdirilmiş və bəzən təhrif olunmuş təqdimatına gətirib çıxara bilər. Bu səbəbdən sosial elmlər sahəsində məlumatların emalı zamanı həm keyfiyyət, həm də kəmiyyət yanaşmaları arasında tarazlığın qorunması vacibdir və süni intellektin tətbiqi bu çətinlikləri nəzərə almaqla həyata keçirilməlidir.

Sosial elmlərin müxtəlif sahələrində verilənlər bazası və süni intellektlə bağlı tədqiqatların mövzu və tətbiq sahələrinin sayında əhəmiyyətli artım müşahidə olunur [1].

Nəticədə, süni intellektin elmi tədqiqatların sürətini, maliyyə səmərəliliyini, təhlükəsizliyini və ümumi məhsuldarlığını artırmağa davam edəcəyi

gözlənilir. Yalnız səmərəliliyin artması ilə kifayətlənməyərək, qarşıdakı illərdə süni intellektin elmi cəhətdən tətbiqi və biliklərin əldə olunması yanaşmaları əsaslı şəkildə dəyişə bilər. Bu tədqiqatın tədqiqatçılar və tədqiqatları icra edən təşkilatlar üçün ümumi nəticəsi odur ki, süni intellekt bacarıqlarının inkişaf etdirilməsi istiqamətlərinə investisiya qoyulsun [6].

Bu yanaşmaya əsasən, süni intellekt alətlərinin səmərəli və rasional şəkildə tətbiqi nəticəsində sosial elmlərdə aparılan tədqiqatların sürəti, analitik dərinliyi, resurslardan səmərəli istifadə imkanları və ümumi elmi məhsuldarlığı artırmaq potensialı getdikcə daha aydın şəkildə özünü göstərir. Lakin sözügedən texnologiya yalnız effektivliyi artırmaqla yanaşı, bilavasitə sosial hadisələrin hərtərəfli təhlili, nəzəri yanaşmaların tətbiqi və yeni biliklərin əldə olunması metodologiyalarını əsaslı şəkildə dəyişdirmək gücünə malikdir. Sosial elmlərlə məşğul olan tədqiqatçılar və bu sahədə fəaliyyət göstərən elmi-tədqiqat institutları üçün süni intellekt bacarıqlarının inkişaf etdirilməsinə yönəlik strategiyaların hazırlanması və bu istiqamətə müvafiq olaraq investisiyaların qoyulması vacib və zəruri addım kimi qiymətləndirilə bilər. Bu kimi yanaşmalar sosial elmlərin dinamik cəmiyyətlərə dair daha dəqiq, proqnozlaşdırıla bilən və elmi cəhətdən əsaslandırılmış nəticələr əldə etməsini təmin edə bilər.

Gələcək tədqiqatlar üçün əsas tövsiyələrə gəldikdə isə süni intellektin tətbiqi ilə bağlı sosial elmlər baxış bucağı etik aspektləri də əhatə etməlidir [1]. Bu o deməkdir ki, nəzərə alınmalı əsas məqamlardan biri də insan yönümlü yanaşmaların və nəzəriyyələrin tətbiqinə daha həssaslıq və məsuliyyətlə yanaşmanın tətbiq olunmasıdır. Burada, əlbətdə ki, ilk növbədə etik məsələlərin tətbiqinə artan tələbat nəzərə çarpır. Ümumilikdə insan haqlarının qorunmasına zidd olmayan prinsiplərin tətbiqindən söhbət açılır. Məlumatların toplanılması, emalı və interpretasiyası zamanı yaranan məxfiliyin qorunması, qərəzsizlik və sosial ədalət prinsipləri xüsusi önəm daşımalıdır.

Huang tərəfindən təqdim edilən məqalədə neyro-simvolik süni intellektin böyük məlumatlar dövründə humanitar və sosial elmlərdə empirik tədqiqatlarda uğurlu alət kimi istifadəsi müzakirə olunur. Qeyd edilir ki, bu alətlər klassik keyfiyyət metodlarını əvəz etmir, əksinə onları tamamlayır. Çünki sosial problemlər mürəkkəb və subyektiv amillərlə zəngindir, buna görə də həm empirik, həm də keyfiyyət yanaşmaları birlikdə işlədilməlidir. Neyro-simvolik süni intellekt insan idrakını əvəz edə bilməz, lakin tədqiqatçılara dəstək olan faydalı vasitə kimi dəyərləndirilməlidir [7].

Məqalədə təhlil edilən fikirlərdən belə qənaətə gəlmək olar ki, neyro-simvolik süni intellektin böyükhəcmli məlumatların təhlili kontekstində humanitar və sosial elmlərdə empirik araşdırmalarda səmərəli alət kimi istifadə perspektivləri hərtərəfli şəkildə araşdırılır. Müəlliflər qeyd edirlər ki, bu texnologiya ənənəvi keyfiyyət metodlarını əvəz etmək məqsədi daşımır; əksinə, onları tamamlayaraq daha zəngin və dərin nəticələrin əldə olunmasına imkan yaradır. Burada birmənalı olaraq, sosial problemlərin kompleks, çoxölçülü və subyektiv təbiəti nəzərə alınaraq, empirik və keyfiyyət yanaşmalarının vəhdət təşkil edərək birgə tətbiqinin vacibliyi xüsusi olaraq vurğulanır. Neyro-simvolik süni intellektin insan idrakını tam əvəzləmək qabiliyyətinə malik olmadığı bildirilir, lakin o, tədqiqatçıların təhlil və qərar proseslərinə töhfə verə biləcək faydalı bir texnoloji vasitə kimi qiymətləndirilir.

Bu məqalədə [3] süni intellektin so-

sial elmlərdə tədqiqat yanaşmalarını necə dəyişdirdiyi və mürəkkəb sosial problemlərin araşdırılmasında imkanlar yaratdığı vurğulanır. Süni intellektin geniş məlumatların təhlili, gizli nümunələrin aşkarlanması və multidissiplinar əməkdaşlığın təşviqi kimi üstünlükləri qeyd olunur. Məqalə həm alimlərə süni intellektin etik istifadəsinə, həm də siyasətçilərə süni intellekt əsaslı tədqiqatlarının tənzimlənməsi üçün effektiv çərçivələrin yaradılmasına çağırış edir. Nəticədə, süni intellekt sosial elmlərin inkişafı və qlobal problemlərin həllində mühüm vasitə kimi qiymətləndirilir.

Məqalədə əsas ana xətt olaraq süni intellektin sosial elmlər sahəsində tədqiqat metodologiyasına təsiri və mürəkkəb sosial problemlərin və keyslərin öyrənilməsində yaratdığı yeni imkanlar ətraflı şəkildə təhlil olunur. Burada sorğular vasitəsilə əldə olunan böyükhəcmli məlumatların emalı, əvvəllər nəzərəçarpmaz qalan sosial nümunələrin üzə çıxarılması və fənlərarası əməkdaşlığın gücləndirilməsi kimi üstünlüklər xüsusi olaraq vurğulanır. Tədqiqat həm tədqiqatçılara süni intellektin etik prinsiplərə riayət edərək istifadəsi ilə bağlı məsuliyyətli yanaşma göstərməyə, həm də qərarverənlərə bu texnologiyanın tətbiq sahələrini effektiv tənzimləyən hüquqi və institusional çərçivələr formalaşdırmağa çağırış edir. Ümumilikdə, süni intellekt sosial elmlərin transformasiyasında və qlobal miqyasda aktual problemlərin daha dəqiq və təsirli şəkildə həlli istiqamətində strateji əhəmiyyətə malik bir vasitə kimi dəyərləndirilir.

Nəticələr göstərir ki, [8] süni intellekt ilə dəstəklənən tədqiqatların etikası yalnız süni intellektin funksiyalarına aid qaydaları deyil, həm də icma iştirakı, təhsil, institusional idarəetmə və sosial təsirləri əhatə etməli, yəni “praktik etik” yanaşmanı təşkil etməlidir. Bu isə süni intellekt sistemləri ilə cəmiyyət strukturları arasındakı mürəkkəb əlaqələrin demokratik müzakirələrini tələb edir.

Bir tədqiqatçı mövqeyindən yanaşdıqda qeyd etmək olar ki, konsepsiyasında və ya özəyində süni intellektə əsaslanan tədqiqatlarda etik çərçivələrin yalnız texnoloji olaraq müəyyən funksiya və risklərə əsaslanması kifayət deyil. Bu texnologiyanın sosial elmlərdə məsuliyyətli şəkildə effektiv tətbiqi üçün etik yanaşmalar daha geniş və praktik əsasda qurulmalıdır. Yəni yalnız süni intellekt sistemlərinin dizayn və istifadəsinə dair yazılmış qaydalar deyil, həm də vətəndaşların bilavasitə iştirakı, bununla da elmi cəhətdən savadlılığın artırılması, institusional şəffaflıq və sosial nəticələrin qiymətləndirilməsi kimi komponentlər daxil edilməlidir. Bu yanaşma isə öz növbəsində süni intellektlə cəmiyyət arasında formalaşan mürəkkəb münasibətlərin effektiv şəkildə, açıq ictimai dialoq çərçivəsində müzakirəsini zəruri edir. Bu baxımdan, süni intellektin sosial elmlərdə tətbiqi yalnız texniki səmərəliliklə deyil, həm də sosial dəyərlərə, ədalətə və ictimai razılığa əsaslanan çoxölçülü etik çərçivələrlə müşayiət olunması məqsədəuyğun hesab edilir.

Süni intellekt alətləri sosial elmlər sahəsində aparılan tədqiqatlara inteqrasiya etdikcə, bu prosesi maksimum şəffaflıq, etik məsuliyyət və akademik dürüstlük prinsiplərinə sadiqliklə həyata keçirmək vacibdir. Mövcud etik standartlara riayət etməklə və süni intellektin istifadəsində şəffaflığı qorumaqla, bu texnologiyaların potensialından tədqiqatı gücləndirmək üçün istifadə edə bilərik, eyni zamanda elmi araşdırmanın əsas dəyərlərini qoruyub saxlamış olarıq [4]. Bu baxımdan, etik prinsiplərə sadiqlik və akademik dürüstlük süni intellektin tətbiqində sadəcə tövsiyə edilən yanaşma deyil, əslində, bu sahədə məsuliyyətli elmi fəaliyyətin zəruri şərtidir.

Beləliklə süni intelektin böyükhəcmli məlumatları təhlil etmək, hər hansı keysləri aşkar etmək və sosial prosesləri modelləşdirmək imkanları insan davranışları və cəmiyyətdə baş verən hadisələrin dinamikalarını daha dərindən anlamağa şərait yaradır. Süni intellektin davranışın təhlili, qərarvermənin planlaşdırılması və s. məsələlərin demək olar ki, bütün sahələrdə, həmçinin sosial sahədə də transformativ rolu vurğulanır. Lakin qeyd olunanlarla yanaşı, digər tərəfdən alqoritmik qərəzlilik, məlumatların məxfiliyi və etik məsələlər kimi çağırışlara da diqqətin cəlb olunması mütləq şərtdir. Nəticə etibarilə, süni intellektin sosial elmlərdə effektiv, səmərəli, rasional şəkildə istifadəsi etik yanaşmaların nəzərə alınması ilə müşaiyət olunmalıdır. Bu yanaşma isə texnoloji yeniliklərin istifadə və inteqrasiyası ilə yanaşı, davamlı etik məsuliyyət və fənlərarası əməkdaşlıq da tələb edir.

Nəticə

Son illərdə süni intellekt sahəsində aparılan tədqiqatlar əhəmiyyətli dərəcədə genişlənmiş və müxtəlif sahələrdə — gündəlik həyat, səhiyyə, tədris, məşğulluq, əmək fəaliyyəti, asudə vaxtın təşkili və s. daxil olmaqla geniş tətbiq imkanları qazanmışdır. Bu texnoloji inkişaf bir çox fəaliyyət sahələrinin transformasiyasına səbəb olmaqla, cəmiyyətin sosial-iqtisadi strukturlarına da təsir göstərmək potensialına malikdir.

Bu məqalə süni intellektin tətbiq sahələrinin çoxşaxəli xarakter daşıdığı bir dövrdə onun sosial elmlər kontekstindəki roluna diqqət yetirir. Sosial elmlər insan davranışının sosial və mədəni aspektlərini öyrənən bir sahə kimi, süni intellektin yaratdığı yeniliklərdən əhəmiyyətli dərəcədə təsirlənməkdədir. Bu texnologiya iqtisadi inkişafın təşviqi, nəzəri modellərin qurulması, təhsil və sosiologiya sahəsində yeniliklərin tətbiqi, habelə hüquqi və siyasi qərarların formalaşdırılmasına dair mexanizmlərin təkmilləşdirilməsi üçün geniş imkanlar təqdim edir. Nəticə etibarilə, süni intellekt sosial rifahın yüksəldilməsi və qlobal problemlərin həlli istiqamətində mühüm vasitəyə çevrilə bilər.

Bununla yanaşı, mövcud elmi ədəbiyyatın təhlili göstərir ki, bu texnologiyaların tətbiqi zamanı etik məsələlərin, xüsusilə də fərdi məlumatların məxfiliyinin qorunması və məlumatların emalı prosesində hüquqi çərçivəyə əməl olunması zəruridir. Beləliklə, süni intellektin sosial elmlərdə istifadəsi yalnız texniki baxımdan deyil, həm də etik və hüquqi kontekstdə nəzərdən keçirilməli, onun tətbiqi ictimai etimad, sosial ədalət və insan hüquqları prinsipləri ilə uzlaşdırılmalıdır. Süni intellektin tətbiqi insan haqları prinsiplərinin qorunması prinsiplərinə zidd olmamalıdır. Bu nöqteyinəzərdən maarifləndirmə, bilik və bacarıqların artırılması və inkişaf etdirilməsi vacibdir. Süni intellektin rasional şəkildə sosial elmlər sahəsində tətbiqinə dair strateji addımların atılması məqsədəuyğun hesab edilir. Beləliklə, qeyd edə bilərik ki, "Süni intellekt sistemlərinin sosial elmlərə inteqrasiyası zamanı etik prinsiplərin tətbiqi əhəmiyyəti artırmı?" sualı və irəli sürdüyümüz hipotez öz elmi əsasını doğrulamış hesab edilir. Buna sübüt olaraq, araşdırma zamanı təhlil edilən elmi əsər və məqalələrdə əks olunan fikirlər nəzərə alınır.

İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT

1. Bircan, T., & Salah, A. A. A. (2022). A bibliometric analysis of the use of artificial intelligence technologies for social sciences. Mathematics, 10(23), 4398. - https://doi.org/10.3390/math10234398

2. Camilleri, M. A. (2024). Artificial intelligence governance: Ethical considerations and implications for social responsibility. Expert Systems, 41, e13406. - https://doi.org/10.1111/exsy.13406

3. Farooq, M., Buzdar, H. Q., & Muhammad, S. (2023). AI-Enhanced Social Sciences: A systematic literature review and bibliographic analysis of Web of Science published research papers. Pakistan Journal of Society, Education and Language (PJSE), 10(1), 250–262. ISSN 2521-8123 (Print), ISSN 2523-1227 (Online).

4. Feng, G. C. (2024). Best practices for responsibly using AI tools in social sciences research. Cogent Social Sciences, 10, 2420484. - https://doi.org/10.1080/23311886.2024.2420484

5. Greene, C. (2023). AI and the social sciences: Why all variables are not created equal. Res Publica, 29, 303–319. - https://doi.org/10.1007/s11158-022-09544-5

6. Hajkowicz, S., Sanderson, C., Karimi, S., Bratanova, A., & Naughtin, C. (2023). Artificial intelligence adoption in the physical sciences, natural sciences, life sciences, social sciences and the arts and humanities: A bibliometric analysis of research publications from 1960–2021. Technology in Society, 74, 102260. - https://doi.org/10.1016/j.techsoc.2023.102260

7. Huang, Z. (2022). Introducing neuro-symbolic artificial intelligence to humanities and social sciences: Why is it possible and what can be done? TEM Journal, 11(4), 1863–1870. - https://doi.org/10.18421/TEM114-54

8. Jeon, J., Kim, L., & Park, J. (2025). The ethics of generative AI in social science research: A qualitative approach for institutionally grounded AI research ethics. Technology in Society, 81, 102836. https://doi.org/10.1016/j.techsoc.2025.102836

9. Mökander, J., & Schroeder, R. (2022). AI and social theory. AI & Society, 37, 1337–1351. - https://doi.org/10.1007/s00146-021-01222-z

10. Moulaison-Sandy, H., Castaño-Muñoz, W., Ridenour, L., & Adkins, D. (2025). AI literature review systems: An analysis of performance, affordances, and outputs for a complex topic in the social sciences. Information Research: An International Electronic Journal, 30, 1244–1252. - https://doi.org/10.47989/ir30iConf46906

11. Xu, R., Sun, Y., Ren, M., Guo, S., Pan, R., Lin, H., Sun, L., & Han, X. (2024). AI for social science and social science of AI: A survey. Information Processing & Management, 61, 103665. - https://doi.org/10.1016/j.ipm.2024.103665

Aynura Rashidova

APPLICATION OF ARTIFICIAL INTELLIGENCE IN SOCIAL SCIENCES: OPPORTUNITIES, CHALLENGES AND PROSPECTS

Abstract

This article examines the integration of artificial intelligence (AI) into the social sciences, emphasizing its potential to transform traditional research methodologies and improve empirical analysis. By enabling large-scale data processing, behavioral modeling, and predictive analytics, AI opens new avenues for social research. The paper underscores that AI does not replace classical qualitative methods but rather complements them, particularly in addressing complex and multidimensional social phenomena. Key challenges are also identified, including ethical concerns, algorithmic bias, and regulatory frameworks. The study advocates for a “practical ethics” approach that incorporates transparency, academic integrity, community engagement, and human-centered design. Based on a comprehensive literature review, the article concludes that investing in AI skills and ethical standards is crucial for researchers and institutions to ensure responsible use. Consequently, AI is positioned not only as a technological tool but as a strategic resource for advancing social science and tackling global societal challenges.

Keywords: artificial intelligence, social sciences, ethical responsibility, research methodology, empirical analysis, data processing, neuro-symbolic AI, technological transformation, social modeling

INTEGRATION OF DIGITAL TECHNOLOGY AND SOCIAL WORK IN BELT AND ROAD INITIATIVE

Qu Hang
Baku State University, PhD in Sociology, China

E-mail: 1018602664@qq.com
ORCID ID: 0009-0004-5479-0500

Abstract. Digital technology, as a key driver of the Fourth Industrial Revolution, is profoundly transforming the global socio-economic landscape. Within the framework of the Belt and Road Initiative, the integration of digital technology and social work has advanced poverty reduction, social governance, and public service innovation in countries along the route. Moreover, it has introduced a new model of cross-border cooperation empowered by technology. This paper examines the integration of digital technology and social work across dimensions such as smart agriculture, digital poverty alleviation, social governance, and cultural exchange. Drawing on China's practical experience and global case studies, the study proposes strategic recommendations to optimize this integration within the Belt and Road context.

Keywords: digital technology, integration, social work, Belt and Road Initiative, empowerment

Integration of digital technology and social work in context of Belt and Road Initiative

Background of study

The “Belt and Road” refers to the "Silk Road Economic Belt" and the "21st Century Maritime Silk Road." Since its launch in 2013, the initiative has aimed to enhance connectivity among participating countries based on the principles of extensive consultation, joint contribution, and shared benefits. By 2023, China had signed over 200 cooperation agreements with 152 countries and 32 international organizations, encompassing sectors such as agriculture, education, and healthcare.

The rapid advancement of digital technology and its deep integration into the Belt and Road Initiative have led to the emergence of the “Digital Silk Road.” According to the Belt and Road Initiative for International Cooperation in the Digital Economy, digital technology has become a key link connecting participating countries. The widespread adoption of technologies such as cloud computing, big data, and artificial intelligence has significantly improved the efficiency and quality of traditional industries, fostered new economic growth, and enhanced international connectivity and cultural exchange. These developments have contributed meaningfully to building a community with a shared future for humanity.

In this context, a critical question arises: How can social work overcome the limitations of traditional service models to address challenges such as uneven regional development and the digital divide? The integration of digital technology into social work has thus become a vital strategy for reducing regional disparities and enhancing overall well-being.

Research significance

Studying the integration of digital technology and social work within the context of the Belt and Road Initiative offers valuable insights into how these two domains can be effectively combined. It provides new perspectives and practical tools for advancing the goals of the initiative. Digital technology enables social workers to process information more efficiently, accurately identify social issues, and develop more effective solutions. Moreover, it can enhance transparency, increase public participation, and build greater trust in the initiative.

This study also aims to explore novel applications of digital technology in social work, fostering deeper integration and innovative development between the two fields. The role of social work in the Belt and Road Initiative is illustrated in Figure 1.

Bridging role of people-to-people communication

Social work plays a vital role in breaking down cultural barriers and fostering mutual trust through volunteer services, cultural exchanges, and related activities. For instance, Jing'an District in Shanghai launched the international volunteer project The Original Road, which combines “red” historical resources with participation from international students




Figure 1. *Role of social work in Belt and Road*

from Belt and Road countries. Through a three-stage process—walking, telling, and volunteering—the project encourages foreign volunteers to evolve from passive recipients of services to active contributors in community governance.

Similarly, the Luban Academy, established by Chinese enterprises in Egypt, strengthens local employees' identification with Chinese technology through vocational training and cultural exchange, further deepening cross-cultural understanding and cooperation.

Community development promoter

Social work emphasizes grassroots needs and contributes to addressing livelihood challenges in countries participating in joint construction efforts. For example, the Cabinda Water Supply Project in Angola not only provides access to clean drinking water but also creates over 700 local jobs. The project further supports community development by improving employee welfare through commuter transportation and canteen services, fostering sustainable, self-reliant ("hematopoietic") growth.

Similarly, the Happy Reading project initiated by the Brazil Three Gorges Company promotes education and strengthens community cohesion by establishing libraries and enhancing cultural infrastructure in remote areas.

Coordinator for crisis response

In times of public health emergencies and natural disasters, social work plays a critical role by integrating resources and providing psychological support. For instance, during the COVID-19 pandemic, China offered anti-epidemic assistance to more than 120 Belt and Road partner countries. Through the Belt and Road Medical Alliance, tens of thousands of medical professionals were trained, significantly enhancing international cooperation in global health governance.

Theoretical framework for empowering social work with digital technology

Technological empowerment and social equity

Digital technology helps overcome information barriers in traditional social work by enabling data sharing and resource integration. For example, blockchain technology can ensure the transparent distribution of aid funds, while artificial intelligence can accurately identify the needs of vulnerable populations. This technology-driven approach to fairness aligns closely with the inclusive growth objectives promoted by the Belt and Road Initiative.

Practical Paths of Social Work Intervention in Digital Society

Under the influence of digital technology, social work practice is undergoing significant transformation. The pathways for social work intervention in a digital society are primarily reflected in the following dimensions (see Figure 2).




Figure 2. *The practical path of social work in the digital society*

Internationalization of volunteer service: With the support of internet platforms, volunteer service projects can transcend national borders, enabling the global allocation and sharing of resources. Through online volunteer service platforms, international volunteers can remotely participate in initiatives such as transnational educational aid, environmental protection, and cultural exchange, fostering mutual understanding across cultures.

For example, Jing'an District in Shanghai collaborated with Shanghai University to integrate international students into the local volunteer service system. A closed-loop management model—comprising recruitment, training, and incentives—was established, resulting in the formation of an international volunteer team of over 30 members, who provided services to tourists from more than 20 countries [13]. Utilizing the “Volunteer Cloud” platform, digital management was implemented alongside professional development courses delivered in partnership with the Grassroots Governance College, thereby enhancing the sustainability and effectiveness of volunteer service.

Integration of education and culture: Digital technology enables the more equitable distribution of educational resources. Social work can leverage online education platforms to deliver high-quality learning opportunities to remote and underserved areas, helping to reduce educational disparities. Simultaneously, digital platforms for cultural presentation and exchange foster mutual understanding and respect among diverse cultures, promoting cultural diversity and integration.

Educational cooperation and cultural communication: By 2023, China had signed academic degree recognition agreements with 58 Belt and Road partner countries, co-hosted Confucius Institutes in 159 countries and regions, established 23 Luban Workshops, launched the Silk Road Scholarship, and promoted the localization of vocational education through Confucius Institutes and Luban Workshops [6]. For example, the Luban College within Egypt’s new capital CBD project trains local specialists in super-high-rise construction technology.

Veteranların sosial inklüzivliyinin təmin olunması baxımından sərəncamın əhəmiyyəti çoxşaxəlidir. İlk olaraq, bu sərəncam müharibə iştirakçılarını sosial cəhətdən qoruyur və onların dövlət dəstəyindən bəhrələnməsini təmin edir. Mərkəzləşdirilmiş elektron informasiya sisteminin "Zəfər" altsistemi vasitəsilə məlumatların vahid bazada idarə edilməsi veteranların hüquqlarının operativ şəkildə tanınmasına, onlara güzəştlərin tətbiqinə və digər sosial təminatların təmin edilməsinə şərait yaradır. Bu yanaşma həm şəffaflığı təmin edir, həm də dövlətin bu kateqoriyaya aid şəxslərə olan münasibətini sistematik bir çərçivədə qurur. Həmçinin, "Müharibə veteranı" adı və vəsiqəsinin verilməsi bu şəxslərin sosial statusunu artırır və onların cəmiyyətə inteqrasiyasını daha da gücləndirir. Təqaüdün və digər güzəştlərin təmin edilməsi ilə yanaşı, belə bir mexanizmin tətbiqi veteranların iqtisadi və sosial həyatlarında aktiv iştirakını dəstəkləməklə sosial inklüzivliyi möhkəmləndirir. Nəticədə, bu sərəncam dövlətin Vətən müharibəsi iştirakçılarına və onların ailələrinə olan minnətdarlıq və qayğısını konkret hüquqi və praktiki addımlarla göstərən bir nümunədir.

7 may 2024-cü il tarixində Prezident İlham Əliyev tərəfindən imzalanmış “Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında”, “Çernobıl qəzasının ləğvində iştirak etmiş və həmin qəza nəticəsində zərər çəkmiş vətəndaşların statusu və sosial müdafiəsi haqqında”, “Veteranlar haqqında”, “Qaçqınların və məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) statusu haqqında”, “Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında”, “Peşə təhsili haqqında” və “Əlilliyi olan şəxslərin hüquqları haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanunu isə öz növbəsində Azərbaycanın müxtəlif sosial qruplarının, o cümlədən şəhid ailələrinin, müharibə veteranlarının, məcburi köçkünlərin, əlilliyi olan şəxslərin, Çernobıl qəzasında iştirak edənlərin və valideynlərini itirmiş uşaqların sosial müdafiəsini gücləndirmək məqsədilə bir sıra mühüm dəyişikliklər və əlavələr təqdim edir. Qanunun əsas yenilikləri təhsil haqqının dövlət büdcəsi hesabına ödənilməsi ilə bağlıdır ki, bu da adıçəkilən qrupların təh-

sil imkanlarını artırmağa, onların sosial və peşəkar inkişafına dəstək olmağa yönəlib. Qanunun müxtəlif maddələrində təsbit edilmiş dəyişikliklər hər bir xüsusi qrupun ehtiyaclarına uyğunlaşdırılmış mexanizmlər təqdim edir. Məsələn, şəhid ailələrinin, məcburi köçkünlərin və valideyn himayəsindən məhrum uşaqların təhsil haqqının dövlət büdcəsi ilə təmin edilməsi onların maliyyə yükünü azaldaraq təhsil sahəsində bərabər imkanlar yaradır. Bundan əlavə, Çernobıl qəzasında iştirak edənlərin və onların ailələrinin hüquqlarını genişləndirmək məqsədilə əlavə maddələr daxil edilib ki, bu da dövlətin sosial məsuliyyət prinsipinə uyğun addım kimi qiymətləndirilir [10].

Veteranların sosial inklüzivliyi baxımından bu qanunun əhəmiyyəti xüsusi vurğulanmalıdır. “Veteranlar haqqında” qanuna edilmiş dəyişikliklər veteranların sosial və iqtisadi inteqrasiyasını gücləndirmək məqsədini daşıyır. Təhsil haqqının dövlət büdcəsi ilə ödənilməsi veteranların və onların ailə üzvlərinin peşəkar inkişafını və cəmiyyətdə daha fəal iştirakını təmin etməyə yönəlib. Bu, yalnız maddi dəstək deyil, həm də sosial inklüzivlik baxımından onların cəmiyyətin müxtəlif sahələrində iştirakını təşviq edir. Həmçinin, əlilliyi olan şəxslər və müharibə veteranları üçün bərabər təhsil imkanlarının təmin edilməsi, onların öz potensiallarını reallaşdırmalarına və cəmiyyətin tamhüquqlu üzvlərinə çevrilmələrinə şərait yaradır. Qanunun bu aspektləri dövlətin müxtəlif sosial qrupların ehtiyaclarına yönəlik siyasətinin davamlılığını və onların hüquqlarını müdafiə etməkdə qətiyyətini göstərir. Beləliklə, bu qanun həm sosial müdafiə mexanizmlərini möhkəmləndirir, həm də müxtəlif sosial qruplar arasında bərabərlik və inklüzivliyi təmin edir.

Nəticə

Beləliklə, tədqiqatımızın nəticəsi kimi qeyd edə bilərik ki, Azərbaycanda müharibə veteranlarının sosial inklüzivliyinin təşkilinin hüquqi və institusional bazası çoxşaxəli və sistematik bir çərçivəyə əsaslanır. Bu baza müxtəlif qanunlar, fərmanlar və sərəncamlarla gücləndirilmişdir. Əsas hüquqi sənədlərdən biri olan "Veteranlar haqqında" qanun müharibə veteranlarının sosial müdafiəsini təmin edən əsas çərçivəni təşkil edir. Bu qanun veteranların hüquqlarını tanıyır, onların sosial təminatını və dövlət dəstəyini hüquqi müstəvidə qoruyur. 2019-cu ildə imzalanan “Müharibə veteranlarına Azərbaycan Respublikası Prezidentinin təqaüdü” Prezident Fərmanı veteranların maliyyə təminatını gücləndirərək onların sosial həyatın müxtəlif sahələrinə inteqrasiyasını dəstəkləmişdir. Veteranlara təqaüdün proaktiv olaraq e-sistemlər vasitəsilə təyin edilməsi və ödənişlərin geriyə hesablanaraq həyata keçirilməsi dövlətin bu sahədə şəffaflıq və sürətə verdiyi önəmi göstərir. Bundan başqa, 2020-ci ildə təsis edilən “YAŞAT” Fondu şəhid ailələri və qazilərə dövlət və vətəndaş cəmiyyəti resurslarını birləşdirərək maddi və sosial dəstək təmin edir, onların hüquqlarının daha effektiv şəkildə qorunmasını təmin edir.

Azərbaycanda veteranların sosial müdafiəsinin təşkilində institusional mexanizmlər xüsusi əhəmiyyət daşıyır. Mərkəzləşdirilmiş Elektron İnformasiya Sistemi (MEİS) və “e-sosial” internet portalı bu sahədə inteqrasiya olunmuş bir idarəetmə modeli təqdim edir. “Zəfər” altsistemi vasitəsilə müharibə veteranları və şəhid ailələri ilə bağlı məlumatlar vahid platformada toplanır, bu da onlara göstərilən sosial xidmətlərin daha effektiv və çevik şəkildə həyata keçirilməsinə imkan yaradır. Təhsil haqqının dövlət

büdcəsi hesabına ödənilməsi, veteranların mənzil şəraitinin yaxşılaşdırılması, onların ictimai işlərə və məşğulluq proqramlarına cəlb olunması kimi tədbirlər inklüzivliyin təmin olunmasında mühüm rol oynayır. Veteran təşkilatlarının yaradılması və fəaliyyətinin dövlət tərəfindən dəstəklənməsi, onların beynəlxalq əməkdaşlıq imkanlarının artırılması və sosial hüquqlarının müdafiəsi bu sahədə əlavə töhfələr verir. Dövlət və cəmiyyətin birgə fəaliyyəti nəticəsində formalaşan bu mexanizmlər sosial ədalət prinsipini möhkəmləndirir və veteranların cəmiyyətdəki mövqeyini gücləndirir.

Azərbaycanın veteranların sosial inklüzivliyinin təmin edilməsində unikal xüsusiyyətləri digər ölkələrdən fərqli olaraq, dövlətin və vətəndaş cəmiyyətinin birgə resurslarını istifadə etməklə çoxşaxəli dəstək sisteminin yaradılmasından ibarətdir. Xüsusilə, "YAŞAT" Fondunun yaradılması yalnız dövlət vəsaitlərinə deyil, eyni zamanda ictimai ianələrə əsaslanaraq şəhid ailələri və qazilərə yardım etmək məqsədini güdür. Bundan başqa, e-sosial sistemlərin geniş tətbiqi ilə veteranlara verilən hüquq və güzəştlərin mərkəzləşdirilmiş idarə olunması, dövlət resurslarının şəffaflıqla bölüşdürülməsi və ictimai nəzarət vasitəsilə həyata keçirilməsi diqqətəlayiqdir. Bu yanaşma veteranların hüquqlarının qorunmasında operativliyi və effektivliyi təmin edir.

Bundan əlavə, Vətən müharibəsinin iştirakçılarına Prezident təqaüdü geriyə hesablanaraq təmin edilmişdir. Bu, dövlətin sosial öhdəliklərinin tam yerinə yetirilməsinə yönəlmiş unikal bir nümunədir. Çox az ölkələrdə təqaüd geriyə hesablanaraq ödənilir. Veteranların özünüməşğulluq proqramları ilə iqtisadi müstəqilliyinin təmin olunması və onların sosial reabilitasiyasına xüsusi diqqət ayrılması Azərbaycanın bu sahədəki unikal yanaşmasını daha da önə çıxarır. Beləliklə, veteranların sosial inklüzivliyinin təmin edilməsinin Azərbaycan modeli həm dövlətin strateji baxışını, həm də cəmiyyətin həmrəylik ruhunu birləşdirərək sosial inklüzivliyin effektiv təmin edilməsini həyata keçirir.

İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT

1. "ASAN xidmət"dən Qarabağ veteranlarına qayğı. /ASAN Xidmət. 26 iyun 2014/. URL: https://asan.gov.az/media/press-releases/asan-xidmet-den-qarabag-veteranlarina-qaygi

2. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin "Mərkəzləşdirilmiş elektron informasiya sistemi haqqında Əsasnamə"nin və "e-sosial" internet portalı haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı. /15 aprel 2019-cu il/. URL: https://e-qanun.az/framework/41978

3. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş elektron informasiya sistemi haqqında Əsasnamə. Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 15 aprel tarixli Fərmanı ilə təsdiq edilmişdir // "Xalq qəzeti", 16 aprel 2019-cu il, s.7.

4. Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda döyüş əməliyyatlarında iştirak etmiş şəxslərə "Müharibə veteranı" adının verilməsi ilə bağlı tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. /29 dekabr 2021-ci il/. URL: https://e-qanun.az/framework/48781

5. Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək fondunun (“YAŞAT” Fondu) yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. /8 dekabr 2020-ci il/. URL: https://president.az/az/articles/view/48582

6. Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlil olmuş şəxslərin və şəhid ailələrinin sosial-məişət şəraitinin yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. /22 dekabr 2014-cü il/. URL: https://e-qanun.az/framework/28934

7. Hüseynov, E. "YAŞAT" yaşatmaq üçün fəaliyyət göstərir // "Xalq qəzeti", 8 iyul 2021-ci il, s.5.

8. Müharibə veteranlarına dəstək. Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi. URL: https://sosial.gov.az/fealiyyet/sehid-aileleri-ve-muharibe-istirakcilarina-destek/muharibe-veteranlarina-destek

9. “Müharibə veteranlarına Azərbaycan Respublikası Prezidentinin təqaüdü”nün təsis edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. /15 aprel 2019-cu il/. URL: https://e-qanun.az/framework/41954

10. “Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında”, “Çernobıl qəzasının ləğvində iştirak etmiş və həmin qəza nəticəsində zərər çəkmiş vətəndaşların statusu və sosial müdafiəsi haqqında”, “Veteranlar haqqında”, “Qaçqınların və məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) statusu haqqında”, “Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında”, “Peşə təhsili haqqında” və “Əlilliyi olan şəxslərin hüquqları haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanunu. /7 may 2024-cü il/. URL: https://e-qanun.az/framework/56995

11. Şəhid və şəhid ailəsi statusu almış şəxslərin, müharibə veteranlarının elektron reyestri yaradılacaq. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi. /8 avqust 2022-ci il/. URL: https://sosial.gov.az/media/xeberler/post_578904

12. “Veteranlar haqqında” Azərbaycan Respublikası Qanununun icra edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı. /16 fevral 1995-ci il/. URL: https://e-qanun.az/framework/12398

13. Veteranlar haqqında Azərbaycan Respublikasının Qanunu. 28 iyun 1994-cü il. URL: https://e-qanun.az/framework/8964

14. “YAŞAT" Fondu tərəfindən tibbi xərclər qarşılanır. ASAN Xidmət. /2 fevral 2021/. URL: https://asan.gov.az/media/press-releases/yasat-fondu-terefinden-tibbi-xercler-qarsilanir

15. “Zəfər” altsistemi şəhid ailələri və qazilərə sosial dəstək sahəsində sistemli və çevik məlumat mübadiləsinə imkan yaradıb. Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi. /7 iyun 2022/. URL: https://sosial.gov.az/media/xeberler/post_557704

Shirin Mahammad

ANALYSIS OF LEGAL FRAMEWORK SUPPORTING SOCIAL INCLUSION OF WAR VETERANS IN AZERBAIJAN

Abstract

Ensuring the social inclusion of war veterans in Azerbaijan is a key priority of the country's social policy. Following the 44-day Patriotic War, extensive legal and institutional measures have been implemented to facilitate the integration of veterans and families of martyrs into society. State legislation, such as the "Law on Veterans," alongside mechanisms like the "YASHAT" Foundation, aim to strengthen social protection and improve living conditions for these groups. Additionally, the use of digital technologies—particularly the Centralized Electronic Information System and the "e-social" platform—enhances transparency and efficiency in social protection management. This study analyzes the role of the legal framework and institutional structures in promoting the social inclusion of war veterans. Employing methods such as normative legal document analysis, comparative approaches, and institutional analysis, the research examines key elements including legislative improvements, the implementation of presidential stipends, and the management of "YASHAT" Foundation resources. Findings reveal that the Azerbaijani model uniquely combines state resources and public solidarity to enhance social inclusion. Critical mechanisms include the automatic assignment of stipends through electronic systems, digital management of social services, and state-funded education fees, all of which increase the effectiveness of social policies. This approach contributes to social justice and fosters mutual trust between the state and society. The study concludes that Azerbaijan's experience may serve as a valuable model for other countries and provide a foundation for further research on this topic.

Keywords: war veterans, social inclusion, social rights of veterans, Patriotic War

BUILDING DISASTER AWARENESS AMONG ADOLESCENTS IN INDONESIA: **CASE STUDY OF EARTHQUAKE-PRONE AREAS**

Reza APRIANTI,
Doctoral Student in Social Communication
Faculty of Social Science and Psychology
Baku State University
Universitas Islam Negeri Raden Fatah Palembang,
Indonesia

E-mail: reza.aprianti@bsu.edu.az
rezaaprianti_uin@radenfatah.ac.id

ORCID ID: 0000-0003-4367-7743

Abstract. Information about natural disasters and preparedness is crucial for communities residing in disaster-prone regions. This study investigates how to effectively build disaster awareness among adolescents, focusing specifically on earthquakes, which frequently occur in their area. The research subjects include secondary school and vocational school students in Pagar Alam City, South Sumatra Province, as well as representatives from the Pagar Alam City Disaster Management Agency. Employing a qualitative case study approach, data were collected through interviews and focus group discussions. The analysis is grounded in risk communication theory, emphasizing communication strategies in fostering adolescents' disaster awareness. Findings reveal several stages in the awareness-building process, including socialization efforts, focus group discussions, use of social media, and disaster simulation training.


Keywords: disaster awareness, disaster mitigation, disaster communication, adolescents, social media, Indonesia, earthquake, Regional Disaster Management Agency (BPBD)

Background

Indonesia is highly susceptible to natural disasters due to its location at the convergence of four tectonic plates: the Asian continental plate, the Australian continental plate, the Indian Ocean plate, and the Pacific Ocean plate. Data show that Indonesia experiences seismic activity at a rate more than ten times higher than that of the United States [1]. Among its many disaster-prone regions, the city of Pagar Alam in South Sumatra Province is particularly vulnerable to earthquakes because it lies at the foot of Mount Dempo [2].

The significant disaster risk in this area demands focused attention from both government authorities and local communities during the pre-disaster and post-disaster phases [3]. Pre-disaster preparedness, commonly referred to as mitigation, is especially critical in high-risk areas. Mitigation aims to reduce the risks and consequences of natural disasters by raising public awareness, preparing communities, and decreasing vulnerability, ultimately safeguarding lives and property.

Figure 1: Disaster cycle



The stages of the disaster cycle can be categorized into two groups. The first group consists of emergency response and recovery, while the second group includes mitigation and preparedness. Emergency response and recovery take place immediately after a disaster and primarily focus on managing the impacts of the event. In contrast, mitigation and preparedness occur mainly during normal conditions, with the primary goal of preparing for future disasters [4]. Click or tap here to enter text.

Disaster mitigation education should begin early, particularly in schools, to ensure that younger generations understand how to reduce disaster risks. Through training and simulations, students can learn appropriate actions to take during emergencies, enabling them to share this knowledge with their families and communities. Furthermore, the government must strengthen infrastructure and early warning systems to enhance overall community preparedness [5].

Previous research on adolescents, particularly secondary school students in Pagar Alam City, examined their knowledge of the disaster risks in their area. The study found that most respondents were aware that they lived in a disaster-prone zone, especially for earthquakes, given that Pagar Alam City is located at the foot of the active Mount Dempo, according to data from the National Disaster Management Agency (BNPB). The Regional Disaster Management Agency (BPBD), a local government body responsible for disaster management in the region, plays a key role in these efforts. However, the study revealed that 68.9% of adolescents had not received disaster information or response training from official government agencies such as BPBD. Instead, the majority relied on social media platforms like Facebook for information, accounting for 34.9% of their sources [6].

This serves as a basis for conducting follow-up activities focused on socialization and raising awareness among young people about disaster communication,

including knowledge of local wisdom in Pagar Alam City, which can contribute to disaster mitigation. Local wisdom plays a crucial role in disaster mitigation because traditional knowledge and practices, passed down through generations, often offer relevant and effective solutions for managing disaster risks [7] [8] [9]. Communities that incorporate and adapt local wisdom into their mitigation strategies tend to exhibit greater resilience, as they possess a deeper understanding of their environment and the potential hazards they face [10]. These disaster awareness initiatives are a collaborative effort between academics from a university in South Sumatra and the Pagar Alam City Disaster Management Agency (BPBD).

Problem statement

How is disaster awareness developed among adolescents in Pagar Alam City?

Objectives

To analyze the efforts and strategies employed to build disaster awareness among adolescents in Pagar Alam City.

Research methodology

Research type. This study employs a qualitative case study approach. This methodology was selected because it allows for an in-depth understanding of the communication phenomenon under investigation—specifically, disaster communication and youth awareness within the context of local wisdom through the socialization process.

Research location. The research was conducted in Pagar Alam City, South Sumatra Province, an area classified as earthquake-prone according to data from the National Disaster Management Agency (BNPB). The region is also notable for its local wisdom, which is closely linked to disaster mitigation practices. The study focuses on adolescents aged 15 to 20 years who attend Secondary School No. 1 in Pagar Alam City and Vocational School No. 4 in Dempo Selatan. These schools were selected as target groups for socialization efforts based on local wisdom-centered disaster communication

Data collection techniques. Data were collected through in-depth interviews with adolescents, specifically students from secondary and vocational schools, as well as representatives from the Pagar Alam City Government, notably the Regional Disaster Management Agency (BPBD), which is responsible for disaster prevention and mitigation in the area. Interviews also involved socialization facilitators to explore their perspectives on disaster communication and local wisdom. Additionally, the socialization process included Focus Group Discussions (FGDs) with adolescents and teachers to discuss the understanding and application of local wisdom in disaster contexts. The outcomes of these activities were documented through materials and photographs to support the study.

Data analysis techniques. Data analysis involved identifying key findings from the interviews and FGDs related to adolescents' understanding of disasters and the role of local wisdom in disaster mitigation.

Literature Review

Disaster communication. Communication is generally defined as the process of transmitting messages from a sender to a receiver with the aim of creating shared understanding and reducing uncertainty [11]. In disaster contexts, the need for accurate and reliable information makes communication especially critical. Frank Dance [12] emphasizes that a central aspect of communication is the reduction of uncertainty. The communication process

aims to minimize uncertainty to facilitate effective information exchange. In disaster management, precise information is essential to lessen the adverse effects of disasters.

Disaster communication extends beyond the immediate emergency and post-disaster phases to include the pre-disaster stage, commonly referred to as mitigation. Communication plays a vital role in ensuring the success of all disaster management phases—mitigation, preparedness, response, and recovery. Effectively communicating disaster-related messages to the public, government agencies, media, and opinion leaders can significantly reduce risks, save lives, and mitigate disaster impacts [13].

Disaster mitigation. Disaster mitigation refers to a series of measures aimed at reducing the adverse effects of both natural and man-made disasters [14]. Its primary objectives are to minimize risks and losses, increase public awareness and knowledge, prepare infrastructure and facilities, and develop effective emergency response plans. Disaster mitigation can be categorized into structural and non-structural measures. Structural mitigation includes physical constructions designed to lessen disaster risks, such as earthquake-resistant buildings, flood embankments, and tsunami-resistant piers. Non-structural mitigation focuses on enhancing public awareness through training, socialization, and the formulation of emergency response plans [15].

The disaster mitigation cycle encompasses three phases: pre-disaster, during disaster, and post-disaster. The pre-disaster phase involves proactive efforts to reduce disaster risks and minimize casualties. During the disaster, the emphasis shifts to evacuation and rescue operations. The post-disaster phase focuses on repairs, reconstruction, and recovery efforts across all aspects of community life [16].

Risk communication theory. This theory focuses on how to effectively convey information about risks to the public to enhance their understanding and enable better risk management. It encompasses communication strategies aimed at increasing awareness and comprehension of the hazards people face. Within disaster communication, the mitigation stage is considered a crucial aspect of risk communication. Mitigation involves preventive measures, including raising awareness about the potential impacts of disasters and encouraging preparedness actions.

Key characteristics of risk communication include the use of data-based information, relying on scientific evidence to provide accurate and reliable messages. It also emphasizes two-way interaction, facilitating dialogue between the sender and receiver to address concerns and questions. Additionally, risk communication must consider relevant context by tailoring messages to the specific social, cultural, and situational circumstances of the target audience [16].

Law No. 24 of 2007 of the Government of the Republic of Indonesia on Disaster Management defines a disaster as an event or series of events that threaten and disrupt community life, caused by natural, non-natural, or human factors, resulting in loss of life, environmental damage, property destruction, and psychological impacts [17]. Disaster management is a critical measure for reducing disaster risk, primarily through mitigation efforts. Disaster mitigation encompasses a range of actions aimed at lowering disaster risks, including physical infrastructure development as well as awareness-raising and capacity-building initiatives to address disaster threats. According to Article 47(2)(c), one form of disaster mitigation is education, outreach, and training, which can be delivered

through both conventional and modern methods.

Results and discussion

Building awareness of disasters among adolescents

The adolescents involved in this study were students from Pagar Alam City Senior Secondary School No. 1 and Dempo Selatan Vocational School No. 4. Previous research indicates that, on average, 60.3% of these students are aware that they live in a disaster-prone area, with roughly one natural disaster occurring annually in the region [6]. Despite this awareness, the majority have never participated in disaster response training provided by the Regional Disaster Management Agency (BPBD). Instead, their primary source of disaster-related information is social media, particularly Facebook, which accounts for 34.9% of their information sources.

Enhancing disaster awareness among adolescents in Pagar Alam City is a crucial step, given that the area is classified as disaster-prone, particularly with regard to earthquakes. Data shows that while 60.3% of adolescents are aware of their geographical risks, most have never received disaster response training from the Regional Disaster Management Agency (BPBD). This reveals a gap between awareness and the practical skills needed to effectively respond to emergencies. To address this, university academics partnered with the BPBD of Pagar Alam City to implement several activities aimed at increasing adolescents' awareness through disaster communication education. Much of this knowledge centers on risk assessment; however, risk management often requires action even amid uncertainty or limited understanding of potential consequences related to human activities [18]. Consequently, a series of stages have been implemented in the process of raising adolescents' disaster awareness, as follows:

a. Socialization

This activity is conducted through seminars and campaigns held in schools. It delivers interactive information about various types of disasters, mitigation strategies, and emergency response procedures. Engaging adolescents in this process not only enhances their knowledge but also fosters a sense of responsibility for their own safety and the well-being of their environment. To make the information more accessible and memorable, engaging methods such as social media and visual aids are utilized.

Additionally, the socialization includes sharing knowledge about local wisdom unique to the indigenous people of Pagar Alam City, such as the construction of earthquake-resistant houses known as Ghuma Bahi, which have been used for centuries [19].

The sessions are led by university academics specializing in disaster communication, who focus on effective communication during disaster situations and the role of media in information dissemination. Following this, a representative from the BPBD discusses disaster preparedness measures.

b. Focus group discussion (FGD)

FGDs provide an effective platform to explore adolescents' understanding and perceptions of disasters in greater depth. During these sessions, adolescents share their experiences, ask questions, and discuss various topics related to disasters introduced in the prior socialization activities. This interactive format helps deepen their comprehension of the risks involved and appropriate ways to respond.

Moreover, FGDs serve as a valuable tool for identifying adolescents' needs

and expectations concerning disaster response training. Insights gathered from these discussions enable the BPBD to design programs that are more relevant and tailored to the local context and community requirements.

c. Use of social media

Social media serves as an effective medium for disseminating information within the disaster communication process. According to We Are Social, Indonesia had 143 million social media users as of January 2025. Among the platforms, Facebook ranks as the third most widely used, with 83% of users, following WhatsApp at 91% and Instagram at 84.6% [20].

Building on previous findings that identify Facebook as the primary source of disaster-related information for adolescents in Pagar Alam City, it is essential for the local government—specifically, the Pagar Alam City Disaster Management Agency (BPBD)—to prioritize Facebook as a key channel for disseminating disaster information. Although the BPBD already maintains

Figure 2. Most widely used social media platforms in Indonesia



a Facebook account, there is room for improvement in both content quality and the breadth of information shared. Incorporating engaging materials such as educational videos, infographics, and interactive quizzes can enhance adolescents' engagement with disaster-related topics. By leveraging a platform already familiar to adolescents, information can be distributed rapidly and extensively, thereby improving community preparedness and awareness.

d. Disaster simulation training

Disaster simulation training is designed to enhance preparedness and emergency response skills for various types of disasters. These exercises improve coordination, increase response effectiveness, and deepen participants' understanding of disaster management. The Regional Disaster Management Agency (BPBD) is responsible for organizing and conducting these training sessions.

According to interviews with the BPBD of Pagar Alam City, disaster simulation training—particularly earthquake evacuation drills—has been implemented in several schools. However, these efforts have not been comprehensive. To ensure a broader understanding of disaster awareness among adolescents, the frequency and scope of these simulation trainings need to be expanded.

Conclusion

Disaster awareness is vital for everyone, particularly those living in disaster-prone areas. Effective disaster communication between the government and the community plays a crucial role in minimizing losses caused by natural disasters. Engaging adolescents in disaster mitigation represents an appropriate and proactive preventive strategy. Ignorance in the face of disasters can be viewed as a form of negligence, given that while natural disasters cannot be prevented, they can be anticipated and prepared for. By combining socialization efforts, focus group discussions (FGDs), and the strategic use of social media, disaster awareness among adolescents in Pagar Alam City can be significantly enhanced, better equipping them to confront potential future disasters.

REFERENS:

1. "Badan Nasional Penanggulangan Bencana (BNPB)," Badan Nasional Penanggulangan Bencana.

2. I.A. Savitri., N.Ratih., M. Nurul., E.S.Dewanto., Y.Sigit., Suprayogi., R.Firman., A.Andi., S.J.Mulyo., A.Ruki., I.G.Ismail., S. Amanda., T.U.Suprapto., Baseline Kegunungapian Indonesia. Jakarta: Badan Nasional Penanggulangan Bencana (BNPB), 2012.

3. C. Warfield, "The Disaster Management Cycle," gdrc.org. Accessed: Jan. 12, 2024. [Online]. Available: https://www.gdrc.org/uem/disasters/1-dm_cycle.html

4. D. Sandler and A. K. Schwab, Hazard Mitigation and Preparedness. New York: Routledge, 2021. doi: 10.4324/9781003123897.

5. U. Nations Office for Disaster Risk Reduction, "Sendai Framework for Disaster Risk Reduction 2015 - 2030."

6. R. Aprianti, "Awareness of Earthquake Disaster Information by Teenagers in Pagar Alam City," Proceedings of International Conference on Communication Sci-

ence, vol. 2, no. 1, pp. 532–538, Nov. 2022, doi: 10.29303/iccsproceeding.v2i1.92.

7. G. Tuladhar, R. Yatabe, R. K. Dahal, and N. P. Bhandary, “Disaster risk reduction knowledge of local people in Nepal,” Geoenvironmental Disasters, vol. 2, no. 1, p. 5, Dec. 2015, doi: 10.1186/s40677-014-0011-4.

8. F. Berkes, Sacred Ecology, vol. 3rd Edition. New York: Routledge, 2012. doi: 10.4324/9780203123843.

9. J. Weichselgartner and P. Pigeon, “The Role of Knowledge in Disaster Risk Reduction,” International Journal of Disaster Risk Science, vol. 6, no. 2, pp. 107–116, Jun. 2015, doi: 10.1007/s13753-015-0052-7.

10. B. Smit and J. Wandel, “Adaptation, adaptive capacity and vulnerability,” Global Environmental Change, vol. 16, no. 3, pp. 282–292, Aug. 2006, doi: 10.1016/j.gloenvcha.2006.03.008.

11. P. Lestari, Komunikasi Bencana, Cetakan ke-3. Yogyakarta: PT. Kanisius, 2020.

12. S. W. Littlejohn and K. A. Foss, Theories of human communication. Waveland Press, 2011.

13. H. K. S. Haddow G.D., Disaster Communications in a Changing Media World. Elsevier, 2022. doi: 10.1016/C2020-0-04059-4.

14. D. S., & P. L. Mileti, “Disasters and Communities: Understanding Social Resilience,” The Australian Journal of Emergency Management, vol. 22, no. 2, May 2007, Accessed: May 29, 2025. [Online]. Available: https://www.researchgate.net/publication/27257187_Disasters_and_Communities_Understanding_Social_Resilience

15. E. Ibnu, “Mitigasi Bencana: Strategi, Tantangan dan Implementasi di Indonesia,” https://www.smartID.co.id.

16. BPBD Kabupaten Brebes, “Pentingnya Mitigasi Bencana,” https://www.brebeskab.go.id.

17. “UNDANG-UNDANG REPUBLIK INDONESIA NOMOR 24 TAHUN 2007.”

18. O. Renn, “Risk Governance; Coping with Uncertainty in a Complex World,” United Kingdom, 2008.

19. J. Hariadi, Identitas Kultur Orang Besemah di Kota Pagar Alam. Padang: Kementerian Pendidikan dan Kebudayaan Direktorat Jendral Kebudayaan Balai Pelestarian Nilai Budaya Padang, 2014.

20. Databoks, “Daftar aplikasi Sosial Media yang paling banyak di gunakan di Indonesia.”

Reza Aprianti

İndoneziyada yeniyetmələr arasında fəlakətlər haqqında məlumatlılığın təmin olunması: zəlzələyə meyilli ərazilərin nümunəsində

Xülasə

Təbii fəlakətlər və fəlakətlərə hazırlıq haqqında məlumat fəlakətə meyilli ərazilərdə yaşayan icmalar üçün vacibdir. Bu araşdırma yeniyetmələr arasında xüsusən də öz bölgələrində tez-tez baş verən zəlzələlərlə bağlı məlumatlılığın necə qurulacağını müəyyən etmək məqsədi daşıyır. Tədqiqat subyektləri Cənubi Sumatra əyalətinin Pagar Alam şəhərindəki orta məktəb və orta peşə məktəbi tələbələri, eləcə də Pagar Alam Şəhər Fəlakət İdarəetmə Agentliyidir. Tədqiqatda case study yanaşması ilə keyfiyyət metodundan istifadə edilmişdir. Məlumatlar müsahibələr və fokus qrup müzakirələri vasitəsilə toplanılıb. Tədqiqat yeniyetmələrin fəlakətlər barədə məlumatlılığının artırılması prosesində ünsiyyət strategiyalarını əhatə edən risk kommunikasiyası nəzəriyyəsindən istifadə etməklə təhlil edilmişdir. Bu araşdırmanın nəticələri sosiallaşmadan, fokus qrup müzakirələrindən, sosial mediadan istifadədən və fəlakət simulyasiyası təlimindən başlayaraq, yeniyetmələrin fəlakətlər haqqında məlumatlılığının artırılması prosesində bir neçə mərhələni müəyyən etmişdir.

Açar sözlər: fəlakət haqqında məlumatlandırma, fəlakətin azaldılması, fəlakətlə bağlı ünsiyyət, yeniyetmələr, sosial media, İndoneziya, zəlzələ, Fəlakətlərin İdarəedilməsi üzrə Regional Agentlik (BPBD)

UŞAQLARA QARŞI ZORAKILIĞIN QARŞISININ ALINMASINDA TEXNOLOGİYA VƏ TƏHSİLİN ROLU

Ayxan QƏHRƏMANOV
Azərbaycan Turizm və Menecment Universitetinin doktorantı
(Bakı, Azərbaycan)

E-mail: ayxanqehremanov@gmail.com
ORCID ID: 0009-0002-2605-4771
UOT 31

Xülasə. Müasir cəmiyyətdə uşaqlara qarşı zorakılıq həm fərdi, həm də ictimai səviyyədə ciddi təsirləri ilə qlobal bir problem olaraq qarşımızda durur. Bu cür zorakılıq uşaqların emosional, fiziki və sosial inkişafını ciddi şəkildə pozmaqla yanaşı, onların gələcək həyatlarına da əhəmiyyətli dərəcədə mənfi təsir göstərir. Bu problemi aradan qaldırmaq və zorakılıq hallarını minimuma endirmək üçün texnologiya və təhsilin birgə səyləri əvəzsiz əhəmiyyət daşıyır.

Müasir texnologiyalar, xüsusilə süni intellekt və rəqəmsal təhlükəsizlik vasitələri zorakılığın erkən aşkarlanması və qarşısının alınması üçün yeni və təsirli həll yolları təklif edir. Eyni zamanda, təhsil müəssisələri və ictimai maarifləndirmə tədbirləri həm valideynlərin, həm də cəmiyyətin məsuliyyət hissini gücləndirərək zorakılığın köklərini aradan qaldırmağa kömək edir. Təhsil zorakılığın səbəblərinin dərindən anlaşıldığı və onların qarşısının alındığı bir mühit yaratmaq üçün əsas vasitə rolunu oynayır.

Məqalədə texnologiya ilə təhsilin inteqrasiyasının uşaqlara qarşı zorakılığın qarşısının alınmasındakı potensialı təhlil edilir. Texnoloji yeniliklər və təhsilin təsir gücü bir araya gətirilərək, gələcək nəsillər üçün daha təhlükəsiz və sağlam bir cəmiyyətin qurulmasına necə töhfə verə biləcəyi müzakirə edilir.

Açar sözlər: zorakılıq, uşaq, ailə, texnologiya, təhsil, süni intellekt

Giriş

Son dövrlərdə uşaqlara qarşı zorakılıq dünya miqyasında müzakirə edilən əsas sosial problemlərdən birinə çevrilmişdir. Hər il milyonlarla uşaq fiziki, emosional və ya sosial zorakılığın qurbanı olmaqla həm fərdi, həm də ictimai həyatlarında dərin təsirə məruz qalır. Bu təsirlər yalnız uşaqların cari yaşantılarına deyil, onların gələcək həyatına, emosional balansına və sosial mövqeyinə ciddi təsir göstərir. Belə bir problemin həlli yalnız uşaqların müdafiəsi ilə məhdudlaşmır, eyni zamanda cəmiyyətlərin bütövlükdə sosial rifahını qorumaq və inkişaf etdirmək üçün mühüm addımlar tələb edir. Bu çərçivədə texnologiya və təhsil birgə səyləri ilə zorakılığın qarşısının alınmasında strateji rol oynayır.

Müasir texnologiyalar uşaqların hüquqlarını qorumaq üçün müxtəlif yeni alətlər təqdim edir. Süni intellekt və rəqəmsal təhlükəsizlik vasitələri zorakılığın erkən aşkarlanması və təhlükəsiz mühit təmin etmək üçün təsirli həll yolları yaradır. Alqoritmik analizlər və müasir texnologiyaların tətbiqi ilə zorakılıq halları effektiv şəkildə idarə olunur və qurbanlara dəstək göstərilir. Texnologiya yalnız zorakılığın qarşısını almaqla kifayətlənmir, həm də cəmiyyət üzərindəki maarifləndirmə prosesində güclü təsirə malik olur.

Digər tərəfdən, təhsil sistemi zorakılığın köklərini aradan qaldırmaq üçün müstəsna əhəmiyyət daşıyır. Təhsil müəssisələri uşaqları öz hüquqlarını tanımağa, məsuliyyətli davranış nümunələrini inkişaf etdirməyə və zorakılıq hallarına qarşı daha hazırlıqlı olmağa yönəldir. Maarifləndirmə kampaniyaları və təlim proqramları cəmiyyətin bütün üzvlərinə zorakılıqla mübarizə yollarını aşılayır və sosial məsuliyyət hissini gücləndirir.

Bu baxımdan aşağıdakı 4 əsas məqamı araşdırmaq bu araşdırma daxilində önəmlidir:

1. Rəqəmsal platformaların rolu: Mobil tətbiqlər və onlayn resurslar vasitəsilə zorakılığın qarşısının alınması üsulları;

2. Təhsil proqramlarının əhəmiyyəti: Məktəblərdə zorakılığın qarşısının alınması məqsədilə təhsil tədbirlərinin təsiri;

3. Rəqəmsal maarifləndirmə ilə zorakılığa qarşı təhlükəsiz dünya;

4. Beynəlxalq təcrübə: UNICEF və digər təşkilatların texnologiya ilə təhsilin inteqrasiyasına dair uğurlu təşəbbüsləri.

Bu inteqrasiya olunmuş yanaşma uşaqların müdafiəsi ilə yanaşı, gələcək nəsillər üçün daha təhlükəsiz, inkişaf etmiş və harmonik bir cəmiyyətin qurulmasına töhfə verir.

1. Zorakılığın qarşısının alınmasında rəqəmsal platformaların rolu

Rəqəmsal platformalar uşaqlara qarşı zorakılığın qarşısının alınmasında müasir dövrün ən güclü vasitələrindən birinə çevrilmişdir. Mobil tətbiqlər, sosial media və onlayn resurslar vasitəsilə həm məlumatlandırma, həm də müdaxilə üsulları daha geniş əhali qruplarına çatdırılmaq imkanı yaradır. Bu platformalar uşaqların müdafiəsi və zorakılığın qarşısının alınmasında multidisiplinar bir yanaşmanın mühüm komponenti olaraq istifadə olunur. Məsələn, mobil təhlükəsizlik tətbiqləri valideynlərə, müəllimlərə və icma liderlərinə zorakılıq hallarını tanımaq və vaxtında müdaxilə etmək üçün güclü vasitələr təqdim edir. Bu tətbiqlər istifadəçilərə uşaqların onlayn fəaliyyətlərini monitorinq etmək, riskləri qiymətləndirmək və zorakılıq hallarına qarşı xəbərdarlıqlar göndərmək kimi funksiyalar təklif edir. Valideynlər bu

platformalar vasitəsilə uşaqların təhlükəsizlik standartlarını daha yaxşı qoruyaraq onların hüquqlarını müdafiə edə bilirlər. Eyni zamanda, bu platformalar qurbanlara dəstək vermək və potensial zorakılıq halları qarşısında preventiv tədbirlər həyata keçirmək üçün dəstək mexanizmləri təqdim edir.

Bu məqamda müasir dövrün zorakılıqla bağlı olan yeni bəlası kiberzorakılığı vurğulamaq yerinə düşər. Kiberzorakılıq müasir rəqəmsal dünyada uşaqlar üçün ən böyük təhdidlərdən birinə çevrilmişdir. Sosial media, onlayn oyun platformaları və digər rəqəmsal məkanlarda uşaqlar psixoloji və emosional zorakılığın qurbanı ola bilərlər. Bu cür zorakılıq onların özünə inamını azaldır, emosional balansını pozur və hətta fiziki sağlamlıqlarına mənfi təsir göstərə bilir. Problemin köklərini anlamaq və uşaqları qorumaq üçün rəqəmsal platformaların rolu böyükdür.

Mobil tətbiqlər və onlayn təhlükəsizlik vasitələri valideynlərə uşaqların təhlükəsizliyini təmin etməkdə yardımçı olur, həm də uşaqların onlayn mühitdə qarşılaşdığı təhlükələri zamanında aşkar edir. Uşaqların psixoloji və emosional rifahını qorumaq üçün texnologiyanın verdiyi imkanlar, təhlükəsiz və sağlam bir onlayn mühitin yaradılmasında əsas rol oynayır.

Sosial media platformaları UNICEF ilə əməkdaşlıq edərək, kiberzorakılıqla mübarizə üçün maarifləndirici məzmunlar və istifadəçilərə dəstək təklif edir. Maarifləndirmə kampaniyaları vasitəsilə zorakılığın təsirlərini nümayiş etdirən və bu problemin cəmiyyətdəki əhəmiyyətini vurğulayan məzmunlar geniş yayılır. Sosial media həm qurbanları, həm də zorakılıq hallarını görənləri zorakılığın təsirlərini tanımağa və bu halları anonim şəkildə bildirməyə təşviq edir. Real vaxtlı bildirişlər və qaynar xətlərin istifadəsi ilə yardım proqramları daha geniş kütlələr üçün əlçatan olur. Bundan əlavə, sosial şəbəkələrdə zorakılığa qarşı qlobal kampaniyalar vasitəsilə ictimaiyyət bu məsələyə qarşı daha birləşmiş bir yanaşma göstərir [2].

Bu rəqəmsal texnologiyalar yalnız məlumatlandırmaqla kifayətlənmir, həm də zorakılıq hallarını bildirmək, monitorinq etmək və həll yolları təqdim etmək üçün güclü bir infrastruktur yaradır. Məsələn, aşağıdakı rəqəmsal platformalar uşaqların təhlükəsizliyini təmin etmək üçün onların hüquqlarını qorumaqda necə güclü bir vasitə olduğunu göstərir:

1. Bark: Bu platforma valideynlərə uşaqlarının onlayn fəaliyyətlərini izləmək üçün alətlər təqdim edir, eyni zamanda sosial media hesablarını, mesajları və e-poçtları monitorinq edərək kiberzorakılıq, zərərli məzmun və digər risklər barədə valideynlərə xəbərdarlıq edir.

2. Qustodio: Uşaqların internetdə təhlükəsizliyini təmin etmək üçün valideynlərə uşaqların ekran vaxtını idarə etmək, zərərli veb-saytlara girişini məhdudlaşdırmaq və onlayn fəaliyyətlərini izləmək imkanı verir.

3. Net Nanny: Uşaqların internetdə təhlükəsizliyini təmin etmək üçün güclü veb filtrləmə, tətbiq bloklama və ekran vaxtı idarəetmə xüsusiyyətləri təqdim edir. Həmçinin valideynlərə uşaqların onlayn fəaliyyətlərini izləmək və zərərli məzmunu bloklamaq imkanı verir.

4. FamiSafe: Uşaqların onlayn təhlükəsizliyini təmin etmək üçün geniş funksiyalar təklif edir. Valideynlərə uşaqların yerini izləmək, ekran vaxtını məhdudlaşdırmaq və potensial təhlükəli məzmunu bloklamaq imkanı verir. Eyni zamanda, kiberzorakılıq və digər onlayn təhlükələri aşkar etmək üçün alətlər təqdim edir.

5. Kaspersky Safe Kids: Uşaqların onlayn təhlükəsizliyini təmin etmək üçün məzmun filtrləmə, tətbiq idarəetmə və ekran vaxtı nəzarəti kimi xüsu-

siyyətlər təqdim edir. Valideynlərə uşaqların təhlükəsizliyini təmin etmək üçün coğrafi məhdudiyyətlər (geofencing) funksiyası da təklif edir [6].

Əlavə olaraq, uşaqların müdafiəsinə əsaslanan dünyada geniş yayılmış Big Data və blokçeyn texnologiyasını da qeyd etməyimiz yerinə düşər. Big Data zorakılıq halları ilə mübarizədə məlumatların geniş miqyasda təhlil edilməsi üçün effektiv bir texnologiyadır. Uşaqlara qarşı zorakılığın köklərini araşdırmaq və bu halları daha erkən aşkar etmək üçün Big Data sistemlərinin istifadəsi misilsiz imkanlar təqdim edir. Çoxlu məlumat bazalarından əldə edilən məlumatlar zorakılıq hallarını dəqiq şəkildə təhlil etməyə və effektiv həll yolları yaratmağa kömək edir.

Big Data vasitəsilə zorakılığın nümunələri və tendensiyaları izlənilir. Məktəblər, xəstəxanalar və hüquq-mühafizə orqanlarından gələn məlumatlar bir mərkəzə toplanır və bu məlumatların təhlili zorakılıq hallarını daha yaxşı başa düşməyə kömək edir. Big Data texnologiyası uşaqlar üçün yüksək riskli halları proqnozlaşdırmağa imkan verir. Sosial mediadan, kiberzorakılıq hesabatlarından və digər mənbələrdən toplanılan məlumatların təhlili yüksək risk göstəricilərini erkən mərhələdə müəyyən edir və preventiv tədbirlərin görülməsini təmin edir. Big Data süni intellekt texnologiyaları ilə birləşdirilərək daha dəqiq və sürətli təhlil aparmağa imkan verir. Bu inteqrasiya vasitəsilə zorakılıq halları avtomatik olaraq tanınır və aidiyyəti qurumlara xəbərdarlıqlar göndərilir.

Blokçeyn (blockchain) texnologiyası isə məlumatların təhlükəsiz saxlanılmasını təmin edən və manipulyasiya olunmayan rəqəmsal reyestrlər təqdim etməklə uşaqların təhlükəsizliyini qorumaqda mühüm bir vasitədir. Bu texnologiya zorakılıq hallarının izlənilməsi və müdaxilələr üçün etibarlı bir platforma təqdim edir.

Blokçeyn texnologiyası uşaqların hüquqları ilə bağlı məlumatların manipulyasiya edilməsinin qarşısını alır. Zorakılıq hallarının qeydləri, qurbanların identifikasiya məlumatları və hüquq-mühafizə orqanlarının əməliyyatları blokçeyn sistemlərində tam təhlükəsizliklə saxlanılır. Uşaqların təhlükəsizliyini təmin etmək üçün blokçeyn sistemləri şəxsiyyət məlumatlarını anonim saxlayır. Bu, zorakılıq halları barədə məlumat verən şəxslərin gizliliyini qoruyur və onların təhlükəsizliyini artırır. Blokçeyn vasitəsilə zorakılıq hallarının statistik izlənilməsi mümkün olur. Bu texnologiya zorakılıq hallarını lokal və qlobal miqyasda təhlil etməklə preventiv tədbirlərin daha effektiv həyata keçirilməsinə imkan yaradır. Uşaqların hüquqlarını qorumaq məqsədilə hüquqi proseslərin blokçeyn vasitəsilə izlənilməsi və idarə edilməsi mümkündür. Bu yanaşma daha şəffaf və hesabatlı bir sistemin yaradılmasını təmin edir [1].

2. Təhsil proqramlarının əhəmiyyəti

Uşaqlara qarşı zorakılığın qarşısının alınması məsələsində təhsil proqramları fundamental rol oynayır. Təhsil vasitəsilə uşaqlar öz hüquqlarını anlamağı, təhlükələri tanımağı və zorakılıq hallarına qarşı mübarizə aparmağı öyrənirlər. Məktəblər və digər təhsil müəssisələri uşaqların maarifləndirilməsi ilə yanaşı, cəmiyyətin bütün üzvlərinin məsuliyyət hissini gücləndirmək üçün platforma rolunu oynayır. Təhsilin təsiri təkcə uşaqlarla məhdudlaşmır; valideynlər, müəllimlər və geniş ictimaiyyət də bu təhsil prosesindən faydalanır.

Məktəblərdə zorakılıq halları ilə mübarizə aparmaq məqsədilə xüsusi maarifləndirmə kampaniyaları və proqramlar təşkil olunur. Bu proqramlar uşaqlara zorakılığın müxtəlif formalarını tanımağı və ona qarşı mübarizə aparmağı öyrə-

dir. Sosial-emosional təhsil (SEL) metodologiyası uşaqların öz emosiyalarını idarə etməyi, başqaları ilə sağlam münasibətlər qurmağı və konfliktləri dinc yollarla həll etməyi öyrənmələrini təmin edir. Bununla yanaşı, hüquqlar üzrə təlimlər uşaqların hüquq pozuntularını tanımasını və öz hüquqlarını qorumaq üçün düzgün addımlar atmasını təmin edir. Bu nöqteyi-nəzərdən məktəblərdə tətbiq olunması vacib olan tədbirlər aşağıda verilmişdir:

• ***Maarifləndirici seminarlar və təlimlər:*** Məktəblərdə zorakılığın təsirlərini izah edən və zorakılıq hallarını tanımağı öyrədən seminarlar təşkil olunmalıdır.

• ***Psixoloji dəstək xidməti:*** Uşaqlara zorakılıq halları ilə mübarizədə psixoloji dəstək göstərən mütəxəssis komandalar təmin edilməlidir.

• ***Təhsil proqramlarının mütəmadi monitorinqi:*** Zorakılığa qarşı tədbirlərin effektivliyini ölçmək və daim təkmilləşdirmək üçün davamlı monitorinq sistemlərindən istifadə olunmalıdır.

• ***Valideyn təlimləri:*** Valideynlər üçün zorakılıq halları ilə mübarizə aparmaq məqsədilə xüsusi maarifləndirmə sessiyaları keçirilməlidir.

Bu vacib tədbirlərlə yanaşı beynəlxalq sferada zorakılığın qarşısını almaq üçün bir sıra təşəbbüslər və uğurlu nümunələr mövcuddur. Məsələn:

▪ **UNICEF-in proqramları:** UNICEF uşaqların hüquqlarını qorumaq məqsədilə təhsil müəssisələrində geniş maarifləndirmə kampaniyaları təşkil edir. Bu kampaniyalar uşaqları zorakılıq hallarından qorumaq və onların hüquqlarını müdafiə etmək üçün nəzərdə tutulmuşdur. Məsələn, UNICEF "Schools as Zones of Peace" proqramı vasitəsilə uşaqları zorakılıq halları ilə mübarizə aparmağa öyrədir [5].

▪ **Save the Children:** Bu beynəlxalq təşkilat zorakılıq hallarını azaltmaq üçün təhsil müəssisələrində psixoloji dəstək proqramları və maarifləndirmə tədbirləri həyata keçirir. Save the Children ("Uşaqları xilas edin") zorakılığın qarşısını almaq üçün uşaqların və onların valideynlərinin aktiv şəkildə maarifləndirilməsini təşviq edir.

▪ **Plan International:** Bu təşkilat zorakılığın köklərini aradan qaldırmaq məqsədilə məktəb səviyyəsində müxtəlif təhsil proqramları həyata keçirir. Plan International zorakılığın təsirlərini azaltmaq üçün uşaqların və valideynlərin maarifləndirilməsi təşəbbüslərini irəli sürür.

Ümumi baxımdan qeyd bilərik ki, təhsil proqramları uşaqlara öz hüquqlarını tanımağı öyrədir və onlara zorakılığa qarşı mübarizə aparmaq üçün lazımi alətlər təqdim edir. Hüquqlar üzrə təlimlər uşaqları zorakılığa qarşı mübarizədə gücləndirir və onların təhlükəsizliklərini qorumaq üçün maarifləndirmə tədbirlərini tətbiq edir. Bu təlimlər uşaqlara zorakılığın formalarını tanımaq və ona qarşı necə davranmaq barədə məlumatlar təqdim edir.

3. Rəqəmsal maarifləndirmə ilə zorakılığa qarşı təhlükəsiz dünya

Texnologiyanın uşaqlara qarşı zorakılığın qarşısının alınmasında gücü onun yalnız yaradılmasında deyil, həm də istifadəsinin düzgün anlaşılmasındadır. Bu yanaşmanın effektivliyi birbaşa olaraq texnologiyanın müxtəlif hədəf qruplarına necə təqdim olunmasından asılıdır. Valideynlər, uşaqlar və geniş ictimaiyyət bu prosesdə əsas rol oynayır. Çünki onların maariflənməsi texnologiyanın tam potensialını açmaq və zorakılıqla mübarizəni daha güclü etmək üçün açardır.

Valideynlər texnologiyanın uşaqlarını necə qoruduğunu başa düşərək onun imkanlarından tam istifadə etməlidir. Uşaqlar isə rəqəmsal təhlükələrdən qo-

runma yollarını öyrənərək özlərini müdafiə etməyi bacarmalıdır. Eyni zamanda, cəmiyyətin texnologiyanın gücü və imkanları ilə tanış olması bu yanaşmaların daha geniş miqyasda qəbulunu asanlaşdırır. Bu üç hədəf qrupuna yönəlmiş səylər texnologiyanın əsl təsirini göstərərək uşaqların hüquqlarını qorumaqda mühüm addımlar təmin edir.

1. Valideynlərin maarifləndirməsi: rəqəmsal təhlükəsizlik tətbiqləri valideynlərə uşaqların təhlükəsizliyini təmin etmək üçün vasitələr təqdim edir. Valideynlər texnologiyanın necə işlədiyini və onun vasitəsilə uşaqlarının onlayn davranışlarını necə izləyəcəklərini anlamalıdırlar.

2. Uşaqlar üçün texnoloji təhsil: texnologiyanın zorakılığa qarşı necə mübarizə apardığını uşaqların anlaması onların bu sistemlərdən daha güclü formada faydalanmasına imkan yaradır. Tədris proqramları uşaqlara onlayn zorakılıqdan qorunma yollarını öyrədir.

3. İctimai kampaniyalar: sosial media vasitəsilə texnoloji həllərin gücünü və effektivliyini cəmiyyətə tanıtmaq üçün maarifləndirmə kampaniyaları təşkil edilir. Bu kampaniyalar zorakılığın təsirini azaltmaq üçün texnologiyanın necə istifadə ediləcəyini cəmiyyətə nümayiş etdirir.

Əslində qeyd edilənlər ictimai kampaniyalarda biləşir. İctimai kampaniyalar zorakılığa qarşı mübarizənin vacib bir hissəsidir və texnologiyanın imkanlarını maksimum şəkildə istifadə etməklə, cəmiyyətin geniş təbəqələrinə təsir göstərməyi hədəfləyir. İctimai kampaniyalar vasitəsilə cəmiyyətin texnologiyaya dair anlayışı artırıla və zorakılığın təsirlərini azaltmaq üçün insanların davranışlarında dəyişikliklər yaradıla bilər. Bunu daha ətraflı şəkildə aşağıdakı nümunələrlə qeyd edə bilərik:

- "Stop Bullying Now!" ("Zorakılığı indi dayandırın!"): Bu kampaniya ABŞ-da məktəb zorakılığının qarşısını almaq üçün yaradılmışdır. Sosial mediada yayımlanan vizual materiallar və müəllimlər üçün təşkil olunan təlimlər zorakılığa qarşı maarifləndirməni artırıb [9].

- "End Violence Against Children" ("Uşaqlara qarşı zorakılığa son!"): UNICEF tərəfindən həyata keçirilən qlobal təşəbbüs, texnologiya və ictimai resurslar vasitəsilə uşaqlara qarşı zorakılığın təsirlərini azaltmağı hədəfləyir [8].

- Hindistanın "Childline 1098" proqramı: Çətin vəziyyətdə olan uşaqlara dəstək olmaq üçün ictimaiyyətin maarifləndirilməsinə yönəlmiş geniş bir təşəbbüs. Xüsusilə kiberzorakılığa qarşı təlimlər və texnoloji platformalar təklif edir [7].

İctimai kampaniyalar texnologiya vasitəsilə uşaqlara qarşı zorakılıqla mübarizə sahəsində güclü bir vasitədir. Bu kampaniyalar həm lokal, həm də qlobal səviyyədə təsir göstərir və cəmiyyət üzvlərinin bu problemin həllinə fəal iştirakını təşviq edir. Uğurlu kampaniyaların əsas uğur amili onların effektiv mesaj çatdırması, iştirakçıları cəlb etməsi və təsirinin davamlı olmasıdır.

4. Uğurlu beynəlxalq nümunələr

Uşaqlara qarşı zorakılığın qarşısının alınması qlobal səviyyədə daha geniş miqyaslı yanaşmalar tələb edir. Beynəlxalq təşkilatlar bu sahədə uşaqların hüquqlarını qorumaq və təhlükəsizliklərini təmin etmək üçün müxtəlif təşəbbüslər həyata keçirirlər. Qlobal nümunələr həm texnologiya, həm təhsil, həm də hüquqi yanaşmalarla zorakılığa qarşı mübarizədə dərin bir təcrübə təqdim edir. Beynəlxalq səviyyədəki bu təşəbbüslər yalnız zorakılığın qarşısını almağa yönəlmir, eyni zamanda cəmiyyətlər arasında əməkdaşlığın və məlumat paylaşımının inkişafını təmin edir.

Uşaqlara qarşı zorakılıq yalnız fərdi və lokal bir problem deyil, eyni zamanda

qlobal miqyasda ciddi narahatlıq doğuran sosial bir məsələdir. Müxtəlif ölkələr bu problemin qarşısını almaq üçün fərqli yanaşmalar tətbiq etsə də, bu sahədə ortaq məqsəd uşaqların təhlükəsizliyini təmin etmək və onların emosional, fiziki, sosial rifahını qorumaqdır. Zorakılığın qarşısını almaq üçün effektiv strategiyalar inkişaf etdirmək bu sahədə uğurlu olan ölkələrin təcrübəsindən öyrənməyi tələb edir.

Hər bir ölkənin zorakılığa qarşı mübarizə aparmaq üçün həyata keçirdiyi tədbirlər onların mədəni, sosial və iqtisadi xüsusiyyətləri ilə formalaşır. İstifadə olunan texnologiyalar, təhsil proqramları və qanunvericilik tədbirləri zorakılığın qarşısını almaqda müxtəlif yollarla tətbiq edilir. Bu cür qlobal yanaşmalar uşaqların hüquqlarını müdafiə etmək və onların təhlükəsizliyini təmin etmək üçün çoxşaxəli həll yollarını göstərir. Bu baxımdan aşağıdakı ölkələr üzrə misallara diqqət yetirək:

Norveç: Norveçdə uşaqlara qarşı zorakılığın qarşısını almaq üçün qanunvericilik gücləndirilmişdir. Məsələn, fiziki cəzalar tamamilə qadağan edilmişdir. Valideynlərə və müəllimlərə müsbət valideynlik və uşaqlarla düzgün davranış metodları öyrədilir. Təhsil müəssisələrində zorakılığın qarşısını almaq üçün xüsusi proqramlar həyata keçirilir, uşaqların emosional rifahını artırmaq məqsədilə sosial-emosional təhsil metodları tətbiq olunur.

Cənubi Afrika: Cənubi Afrikada zorakılığın qarşısını almaq üçün "Positive Parenting Program" (“Pozitiv valideynlik proqramı”) həyata keçirilir. Bu proqram valideynlərə uşaqlarla sağlam münasibətlər qurmağı öyrədir və zorakılığın təsirlərini azaltmaq üçün maarifləndirmə kampaniyaları təşkil edir. Məktəblərdə zorakılığın qarşısını almaq üçün təhlükəsizlik tədbirləri gücləndirilmişdir və uşaqların hüquqlarını qorumaq üçün xüsusi təlimlər keçirilir.

Kolumbiya: Kolumbiyada zorakılığın qarşısını almaq üçün "Child Protection Strategy" (“Uşaqların Müdafiəsi Strategiyası”) həyata keçirilir. Bu strategiya uşaqların hüquqlarını qorumaq və zorakılıq hallarını azaltmaq üçün ictimai maarifləndirmə kampaniyalarını əhatə edir. Uşaqların təhlükəsizliyini təmin etmək üçün texnologiya və təhsil inteqrasiya olunur, zorakılıq hallarını erkən aşkarlamaq üçün rəqəmsal platformalar istifadə edilir.

Monteneqro: Monteneqroda uşaqlara qarşı zorakılığın qarşısını almaq üçün səhiyyə işçiləri xüsusi təlimlər alır. Bu təlimlər uşaqların zorakılıq hallarını tanımaq və müdaxilə etmək üçün nəzərdə tutulmuşdur. Məktəblərdə zorakılığın qarşısını almaq üçün təhlükəsizlik tədbirləri gücləndirilmişdir və uşaqların hüquqlarını qorumaq üçün xüsusi təlimlər keçirilir.

Uqanda: Uqandada zorakılığın qarşısını almaq üçün məktəblərdə təhlükəsizlik təhsili proqramları həyata keçirilir. Bu proqramlar uşaqlara kiberzorakılıqdan qorunma yollarını öyrədir və sağlam münasibətlərin təşviqini təmin edir. Maarifləndirmə kampaniyaları vasitəsilə zorakılığın təsirlərini azaltmaq və cəmiyyəti məsuliyyətli davranışlara təşviq etmək məqsədilə tədbirlər görülür [3].

Azərbaycan: Uşaqlara qarşı zorakılığın qarşısını almaq üçün bir sıra əhəmiyyətli addımlar atılmışdır. "Məişət zorakılığının qarşısının alınması haqqında" Qanun hüquqi baza olaraq zorakılıq hallarının erkən aşkarlanması, monitorinqi və qarşısının alınması üçün təsirli mexanizmlər təqdim edir. Bu çərçivədə yerli icra hakimiyyəti orqanlarında yaradılmış gender zorakılığı və uşaqlara qarşı zorakılıq üzrə monitorinq qrupları zorakılığın təsirlərini izləmək və müvafiq tədbirlər görmək məqsədilə fəal şəkildə işləyir.

Maarifləndirmə sahəsində Ailə, Qa-

dın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən genişmiqyaslı təşəbbüslər həyata keçirilir. "Zorakılığa YOX deyək!" və "Erkən nikahlara yox deyək!" kimi kampaniyalar vasitəsilə zorakılığın təsirlərini azaltmaq, cəmiyyətdə bu mövzuya dair məsuliyyət hissini artırmaq üçün maarifləndirmə işləri aparılır. Bu təşəbbüslər həm cəmiyyət üzvlərinin, həm də ailələrin zorakılıqla mübarizə sahəsində biliklərini gücləndirməyi hədəfləyir [4].

Eyni zamanda, zorakılığa məruz qalan uşaqlar üçün psixoloji və fiziki rifahı bərpa edən sığınacaq və reabilitasiya xidmətləri fəaliyyət göstərir. Bu mərkəzlər uşaqların təhlükəsizliyini təmin etmək və onların emosional inkişafına dəstək olmaq məqsədilə xüsusi olaraq qurulmuşdur.

Dünyanın müxtəlif ölkələrində və ölkəmizdə uşaqlara qarşı zorakılığın qarşısını almaq üçün tətbiq edilən yanaşmalar göstərir ki, bu problemə qarşı mübarizə çoxşaxəli və mədəni müxtəliflik əsasında formalaşmışdır. Norveçdən Cənubi Afrikaya, Kolumbiyadan Uqandaya qədər həyata keçirilən proqramlar və qanunvericilik tədbirləri uşaqların hüquqlarını qorumaq üçün müxtəlif yanaşmaların gücünü vurğulayır. Qlobal səviyyədəki bu təşəbbüslər texnologiya, təhsil və ictimai maarifləndirmənin bir araya gəldikdə necə effektiv olduğunu nümayiş etdirir.

Bu nümunələr müxtəlif kontekstlərdə tətbiq edilən metodların uğurlu nəticələrini göstərir və digər ölkələr üçün dəyərli nümunələr təqdim edir. Hər bir yanaşma uşaqların rifahını artırmaq və onların təhlükəsizliklərini təmin etmək üçün məhz lokal və mədəni xüsusiyyətlərə uyğunlaşdırılmışdır. Bu isə uşaqlara qarşı zorakılığın qarşısını almaq üçün daha güclü və davamlı bir qlobal əməkdaşlıq perspektivinin əhəmiyyətini ortaya qoyur.

Nəticə

Uşaqlara qarşı zorakılığın qarşısını almaq müasir cəmiyyətin ən mühüm və universal problemlərindən biridir. Rəqəmsal platformalar, innovativ texnoloji həllər, ictimai maarifləndirmə və beynəlxalq əməkdaşlıq bu problemin köklərini aradan qaldırmaq üçün əhəmiyyətli vasitələrdir. Bu yanaşmaların hər biri uşaqların hüquqlarını qorumaqda, onların rifahını bərpa etməkdə və təhlükəsiz bir gələcək təmin etməkdə özünəməxsus dəyərə malikdir.

Rəqəmsal platformaların rolu uşaqların onlayn təhlükəsizliyini qorumaq üçün əvəzsizdir. Bark, Net Nanny və digər tətbiqlər valideynlərə uşaqların onlayn fəaliyyətini izləmək və təhlükəli məzmunu bloklamaq üçün güclü alətlər təqdim edir. Bu platformalar uşaqların rəqəmsal dünyada daha təhlükəsiz bir mühitdə böyüməsini təmin edir.

İnnovativ texnoloji həllər zorakılıq hallarının erkən aşkarlanmasında, risklərin proqnozlaşdırılmasında və preventiv tədbirlərin həyata keçirilməsində mühüm rol oynayır. Süni intellekt, blokçeyn və Big Data kimi texnologiyalar bu sahədə inqilabi dəyişikliklərə səbəb olur və zorakılığın təsirini minimuma endirmək üçün yeni imkanlar yaradır.

Texnologiya ilə ictimai maarifləndirmə cəmiyyətin texnologiyaları düzgün başa düşməsini və onlardan tam gücü ilə faydalanmasını təmin etmək üçün kritik əhəmiyyət daşıyır. Valideynlərin texnologiyanı mənimsəməsi, uşaqların rəqəmsal təhlükələrdən qorunma yollarını öyrənməsi və ictimai kampaniyaların gücləndirilməsi zorakılığın təsirinin azaldılmasında mühüm rol oynayır.

Azərbaycanın bu sahədəki səyləri də xüsusi qeyd edilməlidir. Ölkədə "Məişət zorakılığının qarşısının alınması haqqında" Qanun qəbul edilmiş və zorakılıq hallarını izləmək üçün yerli icra

hakimiyyəti orqanlarında monitorinq qrupları yaradılmışdır. Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən "Zorakılığa YOX deyək!" və "Erkən nikahlara yox deyək!" kimi maarifləndirmə kampaniyaları təşkil edilir. Bundan əlavə, zorakılığa məruz qalan uşaqlar üçün sığınacaq və reabilitasiya xidmətləri təqdim olunur. Texnologiyanın tətbiqi ilə zorakılıq hallarını erkən aşkarlamaq və məlumatların təhlili üçün rəqəmsal platformalar istifadə edilir.

Beynəlxalq təşəbbüslər və ölkələrdən nümunələr zorakılıqla mübarizə aparmaq üçün qlobal əməkdaşlığın vacibliyini göstərir. Norveçdən Cənubi Afrikaya qədər müxtəlif yanaşmalar zorakılığa qarşı mübarizədə fərqli və təsirli perspektivlər təqdim edir. Bu yanaşmaların təcrübəsi Azərbaycanın da bu sahədəki tədbirlərini daha da gücləndirmək üçün ilham mənbəyi ola bilər.

Yeni innovativ texnologiyaların inteqrasiyası texnologiya sahəsində qlobal səylərin birləşdirilməsinin uşaqların təhlükəsizliyini təmin etmək üçün perspektivli olduğunu vurğulayır. Süni intellekt və rəqəmsal təhlükəsizlik vasitələri zorakılığın qarşısını almaqda daha təsirli həllər təqdim edir.

Bu yanaşmalar birlikdə uşaqlara qarşı zorakılığın qarşısını almaqda güclü bir model yaradır. Texnologiyanın və təhsilin gücünü birləşdirərək, qlobal səviyyədə uşaqların müdafiəsini təmin etmək mümkündür. Zorakılıq halları ilə mübarizədə həm lokal, həm də beynəlxalq səylər davamlı şəkildə gücləndirilməlidir. Beləliklə, biz yalnız uşaqlar üçün daha təhlükəsiz bir cəmiyyət yaratmırıq, eyni zamanda gələcək nəsillər üçün daha güclü və firavan bir dünya təmin edirik.

İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT:

1. Blockchain and big data - https://www.ibm.com/think/topics/blockchain-for-big-data

2. Cyberbullying: What is it and how to stop it. - https://www.unicef.org/end-violence/how-to-stop-cyberbullying

3. International Classification of Violence against Children (ICVAC). January 15, 2025

4. Məişət zorakılığı ilə bağlı görülən işlər. - https://family.gov.az/az/post/1709/meiset-zorakiligi-ile-bagli-gorulen-isler

5. Schools as Zones of Peace. - https://resourcecentre.savethechildren.net/document/schools-zones-peace/

6. The Best Parental Control Software for 2025. - https://www.pcmag.com/picks/the-best-parental-control-software?test_uuid=01nEKitrPAQmw6jRcSPVArQ&test_variant=A

7. CHILDLINE INDIA .- https://childlineindia.org/a/about/childline-india

8. End Violence Against Children. - https://www.end-violence.org/

9. Stop Bullying Now. - https://www.stopbullyingnow.com/

Aykhan Gahramanov

ROLE OF TECHNOLOGY AND EDUCATION IN PREVENTING VIOLENCE AGAINST CHILDREN

Abstract

Violence against children is a global challenge with profound and often irreversible consequences at both individual and societal levels. Such violence severely disrupts children's emotional, physical, and social development, leaving lasting negative effects on their futures. Addressing and reducing these instances demands collaborative efforts, where technology and education play crucial and complementary roles. Modern technologies, particularly artificial intelligence and digital security tools, provide innovative and effective means for early detection and prevention of violence. Simultaneously, educational institutions and public awareness campaigns foster a heightened sense of responsibility among parents and communities, targeting the root causes of violence. Education remains a fundamental instrument for creating environments that deeply understand and address these underlying factors. This article offers a comprehensive analysis of the potential for integrating technology and education to prevent violence against children. By combining technological advancements with educational strategies, it explores pathways toward building a safer and healthier society for future generations.

Keywords: violence, child, family, technology, education, artificial intelligence

KOSMOPOLİTANİZMİN İDEOLOJİ TƏŞƏKKÜLÜ VƏ FORMALARI

Sübhan PADAROV,
Sosial Tədqiqatlar Mərkəzinin baş məsləhətçisi
(Bakı, Azərbaycan)

Email: subhanpadarov@gmail.com
ORCID ID: 0009-0005-8241-4446

Xülasə. İ.Kantın bütün dünyaya intişar edən "polis" anlayışından meydana çıxan Qərb kosmopolitanizmi XXI əsrdə qloballaşmanın qarşısıalınmaz təsirlərinə bağlı müxtəlif proseslər nəticəsində daha böyük önəm qazandı. Qloballaşma modern erada kosmopolitanizmə maraq və onun ətrafında akademik debatların yenidən meydana çıxmasını tətikləyən təməl güc idi. Kosmopolitanizm ərazi (territorial) hüdudları aşan sosial, mədəni, siyasi transformasiyalar və təmasların təsirlərini anlama üslubu kimi yenidən ortaya çıxdı. Bu mənada müxtəlif qlobal demokratik institutlar, transmilli ədalət və vətəndaşlığın post-milli formaları kimi anlayışlardan bəhs etmək üçün ona müraciət edilir. Kosmopolitanizmin essensiyası daha geniş insan topluluğuna mənsub olmaq naminə fərdin özünün spesifik territorial, kultural, kommunal və siyasi bağlılıqlarından uzaqlaşması ideyasıdır. Bu da qaçılmaz şəkildə kosmopolitanizm ilə milli dövlətlər, milli identikliklər, bir millətin öz tarixi-mədəni dəyərlərini, etnik irsini müdafiə etmək hüququ arasında gərginliyə, hətta dərin ideoloji parçalanmaya yol açır.

Açar sözlər: kosmopolitanizm, Kant kosmopolitanizmi, tənqidi kosmopolitanizm, proletarian kosmopolitanizm, liberal və plüralist kosmopolitanizm, kosmopolitanizmin ziddiyyətləri və təhlükələri, qloballaşma

Giriş

İkinci Dünya müharibəsindən sonra Qərb dünyasında cəmiyyətləri transformasiya etmək cəhdlərində sosialist, neoliberal və neokonservativ elitalar üçün müxtəlif kosmopolitanizm ideyaları mərkəzi rol oynayıb, onlar kütləvi immiqrasiya, multikulturalizm, antimilliyyətçilik, təki-dünyalıq, ümumdünya vətəndaşlığı, kütlə kültürü, qlobal hökumət, sərhədlər və milli-etnik identiklilərin erazisyasını vurğulamaq və əsaslandırmaq üçün kosmopolitan ideallardan istifadə ediblər.

"Kosmopolitanizm" sözünün etimoloji mənşəyi qədim yunanca “dünya vətəndaşları” mənasına gələn "kosmopolites"dən qaynaqlanır. Sinik hərəkatın qurucusu, Sinoplu Diogen bu terminin yaradıcısı hesab olunsa da, onun özgələri ilə bağlı qayğısı çox az idi və “Mən bir dünya vətəndaşıyam” cümləsi mövcudiyyəti haqqında kəsərli ekspressiya olmaqdan daha çox, bir ironik ifadə idi. Lakin Qədim Yunanıstanda digər fəlsəfi hərəkatlar və ya filosoflar, məsələn, stoisistlər daha güclü ümumbəşəri əxlaq və ümumi insanlıq anlayışına sahib idilər. E.ə. III əsrdə meydana çıxan bir Ellin fəlsəfəsi olaraq stoisizm bəşəriyyətin rasional, mənalı və düzənli olduğunu, insani varlıqların isə təbii və ya ilahi qanun tərəfindən idarə edilən və onun ifadəsi olan azad, rasional yaradılışlar olduğunu irəli sürürdülər. Onlara görə, ilahi ağılın yaratdığı rasional varlıqlar olmaqla bütün insani varlıqlar dil, etniklik, vətəndaşlıq statusu kimi təsadüfi müxtəlifllikləri aşan ümumi təbiət və ya insanlığa sahibdir. İnsan olmaq ümumi insanlığa mənsub olmaq və ya essensial olaraq kosmopolitan vətəndaşlığa malik olmaq deməkdir.

Zenon və Kleantes kimi erkən kosmopolitan filosoflar bütün irqləri və sinifləri, habelə xüsusi mülkiyyət, cinsi qeyri-bərabərlik, “təbii quldarlığ”ın ləğvini özündə ehtiva edən vahid topluluq ideyası ilə çıxış edirdilər. Bir neçə əsr sonra, Roma dövlət xadimi, Neronun məsləhətçisi Seneka insani varlıqların kosmosun tərkib hissəsi olduğunu və qardaşlıq, ağıl vasitəsilə bir-birinə bağlılığını ifadə edirdi. İlahi qanun insanları coğrafi məkan, sosial mövqe, milli kimliyi aşan ümumbəşəri topluluq formalaşdırmağa qadir edir. Sonrakı Stoik düşüncə isə Tanrılar və insanların “böyük şəhər”ində ədalət və xeyirxahlığın bir-birilə bütövləşdiyi ümumdünya vətəndaşlarından ibarət bir utopik dünyanı təxəyyül edirdi.

Xristianlığı qəbul edən ilk Roma imperatoru Konstantin sülhsevərlik sənəti və "Pax Romana"dan meydana çıxacaq, qlobal, permanent və harmonik xarakterli bir ümumbəşəri xristian imperiyası yaratmağa səy göstərirdi. Bu, əbədi sülh vədi ilə insanlığın mükəmməl, ümumbəşəri və eternal dövləti kimi meydana çıxan bir xristian imperiyası ilə nəticələnəcək ekümenikal ideya, utopik teleoloji metanarrativə çevrildi. Din təməlli kosmopolitan idealizm istənilən halda tək dünya hökuməti və dünya vətəndaşlığı ideyasını özündə ehtiva edir. Belə anlayışlar XVIII əsr Qərb tarixində şahidlik etdiyimiz imperializmin inteqral parçasıdır.

Qərb tarixində qədim yunanlar və stoisistlərdən başlayaraq bugünkü liberal, plüralist və yeni kosmopolitanizmə qədər bir çox kosmopolitan modellər mövcud olub. Kosmopolitanizm insani varlıqları bir vahid “topluluğ”un (kommunitas) vətəndaşları olaraq təxəyyül edən müxtəlif əxlaqi və ya siyasi baxışların deskripsiyasıdır. Daha geniş şəkildə qəbul edilən definisiyaya görə, “kosmopolitanizm bütün insani etnik qrupların ümumi əxlaqa əsaslanan vahid bir topluluğa mənsub olduğu və bunun bir dünya hökuməti, yaxud da millətlər və ya fərqli

millətlərin fərdləri arasında daha inkluziv əxlaqi, iqtisadi və siyasi münasibətləri zəruriləşdirə biləcəyi"nə dair bir ideologiyadır. Çağdaş kosmopolitanizm ənənəvi olaraq normativdir və mövcud reallığı tənqid etməklə dünyaya açıqlıq anlayışının üzərində dayanır. Britaniyalı sosioloq Cerard Delantiyə görə, tənqidi kosmopolitanizm dünyaya açıqlıq, "Öz" və sosietal transformasiyanı "Özgəsi" ilə qarşılaşma perspektivindən zəruriləşdirilməsidir [8]/ Bu, tez-tez qlobal ədalət ilə əlaqələndirilir. Oakland Universitenin professoru Cilian Brok bildirir ki, kosmopolitanizmin hədəfi özgələrinə qarşı diskriminasiya, istismar və təcavüzü qadağan etməklə planetar miqyasda ədaləti təşviq edən potensial güc ola bilməkdir [1]. Lakin Berkeley Universitetinin Cənub-Şərqi Asiya üzrə Tədqiqatlar Mərkəzinin rəhbəri Fenq Çeaya görə, kosmopolitanizm "institusional olaraq oturuşmuş qlobal siyasi şüurluluq vizyonuna çevrilən XVIII əsr intellektual azlıq etosudur və aktual reallıqda heç bir bazisi yoxdur. [5].

1. Kant kosmopolitanizmi

XVIII əsrin ortalarına qədər bir kosmopolitan "sabit iqaməti olmayan, heç bir yerdə yad olmayan, müəyyən bir dini, yaxud siyasi iqtidara tabe olmayan, kultural loyallıq və təəssübdən uzaq insan" olaraq dərk edilirdi. Bir əsr sonra kosmopolitanizm bir ümumbəşəri insani birliyin fəlsəfi və əxlaqi ideallarına yerləşdirildi və kosmopolis müxtəlif ölkələrdən gələn insanların məskunlaşdığı şəhər anlamına gəldi.

XVIII əsr kosmopolitanizminin tipik örnəyi maarifçilikdən bəri kosmopolitan düşüncədə mərkəzi rol oynayan Kantdır. Qədim yunanlar və stoisistlər ilahi ağıl və təbii qanunun bir nəticəsi olaraq insani varlıqların özləri arasında təbii yaxınlığa sahib olduğunu, bu yaxınlığın, bənzərliyin onları xeyirxah bir hökumətdə qardaşlaşdırdığını bildirirdilərsə, Kant insani varlqların əsrlər boyu mühüm diqqət yetirilən digər bir aspektinə vurğu edir: insani varlıqlar sadəcə sosial deyil, həm də antisosialdır, dolayısı ilə həm yaxınlığa, həm də Özgəsinə qarşı antipatiyaya sahibdirlər.

Kant özündən əvvəlki filosoflara əsaslanaraq insani varlıqların "qeyri-sosial sosiallığı" anlayışını irəli sürdü. O, bəşər tarixini təbii olaraq öz maraqları uğrunda çalışan insanlar arasındakı qarşılıqlı antoqanizm mexanizmi vasitəsilə tərəqqi etdiyini düşünürdü. Bu insanların gizli potensiallarını aşkara çıxarmaqla essensial olaraq insan cəmiyyətinin faydasına xidmət edən kompetitiv aqonizmdir. Kanta görə, bu rəqabətcil antipatiya tarixi bir son nöqtəsinə, bəşəriyyəti son təyinat nöqtəsinə doğru sürükləyir: məqsədlər və həmrəyliyin mükəmməl ümumbəşəri krallığı, əbədi sülhdə dövlətlərin ümumdünya federasiyası. Onun nəzəriyyələri kosmopolitan hüquq anlayışına əsaslanır və əsrimizdə kosmopolit düşüncənin fəlsəfi mənşəyi olaraq görülür.

Sənaye və Fransa inqilablarının zirvə dövründə yazan Kantın "Bir kosmopolit nöqteyi-nəzərdən ümumbəşəri tarix ideyası" (1784), "Praktik ağılın tənqidi" (1788), "Əxlaqın Metafizikası" (1797) adlı əsərləri kosmopolit dünya düzəni üzərində onun baxışlarının fəlsəfi təməlini təşkil edir. Britaniyalı sosioloq Robert Fayna görə, Kant öz əsrini insanlığın ümumbəşəri topluluğuna sahib bir əsr olaraq görürdü: bu, dünya ticarətinə əsaslanan dünyəvi münasibətləri ehtiva edən kommersial əsr idi. (10) Lakin eyni zamanda öz maraqları uğrunda çalışan dövlətlərin özlərini digər dövlətlərə qarşı silahlandırması müharibə riskləri və xərclərini artırırdı. Bu, müharibənin qarşısını alacaq davamlı sülh məqsədi üçün bir federasiya arzusuna impetyus verdi, çünki "əmin-amanlıq və

sülh şəraitində mübadilə talançılıqdan daha gəlirlidir" dünyagörüşü bu idealist yanaşmanın əsasını təşkil edirdi [26].

Kant düşünürdü ki, davamlı sülhə nail olmanın ən yaxşı yolu tədricən beynəlxalq hüququ reallaşdıracaq olan dövlətlərarası bir könüllü federal assosiasiyadır. Onun davamlı sülh üçün kosmopolitan modeli qanunverici və icraedici hakimiyyətlərin bölündüyü vətəndaşların azadlıq hüquqlarının sayğı və təmsilinin reallaşdığı respublikaçı dövlətlərin federasiyasına əsaslanırdı. Radbud Univeristetinin professoru Tomas Mertens bildirir ki, Kant bütün respublikaların "siyasi suverenlik" və "ərazi bütövlüyünə" sahib olduğunu güman edirdi. "Beynəlxalq davranışın ümumi qanunu" olaraq bir-birini belə qəbul etməli və bir-birinin muxtariyyətinə sayğı duymalıdırlar [22]. Qeyd olunan xarakteristikaları qorumaq və bununla dövlətlər arasında münaqişə və müharibə risklərini azaltmaq üçün, Kanta görə, beynəlxalq qanun biri despotik olsa belə, ona müdaxilə etmək hüququ vermir [22]. O, dövləti əxlaqi şəxs olaraq təsvir edirdi, dolayısilə, respublikaçı dövlət bir idarəedicinin mülkiyyəti olmadığı üçün ona başqa bir dövlət tərəfindən hökmranlıq edilə bilməz. Bir xalq və ya siyasi birliyə azadlıq gətirmək üçün humanitar müdaxilə başqa bir dövlətin girişəcəyi legitim akt ola bilməzdi. Çünki belə bir intervensiya dövlət suverenliyini təhlükə altına alır. Bir despotik dövlət vətəndaşlarının hüquqlarını pozsa da, onun öz identikliyini formalaşdırmaq hüququ var və beləliklə də, digər dövlətlərin ona müdaxilə etmək hüququ yoxdur. Hərbi müdaxilə üçün yeganə əsaslı səbəb bir dövlətin digərlərinin ərazi bütövlüyü və suverenliyini təhdid etdiyi zaman yarana bilər.

Əbədi sülhdə separat dövlətlərin ümumdünya federasiyasına dair Kantın kosmopolitan baxışı millətlərin müxtəlif xarakteristikalarının eliminasiyası – tək zorakı hökumət tərəfindən idarə olunan bir dünya dövləti - anlamına gəlmir. Kantın kosmopolitan hüququ hər bir millətin identiklik hüququnu zəruriləşdirir və muxtar millətlərin mövcudiyyətinə zəmin yaradır. Buna görə də, milli dövlətlərin plürallığı kosmopolitan hüquq üçün mühüm ön şərtdir. Ayrı-ayrı millətlərin plürallığının dünya respublikası ilə bütövləşməsi internasionalizmin sonu, köklü milli müxtəlifliklərin aradan qalxması (dil və din kimi), azadlığın məhdudlaşması və qeyri-sosiallıq anlamına gəlir. Bu, bir ümumbəşəri monarxiyaya və despotizmə səbəb ola bilər. Bir dövlətin digərləri üzərində dominantlıq arzusu muxtar dövlətlərin suverenlik, bütövlük və iradəsinə ziddiyyət təşkil edə bilər.

2. Proletarian kosmopolitanizm

Maarifçilikdən bəri getdikcə antimilli xarakter alan kosmopolit düşüncə qlobal ədalət məsələləri üzərinə fokuslandı. XIX əsrdən onların ən görkəmli örnəklərindən biri tarixi sinfi mübarizəni təkamül prosesi olaraq görən və azad bazar kapitalizmini sosial utopiya ilə əvəzləməyi hədəfləyən Marksın "proletarian kosmopolitanizm"i idi. Marksın kosmopolit birliyi Kantın qlobal həmrəylik bazisinə oxşar idi. Lakin Kantdan fərqli olaraq, Marks düşünürdü ki, millət vətəndaş cəmiyyətindən distinkt, modernizmdə "anaxronist kvazi-feodal mənsubiyyət formalarının refleksiyası" olan dövlətin ideoloji alətidir. Marksa görə, qlobal istehsal qüvvələrinin bütün dünyada işçi sinif kütlələrini istismar etməsi kosmopolit həmrəylikdə milləti aşan bir ümumbəşəri proletariat yaratdı. Kapitalist istismar və burjua kosmopolitanizminə üstün gəlmək üçün qlobal proletarian inqilab zəruridir. Məhz millətçiliyə qarşı bu inqilab sosialist və postmilli əsri meydana çıxaracaqdı. Lakin indiyədək belə

bir inqilab baş verməyib.

XX əsrin II yarısından etibarən sosialist leftizmə doğru kultural dönüş baş verdi. Frankfurt məktəbinin Adorno, Horxaymer, Markuze kimi radikalları və digər marksist internasionalistlər sosial transformasiya, sosial ədalət və humanitar emansipasiya üçün marksizmi tənqidi və normativ kosmopolitanizmə daxil edərək yenidən konseptuallaşdırdılar.

3. Tənqidi kosmopolitanizm

Tənqidi kosmopolitanizm işçi sinfi proletarianizmini aşaraq Üçüncü Dünya həmrəyliyini, qlobal ədalət, kultural relativizm prinsiplərinə əsaslanaraq Özgənin kosmopolit perspektivini mənimsədi. Onlara görə, cəmiyyətlərin özünütransformasiyası üçün Qərb imperializmi, kultural hegemoniya və qlobal kapitalizminə qarşı gəlmək zəruridir. York Univeristetinin professoru Fuyuki Kurasavaya görə, empirik sosiologiya və tənqid texnikası vasitəsilə tənqidi kosmopolitanizmin hədəfi tradisional nəzəriyyələr, sosial sturkturlar və dəyər inanclarını sarsıtmaqla mövcud millətlərin universal emansipasiyasına nail olmaqdır [17]. Bu perspektivdən, onlar Avropa millətlərinin sosial-siyasi təməllərini radikal dəyişimə məruz qoyan transnasionalizm, kütləvi miqrasiya, kütlə kültürü və digər qlobal proseslərə vurğu edirlər. Fayn və Smit bildirir ki, çağdaş kosmopolitanizm kosmopolit düşüncəni milli maraq və identiklik düşüncəsi ilə assosiasiyadan uzaqlaşdırmaqla onu qlobal məsələlərə yönəldir [9]. Fenq Çea isə iddia edir ki, tənqidi kosmopolitanlar insan həmrəyliyi adına qloballaşmanın milli dövlətlərin funksiyalarını aşındırmasını alqışlayırlar. Bu ideyaya əsaəsn, transnasionalizm, kütləvi miqrasiya, qlobal şəhərlərin yüksəlişi kimi proseslər yeni qlobal şüurun, qlobal kütləvi siyasi həmrəylik formasının inkişafına zəmin yaradacaq [8].

Tənqidi kosmopolitanizmin ən tanınmış fiquru Yürgen Habermas Qərb xristianlığının kultural ənənələrini rədd etsə də, XVIII əsr maarifçilik düşüncəsinə bağlı olan ikinci nəsil Frankfurt Məktəbinin tənqidi nəzəriyyəçisidir. XX əsrin faşizm, nasional sosializm və qlobal maliyyə kapitalizminə cavab olaraq, Habermas Kantın kosmopolit hüququnu leqallaşdırmaq, əxlaqiləşdirmək üçün yenidən işlədi. O, həyatın və ya siyasət öncəsi etnomilli identikliyin kultural, linqvistik, tarixi formalarının vəhdətini “irrasional bir şey” və etnomillətçiliyi, ontoloji mənsubiyyət və müqəddəratı isə “bir növ reqressiv kredo” olaraq görür. Beləliklə, Habermas milli identikliyin normativ və keçərli forması, siyasi topluluqların təşkiledici prinsipi kimi etnomillətçiliyi rədd edir. Fenq Çeaya görə, Habermas düşünür ki, transnasional miqrasiya (Üçüncü Dünya və intra-Avropa) Avropa millətlərinin elə qarışmasına yol açır ki, onlar tamamilə fərqli kültürlər və etnikliklərə aid olan fərdlər tərəfindən yenidən təşkil olunur, bu da siyasi kültürün əksəriyyətini təmsil edən kultural qrupun ön siyasi identikliyindən parçalanmasını sürətləndirir [6]. Başqa sözlə, bir Avropa milliyyətinin homogen etnik, kultural və siyasi identikliyi, mövcud milli institutlar və etnomilli çoxluqların təməli əcnəbilərin davamlı inyeksiyası nəticəsində sarsılır. Etnomilli patriotizmin “konstitusional patriotizm” ilə əvəz edilməli olduğunu söyləyən Habermas eyni zamanda daha “altruist liberal immiqrasiya siyasəti”nə və dini azadlıq kimi təməl azadlıq olaraq gördüyü “miqrasiya azadlığı”na çağırış edir [11].

Habermas kosmopolitanizm və nasionalizmin barışdırıla biləcəyini vurğulayır [12]. Ümumbəşəri "millət" anlayışı özünəməxsus dəyərlər və maraqların ümumbəşəri dəyərlər və insanlığın maraqları ilə üst-üstə düşdüyü millətə şa-

mil edilir. Onlara Fransa Respublikası, neoliberal ABŞ və Avropa Birliyi (AB) daxildir. Habermas AB-ni faşizm və etno-millətçiliyə qarşı bir Avropa vətəndaş kültürünü yaradan siyasi proyekt olaraq təsvir edir [11]. AB proyektinin hədəfi konstitusional patriotizmin leqal prinsiplərinə, kosmopolit həmrəylik şüuruna və mənsubiyyətinə bağlı olan hüquqlara sahib vətəndaşlar tərəfindən xalqların müxtəlifliyini birləşdirməklə transmilli vətəndaş cəmiyyəti və ya "siyasi topluluğun pan-Avropa forması"nı yaratmaqdır.

Beləliklə, AB ümumbəşəri dəyərlərin yeni daşıyıcısına, insan hüquqları, vətəndaş hüquqları, sosial rifah, təhsil və asudə zamana əsaslanan universal transmilli varlığa çevriləcək. Qlobal daxili siyasət və "dünya daxili siyasət"i milli dövlətlər və AB kimi regional siyasi topluluqlarda kosmopolit həmrəyliyi gücləndirməklə yanaşı, vətəndaşların özlərini kosmopolit olaraq görmələrinə səbəb olur.

4. Universal kosmopolitanizm

Habermasın kosmopolitanizminə oxşar olan liberal nəzəriyyə Marta Nussbaumun universal kosmopolitanizmidir. Nussbaumun "İnsanlığı yetişdirmək: Liberal təhsil bir reform klassikalı", "Ədalətin hüdudları" əsərlərində Habermas kimi Kant kosmopolitanizmini əks etdirsə də, bir dünya dövləti və ya hökumətini rədd edərək dünya vətəndaşlığı və internasionalizmi müdafiə edir. O, muxtar millətlərə qarşı beynəlxalq intervensiyanı soyqırıma əngəl olmaq prizmindən əsaslandırır. Stoisistlər, Rabindranat Taqor, M.Qandi və M.L.Kinqin təsiri altında olan Nussbaum vurğulayır ki, bir ümumi insanlıq anlayışı insan qruplarının müxtəlifliyini qlobal ədalət prinsiplərinə əsaslanan açıq topluluğa çevirir.

Ketrin Lu bildirir ki, Nussbaumun ümumi insanlıq anlayışı paroxial, milli məhdudiyyətlər və təəssübləri rədd edən ümumbəşəri əxlaqa əsaslanan kosmopolit etikadır. K.Luya görə, Nussbaumun kosmopolitik etika oriyentasiyası insani varlıqların əxlaqən xeyiri təmsil edənə ilkin bağlılıqlarından qaynaqlanır [23].

Bu, ümumbəşəri olaraq tətbiq edilə bilən xeyirdir. Nussbaum qeyd edir ki, bütün insani varlıqlar bərabər yaradılır və inkarolunmaz hüquqlara malikdir. Bütün insani varlıqlar bərabər yaradıldığı üçün onlar milli hüdudları aşan "substantiv etik öhdəliklər"in daşıyıcısıdır [21].

Nussbaum "Patriotizm və Kosmopolitanizm" adlı essesində milli vəhdət məqsədinin ilkin olaraq bütün dünyada insani varlıqların topluluğuna bağlı olan bir şəxs kimi kosmopolit ideal ilə əvəzlənməsinin əhəmiyyətini bəyan edir. Bir kosmopolitan üçün hüquq dövlətdən, ümumbəşəri ağıl milli mənsubiyyət simvollarından öncə gəlir. O, fərdlərin öz, ailə, genişləndirilmiş ailə və lokal qrupdan soydaşlara, sonda isə insanlığın özünə, insani varlıqların vahid bütövlüyünə qədər "konsentrik çevrələr seriyası" tərəfindən əhatələndiyini bildirir. Ona görə, dünya vətəndaşları məhz ikinci çevrəyə - insani varlıqların universal birliyinə daha çox önəm verməlidirlər. Təhsil vasitəsilə demokratik milli vətəndaşlıq dünya vətəndaşlığı ilə əvəz olunmalıdır. Kosmopolitan təhsil millətlərin müqəddəratlarının bir-birilə sıx olduğunu öyrədə bilər. Başqa sözlə, məhz kosmopolit təhsil özümüzə özgəsinin gözü ilə baxmağı öyrədir. Lakin o, eyni zamanda sevdiyimiz yerlərə və insanlara spesifik bağlılıqların sağlam və mənalı insan mövcudiyyəti üçün zəruri olduğunu qəbul edir.

Patriotizmin "xalisləşdiriməli" olduğunu qeyd edən Nussbauma görə, vətəndaşlar öz millətlərini digər millət və ya millətlər üzərində ucaltmamalı, eyni zamanda "maskulenlik obrazla-

rı”ndan, “patoloji stereotiplər”dən, “aqressiv sentimentlər”dən özlərini xilas etmələrinin fərqində olmalıdırlar. Eyni zamanda, “xalisləşdirilmiş patriotizm” immiqrantların hüquqlarının müdafiəsini, əcnəbi kültürlər və daxili azlıqlar barəsində maariflənməni özündə ehtiva edən qanunlar və institutlar tərəfindən dəstəklənməlidir.

Nussbaumun ideyalarına Con Rovlsun “siyasi liberalizm”i təsir etsə də, onun “ədalətin sosial kontrakt nəzəriyyəsi”ni (SKN) rədd edir. Ona görə, Rovlsun beynəlxalq ədalətin SKN-ni bir milli dövlət, territorial siyasi topluluq modelinə əsaslanır. O, kosmopolitlər olaraq fərdi şəxslərə deyil, milliyətçiliyə əsaslanan məntiq olduğu üçün insan hüquqlarını yaxud da siyasi olaraq liberal yanaşma ilə bağlı olmamaqla yanaşı, “daha zəif qruplar”a ədalət bəxş etməyə də qadir deyil. Nussbaum bildirir ki, ədalət nəzəriyyələri ümumdünya məsələlərini ehtiva etməlidir [21].

5. Liberal və plüralist kosmopolitanizm

Nussbaumun universal kosmopolitanizmi və Habermasın tənqidi kosmopolitanizminə qarşı olaraq, Villiam Kimlika həm Kanada, həm də dünyanın geri qalanı üçün “yerləşmiş”, “köklü”, “plüralist” kosmopolitanizmi irəli sürür. Bu tip kosmopolitanizm özünü daxildə kultural müxtəliflik ilə uzlaşdırmaqla, fərdiyyətçilik və azadlığın modern dəyərlərinə riayət edən bir sivik və liberal multikultural cəmiyyətə əsaslanır. Onun təməl prinsipi, qrup və ya multikultural hüquqlar vasitəsilə təsis edilmiş qruplar kültürünü qorumaq və müdafiə etməklə bağlıdır.

1971-ci ildə Kanadanın baş naziri Piyer Trüdo qeyd edirdi ki, etnik plüralizm bizə kütlə cəmiyyətinin depersonalizasiyası və homogenləşdirməsini aşmağa kömək edə bilər [14]. Başqa sözlə, Trüdo inanırdı ki, qədim, ənənəvi dünyanın etnik kültürlərinin immiqrasiya vasitəsilə Kanadaya idxalı kütləvi istehsal cəmiyyətinin nəticəsi kimi donuqlaşan Kanada kültürünün zənginləşməsi üçün həyati əhəmiyyətə malikdir. Etnik müxtəliflik və kultural “zənginlik” üzərinə vurğu etnik təməlli zorakı siyasi münaqişələri aşma vasitəsi kimi kosmopolit düşüncənin “maariflənmiş” tipi olaraq qəbul edilir.

Plüralist kosmopolitanizm qeyri-demokratik, demokratik olaraq seçilmiş liderlərə malik olmayan qlobal və ya transnasional siyasi institutlar ilə bağlı çox skeptikdir. O, milli dövlətlər və milli identikliklərin siyasi gücünü əlindən alır, “transformativ və konstruktiv potensial kimi” onların kosmopolitan məqsədlərə xidmət etmək mümkünlüyünü aradan qaldırır. Kimlika və K.Volkerə görə, bir post-kolonial kosmopolitanizm əxlaqi kosmopolitanizmə bağlı olsa da, kultural eyniləşmə və siyasi birləşməyə yol açan dünya dövləti, ümumi qlobal kültür ideyalarından özünü uzaqlaşdırır [18].

Habermasın anti-nasionalist kosmopolitanizmindən fərqli olaraq Kimlikanın plüralist kosmopolitanizmi milli identiklik siyasətinə düşmən dyeil, əksinə onu tələb edir. O, koherant və legitim siyasi vahidləri kosmopolit məqsədlərə nail olunmada zəruri hesab edir. İnsanların uzaq özgələrin baxışları ilə əxlaqi harmoniyaya psixoloji və epistemoloji olaraq qadir olmasından əvvəl, onlar əxlaqi partikulyarizmin vərdişlər və praktikalarına doğru uğurla sosiallaşdırılmalıdırlar. Başqa sözlə, Kimlika milli ideniklilikləri qorumaq istədə də, koherant siyasi topluluqlarını kosmopolitanizmin mühüm drayverləri olaraq düşünsə də, o, etno-nasional identiklilıərin məhdudlaşdırılmalı, insan hüquqları və qlobala ədalətə əsaslanan kosmopolit əxlaq normaları, dəyərlər və ideallar

tərəfindən modifikasiya edilməli olduğunu bildirir. Millətlərin üzvləri özlərini "dünya vətəndaşları" olaraq düşünməlidir. Kimlika və Volker yazırlar ki, "kanadalı olmaq dünyanın yaxşı vətəndaşı" olmaqdır və ya "kanadalı olmaq kosmopolit olmağı motivasiya edir" [18].

Kimlika Kanada multikultural cəmiyyətini bütün dünyada işləyə bilən reprezentativ kosmopolitan model olaraq görür [20]. O, Kanadanın müxtəlifliyi tanıyan polietnik və multinasional dövlət olduğunu bildirir. Knada bir milli çoxluğa (britaniyalı və ya ağ anqlofonlar), milli azlıq qruplarına (hindi azlıqları və fransızlar) və çoxlu qeyri-ingilis avropalı, qeyri-avropalı immiqrant azlıq qruplarına sahibdir. Bu qrupların hər biri eyni fərdi hüquqlar toplusuna sahibdir və liberal-demokratik xarakterli daha böyük milli əksəriyyət kültüründə ehtiva edilir. Kimlika milli azlıqların bir sositeal kültürə sahib olmasının önəmli olduğunu bildirir. O, bu kültürün fərdi azadlıq üçün essensial olduğunu ifadə edir. Milli azlıqlar olaraq həm fransızdillilər, həm də aborigen əhali öz kültürlərinə əlçatanlıq baxımından məhrumiyyətlər ilə üzüzə olmaqla ynaşı, Britaniya müstəmləkəçiliyinin uğratdığı dil və mülkiyyət hüququndan məhrumdur. Bu məhrumiyyətlər yalnız "xüsusi proteksiyalar" vasitəsilə aradan qaldırıla bilər. Bura spesifik kültürü qorumaq üçün önəmli hüquqlar və resurslar, ərazi verilməsi, eksternal proteksiyalar, təmsiledici hüquqlar, milli əksəriyyət kültürünə tam inteqrasiyadan azad olma daxildir [20].

1970-ci illərdən bəri kanadalılar multikultural siyasətlər və idoelogiya ilə yetişdirilir [7]. Onlara məktəblərdə müəllimlər, media, siyasətçilər tərəfindən multikulturalizmin kanadalı identikliyinin essensial aspekti olduğu, bir kanadalının bir "dünya vətəndaşı" olduğu indoktrinasiya edilir. Liberal multikulturalizmin Kanada modelinin müvəffəqliyinə vurğu edilməklə yanaşı, bütün dünyanın bu modeli təqlid etməli olduğuna inanılır. Bu baxışa görə, Avropa multikulturalizminin uğursuzluğu qədim irqçi stereotiplərinin qalmasıdır. Yeni gələnlərdən öz etnik və ya dini identikliklərinə deyil, yeni milli identikliyə üstünlük vermələrinin tələb edilməsi bunun göstəricisidir. Bentinq və Kimlikaya görə, Avropa multikulturalizmi gettolaşmaya, sosial təcridə, etnik qruplar rasında diskriminasiyaya, siyasi radikalizm və immiqrant qruplar araısnda qeyri-liberal praktikaların daimiləşməsinə səbəbiyyət verdi.

6. Kosmopolitanizmin ziddiyyətləri və təhlükələri

Qeyd edilən kosmopolit düşüncələr kəskin problematika və ziddiyyətlərə sahibdir. Məsələn, Kant ölkələrin digər suveren dövlətlərə beynəlxalq hüquqa uyğun olaraq müdaxilə etməməli olduğunu iddia edir, hətta despotik dövlətlərə qarşı humanitar intervensiyanın legitimliyini rədd edir. Lakin o, müəyyən hegemonik milli dövlət və ya geosiyasi blokların sosio-iqtisadi inkişafının digər dövlətlər üzərindəki təsirlərinə dair heç nə söyləmir. Məsələn, Qərb millətlərindən qaynaqlanan dinamik iqtisadi tənzimləmələr neoliberal kapitalizm formasında beynəlxalq iqtisadi sferaya dərindən təsir edir və digər dövlətləri də Qərb dəyərlərinə uyğun dəyişməyə vadar edir, iqtisadi faydalar müqabilində üzv dövlətlərdən müəyyən qanunlara, kvotalar və nomalara tabelik tələb edən, milli dövlətrin ekzistensial sosial dəyərlərini aşındıran güclü hərbi , geosiyasi bloklar, AB kimi miillətlərüstü ittifaq haqqında da deyilə bilər.

Əlavə olaraq, ABŞ-ın neokonservativ siyasətinin dominantlığında Qərb elitaları xüsusən də Ş.Afrika və Orta Şərq ölkələrinə "demokratiya" və "əmin-amanlığ"ı güc yolu ilə yaymağa cəhd edir,

öz aktlarını “kreativ destruksiya”, “insani müdaxilə” adlandırırlar. Öz dəyərlərinə təhdid hesab etidklərinə pri-emptiv zərbələr vururlar. İntervensiyanın belə örnəkləri Kantın qeyri-intervensiya çərçivəsi ilə uzlaşdırıla bilərmi? Kant bildirir ki, suveren dövləti cəzalandırmanın yeganə səbəbi onun başqa suveren dövlətlərin ərazi bütövlüyünə təhdid təşkil etməsi halında ola bilər. Bu o deməkdir ki, digər dövlətlərin aktları tərəfindən zərər görənin yalnız öz sərhədlərini qorumaq hüuquq var və ya önləyici zərbəni özündə ehtiva etməklə təcavüzkar dövlətə hərbi zərbə vurmaq hüququ da var? Yaxud qeyri-dövlət terrorizm aktorları, eləcə də qeyri-konvensional savaş formaları kontekstində Kant prinsipləri necə keçərli ola bilər? Bu şərtlər hətta konkret sübutlar olmasa belə, terrorçuları dəstəkləyən və onlara sığınacaq verdiyi iddia olunan milli dövlətlərə qarşı hücumları əsaslandırırmı?

Kant “ümumbəşəri qonaqsevərliyi" vurğulasa da, vətəndaşlar və əcnəbilər arasında fərqliləşdirmə aparır. O, suveren dövlətlərə kütləvi immiqrasiya, yaxud da fərqli etnik əhali qruplarının qarışmasının proponenti deyil. Kant millətlər, milli identikliklər və siyasi toplumların inteqrallığının beynəlmiləl kosmopolit düzən üçün essensial olduğunu düşünür. O, kolonializmi rədd etsə də, “qeyri-sivil xalqlara sivil kültürün gətirilməsi”, onları “korruptiv elementlərdən təmizləmə”si perspektivindən onun əsaslandırıla bildiyini düşünür. Lakin o həm də iddia edir ki, soyqırım, quldarlıq və kütləvi talançılığın heç bir halda əsaslandırması ola bilməz [16].

1960-cı illərdən bəri Avropa millətlərinin yaşadığı genişmiqyaslı Üçüncü Dünya immiqrasiyası əksər hallarda immiqrantların daxili siyasi məsələlərini qonaq olduqları ölkələrin daxili siyasi müstəvisinə qaldırması ilə özünü göstərib. Tənqidçilər Avropaya kütləvi immiqrasiyanı dünyanın geri qalanı tərəfindən bir neokolonizasiya forması olaraq görürlər (afrikanizasiya, avrafrika, avrarabia, islamizasiya) [13].Bu, illeqal immiqrasiya, əhali-əvəzləmə proyektləri həm də Avropanın qanunlar və kültürünün özününküləri ilə əvəzləməyə çalışan immiqrantlar vasitəsilə baş verir. Bu kontekstdə immiqrasiya spesifik milli dövlətlərin əsrlərə uzanan kültür və identikliyinin bütövlüyünə təhdid olaraq görülür. Kantın kosmopolitan hüququ immiqrasiyanı əsaslandırmaq və Avropanın mövcud siyasi toplumlarının təməlini sarsıtmaq üçün əsaslandırmaq üçün modifikasiya olunub? Əgər immiqrasiyanın məqsədi etnik panmiksiyadırsa, bu, identiklik müxtəlifliklərinə əsaslanan plürallığın olmayacağı deməkdir. Bu, kosmopolit hüququn sonu anlamına gəlmirmi?

Habermas da öz müqəddəratını təyin etmənin demokratik hüququn öz siyasi kültürünü qorumaq hüququnu özündə ehtiva etdiyini bildirsə də, bura kultural həyat formasının özünümüdafiəsinin daxil olmadığını bildirir. O, öz ksomopolitan nəzəriyyəsini bir zəruri siyasət olaraq görür və bu kosmopolit hüququn müzakirəedilməz inkişaf olaraq institusionallaşdırılmalı olduğunu düşünür. Bu, siyasi əxlaq və hüquq prinsiplərini təsbit etmək üçün vətəndaşlar tərəfindən başladılan rasional diskursun əhəmiyyəti üzərinə etdiyi vurğu ilə ziddiyyət təşkil edir. Habermasın kosmopolitanizmi təməl olaraq Kant kosmopolitanizmi ilə bağlı olsa da, onun xalq suverenliyi konsepsiyası suveren dövlətlərin plürallığının mövcudluğunu istisna edir. Habermas milli dövlətləri tərk etməyimizin, bütün tarixi, empirik təsadüfləri ləğv etməyimizin, dünya vətəndaşları tərəfindən məskunlaşılan bir dünya respublikası təsis etməyimizin əxlaqi öhdəlik olduğunu düşünür. Kant bunun insani münasibətlərin qeyri-sosial aspektini – tərəqqi impetyusunu pozduğunu,

despotizm və azadlığın sonuna səbəb olacağı ilə bağlı xəbərdarlıq edirdi [12].

Habermasa görə, Avropa Birliyi nasional sosializm tarixinə və faşizmin davam edən təhdidinə qarşı adekvat reaksiyadır. O, millətçiliyi nasional sosializm, nasizm və faşizm ilə eyniləşdirir, İkinci Dünya müharibəsinin yeganə səbəbi olaraq nasional sosializmi görür. Almaniya üçün yeni günahkar kompelksinə əsaslı postmilli identiklik Habermas tərəfindən bütün Avropa etno-nasional identikliklərinin eliminasiyası ilə assosiasiya edilir [12]. Lakin bu müharibəyə onların çoxu qoşulmamışdı və onlar nasional-sosialistlər, yaxud faşistlər deyildilər.

Əksər kosmopolit ideyaçılarının Avropa xalqlarını günahkar olaraq gördükləri aydındır: Nasizm, kolonializm, quldarlıq, avrosentrizm, qlobal kapitalizm, ağdərili olmaq və s. Müəyyən kosmopolitanizm formasının diktələrinə tabe etmək üçün Avropa xalqları və cəmiyyətlərinin radikal transformasiyası məhz bu narrativ vasitəsilədir. Avropalılara kollektiv etnik identikliyi və həyat tərzini qorumaq hüququ şamil edilmir. Əksinə, onlar üzərində multikulturalizm, siyasi korrektlik və dissent cəzalandırılması kimi dövlət zorakılığının müxtəlif vasitələri ilə siyasi itaət, boyunduruq təsis edilir. V.Kimlika köklü avropalı əhali qruplarına tanınma və özünüqoruma hüquqlarını şamil etmir. O, çoxluğun identikliyinin irq, etniklik, irs və ya kültürə əsaslanmadığını, dil, multikulturalizm, demokratiya və ümumbəşəri lideral fərdi hüquqlar konstektində müəyyən olunduğunu bildirir. Başqa sözlə, Avropa sosietal kültürləri və etnik identikliklərini qeyri-avropalı milli azlıqlara şamil edilən xüsusi özünümühafizə icazəsi formasında mühafizə edilməkdən məhrumdur. Qeyri-avropalı kultural və etnik qruplar müxtəlif dövlət proqramları və siyasətləri vasitəsilə öz keçmiş identikliyini, etniklikliyini, tarix, irs və kültürünü qorumağa, qeyd etməyə təşviq edilir. Avropalı etnik çoxluqlara isə 1948-ci il İnsan Hüquqları üzrə Ümumbəşəri Bəyannaməsindən irəli gələn fərdi hüquqlar şamil edilir.

Bu gün AB örnəyi onu göstərir ki, avropalılar öz millətlərinin milli identikliyindən tamamilə qoparılır, milli identiklik artıq multikultural və kosmopolit anlam kəsb edir. Onlara irqçi, imperialist, etno-mərkəzçi və supremasist xarakteristikalarına görə öz tarixi kültür, irs və etnik identikliklərini rədd etməli olduqları deyilir. Etnik kültürlərin aradan qalxmasından sonra yaranan vakuum ümumbəşəri liberal dəyərlər, qeyri-Avropalı etnik qruplar və milli azlıqları leqal olaraq müəyyən edən xarakteristikalara (kültür, tarix və irq) neytral olan maarifçilik kültürü ilə doldurulmaqdadır. Bu neytrallaşdırma avropa ənənələri və mədəni praktikalarının gücünü itirməsi, avtoxton avropalılar üzərində əcnəbilərin hüquqlarının imtiyazlaşdırılması ilə nəticələndi. Beləliklə, avropalı çoxluqlar son 40 ildə öz identikliklərində radikal transformasiyaya məruz qaldılar: Avropa əsaslı etno-kultural ayırd-edicilikdən irq, kültür, etniklik və ya irs tərəfindən müəyyən edilməyən “maariflənmiş” universalizmə. Bu mənada, britaniyalı filosof Rocer Skraton qeyd edir ki, postmodern antimilli Qərb elitası (kosmopolitanlar) “vətən”, “yurd” (Patriya) anlayışlarına düşmən olan “oikofoblar”dır [26]. Oikofoblar özlərini “lokal şovinizm”ə qarşı maariflənmiş universalizmin müdafiəçiləri hesab edirlər. Oikofob milli hökumətlər üzərində transmilli institutları təşviq etməklə, AB və BMT tərəfindən tələqin edilən qanunları qəbul və dəsətəkləməklə, öz siyasi vizyonunu bir real tarixi topluluğun özünəməxsus bağlılıqlarına olan bütün istinadlardan təmizləmiş kosmopolitan dəyərlər kontekstində müəyyən etməklə milli loyallıqları rədd edir.

Nəticə

"Kosmopolitanizm" (və ya "qlobalizm") yeni anlayış deyil. O, təkrarlanan, tsiklik və ən yaxşı halda əxlaqən neytral fenomeni, ən pis halda isə lokal adətlər, ənənələr və vətəndaşlığın dağıdıcısıdır. Sivilizayanın son 2500 illik tarixində dünyanı birləşdirmə cəhdləri olub.

III yüzilliyin əvvəllərində qloballaşmış Roma dünyası 70 milyon vətəndaşdan ibarət idi. "Roma" Hadrian divarından Fars körfəzinə, Reyndən Şimali Afrikaya qədər 2 milyon kvardat mil ərazini əhatə edirdi. B.e. 212-ci ilində İmperator Karakalla verdiyi bir edikt (Constitutio Antoniniana) imperiyanın hüdudları daxilində yaşayan bütün rezidentləri hüquqi olaraq Roma vətəndaşları olduğunu elan etdi: "Mən, beləliklə, imperiya daxilində yaşayan bütün əcnəbilərə Roma vətəndaşlığını bəxş edirəm" [25]. Lakin bir kəsi Roma vətəndaşı elan etmək onun latınca danışacağı, italiyan respublikaçılığının təməl dəyərlərini qəbul edəcəyi, vətəndaşlığın məsuliyyətlərini çiyinlərinə alacağı anlamına gəlmirdi. Standartlaşmış forumlar və aqoralar, kolonnadlar və bazilikalar Suriyadan Seqedunuma – Şotlandiya sərhədinə qədər minlərlə kiçik şəhərlərin görünüşünə çevrilmişdi. Çoxirqli və qeyri-italyan, birformalı olaraq təchiz edilmiş legionlar geniş sərhədləri qoruyurdu.

Milyonlarla insana təhlükəsizlik və mülkiyyət hüquqları vermək çətin kommunikasiya və səyahət əsrində bir nailiyyət olaraq vurğulana bilər. Lakin bu birformalılığın yeni fasadı altdakı kültürün hələ də Sipiosun erkən Roma Respublikasının və ya Virgilin təsvir etdiyi idillik italyan kəndlərinin kültürü olduğu anlamına gəlmirdi.

B.e. 500-cü ilindən başlayaraq bu keçici, lakin kolossal eyniyyət sürətlə aşınmağa başladı. Vandallar, viziqotlar, ostqotlar, hunlar və digər tayfalar, miqrant, aqressiv xalqlar imperiyanı parçaladılar. Roma qloballaşması öldü. İmperiya əsasən erkən Avropa və Bizantin regional hegemonluqlarına bölündü.

Müxtəlif fərqliliklərinə rəğmən, XIX əsrdən bu yana (müəyyən qədər Kant kosmopolitanizmi istisna olmaqla) bütün kosmopolit düşüncələri birləşdirən təməl xüsus essensial olaraq onların hər növ millətçilik formalarına, milli dövlətlərə və identikliklərə qarşı dərin antipatiyası, bu faktorları aradan qaldırma aspirasiyasıdır. Spesifik bir milli dövlətin tarixi-mədəni, siyasi-kommunal irsinə bağlı olmaq, bu mənsubiyyəti qorumaq hüququ kosmopolitanlar üçün əsla qəbul edilə biləcək bir şey deyil. Bu da çağdaş liberal-demokratik kosmopolitanizmin sosio-kultural prizmdən, habelə vətəndaşlığın qorunması baxımından destruktiv təsirlərinin daha kəskin olduğuna dəlalət edir. Son illərdə başda AB daxilində olmaqla, bəzi ölkələrdə "identiklik" və "milli dövlət" siyasətini əsas alan partiyaların/siyasi hərəkatların geniş xalq dəstəyi ilə getdikcə güclənməsi, siyasi-iqtisadi və sosial-mədəni sferalarda kosmopolit ideoloji təlqinlərə qarşı mübarizəsi, əslində, fərdlərin ümumbəşəri hüquqlarını deyil, xalqların hüquqlarını önə çıxarır. Özündə ehtiva etdiyi dərin ziddiyyətlər və tutarsızlıqlar, meydana çıxardığı əks-reaksiyalar "Modern kosmopolitanizmin sonu Roma qloballaşması ilə eyni olacaqmı" sualı üzərində bizi düşünməyə vadar edir.

İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT:

1. Brock, Gillian. 'Cosmopolitanism and the Struggle for Global Justice.' In The Ashgate Research Companion to Cosmopolitanism, edited by Maria Rovisco and Magdalena Nowicka. Surrey; Burlington: Ashgate Publishing, 2011

2. Brysk, Alison. Global Good Samaritans: Human Rights as Foreign Policy. New York: Oxford University Press, 2009

3. Buchanan, Patrick. The Death of the West: How Dying Populations and Immigrant Invasions Imperil Our Country and Civilization., New York: Thomas Dunne Books, 2002.

4. Burnham, James. Suicide of the West: An Essay on the Meaning and Destiny of Liberalism. New York; London: Encounter Books, 1964

5. Cheah, Pheng. Cosmopolitanism. // Theory, Culture and Society 23, no. 2–3 (May 2006)

6. Cheah, Pheng. Inhuman Conditions: On Cosmopolitanism and Human Rights. Cambridge; London: Harvard University Press,2006

7. Day, Richard. Multiculturalism and the History of Canadian Diversity. Toronto: University of Toronto Press, 2000

8. Delanty,. Gerard. 'The Cosmopolitan Imagination: Critical Cosmopolitanism and Social Theory.' The British Journal of Sociology 57, no. 1 (2006)

9. Fine, Robert and Will Smith. 'Jürgen Habermas's Theory of Cosmopolitanism.' // Constellations 10, no. 4 (2003)

10. Fine,. Robert 'Kant's Theory of Cosmopolitanism and Hegel's Critique.' // Philosophy and Social Criticism 29, no.6 (2003): 609–630

11. Habermas, Jürgen. The Crisis of the European Union: A Response. Trans. by Ciaran Cronin. Cambridge: Polity Press, 2012

12. Habermas, Jürgen. The Postnational Constellation: Political Essays. Oxford Blackwell Publishing, 2001

13. Hansen, Peo and Stefan Jonsson. 'Bringing Africa as a "Dowry to Europe".' Interventions: International Journalof Postcolonial Studies 13, no. 3 (2011): 443–463

14. Hugh Donald Forbes. 'Trudeau as the First Theorist of Canadian Multiculturalism.' In Multiculturalism and the Canadian Constitution, edited by Stephen Tierney. Vancouver: UBC Press, 2008

15. James Burnham,. Suicide of the West: An Essay on the Meaning and Destiny of Liberalism. New York; London: Encounter Books, 1964

16. Kant, Immanuel. Perpetual Peace and Other Essays. Translated by Ted Humphrey. Hackett Publishing Company, 1983

17. Kurasawa, Fuyuki. 'Critical Cosmopolitanism.' In The Ashgate Research Companion to Cosmopolitanism,edited by Maria Rovisco and Magdalena Nowicka. Surrey; Burlington: Ashgate Publishing, 2011

18. Kymlicka Will, and Kathryn Walker. 'Rooted Cosmopolitanism: Canada and the World.' In Rooted Cosmopolitanism: Canada and the World, edited by Will Kymlicka and Kathryn Walker. Vancouver: UBC Press, 2012

19. Kymlicka, William. Multicultural Citizenship: A Liberal Theory of Minority Rights. Oxford: Clarendon Press, 1995

20. Kymlicka, William. The Canadian Model of Diversity in a Comparative Perspective.' In Multiculturalism and the Canadian Constitution edited by Stephen

Tierney. Vancouver: UBC Press, 2008

21. Nussbaum, Martha C. 'Patriotism and Cosmopolitanism.' Boston Review, October 1st 1994. http://bostonreview.net/martha-nussbaum-patriotismand-cosmopolitanism

22. Mertens, Thomas. 'Cosmopolitanism and Citizenship: Kant Against Habermas.' // European Journal of Philosophy 4, no. 3, (1996)

23. Lu, Catherine. The One and Many Faces of Cosmopolitanism. // Journal of Political Philosophy 8 (2):244–267 (2000)

24. Osborn, Fairfield. Our Plundered Planet. Little Brown & Company, 1948

25. Robert, Fine. Kant's Theory of Cosmopolitanism and Hegel's Critique // Philosophy & Social Criticism., Volume 29, Issue 6. November 2003.- https://journals.sagepub.com/doi/10.1177/0191453703296001

26. Scruton, Roger. On Immigration, Multiculturalism and the Need to Defend the Nation State: Speech by Roger Scruton, Antwerp, 23 June 2006.' The Brussels Journal, 24 June 2006. https://www.brusselsjournal.com/node/1126

27. Victor, H. Davis., The Dying Citizen, How Progressive Elites, Tribalism and Globalisation are Destroying the Idea of America, Basic Books, NY, 2021.

Subhan Padarov

IDEOLOGICAL FORMATION OF COSMOPOLITANISM AND ITS FORMS

Abstract

Western cosmopolitanism, rooted in Immanuel Kant's seminal concept of a world polis, has gained renewed significance in the 21st century amid the pervasive effects of globalization and its associated processes. Globalization has become the primary catalyst reviving interest in cosmopolitanism during the modern era and stimulating scholarly debates on the subject. Cosmopolitanism has re-emerged as a framework to understand social, cultural, and political transformations and interactions that transcend territorial boundaries. It is invoked to explore concepts such as global democratic institutions, transnational justice, and post-national citizenship. At its core, cosmopolitanism advocates for individuals to transcend specific territorial, cultural, communal, and political attachments in favor of belonging to a broader human community. This stance inevitably generates tension—and, at times, profound ideological conflict—between cosmopolitanism and the nation-state, national identities, and the right of nations to preserve their historical-cultural values and ethnic heritage.

Keywords: cosmopolitanism, Kantian cosmopolitanism, critical cosmopolitanism, proletarian cosmopolitanism, liberal and pluralist cosmopolitanism, contradictions and dangers of cosmopolitanism, globalization

MİLLİ VƏ BEYNƏLXALQ TƏHLÜKƏSİZLİK: GEOSİYASİ ARAŞDIRMALAR

NATIONAL AND INTERNATIONAL SECURITY: GEOPOLITICAL RESEARCH

KİBERMƏKAN VƏ RƏQƏMSALLAŞMA: **BEYNƏLXALQ MÜNASİBƏTLƏR VƏ QLOBAL TƏHLÜKƏSİZLİKDƏ YENİ PARADİQMALAR**

Elgün TAĞIZADƏ
Bakı Dövlət Universitetinin doktorantı
(Bakı, Azərbaycan)

E-mail: elguntaghizadeh@gmail.com
ORCID ID: 0000-0002-0514-7808

Xülasə. Məqalədə rəqəmsallaşma dövründə kiberməkanın beynəlxalq münasibətlərə təsiri və təhlükəsizlik paradiqmasında yaratdığı dəyişikliklər araşdırılır. Rəqəmsallaşmanın sürətlənməsi dövlətlərə yeni iqtisadi və sosial imkanlar təqdim etməklə yanaşı, kiberhücumlar, informasiya manipulyasiyası və kritik infrastrukturlara qarşı təhdidlər kimi ciddi risklər də meydana gətirir. Tədqiqat keyfiyyət və kəmiyyət metodlarının birləşdirilməsi ilə aparılmış, "Stuxnet", "Petya", "WannaCry" kimi kiberhücum nümunələri və "Cambridge Analytica" qalmaqalı kimi hadisələr case-study yanaşması ilə təhlil edilmişdir. Nəticələr göstərir ki, kibermüharibələr dövlətlərarası güc balansını dəyişdirən əsas amillərdən birinə çevrilmiş, beynəlxalq hüququn çevik tənzimləmələrə ehtiyacını aktuallaşdırmışdır. Məqalə həmçinin innovativ texnologiyaların hərbi məqsədlərlə istifadəsini, "Ən zəif halqa" prinsipinin mahiyyətini və rolunu, "Hücumdan müdafiəyə keçid" strategiyasının əhəmiyyətini və NATO, BMT, Aİ kimi təşkilatların təşəbbüslərinin rolunu vurğulayır. Ümumilikdə, kiberməkan XXI əsrin beynəlxalq münasibətlərində strateji prioritet olaraq çıxış edir və qlobal təhlükəsizlik arxitekturasının mərkəzi elementinə çevrilir.

Açar sözlər: rəqəmsallaşma, kiberməkan, kibertəhlükəsizlik, kibermüharibələr, beynəlxalq münasibətlər, innovativ texnologiyalar, beynəlxalq hüquq, qlobal təhlükəsizlik, kritik infrastruktur

Giriş

Texnoloji inqilablar nəticəsində müasir gerçəkliklər durmadan dəyişir və bu proseslər özlüyündə davamlı şəkildə inkişaf edir. Bu da öz növbəsində rəqəmsallaşma, kibertəhlükəsizlik, kibermüharibələr kimi bir çox proseslərin daha da aktuallaşması ilə nəticələnir. Rəqəmsallaşma dövrü informasiya texnologiyalarının cəmiyyətlərə, iqtisadiyyatlara və dövlətlərin siyasi sistemlərinə təsiri ilə formalaşan dərin transformasiyalarla səciyyələnir. Texnologiyanın inkişafı müasir dövrdə təkcə həyat tərzimizi asanlaşdırmaqla kifayətlənmir, eyni zamanda milli təhlükəsizlik, beynəlxalq münasibətlər və qlobal siyasət sahələrində yeni çağırışlar yaradır. Xüsusilə, kibertəhlükəsizlik və kibergüc beynəlxalq sistemdə strateji rəqabətin əsas elementlərindən birinə çevrilmişdir. Dövlətlərarası münasibətlərdə kibermüharibələrin potensialı isə artan diqqət mərkəzindədir. Bu kontekstdə dövlətlərarası münasibətlərdə kibermüharibələrin vəd etdiyi güc potensialı artaraq davam edir. Kiberhücumların real təsirləri artıq təkcə texnoloji problemlərdən ibarət deyil; bu təsirlər iqtisadi itkilərə, ictimai sabitliyin pozulmasına və hətta milli suverenliyin təhlükə altına düşməsinə səbəb ola bilir. Əksər hallarda dövlətlərin və qeyri-dövlət aktorlarının kiberhücumlar vasitəsilə güc balansını dəyişmək, strateji üstünlük qazanmaq və ya rəqiblərinə ciddi zərər vurmaq məqsədlərini daşıması halları müşahidə edilir. Bu kontekstdə, kibermüharibələr təkcə texniki məsələ kimi deyil, həm də beynəlxalq hüquq və diplomatiyanın yenidən nəzərdən keçirilməsini tələb edən qlobal təhlükəsizlik məsələsi kimi ortaya çıxır. Eyni zamanda müasir dövrdə kiberhücumların sayında olan artım da bu sahədə olan aktiv güc mübarizəsini göstərir.

Tədqiqat sualları:

1. Rəqəmsallaşma beynəlxalq münasibətlərin təhlükəsizlik və güc balansına necə təsir göstərir?
2. Kibertəhlükələr və kibermüharibələr qlobal təhlükəsizlik sistemini hansı yollarla dəyişdirir?
3. Beynəlxalq hüquq rəqəmsal təhlükəsizliyə cavab vermək üçün kifayət qədər çevikdirmi?
4. Rəqəmsal transformasiya sosial və iqtisadi sahələrdə hansı imkanlar və risklər yaradır?

Hipotezlər:

H1: Rəqəmsallaşma beynəlxalq münasibətlərdə həm yeni imkanlar, həm də ciddi təhlükələr yaradır.

H2: Kibermüharibələr dövlətlərarası güc balansını dəyişdirən əsas elementlərdən birinə çevrilmişdir.

H3: Rəqəmsallaşmanın artması beynəlxalq hüququn yenidən formalaşdırılmasını tələb edir.

Ədəbiyyat icmalı

Mövcud ədəbiyyat rəqəmsal transformasiyanın qlobal iqtisadiyyat, cəmiyyət və beynəlxalq münasibətlərdə yaratdığı köklü dəyişiklikləri müxtəlif aspektlərdən təhlil edir. Qupta [43] “rəqəmsallaşma”, “rəqəmsallaşdırma” və “transformasiya” anlayışları arasındakı fərqlərə diqqət çəkərək onların iqtisadi və sosial təsirlərini izah edir. Şerif [15] qlobal rəqəmsal transformasiya investisiyalarının sürətli artımını vurğulayır, digər tədqiqatçı [14] isə rəqəmsal texnologiyaların geniş yayılması nəticəsində formalaşan “rəqəmsal əhali” fenomenini ön plana çıxarır.

Bununla yanaşı, sürətli rəqəmsallaşma kibertəhlükəsizlik risklərinin kəskin artması ilə müşayiət olunur. “WannaCry” [38] və “NotPetya” [49] kimi genişmiqyaslı hücumlar kritik infrastrukturun zəifliklərini üzə çıxarmış və NATO-nun kibermüdafiə

təşəbbüsləri [47] ilə Budapeşt Konvensiyası [26] kimi beynəlxalq hüquqi çərçivələrin inkişafına təkan vermişdir. Bu məqamda təhlükəsizliklə iqtisadiyyat arasındakı qarşılıqlı əlaqə də xüsusi vurğulanır: təhlükəsiz rəqəmsal sistemlərin mövcudluğu ÜDM artımı ilə sıx bağlıdır [57].

Geosiyasi müstəvidə rəqəmsal texnologiyalar dövlətlərə həm strateji üstünlüklər, həm də yeni risklər təqdim edir. Harari texnologiyanın avtoritar rejimləri gücləndirmək potensialına diqqət çəkir [23]. Tallinn Manual 2.0 [42] kibermüharibələrin hüquqi tənzimlənməsi üçün nəzəri çərçivə təqdim edir. İsrailin "Bölmə 8200" kimi hərbi kiberstrukturlar isə dövlətlərin kiberməkanı strateji üstünlük vasitəsi kimi necə istifadə etdiklərini nümayiş etdirir [53].

Sosial və siyasi aspektlərdə "Cambridge Analytica" qalmaqalı rəqəmsal məlumatların manipulyasiyasının demokratik proseslərə və ictimai qərarverməyə təsirini ortaya qoymuşdur [13]. Enerji sektoruna və sənaye sahələrinə qarşı təşkil olunan hücumlar, o cümlədən Ukraynanın enerji şəbəkəsinə yönələn kiberhücumlar, rəqəmsal təhlükəsizliyin iqtisadi sabitlik və ictimai etimad üçün həlledici əhəmiyyətini göstərir.

Bununla yanaşı, süni intellekt və digər rəqəmsal texnologiyalar təhlükəsizlik sistemlərinin inkişafına dəstək verməklə yanaşı, yeni risklər və sosial bərabərsizliklər də yaradır. Ümumilikdə, ədəbiyyat göstərir ki, rəqəmsallaşma beynəlxalq münasibətlərdə imkanlar və təhdidlərin paralel şəkildə mövcud olduğu mürəkkəb bir mənzərə formalaşdırır. Bu isə gücləndirilmiş idarəetmə, çevik hüquqi mexanizmlər və dövlətlərarası əməkdaşlığın dərinləşdirilməsini zəruri edir.

Ümumilikdə, araşdırma mövzusu ilə bağlı müəyyən informasiya çatışmazlıqları mövcud olsa da, tədqiqat üçün faydalı resursların böyük əksəriyyəti rəqəmsal mühitdə əldə edilmişdir.

Metodologiya

Məqalədə rəqəmsallaşmanın beynəlxalq münasibətlərdə yaratdığı təsirləri və təhlükəsizlik çağırışlarını araşdırmaq üçün çoxşaxəli və sistematik yanaşmalardan istifadə edilmişdir. Tədqiqat çərçivəsində həm keyfiyyət, həm də kəmiyyət metodları birləşdirilərək, mövzunun hərtərəfli təhlilinə nail olunmuşdur. Məlumatların təhlilində ontoloji yanaşma çərçivəsində obyektiv və subyektiv mövqelər nəzərə alınmış, qnoseoloji aspektdə isə rasionalizm və empirizm birlikdə tətbiq edilmişdir.

Məlumatların toplanılması zamanı müşahidə, sənədlərin təhlili, kvalitativ analiz və müqayisəli analiz yanaşmaları tətbiq edilmişdir. Tarixi kontekstdə tədqiqatda əsasən perspektiv və kross-seksiyalı yanaşmaya üstünlük verilərək, retrospektiv baxışdan nisbətən daha az istifadə edilmişdir. Əldə edilən məlumatların doğruluğu müxtəlif mənbələrdən təsdiqləndikdən sonra təhlilə daxil edilmiş, bu çərçivədə müqayisəli analizdən istifadə olunmuşdur.

Tədqiqatın bəzi hissələrində induksiya və deduksiya metodları qarşılıqlı şəkildə tətbiq edilmiş, verilənlərin sintezi ilə kompleks nəticələr əldə edilmişdir. Case-study yanaşması ilə konkret nümunələr - məsələn, "Stuxnet" hücumu, "Cambridge Analytica" qalmaqalı və "Petya" hücumu - araşdırmaya daxil edilmiş və bu hadisələrin rəqəmsallaşmanın beynəlxalq münasibətlərə təsirini necə nümayiş etdirdiyi təhlil olunmuşdur. Məqalənin hazırlanması zamanı məlumatların sistematik şəkildə örnəkləndirilməsinə xüsusi diqqət yetirilmişdir.

Eyni zamanda tədqiqatda, əsasən, texnonəzəriyyələr prizmasından ya-

naşılmışdır. Bu yanaşma texnologiyanın yalnız praktiki deyil, həm də nəzəri müstəvidə beynəlxalq münasibətlərə təsirini izah edir. Burada texnoloji determinizm, süni intellektin strateji üstünlüklər yaratması və kvant hegemoniyası kimi anlayışlar kontekstə daxil edilərək, rəqəmsallaşmanın dövlətlərarası güc balansını necə dəyişdirdiyi vurğulanır. Beləliklə, tədqiqat kibertəhlükəsizlik və rəqəmsal transformasiyanı sadəcə texniki proseslər deyil, həm də beynəlxalq münasibətlərin nəzəri əsaslarını yenidən formalaşdıran amillər kimi qiymətləndirir.

Kiber və rəqamsallaşma nədir?

Müasir dövrdə texnologiyanın sürətli inkişafı nəticəsində "kiber" və "rəqəmsallaşma" anlayışları gündəlik həyatın ayrılmaz tərkib hissəsinə çevrilmişdir. İnformasiya-kommunikasiya texnologiyalarının geniş miqyasda tətbiqi, internetin qlobal şəbəkə kimi yayılması və rəqəmsal alətlərin cəmiyyətin bütün təbəqələri üçün əlçatan olması həm fərdlərin, həm də dövlətlərin fəaliyyət prinsiplərinə mühüm təsir göstərmişdir. Hazırda informasiya ən strateji resurslardan biri hesab olunur, onun qorunması və səmərəli idarə edilməsi isə milli təhlükəsizlik və davamlı inkişaf baxımından xüsusi əhəmiyyət kəsb edir. Bu kontekstdə kiberməkanın təhlükəsizliyinin təmin olunması və rəqəmsallaşmanın təqdim etdiyi imkanların dəyərləndirilməsi müasir ictimai, iqtisadi və siyasi proseslərin mərkəzi mövzularından birinə çevrilmişdir.

Rəqəmsallaşma özlüyündə 3 prosesə bölünür ki, bunlar rəqəmsallaşdırma, rəqəmsallaşma və rəqəmsal transformasiya adlanır:

1. Rəqəmsallaşdırma - fiziki obyektlərin və ya atributların rəqəmsal təsvirinin yaradılması, yəni rəqəmsal olmayan bir şeyin rəqəmsal təmsilə və ya artefakta çevrilməsi prosesidir.

2. Rəqəmsallaşma - rəqəmsal texnologiyalar və məlumatlardan istifadə edərək prosesləri aktivləşdirmək və ya təkmilləşdirməkdir.

3. Rəqəmsal transformasiya - əsasən rəqəmsallaşma texnologiyalarının tətbiqi ilə proseslərin avtomatlaşdırılmasını, dəyişdirilməsini, optimallaşdırılmasını ümumilikdə daha kompleks rəqəmsallaşdırma proseslərini nəzərdə tutur [43].

Rəqəmsal transformasiyaya qlobal səviyyədə ayrılan xərclər 2021-ci illə müqayisədə 2022-ci ildə 16%-lik artımla 1,85 trilyon ABŞ dolları, 2023-cü ildə 16.216%-lik artımla 2,15 trilyon ABŞ dolları təşkil etmişdir. Proqnozlara görə, bu rəqəm 2027-ci ildə 3,9 trilyon ABŞ dollarına çatacaq ki, bu da 2023-2027-ci illər üçün ortalama illik artımın 16.1% olacağını göstərir [15]. Bu datalar rəqəmsallaşmanın təhlil edilməsinin vacibliyini göstərir və buraya internet istifadəçilərini (5,52 milyard - 67,5%) [14], e–ticarət həcmini (2024-cü ildə 6,3 trilyon ABŞ dolları) və digər dataları əlavə edə bilərik. Rəqəmsallaşmaya ayrılan xərclərin dinamik artımı bir tərəfdən iqtisadi və sosial inkişafın yeni imkanlarını ortaya qoyur, digər tərəfdən isə beynəlxalq təhlükəsizlik və münasibətlərdə yeni çağırışlara səbəb olur. Bu kontekstdə bu rəqəmsal proseslər dünyanın rəqəmsallaşması ilə yanaşı, rəqəmsal diplomatiya kimi örnəklərlə beynəlxalq prosesləri də rəqəmsallaşdırır. Bu istiqamətdə rəqəmsal texnologiyaların sürətli inkişafı və həyatımızın hər sahəsinə inteqrasiyası qlobal təhlükəsizlik və beynəlxalq münasibətlər sahəsində də dərin izlər buraxır. Bu dəyişikliklər həm yeni imkanlar yaradır, həm də ciddi risklər ortaya çıxarır:

❖ **Müsbət təsirlər:** kommunikasiyanın sürətlənməsi və əhatə dairəsinin genişlənməsi; iqtisadi böyümənin sürət-

lənməsi; şəffaflığın artması; yeni həllərin ortaya çıxması və s.

❖ **Mənfi təsirlər:** kibertəhlükələr; gizlilik problemləri; sosial bərabərsizlik; avtoritar rejimlərin güclənməsi və s.

Eyni zamanda rəqəmsallaşmanın elmi aktivlik baxımından təhlili də vacib məqamları diqqət mərkəzinə çıxarır. Belə ki, "Digitalization" (rəqəmsallaşma) ingilisdilli Google Books Ngram (GBN) datalarında analizində:

❖ 1942-ci ildən 1979-cu ilə qədər 0,0000010150%-dən 0,0000018373%-ə yüksəlib (ümumilikdə 1,81 dəfə artıb (81%));

❖ 1980-ci ildən 2012-ci ilə qədər 0,0000020187%-dən 0,0000029297%-ə yüksəlib (ümumilikdə 1,45 dəfə artıb (45%));

❖ 2013-cü ildə bir il ərzində gerçəkləşən ilk böyük sıçrayışı – 1,15 dəfəlik (14,5%) görürük (0,0000033536%) və 2013-cü ildən başlayaraq bu sıçrayışların təkrarlandığını müşahidə edirik;

❖ 2013-cü ildən 2022-ci ilə qədər 0,0000033536%-dən 0,0000461648%-ə yüksəldiyini görürük ki, bu da 13,8 dəfəlik, başqa dillə 1276%-lik artım deməkdir [8].

Eyni zamanda, Amerika və Britaniya ingiliscəsindəki fərqlərdən dolayı "Digitalization" (ABŞ) və "Digitalisation" (Britaniya) formalarından istifadə olunur. Britaniya ingiliscəsindəki "-s"-li variantın istifadəsində də eyni tendensiyanı müşahidə etmək mümkündür: 2014-cü ildən etibarən bu termin elmi ədəbiyyatda 0,000001466%-lik göstəricidən 2022-ci ildə 0,0000155811%-ə yüksəlmişdir. Bu isə 2014-cü illə müqayisədə 10,63 dəfə, başqa sözlə, 962%-lik artım deməkdir [7].

Ümumilikdə bu datalar işığında rəqəmsallaşmanın elmi ədəbiyyatlarda ciddi sürətlə artımından bir çox nəticələr ortaya çıxır. Belə ki, bu artımlar rəqəmsallaşmanın artıq periferiya anlayışından çıxaraq qlobal elmi diskursun mərkəzi mövzularından birinə çevrildiyini göstərir. Xüsusilə 2013-cü ildən sonrakı mərhələdə terminin istifadəsində qeydə alınan sıçrayışlar rəqəmsallaşmanın təkcə texnoloji inkişafın deyil, həm də sosial elmlərin, idarəetmə və beynəlxalq münasibətlər sahələrinin əsas analitik kateqoriyasına çevrildiyini sübut edir. Bununla belə, nəzərə almaq vacibdir ki, terminin işlənmə tezliyindəki yüksəlişlər həmişə elmi dərinlik və ya keyfiyyətli araşdırma artımı ilə üst-üstə düşməyə bilər. Həmçinin GBN datalarının əsasən ingilisdilli mənbələrə əsaslanması nəticələrin qlobal mənzərə kimi qəbul edilməsinə müəyyən məhdudiyyətlər yaradır. Buna baxmayaraq, ümumi dinamika rəqəmsallaşmanın son onilliklərdə elmi ədəbiyyatlarda artan intensivliklə müzakirə edildiyini və yeni elmi-paradiqmatik yanaşmaların formalaşmasında aparıcı mövqeyə yüksəldiyini göstərir.

"Kiber" sözünün mənası ingilisdilli lüğətlərdə "kompüterə, informasiya texnologiyalarına, virtual reallıq mədəniyyətinə daxil olan, yaxud əlaqəli olan" mənasına gəlir [48]. Lakin sözün ilkin istifadəsi 1948-ci ildə Massaçusets Texnologiya İnstitutunun (MTİ) professoru Norbert Vinerin çap etdiyi "Kibernetik: heyvanlarda və maşınlarda nəzarət və kommunikasiya" (Cybernetics: Control and Communication in the Animal and the Machine) kitabı ilə bağlıdır [46]. "Kiber" termini və onunla əlaqəli anlayışlar nisbətən yeni olsa da, rəqəmsal dünyanın genişlənməsinə paralel şəkildə kiberməkanın genişləməsi, kibertəhdidlərin yayılma tezliyi kimi müddəalarla birlikdə təsir miqyası da artır. Bu aktivliyi elmi aktuallıq baxımından GBN dataları ilə əsaslandırsaq "Cyber" (kiber) sözünün ingilis dilində olan kitablarda istifadəsinin 1990-ci ilə qədər aktivliyi aşağı olsa da, 1990-cı ildən ciddi elmi aktivlik görünür: 1990-cı (0,0000372089%) illə müqayisə-

də 2022-ci ildə (0,00098926525%) 26 dəfə [6], "Cyber Attack" (kiberhücum) termini isə 1990-cı illə müqayisədə 2022-ci ildə 1106 dəfədən çox artmışdır [5]. Bu kontekstdə kiberproseslərin günümüzdə yüksək dərəcədə aktual olduğunu demək olar. Eyni zamanda yüksək rəqəmsallaşma prosesi, qeyd etdiyimiz kimi, pozitivlər və neqativlər gətirir. Bu təhdidlər ilkin dövrdə individual xarakter, anarxik təbiət daşısa da zamanla tamamilə əks istiqamətdə - çox daha geniş kütlələrə təsir edəcək, sistemləşdirilmiş təbiət qazandı. Bu istiqamətdə kibermüharibələrin qlobal müstəviyə çıxması prosesinin ardıcıllığı belədir: 1980-ci illərdə ilkin viruslar və "kompüter soxulcanları" yaradıldı, 1990-cı illərdə internetdən iqtisadi məqsədlərlə istifadə olunmağa başlanıldı və daha peşəkar kiberhücumlar gerçəkləşdirildi, 2000-ci illərdə kibermüharibələr dövlətlərarası əlaqələrə təsir edəcək, qlobal təhlükəsizliyə təhdid yaradacaq səviyyəyə gəlib çatdı və örnək kimi "Stuxnet" virusu kimi versiyalar yarandı, 2010-cu illərdə kibercinayətkarlıqla mübarizə təşkilatları və dövlət tərəfindən dəstəklənən haker qrupları kiberhücumlarda daha təkmilləşib, kritik infrastrukturları hədəf almağa başladı. Nəticə etibarilə prosesin gedişatı özlüyündə kibermüharibələrin yeni təhlükəsizlik parametrləri yaratması ilə nəticələndi. Bu ideya kiberqüvvələrin dövlətlərin hərbi qüvvələrinin tərkibinə daxil edilməsi prosesi ilə açıqlana bilər. Belə ki, 2000-ci ildə cəmi 5 dövlətin hərbi qüvvələrinin tərkibində kiberqüvvələr yer alsa da, 2018-ci ildə bu rəqəm 38-ə yüksəlmişdi [36].

Elmi-texniki tərəqqi və rəqəmsallaşmanın təsiri

Elmi-texniki tərəqqi və rəqəmsallaşma müasir beynəlxalq münasibətlərdə dövlətlərin güc bölgüsünə birbaşa təsir göstərən əsas determinantlardan hesab olunur. Rəqəmsallaşma prosesini həyata keçirməyən dövlətlər qlobal sistemdə nisbi güc itkilərinə məruz qalır, bu sahədə irəliləyiş əldə edənlər isə siyasi, iqtisadi və strateji müstəvidə üstün mövqelər qazanırlar. Lakin eyni zamanda rəqəmsallaşma ilə əldə edilən imkanlar dövlətləri artan rəqəmsal risklər və kibertəhdidlərin hədəfinə çevrilmə təhlükəsi ilə də üz-üzə qoyur. Bu istiqamətdə rəqəmsallaşmada geri qalan dövlətlərin paradoksal üstünlüyə sahib olduqlarını da qeyd etmək olar. Belə ki, rəqəmsal hücumun gerçəkləşməsi üçün oxşar hücum və müdafiə elementləri təmin olunmalıdır. Kağızda saxlanılan məlumatlara kompüterlə gerçəkləşdirilməsi planlanan hücum doğru metod deyildir, çünki rəqəmsallaşdırılmamış məlumat kibermühitin hədəfinə çevrilə bilməz. Yəni fundamental rəqəmsal bacarıqlar dövlətlər üçün "texnoloji Axilles dabanı"nı formalaşdırır.

Qlobal miqyasda rəqəmsallaşmanın yaratdığı imkan və risklər dövlətlərin güc balansını formalaşdırdığı kimi, bu tendensiyalar Avropa məkanında da xüsusi aktuallıq kəsb edir və Avropa İttifaqının (Aİ) rəqəmsal transformasiya göstəricilərində öz əksini tapır. Aİ-nin "Digitalisation in Europe - 2025" (Avropada rəqəmsallaşma - 2025) interaktiv nəşrindəki datalar rəqəmsallaşmanın Aİ üçün fərqli tərəflərini göstərir. Belə ki, "EuroStat"-ın 2023-cü il datalarına əsasən, Aİ vətəndaşlarının 44%-nin fundamental rəqəmsal bacarıqlara (FRB) malik olmadığı görünür. Eyni mənbəyə əsasən, Avropa məkanında Aİ-yə üzv olan və ya onun təsir dairəsində yerləşən dövlətlər arasında fundamental və ya daha yüksək səviyyəli rəqəmsal bacarıqlara (FYRB) sahib əhalinin payı aşağıdakı kimidir: Niderlandda - 83%, Finlandiya - 82%, Norveç - 81% (Aİ

üzvü deyil), İsveçrə - 78% (Aİ üzvü deyil), İrlandiya - 73%, Danimarka - 70% və Çexiya - 69%. Digər Aİ üzvləri FYRB dəyərləri baxımından 70%-in çox aşağısında yer alırlar ki, Avropanın aparıcı dövlətləri olan Almaniya - 52%, Fransa - 60%, İtaliya - 46%, İspaniya - 66%, Belçika - 59% kimi göstəricilərə sahibdir. Digər nəzərəçarpan faktlar isə Aİ-nin ümumi FYRB dəyərinin 55,6% olması və 40%-in altında iki dövlətin - Bolqarıstan (36%) və Rumıniyanın (28%) yer almasıdır [4]. Aİ nümunəsində rəqəmsal digər datalarda da oxşar trendlər görünür. Dünya nümunəsində isə təxmini olaraq insanların 35%-nin fundamental rəqəmsal bacarıqları yoxdur [58]. Qeyd etdiyimiz dataları daha da işıqlandırmaq üçün empirik sübutlar korrelyasiya, yaxud kausal analiz tətbiq edilə bilər, lakin ümumilikdə Aİ nümunəsində 2020-ci il Rəqəmsal İqtisadiyyat və Cəmiyyət İndeksi (DESI - Digital Economy and Society Index) dataları ilə müqayisə etdikdə rəqəmsal bacarıqların artdığını demək olar [28]. Bu istiqamətdə Avropanın və dünyanın rəqəmsallaşma faizinin gün keçdikcə artdığını deyə bilərik. Xüsusilə qeyd etmək lazımdır ki, araşdırmanın aparıldığı zaman çərçivəsində rəqəmsallaşmanın ölçülməsi ilə bağlı bir çox problemlərlə rastlaşdıq. Bu hal elmi araşdırmaların və kommentlərin etibarlılığını müəyyən dərəcədə məhdudlaşdırır və nəticələrin interpretasiyasında ehtiyatlı olmağı zəruri edir.

Dünyanın rəqəmsallaşması və internet texnologiyalarının sürətlə geniş yayılması nəticəsində yeni və daha mürəkkəb kiberhücum mexanizmləri meydana gəlmişdir. Bu çərçivədə kiberhücumlar müxtəlif üsullarla həyata keçirilir və əsasən hədəfli hücumlar, sosial mühəndislik texnikaları, “fidyə” proqramları (ransomware), paylanmış xidmət imtinası hücumları (DDoS), botnetlər, fişinq, IoT cihazlarına yönəlmiş hücumlar, SCADA sistemlərinə qarşı kibertəhdidlər, “'Sıfır-Gün” (Zero-Day) zəifliklərindən istifadə edilən hücumlar və süni intellekt dəstəyi ilə həyata keçirilən hücumlar daxil olmaqla bir neçə əsas kateqoriyaya bölünür. Bununla yanaşı, texnoloji inkişafla birlikdə yeni hücum növləri də ortaya çıxmaqdadır ki, bu da kibertəhlükəsizlik sahəsində təhdidlərin daim inkişaf etdiyini göstərir.

Eyni zamanda qloballaşma ilə informasiya axını sərhədsizləşib və internetə əlçatımlılığın artması ilə bu axın daha da sürətlənib. Kiberhücumlar qlobal informasiya axınına birbaşa təsir edərək iqtisadi itkilərə, təhlükəsizlik boşluqlarına, sosial iğtişaşlara və daha stateji proseslərin nəticələrinin dəyişməsinə səbəb ola bilər. Bununla yanaşı, məlumatların sui-istifadəsi və rəqəmsal etik pozuntular kimi təhdidlər də qlobal təhlükəsizlik mühitinə təsir göstərir. Misal kimi “Cambridge Analytica” (CA) qalmaqalını (CAS) qeyd etmək olar. Belə ki, 2013-cü ildə ingiltərədə “SCL Group”-un törəmə şirkəti kimi qurulmuş [32] CA “The Big Five” (Böyük Beşli) xarakter özəlliyi testindən istifadə edərək ilkin periodda 270 min insanın datasını toplamışdı. Davamında isə Feysbuk platforması üzərindəki boşluqlardan da istifadə edərək 50 milyona yaxın insanın datalarını toplamış və keçmiş CA işçisi Kristofer Uaylinin etirafları ilə gerçəklər ortaya çıxmışdı [13]. Həmçinin Ted Kruzun 2015-ci ildəki seçki kampaniyasında [27], 2016-cı il "Brexit" səsverməsi kimi bir çox vacib strateji əhəmiyyətli prosesə birbaşa təsir etmişdir [22]. Eyni zamanda qlobal informasiya axınının sərhədsizləşməsi ilə yanaşı, bu axının sui-istifadəsi qlobal təhlükəsizliyə ciddi təsir göstərdiyini deyə bilərik. “Cambridge Analytica” qalmaqalı kimi nümunələr məlumatların manipulyasiyasının stra-

teji proseslərə təsirini ortaya qoyur. Bu səbəbdən informasiya və informasiya axınının təhlükəsizliyinin təmin edilməsi qlobal təhlükəsizlik siyasətlərində prioritet olmalıdır.

Kiberməkanın beynəlxalq təhlükəsizliyə təsiri

Müasir qlobal sistemdə kiberməkan beynəlxalq münasibətlərin ən dinamik və transformativ elementidir. Dövlətlərarası münasibətlərin yeni geosiyasi müstəvisi kimi kiberhücumlar milli təhlükəsizlik strategiyalarının fundamental komponentinə çevrilmişdir. Kiberhücumların mahiyyəti onların asimmetrik güc proyeksiyası potensialında özünü göstərir. Bu fenomen klassik hərbi doktrinaların ənənəvi anlayışlarını köklü şəkildə dəyişərək dövlətlərə minimal resurslarla maksimal strateji təsir göstərmək imkanı yaradır. Əsas xüsusiyyət ondan ibarətdir ki, kiberhücumlar coğrafi məhdudiyyətləri praktik olaraq aradan qaldırır, yüksək gizlilik səviyyəsi təmin edir və atributsiyanın mürəkkəbliyi hesabına unikal strategiya formalaşdırır. Burada "Ən zəif halqa" prinsipinə toxunmaq vacibdir [16]. Belə ki, "Ən zəif halqa" prinsipi kiberhücumların metodoloji əsaslarından birini təşkil edir. Bu yanaşma kritik infrastruktur sistemlərindəki rəqəmsal zəifliklərin məqsədyönlü şəkildə identifikasiyası və istismarına əsaslanır. Texnoloji kəşfiyyat metodları vasitəsilə sosio-texniki sistemlərin struktur boşluqları müəyyənləşdirilərək, onların zəif təhlükəsizlik nöqtələrinə hücumlar həyata keçirilir. Beynəlxalq münasibətlərdə güc balansının transformasiyası kiberhücumların əsas nəticələrindən biridir. Texnoloji potensial artıq geosiyasi üstünlüklərin başlıca determinantına çevrilmişdir. Bu kontekstdə informasiya təhlükəsizliyi sistemləri, kritik infrastrukturun rəqəmsal qorunması və kiberkəşfiyyat fəaliyyəti əsas rəqabət müstəvilərinə çevrilmişdir.

Normativ-hüquqi tənzimləmə perspektivləri bu sahədə mövcud olan çağırışlardan biridir. Mövcud beynəlxalq hüquq normaları kiberhücumların spesifik xüsusiyyətlərini tam əhatə edə bilmir. Bu səbəbdən kiberhücumların beynəlxalq hüquq müstəvisinə çıxarılması, atributsiyanın standartlaşdırılması və qarşılıqlı etimad mexanizmlərinin inkişafı prioritet vəzifələr kimi müəyyən edilir.

Kiberhücumların əsas üstünlükləri onların iqtisadi effektivliyi, minimal xərclər hesabına maksimal disruptiv təsir göstərmək potensialı və yüksək gizlilik səviyyəsidir. Dövlətlər bu strategiyadan rəqiblərin kritik infrastruktur sistemlərinə təsir göstərmək, informasiya müharibələri aparmaq və strateji üstünlük əldə etmək üçün istifadə edirlər. Həmçinin 2017-ci ildə ortaya çıxan "Petya" hücumunu (Petya Ransomware Attack (PRA)) nümunə göstərmək olar. Belə ki, 2017-ci ildə ortaya çıxan PRA-da "Petya" adlı zərərli proqramdan istifadə edilərək bir sıra zəncirvari hücumlar gerçəkləşdirilmişdi [49]. Bu hücumlar 80% Ukraynanı hədəfə almışdı. Buraya banklar, nazirliklər, qəzetlər və elektrik şirkətlərinin veb saytları daxil idi. PRA-nın digər təsir etdiyi ölkələr isə 9% ilə Almaniya, Fransa, İtaliya, Polşa, Rusiya, ABŞ və Avstraliya idi [37]. Burada vacib məqam PRA-nın 80% ilə Ukraynada effektiv olması və bu hücumun Rusiyadan qaynaqlanması ilə bağlı mülahizə idi. Bu mülahizə Ukrayna rəsmilərinin, həmçinin Maykl N.Şmitt və ABŞ Mərkəzi Kəşfiyyat İdarəsinin (CIA) bəyanatlarına əsaslanaraq irəli sürülür [49]. Burada digər vacib məqam, "Associated Press"ə görə (30 iyun 2017), əks tərəf "Petya" proqramı kimi maskalanmışdı və əsas məqsəd Ukraynaya maksimum zərər vermək idi

[29]. Ümumilikdə “Oktava Cyber Protection” (Oktava Kibermüdafiə) şirkətinin qurucusu Aleksandr Kardakova görə, PRA Ukraynaya 400 milyon ABŞ dollarından çox zərər vurub [44]. Bu datalar əsasında əsas motivə sahib ölkənin Rusiya olduğunu demək olar, lakin eyni zamanda qeyri-dövlət aktorlarının da bu növ kiberhücumun təşkilatçısı ola biləcəyini unutmamaq lazımdır.

Nəticə etibarilə, kibermәkan beynəlxalq münasibətlərin yeni paradiqmasını formalaşdırır. Kiberhücumlar artıq geosiyasi rəqabətin ayrılmaz komponentidir və gələcəkdə daha da böyük rol oynayacaq. Bu kontekstdə milli kibertəhlükəsizlik strategiyalarının daimi modernizasiyası, yüksəkixtisaslı kadr potensialının hazırlanması, kibermühafizə infrastrukturuna sistemli investisiyalar və beynəlxalq səviyyədə koordinasiyanın gücləndirilməsi prioritet vəzifələr kimi müəyyən edilir.

Kibermüharibələrin sayının artma səbəbləri və onların beynəlxalq münasibətlərə təsiri

Son dövrlərdə kibermüharibələr müasir beynəlxalq münasibətlərin ayrılmaz hissəsinə çevrilmişdir. Texnologiyanın inkişafı bu sahədə yeni təhlükəsizlik və əməkdaşlıq çağırışları yaratmışdır. Ümumi olaraq desək kibermüharibələrin beynəlxalq münasibətlərə təsiri yetərincə çoxdur. Bu təsirləri aşağıdakı kimi qruplaşdırmaq olar:

❖ **Güvən və sabitliyin zəifləməsi:** Kiberhücumlar dövlətlərarası etibarı zəiflədir və beynəlxalq sabitliyi təhdid edir. Bir dövlətin digər bir dövlətin kritik infrastrukturuna hücumu diplomatik əlaqələri gərginləşdirir və uzun müddət dövlətlər arasında etibarın zədələnməsinə, diplomatik böhrana və ardıcıl-əlaqəli proseslərə səbəb ola bilər (Nümunə: 2015, Ukraynanın enerji şəbəkəsinə gerçəkləşdirilən kiberhücumlar (2015, Ukraine power grid hack) [18]);

❖ **İqtisadi zərər və maliyyə sabitliyinin zəifləməsi:** Kiberhücumlar iqtisadi sistemləri zəiflədir və ciddi maddi zərər verir. Xüsusilə, maliyyə institutlarına edilən hücumlar maliyyə bazarlarının manipulyasiyası kimi nəticələrə, həmçinin şirkətlərin, bankların, dövlət orqanlarının və digər qurumların fəaliyyətlərini dayandıraraq iqtisadi itkilərə səbəb ola bilər (Nümunə: 2017, WannaCry [38]).

❖ **Siyasi nəticələr və seçki müdaxilələri:** Kibermüharəblərin beynəlxalq münasibətlər üzərində təsir areallarından biri də siyasi və seçki prosesidir. Bu yolla strateji maraqlar qazanıla, dövlətlərin daxili işlərinə müdaxilə edilərək maraqlar təmin oluna, demokratik proseslər destabilizasiya edilə və digər nəticələr əldə edilə bilər (Nümunə: 2016, ABŞ Prezident seçkilərinə müdaxilə [45]).

❖ **Hərbi strategiyalar və təhlükəsizlik siyasətləri:** Kibermüharibələr hərbi strategiyaları və təhlükəsizlik siyasətlərini kökündən dəyişdirir. Dövlətlər kibertəhlükələrə qarşı daha mürəkkəb və inteqrə olunmuş müdafiə mexanizmləri yaratmaq məcburiyyətində qalır. Bu, müdafiə xərclərinin artmasına və yeni təhlükəsizlik protokollarının yaradılmasına səbəb olur. (Nümunə: İsrailin “Kiber Dəmir Qübbə” sistemi (Israel’s Cyber Iron Dome) [19]).

❖ **Beynəlxalq hüquq və normaların inkişafı:** Kiberhücumlar beynəlxalq hüquq və normaların inkişafına təsir göstərir. Kibermüharibələrin təsir arealları yalnız hərbi və siyasi sferalarla məhdudlaşmır, eyni zamanda beynəlxalq hüquq və normativ çərçivələrin yenidən formalaşdırılması zərurətini də gündəmə gətirir. Bu baxımdan kibermüharibələrin hüquqi aspektləri getdikcə daha çox mü-

zakirə olunmaqda və beynəlxalq münasibətlər sistemində ayrıca bir istiqamət kimi ön plana çıxmaqdadır. Belə ki, dövlətlər kiberməkanda fəaliyyət göstərən aktorların məsuliyyətlərini müəyyənləşdirmək və tənzimləmək məqsədilə yeni beynəlxalq hüquqi çərçivələr yaratmaq zərurəti ilə üzləşirlər. Kiberhücumların hüquqi tərifi və cavab mexanizmləri üzərində aparılan işlər bu sahədə tənzimləmələrin əsasını təşkil edir (Nümunə: 2009-2012, Tallin Manualı - Kibermüharibəyə tətbiq edilən beynəlxalq hüquq üzrə Tallin Təlimatı (Tallin Manual - Tallinn Manual on the International Law Applicable to Cyber Warfare) [25]).

❖ **İttifaqlar və beynəlxalq əməkdaşlıq:** Kibertəhlükələrə qarşı mübarizədə dövlətlər arasında ittifaqların qurulması və beynəlxalq əməkdaşlığın gücləndirilməsi getdikcə daha çox əhəmiyyət kəsb edir. Ortaq kibertəhlükəsizlik strategiyalarının hazırlanması və məlumat mübadiləsinin təşkili bu təhdidlərin təsirlərinin azaldılmasında həlledici rol oynayır (Nümunə: 2008, NATO CCD-COE – NATO Kooperativ Kibermüdafiə Mükəmməlliyyət-Mükəmməlləşdirilməsi Mərkəzi (NATO Cooperative Cyber Defence Centre of Excellence) [24]).

Nəticə etibarilə qeyd etmək olar ki, kibermüharibələr beynəlxalq münasibətlərə çoxşaxəli təsir göstərərək, qlobal etimadın və sabitliyin zəifləməsi, iqtisadi itkilərin artması, siyasi müdaxilələrin güclənməsi, hərbi strategiyaların transformasiyası, beynəlxalq hüququn adaptasiya proseslərinin sürətlənməsi və dövlətlərarası əməkdaşlıq mexanizmlərinin yenidən formalaşması kimi müxtəlif aspektlərdə əhəmiyyətli iz buraxır. Kiberhücumların intensivləşməsi beynəlxalq təhlükəsizlik mühitində yeni yanaşmaların zəruriliyini gündəmə gətirir, bu isə dövlətlər arasında artan gərginliklə yanaşı, kibertəhlükəsizlik sahəsində daha inteqrativ və institusional əməkdaşlıq ehtiyacını da önə çəkir.

Kibermüharibələrin artmasında ümumi olaraq bir çox səbəbləri qeyd edə bilərik. Bu səbəblərə rəqəmsallaşmanın artması, informasiyanın əlçatanlığının yüksək olması, dövlətlərarası kiberməkan mübarizəsi fonunda kriminal aktorların inkişafı, koronavirus (COVID–19) pandemiyasının rəqəmsallaşma prosesini sürətləndirməsi kimi nümunələri göstərmək mümkündür.

Kibermüharibələrin artmasının təsir gücü müqayisəedici datalarla dəstəkləndiyi zaman prosesi daha yaxşı anlamaq mümkündür:

❖ 2024-cü il datalarına görə, kibercinayətlərin vurduğu ümumi zərər 9,22 trilyon ABŞ dollarına bərabərdir. Bu datanın nə qədər ciddi maddi itki olmasını vurğulamaq üçün deyə bilərik ki, bu, Almaniyanın 2023-cü ildəki ÜDM-indən (4,46 trilyon ABŞ dolları [57]) 2 dəfə çoxdur.

❖ Ortalama məlumat sızıntısının (data breach) vurduğu zərər 2023-cü ildə 4,45 milyon, 2024-cü ildə isə 2023-cü ilə nisbətdə 9,66% artımla 4,88 milyon ABŞ dolları olmuşdur [56].

❖ Sonic Wall, KORM (ITRC - The Identity Theft Resource Center), UpGuard kimi bir çox kibertəhlükəsizlik şirkətlərinin araşdırmalarına əsasən, 2022-ci ildə zərərli proqram hücumlarının ümumi sayı 5,5 milyardı keçmişdir. Burada koronavirus dövründə “fidyə” proqramlarının (ransomware) artmasını 2021–ci ilə nisbətdə 2022-ci ildə 21% azalmasının (623 milyondan 493 milyona düşmüşdür) həm iqtisadi çətinliklərlə, həm də pandemiya dövründəki texnoloji inteqrasiyanın çoxalması ilə əlaqələndirmək mümkündür. Ümumi olaraq kiberhücum cəhdləri əvvəlki illə nisbətdə 2022-ci ildə 19% artaraq 6,3 trilyona çatmışdır [55].

Yuxarıda qeyd olunan məlumatlar

göstərir ki, kibermüharibələrin artması qlobal miqyasda həm maddi, həm də strateji baxımdan ciddi nəticələrə gətirib çıxarır. Bu proses təkcə dövlətlərarası münasibətlərdə deyil, həmçinin iqtisadiyyat, təhlükəsizlik və cəmiyyətin digər sahələrində də dərin təsirlər buraxır. Müvafiq məlumatlar və statistik göstəricilər bu təsirlərin miqyasını anlamağa imkan verir, bu isə gələcəkdə kibertəhlükəsizlik siyasətlərinin formalaşdırılmasında əsaslı qərarların qəbul edilməsi üçün mühüm rol oynayır. Kibertəhlükələrin qarşısının alınması üçün dövlətlər və beynəlxalq təşkilatlar arasında daha effektiv əməkdaşlıq mexanizmlərinin qurulması labüddür.

İnnovativ texnologiyaların hərbi məqsədlər üçün istifadəsi

Müasir dövrdə innovativ texnologiyaların hərbi məqsədlər üçün istifadəsi dövlətlərin müdafiə və təhlükəsizlik siyasətlərində prioritet istiqamətlərdən birinə çevrilmişdir. Süni intellekt, avtomatlaşdırma, kvant texnologiyaları və böyük məlumatlar (big data) kimi qabaqcıl texnologiyalar həm ənənəvi müharibə taktikalarının transformasiyasına, həm də kibermüharibə mühitinin dərinləşməsinə imkan yaradır. Məsələn, pilotsuz uçuş aparatları (dronlar) və süni intellektlə idarə olunan silah sistemləri müasir döyüş meydanlarında həm operativlik, həm də effektivlik baxımından inqilabi dəyişikliklərə səbəb olmuşdur. Bu texnologiyalar yalnız texniki üstünlük yaratmaqla kifayətlənmir, həm də müharibə etikası və beynəlxalq hüququn çərçivələrini yenidən müəyyənləşdirir. Eyni zamanda, innovativ texnologiyaların hərbi məqsədlər üçün tətbiqi asimmetrik müharibə şəraitində daha zəif aktorların güclü dövlətlərə qarşı təsirli taktikalar tətbiq etməsinə şərait yaradır. Bu vəziyyət qlobal təhlükəsizlik balansını dəyişir və kibersilahların müharibələrdə təsir gücünü artırır. Bu istiqamətdə İsrailin “Dəmir Qübbə” qısamənzilli hava hücumunda müdafiə sistemindən ilhamlanaraq yaradılan “Kiber Dəmir Qübbə” (KDQ) sistemini nümunə göstərmək olar. Belə ki, KDQ İsrail Milli Kiber Müdürlüyü – İMKM (Israel National Cyber Directorate (INCD)) tərəfindən idarə olunur və iştirakında İsrail Müdafiə Nazirliyi (Xüsusilə kəşfiyyatla məşğul olan “Bölmə 8200” (Unit 8200)) və özəl sektor şirkətləri iştirak edir [19]. Əsas məqsədləri siyahısına milli kibermühitin yaradılması, kibertəhdidlərə qarşı müdafiə, mərkəzləşdirilmiş məlumat mərkəzinin yaradılması, kibermüdaxilələrə qarşı cavabın verilməsi kimi prioritetlər daxildir. KDQ-ni xüsusi və əhəmiyyətli edən ən vacib elementlərdən biri texnoloji innovasiyaları tətbiq etməsidir. Belə ki, İMKM-in rəhbəri Gabi Portnoyun İsrail Milli Kibertəhlükəsizlik Strategiyasına (2025) əsasən ideyanın milli kibermühitin yaradılması ilə yanaşı süni intellekt (Sİ) tətbiqinin inkişaf etdirilməsi, kibertəhdidlərə qarşı savadlılığın artırılması, kritik infrastrukturların kiberqorunması, texnoloji dəstəyin artırılması və gücləndirilməsi kimi bir çox məqamlarıdır [35]. Maraqlıdır ki, İsrail Sİ-ni tətbiq etməklə qalmamış, çoxmərtəbəli müdafiə qalxanı yaratmışdır. Təsadüfi deyil ki, “Reuters”in xəbərinə görə, Almaniya da İsrail ilə kibertəhlükəsizlik sahəsində əməkdaşlığa meyillidir [52].

İnnovativ texnologiyaların tətbiqinin digər bir nümunəsi startap kimi fəaliyyətə başlayan “Regulus Cyber” şirkətinin antidron sistemidir [30]. Belə ki, “Regulus Cyber” süni intellekti, maşın öyrənmə (machine learing) kimi yeni innovativ texnologiyaları tətbiq edir [51]. Ümumilikdə İsrail nümunəsində həm yaxın dövr, həm də XX əsrdəki hərbi

qələbələr nəzərə alındıqda bu qələbələrin təsadüfi olmadığını görürük. Xüsusilə 2025-ci il İran-İsrail müharibəsinə diqqət yetirdikdə texnoloji üstünlüyün necə bir imkanlar yaratdığını görmək olur.

Hərbi sahədə innovativ texnologiyaların tətbiqində aparıcı qüvvələr olaraq ABŞ, Cənubi Koreya, Çin və bir çox dövlətləri vurğulamaq olar. Məsələn ABŞ-nin "Boston Dynamics" şirkətinin müharibə robotu, BigDog, RiSE, RHex, LS3,Sandflea, Wildcat və Spot Classic kimi robotlarını qeyd etmək olar ki, bu robotlar gələcək müharibələrin ənənəvi olmayacağını göstərir [20]. Eyni zamanda kvant hegemoniya nəzəriyyəsi aspektindən Kvant kompüterlərinin güc balansını dəyişdirəcəyini və bu siyahıda da ilk beşlikdə ABŞ, Almaniya, Çin, Böyük Britaniya və Yaponiyanın yer alacağını güman etmək olar [17]. Digər bir nümunə Cənubi Koreyadır. Bu ölkə pilotsuz uçuş aparatlarına (PUA) qarşı lazer silahını istifadəyə verib. Bu lazer silahı dronlar üçün minlərlə dollar xərcləyən dövlətlərə qarşı hər bir atışı yalnız 1,45 ABŞ dollarına başa gəlməsi ilə olduqca səmərəlidir [54]. Bu nümunələrin sayını artırmaq olar, lakin ümumi qənaətimiz odur ki, innovativ texnologiyalar kifayət qədər ciddi tətbiq olunur və bu proses güc balansını dəyişdirir.

Dövlətlərin müdafiədən çox hücum taktikalarına yönəlməsi

Dövlətlərin hərbi strategiyalarında müdafiədən çox hücum taktikalarına yönəlməsi son illərin diqqətçəkən trendlərindən biridir. Xüsusilə kibermüharibələrdə dövlətlər arasında "ilk zərbə üstünlüyü"nə nail olmaq üçün aqressiv yanaşmalar müşahidə olunur. Hücum taktikalarının artmasının səbəbləri arasında rəqəmsal infrastrukturun asanlıqla hədəfə çevrilməsi, geosiyasi rəqabətin intensivləşməsi və texnologiyanın imkan verdiyi yüksək dəqiqlikli zərbələr mühüm yer tutur.

Hücum yönümlü strategiyalar həm də ənənəvi müdafiə mexanizmlərinin effektivliyini azaldır. Müasir hərbi əməliyyatlar yalnız fiziki müstəvidə deyil, həm də kibermәkanda baş verdiyindən, hücumlar informasiya müharibələri, kibercasusluq və infrastrukturların sıradan çıxarılması kimi müxtəlif formalar alır. Bu yanaşma dövlətlər arasında gərginliklərin artmasına, yeni silahlanma yarışına və beynəlxalq münasibətlərdə sabitliyin zəifləməsinə gətirib çıxarır. Beləliklə, dövlətlər arasında kibermәkanda daha genişmiqyaslı əməkdaşlıq mexanizmlərinin qurulması və beynəlxalq hüquqi çərçivələrin genişləndirilməsi zərurətə çevrilir.

Bu iki tendensiya qlobal təhlükəsizlik mühitində həm çağırışlar, həm də yeni imkanlar yaradır və beynəlxalq sistemdə güc balansının dəyişməsi baxımından fundamental təsirlərə malikdir.

"Stuxnet" nümunəsi, "Olimpiya Oyunları Əməliyyatı" (Operation Olimpic Games (OOG))

"Stuxnet" kibersilahların real təsirlərini gördüyümüz ilk nümunələrdən biridir. Kod adı "Olimpiya Oyunları Əməliyyatı" olan proses Corc Buş dövründə başladılmış, daha sonra Barak Obama dövründə davam etdirilmişdir [40]. Tarixi kontekst aspektindən 2000-ci illərin sonu ABŞ-ın İrana nüvə proqramı ilə bağlı ciddi təzyiqlər etdiyi və bu istiqamətdə mümkün variantlardan hər birini istifadə etməkdən çəkinmədiyi dövr idi. 2006-cı ildə ABŞ kibersahədə ciddi təcrübəsi olan İsraillə birlikdə zərərli "kompüter soxulcanı" yaratmağa başladı. Bu prosesdə İsrail Müdafiə Qüvvələrinin texnoloji və kiberkəşfiyyat sahəsində fəaliyyət göstərən "Bölmə 8200" (Unit 8200) adlı əsas hərbi kəşfiyyat birliyindən kömək

aldılar [53]. Nəticə etibarilə virus İranın Buşehr və Natanzdakı nüvə obyektlərinə təsir etdi. Onu da əlavə edək ki, İranın Atom Enerjisi Agentliyinə uzun müddət rəhbərlik etmiş Qulam Rza Ağazadənin qəfil istefası da [9] "kompüter soxulcanı"nın yetərincə effektiv olduğunu deməyə əsas verir.

Maraqlıdır ki, İranın nüvə proqramında çalışan şəxslər 2007-ci ildən etibarən davamlı şəkildə sui-qəsdlərə qurban gediblər. Belə ki, Ərdəşir Hüseynpur (15 yanvar 2007), Məsud Əli Məhəmmədi (12 yanvar 2010), Məcid Şahriyari (29 noyabr 2010), Fereydun Abbasi Davani (29 yanvar 2010), Daryuş Rzaei Nəjad (27 iyul 2011), Mustafa Əhmədi Roşən (11 yanvar 2012) və Möhsün Fəxrizadəyə (noyabr 2020) sui-qəsdlər təşkil olunmuşdur (sadəcə Fereydun Abbasi Davani yaralı şəkildə sağ qalmışdır) [39]. Sadə korrelyasiya aparsaq sui-qəsdlərin 85%-i, yəni 6-sı 2007-2012-ci illər aralığında baş vermişdir. Bu dövr "Stuxnet" "kompüter soxulcanı"nın aktiv olduğu dövrlə üst-üstə düşür. Eyni zamanda xüsusilə vurğulamaq lazımdır ki, müəyyən sahələrdə çalışan şəxslər dövlətlər üçün strateji resursdur. Bu resurslar dəyər qazanmaqda davam edir, lakin müasir dövrdə coğrafi üstünlük, əhali sayının çoxluğu üstünlüyü kimi ideyalar texnoloji irəliləmə ilə ikinci plana düşür.

Ümumilikdə, "Stuxnet" kibermüharibələrin effektivliyini və strateji təsirlərini nümayiş etdirən ilk nümunələrdən biri olaraq, İranın nüvə proqramına ciddi zərbə vurmuşdur. Onun xüsusi əhəmiyyəti rəqəmsal müstəvidə ənənəvi hərbi əməliyyatlara alternativ yaratmasında idi. Belə ki, bu hücum fiziki güc tətbiq edilmədən strateji hədəflərə nail olmağın mümkünlüyünü sübut etmişdir. Eyni zamanda, "Stuxnet"in fəaliyyəti ilə paralel olaraq 2007-2012-ci illərdə İranın nüvə proqramında çalışan alimlərə qarşı həyata keçirilən sui-qəsdlər kiberəməliyyatların yalnız texnoloji deyil, həm də insan resurslarına təsirini göstərmişdir. Bu hadisələr kibermüharibələrin müasir geosiyasi strategiyalarda mühüm rol oynadığını və təhlükəsizlik sahəsində yeni yanaşmaların tələb edildiyini vurğulamışdır.

Qeyd edək ki, "Stuxnet"in geosiyasi təsiri geniş rezonans doğurmuş, yalnız İranın nüvə proqramını zəiflətməklə qalmamış, həm də kibermüharibənin qlobal təhlükəsizlik məsələsi kimi prioritetə çevrilməsinə səbəb olmuşdur. Hücumun ortaya çıxmasından sonra bir çox dövlətlər kiberməkanda müdafiə və hücum qabiliyyətlərini gücləndirmək üçün ciddi addımlar atmışdır. Bu hadisə həmçinin beynəlxalq hüquq çərçivəsində kibermüharibələrin hüquqi statusunu müzakirə mövzusuna çevirmişdir.

Nəticə olaraq qeyd edə bilərik ki, "Stuxnet" texnoloji inkişafın müharibələrdə yeni müstəvi yaratdığını və müasir münaqişələrin xarakterini dəyişdirdiyini göstərən mühüm nümunədir. Bu hadisə beynəlxalq münasibətlərdə təhlükəsizlik strukturunun yenidən formalaşmasına və kibermüharibənin qlobal səviyyədə qəbul edilməsinə, yeni kibertəhlükəsizlik təşəbbüslərinə yol açmışdır.

Vacib infrastrukturlara kiberhücumlara dair nümunələr

Vacib infrastrukturlara olan kiberhücumlar sadəcə taktiki deyil, həm də strateji hücumları əhatə edir. "Stuxnet" kimi nümunələr göstərir ki, enerji, bank və nəqliyyat kimi həyati sektorlara yönələn kiberhücumlar bu sahələrin fəaliyyətini dayandıraraq iqtisadi və sosial təsirlər yarada bilər. Bu kontekstdə kateqorik nümunələr göstərə bilərik ki, burada ən vacib sahələrdən biri enerji sektorudur. Belə ki, enerji sektoruna olan hücum-

lar iqtisadi ziyan vurmaq, siyasi təzyiq göstərmək, hərbi üstünlük qazanmaq, ictimai sabitliyi pozmaq və məlumat oğurlamaq məqsədilə həyata keçirilir. Bu hücumlar ölkələrin iqtisadiyyatına, siyasi sabitliyinə və hərbi gücünə ciddi təsir göstərir. Enerji təhlükəsizliyi milli təhlükəsizlik üçün kritik əhəmiyyət daşıyır və güclü müdafiə mexanizmləri tələb edir. Bu kontekstdə enerji sektorunda ciddi təsirlər buraxan bir neçə kiberhücum nümunələri göstərmək mümkündür:

• 2014-cü ildə Norveçin neft və qaz sektorunda fəaliyyət göstərən 50-dən çox şirkətə qarşı gerçəkləşdirilən kiberhücum;

• 2012, 2016 və 2017-ci illərdə "Shamoom" zərərli proqramı vasitəsilə Səudiyyə Ərəbistanının milli neft şirkəti olan "Saudi Aramco" və digər infrastrukturlarına qarşı gerçəkləşdirilən kiberhücum;

• 2017-ci ildə "Saudi Aramco"ya "Triconex" hücumu (Triconex Controller Attack);

• 2021-ci ildə ABŞ boru kəmərinə qarşı "Ransomware" hücumu (Ransomware Attack on US Colonial Pipeline);

• 2022-ci ildə Avropa neft emalı limanlarına və saxlama anbarlarına qarşı gerçəkləşdirilən kiberhücum [27].

Digər bir vacib sahə isə maliyyə sahəsidir ki, burada da kiberhücumların ciddi təsirləri görünür. Belə ki, XXI yüzillikdə Equifax, American Express, First American Financial Corporation, Receivables Performance Management, JP-Morgan Chase, Capital One, Heartland Payment Systems, Westpac Banking Corporation və bu kimi qurumlara ciddi kiberhücumlar edilmişdir. Geniş təsir dairəsinə malik kiberhücumlara misal olaraq "Equifax"ə qarşı gerçəkləşdirilən hücum ABŞ əhalisinin 40%-inə təsir etmişdir (Bəzi mənbələrdə 56% [41]) [36].

Qeyd etdiyimiz datalar istiqamətində bir çox sahələr üzrə nümunələr göstərmək mümkündür. Lakin ümumilikdə deyə bilərik ki, kiberhücumların iqtisadiyyat, siyasət və təhlükəsizlik sahələrində yaratdığı ciddi təsirlər bu hücumların çoxşaxəli və strateji xarakter daşıdığını göstərir. Enerji və maliyyə sektorlarında baş verən hadisələr bu təsirlərin miqyasını və dərinliyini nümayiş etdirir. Enerji sektoruna yönəlmiş kiberhücumlar iqtisadi fəaliyyətləri iflic edir, siyasi təzyiq vasitəsinə çevrilir və hərbi üstünlük əldə etmək üçün istifadə olunur. Bu kimi hücumlar enerji təhlükəsizliyini zəiflədərək, dövlətlərin milli təhlükəsizlik konsepsiyalarında yeni təhdidlər doğurur. Maliyyə sektorunda isə hücumlar iqtisadi sistemin sabitliyinə birbaşa təsir edir, şəxsi məlumatların təhlükəsizliyini risk altına alır və ictimai etibarı zədələyir. "Equifax" hücumu kimi nümunələr bu təsirlərin nə qədər genişmiqyaslı olduğunu göstərir.

Göründüyü kimi, istər inkişaf etmiş, istərsə də inkişaf etməkdə olan ölkələr üçün kibertəhdidlər strateji infrastrukturun və enerji təhlükəsizliyinin ən həssas, zəif nöqtəsinə çevrilir. Bu reallıq isə daha geniş mənzərəni - kiberhücumların artıq qlobal təhlükəsizlik gündəliyinin ayrılmaz hissəsinə çevrildiyini ortaya qoyur. Lakin kibertəhdidlərin təsirləri yalnız inkişaf etmiş ölkələrlə (İEÖ) məhdudlaşmır. Bu risklər inkişaf etməkdə olan ölkələr (İEOÖ) üçün də ciddi təhlükə yaradır. Belə ki, İEOÖ-lər yetərincə ciddi infrastruktur, güclü kibermüdafiə sistemləri və yüksək ixtisaslı kadr potensialına malik olmadığından kiberhücumların fəsadlarına qarşı daha həssas vəziyyətdə qalırlar. Bununla yanaşı, İEÖ-lər nisbətən güclü texnoloji resurslara və mütərəqqi müdafiə mexanizmlərinə sahib olsalar da, onların mürəkkəb və yüksək dərəcədə rəqəmsallaşmış sistemləri daha genişmiqyaslı və strateji hücumların hədəfinə çevrilə bilir. İEOÖ-lər aspektindən nümunə kimi Azərbaycanın "Səngəlçal"

terminalını qeyd edə bilərik. Belə ki, Xəzər hövzəsində BP-nin işlədiyi bütün dəniz yataqlarından hasil edilən neft və qaz bu terminala yönləndirilərək texnoloji emaldan keçirilir, saxlanılır və ixrac olunur [21]. Xüsusi önəmi ilə birlikdə terminalın maksimum tutumu 4 milyon barel və BP-yə istinad etsək, işlək tutumu 3.2 milyon bareldir. Sadə məntiq tətbiq etsək, hazırda "Azəri Light" markalı Azərbaycan neftinin təxmini qiyməti 70 ABŞ dollarına bərabərdir [50] və baş verə biləcək işlək tutum zərəri 224 milyon ABŞ dolları, tam tutum zərəri isə 280 milyon ABŞ dollarına bərabər olacaqdır. Terminalın hazırda gündəlik gücü 1,2 milyon barel neft və "Şahdəniz" yatağından 80 milyon standart kubmetr təbii qazdır. Dayanma səbəbindən ötürülmə–ixrac gecikməsinin təsiri real texniki göstəricilər əsasında qiymətləndirildikdə, terminalın gündəlik ötürmə gücü təqribən 1,2 milyon barel təşkil edir ("Şahdəniz" qazı üçün təqribən 80 milyon standart kubmetr mavi yanacaq) [12]. Bu həcm "Azəri Light" markalı neftin hazırkı 70 ABŞ dolları-barel qiyməti ilə hesablandıqda, gündəlik təxminən 84 milyon ABŞ dolları dəyərində olur. Belə bir vəziyyətdə 1 həftəlik dayanma 588 milyon, 1 aylıq dayanma 2,52 milyard, 3 aylıq dayanma isə 7,56 milyard ABŞ dolları həcmində təxmini zərərə gətirib çıxara bilər. Təbi ki, bu hesablamanın bəzi çatışmazlıqları var. Əvvəla, qiymət 70 dollar/barel kimi sabit götürülüb, halbuki bazar dəyəri daim dəyişir. İkincisi, terminalın 1,2 milyon barel/gün göstəricisi texniki maksimumdur, faktiki ötürmə həcmi daha az ola bilər. Hesablamalar tam itki üzərində qurulub, amma əslində bir hissə sadəcə təxirə salınmış ixrac ola bilər. Həmçinin sığorta, müqavilə öhdəlikləri və alternativ marşrutlar nəzərə alınmayıb. Nəhayət, həm inventar itkisi, həm də ixracın dayanması eyni vaxtda baş verdikdə, eyni itkini iki dəfə qeydə alma riski (ikili sayım riski) yaranır. Bütün bu arqumentlər göstərir ki, strateji enerji obyektləri yalnız iqtisadi deyil, həm də kibertəhlükələr baxımından xüsusi həssaslığa malikdir. Bu kontekstdə "Səngəçal" terminalı kimi iri infrastruktur mərkəzləri kiberhücumların hədəfinə çevrildikdə, sadəcə maliyyə itkiləri deyil, həm də enerji təhlükəsizliyi, regional sabitlik və beynəlxalq münasibətlər üçün ciddi fəsadlar yarana bilər. Bu baxımdan kibertəhlükələrin potensial təsirlərinin qiymətləndirilməsi və qabaqlayıcı müdafiə mexanizmlərinin gücləndirilməsi inkişaf etməkdə olan dövlətlər üçün həyati əhəmiyyət daşıyır. Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin 2024-cü il üzrə təqdim etdiyi hesabata əsasən, Azərbaycanın dövlət qurumlarına (ümumilikdə 612 kiberhücum indikatoru – IOC qeydə alınıb) [3] və həyati əhəmiyyətli obyektlərinə qarşı kiberhücumların həyata keçirildiyini qeyd edə bilərik. Bu əsasda "Səngəçal" terminalı kimi strateji enerji obyektlərinin kiberhücumlara qarşı davamlılığının artırılması, milli kibermüdafiə infrastrukturunun gücləndirilməsi, qabaqlayıcı təhlükəsizlik tədbirlərinin tətbiqi və beynəlxalq əməkdaşlığın genişləndirilməsi prioritet istiqamət kimi dəyərləndirilməlidir.

Çıxış yolları və təşəbbüslər

Son illərdə kibertəhdidlərin artması ilə birlikdə dövlətlərarası əməkdaşlıqlar da intensivləşmişdir. Bu proseslər qlobal olaraq kibertəhlükəsizlik mühitinin inkişafına fayda verir. Bu istiqamətdə bir çox nümunələr qeyd etmək mümkündür:

❖ NATO üzv ölkələr arasında kibertəhlükəsizliyi gücləndirmək üçün müxtəlif təşəbbüslər həyata keçirir. Bu konteksdə Kibermüdafiə Əməkdaşlıq Mərkəzini (CCDCOE) qeyd edə bilərik

ki, 2014-cü ildən bəri NATO kiberhücumları 5-ci maddə çərçivəsində (bir üzv ölkəyə edilən hücum bütün üzv ölkələrə edilən hücum kimi qəbul edilir) nəzərdən keçirir [47].

❖ BMT də rəqəmsal təhlükəsizliyin təmin edilməsi üçün beynəlxalq əməkdaşlığı təşviq edir. Bu istiqamətdə BMT-nin ixtisaslaşmış agentliklərindən biri olan Beynəlxalq Telekommunikasiya İttifaqı (ITU) üzərindən kibertəhlükəsizlik təlimləri və proqramları gerçəkləşdirir [10]. Eyni zamanda BMT beynəlxalq səviyyədə kibertəhlükəsizliyin gücləndirilməsi (əsasən az və orta gəlirli ölkələr) məqsədilə 2021-ci ildə Kibertəhlükəsizlik üzrə Çoxtərəfli Etimad Fondu (Cybersecurity Multi-Donor Trust Fund) təsis etmişdir (Dünya Bankı daxilində) [2].

❖ Rəqəmsal təhlükəsizlik sahəsində 2004-cü ildə yaradılan və 2005-ci ildə fəaliyyətə keçən Avropa İttifaqı Kibertəhlükəsizlik Agentliyi (European Union Agency for Cybersecurity, (European Network and Information Security Agency - ENISA) çərçivəsində kibertəhlükəsizlik təlimləri, tədqiqatlar, koordinativ tədbirlər gerçəkləşdirir. Eyni zamanda üzv dövlətlər arasında məlumat mübadiləsini və əməkdaşlığı artırmaq üçün aktiv fəaliyyətlərə də xüsusi diqqət ayırır [1].

Dövlətlərin kibersahənin hüquqi tənzimlənməsi ilə bağlı yatırımları da mövcuddur. Bu istiqamətdə Avropa Şurasının 2001-ci ilin noyabrında imzalanmış "Kibercinayətkarlıq haqqında" Budapeşt Konvensiyasını [26], NATO-nun "Tallin Manuelı 2.0" [42] (TM 2.0) və "Tallin Manuel 3.0" (TM 3.0) (2017-ci ildə TM 2.0 paylaşıldı, 2021-ci ildə TM 3.0 töhfə verilməsi üçün ictimaiyyətə açıqlandı) nümunə göstərmək mümkündür. Lakin bu sahədə yetərincə güclü hüquqi baza yoxdur və buna hələ də ciddi ehtiyac vardır. Bunun əsas səbəbi kibertəhdidlərin və cinayətlərin təbiətinin çox sürətlə dəyişməsi və bu dəyişikliklərə hüquqi sistemlərin cavab verə bilməməsidir. Həmçinin, kibercinayətkarlığın qlobal xarakter daşıması fərqli ölkələr arasında hüquqi çərçivələrin uyğunlaşdırılmasını çətinləşdirir. Mövcud beynəlxalq müqavilələr və konvensiyalar kiberhücumlara qarşı mübarizəni təşviq etsə də, onların tətbiqi və effektivliyinin artırılması üçün hələ də bir çox çətinliklər mövcuddur. Bu baxımdan, kibertəhlükəsizliyə dair hüquqi tənzimləmələrin gücləndirilməsi, dövlətlərarası əməkdaşlığın artırılması və beynəlxalq hüququn kibercinayətkarlığa qarşı daha çevik və dinamik yanaşmalar təqdim etməsi vacibdir. Əks halda, mövcud hüquqi çərçivələr kibertəhlükəsizliklə bağlı yüksələn təhdidləri qarşılayacaq qədər səmərəli olmayacaq. Bu sahədə dövlətlərin hüquqi və texniki əməkdaşlığı genişləndirməsi, həmçinin beynəlxalq hüququn kibercinayətkarlıqla bağlı daha sərt tədbirlər tətbiq etməsi lazım olacaq.

Eyni zamanda kibermüharibələrin artması dövlətlər arasında kibertəhlükəsizlik sahəsində daha güclü əməkdaşlıq və cavab strategiyalarının inkişafını tələb edir. Dövlətlərin kibersahədə "hücumdan müdafiəyə keçid" (HMK) strategiyalarına fokuslanmaları da vacibdir. Dövlətlərin kibersahədə indiyəqədərki proseslərdə müdafiədən daha çox hücumlar gerçəkləşdirdiyini və daha çox "Kütləvi Qisas Doktrinası" ilə hərəkət etdiklərini qeyd edə bilərik. HMK strategiyası kibermüharibələrdə passiv müdafiə yanaşmasından çıxaraq, proaktiv və qabaqlayıcı tədbirləri əhatə edir. Əsas məqsəd yalnız hücumlara qarşı qorunmaq deyil, həm də potensial təhlükələri əvvəlcədən müəyyən edib, onlara effektiv şəkildə müdaxilə etməkdir. Eyni zamanda HMK strategiyası dövlətlərin kibertəhlükəsizlik sahəsində daha dayanıqlı, uzunmüddətli və qlobal təhlükə-

sizliyə töhfə verən yanaşmalar qəbul etməsini əhatə edir. Bu istiqamətdə HMK strategiyası aktiv proseslərə cavab strategiyası kimi ortaya çıxır və bir çox üstünlükləri vardır. Bunları 4 başlıq altında xülasələndirmək mümkündür:

❖ **Proaktiv texnologiyalar və hücumun zəiflədilməsi:** Hücumdan müdafiəyə keçid proaktiv yanaşmaları əsas götürür. Süni intellekt (Sİ), maşın öyrənmə və qabaqcıl aşkaretmə sistemləri təhlükələrin vaxtında müəyyən edilməsinə imkan yaradır. Real vaxtda monitorinq və məlumat analitikası texnologiyaları kiberhücumların təsirini minimuma endirmək üçün kritik əhəmiyyət daşıyır. Bu yanaşma, xüsusilə dövlətlərin vacib infrastrukturunun qorunmasında strateji üstünlük qazandırır.

❖ **Hüquqi bazanın gücləndirilməsi və hücumdan çəkinmə:** Hücumdan müdafiəyə keçid, kiberhücumlara qarşı hüquqi bazanın möhkəmləndirilməsini tələb edir. Dövlətlər əks-hücum tədbirlərindən daha çox hücumların təsirini azaldan hüquqi və texniki mexanizmlərin inkişafına diqqət ayırırlar. NATO-nun "Tallin Manual"-ı kimi sənədlər beynəlxalq hüquqda müdafiə strategiyasını daha da irəli aparmağa kömək edir.

❖ **Beynəlxalq əməkdaşlıq və kollektiv müdafiə:** Hücumdan müdafiəyə keçid beynəlxalq əməkdaşlığı genişləndirməklə həyata keçirilir. NATO-nun Kibermüdafiə Mərkəzi, Avropa İttifaqının ENISA kimi qurumları və BMT-nin kibertəhlükəsizlik təşəbbüsləri məlumat paylaşımını artırmaqla yanaşı, qlobal səviyyədə dövlətlərin birgə fəaliyyətini dəstəkləyir. Bu yanaşma dövlətlər arasında etimadın möhkəmləndirilməsinə və qlobal təhlükəsizlik arxitekturasının formalaşmasına imkan verir.

❖ **Texnoloji infrastrukturun gücləndirilməsi:** Yüksək keyfiyyətli texnoloji infrastruktur müdafiə strategiyasının əsasını təşkil edir. Bulud əsaslı sistemlər, blokçeyn texnologiyaları və şifrələmə həlləri dövlətlərə kibertəhlükələrə daha davamlı və etibarlı müdafiə imkanı verir. Xüsusilə inkişaf etməkdə olan ölkələrdə bu yanaşma kibertəhlükəsizliyin gücləndirilməsində önəmli yer tutur.

Ümumilikdə "Hücumdan müdafiəyə keçid" strategiyası dövlətlərin kibertəhlükəsizlik yanaşmalarını daha səmərəli və uzunmüddətli müdafiə tədbirləri ilə əvəz etməsini təmin edir. Bu strategiya həm milli təhlükəsizliyin möhkəmləndirilməsinə, həm də beynəlxalq əməkdaşlığın artırılmasına töhfə verir. Beləliklə, dövlətlər həm hücumlara qarşı daha hazırlıqlı olur, həm də qlobal təhlükəsizlik mühitində dayanıqlılığı artırırlar.

Nəticə

Bu tədqiqat rəqəmsallaşmanın beynəlxalq münasibətlər sistemində yaratdığı paradiqmatik dəyişikliyin hərtərəfli təhlilini təqdim edir və kiberməkanın müasir geosiyasi proseslərdə oynadığı həlledici rolu sübut edir.

Hipotezlərin təsdiqi və əsas nəticələr: Tədqiqat çərçivəsində irəli sürülmüş hər üç hipotez empirik məlumatlarla tam təsdiq edilmişdir:

❖ **Birinci hipotez** - rəqəmsallaşmanın beynəlxalq münasibətlərdə həm imkanlar, həm də təhlükələr yaratması - statistik məlumatlarla sübut olunmuşdur. Qlobal rəqəmsal transformasiya investisiyalarının 2027-ci ildə 3,9 trilyon dollara çatacağı proqnozu, eyni zamanda 2024-cü ildə kibercinayətlərin 9,22 trilyon dollar zərər vurması bu ikitərəfli təsirin açıq nümunəsidir. Rəqəmsallaşma iqtisadi inkişaf, şəffaflıq və diplomatik kanalların genişlənməsi kimi imkanlar yaradır, eyni zamanda "fidyə" hücumları, DDoS hücumları, "Cambridge Analytica" qalmaqalı kimi hadisələr

yeni risklər ortaya çıxarır.

❖ **İkinci hipotez** - kibermüharibələrin dövlətlərarası güc balansını dəyişdirmə potensialı - "Stuxnet" əməliyyatı, "Petya" hücumu və digər kritik infrastruktura yönələn sistematik hücumlarla təsdiq edilir. 2000-ci ildə cəmi 5 dövlət kiberqüvvəyə sahib idi. Bu rəqəmin 2018-ci ildə 38 dövlətə qədər artmışdı: bu, transformasiyanın kəmiyyət göstəricisidir.

❖ **Üçüncü hipotez** - beynəlxalq hüququn yenidən formalaşdırılması zərurəti - Tallinn Manualı, NATO və ENISA sənədləri, həmçinin Budapeşt Konvensiyası göstərir ki, mövcud beynəlxalq hüquq normaları kiberhücumların spesifik xüsusiyyətlərini tam əhatə etmir və yeni tənzimləmələrə ehtiyac var. Bu, kiberhücumları həyata keçirən dövlətlərin fəaliyyətlərinin hər hansı beynəlxalq qanunvericiliklə ya tənzimlənmədiyini, ya da yetərincə tənzimlənə bilmədiyini göstərir. Bir növ kiberməkanda "qladiator döyüşü" baş verir. Bu istiqamətdə Tallinn Manual 2.0, Budapeşt Konvensiyası və NATO-nun 5-ci maddəsi çərçivəsində kiberhücumların qiymətləndirilməsi kimi beynəlxalq hüquqi instrumentlərin formalaşması mövcud ehtiyacı təsdiqləməklə yanaşı, kiberhücumların real müharibələrlə ekvivalent tutulması mənasına gəlir.

Kiberməkanın transformativ rolu: Tədqiqat nəticələri göstərir ki, kiberməkan ənənəvi güc anlayışlarını fundamental şəkildə dəyişdirmişdir. "Ən zəif halqa" prinsipinin tətbiqi, coğrafi məhdudiyyətlərin aradan qaldırılması və asimmetrik güc proyeksiyasının imkanları dövlətlər arasında yeni rəqabət dinamikasını formalaşdırmışdır. "Cambridge Analytica" qalmaqalının demokratik proseslərə, "WannaCry" və "NotPetya" kimi hücumların isə qlobal iqtisadi sistemlərə təsiri təhlükəsizlik anlayışının genişlənməsini zəruri etmişdir.

İnnovativ texnologiyaların hərbi tətbiqi: İsrailin "Kiber Dəmir Qübbə" sistemi, süni intellekt əsaslı müdafiə mexanizmləri və Cənubi Koreyanın lazer əsaslı antidron sistemləri kimi nümunələr texnoloji innovasiyaların hərbi sahədə tətbiqinin yeni standartlarını müəyyən etmişdir. Bu inkişaflar dövlətlərin müdafiə strategiyalarında fundamental dəyişikliklər yaratmış və yeni silahlanma yarışına başlanğıc vermişdir.

Beynəlxalq əməkdaşlığın zərurili-yi: NATO CCDCOE, ENISA, ITU-nun kibertəhlükəsizlik proqramları və BMT-nin Kibertəhlükəsizlik üzrə Çoxtərəfli Etimad Fondu kimi təşəbbüslər beynəlxalq cəmiyyətin kollektiv cavabvermə səylərini əks etdirir. Lakin bu mexanizmlərin effektivliyi kibertəhdidlərin təkamül sürətindən geri qalır və daha dinamik yanaşmaların tələb olunduğunu göstərir.

Strateji tövsiyələr: Tədqiqat "Hücumdan müdafiəyə keçid" (HMK) strategiyasının tətbiqini tövsiyə edir ki, bu da aşağıdakı komponentləri əhatə edir:

❑ Proaktiv texnoloji həllərin inkişafı,

❑ Hüquqi mexanizmlərin gücləndirilməsi,

❑ Beynəlxalq əməkdaşlığın dərinləşdirilməsi,

❑ Texnoloji infrastrukturun modernizasiyası.

Rəqəmsallaşma və kiberməkanın inkişafı XXI əsrin beynəlxalq münasibətlərində fundamental dəyişikliklər yaratmışdır. Kibertəhlükəsizlik artıq beynəlxalq təhlükəsizliyin mərkəzi komponenti olaraq qəbul edilməli və dövlətlərin milli təhlükəsizlik strategiyalarında prioritet kimi müəyyən edilməlidir. Beynəlxalq cəmiyyətin bu yeni reallıqla uyğunlaşması institusional yeniliklər, hüquqi çərçivələrin modernizasiyası və dövlətlərarası əməkdaşlığın dərinləşdirilməsi ilə mümkündür. Kiberməkan gələcəkdə beynəlxalq münasibətlərin

daha da mərkəzi elementi olmağa davam edəcək və bu sahədə aparılan siyasətlər qlobal sabitlik və təhlükəsizliyin əsas təməllərindən birini təşkil edəcəkdir.

Nəticənin davamı olaraq qeyd edə bilərik ki, texnoloji inqilablar və rəqəmsallaşma beynəlxalq münasibətlərdə həm yeni çağırışlar, həm də fürsətlər yaratmaqdadır. Kibertəhlükəsizlik, kibermüharibələr və rəqəmsal diplomatiya qlobal təhlükəsizlik müstəvisində əsas rol oynayır. Rəqəmsal transformasiya iqtisadi və sosial sahələrdə yeni imkanlar yaratsa da, beynəlxalq təhlükəsizlik üçün ciddi risklər də doğurur. Kibertəhdidlər yalnız texniki deyil, həm də iqtisadi, ictimai və siyasi təhlükəsizlik aspektlərini əhatə edərək dövlətlərə strateji üstünlük qazanmaq üçün geniş tətbiq edilir.

Rəqəmsal transformasiya həmçinin müsbət və neqativ təsirlər yaradır; iqtisadi inkişaf və şəffaflığın artması ilə yanaşı, kibertəhlükələr və sosial bərabərsizlik də mövcuddur. Kibermüharibələrin inkişafı dövlətləri kiberqüvvələr yaratmağa vadar etmiş və bu sahə strateji rəqabətdə əsas elementə çevrilmişdir. Kiberməkanın beynəlxalq münasibətlərdəki rolu, hədəfli hücumlar, “fidyə” proqramları və DDoS hücumları kimi yeni təhlükələr yaratmış, münaqişə modellərini dəyişdirmişdir. Süni intellektin istifadəsi təhlükəsizlik sistemlərini zəifladır və "Cambridge Analytica" qalmaqalı rəqəmsal məlumatların manipulyasiyasının qlobal qərarlara təsirini göstərmişdir. Kiberməkan həmçinin dövlətlərarası rəqabəti gücləndirən asimmetrik güc balansı yaradır, hüquqi tənzimləmələrdə çətinliklərə səbəb olur.

Kibermüharibələr beynəlxalq münasibətlərin əsas komponentinə çevrilib. Bu müharibələr sabitliyin zəifləməsinə, iqtisadi zərərlərə və siyasi müdaxilələrə səbəb olur. Müasir texnologiyalar, o cümlədən süni intellekt və kvant texnologiyaları kibertəhlükəsizlik sahəsində yeni perspektivlər yaradır, ancaq dövlətlərarası rəqabəti daha da gərginləşdirir. Kibertəhlükələrə qarşı ittifaqlar və əməkdaşlıqlar zəruri olmuşdur. Beynəlxalq hüququn yenidən tənzimlənməsi və "ilk zərbə üstünlüyü" kimi strategiyalar kibermüharibələrin qlobal təhlükəsizlik üzərindəki təsirini artırmaqdadır.

“Stuxnet” hücumu kibertəhlükəsizliyin beynəlxalq münasibətlərdəki strateji əhəmiyyətini vurğuladı, dövlətləri kiberməkanın müdafiəsi və hüquqi tənzimlənməsi zəruriliyi ilə üzləşdirdi. NATO, BMT və Aİ kimi təşkilatlar rəqəmsal təhlükəsizliyi artırmaq məqsədilə əməkdaşlığı gücləndirirlər. “Tallinn Manual 2.0” və “Budapeşt Konvensiyası” kimi sənədlər kiberməkanın hüquqi tənzimlənməsində vacib rol oynayır. Süni intellekt və maşın öyrənmə texnologiyaları təhlükələrin aşkarlanmasında və qarşısının alınmasında strateji üstünlük təmin edir.

Kibermüharibələrin artması dövlətləri kibertəhlükəsizlik sahəsində güclü əməkdaşlıq və qabaqlayıcı strategiyaların inkişafına sövq edir. "Hücumdan müdafiəyə keçid" (HMK) strategiyası potensial təhlükələri əvvəlcədən müəyyən edib proaktiv tədbirlər görməyə imkan verir. Bu yanaşma yalnız milli təhlükəsizliyi möhkəmləndirmir, həm də beynəlxalq kollektiv müdafiə və etimad mühitinin formalaşmasına töhfə verir, qlobal təhlükəsizlik arxitekturasında yeni standartlar müəyyən edir.

İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT:

1. “Cybersecuity Strategy,” www.enisa.europa.eu, 2025. https://www.enisa.europa.eu/topics/cybersecurity-strategy?form=MG0AV3

2. “Cybersecurity Multi-Donor Trust Fund,” World Bank, 2025. https://www.worldbank.org/en/programs/cybersecurity-trust-fund

3. “Dövlət qurumlarına mindən çox kiberhücum olub - Xidmət,” // Yeni Sabah, 04 sentyabr 2025. - https://yenisabah.az/dovlet-qurumlarina-minden-cox-kiberhucum-olub-xidmet

4. “Eurostat,” Europa.eu, 2025. - https://ec.europa.eu/eurostat/web/interactive-publications/digitalisation-2025

5. “Google Books Ngram Viewer - Cyber Attack,” Google.com, 2025. https://books.google.com/ngrams/graph?content=Cyber+attack&year_start=1900&year_end=2022&case_insensitive=true&corpus=en&smoothing=3

6. “Google Books Ngram Viewer - Cyber,” Google.com, 2025. https://books.google.com/ngrams/graph?content=Cyber&year_start=1900&year_end=2022&corpus=en&smoothing=3&case_insensitive=true

7. “Google Books Ngram Viewer - Digitalisation,” Google.com, 2025. https://books.google.com/ngrams/graph?content=Digitalisation&year_start=1800&year_end=2022&corpus=en&smoothing=3&case_insensitive=false

8. “Google Books Ngram Viewer - Digitalization,” Google.com, 2025. https://books.google.com/ngrams/graph?content=Digitalization&year_start=1800&year_end=2022&corpus=en&smoothing=3&case_insensitive=false

9. “Head of Iran Nuke Agency Resigns,” NIAC, Jul. 16, 2009. https://www.niacouncil.org/nuclear-file/head-of-iran-nuke-agency-resigns/?locale=en#

10. “ITU-Development Cybersecurity,” www.itu.int, 2025. https://www.itu.int/itu-d/sites/cybersecurity/

11. “PH Privacy - Paul Hastings LLP,” Paulhastings.com, 2024. https://www.paulhastings.com/publications-items/blog/ph-privacy

12. “Səngəçal terminalı,” https://azerbaijan-news.az. https://www.azerbaijan-news.az/az/posts/detail/sengechal-terminali-80476

13. A. Aksoy and O. Türkölmez, “Dijital Çağa Demokrasiyi Çağırmak: Cambridge Analytica Skandalı,” Journal of Political Administrative and Local Studies, vol. 3, no. 1, May 2020, doi: https://doi.org/10.37460/j.2636-7823/2020.3.1.03.

14. Ani P., “Number of internet and social media users worldwide as of february 2025,” Statista, Apr. 01, 2025. https://www.statista.com/statistics/617136/digital-population-worldwide/

15. A. Sherif, “Global digital transformation spending 2023,” Statista, Nov. 14, 2024. https://www.statista.com/statistics/870924/worldwide-digital-transformation-market-size/

16. A. Vishwanath, “This is the weakest link cybersecurity,” World Economic Forum, May 17, 2016. https://www.weforum.org/stories/2016/05/this-is-the-weakest-link-cybersecurity/

17. Afifa Mushtaque, “5 Most Advanced Countries in Quantum Computing,” Insider Monkey, Dec. 06, 2023. https://www.insidermonkey.com/blog/5-most-advanced-countries-in-quantum-computing-1233526/

18. B. E. Humphreys, “Attacks on Ukraine’s Electric Grid: Insights for U.S. Infrastructure Security and Resilience,” Congress.gov, May 17, 2024. https://www.congress.gov/crs-product/R48067

19. BCF, “Israel’s cyber Iron Dome – BCF | Bakrie Center Foundation,” Bcf.or.id, 2023. https://bcf.or.id/israels-cyber-iron-dome/

20. Boston Dynamics, “Legacy Robots,” Bostondynamics, 2025. https://bostondynamics.com/legacy/

21. BP Azərbaycan, “Səngəçal terminalı,” BP Azərbaycan, 2025. https://www.bp.com/az_az/azerbaijan/home/who-we-are/operationsprojects/terminals/sangachal_terminal.html

22. C. Cadwalladr and M. Townsend, “Revealed: the ties that bind Vote Leave’s data firm to controversial Cambridge Analytica,” The Guardian, Mar. 29, 2018. https://www.theguardian.com/uk-news/2018/mar/24/aggregateiq-data-firm-link-raises-leave-group-questions

23. C. Degl’Innocenti, “‘Totalitarian Potential’ – Yuval Noah Harari Warns of the Risks of AI,” Buenos Aires Times, Oct. 04, 2024. https://batimes.com.ar/news/world/totalitarian-potential-yuval-noah-harari-warns-of-the-risks-of-artificial-intelligence.phtml

24. CCDCOE, “CCDCOE - The NATO Cooperative Cyber Defence Centre of Excellence is a multinational and interdisciplinary hub of cyber defence expertise.,” Ccdcoe.org, 2025. https://ccdcoe.org/

25. CCDCOE, “Tallinn Manual,” Ccdcoe.org, 2025. https://ccdcoe.org/research/tallinn-manual/

26. Council of Europe, “Budapest Convention and Related Standards,” Council of Europe, Jun. 13, 2020. https://www.coe.int/en/web/cybercrime/the-budapest-convention

27. D. Davis, “5 Big Cyberattacks in Oil and Gas,” Oil & Gas IQ, Nov. 01, 2022. https://www.oilandgasiq.com/digital-transformation/articles/5-big-cyber-security-attacks-in-oil-and-gas

28. European Commission, “Digital Economy and Society Index (DESI) 2020 | Shaping Europe’s digital future,” digital-strategy.ec.europa.eu, 2020. https://digital-strategy.ec.europa.eu/en/library/digital-economy-and-society-index-desi-2020

29. F. Bajak and R. Satter, “Companies still hobbled from fearsome cyberattack,” AP NEWS, Feb. 02, 2022. https://apnews.com/article/russia-ukraine-technology-business-europe-hacking-ce7a8aca506742ab8e8873e7f9f229c2

30. F2 Team, “Regulus Cyber: The Israeli Startup That Created an ‘Iron Dome’ for Drones | Insights | F2 VC,” F2vc.com, Nov. 05, 2023. https://www.f2vc.com/insights/regulus-cyber-the-israeli-startup-that-created-an-irone-dome-for-drones

31. H. Davies, “Ted Cruz campaign using firm that harvested data on millions of unwitting Facebook users,” The Guardian, Dec. 11, 2015. https://www.theguardian.com/us-news/2015/dec/11/senator-ted-cruz-president-campaign-facebook-user-data

32. H. Osborne, “What is Cambridge Analytica? The firm at the centre of Facebook’s data breach,” the Guardian, Mar. 25, 2018. https://www.theguardian.com/news/2018/mar/18/what-is-cambridge-analytica-firm-at-centre-of-facebook-data-breach

33. H. Staff, “View highlights from the National Governors Association Winter Meeting - Homeland Security Digital Library,” Mar. 2006. Available: https://www.hsdl.org/c/view-highlights-from-the-national-governors-association-winter-meetin-

g/?docid=888992

34. Hadrian, “Top 10 Cybersecurity Incidents in the Financial Industry,” Hadrian.io, Jun. 20, 2024. https://hadrian.io/blog/top-10-cybersecurity-incidents-in-the-financial-industry

35. Israel National Cyber Directorate, “Israel National Cyber Security Strategy - 2025,” 2025. Available: https://www.gov.il/BlobFolder/news/cyber_strategy_2025/he/israel_national_cybersecurity_strategy_feb2025.pdf

36. J. Blessing, D. Post-Doctoral, and Fellow, “The Global Spread of Cyber,” 2021. Available: https://ccdcoe.org/uploads/2021/05/CyCon_2021_Blessing.pdf

37. J. Wakefield, “Tax software blamed for cyber-attack spread,” BBC News, Jun. 28, 2017. Available: https://www.bbc.com/news/technology-40428967

38. K. K. Christensen and T. Liebetrau, “A New Role for ‘the public’? Exploring Cyber Security Controversies in the Case of WannaCry,” Intelligence and National Security, vol. 34, no. 3, pp. 395–408, Feb. 2019, doi: https://doi.org/10.1080/02684527.2019.1553704.

39. M. Jedinia, “History of Assassinations of Iran’s Top Nuclear Scientists,” VOA, Dec. 03, 2020. https://www.voanews.com/a/extremism-watch_history-assassinations-irans-top-nuclear-scientists/6199135.html

40. M. Kamiński, “Operation ‘Olympics Games.’ Cyber-sabotage, as a tool of American intelligence aimed to counteract the development of Iran’s nuclear program.,” Security and Defence Quarterly, vol. 29, no. 2, Jun. 2020, doi: https://doi.org/10.35467/sdq/121974.

41. M. Leonhardt, “Equifax to pay $700 million for massive data breach. Here’s what you need to know about getting a cut,” CNBC, Jul. 22, 2019. https://www.cnbc.com/2019/07/22/what-you-need-to-know-equifax-data-breach-700-million-settlement.html

42. M. N. Schmitt, Tallinn Manual 2.0 on the International Law Applicable to Cyber Operations. Cambridge University Press, 2017, p. 30.

43. M. Sen Gupta, “What is Digitization, Digitalization, and Digital Transformation | ARC Advisory,” www.arcweb.com, Mar. 24, 2020. https://www.arcweb.com/blog/what-digitization-digitalization-digital-transformation

44. N. Patrikeeva, “Рік після атаки вірусу Petya: що змінилося в кібербезпеці України,” Радіо Свобода, Jul. 04, 2018. Available: https://www.radiosvoboda.org/a/29336511.html

45. N. Persily, “The 2016 U.S. Election: Can Democracy Survive the Internet? | Journal of Democracy,” Journal of Democracy, vol. 28, no. 2, pp. 63–76, 2016, Available: https://www.journalofdemocracy.org/articles/the-2016-u-s-election-can-democracy-survive-the-internet/

46. N. Wiener, "Cybernetics: or Control and Communication in the Animal and the Machine." Cambridge, MA: M.I.T. Press, 1948, p. 231.

47. NATO, “Cyber defence,” NATO, 2024. https://www.nato.int/cps/en/natohq/topics_78170.htm?form=MG0AV3

48. Oxford English Dictionary, “cyber, adj. meanings, etymology and more ,” Oed.com, 2023, doi: https://doi.org/10.1093//OED//8742004673.

49. P. Polityuk and A. Prentice, “Ukrainian banks, electricity firm hit by fresh cyber attack,” Reuters, Jun. 27, 2017. Available: https://www.reuters.com/article/wor-

ld/ukrainian-banks-electricity-firm-hit-by-fresh-cyber-attack-idUSKBN19I1BY/

50. Q. Aşirov, “Azeri light oil prices decrease,” Azernews.Az, Sep. 19, 2025. https://www.azernews.az/oil_and_gas/247626.html

51. Regulus, Regulus.com, 2025. https://regulus.com/

52. Reuters, “Germany seeks Israeli partnership on cyberdefence, plans ‘cyber dome,’” Reuters, Jun. 29, 2025. Available: https://www.reuters.com/business/aerospace-defense/germany-seeks-israeli-partnership-cyberdefence-plans-cyber-dome-2025-06-29/

53. Reuters, “What Is Israel’s Secretive Cyber Warfare Unit 8200?,” Reuters, Sep. 18, 2024. https://www.reuters.com/world/middle-east/what-is-israels-secretive-cyber-warfare-unit-8200-2024-09-18/

54. Sevinc Əliyeva, “Cənubi Koreya lazer silahlarını istifadəyə verən ilk ölkə olacaq: 1,45 dollara PUA-ları vuracaq,” Ordu.Az, Jul. 22, 2024. https://ordu.az/az/news/325545/cenubi-koreya-lazer-silahlarini-istifadeye-veren-ilk-olke-olacaq--1

55. SonicWall, “2023 - SonicWall Cyber Threat Repor,” 2024. Available: https://www.sonicwall.com/resources/infographics/2023-cyber-threat-report-infographic

56. Statista, “Statista - The Statistics Portal,” Statista, 2025. https://www.statista.com/markets/424/topic/1065/cyber-crime-security/#reports

57. Trading Economics, “Germany GDP,” Tradingeconomics.com, Sep. 26, 2023. https://tradingeconomics.com/germany/gdp

58. W. Team, “Digital Literacy Statistics: Reports 2025,” WifiTalents, Jun. 02, 2025. https://wifitalents.com/digital-literacy-statistics/

Elgun Taghizade

Cyberspace and digitalization: new paradigms in international relations and global security

Abstract

This article examines the impact of digitalization on international relations and the transformative changes it introduces to global security. While rapid digitalization offers states new economic and social opportunities, it also generates significant risks, including cyberattacks, information manipulation, and threats to critical infrastructure. The research adopts a mixed-methods approach, combining qualitative and quantitative analyses, and applies case-study methodology to incidents such as Stuxnet, Petya, WannaCry, and the Cambridge Analytica scandal. The findings show that cyber warfare has become a major factor reshaping the balance of power among states, highlighting the urgent need for more adaptive international legal frameworks. The article further discusses the military applications of emerging technologies, the relevance of the “Weakest Link Principle,” the importance of the “Shift from Offense to Defense” strategy, and the role of initiatives by organizations such as NATO, the United Nations, and the European Union. Cyberspace has thus become a strategic priority in 21st-century international relations, constituting a central element of the global security architecture.

Keywords: digitalization, cyberspace, cybersecurity, cyber warfare, international relations, emerging technologies, international law, global security, critical infrastructure

NATIONAL SECURITY BEYOND BATTLEFIELD: **STRATEGIC VISION FOR ROMANIA AND AZERBAIJAN**

Alexandra-Stefania DINULESCU
Ph.D. student at Baku State University,
Faculty of Social Sciences

E-mail: alexandrastefaniaag7@gmail.com

Abstract. National security extends far beyond traditional military concerns. It encompasses economic strength, energy independence, and diplomatic engagement. For medium and small powers such as Romania and Azerbaijan, strategic security involves balancing alliances, managing energy resources, and fostering regional cooperation to safeguard against both internal vulnerabilities and external threats. The experiences of Belarus, Ukraine, and the Baltic States illustrate how energy dependence can be weaponized—demonstrating the risks of relying on a single energy provider. In this context, achieving independence through smart power—an adaptive blend of hard and soft power—is essential. For Romania and Azerbaijan, national defense is less about the application of force and more about fostering resilience, prevention, and mutual trust through strategic international partnerships and energy diplomacy. Ultimately, both countries must reshape their understanding of national security within a comprehensive, dynamic framework to effectively navigate the challenges of an increasingly unpredictable global landscape.

Keywords: national security, energy, alliances, power, diplomacy, military, defense

Introduction

National security is no longer defined solely by military force. It now encompasses the protection of critical energy infrastructure, economic resilience against external pressures, and a country's ability to negotiate effectively within today's complex international environment. This is especially relevant for medium and smaller states like Romania and Azerbaijan, where energy, diplomacy, and security mutually reinforce each other, forming the foundation for sustainable development and the prevention of vulnerabilities that larger powers might exploit.

The concept of national security, as understood today, traces back to the 17th century, emerging from the realization that every state requires the sovereign right to manage its internal affairs. This development was shaped by the Thirty Years' War in Europe and the English Civil War, as explained by Kim R. Holmes [1]. These events, along with the Peace of Westphalia, gave rise to the nation-state concept—a new framework for independence where states assumed full responsibility for both domestic governance and foreign protection.

National security evolved into a routine state function, extending beyond the mere defense of borders. One of the earliest manifestations of this broader perspective was the Congress of Vienna, described as "the return to a classical order for fifty-five years after the troubles of the revolutionary period in Europe" [2].

Although its original purpose was to restore territorial balance, the Congress of Vienna also introduced a broader diplomatic framework: the Concert of Europe. This system prioritized dialogue and coordination among nations in an effort to prevent future conflicts. Its significance extended beyond the pursuit of peace—it institutionalized security and demonstrated that sustained diplomacy could serve as an effective means of safeguarding national interests without resorting to war, as explained by Kyle Lascurettes [3].

Defining national security in current geopolitical context

Today, national security is an evolving concept shaped by ongoing global developments. Once defined primarily in terms of military power and border protection, it now encompasses critical domains such as economic resilience, energy infrastructure, technological innovation, and information integrity. As of 2025, this transformation is more evident than ever. The traditional view of national security—focused solely on armed force—has given way to a more multifaceted understanding that integrates power with partnerships and policy. For smaller nations navigating a world increasingly defined by competition among major powers, this expanded understanding is not optional; it is essential.

This modern definition reflects the deep interdependence of our globalized world. It is no longer sufficient for a nation to focus solely on border security or military strength. Developments in the economy, energy sector, or even climate policy can have immediate and profound implications for a country's ability to remain secure and self-sufficient. For states like Azerbaijan and Romania, though not global superpowers, they hold strategic importance due to their geographic location and role in regional energy dynamics. As such, the shift toward comprehensive security is particularly relevant.

These countries rely significantly on strategic energy partnerships and economic diplomacy. For them, national

security is no longer confined to border protection. It involves ensuring the stability of energy flows, the openness of trade routes, and the resilience against external pressures that could compromise national stability. Without economic and energy security, even a militarily strong nation can become vulnerable, as financial instability and resource shortages may expose internal weaknesses that external actors can exploit. Participation in international energy projects and trade networks is therefore not only beneficial for economic growth—it also serves as a buffer against geopolitical pressure and regional instability.

According to Barry Buzan [4], national insecurity is not limited to the presence of physical threats—it also includes the perception of vulnerability, particularly in states with internal weaknesses. A country like Romania, despite being a member of the EU and NATO, remains susceptible to insecurity due to its proximity to conflict zones such as the Black Sea region and Ukraine, as well as its partial dependence on energy imports. Similarly, although Azerbaijan is rich in natural resources, it continues to face vulnerabilities stemming from territorial conflicts, regional power rivalries, and the constant need to secure its transit routes from external interference.

Buzan also emphasizes that threats are often politically constructed, meaning that decision-makers can amplify or downplay perceived risks to serve domestic or foreign agendas. This underscores the importance of strategic energy diplomacy. Countries like Romania and Azerbaijan must not only secure physical access to energy but also build trust and foster regional alliances that mitigate perceptions of vulnerability. As Buzan notes, insecurity can arise not only from external aggression but also from internal instability that invites foreign interference.

A clear example is the ongoing war in Ukraine, now in its third year, which, along with the resulting energy crisis across Europe, has compelled states to reassess not only the origins of their energy supplies but also how those supplies influence their political sovereignty. In response, countries like Romania have diversified their gas imports and become more active in regional energy security initiatives, including supplying electricity and gas to Moldova and Ukraine, as source [5] indicates. These developments highlight the critical role of energy reliability and economic adaptability in ensuring national security amid crisis conditions.

At the same time, we are witnessing the formation of new types of strategic alliances. In January 2025, Iran and Russia entered into a major strategic partnership [6], aimed at countering Western sanctions through enhanced economic coordination. While this is a textbook example of economic diplomacy used for geopolitical balancing, it also serves as a cautionary reminder for smaller states like Romania and Azerbaijan. To avoid marginalization or manipulation in the geopolitical strategies of great powers, these countries must actively cultivate their own networks of cooperation.

The risks of inaction are far from hypothetical, as history provides tangible precedents. In the early 2000s, Belarus was heavily reliant on Russia for over 90% of its oil and gas imports [7]. This so-called “brotherly alliance” [8] quickly soured when Moscow began using energy supplies as a means of political leverage. In 2004, Russia’s state-owned company Gazprom temporarily cut gas supplies during price renegotiations [9], pressuring Belarus to accept higher tariffs and deeper economic integration.

Tensions escalated in 2007 when Russia briefly shut down the Druzhba oil pipeline [10], accusing Belarus of unauthorized siphoning. This disruption affected not only Belarus but also energy flows to parts of Poland and Germany.

The consequences of these events highlighted the strategic cost of energy dependence. Belarus was compelled to privatize parts of its gas transit infrastructure, ceding partial control of its energy sector to Gazprom in exchange for discounted prices [11]. This significantly reduced its strategic flexibility; efforts to maintain a balanced position between East and West became increasingly constrained, ultimately drawing Belarus into closer economic and security alignment with the Russian-led Eurasian Economic Union.

Hollandiyalı hərb tarixçisi M.Kreveld müharibənin transformasiyası səbəbini dövlətlərin arsenalına nüvə silahının daxil olmasında görür və hesab edir ki, böyük dövlətlər arasında silahlı qarşıdurma mənasızdır, çünki nüvə silahı onları müharibədə həm qalib edə, həm də yer üzündən silə bilər [6]. Əvvəlcə yalnız iki ölkə - ABŞ və SSRİ hərbi toqquşma imkanından məhrum oldu. Bəzi dövlətlər tədricən nüvə silahı əldə etdilər və hərbi əməliyyatların keçirilməsinin qeyri-mümkün olduğu dairə genişləndi. Buna görə də 1945-ci ildən sonra bütün silahlı qarşıdurmalar zəif dövlətlərə qarşı və ya zəif dövlətlər arasında baş verdi. Bu gün hətta Şimali Koreya kimi bir ölkə də nüvə silahına malik qonşularından qorunmaq üçün bu silaha sahib olmağa çalışır.

M.Kreveld müharibələrin yox olacağını söyləmir, çünki müharibə insanın təbiətindən qaynaqlanır. Lakin silahlı qarşıdurmaların tamamilə yeni xarakter alacağını bəyan edir. Bu gün M.Kreveldin fikirlərini bölüşən tədqiqatçılar effektiv raket hücumundan müdafiə sistemi inkişaf etməyincə nüvə silahlarının müharibəyə maneə olacağına dair fikir ifadə edirlər.

Onun "Müharibələrin transformasiyası" əsərində müasir müharibələr (qeyri-trinitar müharibələr) siyasi mahiyyət kəsb etməyən və aşağı intensivli münaqişələr kimi xarakterizə edilib. Müəllifin fikrincə, mövcud vəziyyət münaqişələrin sosial-mədəni xüsusiyyətlərindəki fundamental dəyişikliklərlə bağlıdır [6, s.60-67]. Bu dəyişikliklər əsasən ənənəvi qoşunların yerli münaqişələrdə qeyri-nizamlı silahlı birləşmələrə qarşı uğurlu mübarizə apara bilməməsi ilə bağlıdır. Bu dəyişikliklərə uyğunlaşmanın mümkünsüzlüyü müasir dövlətlərə baha başa gələ və onları tamamilə parçalanmaqla təhdid edə bilər.

Hərbi münaqişələrin transformasiyasının öyrənilməsində britaniyalı tədqiqatçı M.Kaldorun xidmətləri danılmazdır. Onun "Yeni və köhnə müharibələr" əsərində [11] müharibənin xarakterinin necə dəyişildiyi təhlil edilib. "Yeni növ mütəşəkkil zorakılığın" keçmiş Yuqoslaviya və SSRİ kimi çoxmillətli dövlətlərin dağılmasından sonra yarandığını qeyd edən müəllif "yeni müharibələrin" identiklik siyasəti, xüsusilə qarışıq etnik qrupların və mədəniyyətlərin zorla ayrılması ilə bağlı olduğunu əsaslandırır. Bütün bunları tədqiqatçı qloballaşmanın nəticəsi kimi dəyərləndirir.

O "yeni müharibəni" "kommersiyalaşdırılmış və özəlləşdirilmiş zorakılıq" kimi qələmə verir. Dövlət zorakılıq üzərində nəzarət inhisarını itirib. Zorakılıqdan istifadə hüququnu qeyri-hökumət qrupları və təşkilatlar üzərlərinə götürüb. Bu, ilk növbədə özəl hərbi şirkətlərin, qanunsuz silahlı birləşmələrin və muzdluların populyarlığının artması ilə ifadə olunur. Silahlı münaqişənin siyasi əhəmiyyəti dövlət səviyyəsindən təşkilatlar, qruplar və ya hətta xüsusi şəxslər səviyyəsinə düşür, münaqişə subyektlərinin dəyişilməsi müharibənin yeni formalarının - asimmetrik müharibələr, terrorizm və s.-nin ortaya çıxmasına səbəb olur.

Müəllifin fikrinə əsasən, silahlı münaqişələrin baş verdiyi dövlətlərin əksəriyyəti fiziki zorakılıq üzərində öz legitimliyini itirir və "qabiliyyətsiz", "iflasa düçar olmuş" və ya "kövrək" dövlətə çevrilir. Yəni məcburetmə vasitələrinə nəzarət itirilir və bu vasitələrin parçalanması gerçəkləşir. Nəticədə dövlətin və onun qurumlarının dağılması baş verir.

Aparılmış tədqiqatdan bu qənaətə gəlmək olur ki, hərbi münaqişələrin transformasiyası olduqca mürəkkəb və kompleks prosesdir. Sun Tzı dövründən yaşadığımız günlərədək böyük bir dövrü əhatə edən zaman kəsiyində hərbi münaqişələrdə baş vermiş kəmiyyət və keyfiyyət dəyişikliyini aşağdakı qaydada ümumiləşdirmək mümkündür:

- aktorların transformasiyası – klassik aktorların sıralarına qeyri-konvensional iştirakçıların daxil olması;

- məqsədin transformasiyası – siyasi məqsədlərin qeyri-siyasi məqsədlərlə əvəz olunması;

- qaydaların transformasiyası – münaqişədə müəyyən edilmiş norma və qaydaların (konvensional müharibə qanunvericiliyi) deformasiyası;

- strukturların transformasiyası – qlobal təhlükəsizlik sisteminin, münaqişəni tənzimləyən beynəlxalq orqanların fəaliyyətinin devalvasiyası;

- hərbi menecmentin transformasiyası – ordu quruculuğu və konseptual sənədlərin transformasiyası və s.

Nəticə

Münaqişə və zorakılıq sosial mübarizə elementi olaraq hələ ibtidai icma quruluşundan mövcuddur. Dövlətlərin meydana gəlməsi müharibələrin tədricən institutlaşdırılmasına zəmin yaratdı. Müharibə dövlətlərin maraqlarının realizə alətinə çevrildi. Bəşər tarixində baş vermiş radikal dəyişikliklər müharibələrin aparılması vasitələrinin təkmilləşməsinə, məqsəd və aktorlarının transformasiyasına ciddi təkan verib. Bütün bu transformasiyalar antik və müasir dövrün tədqiqatlarının əsas araşdırma məsələsi olub. Lakin bu istiqamətdə aparılmış işləri tamalanmış hesab etmək olmaz. Yüksək texnologiyaların sürətli inkişafının münaqişə menecmentinə təsirlərinin artması bu sahədə elmi biliklərin yenilənməsinə rəvac verir və həmin transformasiyaların öyrənilməsini qaçılmaz edir.

- Müasir dövrdə hərbi münaqişələrin anlayış aparatı, metod və vasitələri ciddi transformasiyaya məruz qalıb və bu proses davam etməkdədir;

- “Klazeviç irsi” müasir reallıqlara cavab vermir;

- Müasir müharibələrin silahlı münaqişələr səviyyəsinə endirilməsi baş verməkdədir;

- Müasir müharibələr siyasi məqsədlərdən uzaqlaşmaqdadır;

- Hərbi əməliyyatlar teatrının yeni domenlər hesabına genişlənməsi və avtonom siilahların tətbiqi ilə döyüş tapşırıqlarının icrasının desenrtalizasiyası baş verməkdədir.

İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT:

1. Sun Tzu. The Art of War. Edition. PaxLibrorum, 2009, -68 p.

2. Beynəlxalq hüququn anlayışı, yaranması və inkişafı [Elektron resurs]. URL: https://www.pa.edu.az/library/3/21/154_movzu_1_beynelxalq_huququn_anlayishi_yaranmasi_ve_inkishafi.pdf

3. Clausewitz, Carl von. On War: / C.von Clausewitz. – Princeton, New Jersey, Princeton University Press, 1984, - 732 p.

4. Лиддел Гарт сэр Бэзил Генри. Стратегия непрямых действий. Москва, 2017 – 221 с.

5. Бочарников И.В., Лемешев С .В., Люткене Г .В. Современные концепции войн и практика военного строительства . – М.: Экон-информ, 2013, –144 с .

6. Кревельд М. Трансформация войны / М. Кревельд. – М. : Альпина Бизнес Букс, 2005, – 344 с.

7. "Война и мир в терминах и определениях. Военно-политический словарь

/ Под общей редакцией Д.О. Рогозина". –М.: Вече, 2011, –640 с.

8. Тоффлер Элвин, Тоффлер Хайди. Война и антивойна: Что такое война и как с ней бороться. Как выжить на рассвете XXI века. — М.: АСТ: Транзит-книга, 2005, – 412 с.

9. Военная сила в международных отношениях: учебное пособие / под общ. ред. В.И. Анненкова. – Москва: КНОРУС, – 2011, – 497 с.

10. Матвиенко Ю.А. Апология полемоса. Геополитика. Информационно-аналитическое издание. Выпуск XXI, 2013, –162 стр.

11. Калдор М. Новые и старые войны: организованное насилие в глобальную эпоху / М. Калдор. – М. : Изд -во Института Гайдара, 2015, – 416 с.

Zafar Najafov, Etibar Guliyev

DEVELOPMENT OF THEORETICAL-CONCEPTUAL APPROACHES TO TRANSFORMATION OF MILITARY CONFLICT

Abstract

This article analyzes the theoretical and conceptual foundations underpinning the transformation of military conflicts. It examines the perspectives of classical theorists—Sun Tzu, Carl von Clausewitz, and B. H. Liddell Hart—and contextualizes the rapid evolution of warfare in modern times within three distinct groups of military-theoretical concepts. Among classical authors, Sun Tzu's dualistic approach to strategy, Clausewitz's classical conception of war, and Liddell Hart's "strategy of indirect action" represent significant shifts in understanding military violence and the art of war. However, contemporary analyses emphasize the contributions of theorists such as Alvin Toffler, Martin van Creveld, and Mary Kaldor in explaining modern conflict transformations. Toffler's "waves of social development," van Creveld's "non-trinitarian conflict," and Kaldor's "new types of organized violence" provide a framework to understand changes in conflict actors, methods, and means. The study synthesizes the dominant characteristics of each conceptual group, illustrating how military conflicts have transformed in terms of participants, rules, structures, objectives, and military command. The article argues that this transformation marks a fundamental departure from classical paradigms toward new approaches in warfare.

Keywords: military conflicts, transformation, Clausewitzian paradigm, indirect action strategy, non-trinitarian wars

MÜASİR SİYASİ PROSESLƏRİN DİNAMİKASI VƏ AZƏRBAYCAN XARİCİ SİYASƏTİNİN BU PROSESLƏRƏ ADEKVAT YANAŞMASI

Samir HÜMBƏTOV,
Azərbaycan Universitetinin müəllimi,
Kütahya Dumlupınar Universitetinin siyasi elmlər və beynəlxalq münasibətlər ixtisası üzrə doktorantı
(Bakı, Azərbaycan)

E-mail: Samir.gumbatov.1987@mail.ru
ORCID ID: 0000-0001-6840-5600

Xülasə. Məqalədə müasir dövrdə beynəlxalq münasibətlər sistemində baş verən sürətli və kompleks dəyişikliklərin xarakteri təhlil olunur və bu dəyişikliklərin Azərbaycan Respublikasının xarici siyasət strategiyasına necə təsir etdiyi araşdırılır. Qlobal güc mərkəzlərinin yenidən formalaşması, regional münaqişələrin intensivləşməsi, enerji təhlükəsizliyi, beynəlxalq hüququn selektiv tətbiqi və geosiyasi rəqabətin dərinləşməsi fonunda Azərbaycanın xarici siyasətinin adaptasiya imkanları və adekvat reaksiyaları təhlil edilir. Məqalədə Azərbaycan dövlətinin son illərdə həyata keçirdiyi strateji təşəbbüslər, diplomatik fəallıq və balanslaşdırılmış xarici siyasət xətti qlobal və regional kontekstlərdə təhlil edilir. Xüsusilə, Azərbaycanın Rusiya, Türkiyə, Avropa İttifaqı, Çin və İranla münasibətləri, həmçinin Qoşulmama Hərəkatındakı rolu çoxvektorlu xarici siyasətin praktik təzahürü kimi dəyərləndirilir.

Bundan əlavə, məqalədə nəzəri yanaşmalar çərçivəsində müasir siyasi proseslərin dinamikası "realist", "liberal-institusionalist" və "konstruktivist" perspektivlərdən şərh olunur və Azərbaycanın xarici siyasət doktrinasının bu nəzəri çərçivələrlə necə uzlaşdığı aydınlaşdırılır. Aparılan tədqiqat və təhlillər nəticəsində məlum olur ki, Azərbaycan həm qlobal aktorlarla münasibətlərdə manevr imkanlarını genişləndirə bilir, həm də regionda sabitlik və əməkdaşlıq üçün mühüm xarakter daşıyan təşəbbüslərlə çıxış edir. Azərbaycanın suverenlik və təhlükəsizlik maraqlarına əsaslanan xarici siyasəti, eyni zamanda iqtisadi və enerji diplomatiyası ilə uzlaşdırılaraq ölkənin strateji mövqeyinin gücləndirilməsinə xidmət edir. Ümumilikdə, məqalə göstərir ki, müasir siyasi proseslərin mürəkkəbliyi və çevikliyi şəraitində Azərbaycanın diplomatik strategiyası çevik reaksiya qabiliyyətinin, çoxşaxəli əməkdaşlıq formatlarına və milli maraqların prioritetliyini qorumaq prinsipinə əsaslanır. Bu isə Azərbaycanı regional güc balansında mühüm oyunçuya çevrilməklə yanaşı, həm də orta güc statusuna qaldırır.

Açar sözlər: siyasi proses, xarici siyasət, qlobal transformasiya, çoxvektorlu diplomatiya, Azərbaycan

Giriş

XXI əsrin əvvəlindən etibarən beynəlxalq münasibətlər sistemində baş verən dərin struktur dəyişiklikləri, qlobal və regional siyasət gündəminin sürətlə dəyişməsinə və yenilənməsinə səbəb olmuşdur. II Dünya müharibəsindən sonra dünya siyasi sisteminin formalaşmasına cidd təsir formalaşdıran ideoloji bloklararası qarşıdurmaların zəifləməsi ilə yaranan təkqütblü nizam, artıq çoxqütblü və qeyri-mərkəzləşmiş bir sistemə doğru transformasiya olunmaqdadır. Bu dəyişikliklər təkcə qlobal güc balansını yenidən formalaşdırmır, eyni zamanda dövlətlərin xarici siyasət doktrinalarını da yenidən nəzərdən keçirməsini zəruri edir. Xüsusilə, inkişaf etməkdə olan ölkələr üçün bu proses həm yeni risklər, həm də strateji fürsətlər təqdim edir.

Azərbaycan Respublikası üçün bu geosiyasi dinamika xüsusi əhəmiyyət daşıyır. Geostrateji baxımdan Cənubi Qafqazın mərkəzində yerləşən Azərbaycan həm Qərblə Şərq arasında, həm də Şimal və Cənub arasında vacib tranzit və enerji dəhlizi rolunu oynayır. Bu mövqe ölkənin xarici siyasətində balanslı və praqmatik yanaşmaların zəruriliyini artırır. Azərbaycanın xarici siyasəti bir tərəfdən milli maraqların qorunmasına, digər tərəfdən isə beynəlxalq əməkdaşlıq formatlarının inkişaf etdirilməsinə əsaslanır.

Son illərdə dünyada baş verən regional münaqişələr, enerji bazarlarında qeyri-sabitlik, beynəlxalq təşkilatların effektivliyinə dair şübhələrin artması və qlobal pandemiya kimi amillər dövlətlərin klassik diplomatik alətlərə yanaşmasında dəyişikliklərə səbəb olmuşdur. Belə şəraitdə Azərbaycanın diplomatik fəallığı, beynəlxalq təşkilatlardakı rolu və enerji siyasəti çərçivəsində atdığı addımlar müasir siyasi proseslərə adekvat reaksiya nümunələri kimi çıxış edir.

Bu məqalənin əsas məqsədi müasir beynəlxalq münasibətlər sistemində formalaşan yeni tendensiyaları nəzəri və praktik aspektlərdən təhlil etmək, bu çərçivədə Azərbaycanın xarici siyasətinin əsas istiqamətlərini və uyğunlaşma strategiyalarını dəyərləndirməkdir. Mövzu həm siyasi nəzəriyyə baxımından, həm də konkret empirik nümunələrlə araşdırılaraq, Azərbaycanın xarici siyasət modelinin qlobal sistemdə necə mövqeləndiyini aydınlaşdırmağa xidmət edir.

Son onillikdə beynəlxalq siyasi mühit əhəmiyyətli transformasiyalara məruz qalaraq yeni geosiyasi reallıqlar yaratmışdır. Qütbləşmə və müharibə, pandemiya, enerji mənbələri üzərində rəqabət, qlobal iqlim dəyişiklikləri kimi faktorlar beynəlxalq sistemin strukturuna təsir edir. Belə bir mühitdə kiçik və orta dövlətlər üzərindəki təzyiqlər artmış, onlar xarici siyasət strategiyalarını daha çevik və rasional şəkildə qurmaq zərurəti ilə qarşı-qarşıya qalmışdırlar. Bu baxımdan, qeyd etmək vacibdir ki, Azərbaycanın xarici siyasət strategiyasının müasir siyasi proseslər fonunda qiymətləndirilməsi aktual elmi təhlili tələb edir.

1. Nəzəri yanaşmanın tətbiqi, siyasi proses və xarici siyasət

“Siyasi proses” anlayışı müasir siyasi elmdə geniş tədqiqat predmetidir. Bu anlayış siyasi institutlar, liderlər, ictimai rəy, siyasi mədəniyyət və beynəlxalq əlaqələrin dinamik qarşılıqlı təsirini əhatə edən kompleks bir sistemi ifadə edir [3]. David Eastonun sistem nəzəriyyəsinə əsasən, qeyd etmək mümkündür ki, siyasi proseslər “girdilər” (tələblər və dəstək), “çıxışlar” (qanunverici və idarəedici qərarlar) və onların nəticəsində yaranan “əks əlaqə” mexanizmləri üzərindən davamlı şəkildə işləyən və cəmiyyətin siyasi ehtiyaclarına ca-

vab verən funksional sistem kimi təsvir olunur. Bu yanaşma göstərir ki, siyasi proseslər yalnız daxili idarəetmə mexanizmləri ilə məhdudlaşmır, həm də beynəlxalq mühitin təsiri altında inkişaf edir.

Bu kontekstdə "xarici siyasət" anlayışı dövlətlərin beynəlxalq arenada öz maraqlarını təmin etmək, siyasi, iqtisadi və təhlükəsizlik məqsədlərinə nail olmaq üçün həyata keçirdiyi kompleks və məqsədyönlü fəaliyyətlər toplusudur [6]. Nəzərə almaq lazımdır ki, xarici siyasət həm də dövlətlərin beynəlxalq münasibətlərdə öz statuslarını qoruyub saxlamaq və ya gücləndirmək üçün tətbiq etdikləri strategiya və taktikaların cəmini əhatə edir. Xarici siyasətin formalaşmasına təsir edən əsas amillər sırasında tarixi təcrübə, milli identiklik, daxili siyasi institutlar, liderlərin dünyagörüşü və beynəlxalq sistemin struktur xüsusiyyətləri xüsusi yer tutur.

Azərbaycanın xarici siyasət modeli bu nəzəri çərçivədə konstruktiv realizm və çoxvektorlu yanaşma ilə izah edilə bilər. Konstruktiv realizm konsepsiyası beynəlxalq sistemdə dövlətlərin davranışlarını həm struktur reallıqlarla, həm də ideyalarla formalaşan kimlik və sosial təcrübələrlə əlaqələndirir [10]. Bu modelə əsasən, Azərbaycan həm regional güc balansını nəzərə alan realist yanaşmadan istifadə edir, həm də beynəlxalq ictimaiyyətin gözündə konstruktiv və əməkdaşlığa açıq aktor obrazı formalaşdırmağa çalışır. Məsələn, Azərbaycanın beynəlxalq təşkilatlarda fəallığı, humanitar təşəbbüsləri və enerji layihələrində tərəfdaşlıq münasibətləri bu konstruktiv yanaşmanın praktik nəticələridir.

Eyni zamanda, Azərbaycanın xarici siyasəti çoxvektorlu diplomatiya prinsipləri üzərində qurulmuşdur. Bu siyasət bir tərəfdən Qərb dünyası ilə inteqrasiyanı, digər tərəfdən isə Rusiya, İran, Çin və İslam dünyası ilə tarazlı və qarşılıqlı faydalı əlaqələrin qorunmasını hədəfləyir. Bu yanaşma Azərbaycanın regional və qlobal proseslərdə manevr imkanlarını genişləndirməklə yanaşı, geosiyasi təzyiqlərə qarşı dayanıqlılığını da artırır [7]. Dövlətin müstəqil və praqmatik xarici siyasət yürütməsi, xüsusilə 2020-ci ildə baş tutan 44 günlük Vətən müharibəsindən sonra yeni regional reallıqlara çevik adaptasiya etməsi, onun çoxşaxəli diplomatik strategiyasının nəticəsidir.

Struktur realizm nəzəriyyəsinin banisi Kennet Valtsın fikrincə, beynəlxalq sistemin anarxik təbiəti dövlətləri öz təhlükəsizliyini və maraqlarını qorumaq üçün strategiyalar formalaşdırmağa məcbur edir [15]. Azərbaycan bu baxımdan regionda dəyişən güc balansını nəzərə alaraq milli maraqlarına uyğun reallıqlar yaradır, eyni zamanda beynəlxalq legitimlik və əməkdaşlıq imkanlarını maksimum səviyyədə dəyərləndirir. Bu yanaşma onun müasir siyasi proseslərə adekvat və funksional cavab vermək qabiliyyətini gücləndirir.

Nəticə etibarilə qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasının xarici siyasəti yalnız reaktiv deyil, eyni zamanda proaktiv xarakter daşıyır. Bu siyasət həm nəzəri əsaslandırmalara söykənir, həm də konkret siyasi reallıqların tələblərinə uyğun olaraq dinamik şəkildə formalaşır. Azərbaycanın mövcud xarici siyasət arxitekturası, regional və qlobal proseslərə uyğun çevik transformasiya imkanına malik olmaqla yanaşı, müasir dövrün çağırışlarına cavab verən rasional dövlət modelinin nümunəsidir. Bu gün üçün Azərbaycanın yürütdüyü çevik xarici siyasət strategiyasını dərindən təhlil edərkən, beynəlxalq siyasətin mövcud imkanlarına uyğun addım atıldığın aydın şəkildə görmək mümkün olur.

2. Müasir siyasi proseslərin xarakteri

Müasir beynəlxalq münasibətlər sistemi son onilliklərdə ciddi transformasiyalara məruz qalmış, bu proseslər yeni qlobal və regional trendlərin formalaşmasına səbəb olmuşdur. Ənənəvi güc mərkəzlərinin zəifləməsi, yeni aktorların istər regional, istərsə də qlobal miqyasda güc qazanması və siyasi-hərbi balansların dəyişməsi, mövcud beynəlxalq düzənin qeyri-sabitliyini və çoxqütblüyə doğru yönəldiyini göstərir. Bu baxımdan, XXI əsrin ikinci onilliyindən etibarən müşahidə olunan siyasi proseslər daha çox qeyri-müəyyənlik, strateji rəqabət və geosiyasi flüktuasiyalarla xarakterizə olunur.

Mövcud beynəlxalq sistemdə müşahidə edilən əsas trendlərdən biri ABŞ ilə Çin arasında artan rəqabətdir. Bu rəqabət yalnız iqtisadi sahədə deyil, eyni zamanda texnologiya, hərbi-modernizasiya, diplomatik nüfuz və qlobal norma formalaşdırma sahələrində də özünü göstərir. "Yeni soyuq müharibə" kimi xarakterizə olunan bu qarşıdurma beynəlxalq sistemdə qütbləşməni dərinləşdirərək digər aktorların mövqelərini də müəyyənləşdirir [1]. Çinin "Bir kəmər, bir yol" təşəbbüsü və ABŞ-ın Hind-Sakit Okean strategiyası bu rəqabətin regional səviyyədə necə dərinləşdiyini göstərən nümunələrdəndir.

Qeyd edilməsi xüsusilə vacib olan digər mühüm faktor isə Rusiya ilə Qərb arasındakı mövcud münasibətlərin böhran səviyyəsinə çatmasıdır. 2014-cü ildə Rusiya tərəfindən Krımın işğalı və ilhaqı ilə başlayan gərginlik, 2022-ci ildə Rusiya-Ukrayna müharibəsi ilə pik həddə çatmışdır. Bu münaqişə yalnız Rusiya və Ukrayna arasında hərbi qarşıdurma deyil, həm də beynəlxalq hüququn prinsipləri, Avropanın təhlükəsizlik arxitekturası və enerji asılılığı məsələləri üzərində geniş təsirə malik olan geosiyasi böhrandır [8]. Nəticədə, yaranmış mənzərə ondan ibarətdir ki, Avroatlantik ittifaq, yəni NATO və Aİ sərt şəkildə mövqelərini möhkəmləndirmiş, Rusiya isə bu addımlara qarşılıq olaraq Avrasiya inteqrasiya təşəbbüslərinə və Çinlə daha sıx əməkdaşlığa yönəlmişdir.

Dünyanın digər regionlarında olduğu kimi Yaxın Şərq regionu da siyasi qeyri-sabitliyin və postkolonial düzənin çatlarının bariz nümunəsi olaraq qəbul edilir. Suriya münaqişəsi, İranın nüvə proqramı, İsrail-Fələstin qarşıdurması və ərəb ölkələrindəki siyasi transformasiyalar bu bölgəni beynəlxalq aktorlar üçün strateji və riskli əraziyə çevirmişdir [4]. Bu regiondakı qarşıdurmalar həm enerji təhlükəsizliyinə, həm də transsərhəd təhlükələrə, o cümlədən miqrasiya və terrorizmə ciddi təsir göstərməkdədir. II Dünya müharibəsindən sonra Yaxın Şərqdə, xüsusilə də İsrail-Fələstin arasında başlayan gərginliyin bu günə kimi davam etməsi, həmin regionda münaqişələrin xroniki hal alması ilə müşahidə edilir. 2010-cu ilin əvvəllərindən başlayan "Ərəb baharı" nə Afrikaya, nə də Yaxın Şərqə fayda gətirdi. Əksinə, münqişələrin nəticəsi olaraq həmin regionlarda terror və silahlı qruplaşmalar daha geniş yayılmağa, dövlətlərin xəritələri yenidən cızılmağa başladı.

Yaddan çıxarmaq lazım deyil ki, Cənubi Qafqaz da bu dəyişikliklər fonunda xüsusi əhəmiyyət kəsb edən regionlardan biri olaraq qəbul edilir. 2020-ci ildə Ermənistan-Azərbaycan arasında baş vermiş II Qarabağ müharibəsi regionda güc balansını dəyişmiş, Azərbaycanın ərazi bütövlüyünü bərpa etməsi yeni geosiyasi reallıq yaratmışdır. Azərbaycanın əldə etdiyi mütləq qalibiyyət, Ermənistanın zəifləməsi və Rusiya-Türkiyə arasında təsir zonalarının formalaşması regionun strateji xəritəsini yenidən cızmağa başlamışdır. Bu şəraitdə Azərbaycan öz

xarici siyasətini həm yeni imkanlara cavab verəcək, həm də riskləri minimuma endirəcək şəkildə yenidən konfiqurasiya etməyə məcbur olmuşdur [2].

Müasir siyasi proseslərə təsir edən digər fundamental faktorlar sırasında enerji geopolitikası xüsusi yer tutur. Enerji resurslarının hasilatı, tranziti və istifadəsi üzərində nəzarət məsələsi böyük güclərin rəqabətində mühüm mövqeyə malikdir. Xüsusilə Avropa İttifaqının enerji təhlükəsizliyi strategiyaları və Rusiya qazına alternativ axtarışlar Azərbaycanın regional enerji mərkəzi kimi əhəmiyyətini artırmışdır [11]. Bu baxımdan, "Cənub Qaz Dəhlizi" layihəsi təkcə iqtisadi deyil, həm də siyasi-institusional anlamda mühüm rol oynayır. Bununla yanaşı, texnoloji inqilablar və rəqəmsal hegemonluq uğrunda mübarizə də siyasi proseslərin xarakterini müəyyən edir. 5G texnologiyasına nəzarət, süni intellekt sahəsində liderlik, kibertəhlükəsizlik və məlumat suverenliyi müasir dövrün strateji məsələlərinə çevrilmişdir. Bu faktorlar dövlətlərin siyasi gündəmlərinə təsir etməklə yanaşı, daxili idarəetmə və vətəndaş cəmiyyətinin transformasiyasını da şərtləndirir. Bütün bu qlobal transformasiyalar Azərbaycanın da daxili və xarici siyasətində çevik və proaktiv yanaşma tələb edir. Belə bir mürəkkəb və dəyişkən beynəlxalq mühitdə Azərbaycanın öz milli maraqlarını qoruyaraq yeni təhlükəsizlik və əməkdaşlıq modelləri qurması həm strateji rasionalizmin, həm də diplomatik adaptasiya qabiliyyətinin göstəricisidir.

3. Azərbaycanın xarici siyasəti: təhlil və qiymətləndirmə

Azərbaycanın xarici siyasəti müasir beynəlxalq sistemin mürəkkəb və çoxqütblü təbiətinə uyğun olaraq, çoxvektorlu və sistemli yanaşma əsasında formalaşmışdır. Bu siyasət əsasən enerji resurslarının idarə edilməsi, regional və qlobal diplomatik əməkdaşlıq, eləcə də təhlükəsizlik sahəsində strateji əlaqələrin qurulması istiqamətində həyata keçirilir. Azərbaycan, regionun enerji daşıyıcısı kimi mövqeyini gücləndirməklə yanaşı, beynəlxalq münasibətlərdə öz balanslaşdırılmış mövqeyini qoruyub saxlamağa çalışır.

Rusiya, Türkiyə, ABŞ və Avropa İttifaqı kimi qlobal və regional güclərlə əlaqələrin paralel inkişaf etdirilməsi Azərbaycanın xarici siyasətində çoxvektorlu yanaşmanın aydın təzahürüdür. Bu yanaşma ölkəyə müxtəlif aktorlarla əməkdaşlıq imkanları yaradaraq, qlobal və regional siyasətdə çevik manevr etməyə şərait yaradır. Misal üçün, Türkiyə ilə hərbi və siyasi əməkdaşlıq Azərbaycan üçün strateji əhəmiyyət daşıyır və bu münasibətlər hər iki ölkənin regional təsirini artırır [7]. Eyni zamanda, Rusiya ilə həm regional təhlükəsizlik məsələlərində, həm də iqtisadi əlaqələrdə əməkdaşlıq davam etdirilir ki, bu da Azərbaycanın həm Qərb, həm də Şərq siyasətini balanslaşdırmasına yardım edir.

2020-ci ildə baş tutmuş 44 günlük Vətən müharibəsində Azərbaycanın qazandığı qələbə regionda yeni siyasi reallıqlar yaratmışdır. Bu qələbə ilə Azərbaycan təkcə ərazi bütövlüyünü bərpa etməklə kifayətlənməyib, həm də regionda sülhün bərqərar olması, sosial-iqtisadi reinteqrasiya və kommunikasiya xətlərinin açılması kimi prioritetləri öz xarici siyasət gündəliyinə daxil etmişdir. Bu baxımdan, Azərbaycanın xarici siyasəti yeni dövrdə həm regional təhlükəsizliyi təmin etmə, həm də dayanıqlı inkişaf və inteqrasiya məqsədlərini hədəfləyir [2].

Azərbaycanın beynəlxalq arenada tutduğu mövqelərdən biri də Qoşulmama Hərəkatı (Non-Aligned Movement – NAM) çərçivəsində fəal iştirakıdır. 2023-cü ildə keçirilən Qoşulmama

Hərəkatının sammitində Azərbaycan qlobal ədalətli nizamın bərpası və qlobal Cənubun maraqlarının müdafiəsi istiqamətində öz mövqeyini gücləndirmişdir. Bu, Azərbaycanın xarici siyasətinin yalnız regiona məhdudlaşmadığını, eyni zamanda qlobal siyasi proseslərdə aktiv iştirakını göstərir [9]. Bu mövqe həm də Azərbaycanın inkişaf etməkdə olan ölkələrlə əməkdaşlıq və güc balansının çoxqütblü sistemdə qorunması strategiyasına xidmət edir.

Enerji siyasəti Azərbaycan xarici siyasətinin ən mühüm sütunlarından biridir. "Cənub Qaz Dəhlizi" kimi strateji layihələr vasitəsilə Azərbaycan Avropanın enerji təhlükəsizliyinə töhfə verərək, həm iqtisadi, həm də siyasi müstəvidə təsir dairəsini genişləndirir. Bu layihələr yalnız enerji resurslarının ixracı deyil, həm də Azərbaycan üçün regional liderlik və etibarlı tərəfdaş imicini möhkəmləndirmək üçün vasitədir [11]. Bununla yanaşı, Azərbaycanın xarici siyasəti beynəlxalq hüququn prinsiplərinə və dövlətlərin ərazi bütövlüyünün toxunulmazlığına hörmətlə yanaşır. Bu mövqe xüsusilə postmünaqişə dövründə regionda sülh və sabitliyin təmin olunması üçün əhəmiyyətlidir. Azərbaycan, BMT, ATƏT və digər beynəlxalq institutlarda aktiv iştirak edərək, öz milli maraqlarını beynəlxalq qanun çərçivəsində müdafiə etməyə davam edir [6]. Azərbaycanın xarici siyasəti həm daxili milli maraqları qorumağa, həm də beynəlxalq münasibətlərdə çevik və balanslı mövqe tutmağa yönəlmiş kompleks və çoxşaxəli bir strategiyadır. Bu strategiya həm regional, həm də qlobal səviyyədə Azərbaycanın mövqeyini gücləndirir və davamlı inkişafına zəmin yaradır.

Nəticə

Müasir siyasi proseslərin dinamik və çoxqütblü xarakteri beynəlxalq münasibətlərin mürəkkəbliyini və qeyri-müəyyənliyini gündəmə gətirir. Bu şəraitdə Azərbaycan həm regional, həm də qlobal səviyyədə formalaşan yeni reallıqlara adekvat və çevik şəkildə uyğunlaşaraq, milli maraqlarını qoruyur və beynəlxalq arenada öz mövqeyini gücləndirir. Ölkənin xarici siyasəti çoxvektorlu və balanslaşdırılmış yanaşma əsasında qurulmuşdur ki, bu da müxtəlif güc mərkəzləri ilə əməkdaşlığın davamlılığını təmin edir və strateji manevr imkanlarını genişləndirir.

Azərbaycanın xarici siyasətində sülh və sabitlik prinsiplərinin ön planda olması, münaqişədən sonra regionda yenidənqurma və inteqrasiya proseslərinə töhfə verməsi ölkənin beynəlxalq nüfuzunu artırır. Eyni zamanda, enerji resurslarının səmərəli idarə olunması və strateji layihələrin həyata keçirilməsi Azərbaycanı qlobal enerji siyasətinin mühüm aktoruna çevirir. Bu faktorlardan əlavə, Azərbaycanın beynəlxalq hüquqa sadiq qalması və beynəlxalq təşkilatlarda aktiv iştirakı dövlətin beynəlxalq legitimliyini möhkəmləndirir. Bütün bu xüsusiyyətlər Azərbaycan xarici siyasətinin davamlılığını və adaptivliyini təmin edir. Dövlət çevik yanaşma ilə dəyişən siyasi mühitə uyğunlaşır və milli maraqları qoruyaraq, həm də qlobal və regional təhlükəsizliyə müsbət töhfələr verir. Azərbaycan bu yolla beynəlxalq sistemdə öz yerini gücləndirir və müasir çağırışlara adekvat cavab verir.

Burada nəticə etibarilə onu da qeyd etmək lazımdır ki, Azərbaycanın xarici siyasəti müasir siyasi proseslərin mürəkkəbliyi və dinamikasına səmərəli cavab olaraq, milli maraqların qorunması, beynəlxalq əməkdaşlıq və sülhün təşviqi prinsiplərinə əsaslanır və ölkənin beynəlxalq arenadakı mövqeyini möhkəmləndirir.

İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT

1. Allison G. (2017). Destined for War: Can America and China Escape Thucydides's Trap? Houghton Mifflin Harcourt.
2. Cornell S. E. (2021). The Nagorno-Karabakh Conflict: A Legal Analysis. Routledge.
3. Easton D. (1965). A Systems Analysis of Political Life. New York: Wiley.
4. Gause F.G. (2014). Beyond Sectarianism: The New Middle East Cold War. Brookings Doha Center Analysis Paper, No. 11.
5. Guliyev F. (2013). The Foreign Policy of Azerbaijan: Between East and West. Routledge.
6. Holsti K.J. (1988). International Politics: A Framework for Analysis. Prentice Hall./
7. Ismayilov E., & Papava, V. (2010). "Azerbaijan's Foreign Policy in the Post-Soviet Period". // Caucasus Analytical Digest, No. 24, pp. 2–8.
8. Mearsheimer J.J. (2019). The Great Delusion: Liberal Dreams and International Realities. Yale University Press.
9. NAM Summit (2023). Final Communiqué. New Delhi, India.
10. Ruggie J.G. (1998). What Makes the World Hang Together? Neo-Utilitarianism and the Social Constructivist Challenge. // International Organization, 52(4), 855-885.
11. Shaffer B. (2009). Energy Politics. University of Pennsylvania Press.
12. Smith M.A. (2017). "Multipolarity and Regional Security Complexes: The Caucasus Case." // Journal of International Relations, 12(3), 45-67.
13. UN Security Council Resolutions on Nagorno-Karabakh Conflict (2020).
14. Azerbaijan Ministry of Foreign Affairs (2023). Annual Foreign Policy Report. Baku: MFA Publications.
15. Waltz K.N. (1979). Theory of International Politics. Addison-Wesley.

Samir Humbatov

DYNAMICS OF CONTEMPORARY POLITICAL PROCESSES AND AZERBAIJAN'S ADEQUATE APPROACH IN FOREIGN POLICY

Abstract

This article analyzes the rapid and multifaceted transformations shaping the contemporary international system and evaluates their influence on the foreign policy strategy of the Republic of Azerbaijan. Against the backdrop of shifting global power centers, escalating regional conflicts, challenges to energy security, selective adherence to international law, and intensifying geopolitical competition, the study explores Azerbaijan's ability to adapt and respond effectively. The research examines Azerbaijan's strategic foreign policy initiatives, its proactive diplomacy, and its pursuit of a balanced, multi-vector approach within both global and regional frameworks. Particular attention is given to Azerbaijan's relations with Russia, Turkey, the European Union, China, and Iran, as well as its active role in the Non-Aligned Movement, illustrating its commitment to diversified international engagement. The article also applies key international relations theories—realism, liberal institutionalism, and constructivism—to interpret current political dynamics and assess the alignment of Azerbaijan's foreign policy with these frameworks. The findings suggest that Azerbaijan successfully expands its diplomatic maneuverability while advancing regional stability and cooperation. Rooted in national sovereignty and security priorities, Azerbaijan's foreign policy integrates economic and energy diplomacy, reinforcing its strategic posture. In an increasingly complex global environment, Azerbaijan's foreign policy is characterized by flexibility, diversified partnerships, and a consistent focus on national interests. This approach not only strengthens its regional influence but also positions Azerbaijan as an emerging middle power in international affairs.

Keywords: political process, foreign policy, global transformation, multi-vector diplomacy, Azerbaijan

QARA DƏNİZ REGİONUNDA ENERJİ TƏHLÜKƏSİZLİYİNİN TƏMİN EDİLMƏSİNDƏ AZƏRBAYCANIN ROLU

Günay UMAROVA,
Azərbaycan Turizm və Menecment Universitetinin
Beynəlxalq münasibətlər kafedrasının doktorantı
(Bakı, Azərbaycan)

E-mail: gnay.umarova@mail.ru
ORCID ID: 0000-0002-7402-7981

Xülasə. Məqalədə enerji resuslarının nəqli baxımından həm qlobal, həm də regional güclər üçün kritik əhəmiyyətə malik olan Qara dəniz bölgəsində enerji təhlükəsizliyinin təmin olunmasında böyük önəm daşıyan Azərbaycanın enerji diplomatiyası nəzərdən keçirilir.

Müəllif bu qənaətə gəlir ki, enerji uzunmüddətli təhlükəsizlik və sabitliyin əsas amilidir. Bölgə ölkələri arasında enerji təhlükəsizliyi sahəsində əməkdaşlıq böyük potensiala və artan müsbət meyillərə malikdir. Xəzər regionu, xüsusilə də zəngin enerji ehtiyatlarına malik Azərbaycan yaranan bir çox enerji problemlərini yumşaltmaq potensialına malikdir. Azərbaycan milli maraqlarına uyğun həyata keçirdiyi praqmatik enerji siyasəti nəticəsində regional və qlobal əhəmiyyətli transmilli layihələrdə mərkəzi oyunçu kimi çıxış edir.

Həmçinin, məqalədə 2022-ci il fevralın 24-də Rusiyanın Ukraynaya hərbi müdaxiləsi ilə başlayan müharibənin regionun enerji təhlükəsizliyi mühitinə dağıdıcı təsirləri araşdırılır. Bu gün Rusiyaya qarşı tətbiq edilən sanksiyalar təkcə Rusiya iqtisadiyyatına təsir etmir, həm də dünya bazarlarında bir çox məhsul və xidmətlərin, xüsusilə neft, təbii qaz kimi enerji qiymətlərinin artmasına səbəb olmuşdur. Belə bir mürəkkəb siyasi şəraitdə Azərbaycanın regional dinamikanı necə idarə etdiyi, enerji siyasəti və beynəlxalq əməkdaşlıqlar vasitəsilə Avropa və Qara dəniz regionu ölkələrinin enerji təchizatının diversifikasiyası və təhlükəsizliyinə verdiyi töhfələr vurğulanmışdır.

Açar sözlər: enerji təhlükəsizliyi, Qara dəniz regionu, enerji problemləri, Rusiyaya qarşı sanksiyalar, Rusiya-Ukrayna müharibəsi, Azərbaycanın enerji siyasəti

Giriş

Neft və təbii qaz ehtiyatları məhdud istifadə müddətinə malik olub bütün dünyada qeyri-bərabər paylandığına görə enerji təhlükəsizliyi daima aktual mövzulardan biri olaraq qalır. Bir çox ölkələr öz iqtisadiyyatlarını və gündəlik həyat ehtiyaclarını təmin etmək prespektivində enerji təchizatının davamlılığına diqqət yetirirlər. Bu məqsədlə hökumətlərin enerji təhlükəsizliyi strategiyaları onların xarici və daxili siyasətlərinin təməl daşlarından biri olmaqda davam edir.

Rusiya-Ukrayna müharibəsi son illərin qlobal miqyasda baş vermiş ən ciddi siyasi və iqtisadi sarsıntılarından biri kimi dünya enerji mənzərəsinə də ciddi təsir göstərmişdir. Müharibənin başlanmasından sonra enerji resurslarının təminatında yaranan fasilələr, qiymətlərdəki dalğalanmalar və enerji daşıyıcı xətlərinə edilən hücumlar regionun enerji sektorunda mühüm problemlər yaradıb.

Bu gün yüksək inkişaf etmiş ölkələrin vahid çətir altında toplaşdığı Avropa İttifaqı müasir dövrdə enerji təhlükəsizliyindən daha çox əziyyət çəkən regionlar sırasında birinci yer tutur. Xüsusilə də qaz tədarükü üzrə qonşu Rusiyadan olan asılılıq Ukrayna böhranından sonra ümumi mənzərəni daha da mürəkkəbləşdirmişdir. Hal-hazırda Aİ-nin qarşısında duran başlıca problem region üzərində Rusiya qazından asılılığı azaltmaq, üzv ölkələrdə yarana biləcək siyasi və iqtisadi təhdidləri minimuma endirməkdən ibarətdir. Xüsusilə, Rusiya qazına alternativ marşrutların axtarışı fonunda, Azərbaycanın enerji ixracatı potensialı və tranzit imkanları regionun enerji sabitliyinin təmin edilməsində əsas rol oynayır.

1. Enerji təhlükəsizliyi milli təhlükəsizliyin ayrılmaz hissəsi kimi

Enerji təhlükəsizliyi bu gün həm beynəlxalq, həm də milli arenada ən çox müzakirə olunan mövzulardan birinə çevrilmişdir. Enerji təhlükəsizliyinin siyasi məfhum kimi meydana çıxmasının tarixi başlanğıcı Birinci Dünya müharibəsinə gedib çıxır. Belə ki, müharibə ərəfəsində Böyük Britaniya Admiralığının Birinci lordu Uinston Çörçill ingilis donanmasınıın gəmilərinin enerji qaynağını kömürdən neftə keçirtmək haqqında tarixi qərar qəbul etdi. O, ingilis donanmasını alman donanmasından daha sürətli etmək niyyətindi idi. Lakin bu keçid Kral Dəniz Qüvvələrinin təkcə Uelsdəki kömürə deyil, o dövrdə Fars körfəzindən gələcək neft tədarürükünə olan ehtiyacının vacibliyini ifadə edirdi. Beləliklə, enerji təhlükəsizliyi milli strategiyanın əsas məsələsinə çevrildi [49, s.69]. Akademik ədəbiyyatda bu anlayışı izah edən bir çox təriflər mövcuddur. Tədqiqatçıların böyük əksəriyyəti enerji təhlüksizliyi konsepsiyasının müxtəlif ölçülərini və aspektlərini müəyyən etməkdə maraqlıdırlar. Xüsusilə, 1973-1974-cü illərin ilk neft böhranından sonra bu sahədə aparılan araşdırmalar xüsusi aktuallıq qazanmışdır. Enerji problemlərini siyasi nöqteyi-nəzərdən təhlil edən ilk alimlərdən biri olan Uillrix Menson (Willrich Manson) “Enerji və dünya siyasəti” (“Energy and World Politics”) kitabında enerji təhlükəsizliyini “milli iqtisadiyyatın siyasi cəhətdən məqbul bir şəkildə fəaliyyət göstərməsinə imkan verən enerji təchizatı ilə təmin edilməsi” kimi müəyyənləşdirmişdir. Bu tərifdən aydın olur ki, U.Menson enerji təchizatı ilə dövlətin siyasi fəaliyyəti arasında birbaşa əlaqə yaratmışdır [47, s.65]. İnkişaf edən dünyada hər bir dövlətin kifayət qədər enerji ilə təmin olunması onun təhlükəsizliyi, eləcə də dövlət suverenliyi üçün əsasdır. Dövlətlərin daima rəqabət halında olduğu beynəlxalq siyasi sistemdə enerji resuslarına əlçatanlıq dövlətlər arasındakı güc bölgüsünə təsir göstərdiyi üçün enerjiyə

strateji əhəmiyyətli sərvət kimi baxılır. Buna görə də enerji təhlükəsizliyi milli təhlükəsizliyin əsas struktur elementlərindən biri hesab olunur [31, s.207].

Asiya Sakit Okean Enerji Tədqiqat Mərkəzi isə enerji təhlükəsizliyi üzrə təhlilin dörd əsas başlıq altında aparılmasını tövsiyə edir. Bunlar enerji mənbəyinin mövcudluğu (availability), əlçatanlığı (accessibilty), davamlılığı (acceptability) və enerji resuslarının sərfəli qiymətə təmin edilməsidir (affordability). Bütün bu ifadələrin ingiliscə ekvivalentləri "A" hərfi ilə başladığı üçün bu tərif "4A yanaşması" kimi tanınır [19, s.7,41]. Enerji üzrə mütəxəssis Daniel Yerginə görə isə "enerji təhlükəsizliyinin məqsədi məqbul qiymətlərlə, əsas milli dəyərlərə və məqsədlərə xələl gətirməyən yollarla, kifayət qədər etibarlı enerji ilə təmin etməkdir" [50]. Enerji təhlükəsizliyini müəyyənləşdirmək üçün növbəti cəhdlərdən biri Massaçutes Texnologiya İnstitutunun Beynəlxalq Araşdırmalar Mərkəzində Asiya Enerjisi və Təhlükəsizliyi üzrə İşçi Qrupu tərəfindən həyata keçirilmiş və enerji təhlükəsizliyinin üç fərqli məqsədi müəyyən edilmişdir:

1.Xarici təhdidlərə və ya təzyiqlərə qarşı həssaslığın azaldılması;

2.Tədarük böhranının baş verməsinin qarşısının alınması;

3.Tədarük böhranı baş verdikdən sonra onun iqtisadi və hərbi nəticələrinin minimuma endirilməsi [33,s.6720].

Gördüyümüz kimi, enerji təhlükəsizliyi çoxölçülü və mürəkkəb bir anlayış olduğu üçün onun tərifi ilə bağlı elmi ədəbiyyatda vahid bir fikir yoxdur. Bu, coğrafi mövqeyin, siyasi sistemin və iqtisadi inkişafın təsirindən asılı olaraq dəyişən çoxşaxəli bir konsepsiyadır.

"Enerji təhlükəsizliyi" anlayışı idxalçı, ixracatçı və tranzit ölkələr üçün fərqli mənalar daşıyır. Enerji resurslarına sahib olan və istehsal edən dövlətlər öz iqtisadi inkişafını təmin etmək üçün "tələbat təhlükəsizliyini" qorumağa çalışdıqları halda, enerji idxal edən inkişaf etmiş ölkələr isə tədarük müxtəlifliyinə can atırlar. Bununla da istənilən iqtisadi və siyasi böhran zamanı istehlakçı ölkələr enerji çatışmazlığı ilə üzləşmir və öz növbəsində hər hansı bir idxalçıdan asılı olmayan istehsalçı ölkələr isə enerjidən gəlir əldə etməyə davam edə bilirlər. Buna görə də hər bir ölkə enerjini fasiləsiz, etibarlı, ucuz və çoxşaxəli mənbələrdən təmin etməyə çalışır. Həyati əhəmiyyət daşıyan enerjinin mövcudluğu və davamlılığını ifadə edən təchizat təhlükəsizliyi (security of supply) ölkələrin iqtisadi artımına və inkişafına, hətta milli təhlükəsizliyinə əsaslı şəkildə təsir edən bir fenomendir [6, s.4386].

Ümumiləşdirərək qeyd edə bilərik ki, enerji təhlükəsizliyi bütövlükdə təhlükəsizlik konsepsiyasına əsaslanır. Siyasi elmlər üzrə professor David Baldvinə görə, ən ümumi mənada təhlükəsizlik bir neçə spesifikasiya baxımından müəyyən edilə bilər: Kimin üçün təhlükəsizlik? Hansı dəyərlər üçün təhlükəsizlik? Hansı təhdidlərdən qorunmaq lazımdır və hansı vasitələrlə? [23, s.13]. Məhz məqalənin növbəti yarımbaşlığında oxşar suallar vasitəsilə Qara dəniz regionunda mövcud enerji problemlərinə dair təhlilləri strukturlaşdırmağa çalışacağıq.

2.Qara dəniz regionunda mövcud enerji problemləri

Bölgədəki mövcud enerji problemlərini araşdırmamışdan əvvəl "Qara dəniz regionu" anlayışını izah etmək lazımdır. Ümumiyyətlə, qeyd edə bilərik ki, bölgə ilə bağlı vahid bir konsensunun olduğunu söyləmək çətindir. Tədqiqatçıların əksəriyyəti regionun anlayışı ilə bağlı təriflərini "dar" və "geniş" mənada izah edirlər. Dar mənada "Qara dəniz regionu" dedikdə yalnız dənizə çıxışı olan altı ölkə - Bolqarıstan, Gürcüstan, Ruminya, Rusiya, Tür-

kiyə və Ukrayna nəzərdə tutulur. Geniş mənada isə region altı dövlətlə bərabər Moldova, Ermənistan və Azərbaycanın da daxil olduğu Cənub-Şərqi Avropadan Xəzər sahillərinə qədərki geniş bir ərazini əhatə edir [14, s.197].

Xüsusilə, Geniş Qara Dəniz regionunun (Wider Black Sea region) əhəmiyyətini artıran və onu qlobal güclərin maraqlarının kəsişdiyi strateji bir bölgəyə çevirən bir neçə vacib səbəb vardır. Birincisi, 11 sentyabr terror aktlarından sonra ABŞ və Avropanın təhlükəsizliyinə təhdidlərin əsas mənbəyinin "Böyük Yaxın Şərq" bölgəsi olduğu nəzərə alınaraq, Qara dəniz regionu ölkələrinin bu təhlükə ilə mübarizədə mühüm rol oynaya biləcəyi qiymətləndirilir. Bu kontekstdə, Qara dəniz regionu "Geniş Orta Şərq" (Wider Middle East) layihəsinin bir hissəsi və onun şərq sərhədi kimi xarakterizə edilir [16, s.56].

İkinci vacib məqam isə bölgənin ən böyük enerji istehsalçılarına və bir sıra mühüm tranzit marşutlarına ev sahibliyi etməsi ilə bağlıdır. Əsasən də Xəzər dənizi hövzəsi zəngin təbii qaz və neft ehtiyatlarına malikdir. Lakin onların əksəriyyətinin dənizə çıxışının olmaması resusların istehlakçılara daşınmasını çətinləşdirir. Buna görə də Qara dəniz regionunun qlobal enerji təhlükəsizliyindəki yerindən danışarkən bölgə Xəzər regionu ilə birlikdə nəzərdən keçirilməlidir. Belə ki, bu iki region birlikdə vahid enerji sistemini təşkil edir. Enerji resursları Xəzər dənizində yerləşir, əsas istehlakçılara tranzit yolları isə Qara dənizdən keçir [30,s.441].

Geniş Qara Dəniz regionundakı enerji problemləri regionun daxilində və onun hüdudlarından kənarda yaranan risk və təhdidlərlə sıx bağlıdır. Onları üç əsas qrupa bölmək olar: *Regional rəqabətlər* - həm region ölkələri (əsasən Türkiyə və Rusiya), həm də beynəlxalq güclər (ABŞ, Aİ, NATO) arasında enerji resursları və nəqliyyat marşrutlarına nəzarət uğrunda gedən mübarizə regional sabitliyi və enerji təhlükəsizliyini təhdid edən əsas amillərdən biri hesab oluna bilər. Boru kəmərləri uğrunda yarış, çox güman ki, açıq münaqişə şəklini almayacaq, lakin xüsusilə rəqabətli enerji layihələri regionda qarşıdurma meyillərinin artmasına təsir edəcəkdir. Digər bir qrupa *transmilli təhdidlər* - terrorizm və radikal zorakılıq (hazırda islamın radikal versiyaları xüsusilə Şimali Qafqazda fəaliyyət göstərən bəzi qrupları ruhlandırır və bütün region ölkələri üçün təhlükə yaradır), dövlətin qismən və ya tamamilə dağılması riski, transmilli cinayət şəbəkələri və marşrutları, silahların yayılması daxildir [26, s.4,14]. Nəhayət, sonuncu vacib təhdid qrupuna region dövlətləri arasında mövcud olan *geosiyasi gərginlikləri* və *dondurulmuş çoxsaylı etnik münaqişələri* daxil edə bilərik. Bu kontekstdə xüsusilə Qafqazdan keçən enerji nəqliyyat marşrutlarının təhlükəsizliyi ilə bağlı narahatlıqlar hələ də qalmaqdadır. Mövcud münaqişələrin yenidən aktivləşməsi və ya terror hücumlarının yayılması, neft platformalarının, emal zavodlarının, boru kəmərlərinin, neft və ya mayeləşdirilmiş təbii qaz (LNG) daşıyan tankerlərin təhlükəsizliyini təhdid edə bilər. Bütün bu sadaladığımız risklər və təhlükələr Qara dəniz regionunda karbohidrogen ehtiyatlarının kəşfi, hasilatı və nəqli ilə bağlı istənilən müzakirə zamanı nəzərə alınmalıdır.

Region ölkələri son dərəcə fərqli enerji profillərinə malikdirlər. Belə ki, hazırda regionun əsas enerji istehsalçıları Rusiya və Azərbaycan, əsas tranzit ölkələri Gürcüstan, Türkiyə və Ukraynadır. Digər dövlətlər isə əsasən enerji istehlakçısıdır ki, onların iqtisadi sabitliyi və dövlət təhlükəsizliyi münasib qiymətlərlə etibarlı təchizatdan asılıdır. Bu ölkələrin hər biri həm enerji resuslarına

əlçatanlığı, həm də iqtisadi inkişaf baxımından bir-birindən fərqləndiyi üçün onların bölgədəki enerji problemlərinə yanaşması da özünəməxsus formada olacaqdır [20, s.226].

Rusiya regionun əsas enerji istehsalçısı və tranzit dövləti olub, dünyanın ikinci ən böyük təbii qaz və üçüncü ən böyük neft tədarükçüsüdür. Bu ölkənin izlədiyi startegiya Qara dəniz ölkələrinin həm iqtisadiyyatına, həm də siyasətinə əhəmiyyətli dərəcədə təsir göstərir. Buna görə də regiondakı enerji təhlükəsizliyini təhlil edərkən əsas strateji oyunçu kimi onun rolunu nəzərə almaq lazımdır. Qara dəniz regionu ölkələrinin əksəriyyəti enerji tədarükü baxımından Rusiyadan ciddi şəkildə asılıdır və rəsmi Moskva bu vəziyyətdən öz geosiyasi məqsədlərinə nail olmaq üçün təsir rıçaqı kimi istifadə edir [30, s.442]. Rusiya ilə bölgənin əksər ölkələri arasındakı enerji münasibətlərinin tarixi kökləri sovet dövrünə gedib çıxır. O zaman müttəfiq respublikaları yalnız bir təchizatçı (Rusiya) tərəfindən təmin edilən qaz kəmərləri şəbəkəsi ilə birləşirdilər. Bu vəziyyət hələ də bir çox postsovet ölkələri üçün aktuallığını saxlayır və Rusiyaya bölgə üzərində siyasi güc qazandırır [42, s.164].

XX və XXI əsrin əvvəllərində Rusiyanın enerjidən təsir vasitəsi kimi istifadə etdiyi hadisələr bir neçə dəfə dünya siyasi səhnəsinin diqqət mərkəzində olmuşdur. Bundan başqa, enerji üzrə ekspertlər qeyd edirlər ki, “Gazprom”un qazın qiyməti ilə bağlı artım siyasəti hər bir istehlakçı dövlətin Rusiyaya münasibətindən asılı olaraq dəyişir. O, özünə müttəfiq kimi gördüyü (Ermənistan, Belarus) dövlətlərə enerji resuslarını mümkün qədər aşağı qiymətə satmağa çalışır, eyni zamanda subsidiyalar vasitəsilə həmin ölkələrin enerji infrastrukturunun inkişafına töhfə verir. Biz bu siyasətin tam mənada yansımasını Rusiyanın Ukraynaya olan münasibətində görə bilərik. Belə ki, 1994-2005-ci illərdə Ukraynaya rəhbərlik edən Prezident Leonid Kuçmanın hakimiyyəti dövründə həyata keçirdiyi rusiyönümlü siyasətin nəticəsi olaraq, Rusiya neft və qaz qiymətlərində olduqca səxavətli davranmışdır. Bu subsidiyaların siyasi mahiyyəti 2004-cü ildə “Narıncı inqilab”dan sonra Viktor Yuşşenkonun hakimiyyətə gəlməsi ilə aydınlıq qazandı [43, s.138]. Rusiya Prezident Yuşşenkonun qərbyönümlü hökumətini cəzalandırmaq üçün Ukraynaya qaz təchizatını dayandıraraq, yalnız regionun deyil, bütövlükdə Avropanın enerji təhlükəsizliyini ciddi təhdid altında qoymuşdu. Nəticədə, 2006 və 2009-cu illərdə Ukrayna dövlətinə məxsus “Naftogaz” şirkəti ilə Rusiyanın "Gazprom" şirkəti arasında qaz tədarükü, qiymətlər və borclarla bağlı mübahisələrdən qaynaqlanan ciddi bir “qaz böhranı” baş vermişdi. Xüsusilə, 2009-cu il yanvarın 1-dən 20-dək 14 gün ərzində qaz təchizatının tamamilə kəsilməsi “Gazprom” müştərilərinin enerji təchizatının görünməmiş şəkildə azalmasına səbəb oldu [32,s.3]. 2006 və 2009-cu illərdə Rusiya-Ukrayna qaz böhranı, eləcə də 2008-ci ildə baş vermiş Rusiya-Gürcüstan müharibəsi kimi siyasi hadisələr region ölkələrinin enerji idxalına təhdidlərlə bağlı narahatlığını əhəmiyyətli dərəcədə artırmış, Rusiyanın enerji təchizatçısı kimi nüfuzuna zərbə vurmuş və onun etibarlılığını şübhə altına almışdır [34, s.28].

Rusiya nöqteyi-nəzərindən enerji təhlükəsizliyi stabil iqtisadi inkişaf üçün təchizatçı ölkələrə enerjini təhlükəsiz marşutlarla çatdırmaq və tədarükçü müxtəlifliyinə nail olmaq deməkdir. Başqa sözlə, “tələb təhlükəsizliyi”ni təmin etməkdir [38, s.864]. Bununla əlaqədar olaraq, Qara dəniz kontekstində nəzərdən keçirildikdə Ukraynanın strateji əhəmiyyəti ön plana çıxır. Belə ki,

Avropaya gedən 199 milyard kubmetr təbii qazın 50 faizindən çoxu Ukrayna ərazisindən keçir. Qlobal miqyasda böhrana çevrilən Ukrayna hadisəsinin altında yatan ən mühüm amillərdən biri, şübhəsiz ki, strateji enerji resuslarının mübarizə predmetinə çevrilməsidir. Bu vəziyyət Rusiyanın regionla bağlı siyasətində iki fərqli strategiyanı ortaya qoymuşdur. Bunlardan birincisi, bölgədə sərt gücdən istifadə nəticəsində baş verən Krımın anneksiyası, digəri isə regiondan asılılığı azaltmaq üçün alternativ marşrutların tikintisini sürətləndirməkdir [7, s.554-555].

Qara dəniz regionu dövlətlərinin enerji təhlükəsizliyi ilə bağlı narahatlıqları onların Milli Təhlükəszilik konsepsiyalarında öz əksini tapmışdır. Gürcüstanda bu, əsasən enerji resuslarının və təchizatçılarının şaxələndirilməsi, beynəlxalq və regional enerji layihələrində iştirakının təmin olunması, o cümlədən ölkənin mühüm enerji dəhlizi kimi rolunun gücləndirilməsi zərurəti şəklində ifadə edilmişdir [39,s.24]. Xəzər hövzəsinin Azərbaycan Respublikasına mənsub olan sektorunda yerləşən neft və qaz yataqlarının işlənilməsi, istismarı, müasir neft-qaz özüllərinin tikintisi, əsas ixrac neft və qaz boru kəmərlərinə olan təhidilərin aşkarlanması və onlara adekvat tədbirlərin görülməsi Azərbaycan Respublikasının milli təhlükəsizliyinin təmin edilməsinin ən mühüm fəaliyyət istiqamətlərindən biridir [1, s.22]. Bolqarıstan və Rumıniya respublikalarında isə enerji təhlükəsizliyinin başlıca mahiyyəti lazımi infrastrukturun yaradılması və enerji təchizatının şaxələndirilməsi üçün Aİ-nın enerji strategiyalarına inteqrasiya etmək və onun strateji təşəbbüslərinin həyata keçirilməsini dəstəkləməkdən ibarətdir [40, s.12; 41,s.46]. Hər iki ölkə Qərbin dəstəklədiyi “Nabukko” boru kəməri layihəsinin əsas dəstəkçilərindən biri idi ki, bu da onların NATO və Aİ həmkarları ilə eyni siyasi yanaşmaya üstünlük verdiyinin göstəricisidir.

İlk baxışda hər bir ölkənin enerji təhlükəsizliyi baxımından fərqli prioritetlərə malik olduğu görünsə də, region ölkələrinin hamısının əsas ortaq qayəsi iqtisadi artıma və sosial rifahın yaxşılaşdırılmasına nail olmaq üçün enerjini təhlükəsiz şəkildə səmərəli yollarla təmin etməkdir.

3.Regionun enerji təhlükəsizliyinin təmin olunmasında Azərbaycanın əhəmiyyəti

Xəzər dənizi hövzəsində yerləşən Azərbaycan Respublikası həm regionun, həm də bütövlükdə Avropanın enerji təhlükəsizliyi sistemində mühüm yer tutaraq yeni transmilli layihələrin həyata keçirilməsində etibarlı tərəfdaşa çevrilmişdir. Ölkənin zəngin neft və qaz resursları, strateji coğrafi mövqeyi və beynəlxalq enerji layihələrində iştirakı Qara dəniz regionunda enerji təhlükəsizliyinin gücləndirilməsinə əhəmiyyətli töhfə verir. Zbiqnev Bjezinskinin sözləri ilə ifadə etsək: “Ərazisinin kiçik və əhali sayının az olmasına baxmayaraq, zəngin karbohidrogen ehtiyatlarına malik olan Azərbaycanı əlverişli geosiyasi mövqeyinə görə Xəzər dənizi hövzəsinin, eləcə də Mərkəzi Asiyanın sərvətlərinin olduğu şüşə qabın “tıxac”ına bənzətmək olar” [53, s.155].

Müstəqil Azərbaycanın xarici siyasətinin prioritet istiqamətlərindən birini məhz enerji siyasəti təşkil edir. Azərbaycanın enerji siyasəti ölkənin neft və qaz ehtiyatlarından səmərəli istifadə etməklə enerji ixracında strateji mövqeyini gücləndirməyə, həm öz daxili, həm də digər dövlətlərin enerji təhlükəsizliyinin təmin edilməsinə yönəlmişdir.

SSRİ-nin dağılmasından sonra böyük güclərin maraqlarının toqquşduğu

“Yeni Böyük Oyun” səhnəsinə çevrilən Xəzər hövzəsində əsas geosiyasi ölkə kimi Azərbaycan dünya güc mərkəzlərinin diqqətini cəlb etdi. Beynəlxalq sistemdə əvvəlki gücünü bərpa etmək istəyən Rusiya ilə Qərb arasında maraqların toqquşmasının episentrinə çevrilən Azərbaycan Moskvadan asılılığını azaltmaq strategiyasına üstünlük versə də, bölgədə mehriban qonşuluq şəraitinin yaradılması naminə (əsasən də Rusiya və İranla) tam qarşıdurma yaratmamağa diqqət yetirir. Azərbaycan xüsusilə Xəzərin enerji ehtiyatlarının ötürülməsində Rusiyanın inhasırını azaltmağa yönəlmiş etibarlı və alternativ nəqliyyat marşrutlarının açılması istiqamətində strateji əhəmiyyətli layihələrin əsas dəstəkçisi qismində çıxış edir [15, s.209]. Bu yolda atılmış ən uğurlu addımlardan biri 1994-cü il sentyabrın 20-də “Gülüstan” sarayında Azərbaycan Respublikası Dövlət Neft Şirkəti ilə xarici neft şirkətləri konsorsiumu arasında ilk neft müqaviləsinin imzalanması oldu. Ümummilli lider Heydər Əliyevin gərgin zəhməti nəticəsində imzalanan bu müqavilə XX əsrin ən əhəmiyyətli hadisələrindən biri kimi “Əsrin müqaviləsi” adı ilə tarixə düşdü. Məhz bu müqavilələr Azərbaycanın neft strategiyasının əsasını təşkil edir. Azərbaycanın neft strategiyası Xəzər dənizinin Azərbaycan sektorundakı "Azəri-Çıraq-Günəşli" neft yataqlarının işlənilməsi üçün müxtəlif ölkələrdən mümkün qədər çox iri neft şirkətlərini bu müqaviləyə cəlb etməklə, həmin dövlətlərdən dəstək almağa çalışmaq idi [35, s.233]. Bu məqamda xüsusilə Qərb kapitalının ölkəyə cəlb edilməsi Azərbaycanın sürətli transformasiya prosesinə qədəm qoymasına şərait yaratdı. Belə bir şəraitdə müəllifi Ümummilli lider Heydər Əliyev olan Bakı-Tbilisi-Ceyhan boru kəmərinin çəkilişi ideyası irəli sürüldü. 1998-ci ildə Ankarada kəmərin inşa edilməsi haqqında bəyannamə, 1999-cu ildə İstanbulda ATƏT-in Zirvə görüşü zamanı isə xəttin çəkilişi ilə bağlı saziş imzalandı. Beynəlxalq və regional güclərlə balans siyasəti nəzərə alınmaqla BTC-nin həyata keçirilməsi Azərbaycanın xarici siyasətinin ilk mühüm uğuru idi. BTC-nin tətbiqi sayəsində həm Xəzər, həm də Mərkəzi Asiya ölkələrinin enerji ehtiyatlarının ilk dəfə olaraq Rusiya Federasiyasından yan keçməklə Qərb bazarlarına çıxarılması mümkün oldu [18, s.358]. Nəticə olaraq, Azərbaycan öz enerji marşrutlarını və bazarlarını şaxələndirməklə Qara dəniz regionunda enerji təhlükəsizliyinin gücləndirilməsinə, Rusiya kimi ənənəvi mənbələrdən asılılığın azaldılmasına və siyasi stabilliyin təmin olunmasına əhəmiyyətli töhfələr vermişdir. Belə ki, BTC ixrac boru kəməri region ölkələrinin iqtisadi və sosial inkişafını stimullaşdırır, bu isə öz növbəsində siyasi sabitliyi artırmağa kömək edir. Çünki iqtisadi cəhətdən güclü ölkələr daha sabit və təhlükəsiz olurlar. Boru kəmərinin istifadəyə verildiyi andan etibarən Azərbaycan öz neftinin beynəlxalq bazarlarda satışı nəticəsində ildə təxminən 29 milyard dollar gəlir əldə etmişdir [22, s.46].

Azərbaycanın enerji siyasətindəki növbəti uğurlarından biri 2007-ci il iyulun 3-də Xəzərin Azərbaycan sektorundakı “Şahdəniz” yatağından çıxarılan qazı Gürcüstana və Türkiyəyə daşıyan Bakı-Tbilisi-Ərzurum (BTƏ) boru kəmərinin istifadəyə verilməsidir. Bu hadisədən sonra Azərbaycan dünyada artıq özünü qaz ixracatçısı kimi göstərməyə başlamış, yüksək iqtisadi inkişafa nail olmuş və dünya iqtisadiyyatına inteqrasiya etmək imkanı əldə etmişdir. Eyni zamanda, BTƏ kəməri Cənub Qaz Dəhlizinin bünövrəsi, başlanğıcı rolunu oynamışdır. 2014-cü il sentyabrın 20-də Bakıda “Əsrin müqaviləsi”nin 20 illiyində Cənub Qaz Dəhlizinin təməli qoyul-

muşdur. Texniki-iqtisadi cəhətdən çox mürəkkəb, həm də geniş beynəlxalq əməkdaşlıq tələb edən bu layihə dörd seqmentdən ibarətdir: "Şahdəniz-2", "Cənubi Qafqaz Boru Kəmərinin Genişləndirilməsi" (CQBKG), "Trans-Anadolu" boru kəməri (TANAP) və "Trans-Adriatik" boru kəməri (TAP). Bu dəhlizlə ilkin mərhələdə Türkiyəyə ildə 6 milyard kubmetr, Avropaya isə 10 milyard kubmetr Azərbaycan qazının nəqli planlaşdırılır [10, s.27]. Əvvəlki məhdudiyyətlərə və gələcəkdə baş verə biləcək enerji təchizatı kəsintilərinə reaksiya olaraq, Avropa səlahiyyətliləri tədarükün diversifikasıyası ilə enerji təhlükəsizliyini artırmağa başladılar. Cənub Qaz Dəhlizi (CQD), Avropanın Rusiyadan olan enerji asılılığını azaltmaq məqsədilə Avropa Komissiyası tərəfindən irəli sürülmüş ən yaxşı variantlardan biri kimi qiymətləndirilmişdir. Bu layihənin strateji əhəmiyyəti onun Rusiya qazını tamamilə əvəz etmək qabiliyyətində deyil, enerji mənbələrinin və tədarük marşrutlarının şaxələndirilməsindədir [36, s.62-63]. Avropa Komissiyasının enerji məsələləri üzrə vitse-prezidenti Maroş Şefçoviç bu boru kəmərini yeni enerji marşrutlarının yaradılmasında və xüsusilə Cənub-Şərqi Avropa kimi ən həssas bölgələrin enerji təhlükəsizliyinin gücləndirilməsində mühüm mərhələ adlandırmış, bu cür strateji enerji layihələrində Azərbaycanın rolunu yüksək qiymətləndirmişdir [44, s.62].

Avropa İttifaqı və ABŞ-ın dəstəyi ilə CQD çərçivəsində həyata keçirilməsi planlaşdırılan layihələrdən biri "Nabukko" ixrac boru kəməri idi. Qeyd etmək lazımdır ki, layihə ilə bağlı bütün iştirakçı dövlətlərin öz maraqları var idi. Hər dövlət bu layihədən maksimum fayda əldə etməyə çalışırdı. "Şahdəniz 2" qazını Türkiyə üzərindən Bolqarıstana nəqlini nəzərdə tutan bu tranzit xətti kifayət qədər təchizatçı ölkələrin olmaması, siyasi və maliyyə dəstəyinin yetərsizliyi kimi səbəblərdən həyata keçirilə bilmədi. Azərbaycan "Nabukko" layihəsinə öz milli maraqlarına uyğun münasibət nümayiş etdirmiş, qaz ehtiyatlarının ən əlverişli şərtlərlə dünya bazarlarına çatdırılmasına nail olmaq əzmində olduğunu sərgiləmişdir. "Nabukko" layihəsi iflasa uğradıqdan sonra Azərbaycan tranzit ölkələrlə və potensial alıcılarla danışıqlarda öz mövqeyini gücləndirmək üçün digər nəql yollarını sınayaraq uğurlu diplomatiya həyata keçirmişdir. Bu cəsarətli strategiyanın ilk addımı 2010-cu ildə Buxarestdə Azərbaycan-Gürcüstan-Rumıniya İnterkonnektor (AGRİ) layihəsi ilə birlikdə atılmışdır. Azərbaycan qazını Gürcüstanın Qara dəniz sahilindəki Kulevi limanı vasitəsilə Rumıniyanın Konstansa limanındakı terminala çatdırılmasını nəzərdə tutan AGRİ-də tranzit ölkələrin sayının az olması layihənin ən mühüm üstünlüyü hesab edilir [12]. Bu təşəbbüslər Azərbaycan, Gürcüstan və Rumıniya nümunəsində olduğu kimi üçtərəfli əlaqələri gücləndirir və regionda enerji konfiqurasiyalarının qurulmasına yol açır.

Cənub Qaz Dəhlizinin tərkib hissəsi olan TAP/TANAP ixrac kəmərləri Avropa ölkələrinin "Nabukko" ətrafında apardıqları uzunmüddətli səmərəsiz danışıqların məntiqi nəticəsi olaraq meydana çıxmışdır. Trans-Anadolu Boru Kəməri (TANAP) Azərbaycan qazını Gürcüstan vasitəsilə Türkiyə-Yunanıstan sərhədinə kimi çatdırır. 2018-ci ilin iyun ayının 30-da kəmər istismara verilib və 2019-cu ilin noyabr ayının 30-da Azərbaycan Prezidenti İlham Əliyevin iştirakı ilə TANAP-ın Avropaya birləşən hissəsinin açılışı olub. Trans-Adriatik Boru Kəməri (TAP) Azərbaycan qazını Türkiyə-Yunanıstan sərhədindən başlamaqla Yunanıstan, Albaniya və Adriatik dənizindən keçməklə İtaliyaya çatdırır. 31 dekabr 2020-ci ildə Azərbaycan qazı tam şəkildə Avropa bazarlarına çatdı-

rıldı. Hər iki boru kəməri enerji ixracatının təmin edilməsinə və region ölkələri arasındakı siyasi-iqtisadi münasibətlərə böyük təsir göstərmişdir. TANAP və TAP layihələri Azərbaycan, Gürcüstan və Türkiyə arasında enerji əlaqələrinin inkişafını təşviq etməklə yanaşı, Balkan və Avropa ölkələri ilə də yeni tərəfdaşlıqların qurulmasına şərait yaradır. Bu layihələr enerji ixracı ilə iqtisadi inteqrasiyanı artırmaqla regionda daha sabit və qarşılıqlı asılılıq yaradan mühit formalaşdırır. Eyni zamanda, layihənin reallaşması Azərbaycanın və Türkiyənin iqtisadi potensialının, enerji təhlükəsizliyinin və strateji rolunun artmasına xidmət edir [9, s.16].

4.Rusiya-Ukrayna müharibəsi fonunda regionun enerji mənzərəsi

Ukrayna ilə Rusiya arasında uzun müddətdən bəri kəskinləşən böhran mühiti 2022-ci ilin fevralında qaynar müharibəyə çevrilərək qlobal enerji bazarlarının kəskin şəkildə sarsılmasına səbəb olmuş, yeni enerji və təhlükəsizlik sistemi yaratmışdır. Ukrayna müharibəsi başlayandan sonra Qərb dövlətləri müharibəni pisləyərək Ukraynanın öz ərazilərini müdafiə etmək səylərini dəstəkləmək üçün Rusiyaya qarşı çoxsaylı sanksiyalar tətbiq etmişdir. Aİ və ABŞ idxal, ixrac və sərmayələrə iqtisadi və maliyyə məhdudiyyətləri gətirməklə, habelə rusların Avropa kapitalına və maliyyə bazarlarına çıxışına mane olan tədbirlər həyata keçirməklə Rusiyanın Ukraynaya təcavüzünü dəstəkləyən yüksək profilli şəxslər və təşkilatları hədəfə almışdır. Aİ-nın Rusiyaya qarşı tətbiq etdiyi sanksiyaların əhəmiyyətli hissəsi enerji sektoru ilə bağlı olmuşdur. Belə ki, ABŞ-dan sonra dünyanın ikinci ən böyük qaz istehsalçısı olan Rusiyanın büdcə gəlirlərinin yarıdan çoxu enerji sektorunun payına düşür. Ona görə də Aİ-nın sanksiyaları ilk növbədə Rusiyanın enerji gəlirlərini azaltmaqla ölkənin iqtisadiyyatına zərbə vurmaq məqsədi daşıyırdı [8,s.409].

Qlobal dağıdıcı təsirlərə və mümkün nüvə ölçülərinə görə Rusiya ilə birbaşa müharibəni düşünməyən Aİ və NATO üçün yeganə variant mövcud sanksiyaların genişləndirilməsi və yenilərin əlavə olunmasıdır. Avropa Şurası Rusiya enerji idxalından aslılığı tezliklə aradan qaldırmaq istiqamətində dayanıqlı enerji sisteminə nail olmaq üçün "REPowerEU" planını tətbiq etmək haqqında razılaşma əldə etdi. 2022-ci ilin may ayından etibarən Aİ tərəfindən "REPowerEU"-nun çərçivəsində görülən tədbirlər Rusiyadan idxal olunan neftin həcminin azaldılmasına və zamanla tamamilə dayandırılmasına yönəlmişdir. Həmin ilin iyununda Avropa Şurasının Rusiyaya qarşı həyata keçirdiyi altıncı sanksiya paketi həm xam nefti, həm də üzv ölkələrə çatdırılan neft məhsullarını əhatə edəcəkdir. Beləliklə, 2022-ci ilin sonuna qədər embarqonun bütün Rusiyanın neft idxalının təxminən 90%-ni əhatə edəcəyi gözlənilirdi [46]. Rusiya isə öz növbəsində birtərəfli qaydada sözügedən sanksiyalara cavab olaraq bir sıra Avropa ölkələrinə qaz nəqlini dayandırmaq qərarına gəlmişdir. Yamal-Avropa boru kəməri ilə qaz tranziti 2022-ci ilin mayında, “Şimal axını 1” vasitəsilə qaz axını isə sentyabr ayında dayandırılmışdır. 2022-ci ilin oktyabr ayında Rusiya boru kəməri ilə tədarük 2021-ci illə müqayisədə 80% az olmuşdur [28]. Bu isə karbohidrogen ehtiyatlarında qiymət artımını sürətləndirmiş, qlobal enerji bazarlarında kəskin dalğalanmalara səbəb olmuşdur. 2022-ci ilin fevral ayındakı statistik məlumatlara görə, təbii qazda qiymət artımı 41%-ə çatdığı halda, benzin və dizel kimi yanacaqlarda 26%, elektrik enerjisində isə 24% artım müşahidə olunmuşdur. Rusi-

yanın Ukraynaya hərbi müdaxiləsi yeni enerji şoku kimi qiymətləndirilir və hətta Beynəlxalq Enerji Agentliyi hazırkı enerji böhranının 1970-ci illərdəkindən daha şiddətli olduğunu iddia edir [4, s.39].

Gözlənilənin əksinə, müharibənin ilk aylarında neft, neft məhsulları və təbii qaz qiymətlərindəki ani artım, zəngin resuslara malik olan Rusiyanın Aİ ilə ticarət dövriyyəsindəki böyük azalmaya baxmayaraq, gəlirlərinin artmasına səbəb olmuşdur. Aİ baxımından sanksiya qərarlarının və embarqoların yan təsirləri kimi qiymətləndirilə bilən bu vəziyyətin Rusiyanın itkilərini böyük ölçüdə kompensasiya etdiyini və Ukrayna müharibəsində geri addım atmamaqda mövqeyini gücləndirdiyini söyləmək olar [5,s.564].

Müharibədən əvvəl Aİ-nın Rusiya enerji təchizatından ağır asılılığını nəzərə alsaq, bu vəziyyətdən ən çox Avropa enerji bazarlarının təsirləndiyini görə bilərik. Belə ki, Avropa ölkələri 2021-ci ilə qədər Rusiyadan orta hesabla 155 milyard kubmetr təbii qaz almışdır. Bu rəqəm Avropada istifadə edilən təbii qazın təxminən 40%-nə uyğundur [3]. Başqa sözlə ifadə etsək, sanksiyalar Rusiya iqtisadiyyatının tam gücü ilə işləməsinə mane olur, amma bu həm də anti-Rusiya koalisiyasına qarşı bumeranq effekti yaradır. Müharibə nəticəsində Rusiya və Ukrayna çox böyük insani, hərbi, maliyyə itkiləri ilə üzləşsə də, artıq Qərbin də ciddi problemlərlə üzləşdiyi bir reallıqdır.

Enerji sahəsində Rusiyadan asılılıq problemini həll etmədən, Moskva ilə belə bir güc savaşına girməsi əksər Avropa ölkələrini ciddi böhranla qarşı-qarşıya qoymuşdur. Bu problemin üç vacib ölçüsündən danışmaq olar. Birincisi, bəzi Qərb ölkələri qışa girərkən enerji təchizatı riski ilə üzləşdilər. Beynəlxalq Enerji Agentliyinin rüblük hesabatına əsasən, Aİ qışdan əvvəl qaz anbarlarını 90%-ə qədər doldura bilmişdir. Lakin bu rəqəm üzv dövlətlərin hamısının enerji tələbatını ödəmək üçün kifayət deyil. Agentlik əlavə etmişdir ki, Rusiya qaz ixracını daha da azaldacağı təqdirdə davranış dəyişiklikləri və ixtisarlar qaçınılmaz olacaqdır [48]. İkincisi, böhran səbəbindən hədsiz dərəcədə yüksəlmiş enerji qiymətləri, dünyanın digər bölgələrində olduğu kimi, Avropada da yaşayış xərclərinin və yoxsulluğun artması ilə bağlı narahatlığı özü ilə gətirmişdir. Müharibənin əvvəlindən etibarən neft qiymətləri son on beş ilin ən yüksək səviyyəsinə çatmış və 60%-dən çox artmışdır. Nəhayət, üçüncü olaraq, bəzi Aİ ölkələri sanksiyaların mənfi nəticələrindən ehtiyat edərək, bu sahədə atılacaq birgə addımlardan çəkinmişlər. Bu isə daxili aktorlar arasında ciddi mübahisələrə gətirib çıxarmışdır [11].

Ümumiyyətlə, qeyd edə bilərik ki, Avropa İttifaqı uzun illər ərzində ortaq enerji siyasəti axtarışında olmuşdur. Lakin Aİ-ni təşkil edən iyirmi səkkiz ölkənin özünəməxsus maraqları, imkanları, ehtiyacları və Rusiyaya qarşı fərqli münasibətləri olduğu bir mühitdə bunu əldə etmək çox çətindir. Xüsusilə Şərqi və Mərkəzi Avropa ölkələri Rusiya qazından daha çox asılı vəziyyətdədirlər. Bu asılılıq onların həssaslıq mənbəyinə çevrilmiş, Rusiyaya qarşı daha ehtiyatlı siyasət yürütməyə vadar etmiş və kəskin qərarlar almaqdan çəkindirmişdir [51, s.88]. Sanksiyalar vasitəsilə Rusiyanı təcavüzkar siyasətindən çəkindirməyə çalışan Aİ-nin müharibənin davam etdiyi vaxtda hələ də bu ölkədən enerji idxalını davam etdirməsi üzv ölkələrin belə bir böhranlı vəziyyətə hazır olmadığının əyani göstəricisidir.

Avropa İttifaqının özünü Rusiya qazından azad etməyə və enerji mənbələrini şaxələndirməyə yönəlmiş bütün cəhdlərinə baxmayaraq, 2022-ci ildə qaz təchizatının 25%-i hələ də Rusiya tərəfindən təmin edilirdi. Rusiya qazını

Baltik dənizinin dibi ilə Almaniyaya birləşdirəcək "Şimal Axını" nəql kəmərindəki problemlər fonunda "Türk Axını" boru xəttinin əhəmiyyəti ön plana çıxmışdır. Rusiya qazını Ukraynadan yan keçərək Qara dəniz üzərindən Avropaya daşıyan "Türk Axını" boru kəməri layihəsində Türkiyənin oynadığı rol ona siyasi manevrlər üçün strateji güc qazandırır. Eyni zamanda, mövcud siyasi konyunktura Türkiyəyə enerji mərkəzi və tranzit ölkəsi olmaq üçün yeni fürsətlər yaradır [21, s.5237]. Rusiyaya tətbiq edilən embarqoya görə Avropaya gedən rus qazının azalmasına baxmayaraq, Serbiya, Xorvatiya, Bosniya və Şimali Makedoniya əsasən "Türk Axını" ilə tədarük almağa davam edir. Tərəflər arasında tətbiq olunan sanksiyalardan azad edilmiş nəql boru kəməri üzrə razılaşmaya əsasən, Serbiya 2026-ci ilə qədər 2,2 milyard kubmetr, Xorvatiya 2027-ci ilə qədər 1 milyard kubmetr, Şimali Makedoniya 2027-ci ilə qədər 0,43 milyard kubmetr rus qazı almağa davam edəcəkdir. Hazırkı vəziyyətdə qaz axınının dayandırıldığı "Yamal-Avropa" və "Şimal Axını 1" boru kəmərlərindən fərqli olaraq, "Türk Axını" xətti Aİ-nın enerji təhlükəsizliyi baxımından daha vacib rol oynayır [17, s.57].

Strateji əhəmiyyətli mövqeyə sahib olan Türkiyənin enerji siyasəti və Rusiya ilə enerji əlaqələri Qara dəniz regionunda enerji təhlükəsizliyinə, iqtisadi inkişafa və geosiyasi dinamikalara birbaşa təsir göstərir. Türkiyə dünya neft və təbii qaz ehtiyatlarının 70%-nin cəmləşdiyi Yaxın Şərq, Rusiya və Xəzər hövzəsi ölkələri ilə həmsərhəd olmaqla dünya enerji ehtiyatlarının nəqlində mühüm əhəmiyyət kəsb edir. Münaqişəli vəziyyətin Türkiyə üçün ən mühüm təsiri onun iqtisadiyyatında öz əksini tapmışdır. Belə ki, Rusiya qazından aslılığı azaltmaq üçün alternativ enerji mənbələrinə üz tutan Avropa ölkələrinin enerji problemlərinin həllində tranzit ölkə kimi Türkiyənin rolu artmaqda davam edir. Cənub Qaz Dəhlizi layihəsi ilə tikilən və hazırda bu vəzifəni icra edən TAP, TANAP və Cənubi Qafqaz Boru Kəməri kimi nəql xətləri Türkiyənin geosiyasi əhəmiyyətinə və iqtisadi gəlirlərinə ciddi töhfələr verir [13]. Aİ hesab edir ki, Türkiyə regionda rus qazından asılılığı azaltmaq məqsədilə enerji marşutlarının diversifikasiyası üçün mühüm tərəfdaş hesab oluna bilər. Bu baxımdan qiymətləndirdikdə, Türkiyə müharibə prosesindən strateji və iqtisadi cəhətdən daha üstün vəziyyətdə çıxa bilər.

5. Ukrayna müharibəsi kontekstində Azərbaycanın regionun enerji təhlükəsizliyinə töhfəsi

Rusiya-Ukrayna müharibəsinin dağıdıcı təsirləri nəticəsində region ölkələrinin enerji təhlükəsizliyi siyasətlərində ciddi dəyişikliklər baş vermişdir. Müharibə vəziyyəti Aİ-nın Rusiyanın enerji resurslarından hədsiz dərəcədə asılılığını açıq şəkildə nümayiş etdirdi. Bu asılılıq şəraiti isə enerji resuslarının sərfəli qiymətlərlə fasiləsiz mövcudluq prinsipinə böyük ziyan vurmaqla, Aİ-nin enerji təhlükəsizliyinə ciddi təhlükə yaradır. Enerji təhlükəsizliyinin təmin edilməsi Avropanın əsas vəzifələrindən biri kimi aktuallaşdı. Problemi yumşaltmaq üçün Aİ-nin atdığı mühüm addımlardan biri də alternativ enerji mənbəyi kimi Xəzər regionunun zəngin karbohidrogen ehtiyatlarına müraciət etməkdir. Belə bir vəziyyətdə isə regionun əsas enerji istehsalçısı olan Azərbaycanın Avropanın enerji təhükəsizliyindəki rolu getdikcə artmaqda davam edir. Azərbaycan coğrafi baxımından Aİ-yə ən yaxın təbii enerji ixracatçısı olmaqla yanaşı, həm də Rusiyadan müstəqil, Türkiyə vasitəsilə ötürülən əhəmiyyətli ixrac infrastrukturuna malik olması ilə seçilir. Rusiyanın Ukraynaya genişmiqyaslı

müdaxiləsi ilə başlayan yeni geosiyasi dövr Azərbaycan üçün enerji sahəsində yeni imkanlar və fürsətlər yaratmışdır [27]. Bununla bağlı olaraq, 2022-ci ilin may ayında Avropa Komissiyası, yuxarıda qeyd edildiyi kimi, "REPowerEU" planını qəbul etdi. Plana enerjiyə qənaət, enerji müxtəlifliyi və qalıq yanacaqları əvəz edən təmiz enerjiyə keçidin sürətləndirilməsi daxildir. Enerji idxalının diversifikasiyası başlığı altında üzv dövlətlər qaz, LNG (mayeləşdirilmiş təbii qaz) və hidrogenin müştərək alınması üçün Aİ Enerji Platforması yaratmaq haqqında qərar qəbul etdilər. Bu platformanın əsas vəzifələrindən biri enerji müxtəlifliyini təmin etməkdir. Məhz bu məqsədlə bağlı olaraq Platforma bir çox ölkələrlə, o cümlədən İsrail, Əlcəzair, Misir və Azərbaycanla müqavilələr imzalamışdır [17,s.52].

2022-ci ilin iyul ayında Avropa Komissiyasının Prezidenti Ursula fon der Leyen Azərbaycana rəsmi səfəri çərçivəsində Azərbaycan Prezidenti İlham Əliyevlə Anlaşma Memorandumu imzaladı. İyulun 18-də imzalanmış enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumu təkcə Avropaya alternativ qaz tədarükünün təhlükəsizliyini təmin etmir, eyni zamanda enerji səmərəliliyi və təmiz enerji üzrə uzunmüddətli tərəfdaşlığın əsasını qoymuşdur. Sazişə əsasən, 2027-ci ilə qədər Azərbaycan Avropaya illik təbii qaz ixracını iki dəfə atıraraq 20 milyard kubmetr həcminə çatdırmaq niyyətindədir. Bu, Avropa İttifaqı tərəfindən 2022-ci ilin mayında işə salınan "RePowerEU" planı çərçivəsində şaxələndirmə hədəflərinə də töhfə verəcək və Avropanın Rusiya qazından asılılığını sona çatdırmağa kömək edəcək. Memorandum əsasında Azərbaycan Respublikası ilə Avropa İttifaqı arasında mövcud olan strateji enerji tərəfdaşlığı bir daha təsdiqlənib [52]. Ursula fon der Leyen hesab edir ki, Azərbaycan Avropanın "təchizat təhlükəsizliyi və iqlim neytrallığına gedən yolda həlledici tərəfdaşı" olacaq. Həmçinin o əlavə etmişdir ki, bu, onlara Rusiyadan azaltdıqları qaz idxalını kompensasiya etməyə imkan verəcəkdir [2].

2022-ci ilin ikinci rübündə Aİ 90.4 milyard avro (120.8 milyon ton) neft idxal etmişdir. Azərbaycanın payı dəyər üzrə 4,4% və xalis çəki üzrə 4,0% təşkil edib (hər iki göstərici üzrə idxalçı ölkələr sırasında 10-cu yer). 2023-cü ilin ikinci rübündə Aİ 63,8 milyard avro (116,6 milyon ton) neft idxal edib. Azərbaycanın payı dəyər üzrə 5,4%, xalis çəkiyə görə 5,1% təşkil edib (hər iki göstərici üzrə idxalçı ölkələr sırasında 8-ci yer). 2022-ci ilin ikinci rübündə Aİ 73.6 milyard avro (61.8 milyon ton) həcmində təbii qaz idxal etmişdir. Azərbaycan dəyər üzrə 6.6% və xalis çəkiyə görə 5.2 % payla Avropaya qaz idxal edən ölkələr sırasında 5-ci yerdə qərarlaşıb. 2023-cü ilin ikinci rübündə isə Aİ 36.9 milyard avro təbii qaz idxal edib ki, onun 6%-i Azərbaycanın payına düşür [45,s.37]. Aİ və Azərbaycan arasındakı enerji məhsullarının dövriyyəsinə baxdıqda aydın olur ki, Azərbaycan Avropanın enerji təhlükəsizliyinin formalaşmasında yeni alternativ mənbə kimi çıxış edir.

Rusiya-Ukrayna müharibəsinin təsiri ilə mürəkkəbləşən geosiyasi və iqtisadi fonda əsas diqqət çəkən məqam tarixən neft və qaz ölkəsi olan Azərbaycanın bu gün yaşıl enerji ixracatçısı kimi beynəlxalq aləmdə rolunun artmasıdır. Azərbaycan Aİ-nin bərpa olunan enerji diplomatiyasının mühüm hissəsini təşkil edir. 2022-ci ilin iyul ayında imzalanmış memoranduma əsasən, Azərbaycanda bərpa olunan enerjinin inkişafı Aİ-nın "yaşıl enerji körpüsü" qurmaq planları üçün vacibdir. Həmin ilin dekabrında Aİ, Azərbaycan, Rumıniya, Gürcüstan və Macarıstan arasında "Yaşıl enerji üzrə strateji tərəfdaşlıq sazişi" imzalanmışdır. Bu saziş Azərbaycandan Qara

dənizin dibi ilə Cənub-Şərqi Avropaya sualtı elektrik kabeli vasitəsilə elektrik enerjisinin ixracını nəzərdə tutur [37]. Azərbaycan qlobal yaşıl enerji bazarında əsas oyunçuya çevrilmək üçün beynəlxalq enerji şirkətləri ilə birgə layihələr həyata keçirir və 2031-2037-ci illər arasında yaşıl enerji, hidrogen və ammonyak istehsalı və ixracı üçün təxminən 19 QVt elektrik enerjisi istehsal etməyi hədəfləyir [25]. "Xəzər-Qara dəniz-Avropa Yaşıl Enerji Dəhlizi" yaradıcısı olan dörd ölkə - Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan yeni nəhəng marşrutun əsasını qoymaqla regionda geniş bir "yaşıl" ailə bloku formalaşdırıb. Digər region ölkələri də bu dəhlizin iştirakçısı olmaq üçün fəal təşəbbüskarlıq göstərməkdədir. Azərbaycanın əsas rol oynadığı bu dəhliz ilk mərhələdə ölkəmizi Avropa ilə birləşdirməyi nəzərdə tutur. İkinci mərhələdə bu meqalayihə səkkiz ölkəni əhatə edərək (Özbəkistan, Qazaxıstan, Azərbaycan, Gürcüstan, Bolqarıstan, Rumıniya, Macarıstan və Serbiya) Mərkəzi Asiyanı Avropa ilə birləşdirəcəkdir. Beləliklə, bu layihə həm də bu ölkələr arasında siyasi və iqtisadi əlaqələrin inkişafına xidmət edəcəkdir [29,s.50].

COP29 sammiti çərçivəsində 2024-cü il noyabrın 13-də Bakıda Azərbaycan, Qazaxıstan və Özbəkistan prezidentləri arasında yaşıl enerji dəhlizinin yaradılması üzrə strateji tərəfdaşlığa dair saziş imzalanmışdır. Sənəd Xəzər dənizində qiymətləndirilən 500 QVt-dan çox külək enerjisinin Azərbaycan üzərindən Avropaya nəqlini nəzərdə tutur. Ona görə də Xəzər-Qara dəniz kabeli Avropa İttifaqının enerji maraqlarına xidmət edir. Hazırda Xəzər dənizi bərpa olunan enerji mənbələri üzrə ən böyük ehtiyatlara malikdir. Təkcə Xəzər dənizinin Azərbaycana aid hissəsində külək enerji istehsalı üçün təxminən 157 QVt güc vardır. Eləcə də Qazaxıstan sektorunda da günəş və külək stansiyaları üçün zəngin resurslar var ki, hazırda bu sahədə infrastrukturlar yaradılır. Bu, Azərbaycana və digər Mərkəzi Asiya ölkələrinə Avropa bazarına sıfır karbonlu elektrik enerjisi ixrac etməyə imkan verəcək [24]. Bundan başqa, yaşıl enerji dəhlizi Avropanın enerji təchizatı mənbələrini şaxələndiməklə onun Rusiyadan asılılığını azaldır və enerji təhlükəsizliyini təmin edir.

Nəticə

Araşdırmaların nəticələri bir daha göstərir ki, müasir dünyada enerji təhlükəsizliyi çoxşaxəli və mürəkkəb anlayış olub, milli təhlükəsizliyin mühüm tərkib hissələrindən biri kimi qiymətləndirilir. Hər bir ölkənin iqtisadiyyatı, suverenliyi və müdafiə qabiliyyəti birbaşa enerji təhlükəsizliyinin təmin edilməsindən asılıdır. Bu kontekstdə dəyərləndirdikdə böyük bir coğrafiyanı əhatə edən Qara dəniz regionu beynəlxalq miqyasda çox mühüm geosiyasi və geoiqtisadi önəmə malik bölgə kimi səciyyələndirilir. Azərbaycan isə bölgənin əsas dövlətidir və onun iştirakı olmadan regionda hər hansı beynəlxalq layihənin reallaşması mümkün deyil.

Ukrayna müharibəsi Qara dəniz regionunun enerji təhlükəsizliyi məsələsini daha da kəskinləşdirmişdir. Müharibə səbəbindən dünya ölkələrinin Rusiyaya qarşı tətbiq etdiyi sanksiyalar və Rusiyanın bu sanksiyalara sahib olduğu enerji qaynaqları ilə cavab verməsi qlobal enerji siyasətində əhəmiyyətli dəyişikliklərə səbəb oldu. Bir daha enerji təhlükəsizliyi, təchizat müxtəlifliyi və bərpa olunan enerji investisiyalarının vacibliyini vurğuladı. Bunun nəticəsində Avropa İttifaqı və NATO üzvləri Rusiyadan enerji asılılığını azaltmaq üçün alternativ təchizat mənbələri axtarmağa başladılar.

Belə bir mürəkkəb siyasi vəziyyətdə Azərbaycanın fəal iştirakı ilə həyata keçirilən qlobal əhəmiyyətli enerji layihələrinin reallaşdırılması Xəzər və Qara dəniz regionunda geosiyasi vəziyyəti kökündən dəyişdirməklə yanaşı, regionun enerji təhlükəsizliyinin təmin edilməsinə də əhəmiyyətli dərəcədə təsir göstərir. Şübhəsiz ki, bu boru kəmərləri region ölkələri arasında əməkdaşlığın güclənməsinə şərait yaradır, enerji tədarükündə etibarlılıq və sabitliyi təmin edir. Bununla da, Azərbaycan Qara dəniz regionunun və bütövlükdə Avropanın enerji təhlükəsizliyinə öz töhfəsini verən fəal aktor və regional güc kimi çıxış edir.

İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT

Azərbaycan dilində:

1. Azərbaycan Respublikasının milli təhlükəsizlik konsepsiyası 2007 (migration.gov.az)
2. Ursula von der Leyen Bakıda:Avropa Azərbaycanı "etibarlı tərəfdaş hesab edir". /18.07.2022/ - https://www.bbc.com/azeri/azerbaijan-61979520

Türk dilində:

3. Avrupa'nın kullandığı doğalgazda Rusya'nın payı ne kadar?, NTV 4.03.2022, Avrupa'nın kullandığı doğalgazda Rusya'nın payı ne kadar? | NTV
4. Bağış B. Rusya-Ukrayna savaşının küresel ekonomiye ve Türkiye'ye etkileri. İstanbul: SETA, 2022, s.39.
5. Battır O., Yiğittepe L. Rusya-Ukrayna Savaşında Yaptırımlar ve Enerji Güvenliği; Karşılıklı Ekonomik Bağımlılıklar Perspektifinden Bir Değerlendirme // Manisa: Yönetim ve ekonomi ,cilt.30, sayı.3, 2023, s.549-573
6. Cenk S. Küresel Enerji Jeopolitiği Ve Enerji Güvenliği // İzmir: Yaşar Üniversitesi E-Dergisi, 7(26), 2012, s.4378–4391.
7. Çağlar A., Eminoğlu A. Karadeniz bölgesi enerji dinamikleri // Trabzon: Karadeniz: 2020 gelişmeleri işığında bölgesel değerlendirmeler,2021, s.551-592.
8. Erdem T. Ukrayna-Rusya Savaşının Avrupa Birliği'nin Enerji Politikalarına Yansımaları ve Etkileri // Ankara: Asead 10. Uluslararası Sosyal Bilimler Sempozyumu, 2022, s.398-416.
9. Erdoğan N. TANAP projesinin Türkiye ve Azerbaycan enerji politikalarındaki yeri ve önemi // Niğde: Ömer Halisdemir Üniversitesi İktisadi ve İdari Bilimler Fakültesi Dergisi, Vol.10, Issue.3, 2017, s.10-26.
10. Güngör Ş. Doğu Akdeniz-Hazar Denizi-Karadeniz hattında enerji jeopolitiği: Güney Gaz Koridoru ve Türk Akım // İstanbul: TESAM Strateji, Sayı 1, 2022, s.25-29.
11. İnat K. Rusya-Ukrayna savaşı'nın Avrupa enerji politikalarına etkisi // Kriter, Yıl 7,sayı 73, 2022. - https://kriterdergi.com/
12. İsmayil T. Azerbaycan Türkiye ilişkilerinde enerjinin rolu, 27 ağustos 2013, Azerbaycan,Güney Enerji Koridoru,TANAP ve TAP-Toğrul İSMAYIL (enerjigunlugu.net)
13. Koçak M. Görüş - Rusya-Ukrayna savaşının Türkiye'ye etkileri. /01.03.2022/ - https://www.aa.com.tr/tr/analiz/gorus-rusya-ukrayna-savasinin-turkiyeye-etkileri/2519470.
14. Koçer G. Karadeniz'in Güvenliği: Uluslararası Yapılanmalar Ve Türkiye //

Ankara: Gazi Akademik Bakış, c.1, sy.1, 2007, s. 195-217.

15. Memmedli E. Azərbaycan-Avropa birliği ilişkilerinde enerji faktörü // Ankara: Akademik Bakış Dergisi, sayı. 61, 2001 , s.206-215.

16. Özbay F. 21.yüzyılın başında Karadenizin artan jeopolitik önemi ve Türkiye-Rusiya ilişkilerine etkileri // İstanbul: Dünya jeopolitiğinde Türkiye , 2011, s.51-74.

17. Özsoy B. Rusya-Ukrayna Savaşı Gölgesinde AB Enerji Politikaları ve Türk Devletleri // Ankara: Hacı Bayram Veli Üniversitesi İktisadi Ve İdari Bilimler Fakültesi Dergisi, Vol.25, issue. Özel, 2023, s.43-66.

18. Telli A. Azərbaycanın enerji diplomasisi // İstanbul:Enerji diplomasisi, 2017, s.347-372

İngilis dilində:

19. A quest for energy security in the 21st Century (Resources and Constraints)/ ed. A. Aponte. Tokyo: Asia Pacific Energy Research Centre,2007,- p.95.

20. Akgül P. Exemplifying The (De) Securitisation Of Energy In The Black Sea Region // Malatya: Akademik Yaklaşımlar Dergisi /Journal of Academic Approaches, Vol.14, issue 1, 2023, p.215-239.

21. Aktaş M., Bağra A. Rusya Ukrayna Savaşı ve Türkiye'nin Enerji Politikaları // İstanbul: International Social Mentality and Researcher Thinkers Journal, Vol. 9, issue 78, 2023, p. 5228-5241

22. Babalı T. Implıcatıons of the Baku-Tbılısı-Ceyhan maın oıl pıpelıne project // Perceptıons: Journal of International Affairs, Vol. 10, No. 4, 2005, p.29-60.

23. Baldwin A.D. The concept of security // New York: Review of International Studies, Vol. 23, Issue.1, 1997, p.5-26.

24. Castillo,N. Caspian Green Energy Corridor Moves Forward, 14.11.2024 CPC | Caspian Green Energy Corridor Moves Forward

25. Dokso A. "Azerbaijan' Sees Export of Hydrogen and Ammonia on the Horizon". Energy News, 05.12.2023 Azerbaijan' Sees Export pf Hydrogen and Ammonia on the Horizon - Green Hydrogen News

26. Dubien A., Fanes J. Security and energy security in the Black Sea region. Belgium: European Parliament, 2010, - 20 p.

27. Eruygur B. Major shifts since Russia-Ukraine war: Energy politics in Eurasia, 24.03.2023 Major shifts since Russia-Ukraine war: Energy politics in Eurasia

28. Frequently asked questions on energy security, IEA, 16 november 2022, https://www.iea.org/articles/frequently-asked-questions-on-energy-security#

29. Gasimli V., Huseynov R. Economy-wide and environmental benefits of green energy development in oil-rich countries: Evidence from Azerbaijan // Economic Annals 69(241), july 2024, p.41-64.

30. Grishin O., Todorova R., Tolochko A. Energy Security of the Black Sea Region: Geostrategy and Geoenergy Measurement // Poznan: Prezglad Strategiczny, issue.13, 2020, p. 440-451.

31. Hancock J.,Vivoda V. International political economy: a field born of the OPEC crisis returns to its energy roots // Amsterdam: Energy Research & Social Science,Vol.1, 2014, p.206-216.

32. Henderson J. Russia's Changing Gas Relationship with Europe \\ Zurich: Russıan analytıcal dıgest, No.163, 2015, p.2-6.

33. Hippel D. Energy security and sustainability in Northeast Asia / Tatsujiro

Suzuki, James Williams, Timothy Savage // Amsterdam: Energy Policy, Vol.39, issue.11, 2011, p. 6719-6730.

34. Iulian Ch. Energy Security and the Caucasus knot // Bucharest: Energy Security Strategies in the Wider Black Sea, 2010, p. 9-34.

35. İpek P. Azerbaijan's foreign policy and challenges for energy security // Washington, The Middle East Journal, Vol. 63, No.2, 2009, p.227-239.

36. Kalandadze N. The Southern Gas Corrıdor -wındow of opportunıty or challenge for the West? // Istanbul: Caspian report , fall 2014, pp.57-67.

37. Kardas S. Keepıng the lıghts on:The EU's energy relatıonshıps sınce Russıa's invasıon of Ukraıne, 4 may 2023// European Council on Foreign Relations, Keeping the lights on: The EU's energy relationships since Russia's invasion of Ukraine | ECFR

38. Kırchner E., Berk C. European Energy Security Co-operation: Between Amity and Enmity //Journal of Common Market Studies, Vol.48, No.4, 2010, p.859–880.

39. National security consept of Georgia 2015, NSC-ENG.pdf (mod.gov.ge)

40. National Security Strategy of Bulgaria 2011, Microsoft Word - National_security.rtf (riskmonitor.bg)

41. National Security Strategy of Romania 2007, RoNSS2006 engl (ecfr.eu)

42. Newnham R. Georgia on my mind Russian sanctions and the end of the 'Rose Revolution' // Pennsylvania: Journal of Eurasian Studies, Vol. 6, issue. 2, 2015, p. 161-170.

43. Newnham R. Oil. carrots. and sticks: Russia's energy resources as a foreign policy tool // Seoul: Journal of Eurasian Studies, 2011, p.134-143.

44. Rzayev J., Aliyev F. Role of Azerbaijan in Maintaining Energy Security of Europe // Warsaw: Studia Wschodnioeuropejskie' journal of Warsaw University, No.18, 2023, p.57-66.

45. Sahin C. An evolving energy partnership: The European Union and Azerbaijan // Eurasian Research Journal, Vol. 6, No. 1, 2024, p. 25-49.

46. Special meeting of the European Council, 30-31 May 2022. - https://www.consilium.europa.eu/media/56562/2022-05-30-31-euco-conclusions.pdf

47. Willrich M. Energy & World Politics. New York: Simon & Schuster ,1975,- 252 p.

48. World Economic Forum. 3 charts that show the state of Europe's energy crisis right now, 20.10.2022. - https://www.weforum.org/ stories/2022/10/europe-energy-crisis-gas-report-iea/

49. Yergin H.D. Ensuring energy security.// New-York : Foreign Affais,No 2 (85), 2006, p.69-82.

50. Yergin H.D. The Quest: Energy, Security, and the Remaking of the Modern World. New York: The Penguin Press, 2011, 832 p.

51. Yergin H.D. The New Map: Energy, Climate, and the Clash of Nations /Daniel Yergin. New-York: Penguin Publishing Group, 2020, 541 p.

52. Zabanova Y. The EU and Azerbaijan as energy partners: short-term benefits, uncertain future, 5.11.2024. - www.boell.de/en/2024/11/05/eu-and-azerbaijan-energy-partners-short-term-benefits-uncertain-future

Rus dilində:

53. Бжезинский З. Великая шахматная доска. Москва: Международные отношения, 1999, 256 с.

Gunay Umarova

AZERBAIJAN'S ROLE IN ENSURING ENERGY SECURITY IN BLACK SEA REGION

Abstract

This study explores Azerbaijan's energy diplomacy and its pivotal role in strengthening energy security across the Black Sea region—a strategically important area for both global and regional powers in terms of energy transit. The research concludes that energy is a key determinant of long-term security and regional stability. While Russia maintains a dominant position as the region's primary energy supplier, the Caspian basin—particularly Azerbaijan with its substantial energy reserves—offers significant potential to alleviate various energy-related challenges. Thanks to its pragmatic and interest-driven energy policy, Azerbaijan has emerged as a central actor in major transnational energy projects with both regional and global relevance. A key focus of the study is the impact of Russia's military intervention in Ukraine, launched on February 24, 2022, which has had profound consequences for the energy security architecture of the region. International sanctions on Russia have not only affected its economy but also contributed to global price surges in energy commodities such as oil and natural gas. Against this complex geopolitical backdrop, the article analyzes Azerbaijan's ability to navigate regional dynamics and its strategic contributions to the diversification and stability of energy supply to Europe and the Black Sea countries through active energy diplomacy and international cooperation.

Keywords: energy security, Black Sea region, energy challenges, sanctions on Russia, Russia-Ukraine war, Azerbaijan's energy policy

CƏNUBİ QAFQAZDA GÜC MƏRKƏZİ: **AZƏRBAYCANIN REGİONAL VƏ BEYNƏLXALQ SİYASİ ROLU**

Mirəli SEYİDOV,
Naxçıvan Dövlət Universitetinin doktorantı
(Naxçıvan, Azərbaycan)

E-mail: Miraliseyidov@outlook.com
ORCID ID: 0000-0001-9806-5440

Xülasə. Tədqiqatın məqsədi Azərbaycanın Cənubi Qafqaz regionunda və beynəlxalq müstəvidə güclənən siyasi rolunu və bunun əsas səbəblərini təhlil etməkdir. Tədqiqat deskriptiv analiz metoduna əsaslanaraq siyasi, iqtisadi və diplomatik faktorları nəzərdən keçirir. Əsas nəticələr göstərir ki, zəngin enerji resursları, strateji nəqliyyat layihələri (BTQ, BTC), balanslı xarici siyasət və diplomatik fəallıq Azərbaycanın regional və qlobal aktora çevrilməsində mühüm rol oynamışdır. Araşdırmanın orijinallığı Azərbaycanın multilateral platformalarda, xüsusilə Qoşulmama Hərəkatı və enerji təhlükəsizliyi sahəsindəki fəaliyyətinin yeni baxış bucağından təhlil edilməsidir. Elmi yenilik ondan ibarətdir ki, bu fəaliyyətlərin beynəlxalq hüququn prinsipləri fonunda ölkənin siyasi çəkisinin artmasına təsiri ilk dəfə sistemli şəkildə araşdırılmışdır. Məhdudiyyət kimi geosiyasi dəyişkənliklərin nəticələrin uzunmüddətli dayanıqlılığına təsiri qeyd oluna bilər. Tədqiqatın nəticələri Azərbaycanın gələcək xarici siyasət prioritetlərinin müəyyənləşdirilməsində və regional əməkdaşlıq modellərinin inkişafında tətbiq oluna bilər.

Açar sözlər: geosiyasi mövqe, regional güc, xarici siyasət, enerji təhlükəsizliyi, diplomatik təşəbbüslər

Giriş

Azərbaycan son illərdə Cənubi Qafqaz regionunda güc mərkəzinə çevrilərək həm regional, həm də beynəlxalq siyasi arenada fəal mövqe sərgiləyir. Coğrafi mövqeyi, enerji resursları və strateji təşəbbüsləri sayəsində ölkə regional sabitlik və əməkdaşlıq proseslərində mühüm rol oynayır. Azərbaycanın öz milli maraqlarını qorumaqla yanaşı, qonşu dövlətlərlə və beynəlxalq tərəfdaşlarla balanslaşdırılmış münasibətlər qurması onun siyasi çəkisini artırır. Enerji sektorunda qazandığı uğurlar Azərbaycanın siyasi nüfuzunu gücləndirən əsas amillərdəndir. Xüsusilə Cənub Qaz Dəhlizi kimi iri enerji layihələri ölkəni Avropa üçün etibarlı enerji təchizatçısına çevirib. Bu təşəbbüslər təkcə iqtisadi deyil, həm də siyasi dəyər daşıyır, çünki Azərbaycanın beynəlxalq əməkdaşlıqdakı rolu Avropa İttifaqı və digər beynəlxalq qurumlar tərəfindən yüksək qiymətləndirilir.

Azərbaycanın xarici siyasət strategiyası sülh və əməkdaşlığa əsaslanır. Ölkə Qoşulmama Hərəkatında (QH) sədrliyi dövründə beynəlxalq ədalət və bərabərlik prinsiplərini fəal şəkildə müdafiə edib. Eyni zamanda, BMT, İƏT, GUAM və digər beynəlxalq təşkilatlarda iştirakı ilə öz mövqeyini təsdiqləyib. Bu platformalarda çıxışları və təşəbbüsləri ilə Azərbaycan beynəlxalq problemlərə dair öz konstruktiv mövqeyini nümayiş etdirir.

44 günlük Vətən müharibəsi Azərbaycanın hərbi və siyasi imkanlarını nümayiş etdirdi və regionda yeni reallıqlar yaratdı. Postmünaqişə dövründə Azərbaycanın həyata keçirdiyi bərpa və quruculuq işləri, həmçinin inteqrasiya strategiyası onun güclü və məsuliyyətli aktor kimi çıxış etdiyini göstərir. Bu proseslər təkcə daxili sabitlik deyil, eyni zamanda regional əməkdaşlığın inkişafı üçün də zəmin yaradır.

Xarici siyasət bir dövlətin beynəlxalq aləmdə digər dövlətlərlə və beynəlxalq təşkilatlarla münasibətlərini tənzimləyən siyasi strategiyalar və fəaliyyətlər toplusudur. Bu siyasət ölkənin milli maraqlarını qorumaq, təhlükəsizliyini təmin etmək, iqtisadi inkişafını dəstəkləmək və beynəlxalq nüfuzunu artırmaq məqsədi daşıyır. Xarici siyasət ölkənin daxili siyasəti ilə sıx əlaqəli olub, milli maraqların xarici müstəvidə ifadəsidir. Hər bir dövlətin xarici siyasəti özünün xüsusi tarixini, mədəniyyətini və strateji məqsədlərini nəzərə alaraq formalaşır və inkişaf edir. Xarici siyasətin həyata keçirilməsində bir sıra əsas prinsiplər önə çıxır [6]. Bu prinsiplər arasında dövlətlərin suverenliyinə hörmət, qarşılıqlı fayda, daxili işlərə qarışmamaq, sülh və əməkdaşlıq yolu ilə problemlərin həlli kimi məsələlər xüsusi yer tutur. Bu prinsiplər beynəlxalq hüququn norma və prinsipləri ilə üst-üstə düşərək, dövlətlərin beynəlxalq münasibətlərdə dayanıqlı və qarşılıqlı etimada əsaslanan əlaqələr qurmasına xidmət edir. Bu çərçivədə dövlətlər bir-birinə qarşı hörmətli yanaşmalı, regional və qlobal sabitliyin təmin olunmasında aktiv iştirak etməlidirlər [10].

Xarici siyasətin əsas məqsədlərindən biri milli maraqların qorunmasıdır. Milli maraqlar hər bir dövlətin özünün təhlükəsizliyini təmin etmək, iqtisadi rifahını artırmaq, mədəniyyətini qorumaq, enerji resurslarına çıxışı təmin etmək və digər strateji məqsədləri həyata keçirməkdən ibarətdir. Dövlətlər xarici siyasət vasitəsilə bu maraqları ön planda tutaraq, beynəlxalq münasibətlərdə öz məqsədlərini reallaşdırmağa çalışırlar. Bu istiqamətdə dövlətlərin iqtisadi, mədəni, diplomatik və hərbi gücünü birləşdirərək strateji qərarlar qəbul etməsi vacibdir [9].

Cəmiyyətin – dövlət idarəçiliyinin obyektinin fəaliyyətini müəyyən edən

müxtəlif daxili və xarici amillər dövlət siyasətinin də daxili və xarici siyasət kimi bölünməsinə səbəb olur. Dövlətin daxili siyasəti onun icraedici orqanlarının ölkə daxilindəki fəaliyyət istiqamətlərini müəyyən edir. Xarici siyasət isə dövlətin digər ölkələrlə münasibətlərindəki fəaliyyət istiqamətlərini göstərir. Xarici siyasət öz təsiri ilə digər dövlətləri əməkdaşlığa və qarşılıqlı əlaqəyə təşviq edə bilər. Beləliklə, dövlətlərin xarici siyasəti beynəlxalq siyasətin formalaşmasında mühüm rol oynayır. Beynəlxalq siyasət isə xalqların birgə mövcudluğunu təmin etməyə yönəlmiş xüsusi bir siyasi təsir növüdür. Gəlin əvvəlcə dövlətlərin xarici siyasətinin xüsusiyyətlərinə nəzər salaq [10, s.25].

Enerji resurslarının hasilatı və nəqli XXI əsrin qlobal geosiyasi və iqtisadi münasibətlərində strateji əhəmiyyət kəsb edən sahələrdən birinə çevrilmişdir. Bu baxımdan Azərbaycanın enerji sektorunda həyata keçirdiyi mühüm layihələr təkcə milli iqtisadi inkişafın təmin olunmasında deyil, həm də Avropa enerji təhlükəsizliyinin möhkəmləndirilməsində mühüm rol oynayır. Xüsusilə "Şahdəniz" qaz yatağının "Mərhələ 2" layihəsinin işlənilməsi və bununla bağlı qəbul edilmiş yekun investisiya qərarı Azərbaycanın enerji ixrac potensialının əhəmiyyətli dərəcədə artmasına səbəb olmuşdur. Bu qərar həm də Cənubi Qafqaz Boru Kəmərinin (CQBK) genişləndirilməsini, Transanadolu Qaz Boru Kəmərinin (TANAP) və Trans-Adriatik Boru Kəmərinin (TAP) tikintisini sürətləndirmiş və bütövlükdə Cənub Qaz Dəhlizi layihəsinin reallaşmasına ciddi təkan vermişdir. Layihənin həyata keçirilməsi nəticəsində əldə ediləcək iqtisadi dividendlər yalnız enerji sektorunu deyil, ona bağlı olan infrastruktur, sənaye və xidmət sahələrini də əhatə edəcəkdir. Bu, ölkədə ÜDM-in artımına, yeni iş yerlərinin yaradılmasına və texnoloji modernizasiya proseslərinin sürətlənməsinə şərait yaradır. Bundan əlavə, layihə Azərbaycan iqtisadiyyatının neftdən asılılığını nisbətən azaldaraq qaz ixracı hesabına valyuta gəlirlərinin sabitliyini təmin etməyə imkan verəcəkdir [8, s.1].

Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (ARDNŞ) və "Şahdəniz" konsorsiumuna daxil olan tərəfdaş şirkətlər arasında əldə edilmiş razılaşma nəticəsində "Şahdəniz" üzrə Hasilatın Pay Bölgüsü haqqında Sazişin (HPBS) müddəti 2048-ci ilədək uzadılmışdır. Eyni zamanda tərəflər HPBS ərazisində yerləşən strukturlarda əlavə kəşfiyyat və qiymətləndirmə işlərinin aparılması barədə razılığa gəliblər. Bu razılaşma Azərbaycanı qarşıdakı onilliklər ərzində Avropa enerji bazarının əsas və etibarlı tərəfdaşlarından birinə çevirəcək. Bu cür uzunmüddətli və perspektivli əməkdaşlıq Avropanın aparıcı dövlətlərini və transmilli enerji şirkətlərini Azərbaycanın strateji müttəfiqinə çevirir. Belə tərəfdaşlıq formatı regional və qlobal enerji təhlükəsizliyinin təmin olunması ilə yanaşı, Azərbaycanın dayanıqlı inkişafını və iqtisadi sabitliyini də möhkəmləndirir. Azərbaycanın geosiyasi əhəmiyyəti artmaqla yanaşı, beynəlxalq sərmayədarlar üçün də cəlbedici məkana çevrilir [8, s.2].

"Şahdəniz-2" layihəsi çərçivəsində ilk dəfə olaraq Azərbaycan qazı Avropa bazarına çıxarılır. Bu fakt Azərbaycanın qlobal enerji sistemində yeni strateji rolunu təsdiqləyir. İndiyədək Avropa Rusiya, Şimali Afrika və Şimal dənizi vasitəsilə təbii qaz idxal edirdisə, Azərbaycan bu marşrutlara alternativ olaraq "dördüncü ixrac yolunu" təklif etməklə qitənin enerji təhlükəsizliyində yeni səhifə açmışdır. Bu xətt gələcəkdə Orta Şərq və Xəzər hövzəsinin zəngin qaz ehtiyatlarının Avropaya çatdırılması üçün əsas nəqliyyat platformasına çevrilə bilər. Orta Şərq və Xəzər hövzəsinin qaz ehtiyatları ümumilikdə 101,3 trilyon kubmetr təşkil edir ki, bu da Rusiya qaz ehtiyatlarını (32,9 tril-

yon kubmetr) təxminən üç dəfə üstələyir. Bu baxımdan Azərbaycanın neft-qaz diplomatiyasının regionda qaz ehtiyatlarına malik olan digər dövlətləri - İran, Türkmənistan, Qətər və Səudiyyə Ərəbistanını qabaqlaması mühüm nailiyyət hesab edilə bilər [8, s.2].

Tədqiqat. Azərbaycanın enerji siyasəti *"qələbə-qələbə" (win-win) modeli* üzərində qurulmuşdur. Bu modeldə həm tranzit ölkələr, həm istehlakçılar, həm də istehsalçı dövlət qazanclı mövqedə dayanır. Cənub Qaz Dəhlizi vasitəsilə Xəzər regionu və Avropa bazarları birbaşa bağlanaraq layihədə iştirak edən bütün ölkələrə iqtisadi və geosiyasi dividendlər gətirir. Layihə boyu on minlərlə yeni iş yeri yaradılır, region ölkələrinin valyuta balansları yaxşılaşır, Türkiyə isə əsas nəqliyyat-logistika qovşaqlarından birinə çevrilərək öz strateji əhəmiyyətini daha da artırır.

"Şahdəniz-2" layihəsinin icrası ilə ARDNŞ öz tarixində ilk dəfə belə genişmiqyaslı layihədə operator kimi çıxış edir. Əvvəlki dövrlərdə analoji iri layihələrin operatorluğu BP və "Statoyl" kimi təcrübəli transmilli şirkətlər tərəfindən həyata keçirilirdisə, bu dəfə təşəbbüsə məhz Azərbaycan şirkəti rəhbərlik edir. Bu, ARDNŞ-nin texnoloji potensialının və idarəçilik imkanlarının artması ilə yanaşı, onun qlobal enerji bazarındakı nüfuzunun yüksəlməsinə səbəb olmuşdur. "Global Witness" kimi beynəlxalq təşkilatlar tərəfindən aparılan tənqid kampaniyaları da əslində ARDNŞ-nin artan təsir gücünün göstəricisi kimi qiymətləndirilə bilər. Şirkət artıq yalnız milli səviyyədə deyil, regional və qlobal miqyasda da rəqabət apara biləcək status qazanmışdır [8, s.2].

İnvestisiya qərarı çərçivəsində ARDNŞ Norveçin "Statoyl" şirkətindən "Şahdəniz" və Cənubi Qafqaz Boru Kəmərində 6,7% əlavə pay alaraq ümumi iştirak payını 16,7%-ə yüksəltmişdir. Bu, onu konsorsiumun ikinci ən böyük iştirakçısına çevirir. TANAP layihəsində 68% payla lider mövqedə olan ARDNŞ eyni zamanda TAP konsorsiumunda da 20%-lik payla BP ilə liderlik edir. Beləliklə, Azərbaycan quyudan son istifadəçiyə qədər olan dəyər zəncirinin bütün mərhələlərində təşəbbüs sahibi olaraq çıxış edir. Avropa İttifaqının Üçüncü Enerji Paketi bu layihələrə tətbiq olunmur. Bu isə ARDNŞ-nin rəhbərlik etdiyi layihələrin hüquqi baxımdan daha əlverişli rejimə malik olduğunu göstərir və regional enerji siyasəti üçün "yaşıl işıq" rolunu oynayır [7].

Azərbaycanın uğurlu neft-qaz strategiyası ilə barışmayan bəzi dairələr 17 dekabr tarixində Yunanıstanın Baş naziri Antonis Samarasın texniki səbəblərdən Bakıya gələ bilməməsini və ARDNŞ-nin Yunanıstanın qaz paylayıcı şəbəkəsi olan DESFA şirkətini satın alması ilə bağlı sazişin təxirə düşməsini siyasi və iqtisadi böhran əlaməti kimi təqdim etməyə çalışmışdılar. Halbuki, Yunanıstan tərəfi rəsmi olaraq yalnız texniki səbəbləri əsas göstərmiş və razılaşmanın strateji əhəmiyyəti heç bir halda inkar olunmamışdır. Xatırladaq ki, ARDNŞ-nin DESFA-nın 66%-lik səhmlərini 536 milyon ABŞ dollarına (təqribən 400 milyon avro) almaqla bağlı təklifi Yunanıstanın özəlləşdirmə agentliyi HRADF tərəfindən məqbul hesab olunmuşdur. Lakin sazişin təxirə düşməsi Azərbaycanın "Şahdəniz" konsorsiumu çərçivəsində "Mərhələ 2" layihəsinin həyata keçirilməsi üçün qəbul etdiyi yekun investisiya qərarı fonunda miqyas baxımından əhəmiyyətsiz görünür. Belə ki, "Mərhələ 2" layihəsinə nəzərdə tutulan ümumi investisiya həcmi 45 milyard ABŞ dolları təşkil etdiyi halda, DESFA-nın özəlləşdirilməsi üçün tələb olunan məbləğ bu göstəricidən 84 dəfə azdır. Bu da DESFA məsələsinin bütövlükdə Azərbaycan qazının Avropa bazarına çıxışında taktiki yox, sadəcə texniki

xarakter daşıdığını göstərir. DESFA ilə razılaşma təxirə düşsə belə, ARDNŞ onsuz da TAP boru kəmərinin Yunanıstan ərazisindən keçən 550 km-lik seqmenti üzrə təhlükəsizlik və texniki koordinasiya işlərini DESFA və yunan tərəfi ilə birgə həyata keçirəcək. Bu isə o deməkdir ki, strateji əməkdaşlıq istənilən halda davam etdiriləcək və layihənin icrasına təsir göstərməyəcək [8, s.3].

"Şahdəniz" konsorsiumu tərəfindən "Mərhələ 2" layihəsinin işlənilməsi üçün qəbul edilmiş yekun investisiya qərarı Ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulan və bu gün də uğurla davam etdirilən milli enerji strategiyasının təntənəsidir. 1994-cü ildə imzalanmış "Əsrin müqaviləsi" Azərbaycanın enerji sektorunda transformasiyanın əsasını qoymuş və ölkəni beynəlxalq enerji bazarına çıxaran qapını açmışdır. Əgər həmin müqavilə imzalanmasaydı, Xəzər regionunun zəngin karbohidrogen ehtiyatları Qərb sərmayədarlarının diqqətindən kənarda qala bilərdi. Prezident İlham Əliyevin rəhbərliyi ilə bu rasional enerji siyasəti davam etdirilmiş və Azərbaycan yalnız neft deyil, həm də təbii qaz sahəsində Avropa bazarının əsas və etibarlı oyunçusuna çevrilmişdir. Bu uğurlar bir daha sübut edir ki, Azərbaycanın enerji siyasəti yalnız iqtisadi deyil, həm də geosiyasi baxımdan strateji əhəmiyyət daşıyır və regionda sabitlik, əməkdaşlıq

Cədvəl 1. Energetika sektoru üzrə əsas makroiqtisadi və enerji səmərəliliyi

	2015	2016	2017	2018	2019	2020	2021	2022	2023
Fəaliyyət göstərən müəssisələrin sayı - cəmi	360	362	352	381	405	423	437	463	484
İstehsal olunmuş məhsulun (işlərin, xidmətlərin) həcmi, müvafiq illərin cari qiymətləri ilə, milyon manat	20 581	25 438	32 108	39 418	37 401	27 344	42 129	71 657	52 210
İstehsal olunmuş məhsulun fiziki həcm indeksi, əvvəlki ilə nisbətən, faizlə	102,0	99,9	95,5	100,6	100,3	94,2	102,4	97,7	98,3
İstehsal olunmuş sənaye məhsulunun ümumi həcmində xüsusi çəkisi, faizlə	78,1	78,7	80,5	82,7	79,6	73,4	76,3	82,9	77,6
Muzdla işləyənlərin sayı (ilin sonuna), min nəfər	61,5	61,7	61,4	61,7	65,2	62,2	59,0	60,3	61,0
əvvəlki ilə nisbətən, faizlə	93,5	100,3	99,4	100,5	105,7	95,4	94,9	102,2	101,2
Orta aylıq nominal əməkhaqqı, manat	1 471,8	1 808,0	1 970,0	1 938,6	2 004,7	2 125,9	2 080,9	2 249,1	2 306,0
İlin sonuna əsas fondların mövcudluğu, milyon manat	64 058,1	100 250,3	109 198,3	114 207,5	131 850,1	137 474,2	146 576,0	154 002,0	157444,6*)
əvvəlki ilə nisbətən, faizlə	112,2	156,5	108,9	104,6	115,4	104,3	106,6	105,1	102,2*)

Mənbə: https://www.stat.gov.az/source/balance_fuel/

2015–2023-cü illər ərzində Azərbaycanın energetika sektorunda fəaliyyət göstərən müəssisələrin sayı əhəmiyyətli dərəcədə artmışdır. Əgər 2015-ci ildə bu sahədə 360 müəssisə fəaliyyət göstərirdisə, 2023-cü ildə bu rəqəm 484-ə çatmışdır. Bu, sektorda rəqabətin artması, investisiya mühitinin yaxşılaşması və dövlətin enerji siyasətində liberallaşma meyillərinin göstəricisi kimi qiymətləndirilə bilər. Bu həm də enerji bazarının genişlənməsi və yeni texnologiyaların tətbiqi ilə bağlıdır. İstehsal olunmuş məhsulun həcmi baxımından da ümumi olaraq artım müşahidə olunur. 2015-ci ildə 20,6 milyard manat olan məhsul həcmi 2022-ci ildə 71,7 milyard manata qədər yüksəlmiş, lakin 2023-cü ildə bu göstərici 52,2 milyard manata qədər azalmışdır. Bu azalma iqtisadi və siyasi faktorlardan, eləcə də enerji qiymətlərindəki dəyişkənlikdən qaynaqlana bilər. Buna baxmayaraq, uzunmüddətli perspektivdə istehsalın dəyərində əsaslı artım müşahidə olunur ki, bu da sektorda iqtisadi güclənmənin sübutudur.

Energetika sektorunda istehsal olunan məhsulun fiziki həcmi indeksi isə ilbəil dalğavari dəyişiklik göstərir. 2020-ci ildə pandemiyanın təsiri ilə 94,2%-ə qədər azalan bu göstərici 2021-ci ildə bərpa olunaraq 102,4%-ə yüksəlmiş, sonrakı illərdə isə nisbətən stabilləşmişdir. Bu dalğalanmalar sektorun qlobal bazarlardakı proseslərə yüksək həssaslıqla reaksiya verdiyini göstərir. Eyni zamanda, sənaye məhsulunun ümumi həcmində energetika sektorunun xüsusi çəkisi də yüksək olub, xüsusilə 2022-ci ildə 82,9%-lə ən yüksək göstərici qeydə alınıb. İnsan resursları və əsas fondlar baxımından da müsbət dinamika müşahidə edilir. Muzdla işləyənlərin sayı sabit qalsa da, orta aylıq əməkhaqqı davamlı şəkildə artmışdır – 2015-ci ildə 1 471 manat olan əməkhaqqı 2023-cü ildə 2 306 manata çatmışdır. Bu, əmək bazarında ixtisaslı kadrlara tələbin artması ilə yanaşı, əmək şəraitinin və maaş siyasətinin yaxşılaşdığını göstərir. Əsas fondların dəyəri də demək olar ki, hər il artmış və 2023-cü ildə 157 milyard manatı keçmişdir ki, bu da sektorda infrastrukturun genişləndiyini və yeni texnoloji avadanlıqların tətbiqini göstərir. Ümumilikdə, energetika sektoru bu dövrdə həm iqtisadi, həm də institusional baxımdan əhəmiyyətli inkişaf mərhələsi keçmişdir.

Cədvəl 2. Xam neft və təbii qaz hasilatı, bu sahədə xidmət göstərən müəssisələrin əsas göstəriciləri

	2014	2015	2016	2017	2018	2019	2020	2021	2022	2023
Fəaliyyət göstərən müəssisələrin sayı - cəmi	116	118	120	120	142	161	165	168	178	193
İstehsal olunmuş məhsulun (işlərin, xidmətlərin) həcmi, müvafiq illərin cari qiymətləri ilə, milyon manat	21 877	16 221	21 027	27 712	34 627	32 472	22 364	35 735	64 204	44 545
İstehsal olunmuş məhsulun fiziki həcm indeksi, əvvəlki ilə nisbətən, faizlə	97,9	103,4	101,1	95,5	100,2	100,4	93,9	101,4	97,6	97,8
İstehsal olunmuş sənaye məhsulunun ümumi həcmində xüsusi çəkisi, faizlə	68,1	61,5	65,1	69,5	72,6	69,1	60,0	64,7	74,3	66,2
Muzdla işləyənlərin sayı (ilin sonuna), min nəfər	31,4	30,3	30,4	29,9	30,3	30,8	30,0	28,1	29,1	28,7
əvvəlki ilə nisbətən, faizlə	98,0	96,7	100,2	98,4	101,3	101,7	97,4	93,7	103,6	98,6
Orta aylıq nominal əməkhaqqı, manat	1 914,0	2 386,0	3 054,8	3 356,6	3 254,6	3 355,0	3 612,0	3 396,1	3 538,5	3 665,7
İlin sonuna əsas fondların mövcudluğu, milyon manat	44 243,0	51 546,4	87 424,5	96 064,0	100 923,4	118 615,6	122 527,8	128 709,3	135 282,3	138609,2*)
əvvəlki ilə nisbətən, faizlə	116,1	116,5	169,6	109,9	105,1	117,5	103,3	105,0	105,1	102,5*)

Mənbə: https://www.stat.gov.az/source/balance_fuel/

2014–2023-cü illər ərzində xam neft və təbii qaz hasilatı sahəsində fəaliyyət göstərən müəssisələrin sayı davamlı artım göstərmişdir. 2014-cü ildə 116 olan müəssisə sayı 2023-cü ildə 193-ə çataraq təxminən 66%-lik artım nümayiş etdirmişdir. Bu artım sektora olan yerli və xarici investisiyaların, texnoloji imkanların və xidmət sahələrinin genişlənməsinin nəticəsi kimi qiymətləndirilə bilər. Neft və qaz sahəsində xidmət göstərən müəssisələrin çoxalması həm də sektorda şaxələndirmənin baş verdiyini göstərir. İstehsal olunmuş məhsulun həcmi də illər üzrə dəyişkən olsa da, ümumi tendensiya artıma doğrudur. 2015-ci ildə 16,2 milyard manatla ən aşağı səviyyəyə enən bu göstərici 2022-ci ildə 64,2 milyard manata qədər yüksəlib. Lakin 2023-cü ildə bu göstərici yenidən azalıb, 44,5 milyard manat olub. Bu kimi enişlər dünya enerji bazarındakı qiymət dəyişiklikləri, geosiyasi vəziyyətlər və hasilat həcminin dəyişməsi ilə bağlı ola bilər. Bununla belə, son 10 ildə istehsal dəyəri baxımından ümumi güclənmə müşahidə edilir.

Fiziki həcm indeksinə baxdıqda, hasilatın sabit olmadığı, bəzi illərdə azalma, bəzi illərdə isə artım olduğu görünür. 2020-ci ildə pandemiyanın təsiri ilə bu indeks 93,9%-ə enmiş, sonrakı illərdə isə müəyyən bərpa prosesləri baş vermişdir. Bu dəyişkənlik hasilatın kəmiyyət baxımından dalğalı getdiyini göstərsə də, orta aylıq əməkhaqqı göstəricilərində davamlı artım diqqət çəkir. 2014-cü ildə 1914 manat olan əməkhaqqı, 2023-cü ildə 3665 manata yüksəlmişdir ki, bu da ixtisaslı kadrlara tələbin yüksək olduğunu və əmək bazarında bu sahənin cəlbediciliyini təsdiqləyir. Əsas fondların mövcudluğu göstəricisi bu dövr ərzində ciddi artım nümayiş etdirmişdir. 2014-cü ildə 44,2 milyard manat olan əsas fondlar 2023-cü ildə 138,6 milyard manata çatmışdır. Bu, sektorda iri infrastruktur layihələrinin, texnoloji avadanlıqların və müasir istehsal güclərinin tətbiqinin artdığını göstərir. Artım tempi xüsusilə 2016-cı ildə yüksək olub – 69,6%, bu isə həmin dövrdə böyük layihələrin və sərmayələrin reallaşdırıldığını göstərir. Ümumilikdə, neft-qaz hasilatı sahəsi 10 il ərzində həm maddi-texniki baza, həm də iqtisadi göstəricilər baxımından mühüm inkişaf mərhələsi keçmişdir.

XXI əsrin əvvəllərində beynəlxalq təhlükəsizlik sahəsində yeni təhdidlər – beynəlxalq terrorizm, transmilli cinayətkarlıq, ekoloji problemlər meydana çıxmışdır. Bu baxımdan Azərbaycan Respublikası öz xarici siyasət kursunu bu təhdidlərin aradan qaldırılmasına yönəltmiş və bu istiqamətdə beynəlxalq ictimaiyyətlə sıx əməkdaşlıq etməyə başlamışdır. Xarici siyasətin mühüm istiqamətlərindən biri də qonşu dövlətlərlə mehriban qonşuluq və qarşılıqlı faydalı münasibətlərin inkişaf etdirilməsidir. Xüsusilə Rusiya, İran və Türkiyə ilə münasibətlərin qurulması Azərbaycanın həm daxili həyatına, həm də beynəlxalq mövqeyinə müsbət təsir göstərmişdir. Bu münasibətlər vasitəsilə Azərbaycan regional məsələlərin həllində daha fəal mövqe tutur. Digər prioritet istiqamətlərdən biri isə Avropa İttifaqı ilə əməkdaşlıq və Avroatlantik strukturlara inteqrasiya prosesidir. Xüsusilə enerji sahəsində əməkdaşlığın genişləndirilməsi, 2006-cı ildə imzalanmış Strateji Enerji Tərəfdaşlığı üzrə Anlaşma Memorandumu bu münasibətlərin inkişafında mühüm rol oynamışdır. Bununla yanaşı, Azərbaycan öz enerji ehtiyatlarının beynəlxalq bazarlara təhlükəsiz və sərfəli yollarla çıxarılmasına xüsusi önəm verir. Enerji siyasətində tərəfdaş ölkələrlə, o cümlədən Qərb dövlətləri, Türkiyə, Rusiya və İranla əməkdaşlığa üstünlük verir. Bundan əlavə, Azərbaycanın xarici siyasət prioritetlərinə Xəzər dənizinin demilitarizasiyası, nüvə silahının yayıl-

masının qarşısının alınması, Cənubi Qafqazda nüvəsiz zona yaradılması və Avrasiya nəqliyyat dəhlizinin inkişafı da daxildir. Bütün bu istiqamətlər Azərbaycan Respublikasının praqmatik və balanslaşdırılmış xarici siyasət yürütdüyünü göstərir [11, s.102].

Nəticə

Azərbaycanın Cənubi Qafqazda güc mərkəzinə çevrilməsi təkcə coğrafi və enerji üstünlükləri ilə deyil, həm də ardıcıl və düşünülmüş siyasi strategiyalarla mümkün olmuşdur. Regionda sabitliyin qorunması, nəqliyyat və enerji layihələrinin icrası, həmçinin hərbi-siyasi güc balansının dəyişdirilməsi Azərbaycanı strateji aktora çevirib. Bu uğurlar regional liderlik iddialarının reallığa çevrildiyini göstərir. Beynəlxalq səviyyədə Azərbaycan balanslı və çoxvektorlu xarici siyasəti ilə müxtəlif güc mərkəzləri arasında uğurla manevr edir. Ölkə beynəlxalq təşkilatlarda fəal mövqe tutaraq, qlobal problemlərin həllində təşəbbüskar kimi çıxış edir. Xüsusilə, Qoşulmama Hərəkatına sədrliyi və enerji təhlükəsizliyinə verdiyi töhfələr Azərbaycanın beynəlxalq nüfuzunu əhəmiyyətli dərəcədə artırmışdır. Azərbaycan həm regional sabitliyin qorunmasında, həm də qlobal səviyyədə strateji əməkdaşlıqların qurulmasında mühüm rol oynayır. Bu siyasət ölkənin milli maraqlarına uyğun olaraq onun siyasi, iqtisadi və diplomatik imkanlarını genişləndirməkdə davam edir. Azərbaycanın bu istiqamətdəki möhkəm mövqeyi onu gələcəkdə də regionun əsas siyasi oyunçularından biri kimi saxlayacaq.

İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT

Azərbaycan dilində:

1. “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”in təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. - https://e-qanun.az/framework/46813
2. Hüseynova İ. Azərbaycan müasir dünyada: demokratik inkişaf yolu və tarixi nailiyyətlər”, 2015, s.4. - https://www.anl.az/down/meqale/yeni_az/2015/may/434256.htm
3. İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclasında 2025-ci ilin büdcə layihəsi müzakirə edilib. - https://meclis.gov.az/news.php?id=5770&lang=az
4. Kazımov R. Azərbaycanda demokratik və hüquqi islahatların banisi, 2013, s.17 https://www.anl.az/down/meqale/respublika/2013/may/309264.htm
5. Qələndərli N. Milli güc, milli dövlət və ictimai-siyasi sabitlik, 2013. - https://www.elibrary.az/docs/qazet/qzt2013_299.pdf
6. Quliyev S. “Azərbaycan multikulturalizmi" modelinin beynəlxalq münaqişələrə təsiri. 2017, s.21-22. - https://www.researchgate.net/publication/365488181_Azrbaycan_multikulturalizmi_modelinin_beynlxalq_munaqislr_tsiri
7. Malikov A. (2017). Cənubi Qafqazda etnik-ərazi münaqişələrinin regional proseslərə təsiri. Bakı: Azərbaycan. - https://www.researchgate.net/publication/325618608_Cnubi_qafqazda_etnik-_razi_munaqislrin_regional_proseslr_tsiriInfluence_of_ethnic-territorial_conflicts_on_regional_processes_in_the_South_Caucasus
8. Məmmədov F. Azərbaycan Avropanın yeni enerji xəritəsini çəkir. // “Azərbaycan”, 20 dekabr 2013, №281, s.13. - https://www.elibrary.az/docs/QAZET/qzt2013_2545.pdf

9. Məmmədyarov E. Azərbaycanın xarici siyasəti: təsir edən amillər və prioritetlər. // Azərbaycan, 3 iyul 2009, s.6. - https://anl.az/down/meqale/azerbaycan/azerbaycan_iyul2009/84940.htm

Rus dilində:

10. Борисенков А.А. Внешняя Политика - Видполитического Влияния // "Политика и общество", 2012, №4, (94), с.25-33. - https://www.elibrary.az/docs/jurnal/jrn2012_358.pdf

11. Ибрагимов А. Г. Основные принципы и приоритеты внешней политики Азербайджанской Республики. // Постсоветские исследования. Т.4, №2, 2021, с.96-103. - https://cyberleninka.ru/article/n/osnovnye-printsipy-i-prioritety-vneshney-politiki-azerbaydzhanskoy-respubliki

12. https://www.stat.gov.az/source/balance_fuel/

Mirali Seyidov

POWERHOUSE IN THE SOUTH CAUCASUS: AZERBAIJAN'S REGIONAL AND INTERNATIONAL POLITICAL ROLE

Abstract

This study analyzes the growing political influence of Azerbaijan in the South Caucasus and beyond, identifying the key drivers behind its rising prominence. Using a descriptive analytical approach, the research explores political, economic, and diplomatic factors contributing to Azerbaijan’s emergence as a regional and global actor. The findings highlight the significance of the country’s rich energy resources, strategic transport corridors (such as the Baku–Tbilisi–Kars railway and the Baku–Tbilisi–Ceyhan pipeline), a balanced foreign policy, and active diplomacy. The study offers a novel perspective by examining Azerbaijan’s engagement in multilateral platforms—particularly the Non-Aligned Movement—and its contributions to global energy security. Its scientific contribution lies in systematically evaluating how these activities have enhanced the country's political standing in accordance with the principles of international law. While the long-term sustainability of these achievements may be affected by regional geopolitical fluctuations, the study’s practical value lies in informing future foreign policy priorities and models for regional cooperation.

Keywords: geopolitical position, regional power, foreign policy, energy security, diplomatic initiatives

CƏNUBİ QAFQAZDA MÜASİR GEOSİYASİ ÇAĞIRIŞLAR: **AZƏRBAYCANIN MİLLİ TƏHLÜKƏSİZLİYİ ÜÇÜN MÜMKÜN YUMŞAQ TƏHDİDLƏR VƏ ONLARA QARŞI MÜBARİZƏ**

Məhəmməd ƏKBƏROV,
fəlsəfə üzrə fəlsəfə doktoru,
AR Müdafiə Nazirliyinin Hərbi Elmi Tədqiqat İnstitutu

E-mail: court.akberov@gmail.com

Xülasə. Qloballaşma kontekstində hərbi gücdən istifadə təhdidləri ilə yanaşı, qeyri-güc fenomeni - yumşaq təhdidlər və risklər də təhlükəsizlik gündəmində xüsusi aktuallıq kəsb edir və qarşıdurmanın bu növü sön onilliklərdə genişlənməkdədir. Tədricən müharibələrin təbiətinin və hərbi zorakılıq vasitələrinin ciddi dəyişikliyə məruz qalması tendensiyası müasir hərb meydanında özünü təsdiq etməkdədir. Hərbi əməliyyatlar səhnəsindən ağır, sərt güc vasitələrini tam sıxışdıra bilməsə də, yümşaq təsir vasitələrinin rolu yüksəlməyə doğru gedir. Yumşaq güc vasitələrinin hərb işinə genişmiqyaslı nüfuzu müharibələrin taleyinin həll olunmasında və ölkələrin suverenliyinin zəiflədilməsində və ya tamamilə qəsb edilməsində heç də klassik zorakılıq alətlərindən az rol oynamır.

Yumşaq təhdidlər az xərclə, beynəlxalq qınaq olmadan, aşkar fəaliyyət göstərmədən, geniş fiziki zorakılıq yaratmadan, çox vaxt hədəf olaraq seçilən qurbanın daxili sisteminə sirayət etmək yolu ilə onun suverenliyinə qarşı planlaşdırılmış təxribatların həyata keçirilməsinə xidmət edir.

İkinci Qarabağ müharibəsindən Azərbaycanın regionda və dünyada artmaqda olan nüfuzu ona qarşı məqsədyönlü yumşaq təhdidlərin artmasına rəvac verib. Azərbaycan dövləti həmin yumşaq təhdidlərə: informasiya müharibəsinə, koqnitiv hücumlara, narkoterrora və s.-yə qarşı istər praktiki, istərsə də institusional baxımdan ciddi addımlar atmaqdadır.

Məqalədə araşdırılan problem həm aktuallıq, həm də tədqiqat baxımından əhəmiyyət kəsb etsə də, gündən-günə artan yeni forma və vasitələrin ortaya çıxması aspektində az öyrənilən sahə olaraq qalır. Bu istiqamətdə Azərbaycanda ciddi tədqiqatlara yeni başlanmaqdadır. Məqalədə xarici yumşaq təhdidlərin ölkə üçün nə dərəcədə təhlükəli olması və ona qarşı mübarizənin kritik əhəmiyyət kəsb etməsi izah edilir.

Məqsəd İkinci Qarabağ müharibəsindən sonra formalaşan yeni geosiyasi, hərbi reallıq fonunda Azərbaycana qarşı yönələn yumşaq təhdidləri müəyyən etmək və onlara qarşı mübarizə yollarını təkmilləşdirməklə bağlı qənaətlər təqdim etməkdən ibarətdir. Məqalədə ümummətiqi idrak metodlarından - sintez, analiz, induksiya və deduksiyadan geniş istifadə edilib.

Açar sözlər: İkinci Qarabağ müharibəsi, postmüharibə dövrü, yumşaq təhdidlər, hibrid müharibə texnologiyaları, informasiya müharibəsi, koqnitiv müharibə, kibertəhlükəsizlik, narkoterror

Giriş

İkinci Qarabağ müharibəsində Azərbaycanın qələbəsini həzm edə bilməyən dövlətlər zəifləmiş mövqelərini qeyri-hərbi sahədə ölkəyə qarşı yumşaq hücumlar həyata keçirməklə davam etmək məqsədi güdürlər. Belə hücumlara informasiya və kiberhücumlar, Azərbaycanda proksi qüvvələrin əli ilə daxili sabitliyi pozmaq, narkotik vasitələrin yayılması və s. aid edilir.

Şübhəsiz, müasir dövrdə informasiya hibrid müharibə texnologiyalarının ən mühüm elementinə çevrilib. Məqsədyönlü məlumat və ya dezinformasiya düşmən auditoriyasının əhalisi və silahlı qüvvələrinin şüuruna, psixikasına, mənəviyyatına və davranışına ciddi təsir edir, onun fəaliyyət qabiliyyətini pozmaq məqsədi güdür. Ona görə də bütün dövrlərdə “hibrid müharibə”nin informasiya komponenti daim aktual olaraq qalır. Çünki döyüş meydanında müharibəyə başlamamışdan əvvəl də informasiya müharibəsini aparmaq mümkündür. Bununla yanaşı, cəbhədə aparılan müharibəni informasiya müharibəsi olmadan həyata keçirmək mümkün deyil.

Ukraynalı tədqiqatçı H.H.Poçetspov “hibrid müharibəni” “hibrid informasiya müharibəsi” ilə əvəz etməyi təklif edərək, hərbi fəaliyyətlərin sona çatmasının informasiya müharibəsinin davam etməsinə mane olmadığını bildirir. Onun sözlərinə görə, fiziki fəaliyyətlərin maskalanması informasiya fəaliyyətlərinin artmasını stimullaşdırıb [18]. Doğrudan da, informasiya dəstəyi olmadan “hibrid müharibənin” uğurunu təmin etmək mümkün deyil. Bunu dünyanın müxtəlif qaynar nöqtələrində - Suriya, İraq, Əfqanıstan, Krim, İkinci Qarabağ müharibəsində müşahidə edilib və hazırda davam edən Rusiya-Ukrayna və Yaxın Şərqdəki müharibələrdə görmək mümkündür.

Əsas mətn

Sərt təhdidlərdən fərqli olaraq, yumşaq təhdidlərə qarşı həssaslıq o qədər də aşkar olmayan mənbə və hədəflərə qarşı həssaslığı ilə fərqlənir. Çoxlarının başa düşəcəyi xarici səbəblə əlaqələndirilən, aşkar görünə bilən təhdidlərdən fərqli olaraq, onlar hədəf qrupların daha dərin hissələri və onların şüursuz məzmunu ilə bağlıdır.

Təhdidləri dörd müxtəlif kateqoriyaya bölmək olar: birbaşa, dolayı, gizli və şərti. Birbaşa təhlükə konkret hədəfi müəyyənləşdirir, birbaşa, aydın və açıq şəkildə çatdırılır.

Yumşaq təhdidin hədəfləri çoxşaxəlidir və bəzi nümunələrinə misal kimi nəqliyyat sistemləri, dini ibadət yerləri, məktəblər, xəstəxanalar, bazarlar, restoranlar, gecə klubları və s. göstərilə bilər, lakin bunlarla məhdudlaşmır [16, s.21].

Yumşaq təhdidlərə dövlətin və onun əhalisinin dəyərlərinə qarşı təhlükələrin aradan yaradılmasına birbaşa təsir edən sahələr aiddir. Yumşaq təhdidlər və onlara qarşı mübarizə, müvafiq olaraq, XXI əsrdə təhlükəsizliklə bağlı ənənəvi anlaşılan hərbi və s. aspektdən fərqli olaraq, təhlükəsizliyə əhəmiyyətli dərəcədə təsir edən yeni qeyri-ənənəvi aspektlərin – iqtisadiyyat, enerji, miqrasiya, kibertəhlükəsizlik və terrorizmin yaranması ilə əlaqədar olan dövlətlərin milli təhlükəsizliyinin yeni formasını - “yumşaq təhlükəsizlik” və onun təmin edilməsini gündəmə gətirib. Hələ 2016-cı ildə Avropa Birliyi xarici siyasət və müdafiə üzrə qlobal strategiyası çərçivəsində “yumşaq təhlükəsizlik” anlayışının konseptual əsaslarını müəyyən edib. Bu da “yumşaq təhdidlər" anlayışının geniş yayılması və tədqiqini şərtləndirib [13].

Müvafiq olaraq, hazırda hər bir dövlət milli təhlükəsizlik sistemində “yumşaq təhdidlərin” konseptual əsaslarını müəyyən edir, onun əsasında təhlükəsizliyin

təmin edilməsi üçün yeni mexanizmlərin, alətlərin və vektorların işlənib hazırlanmasını prioritetləri sırasına daxil edir.

Bu gün informasiya silahı dağıdıcı silahlardan qətiyyən geridə qalmır [10]. İnformasiya düşmən auditoriyanın şüur və təsəvvürlərinə geniş və dərin təsir göstərmək və öz əhalisini düşmənin analoji informasiya-psixoloji hücumlarından" qorumaq üçün yeni imkanlar yaradır. Hələlik informasiya müharibələrində müdafiə olunmaq hücum etməkdən qatqat çətindir. Təbliğatın, həmçinin informasiya təsirinin əsas məqsədi 100 il əvvəl olduğu kimi yenə də həminki kimidir: fiziki zorakılığa əl atmadan düşmənin ruhunu, mənəvi-psixoloj qüvvəsini məhv etmək [19, s.11].

İnformasiya müharibəsinin əsasını dezinformasiya amili təşkil edir. Azərbaycanın tam suverenliyini təmin etməsi üçün apardığı birgünlük antiterrror əməliyyatlarında düşmənə vurulan öldürücü zərbə Ermənistanda İkinci Qarabağ müharibəsindəki məğlubiyyətdən sonra davam edən revanşizm əhval-ruhiyyəsini daha da artırıb. Məhz bu səbəbdən Ermənistan Azərbaycana qarşı informasiya cəbhəsində mübarizəni daha da intensivləşdirib. Bu mübarizə istiqamətində Ermənistan hakimiyyəti, ictimaiyyəti, müxalifəti, diaspor təşkilatları, KİV-ləri və xarici havadar ölkələr səfərbər edilib.

Məlumdur ki, informasiya müharibəsi saxta məlumatların dövriyyəyə buraxılmasına və həqiqətin gizlədilməsinə xidmət edir. Belə müharibələrdə sosial şəbəkələr: Facebook, Youtube, Tvitter/X və s. yeni media platformaları həlledici hesab edilir. Hazırda Ermənistan Azərbaycana qarşı informasiya hücumlarını həm ölkədaxili, həm də beynəlxalq səviyyələrdə həyata keçirir. Ölkədaxili səviyyədə internet məkanında kiberhücumlar təşkil edilir, onlar üç əsas istiqamət üzrə reallaşdırılır. Birinci istiqamət dövlət qurumlarının rəsmi internet səhifələrinə edilən hücumlar, digər iki istiqamət isə sosial şəbəkələr və smartfonlar sayılır. Əgər birinci istiqamət dövlət təhlükəsizlik orqanlarının fəaliyyət sahəsini əhatə edirsə, digər iki istiqamət vətəndaşların məsuliyyət sahəsinə təsadüf edir. Vətəndaşların ayıq-sayıq olması üçün maarifləndirmə tədbirlərinin keçirilməsi son dərəcə vacibdir. Ermənistan xüsusi xidmət orqanları tərəfindən yaradılan saxta hesablar və qruplar, yayılan dezinformasiyalar və videolar Azərbaycana qarşı virtual məkanda davam edən müharibənin təzahürüdür.

Beynəlxalq məkana gəldikdə isə, Ermənistan bu sahədə üç növ dezinformasiya kampaniyası həyata keçirir: "Xristian ölkələrində o, müharibənin "xristian demokratik dövləti ilə müsəlman qeyri-demokratik dövləti" arasında olması görüntüsü yaratmağa, Azərbaycanda yaşayan dinc erməni azlığının Bakının hücumuna məruz qalması fikrini tirajlamaqla, Qərbdə liberalların dəstəyini qazanmağa, müsəlman ölkələrində isə müharibənin dini yox, etnik xarakter daşıdığını əsaslandırmağa çalışır" [4].

Beynəlxalq miqyasda Ermənistanın Azərbaycana qarşı həyata keçirdiyi dezinformasiya fəaliyyətində erməni diasporunun təsis etdiyi "Rafael Lemkin adına Soyqırımın Önlənməsi İnstitutu" (Lemkin Genocide Prevention Institute) lobbiçi təşkilatı mühüm rol oynayır. Təşkilatın kampaniyası çərçivəsində qlobal erməni diasporu bütün istiqamətlərdə - siyasi, hüquqi, qanunverici/parlamentlər, transmilli media, jurnalistika və s. mütəşəkkil siyasi korrupsiya şəbəkəsi yaradıb, Azərbaycana qarşı səfərbər edib [1].

Bu kampaniya vasitəsilə erməni diasporu beynəlxalq ekspertləri korrupsiya ilə ələ alaraq, onları Azərbaycana qarşı istiqamətləndirməyə müvəffəq olub. Buna misal qismində Beynəlxalq Cinayət Məhkəməsinin (ICC) keçmiş

baş prokuroru Luis Moreno Okamponun 2023-cü ilin avqust ayının 7-də dərc edilmiş “2023-cü ildə ermənilərə qarşı soyqırım” başlıqlı ekspert rəyini qeyd etmək olar. Həmin materialda o, Laçın dəhlizinin blokadası mövzusu ətrafında qaldırılan dezinformasiya kampaniyasını “Dağlıq Qarabağda yaşayan ermənilərə qarşı “soyqırımı” kimi dəyərləndirib [12].

Beynəlxalq səviyyəli ekspertin 613 nəfərin öldürülməsi, 487 nəfərin şikəst olması, 1275 nəfər dinc sakinin - qocalar, uşaqlar və qadınların əsir götürülərək ağlasığmaz erməni zülmünə, təhqir və həqarətlərinə məruz qalması ilə nəticələnmiş Xocalı faciəsi kimi bəşəri cinayətə göz yumaraq, erməni separatizminin cinayətkar fəaliyyətinə görə bağlanmış Laçın dəhlizini soyqırımı kimi qələmə verməsi Azərbaycana qarşı beynəlxalq miqyasda aparılan məqsədyönlü kampaniyanın nəticəsidir.

Ermənistanın Azərbaycana qarşı davam etdirdiyi dezinformasiya kampaniyasının alətlərindən biri də "Qardman-Şirvan-Naxçıvan Ümumerməni Birliyi"nin fəaliyyətidir. Bu birlik 1988-1992-ci illərdə məcburi köçkünlərin pozulmuş hüquqlarının bərpası və müdafiəsi məqsədilə yaradılıb. Bu təşkilat guya “Azərbaycan hakimiyyətinin zorakılığına məruz qalan ermənilərin hüquqlarını qorumaq, tarixi Qardman, Şirvan və Naxçıvanda, eləcə də Azərbaycanın faktiki nəzarətində olan ərazilərdə erməni mədəni irsinin qorunub saxlanılması məsələlərini gündəmə gətirmək, beynəlxalq insan haqları təşkilatlarını və beynəlxalq məhkəmələri yuxarıda qeyd olunan problemi də öyrənməyə, ədalətli qiymət verməyə və müvafiq həll yolları təklif etməyə çağırmaq” yönündə fəaliyyət həyata keçirir. Təşkilatın armrefugees.am internet saytı da mövcuddur. İcma İkinci Qarabağ və birgünlük antiterror əməliyatlarından sonra daha da fəallaşıb. Məqsəd Azərbaycan ərazilərində erməni mədəniyyət abidələrinin qorunması və onlara qarşı mədəni soyqırımı dünyaya yaymaqla Ermənistan hakimiyyətinin düşünülmüş türkofobiya siyasətini beynəlxalq miqyasda davam etdirməkdir. Bu icma erməni mədəni irsinin məqsədyönlü şəkildə məhv edilməsində Azərbaycan hakimiyyətinə qarşı məqsədyönlü siyasət aparır, dünya ictimaiyyətini və beynəlxalq təşkilatları rəsmi Bakıya qarşı sərt mövqe tutmağa çağırır [17].

Bu icma Azərbaycan ərazisində erməni mədəni irsinin qorunması məsələsini dezinformasiya yolu ilə təbliğ etsə də, şübhəsiz, bu fəaliyyət siyasi xarakterə malik olub, separatçılığın dirçəldilməsinə xidmət edir. Belə ki, “Qardman-Şirvan-Naxçıvan” ümumerməni icmasının varlığının özü Azərbaycana qarşı Ermənistanın ərazi iddiasını davam etdirməsinin təzahürüdür. Bir tərəfdən Ermənistan regionda sabit sülhə nail olmaq üçün öz Konstitusiyasını Azərbaycana qarşı irəli sürülmüş ərazi iddiasının yer aldığı müddəalara görə dəyişdirmək fikrini bəyan edir, digər tərəfdən isə belə icmalar vasitəsilə Azərbaycanın daxili işinə qarışır və ona qarşı ərazi separatizmini dəstəkləyir. Beynəlxalq aləmdə isə ölkənin imicini zədələyir, ona qarşı təzyiqlərin artmasına rəvac verir.

Məsələ bununla bitmir. Bu yaxınlarda N.Paşinyanın tapşırığı ilə kartoqraf Ruben Qalçyanın “Azərbaycanın 2014-cü ildə milli atlasının tarixi xəritəsi və Qərbi Azərbaycan uydurma termininin araşdırılması” adlı yeni kitabı çap olunub. Sifarişlə hazırlanmış bu kitab sanki Azərbaycanın 2014-cü ildə dərc olunmuş Milli Atlasına cavabdır. Qeyd edilən kitabın müəllifi elmi faktları təhrif etmək yolu ilə Qərbi Azərbaycanın tarixi Azərbaycan torpağı olmasını inkar etməyə və bu istiqamətdə saxta, qeyri-elmi məlumatlar yaymağa çalışıb. Məqsəd həmin bölgənin tarixini Ermənistanla bağlamaq, qədim Azərbaycan toponimlərinin və

maddi-mədəniyyət abidələrinin adını dəyişdirmək, həmin ərazinin türk-oğuz məskənləri olması faktını inkar etməkdir [9].

Azərbaycan hökuməti Ermənistanın ölkəyə qarşı konfessional separatizm və tarixi faktları təhrif etmə siyasətinə laqeyd qalmır. Ölkədə fəaliyyət göstərən Qərbi Azərbaycan icması İrəvanın həqiqi tarixi haqqında kitablar dərc etdirir, dəyirmi masalar keçirir və Ermənistan hakimiyyətinin Azərbaycana qarşı pozucu-təxribat siyasətinə etiraz edir və bu barədə beynəlxalq qurumlara müraciətlər ünvanlayır.

Azərbaycana qarşı həyata keçirilən yumşaq təhdidlər arasında "koqnitiv müharibə" və hücumlar (cognitive hacking) da az əhəmiyyət kəsb etmir. İnformasiya müharibəsinin bir növü olan koqnitiv müharibə insanların şüurunu manipulyasiya etmək məqsədilə həyata keçirilir. Koqnitiv hücumlar texniki təsir vasitələrindəki zəif halqalardan psixoloji taktikalar üçün istifadə edir. Nümunə olaraq, fişinq kimi sosial mühəndislik hücumları, istifadəçilərin həssas məlumatlarını aşkara çıxarmaq üçün aldadılması, ictimai rəyə təsir etmək və ya destruktiv məzmunlu məlumatla pozmağa nail olmaq üçün dezinformasiyanın yayılması da bu qəbildəndir. Habelə, koqnitiv müharibənin digər nümunələri: seçki prosesinə inamı zəiflətmək üçün ictimai rəyin manipulyasiyası, konstitusiya əleyhinə çağırışlara səbəb olan iğtişaşlara, hətta xüsusi mülkiyyətin, dövlət əmlakının məhvinə və insan itkilərinə səbəb olan koqnitiv əməliyyatlar da baş verə bilər.

Azərbaycana qarşı koqnitiv hücumlar xarici KİV, kənardan maliyyələşdirilən QHT və cinayətkar şəbəkələr (proksi qüvvələr) tərəfindən həyata keçirilir. Son 30 ildə Azərbaycanda ölkə əhalisinin "beyinlərinin yuyulmasında" fəal rol oynamış bir sıra partiyalar, QHT-lər və KİV-lər xaricdən təlimatlandırılmış və maliyyələşdirilmişdir. Misal qismində Vətənə xəyanətdə təqsirləndirilməklə fəaliyyəti qadağan edilmiş, elmi ədəbiyyatda "5-ci kalon" adlandırılan qeydiyyatdan keçməmiş bəzi partiyaları, QHT-ləri, xeyriyyə fondlarını yaxın və uzaq ölkələrin xüsusi xidmət orqanlarının Azərbaycanda proksi şəbəkələrini qeyd etmək olar.

Xaricdən maliyyələşdirilən qurumların əsas məqsədi cəmiyyətin aparıcı sosial qrularından olan gənclərin şüuruna təsir göstərmək, onlarda Qərb həyat tərzinə və dəyərlərinə maraq oyatmaq, bu yolla "beyin axınına" zəmin yaratmaq və ölkənin intellektual təhlükəsizliyinə ciddi zərbə vurmaqdan ibarətdir.

Təhlillər belə deməyə əsas verir ki, müasir müharibələrin həm müdafiə, həm də hücum seqmentlərində iki potensial qarşıdurma sahəsi cəlbedici hesab edilir: kiberməkan və informasiya məkanı. İctimai müzakirələrdə bu anlayışlar kəsişsə də, onlar tamam fərqli anlayışlardır. İnformasiya qarşıdurması – narrativlər müharibəsidir, kimin narrativi ciddi və inandırıcı olsa, o da qalib gələcək. Kiberməkan isə daha çox texnoloji taktika - sistem, şəbəkə və məlumatlara aid edilir. Şübhəsiz, bu cür gələcək qarşıdurmaların məqsədi birbaşa məğlubiyyət deyil, "koqnitiv effekt" - dəyərlərin dezoriyentasiyası, ideoloji karkasın zədələnməsi, düşmənin müqavimət qüvvəsinin sarsıdılması hesab edilir [19, s.18].

Rəsmi statistikada da İkinci Qarabağ müharibəsindən sonra Azərbaycana qarşı həyata keçirilən kiberhücumların sayında artımın müşahidə olunması aidiyyəti qurumlar tərəfindən vurğulanıb. Həmin hücumların artımı yalnız hərbi məqsədlər üçün deyil, həm də çoxşaxəli: kriminal və kommersiya və s. məqsədləri üçün edildiyi məlumdur. Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti (XRİTDX) tərəfindən təqdim edilən statistik məlumatlara əsasən, 2021-ci

ildə kiberhücumların artım tempi 38% təşkil edib ki, əvvəlki il müvafiq göstərici 28% olub [3, s.13].

Xüsusən də, son vaxtlar ən çox rast gəlinən kiberhücumlar fişinq ilə başlayan xüsusi hədəfli APT, DDoS hücumları formasında özünü büruzə verir. Azərbaycanda belə kiberhücumlara qarşı mübarizə məqsədilə aparılan monitorinqlər və kiberkəşfiyyat platformalarından əldə olunan məlumatlar əsasında bir sıra bloklamalar həyata keçirilir. Misal qismində qeyd etmək olar ki, 2022-ci il ərzində hakerlər tərəfindən "gov.az" domeninə bənzədilmiş 48 domen adı aşkar edilmiş və respublika üzrə bloklanaraq kiberhücum cəhdlərinin planlama mərhələsində qarşısı alınmışdır.

Aparılan təhlillərdən məlum olur ki, il ərzində 1192 xüsusi kiberhücum indikatoru blok edilərək dövlət qurumlarına qarşı həyata keçirilmiş yüzlərlə kiberhücumun qarşısı alınmışdır. Bundan əlavə, il ərzində elektron poçtlar vasitəsilə dövlət qurumlarına məqsədyönlü şəkildə ünvanlanmış 2 milyondan çox zərərverici və fişinq tərkibli e-poçt bloklanaraq dövlət qurumlarına çatdırılmasının qarşısı alınıb [5].

Antivirus sistemi olan "Kasperski"-nin məlumatına görə, təkcə 2022-ci ildə Azərbaycanda fişinq saytlarına bir milyona yaxın keçid bloklanıb, bütün hücumların təxminən 60%-i ev istifadəçilərinə, 40%-i isə korporativ istifadəçilərə qarşı baş verib [8].

44 günlük Vətən müharibəsi nəticəsində yaranmış yeni geosiyasi reallığı regionda milli maraqlarına münasib hesab etməyən digər qonşu ölkələr də Azərbaycana qarşı öz kin-küdurətini açıq şəkildə büruzə verməyə başlayıb. Son 3 ildə İranın Azərbaycana qarşı həyata keçirdiyi yumşaq təhdidlərə aşağıdakılar aid edilə bilər: Qarabağ ermənilərinin hüquqlarının təmin edilməsi, Ermənistan ərazisinin rəsmi Tehranın "qırmızı xətt"i elan edilməsi fonunda Zəngəzur dəhlizinin açılmasına qarşı müxtəlif səviyyəli fəaliyyətlərin həyata keçirilməsi, Azərbaycanın daxilində casus şəbəkəsi ilə sabitliyi pozmaq, sosial şəbəkələr vasitəsilə əhaliyə hökumət əleyhinə çağırışlar etmək, yad ideologiyaları yaymaq və s.

İranın rəsmi dairələri, xüsusən də Ermənistandakı səfirləri müntəzəm olaraq Azərbaycanın daxili işlərinə müdaxilə məqsədi güdən bəyanatlar və müsahibələr verməklə mənsub olduğu ölkənin siyasətini ictimaiyyətə çatdırır. Bu istiqamətdə eks səfir Abbas Bədəxşan Zühuri və hazırkı Səfir Mehdi Sübhaninin qatı anti-Azərbaycan yönümlü bəyanatları diqqəti çəkir. Eks səfir Ermənistanın ərazi bütövlüyünü rəhbər tutaraq Zəngəzur dəhlizinin açılmasına qarşı fikirlər səsləndirib, tez-tez Ermənistanın Sünik (Zəngəzur) vilayətinə gedib, oradan Azərbaycan ordusunun postlarına baxıb. Elə İranın tələm-tələsik, heç binanın fasadı rənglənmədən Sünikdə konsulluq açaması elə bu niyyətdən qaynaqlanır. "Ermənistanın təhlükəsizliyi İranın təhlükəsizliyidir", "Güclü Ermənistan bizə lazımdır" fikirlərini səsləndirən eks səfir müsahibələrinin birində qeyd edib: "Biz kommunikasiya yolları ətrafında dəhlizlərin (Zəngəzur dəhlizi) açılmasına dair səsləndirilən fikirləri qəbul etmirik və düşünürük ki, Ermənistan ərazi bütövlüyünü qorumalıdır" [14].

İranın Ermənistandakı hazırkı səfiri Mehdi Söbhaninin "Azadlıq" radiosunun erməni xidmətinə verdiyi müsahibəsində "Qarabağın erməni sakinlərinin hüquqlarına hörmət edilməlidir. Bu məsələ yara kimidir və bu yaranın sağalmasına ehtiyac var. Müalicə edilməzsə, yenidən açılması mümkündür. Sabit sülhdən danışanda bu yara nəzərə alınmalıdır" [15] fikri ifrat anti-Azərbaycan xarakteri daşımaqla yanaşı, bir çox mətləblərdən xəbər verir. Birincisi, bu müsahibə

Azərbaycanın daxili işinə müdaxilə və Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşmasına zərbə kimi qiymətləndirilir. İkincisi, bu müsahibənin Azərbaycanın Tehranda səfirliyini bərpa etdiyi və etnik azərbaycanlı M.Pezeşkianın İranda prezident seçilməsindən sonra verilməsi təsadüfi sayıla bilməz. Yeni seçilmiş prezident İranla Azərbaycan arasında dostluq münasibətlərinin daha da inkişaf edəcəyini bildirib. Bu müsahibə həmin xəttə qarşı çıxmaqdır. Həm də qeyd edilən müsahibə İranda etnik azərbaycanlının prezident seçilməsindən sonra bərk təşvişə düşən Ermənistan hakimiyyətinin könlünün alınmasına hesablanıb. Digər tərəfdən, bu müsahibə həm də Ermənistan auditoriyasına çatdırır ki, İranda kimin prezident seçilməsindən asılı olmayaraq Ermənistana münasibət dəyişməz qalacaq. Belə ki, İranda əsas fiqur Ali dini rəhbərdir. Ölkənin xarici, hərbi və kəşfiyyat siyasətini bilavasitə o müəyyən edir və nəzarəti həyata keçirir. Üçüncüsü, səfirin çıxışı həm də Azərbaycana qarşı xəbərdarlıq xarakteri ilə diqqəti cəlb edir. O, möhkəm sülhü Qarabağ ermənilərinin hüquqları ilə əlaqələndirərək, əks təqdirdə, erməni separatizminin yenidən baş qaldıra biləcəyinə işarə edir. Dördüncüsü, bu müsahibənin İranla ideoloji düşmən olan Qərbin maliyyəsi ilə fəaliyyət göstərən "Azadlıq" radiosunun erməni bürosuna verilməsi bu məsələnin yenidən beynəlxalq miqyasda qızışdırılması və İranın bu məsələdə ermənipərəst qüvvələrlə bir cəbhədə olduğuna işarədir.

İranın yumşaq güc strategiyasında Azərbaycan istiqaməti həmişə aktual olub. Bunu Azərbaycanın Türkiyə, Qərb və İsraillə sıx əməkdaşlığı ilə əlaqələndirmək olar. Xüsusən də İkinci Qarabağ müharibəsindən sonra İranın bu istiqamətdə fəallığı gözdən yayınmır. İran ağır və yumşaq gücün bütün komponentləri daxil olmaqla Azərbaycana qarşı ciddi və məqsədyönlü hibrid müharibə aparır. Bu müharibədə əsasən yumşaq təsirlərə daha çox üstünlük verilir. Buna misal olaraq qeyd etmək olar ki, 2022-ci ildə Azərbaycanın kiberməkanına edilmiş 25 hücumdan 24-ü İranın payına düşür [3, s.13].

İranın müasir kiberstrategiyasında proksi qruplar iki aparıcı vektordan birini təşkil edir. Bu proksi qruplar İran üçün bir çox məqsədə xidmət edir. Düşmənlərin hərəkətləri ilə bağlı kəşfiyyat məlumatları verir, lazım bildikdə onların maraqlarına mane olur, qonşu dövlətlərin siyasi oriyentasiyasına təsir göstərir. İran bu qrupları regional siyasətdə nüfuzlu oyunçulara çevirməklə, qonşularının ya onun strateji maraqlarını dəstəkləmələrini, ya da ən azı bu maraqlara birbaşa zidd olan siyasətlərdən çəkinmələrini təmin edir [7]. Qeyd etmək lazımdır ki, İran proksi qüvvə seçimində daha çox radikal şiələrə üstünlük verir. Müxtəlif illərdə İran xüsusi xidmət orqanları Azərbaycanda radikal şiələrin əli ilə Nardaran (2015) və Gəncədə (2018) vətəndaş itaətsizliyi etsə də, onun qarşısı alınıb.

Son bir neçə il ərzində regionda hibrid müharibələr çərçivəsində hərbi, maliyyə və kooperativ sektorlara hücumların artması ölkələri öz kibertəhlükəsizlik mühitinin qorunması sahəsində daha sərt tədbirlər görməyə vadar edir. Azərbaycanda yumşaq təhdidlərə - informasiya və kiberhücumlara qarşı mübarizə sahəsində müəyyən tədbirlər görülüb və görülməkdədir. Ölkənin rəqəmsal mühitinin müdafiəsinin təşkili tədbirləri sırasında Azərbaycan Respublikası Prezidentinin Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi yanında Elektron Təhlükəsizlik Mərkəzinin yaradılması haqqında 26 sentyabr 2012-ci il tarixli və "İnformasiya təhlükəsizliyi sahəsində fəaliyyətin təkmilləşdirilməsi tədbirləri haqqında" 5 mart 2013-cü il tarixli fərmanlarını qeyd etmək olar.

"İnformasiya təhlükəsizliyi sahəsin-

də fəaliyyətin təkmilləşdirilməsi tədbirləri haqqında" Prezident Fərmanı ilə ölkə başçısı Azərbaycanda informasiya infrastrukturunun mühafizəsi, kibertəhlükəsizlik sahəsində mövcud olan risklərin qiymətləndirilməsi və idarə olunması, bu istiqamətdə hazırlığın və maarifləndirmənin təmin edilməsi məqsədilə Azərbaycan Respublikası Xüsusi Dövlət Mühafizə Xidmətinin bazasında Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Agentliyi təsis edilmiş və əsas fəaliyyət prinsipləri müəyyən edilmişdir. "Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi yanında Elektron Təhlükəsizlik Mərkəzinin yaradılması haqqında" Fərmanda isə kiberinformasiya sahəsində fəaliyyət göstərən aktorların rolunun koordinasiyasını, mövcud və yarana biləcək elektron təhlükələr barədə ölkə səviyyəsində məlumatlandırmanı, əhalinin, özəl və digər qurumların kibertəhlükəsizlik sahəsində maarifləndirilməsini və onlara metodiki kömək göstərilməsini təmin edən əlaqələndirici mərkəzin yaradılması təmin edilmişdir.

Hər iki quruma Azərbaycanda kibertəhlükəsizlik sahəsində informasiya infrastrukturu subyektlərinin fəaliyyətinin koordinasiyasının təmin edilməsi; informasiya infrastrukturunun təhlükəsizliyini təhdid edən kiberhücumların, qanunsuz müdaxilələrin, ziyanverici proqramların toplanılması, təhlil edilməsi və zərərsizləşdirilməsi; mövcud və yarana biləcək elektron təhlükələr barədə ölkə səviyyəsində məlumatlandırmanın həyata keçirilməsi, kibertəhlükəsizlik sahəsində istifadəçilərin maarifləndirilməsi; elektron təhlükələrin qarşısının alınması istiqamətində, o cümlədən istifadəçilərə qarşı istifadə oluna biləcək proqramlar, texniki vasitələr barədə təlimatların hazırlanmasını, onlara tövsiyələrin verilməsi, metodiki dəstəyin göstərilməsi; ümumi internet trafikində qlobal kiberhücumların qarşısını almaq məqsədilə milli internet operatoru ilə birlikdə qabaqlayıcı tədbirlərin həyata keçirilməsi; kibertəhlükəsizlik üzrə hazırlığı təmin etmək məqsədilə ölkədə fəaliyyət göstərən digər aidiyyəti qurumlarla qarşılıqlı əlaqənin təmin edilməsi həvalə edilib [11].

Son illər Azərbaycanda Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti (XDMX) və digər ixtisaslaşmış strukturlar ən mühüm dövlət və ictimai təşkilatların, müdafiə və sənaye sistemlərinin server və veb-resurslarının mühafizəsi istiqamətində ardıcıl iş aparıb. Görülmüş işlərin müsbət nəticəsi Beynəlxalq Telekommunikasiya İttifaqının 2020-ci ildə hazırladığı kibertəhlükəsizlik indeksində də öz əksini tapıb. Həmin indeksdə Azərbaycan 169 ölkə arasında 15 pillə irəliləyərək 40-cı yeri, İsrail 36-cı, İsveçrə 42-ci, Gürcüstan isə 55-ci yeri tutub [8].

Ölkənin rəqəmsal mühitini kiberrisklərdən daha effektli şəkildə mühafizə etmək, bu istiqamətdə zəruri fəaliyyətləri optimallaşdırmaq fonunda Ermənistan və onun havadarlarının hibrid hücumlarına və informasiya müharibələrinə qarşı daha təsirli mübarizə aparmaq məqsədilə 2023-cü il avqustun 28-də "Azərbaycan Respublikasının informasiya təhlükəsizliyi və kibertəhlükəsizliyə dair 2023 – 2027-ci illər üçün Strategiyası" qəbul edilb [2]. Həmin sənəddə qlobal trendlər, mövcud vəziyyətin təhlili, hədəf göstəricilər, məqsəd və prioritet istiqamətlər geniş şəkildə nəzərdən keçirilib. Bu sənədin əsas məqsədi ölkənin informasiya məkanının hibrid hücum və aksiyalara qarşı təsirli mübarizənin təkmilləşdirilməsindən ibarətdir.

"Azərbaycan Respublikasının informasiya təhlükəsizliyi və kibertəhlükəsizliyə dair 2023 – 2027-ci illər üçün Strategiyası"nda aşağıdakı prioritetlər qeyd edilib [2]: müəyyən edilmiş təhdid və risklərin idarə edilməsi; belə təhdid və risklərə qarşı tədbirlərinin və mühafizə

texnologiyalarının gücləndirilməsi; informasiya məkanının mühafizəolunma səviyyəsinin yüksəldilməsi; kritik informasiya infrastrukturlarının təhlükəsizliyinin təmin edilməsi; kibercinayətkarlığa qarşı mübarizə, o cümlədən kiberkriminalistika sahəsində fəaliyyətin gücləndirilməsi; informasiya təhlükəsizliyi və kibertəhlükəsizlik sahəsində potensialın gücləndirilməsi, institusional bazanın inkişaf etdirilməsi; informasiya təhlükəsizliyi və kibertəhlükəsizliyə dair normativ-hüquqi bazanın təkmilləşdirilməsi; informasiya təhlükəsizliyi və kibertəhlükəsizlik mədəniyyətinin yüksəldilməsi; informasiya təhlükəsizliyi və kibertəhlükəsizliklə bağlı ölkədaxili və beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsi.

Bu strategiya Azərbaycanda kibertəhlükəsizlk sahəsində fəaliyyətlərin qüvvə və vasitələrini, məqsəd və vəzifələrini müəyyən etməklə yanaşı, bir sıra tədbirlərin həyata keçirilməsini vacib hesab edir. Həmin tədbirlər həm də ehtiyaclar kimi müəyyən edilir:

1. Dövlətin informasiya ehtiyatı və sistemlərində informasiya təhlükəsizliyi sahəsində mövcud boşluqların aşkara çıxarılması və dövlət qurumlarına qarşı həyata keçirilmiş kiberhücumların təhlillərinin aparılması;

2. Yeni nəsil mühafizə avadanlıqları vasitəsilə dövlət qurumlarının informasiya şəbəkələrinə olan milyonlarla zərərli keçidlərin, kiberhücumların və zərərli tərkibli elektron poçt göndərişlərinin qarşısının alınması (Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti tərəfindən "AzStateNet" şəbəkəsində daim qabaqlayıcı tədbirlərin görülməsi);

3. Dövlət səviyyəsində kibertəhlükəsizlik sahəsi üzrə milli kadr hazırlığına xüsusi diqqət yetirilməsi və bu istiqamətdə kadr hazırlayan ali təhsil ocaqları ilə sıx əməkdaşlığın təmin edilməsi;

4. Dövlət qulluqçularının hazırlıq səviyyəsinin gücləndirilməsi və dövlət qurumları üçün "Kibergigiyena" layihəsinin və "İnformasiya Təhlükəsizliyi Təqvimi"-nin həyata keçirilməsi.

NƏTİCƏ

• İkinci Qarabağ müharibəsindən sonra regionda yaranmış yeni geosiyasi reallıq bəzi dövlətlərin maraqlarına cavab vermir. Onlar çıxış yolu kimi Azərbaycanın regionda təsir imkanlarının artmasının qarşısını almaqda görürlər.

• İran regionda Ermənistanı yenidən gücləndirməklə Azərbaycanla onun arasında 44 günlük müharibədə pozulmuş balansı bərpa etməyə çalışır.

• 44 günlük savaşda məğlub olan Ermənistan Azərbaycana qarşı qərəzli siyasətini yumşaq güc sahəsində tanınmış ermənipərəst konqresmenlərin, alimlərin, təşkilat və qrumların əli ilə aparmağa qərar verib.

• İran son üç il ərzində Azərbaycana qarşı hərbi ritorikadan istifadə etsə də, yumşaq təhdidlərdən yararlanmağa daha çox üstünlük verir. O, bu istiqamətdə Azərbaycana qarşı mass-mediada, diplomatik səviyyədə mübarizəni davam etdirir, narkoterror və proksi şəbəkələr yolu ilə ölkənin genefonduna və milli təhlükəsizliyinə təsir etməyə çalışır.

• Azərbaycan son 3 ildə İran, Rusiya və Ermənistanın kiberhücumlarının obyektinə çevirilib. Bunun qarşısını almaq məqsədilə Azərbaycanda informasiya və kibertəhlükəsizliyə dair zəruri fəaliyyət həyata keçirilir.

• Azərbaycanda İkinci Qarabağ müharibəsindən sonra informasiya və kiberməkanın təhlükəsizliyinin təmin edilməsi kritik istiqamətlərdən birinə çevrilib. Bunu nəzərə alan Azərbaycan hökuməti qeyd edilən sahələrdə kadr hazırlığı daxil olmaqla institusional və funksional istiqamətlərdə təxirəsalınmaz addımlar atmaqdadır.

İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT

Azərbaycan dilində:

1. Allahyarova T. Rafael Lemkin və Azərbaycan qarşı soyqırım kompaniyası [Elektron resurs] / Musavat.com – Bakı, 29.11.2023. URL: https://musavat.com/news/demesqe-qarsi-gizli-ittifaq-abs-israil-ve-qebileler-suriyani-bolur_1185008.html
2. Azərbaycan Respublikasının informasiya təhlükəsizliyi və kibertəhlükəsizliyə dair 2023 – 2027-ci illər üçün Strategiyası" // – Bakı: Qanun, -2023
3. Azərbaycanda kibercinayət və kibertəhlükəsizlik barometri. Ölkə üzrə kibercinayətlərə və kibertəhlükəsizliyə ictimai rəydə münasibətin kəmiyyət və keyfiyyət əsaslı təhlili (oktyabr 2021 – yanvar 2022). İctimai rəy sorğusu əsasında təqdim edilən analitik hesabat. Bakı, 2022, 120 s.
4. Erməni informasiya müharibəsinin texnika və üsulları: [Elektron resurs] / Axar.az / Bakı, 12.16.2022/ URL: https://axar.az/news/planet/699450.html
5. İlqar Musayev: "Azərbaycana kiberhücumların təşkili istiqamətləri bir çox hallarda qonşularımızı işarə edir": [Elektron resurs] / Report az. – Bakı, 23 Fevral, 2023. URL: https://report.az/ikt/ilqar-musayev-azerbaycana-kiberhucum-larin-teskili-istiqametleri-bir-cox-hallarda-qonsularimizi-isare-edir/
6. "İnformasiya təhlükəsizliyi sahəsində fəaliyyətin təkmilləşdirilməsi tədbirləri haqqında" Azərbaycan Respublikasi Prezidentinin Fərmanı // – Bakı: Qanun, 26 sentyabr 2012-ci il
7. "İran xüsusi xidmət orqanları Azərbaycana qarşı fəaliyyətində narkotik qaçaqmalçılığından istifadə edir" – MÜSAHİBƏ: [Elektron resurs] / Moderator az. – Bakı, 07.04.2023. URL: https://moderator.az/az/read/621767/
8. İran yenidən Ermənistanın müdafiəsinə qalxdı: [Elektron resurs] / Bizim media. – Bakı, 01.05.2022. URL: https://bizim.media/az/region/72340/https://bizim.media/az/region/72340/
9. Paşinyanın sifarişi ilə Azərbaycan əleyhinə kitab hazırlandı - Qərbi Azərbaycan Xronikası: [Elektron resurs] / "Report" İnformasiya Agentliyi.– Bakı, 19 iyul 2024. URL: https://report.az/daxili-siyaset/pasinyanin-sifarisi-ile-azerbaycan-eleyhine-kitab-hazirlandi-qerbi-azerbaycan-xronikasi/
10. Rüstəmov A. Postmüharibə dövründə informasiya savaşı: [Elektron resurs] / 525-ci qəzet. – Bakı, 08.04.2021. URL: https://525.az/news/165686

İngilis dilində:

11. Akhundov, Khazar. Azerbaijan beefing up defence strategy against cybercrime: [Electronic resours] / Caliber.az. – Baku, 30 August 2023. URL: https://caliber.az/en/post/187473/
12. Expert Opinion Genocide against Armenians in 2023 Luis Moreno Ocampo New York, August 7, 2023. URL: https://luismorenoocampo.com/wp-content/uploads/2023/08/Armenia-Report-Expert-Opinion.pdf
13. Global Strategy for the European Union's Foreign and Security Policy: Shared Vision, Common Action: A Stronger Europe. June 2016 – URL: https://ec.europa.eu/europeaid/sites/devco/files/a_global_strategy_for_the_european_ unions_foreign_and_security_policy-_june_2016.pdf
14. Iranian envoy catering to Armenian revanchism amidst Baku-Tehran thaw. Will Tehran rein the provocateur diplomat? [Electronic resours] / Caliber.az. – Baku, 16 July 2024. URL: https://caliber.az/en/post/254533/
15. Khorrami, Nima. Navigating Cybersecurity and Surveillance: Iran's Dual Strategy

for National Security: [Electronic resours] / March 29, 2024. Fikra forum/ https://www.washingtoninstitute.org/policy-analysis/navigating-cybersecurity-and-surveillance-irans-dual-strategy-national-security

16. When sensitivity means strength: Distinguishing between soft and hard threats as part of the personality. // New Ideas in Psychology. Volume 74, August 2024,p.21)

Rus dilində:

17. “Гардман-Ширван-Нахиджеван” выступил с заявлением относительно азербайджанской истерии относительно “исламофобии”: [Электронный ресурс] / Armenpress. – Ереван,11 март 2024. URL: https://armenpress.am/ru/article/11321798

18. Почепцов, Г.Г. Пять новых направлений трансформации информационной войны: реализованные подходы: [Электронный ресурс] / Москва: – URL: https://psyfactor.org/psyops/infowar47.htm

19. Суцков, М. Тэк, С. Будущее войны. Доклад Международного дискуссионного клуба “Валдай”. Фонд развития и поддержки Международного дискуссионного клуба “Валдай”, Москва 2019

Mahammad Akbarov

SOFT THREATS TO AZERBAIJAN'S NATIONAL SECURITY ARISING FROM CONTEMPORARY GEOPOLITICAL CHALLENGES IN SOUTH CAUCASUS AND RESPONSE MECHANISMS

Abstract

In the era of globalization, alongside conventional military threats, non-kinetic or “soft” threats have gained particular prominence in national security discourse. This form of confrontation—often subtle, indirect, and low-cost—has become increasingly prevalent. Although hard power remains relevant on the battlefield, the growing impact of soft power instruments—ranging from information manipulation to psychological operations—has reshaped the nature of conflict. These tools can be as decisive as traditional means of violence in undermining sovereignty and influencing the outcomes of modern wars. Soft threats enable hostile actors to provoke and destabilize target states without overt aggression or international backlash, often by infiltrating societal structures and eroding internal cohesion. Since the Second Karabakh War, Azerbaijan’s rising regional and global influence has made it a focal point for such threats. In response, the Azerbaijani government has intensified its efforts—both practical and institutional—to counter hybrid strategies including disinformation campaigns, cognitive warfare, narco-terrorism, and other soft threat mechanisms. Despite the urgency and relevance of this topic, the study of soft threats in Azerbaijan remains underdeveloped, with systematic research only beginning to emerge. This article seeks to identify the primary soft threats facing Azerbaijan in the post-war period and to propose strategic approaches to neutralize them. The research draws on general cognitive-logical methods such as synthesis, analysis, induction, and deduction to explore the evolving landscape of non-traditional security risks.

Keywords: Second Karabakh War, soft threats, hybrid warfare, fake war, cognitive attacks, cybersecurity, narco-terrorism

İQTİSADİ TƏDQİQATLAR

ECONOMIC RESEARCH

MÜƏSSİSƏNİN İNNOVASİYA VƏ İNVESTİSİYA FƏALİYYƏTİNİN YAXŞILAŞDIRILMASI İSTİQAMƏTLƏRİ

Rafiq RZAYEV,
AR ETN İqtisadiyyat İnstitutunun "İnnovativ iqtisadiyyat və rəqəmsal transformasiya" şöbəsinin böyük elmi işçisi
(Bakı, Azərbaycan)

E-mail: rafiqrzayev74@mail.ru
ORCID ID: 0009-0001-1483-6963

Xülasə. Müasir dövrdə müəssisələrin rəqabətqabiliyyətliliyinin və davamlı inkişafının təmin olunmasında innovasiya və investisiya fəaliyyətinin rolu xüsusi əhəmiyyət kəsb edir. Bu məqalədə innovasiya və investisiya anlayışları təhlil olunur, müəssisələrin bu sahələrdə qarşılaşdığı problemlər araşdırılır və onların həlli yolları, habelə fəaliyyətin yaxşılaşdırılması istiqamətləri göstərilir. Elmi əsaslara söykənən təkliflər, həmçinin beynəlxalq təcrübəyə istinadlar verilir. Vurğulanır ki, müəssisələrin innovasiya və investisiya fəaliyyətinin yaxşılaşdırılması kompleks və çoxşaxəli tədbirlərin həyata keçirilməsini tələb edir. Dövlətin aktiv rolu, əlverişli hüquqi-institusional baza, güclü insan kapitalı və texnologiya yönümlü maliyyə mexanizmlərinin bu fəaliyyətin inkişafında əsas komponentlər olduğu bildirilir. Həmçinin məqalədə Azərbaycanda innovasiya və investisiya fəaliyyətinin cari vəziyyəti təhlil edilir, mövcud problemlərin aşkara çıxarılması və bu sahədə vəziyyətin daha da yaxşılaşdırılması istiqamətində təkliflər irəli sürülür.

Açar sözlər: innovasiya, investisiya, müəssisə, iqtisadi inkişaf, maliyyə, texnologiya, strategiya, amillər, daxili mühit, xarici mühit

Giriş

Müasir iqtisadi şəraitdə müəssisələrin rəqabət qabiliyyətini və davamlı inkişafını təmin edən əsas amillərdən biri onların innovasiya və investisiya fəaliyyətidir. Bu iki istiqamət bir-birini tamamlayır və uzunmüddətli strateji uğurun açarı hesab olunur. Müəssisənin innovasiya və investisiya fəaliyyəti kommersiya təşkilatının fəaliyyət növlərinin genişləndirilməsinə, istehsal prosesinin texniki-iqtisadi parametrlərinin yaxşılaşdırılmasına, ilk növbədə maddi və qeyri-maddi aktivlərə kapital qoyuluşları vasitəsilə innovasiyaların və texnologiyaların (təşkilatın innovasiya potensialının) tətbiqi yolu ilə rəqabət üstünlüklərinin yaradılmasına yönəldilmiş inkişaf strategiyasının tərkib hissəsidir. Bununla əlaqədar olaraq müəssisənin innovasiya və investisiya fəaliyyətinin idarə edilməsi biznesin gələcək inkişafının istiqamətlərini, mərhələlərini və rəqabət üstünlüklərini gücləndirdiyi üçün istənilən kommersiya təşkilatının idarə edilməsində vacib bir sahə kimi nəzərdən keçirilməlidir. Eyni zamanda, bu idarəetmə növü özünəməxsus xüsusiyyətlərə malikdir və hər bir müəssisə onu öz fəaliyyətində səmərəli şəkildə tətbiq edə bilmir. Digər tərəfdən, dövlət sahibkarlıq subyektləri arasında innovasiya və investisiya fəaliyyətinin aktivləşdirilməsində maraqlıdır, çünki innovasiyaların və yeni texnologiyaların tətbiqi milli iqtisadiyyatın rəqabət qabiliyyətini yüksəldir, bu da, öz növbəsində, tədqiqat mövzusunun aktuallığını artırır. Bu mövzu iqtisadi fikrin bir sıra aktual sahələrini əhatə edir ki, bunlar arasında innovasiyaların idarə edilməsi, investisiya fəaliyyəti, dövlət innovasiyası və investisiya siyasəti məsələləri xüsusi olaraq diqqətəlayiqdir.

1. Müəssisənin innovasiya və investisiya siyasəti

Müəssisənin innovasiya və investisiya siyasəti kommersiya təşkilatının fəaliyyət növlərinin genişləndirilməsinə, istehsal prosesinin texniki-iqtisadi parametrlərinin təkmilləşdirilməsinə, ilk növbədə innovasiyaların və texnologiyaların tətbiqi yolu ilə rəqabət üstünlüklərinin yaradılmasına yönəldilmiş inkişaf strategiyasının tərkib hissəsidir.

XXI əsrdə sahibkarlıq subyektlərinin innovasiya və investisiya fəaliyyətinin rolu əhəmiyyətli dərəcədə artmış və bu fəaliyyətin inkişaf tempi hazırda milli iqtisadiyyatın inkişaf səviyyəsinin mühüm barometrinə çevrilməkdədir. Eyni zamanda, nəzəriyyə və təcrübə innovasiya-investisiya fəaliyyətinin həyata keçirilməsi üçün yüksək risklər və resurs formalaşması problemlərini göstərir ki, bu da fəaliyyətin stimullaşdırılması mexanizmlərinin təkmilləşdirilməsi məsələlərini aktuallaşdırır. [7]

Hazırda cəmiyyətin bir sıra sosial, iqtisadi və ekoloji problemlərini ancaq elmi-texniki nailiyyətlərin (innovasiyaların) tətbiqi yolu ilə həll etmək olar. Buna görə də innovasiya və investisiya fəaliyyətinin inkişafı həm sahibkarlıq subyektlərinin, həm də dövlətin maraqlarına təsir göstərir, çünki bu, daxili iqtisadiyyatın rəqabət potensialının artmasına kömək edir. [6]

Müasir şəraitdə innovasiya-investisiya fəaliyyətinin inkişafının stimullaşdırılması bu fəaliyyətin spesifik tərəflərini, habelə innovasiya və investisiyanın xüsusiyyətlərini aşkar edən müəyyən olunmuş elmi müddəalar nəzərə alınmaqla həyata keçirilməlidir. İnnovasiya kimi iqtisadi hadisənin izahına müxtəlif yanaşmaların olmasına baxmayaraq, bu hadisənin ümumi xüsusiyyətlərini, yəni müəssisənin istehsal-təsərrüfat fəaliyyətində innovasiyaya istiqamətlənməni, yeni və ya təkmilləşdirilmiş məhsulun (xidmətin) yaradılmasını, habelə innovasiya fəaliyyətinin həyata keçirilməsi üçün maddi və maliyyə xərclərinin həyata keçirilməsinə ehtiyacın

olduğunu müəyyən etmək mümkündür. Şirkətin maliyyə imkanlarının (investisiya potensialının) innovasiya fəaliyyətinin nəticələri ilə nisbəti müasir şəraitdə müəssisənin innovasiya və investisiya siyasətinin xarakterini və təzahür formalarını müəyyən edir. [3]

Müasir müəssisənin innovasiya-investisiya siyasətini iki əsas hissəyə (investisiya və innovasiya siyasəti) bölmək olar ki, onların da hər biri özünəməxsus xüsusiyyətlərə malikdir. Beləliklə, xüsusən də kommersiya müəssisəsinin müasir investisiya siyasəti şirkətin inkişafının maliyyə strategiyasının tərkib hissəsi hesab olunur və izafi dəyərin artımını təmin etmək, şirkətin inkişafında müsbət göstəricilərə nail olmaq və nəticədə onun bazar dəyərini artırmaq üçün kapital qoyuluşunun ən effektiv formalarının idarəetmə seçimi imkanı ilə fərqlənir. Müəssisənin innovasiya və investisiya fəaliyyətinin həyata keçirilməsinin bariz nəticələrindən biri də yeni məhsulun yaradılması və bazara çıxarılmasıdır. Bazara daxil olduqdan sonra bir çox yeni məhsul tələbsiz qalır, buna görə də hər bir yeni məhsul əvvəlcədən proqnozlaşdırıla və ya uğursuzluqdan sığortalana bilməyən kommersiya riskini daşıyır. Bu baxımdan müasir şəraitdə innovasiya-investisiya fəaliyyətinə yanaşmalardan hərtərəfli istifadə özəl firmalara biznesin davamlı inkişafı üçün öz strateji məqsədlərini sistemli şəkildə qurmağa və həyata keçirməyə imkan verir.

2. Müəssisənin innovasiya və investisiya strategiyasının qurulmasına təsir edən amillərin təhlili

Hər bir konkret mərhələni həyata keçirərkən vacib olan həm xarici, həm də daxili mühitin amillərini diqqətə alaraq müəssisənin innovasiya və investisiya fəaliyyətinin idarə edilməsi modelini nəzərdən keçirək. İnnovasiya və investisiya strategiyasının inkişafının əsasını təşkil edən faktorları təhlil edərkən müəssisənin innovasiya-investisiya fəaliyyətinin həyata keçirilməsinə təsir edən amilləri xüsusi qeyd etmək lazımdır. Həm daxili mühitin, həm də birbaşa və bilavasitə təsir göstərən xarici mühitin ümumi amillərini, habelə innovasiya və investisiya fəaliyyətinin həyata keçirilməsinin sonrakı rəsmi təqdimatı üçün onların qiymətləndirilməsinin mümkün üsullarını təhlil edək.

Daxili mühit

Daxili mühitin amillərini iki alt qrupa bölmək olar: xarici mühitlə münasibətlərin və qarşılıqlı əlaqənin daxili sistemini formalaşdıran amillər və müəssisənin daxili resurslarını səciyyələndirən amillər. [4]

Müəssisənin həyat tsikli mərhələsi ayrıca bir amil kimi nəzərdən keçirilməlidir. Müəssisənin investisiya strategiyasını hazırlamaq üçün pul vəsaitlərinin dövriyyəsinin proqnozlaşdırılması tələb olunur və gözlənilən bu dövriyyə həcmi müəssisənin həyat tsiklinin mərhələsindən asılı olaraq dəyişəcəkdir. Həyat tsiklinin bir mərhələsindən digərinə keçid riskin dərəcəsində, miqyasında, habelə risklərin strukturunda dəyişikliklərlə müşayiət olunur. Məsələn, dövrün ilkin mərhələlərinə investisiya qoyuluşu yüksək dərəcədə bazar riski və eyni zamanda daha böyük pul vəsaitləri axını əldə etmək ehtimalı ilə əlaqələndirilir. Beləliklə, investor üçün müəssisənin həyat tsiklinin təhlilində iki aspekt maraq doğurur: müəssisənin hazırda yerləşdiyi dövr mərhələsi, habelə investisiyanın geri qaytarılması zamanı növbəti mərhələyə keçmə ehtimalı. Qiymətləndirmə üsullarından biri müəssisənin həyat tsiklinin mərhələsinə uyğun olaraq obyektin investisiya cəlbediciliyinin reytinq qiymətləndirilməsinin hesablanması ola bilər. Mövzu ilə bağlı irəli sürülən

bəzi fikirləri nəzərdən keçirək:

1. İnnovasiya və investisiya fəaliyyətinin həyata keçirilməsində kadrlar xüsusi əhəmiyyət kəsb edir. Belə ki, bu, yerinə yetirilən işin yaradıcı xarakteri, eləcə də müvafiq olaraq sərişdə və bacarığa artan tələblərlə bağlıdır.

2. Müəssisənin maliyyə vəziyyəti həmin müəssisənin rəqabət qabiliyyətinin artırılmasına birbaşa təsir göstərir. Müəssisədə innovasiya və investisiya layihələrinin həyata keçirilməsi üçün kifayət qədər maliyyə resurslarının olması bazarda sabit mövqe əldə etmək, eləcə də onun payını genişləndirmək ehtimalını artırır. Maliyyə vəziyyətinin qiymətləndirilməsi müəssisənin maliyyə sabitliyinin, habelə ödəmə qabiliyyətinin və likvidlik göstəricilərinin təhlili deməkdir.

3. Müəssisədə həm qısa, həm də uzunmüddətli perspektivdə investisiya qoyma imkanını əvvəlcədən müəyyən edən müvəqqəti sərbəst pul vəsaitlərinin olması vacibdir.

4. Müəssisənin maddi resurslarla, habelə istehsal potensialı ilə, avadanlıqla təminatı, eləcə də onun mənəvi və fiziki köhnəlmə dərəcəsi önəmlidir. Yəni daxili imkanların seçilmiş inkişaf yoluna və investisiya obyektinə uyğunluğunu təhlil etmək lazımdır.

Birbaşa təsir edən xarici mühit

1. İstehlakçılar. İstehlakçılara tanış olmayan innovativ məhsulların bazara çıxarılması problemləri, ilk növbədə, alıcıların reaksiyalarının gözlənilməzliyi riski ilə bağlıdır. Bu, xüsusilə məhsulun həyat tsikli qısa olan yüksək texnologiyalı sənaye müəssisələri üçün səciyyəvidir.

2. Maddi resursların tədarükçüləri. İnnovasiya və investisiya fəaliyyətini xarakterizə edən risklərin mühüm qruplarından biri innovasiya fəaliyyətinin həyata keçirilməsi üçün zəruri olan resursların tədarükü ilə bağlı risklərdir. Bu, innovasiya fəaliyyətinin texniki xüsusiyyətləri ilə əlaqəlidir. Bəzi hallarda onların həyata keçirilməsi üçün xüsusi avadanlıq, yüksək keyfiyyətli komponentlər və ya materiallar tələb olunur.

3. İnnovasiya fəaliyyətində investisiyanın rolundan irəli gələn maliyyə resurslarının tədarükçüləri, yəni mümkün investisiya mənbələri. Burada mümkün investisiya mənbələrinin strukturunu, eləcə də maliyyələşdirmə mexanizmlərini təhlil etmək lazımdır.

4. Rəqiblər. Rəqiblərin bazardakı mövqeləri innovasiya fəaliyyətinə ayrılan investisiya həcmindən, eləcə də seçilmiş rəqabət strategiyasıNIN növündən, həmçinin rəqib müəssisənin elmi-texniki potensialından asılı olacaq. Bundan əlavə, rəqibləri aşağıdakı göstəricilər baxımından səciyyələndirmək olar:

– müəssisənin ölçüsü (rəqibin bazar iştirakçısı kimi əhəmiyyətinin bilavasitə göstəricisi və müvafiq olaraq onun investisiya imkanları kimi);

- rəqibin innovativ fəaliyyətinin inkişafının göstəricisi kimi məhsulların və tətbiq olunan texnologiyaların yenilənmə dərəcəsi;

– rəqiblərə nisbətən gəlirlilik səviyyəsi (idarəetmə səmərəliliyinin səciyyəvi xüsusiyyəti kimi);

– marketinq strategiyasının effektivliyinin göstəricisi kimi istehlakçıların rəqibə münasibəti.

Bilavasitə təsirin xarici mühiti

Müəssisənin güclü tərəflərinin sonradan dəqiqləşdirlməsi və inkişaf imkanlarının müəyyən edilməsi ilə xarici ətraf mühit amillərinin təhlili SWOT təhlili, PEST təhlili və s. bu kimi üsullardan istifadə etməklə həyata keçirilir. Həmçinin innovasiya fəaliyyətinin spesifik amillərinə xüsusi diqqət yetirilməlidir. Öz növbəsində, bu amilləri xarici və daxili amillərə bölmək olar. Xarici amillərə aşağıdakılar daxildir:

1. Texnologiyanın həyat tsikli. Həm sənayedə, həm də müəssisədə texnologiyanın inkişafının əldə edilmiş səviyyəsi innovasiyaya investisiya qoyuluşunun məqsədəuyğunluğu və obyekti barədə qərar qəbul edərkən əsas amillərdən biri olur. Hazırda bu amili qiymətləndirmək üçün aşağıdakı əsas üsullar mövcuddur:

– *struktur və morfoloji analiz metodu;*
– *analoq patentlər üsulu;*
– *terminoloji və leksik təhlil metodu;*
– *göstəricilər metodu və s*. [5]

2. İnnovasiya fəaliyyətinin həyata keçirilməsinin dəstəklənməsində mühüm rol oynayan regional innovasiya infrastrukturu. Məhz inkişaf etmiş regional innovasiya infrastrukturunun olması innovasiya fəaliyyətinin idarə edilməsinə ən sərfəli və rasional yanaşmanın təmin edilməsi üçün əsas şərtlərdən biridir. İnnovasiya infrastrukturu onun hər bir komponenti üzrə təhlil edilməlidir: istehsal və texnologiya, konsaltinq, maliyyə, kadr, məlumat və satış.

Müəssisənin fəaliyyət göstərdiyi innovasiya infrastrukturunun səmərəliliyinin təhlili rəqabət üstünlükləri əldə etmək məqsədilə həmin müəssisənin innovasiya fəaliyyətinin inkişaf etdirilməsi imkanlarının obyektiv mənzərəsini yaratmaq üçün istifadə olunan bir sıra əsas (ən informativ) göstəricilərə əsaslanır.

Ümumiyyətlə, innovasiya fəaliyyəti yeni məhsulların və xidmətlərin yaradılması, mövcud texnologiyaların təkmilləşdirilməsi və yeni idarəetmə sistemlərinin tətbiqi sahələrini əhatə edir. Bu halda əsas təsir amilləri elmi-texniki tərəqqi, kadr potensialı və yaradıcı resurslar, rəqəmsallaşma və informasiya texnologiyalarının səviyyəsi, eləcə də dövlət dəstəyi və tənzimləmə mexanizmləri olur. Məsələn, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatına üzv ölkələrin təcrübəsində innovasiyaların 70%-i dövlət və özəl sektor əməkdaşlığı ilə gerçəkləşdirilir. [8]

İnnovasiya fəaliyyətinin həyata keçirilməsi üçün daxili amillərə aşağıdakılar aiddir:

1. Müəssisənin innovasiya fəaliyyəti. Eyni zamanda, bir kateqoriya kimi innovasiya fəaliyyəti müəssisədə həyata keçirilən müxtəlif səviyyəli radikal innovasiyaların həcminin və miqyasının qiymətləndirilməsini deyil, həm də innovativ inkişafın istiqamətlərinin müəyyən edilməsini nəzərdə tutur. İnnovasiya fəaliyyətinin qiymətləndirilməsi aşağı olduğu halda müəssisə rəhbərliyi innovasiyaya investisiyanın aşağı payı olan investisiya layihələri portfelini formalaşdırmaqla inkişaf strategiyası qurmalıdır.

2. Müəssisənin innovativ davranışı. İnnovasiya və investisiya strategiyasını hazırlayarkən innovativ davranışın nəzərə alınması innovasiyaların inkişafı və qəbulu nəticəsində baş verən potensial strateji dəyişiklikləri müəyyən etməyə yönəldilmişdir.

3. Müəssisənin innovasiya potensialı. İnnovasiya potensialının bir sıra tərifləri var və onun qiymətləndirilməsi iki aspektdə nəzərdən keçirilir: müəssisənin yeni innovasiya layihələri həyata keçirməyə hazırlığı kimi və hazırda həyata keçirilən layihələr nəzərə alınmaqla təşkilatın mövcud vəziyyətinin hərtərəfli qiymətləndirilməsi kimi. Onu da qeyd etmək lazımdır ki, bu gün innovasiya potensialının qiymətləndirilməsi üçün vahid metodologiya mövcud deyil və təklif olunan yanaşmalar müəlliflərin innovasiya potensialını bir kateqoriya kimi dərk etməsindən asılı olaraq fərqlənir.

3. Müəssisənin innovasiya və investisiya fəaliyyətinin yaxşılaşdırılması istiqamətləri

Artıq qeyd etdiyimiz kimi, müasir dövrdə iqtisadiyyatın inkişaf dinamikası göstərir ki, ölkələrin rəqabətqabiliyyətlili-

yinin artırılmasında və dayanıqlı inkişafın təmin olunmasında innovasiya və investisiya mühüm rol oynayır. Xüsusilə inkişaf etməkdə olan ölkələr üçün innovasiya və investisiya fəaliyyətinin təkmilləşdirilməsi iqtisadi artımın mühüm şərtlərindən biri kimi çıxış edir. Qlobal iqtisadi mühitdə texnoloji tərəqqi və rəqabət üstünlüyü ölkələrin innovasiya və investisiya fəaliyyətinin effektivliyi ilə sıx bağlıdır. Müxtəlif ölkələrdə tətbiq olunan iqtisadi və institusional mexanizmlər göstərir ki, davamlı inkişaf və texnoloji transformasiya məhz güclü innovasiya-investisiya infrastrukturu sayəsində mümkün olur. Ümumiyyətlə, innovasiya-investisiya mühiti – ölkədə və ya regionda yeni texnologiyaların tətbiqi, elmi tədqiqatların kommersiyalaşdırılması və kapital yatırımlarının təşviqi üçün yaradılmış iqtisadi, institusional və hüquqi şəraitin məcmusudur. Belə bir mühitin mövcudluğu rəqabət qabiliyyətli istehsalın formalaşmasına, yeni iş yerlərinin yaradılmasına, yüksək texnologiyalı sektorların inkişafına, eləcə də ixrac potensialının artmasına səbəb olur. [2]

Azərbaycan Respublikasında da iqtisadiyyatın diversifikasiyası və qeyri-neft sektorunun inkişafı çərçivəsində innovasiya və investisiyaların təşviqi prioritet istiqamətlərdən biridir. Bu baxımdan müəssisələrin innovasiya və investisiya fəaliyyətinin yaxşılaşdırılması istiqamətlərinin tədqiqində əsas məqsəd Azərbaycanda bu fəaliyyətin cari vəziyyətini təhlil etmək, mövcud problemləri aşkara çıxarmaq və onun daha da yaxşılaşdırılması istiqamətində elmi əsaslandırılmış təkliflər irəli sürməkdir.

Azərbaycanda innovasiya-investisiya fəaliyyətinin cari vəziyyətini araşdırdıqda məlum olur ki, son illər ölkə iqtisadiyyatında innovasiya və investisiyaların cəlb olunması üçün bir sıra tədbirlər görülmüşdür. “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”də də bu məsələyə xüsusi yer ayrılmışdır. “Gələcək illərdə dünyada artan rəqabətə hazır olmaq üçün hər bir ölkənin prioriteti yüksək rəqabətli insan kapitalını formalaşdırmaqdır. Bunun üçün müasir təhsil, innovasiyaları təşviq edən münbit şərait və insanların sağlamlığı əsas şərtdir.” [1] Lakin aparılan təhlillər göstərir ki, innovasiya fəaliyyətinin inkişafında və investisiya cəlbediciliyində bir sıra çatışmazlıqlar mövcuddur. Belə ki, elmi-tədqiqat müəssisələri ilə biznes subyektləri arasında əməkdaşlıq zəifdir, startap və vençur kapital bazarlarının inkişafı ləng gedir, yerli və xarici investorlar üçün bürokratik əngəllər hələ də mövcuddur, hüquqi və normativ baza kifayət qədər çevik deyildir və s. Bu sahədə beynəlxalq təcrübəni və tətbiq olunan uğurlu modelləri təhlil etdikdə məlum olur ki, innovasiya və investisiya fəaliyyətinin inkişafında aşağıdakı amillər həlledici rol oynayır:

İnnovasiya siyasətinin dövlət səviyyəsində strateji prioritet kimi qəbul olunması. Bir çox inkişaf etmiş ölkələrdə dövlət innovasiya siyasətini milli inkişaf strategiyasının əsas elementi kimi qəbul edir və bu siyasətin institusional əsası güclü dövlət dəstəyi, sabit hüquqi baza və uzunmüddətli planlaşdırmadır. Məsələn, Cənubi Koreya “Creative Economy” proqramı ilə startap ekosisteminin inkişafına dövlət səviyyəsində dəstək verir. Çin “Made in China 2025” strategiyası ilə texnologiya transferi və daxili innovasiya potensialının artırılmasına yönəlmiş geniş proqramlar həyata keçirir.

Vençur kapital bazarlarının və startap ekosistemlərinin formalaşdırılması. İnnovasiya-investisiya fəaliyyətinin əsas dayaqlarından biri vençur kapital bazarının inkişafıdır. Uğurlu dünya təcrübəsi göstərir ki, dövlətin ilkin mərhələdə iştirak etdiyi vençur investisiyaları sonradan özəl kapitalın fəallaşmasını stimullaşdırır. Məsələn, İsrail “Yozma” proqramı ilə dövlətin

birgə maliyyələşdirdiyi vençur fondları vasitəsilə özəl sektorun innovativ layihələrə sərmayə qoyması üçün şərait yaradıb. Eləcə də ABŞ-da "Silikon Vadisi" modeli çərçivəsində özəl və institusional investorlar yüksək riskli texnoloji layihələrə böyük həcmdə kapital yatırır.

Bütün bunlarla yanaşı, onu da qeyd edək ki, innovativ ideyaların kommersiyalaşdırılması üçün uyğun infrastrukturun, texnoparkların, inkubasiya və akselerasiya proqramlarının mövcudluğu da vacib şərtdir. Bu halda müəssisələrin innovasiya dövriyyəsi sürətlənir və bazara çıxış imkanları genişlənir. Eləcə də innovasiya-investisiya fəaliyyətinin dayanıqlılığı elmi biliklərin tətbiqinə və ixtisaslı kadr potensialına, yəni insan kapitalının və elmi potensialın gücləndirilməsinə əsaslanır. Həmçinin müasir dövrdə müəssisələrin innovasiya və investisiya fəaliyyəti rəqəmsal texnologiyalarla inteqrasiya olunur ki, bu da sürətli texnoloji dəyişikliklərə uyğun çevik fəaliyyətin formalaşmasına imkan verir.

Beləliklə, dünya təcrübəsi göstərir ki, müəssisələrin innovasiya və investisiya fəaliyyətinin yaxşılaşdırılması kompleks və çoxsahəli tədbirlərin həyata keçirilməsini tələb edir. Dövlətin aktiv rolu, əlverişli hüquqi-institusional baza, güclü insan kapitalı və texnologiya yönümlü maliyyə mexanizmləri bu fəaliyyətin inkişafında əsas komponentlərdir. Bu təcrübələrdən faydalanaraq, inkişaf etməkdə olan ölkələr öz milli innovasiya sistemlərini təkmilləşdirə və dayanıqlı iqtisadi inkişaf modelinə keçidi sürətləndirə bilərlər.

Nəticə və təkliflər

Müəssisənin innovasiya və investisiya fəaliyyətinin inkişaf etdirilməsi müasir bazar iqtisadiyyatı şəraitində onun uzunmüddətli inkişafının və rəqabətqabiliyyətliliyinin əsas təminatıdır. Səmərəli innovasiya-investisiya siyasəti yalnız maddi vəsaitlərin cəlb edilməsi ilə deyil, həm də intellektual resursların düzgün idarə olunması ilə mümkündür. Təklif edilən istiqamətlərin tətbiqi müəssisələrin dayanıqlılığını artıracaq, onları regional və qlobal bazarlarda rəqabətədavamlı edəcəkdir.

Aparılmış tədqiqatın nəticəsində Azərbaycanda innovasiya və investisiya fəaliyyətinin yaxşılaşdırılması istiqamətləri üzrə aşağıdakı təklifləri irəli sürmək olar:

- *İnnovasiya fəaliyyətini tənzimləyən qanunvericiliyin müasirləşdirilməsi;*
- *Startaplar üçün vergi güzəştlərinin və tənzimləmə sadələşmələrinin tətbiqi;*
- *Texnoparklar və innovasiya mərkəzlərinin regional səviyyədə yaradılması;*
- *Ali təhsil müəssisələrinin nəzdində inkubasiya mərkəzlərinin təşkili;*
- *Vençur fondlarının yaradılması və onlara dövlət dəstəyi;*
- *İnnovativ layihələrə kredit zəmanət fondlarının tətbiqi;*
- *İnnovasiya və sahibkarlıq sahəsində təhsil proqramlarının genişləndirilməsi;*
- *Tədqiqatçıların və gənc innovatorların beynəlxalq təcrübə mübadiləsinə cəlb olunması* və s.

Müəssisənin innovasiya və investisiya fəaliyyətinin yaxşılaşdırılması Azərbaycanın sosial-iqtisadi inkişafında mühüm rol oynaya bilər. Bu məqsədlə həm dövlət siyasətinin ardıcıl şəkildə həyata keçirilməsi, həm də özəl sektorun aktiv iştirakı vacibdir. Təklif olunan istiqamətlərin reallaşdırılması nəticəsində ölkədə innovasiya yönümlü iqtisadi modelin formalaşması, yerli və xarici investisiyaların həcminin artması və yeni texnologiyaların tətbiqi ilə iqtisadiyyatın dayanıqlılığı təmin edilə bilər.

İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT:

Azərbaycan dilində:

1. “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər.” - https://president.az/az/articles/view/50474.
2. Əliyev R.S. İnvestisiya fəaliyyətinin təşkili. Bakı: İqtisad Universiteti nəşriyyatı, 2020.
3. Qasımov A.Ə. İnnovasiya siyasətinin formalaşması və inkişaf istiqamətləri". // "Azərbaycan iqtisadiyyatı" jurnalı, №3, 2021, s.45-57.

Rus dilində:

4. Бармашов К.С. Формирование экономического механизма инновационно-инвестиционного процесса в условиях устойчивого развития предприятия: монография / К.С. Бармашов, Л.В. Бармашова, Т.С. Викторова // Филиал ФГБОУ ВПО "МГИУ" в г. Вязьме. – Вязьма, 2013, – 120 с.
5. Толкаченко О.Ю. Управление сбалансированным развитием инновационного и инвестиционного циклов предприятия: дис. … канд. экон. наук. – Нижний Новгород, 2010, – 133 с.
6. Яни А. В. Организационно-экономический механизм управления воспроизводством // Проблемы и перспективы аграрной науки России: Материалы круглого стола. Балашиха, 2011, - с. 106-113.

İngilis dilində:

7. Risk management. Ferma. URL: http://www.ferma.eu/riskmanagement.
8. Innovation and Investment in SMEs: Driving Growth and Productivity. Paris: OECD Publishing. 2023.

Rafig Rzayev

DIRECTIONS FOR ENHANCING INNOVATION AND INVESTMENT ACTIVITIES IN ENTERPRISES

Abstract

In today’s economy, innovation and investment play a vital role in enhancing enterprise competitiveness and ensuring sustainable development. This article explores the conceptual foundations of innovation and investment, identifies key challenges faced by enterprises in these areas, and proposes strategic directions for improvement. It offers scientifically grounded recommendations, drawing on international experience to support the analysis. The study underscores the importance of a comprehensive, multidisciplinary approach to advancing innovation and investment activity. It emphasizes the necessity of active state involvement, a favorable legal and institutional environment, qualified human capital, and technology-oriented financial mechanisms. Additionally, the article assesses the current state of innovation and investment in Azerbaijan and offers proposals to address existing shortcomings and support further development in this field.

Keywords: innovation, investment, enterprise, economic development, finance, technology, strategy, internal environment, external environment

NAXÇIVANIN İQTİSADİ POTENSİALI VƏ STRATEJİ ƏHƏMİYYƏTİ

Aida HƏSƏNLİ,
AMEA Naxçıvan Bölməsinin dissertantı
(Naxçıvan, Azərbaycan)

E-mail: aida.amirova@mail.ru
ORCID ID: 0009-0006-8182-3296

Xülasə. Məqalədə Naxçıvan Muxtar Respublikasının iqtisadi potensialı və strateji əhəmiyyəti təhlil edilir. Qeyd olunur ki, regionun sosial-iqtisadi inkişafı Azərbaycan dövlətinin həyata keçirdiyi ardıcıl proqramlar, xüsusilə regionların inkişafına yönəlmiş dövlət strategiyaları sayəsində sürətlənmişdir. Naxçıvanın iqtisadiyyatı əsasən kənd təsərrüfatı, sənaye, duz istehsalı və sərhədyanı ticarət üzərində qurulmuşdur. Məqalədə statistik məlumatlar əsasında 2019–2023-cü illər üzrə ümumi gəlir və artım templəri qiymətləndirilir. Naxçıvanda qeyri-neft sektoru, sahibkarlıq və dövlət proqramları çərçivəsində həyata keçirilən tədbirlər, xüsusilə də 2023–2027-ci illəri əhatə edən yeni Dövlət Proqramı regionun iqtisadi müstəqilliyinin və davamlı inkişafının təmin olunmasında mühüm rol oynayır. Naxçıvan Muxtar Respublikasının iqtisadi inkişafı dövlətin həyata keçirdiyi məqsədyönlü proqramlar əsasında sürətlənmişdir.

Açar sözlər: Naxçıvan, iqtisadi inkişaf, regional strategiya, kənd təsərrüfatı, dövlət proqramı

Giriş

Müasir dövrdə iqtisadi inkişafın dayanıqlılığı və regionların tarazlı inkişafı hər bir dövlətin qarşısında duran əsas strateji vəzifələrdən biridir. Bu baxımdan, Azərbaycanın müstəqillik əldə etdikdən sonra keçdiyi iqtisadi transformasiya prosesi, sosial-siyasi sabitliyin bərpası, institusional islahatların aparılması və məqsədyönlü regional inkişaf proqramlarının həyata keçirilməsi ölkənin ümumi inkişaf trayektoriyasını müəyyən etmişdir. Xüsusilə, Ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulan və Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən iqtisadi inkişaf strategiyası nəticəsində ölkənin bütün regionlarında, o cümlədən Naxçıvan Muxtar Respublikasında mühüm sosial-iqtisadi irəliləyişlər baş vermişdir.

Naxçıvan Muxtar Respublikası Azərbaycanın ayrılmaz tərkib hissəsi olmaqla yanaşı, eyni zamanda coğrafi təcrid olunması, məhdud resurs bazası və spesifik sərhəd şəraiti ilə fərqlənən bir regiondur. Bu şərait muxtar respublikanın daxili istehsal potensialına əsaslanan iqtisadi model qurmasını, yerli resurslardan maksimum səmərə ilə istifadə etməsini və iqtisadi müstəqilliyini gücləndirməsini zəruri etmişdir. Son iki onillikdə regionda kənd təsərrüfatı, sənaye, ticarət və xidmət sahələrinin paralel inkişaf etdirilməsi, ixrac yönümlü istehsalın təşviqi və əhalinin sosial rifahının artırılması istiqamətində əhəmiyyətli nəticələr əldə olunmuşdur.

1, Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafında dövlət proqramlarının rolu və strateji əhəmiyyəti

Azərbaycan Respublikasının dövlət müstəqilliyini elan etməsindən sonra ölkənin iqtisadi, sosial və siyasi həyatında əsaslı dəyişikliklər və irəliləyişlər baş vermişdir. Sovet İttifaqının dağılması ilə yaranan qeyri-sabitlik dövrü aradan qalxdıqdan, ölkədə ictimai-siyasi sabitlik bərpa olunduqdan və yeni iqtisadi inkişaf mərhələsinə qədəm qoyulduqdan sonra sistemli iqtisadi islahatlar həyata keçirilmişdir. Bu baxımdan dördmərhələli “Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramları” regionların iqtisadi gücünün artırılmasında mühüm rol oynamışdır.

Xüsusilə Naxçıvan Muxtar Respublikasının bu proqramlar çərçivəsində əldə etdiyi inkişaf təqdirəlayiqdir. Coğrafi təcrid vəziyyətində və blokada şəraitində fəaliyyət göstərməsinə baxmayaraq, Naxçıvanda Azərbaycan hökumətinin dəstəyi və yerli idarəetmə orqanlarının sistemli fəaliyyəti nəticəsində dayanıqlı sosial-iqtisadi model formalaşdırmışdır. Naxçıvanda qəbul olunmuş və icra edilmiş “Naxçıvan Muxtar Respublikasının Regional İnkişaf Proqramı (2005–2008)”, “2009–2013-cü illərdə sosial-iqtisadi inkişaf Proqramı”, eləcə də “Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası” muxtar respublikanın iqtisadi sisteminin dirçəlməsində və müasir infrastrukturun qurulmasında həlledici rol oynamışdır [4].

Son illərdə həyata keçirilmiş bu proqramlar çərçivəsində sənaye parkları yaradılmış, enerji təhlükəsizliyi təmin olunmuş, yeni təhsil və səhiyyə obyektləri istifadəyə verilmiş, rəqəmsal xidmətlər genişləndirilmiş, alternativ enerji mənbələrinin istifadəsinə başlanılmışdır. Naxçıvan şəhərinin, eləcə də Şərur, Ordubad, Culfa, Kəngərli və digər inzibati rayonların inkişafında bu tədbirlərin konkret nəticələri hiss olunur. Muxtar respublikada idxaldan asılılığın minimuma endirilməsi, yerli istehsal gücünün artırılması və ərzaq təhlükəsizliyinin təmin edilməsi məqsədilə yaşıl iqtisadiyyat və kənd təsərrüfatında innovativ texnologiyaların tətbiqi genişlənmişdir.

Qeyd edilməlidir ki, Naxçıvan MR ərazisində günəş və su enerjisi kimi

alternativ enerji mənbələrindən istifadə prioritet sahələrdən biri olmuş və 2023-cü ilə qədər bu istiqamətdə bir neçə mühüm layihə həyata keçirilmişdir. Prezident İlham Əliyevin 2021-ci il 4 oktyabr tarixli Fərmanına əsasən "Araz Vadisi İqtisadi Zonası"nın yaradılması isə Naxçıvanda biznes mühitinin daha da canlanmasına və investisiya axınının güclənməsinə şərait yaratmışdır [2].

2023–2027-ci illər üzrə "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı Dövlət Proqramı" regionun davamlı inkişaf strategiyası çərçivəsində hazırlanmış və muxtar respublikanın mövcud potensialının daha səmərəli istifadəsini hədəfləyən sistemli tədbirlər toplusudur. Bu proqram Naxçıvan MR-in iqtisadi və sosial sahələrdə son illərdə əldə olunmuş nailiyyətlərin davam etdirilməsini, yeni çağırışlara uyğun struktur islahatlarının aparılmasını və rəqabətqabiliyyətli iqtisadi mühitin formalaşdırılmasını nəzərdə tutur [1].

Proqram çərçivəsində ilk növbədə sahibkarlıq mühitinin inkişafı, biznesin aparılması üçün normativ-hüquqi şəraitin təkmilləşdirilməsi və elektron xidmətlərin genişləndirilməsi ön plana çəkilir. Bu istiqamətdə "Lisenziyalar və icazələr portalı", vahid elektron satınalma sistemi, yoxlamaların vahid reyestri və digər texnoloji platformaların istifadəyə verilməsi Naxçıvanda dövlət idarəetmə sisteminin rəqəmsallaşdırılmasını və şəffaflığını təmin etməyə yönəlib.

Ən mühüm hədəflərdən biri də bərpa olunan enerji mənbələrinin inkişaf etdirilməsi və enerji müstəqilliyinin təmin olunmasıdır. Bu məqsədlə Naxçıvanda yeni günəş və istilik elektrik stansiyalarının inşası, elektrik şəbəkələrinin modernləşdirilməsi və avtomatlaşdırılmış idarəetmə sistemlərinin qurulması nəzərdə tutulur. Eyni zamanda Türkiyə ilə enerji şəbəkələrinin birləşdirilməsi üçün 18 km-lik magistral qaz kəmərinin çəkilməsi regionun enerji təminatının dayanıqlılığını gücləndirəcək.

Proqramda sənaye sektorunun şaxələndirilməsi və yerli təbii ehtiyatlardan, xüsusilə də əlvan metallardan, duz yataqlarından və tikinti materialları üçün xammallardan istifadə ilə yeni istehsal müəssisələrinin yaradılması xüsusi vurğulanır. Bununla yanaşı, mövcud sənaye potensialının modernləşdirilməsi və sənaye zonalarının yaradılması, vergi və gömrük güzəştləri hesabına xarici sərmayənin cəlb edilməsi istiqamətində strateji addımlar nəzərdə tutulur.

Müvafiq dövlət proqramlarının həyata keçirilməsi nəticəsində Naxçıvan Muxtar Respublikasında işsizlik səviyyəsi minimuma enmiş, əhalinin məşğulluq göstəriciləri artmış, əlavə dəyər yaradan sənaye sahələrinin inkişafı ilə xarici ticarət dövriyyəsi də yüksəlmişdir. Bütün bunlar regionun iqtisadi müstəqilliyinin güclənməsinə, iqtisadi təhlükəsizliyin təminə və sosial rifahın yüksəldilməsinə mühüm töhfələr vermişdir [12].

Naxçıvan MR-in sosial-iqtisadi inkişafı, ölkədə həyata keçirilən ardıcıl dövlət proqramlarının tərkib hissəsi kimi, Azərbaycanın milli inkişaf strategiyasının regionlar səviyyəsində uğurlu tətbiqinin bariz nümunəsidir. Bu inkişaf modeli həm də müasir dövrdə regional siyasətin və yerli özünüidarənin səmərəli və məqsədyönlü koordinasiyası baxımından nümunəvi yanaşma kimi qiymətləndirilə bilər.

2. Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının tarixi konteksti

Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafını hərtərəfli qiymətləndirmək üçün onun tarixi inkişaf trayektoriyasının təhlili zəruri və əsaslıdır. Coğrafi baxımdan Azərbaycanın materik hissəsindən ayrı düşmüş, blokada şəraitində yerləşən bu regionun iqtisadi modelinin formalaşması sıradan bir inkişaf

xətti deyil, spesifik siyasi, iqtisadi və tarixi amillərin təsiri ilə müəyyən olunmuş mürəkkəb prosesin nəticəsidir. Bu prosesin başlıca xüsusiyyəti ondan ibarətdir ki, Naxçıvan uzun illər ərzində özünütəminata əsaslanan, daxili resurslara və yerli təşəbbüslərə söykənən iqtisadi strategiya yürütmək məcburiyyətində qalmışdır. Məhz bu səbəbdən regionun inkişafında həm tarixi-mədəni dəyərlər, həm də iqtisadi adaptasiya bacarığı mühüm rol oynamışdır.

SSRİ dövründə planlı iqtisadiyyat çərçivəsində əsasən aqrar sahəyə yönəldilmiş Naxçıvan iqtisadiyyatı İttifaqın dağılmasından sonra ciddi struktur böhranı ilə üzləşdi. Əhalinin məşğulluğunun, sosial təminatın və istehsal sisteminin əsas dayaqlarını təşkil edən sovet modeli dağıldıqca, region öz iqtisadi varlığını yenidən təşkil etmək zərurəti ilə qarşılaşdı. 1990-cı illərin əvvəllərində ölkədəki ümumi siyasi qeyri-sabitlik, Ermənistan tərəfindən davam edən işğal siyasəti, Naxçıvanın nəqliyyat və enerji blokadasında qalması onun sosial-iqtisadi inkişafını xeyli dərəcədə ləngitdi. Lakin bu mürəkkəb şəraitdə belə Naxçıvan sakinlərinin təşəbbüskarlığı, lokal idarəetmənin çevikliyi və hökumət dəstəyi regionun tənəzzüldən çıxaraq dirçəlməsinə zəmin yaratdı.

Ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə əsası qoyulan və Prezident İlham Əliyev tərəfindən davam etdirilən ardıcıl inkişaf strategiyası, Naxçıvanda infrastrukturun yenidən qurulması, enerji müstəqilliyinin təmin olunması, aqrar və sənaye sahələrinin şaxələndirilməsi kimi bir sıra hədəflərə əsaslanan sistemli islahatlarla müşayiət olundu. Regionda iqtisadiyyatın sektorial diversifikasiyası, sahibkarlığın inkişafı, texnoloji yeniliklərin tətbiqi və sosial rifahın yüksəldilməsinə yönəlmiş tədbirlər tarixi geriləmənin qarşısını almaqla yanaşı, Naxçıvanı Azərbaycanın digər regionları ilə bərabər səviyyədə inkişaf edən vahid iqtisadi sistemə daxil etməyə şərait yaratdı.

Naxçıvanda kənd təsərrüfatı məhsullarının emalı və mineral məhsulların istehsalı xüsusi yer tutur. İqtisadi islahatlar sistemli şəkildə aparılıb, aqrar islahata yekun vurulub, azad mülkiyyətin, xüsusi mülkiyyətin və kiçik sahibkarlığın inkişafı üçün geniş imkanlar yaradılıb.

İqtisadiyyatı əkinçilik, heyvandarlıq və sərhədyanı ticarətə əsaslanan muxtar respublikada iqtisadi inkişaf hər il Azərbaycanda gedən iqtisadi, siyasi, hərbi və sosial-mədəni inkişafdan asılı olaraq dəyişir.

Naxçıvan və onun ətrafı Paleolit dövründən məskunlaşan ərazi olub, əkinçilik üçün əlverişli ərazini əhatə edir. Naxçıvanın iqtisadi sərvətləri tarix boyu yaşayış məskəni olmasında mühüm yer tutur [7].

Naxçıvanda keçmişdən bu günə qədər davam edən iqtisadi fəaliyyətlər mövcuddur. Bunlardan ən mühümü eramızdan əvvəl III minillikdən başlayaraq istifadə edilən duz ehtiyatlarıdır. Sovet dövründə Naxçıvanın mərkəzindən 14 km aralıda yerləşən Babək rayonundakı duz mədənindən səmərəli istifadə olunub. Naxçıvan uzun illərdir ki, öz mədənlərindən, təbii sərvətlərindən səmərəli istifadə edə bilmir. Lakin sonrakı dövrlərdə bu vəziyyət dəyişib və duz əsas ixrac məhsullarından birinə çevrilib [8].

Naxçıvanın iqtisadi strukturunu iki ayrı dövrdə araşdırmaq olar: sovetdən əvvəlki və postsovet dövrü. Sovet dövründə iqtisadiyyat planlı və mərkəzləşdirilmiş sistemlə idarə olunduğundan İttifaqın dağılmasından sonra Naxçıvanda da azad bazar iqtisadiyyatına uyğunlaşma prosesi başlamışdır. Respublikalar arasında, xüsusən də Sovet dövründə sistematik şəkildə asılılığı zəruri edən iqtisadi strukturun qəfil dağılması bazar iqtisadiyyatına keçiddə böyük problemlər yaratmışdır. İqtisadi, siyasi-hüquqi infrastrukturun olmaması, köhnə texnologiyanın mövcudluğu, işğalçı müharibə nəticəsində Azərbaycan

torpaqlarının 20%-nin itirilməsi, 1 milyona yaxın vətəndaşımızın öz ölkəsində qaçqın vəziyyətinə düşməsi Naxçıvan Muxtar Respublikasının sənaye və iqtisadiyyatına ciddi təsir göstərdi [7].

Ərzaq böhranları, insanlıq tarixi boyunca cəmiyyətlərə dərindən təsir edən hadisələrdən biri olmuşdur. Təbii fəlakətlər, kənd təsərrüfatı istehsalındakı əngəllər, müharibələr və siyasi qərarlar qlobal və regional ərzaq təchizatında ciddi sıxıntılarla nəticələnib. Bu böhranlar iqtisadi və sosial nəticələrin hüdudlarından kənara çıxmış, çox vaxt beynəlxalq münasibətlərdə və qlobal siyasət dinamikasında əsaslı dəyişikliklərə səbəb olmuşdur. Müasir dövrdə iqlim dəyişikliyinin sürətlənməsi və davam edən silahlı münaqişələr fonunda məsələ yenidən aktuallıq qazanmışdır.

Bu məqalədə ərzaq böhranlarının diqqətəlayiq nümunələri araşdırılır, tarixi ərzaq çatışmazlığının ən əhəmiyyətli və geniş yayılmış xüsusiyyətləri müəyyən edilir, onların kök səbəbləri təhlil edilir və beynəlxalq siyasətə təsirləri araşdırılır. Bundan əlavə, gələcəkdə belə böhranların təkrarlanmaması üçün həyata keçirilməli olan siyasətlər və qəbul edilə biləcək potensial effektiv tədbirlər müzakirə olunur.

Məqalə tarixi, iqtisadi, siyasi və səbəb-nəticə təhlili metodları əsasında hazırlanmışdır.

Açar sözlər: ərzaq böhranları, siyasi aclıq, Holodomor, “Uzun yürüş”, “Böyük sıçrayış”, “Zəhmətli yürüş”, “Qida hüquqları” nəzəriyyəsi

İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRDƏ "YAŞIL ENERJİ" POTENSİALININ DƏYƏRLƏNDİRİLMƏSİ

Elmir MEHDİYEV,
Sosial Tədqiqatlar Mərkəzi
Sosial-iqtisadi təhlil departamentinin
aparıcı məsləhətçisi
(Bakı, Azərbaycan)

E-mail: elmirmehdiyev@gmail.com
ORCID: 0000-0002-8351-1361

Xülasə. Məqalədə qlobal miqyasda "yaşıl enerji" (bərpa olunan enerji) istehsalının mövcud vəziyyəti araşdırılmış, Azərbaycanda bərpa olunan enerji potensialı təhlil edilmiş, işğaldan azad olunmuş ərazilərdə bərpa olunan enerji potensialı dəyərləndirilmiş, həmçinin beynəlxalq ekspertlərin fikirləri nəzərə alınmaqla bərpa olunan enerji potensialından istifadənin genişləndirilməsi zərurətinin artması qənaətinə gəlinmişdir.

Açar sözlər: bərpa olunan enerji mənbələri, su elektrik stansiyası, günəş elektrik stansiyası, külək elektrik stansiyası, işğaldan azad edilmiş ərazilər

Giriş

Son illərdə dünyada ətraf mühitin çirkləndirilməsinin qarşısının alınması məqsədilə bərpa olunan enerji mənbələrindən istifadənin genişləndirilməsi məsələsi çox aktualdır. Azərbaycanda da bu istiqamətdə kifayət qədər işlər görülməkdədir. Belə ki, işğaldan azad edilmiş ərazilərlə bağlı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən müəyyən edilmiş iqtisadi inkişaf kursunda həmin ərazilərin "Yaşıl Enerji Zonası"na çevrilməsi prioritet istiqamətlərdən biri hesab olunur. 44 günlük Vətən müharibəsindən sonra 2020-ci ilin iqtisadi yekunlarına dair 6 yanvar 2021-ci il tarixli müşavirədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən işğaldan azad edilmiş ərazilərdə "Yaşıl Enerji Zonası"nın yaradılmasına dair strateji baxış irəli sürülmüş və bunun üçün həmin ərazilərdə kifayət qədər bərpa olunan enerji potensialının olması bildirilmişdir [5].

"Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində "Yaşıl Enerji Zonası"nın yaradılması ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 3 may 2021-ci il tarixli 2620 nömrəli Sərəncamı ilə beynəlxalq məsləhətçi şirkətin cəlb edilməsi nəzərdə tutulmuşdur. Sərəncamın icrası istiqamətində Yaponiyanın TEPSCO şirkəti ilə əməkdaşlığa başlanılmış və müvafiq konsepsiya sənədi hazırlanmışdır. Konsepsiyanın məqsədi işğaldan azad edilmiş ərazilərdə mövcud olan yüksək bərpa olunan enerji potensialından istifadə etməklə ərazini ekoloji cəhətdən təmiz "yaşıl enerji" ilə təmin etmək və ekoloji cəhətdən təmiz və enerji səmərəliliyinə malik "yaşıl texnologiya"ların tətbiqi perspektivlərini araşdıraraq təkliflər formalaşdırmaqdır. Bunun üçün müxtəlif ssenarilər tətbiq edilməklə ərazilərin enerji tələbatı modelləri hazırlanmışdır.


"Yaşıl Enerji Zonası"nın yaradılması çərçivəsində işğaldan azad edilmiş ərazilərdə bərpa olunan enerji mənbələrindən elektrik enerjisi istehsalı, enerji səmərəliliyi tədbirləri, elektrik nəqliyyat vasitələrindən istifadə, tikililərin damlarında bərpa olunan enerji qurğularının (xüsusən günəş panellərinin) qurulması, həmçinin küçələrin və yolların işıqlandırılmasında günəş enerjisi əsaslı LED lampalardan istifadə, istilik, soyutma və isti su təchizatında bərpa olunan enerji texnologiyalarından istifadə, ağıllı enerji idarəetmə texnologiyalarıının tətbiqi, tullantıların enerji məqsədli idarə edilməsi kimi tədbirlər nəzərdə tutulmuşdur [5].

1. Qlobal miqyasda bərpa olunan enerji istehsalının mövcud vəziyyəti

IRENA-nın (International Renewable Energy Agency - Bərpa olunan Enerji üzrə Beynəlxalq Agentlik – **red.**) "Bərpa olunan enerji həcmi statistikası 2025" [10] hesabatına əsasən, qlobal miqyasda istehsal edilmiş bərpa olunan enerjinin məcmu elektrik enerjisində payı 2015-ci ildən etibarən 2024-cü ilədək 29,5%-dən 46,4%-ə qədər yüksəlib (Qrafik 1.). Bununla belə, bərpa olunan enerjinin həcminin təqribən ümumi gücün yarısını təşkil etməsinə baxmayaraq, bərpa olunan enerji mənbələrini elektrik enerjisi istehsalının ən mühüm mənbəyi kimi müəyyən etmək üçün bir çox enerji planlaşdırması, o cümlədən şəbəkənin çevikliyi və dəyişən bərpa olunan enerjiyə uyğunlaşma ilə bağlı problemlər hələ də öz həllini gözləyir [11].

Qrafik 1.

Qlobal miqyasda bərpa olunan enerji həcminin məcmu elektrik enerji tutumunda payı, %



Mənbə: IRENA-nın "Bərpa olunan enerji həcmi statistikası 2025" hesabatı əsasında müəllif tərəfindən hazırlanmışdır.

Son illər qlobal miqyasda bərpa olunan enerji tutumunda bu günə qədər ən böyük artım qeydə alınmışdır. Belə ki, 2024-cü ildə 585 Qiqavatt (QVt) əlavə bərpa olunan enerji istehsal edilməklə bərpa olunan enerji ehtiyatı 15,1% artmışdır. Əsasən günəş və külək enerjisi istehsalında əhəmiyyətli artım hesabına qlobal enerji əlavələrinin 92,5%-ni bərpa olunan enerji mənbələri təşkil edib. Bərpa olunan enerji üzrə əlavələrin 75%-dən çoxu təkcə günəş enerjisinin payına düşür. Bununla belə, bərpa olunan enerji mənbələrinin yerləşməsində əhəmiyyətli fərqlər qalmaqdadır. Belə ki, 2024-cü ildə quraşdırılan bütün yeni bərpa olunan enerji mənbələrinin 489 QVt-ı (və ya 83,6%-i) Çin, ABŞ və Avropa Birliyinin payına düşüb. Mövcud tendensiya onu göstərir ki, yaxın gələcəkdə dünyada bərpa olunan enerji istehsalının daha sürətli artım tempi gözlənilir [11].

2. Azərbaycanda bərpa olunan enerjinin potensialı

Azərbaycanda bərpa olunan enerji sektorunu inkişaf etdirmək məqsədilə zəngin külək və günəş potensialı mövcuddur. 2030-cu ilə qədər ölkə üzrə ümumi elektrik enerjisində bərpa olunan enerjinin payını 30%-ə çatdırmaq və bərpa olunan enerji sahəsində lider olmaq üçün mövcud enerji sistemi şaxələndirilir [8].

Azərbaycanın illik elektrik enerjisi istehsalının təqribən 10%-ni su elektrik stansiyalarından əldə olunan enerji təşkil edir. Ölkənin şirin su ehtiyatlarının 25%-i "yaşıl enerji zona"ları kimi müəyyən edilmiş Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında cəmləşir.

Azərbaycanın quruda və dənizdə zəngin külək enerjisi resursları mövcuddur ki, bu da dayanıqlı enerji istehsalı üçün mühüm imkanlar yaradır. Ölkə külək enerjisi üzrə quruda 3 QVt, dənizdə isə 157 QVt həcmində potensiala malikdir. Bu potensialdan səmərəli istifadə etmək məqsədilə əhəmiyyətli tədbirlər görülmüşdür. Belə ki, "ACWA Power" və "Masdar" kimi beynəlxalq şirkətlərlə layihələr həyata keçirilməkdədir.

Ölkənin günəş enerjisi potensialı 23 QVt həcmində dəyərləndirilir. Azərbaycanda günəşli saatların sayının ildə təxminən 2400-3200 saat olması günəş enerjisi istehsalı üçün əlverişli imkanlar yaradır [8].

Azərbaycanda bərpa olunan en-

erji potensialından səmərəli istifadə edilməsi və “yaşıl enerji” istehsalının artırılması məqsədilə həyata keçirilən təşviq fəaliyyətləri ilə əlaqədar müxtəlif vergi güzəştləri (gəlir, mənfəət, əmlak və torpaq vergilərindən azadolmalar) tətbiq edilir [6].

2.1. İşğaldan azad olunmuş ərazilərdə “yaşıl enerji” potensialı

Qubadlı, Zəngilan, Cəbrayıl və Füzuli rayonlarında günəş enerjisi layihələri üçün əlverişli potensial mövcuddur və bu texniki potensial 7200 MVt-dan artıq olaraq qiymətləndirilir. Eyni zamanda, ilkin araşdırmalara əsasən, Laçın və Kəlbəcərin dağlıq ərazilərində külək enerjisinin 2000 MVt həcmində texniki potensialının olması müəyyən edilmişdir [5].

Qarabağ Azərbaycanda yerli su ehtiyatlarının formalaşdığı əsas rayonlardan biridir. Azərbaycanın yerli su ehtiyatlarının 25%-i, yəni ildə təqribən 2 milyard 560 milyon kub metr su ehtiyatları bu ərazidə formalaşır. Regionun Tərtər, Bazarçay (Bərgüşadçay), Həkəri kimi əsas çayları və digər kiçik çayları böyük su enerji potensialına malikdir. Bütün bunlarla yanaşı, Kəlbəcər rayonu ərazisində 3093 m³/gün, Şuşada isə 412 m³/gün termal su ehtiyatları mövcuddur. Hazırda qeyd olunan ərazilər üzrə bu potensialdan istifadə imkanları araşdırılmaqdadır [1].

2.2. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında istismara verilmiş su elektrik stansiyaları

21 avqust 2025-ci il tarixində Qarabağ və Şərqi Zəngəzurda əlavə 3 su elektrik stansiyasının (Kəlbəcərdə) istismara verilməsi ilə bu cür stansiyaların sayı ümumilikdə 38-ə, ümumi gücü isə 307 MVt-a çatdırılıb. Sistemli şəkildə tikilib istismar olunan bu stansiyalar artıq iqtisadiyyata, yaşıl enerjinin genişlənməsinə, ətraf mühitin qorunmasına öz töhfəsini verir. Bu günə qədər su elektrik stansiyalarında 1,5 milyard kVts yaşıl enerji istehsal olunub, 335 milyon kubmetr qaza qənaət edilib, 620 min ton karbon qazının atmosferə atılmasının qarşısı alınıb. Su elektrik stansiyaları azsulu dövrdə 80 MVt, bolsulu dövrdə isə 200 MVt-dan artıq gücdə 24 saat fasiləsiz yaşıl enerji istehsal edir [9].

2.3. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında "yaşıl enerji" layihələri

İşğaldan azad olunmuş ərazilərdə beynəlxalq əməkdaşlıq çərçivəsində həyata keçiriləcək bərpa olunan enerji layihələrində iştiraka maraqlı olan Türkiyə (“Best Brands Energy Group”, “Eksim Holding”, “Renevo Enerji”, “Solar APEX”, “Zorlu Enerji”, “Siyah kalem”, “Voltan”), İslandiya (“Artic Green Gorp”, “Mannvit”, “Efla”, “Noblica”), Almaniya (“Verkis”), İsrail (“Telemenia”), İtaliya (“Technimont”), Koreya (“Securo”), Qətər (Nebras Power), Çin (“Gezhouba Group İnternational”) və digər ölkələrin şirkətləri ilə çoxsaylı onlayn görüşlər keçirilmiş və mümkün əməkdaşlıq imkanları araşdırılmışdır [1].

2021-ci il 22 fevral tarixində Energetika Nazirliyi və BP şirkəti arasında imzalanmış “İri miqyasda karbonsuzlaşdırılmış və inteqrasiya edilmiş enerji və nəqliyyat sistemləri, o cümlədən Azərbaycanın regionlarında və şəhərlərində bərpa olunan enerji layihələri üçün tələb olunan potensialın və şəraitin qiymətləndirilməsi üzrə əməkdaşlıq məqsədilə Anlaşma Memorandumu”na və işğaldan azad edilmiş ərazilərdə “Yaşıl Enerji Zonası”nın yaradılmasına dair ölkə başçısının müvafiq tapşırığına uyğun olaraq, həmçinin BP şirkəti ilə 2021-ci il 3 iyun tarixində Cəbrayıl rayonu ərazisində 240 MVt gücündə “Şəfəq” günəş elektrik stansiyasının

(GES) tikintisi layihəsinin qiymətləndirilməsi və həyata keçirilməsi fəaliyyəti üzrə əməkdaşlığa dair imzalanmış "İcra Müqaviləsi" çərçivəsində stansiyasının tikintisi məqsədilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 24 may tarixli 282 nömrəli Qərarı ilə Cəbrayıl rayonunun inzibati ərazisində stansiyanın ərazisinin hüdudları müəyyənləşdirilmiş, 1000 ha ərazidən əkin sahələri nəzərə alındıqdan sonra 940 ha yararlı sahə seçilmişdir. "Şəfəq" GES-də illik təxminən 500 milyon kVt·st elektrik enerjisi istehsalı gözlənilir ki, bu da ildə 120-150 milyon m³ təbii qaza qənaət, 260-330 min ton karbon emissiyasının azaldılması deməkdir. COP29 tədbiri çərçivəsində 12 noyabr 2024-cü il tarixində Cəbrayıl rayonunda "Şəfəq" GES-in təməlqoyma mərasimi keçirilmişdir. Təməlqoyma mərasimində layihə üzrə Azərbaycan Respublikası Hökuməti ilə "Şəfəq (Cəbrayıl) Solar Limited" şirkəti arasında İnvestisiya Müqaviləsi və Azərbaycan Respublikası Energetika Nazirliyi ilə "Şəfəq (Cəbrayıl) Solar Limited" şirkəti arasında Torpaq İcarəsi Müqaviləsi imzalanmışdır. Hazırda layihənin icrası çərçivəsində işlər davam etdirilir [1].

2022-ci ildə Yaponiyanın "TEPSCO" şirkəti ilə işğaldan azad olunmuş ərazilərdə Yaşıl Enerji Zonası Konsepsiyasının həyata keçirilməsi ilə bağlı görüləcək tədbirlər çərçivəsində 24 fevral tarixində "Hidroakkumulyasiya stansiyalarının tətbiqi", 25 fevral tarixində "İstilik nasoslarının tətbiqi", 2 mart tarixində "Damüstü günəş panellərinin tətbiqi", 9 mart tarixində "Enerji effektivliyi məqsədli yaşayış və qeyri-yaşayış binaları üçün standartlar", 29 mart tarixində "Günəş kollektorlarının tətbiqi", 31 mart tarixində "Elektrik avtomobillərin tətbiqi" və "Qısamüddətli, orta-uzunmüddətli tədbirlər planı", 7 aprel tarixində "Hidroakkumulyasiya stansiyalarının planlaşdırılması və Yaponiya hökumətinin elektromobillərə, hibrid tipli avtomobillərə və elektrik doldurulma qurğularına verdiyi subsidiyalar", 15 aprel tarixində "smart sayğaclar" mövzusunda müzakirələr keçirilmişdir [2].

2024-cü il 1 mart tarixində Energetika Nazirliyi ilə "Nobel Energy" şirkəti arasında Cəbrayıl rayonunda 100 MVt gücündə günəş elektrik stansiyasının tikintisi və elektrik enerjisi istehsalı, satışı və istehlakı üzrə əməkdaşlığı nəzərdə tutan Anlaşma Memorandumu imzalanmışdır. Sənədə əsasən, 50 MVt-ı ilkin mərhələdə, 50 MVt-ı isə növbəti mərhələdə olmaqla, ümumilikdə 100 MVt həcmində günəş elektrik stansiyasının tikintisi və 2027-ci ildə istismara verilməsi planlaşdırılır. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 29 oktyabr 2024-cü il tarixli 466 nömrəli Qərarı ilə Cəbrayıl rayonunun inzibati ərazisində dövlət mülkiyyətinə aid 229,0 hektar torpaq sahəsi günəş elektrik stansiyasının tikintisi məqsədilə bərpa olunan enerji mənbələrinin ərazisi kimi müəyyən edilmişdir [3, 4].

Energetika Nazirliyi ilə Çinin "China Energy Overseas Investment" (əvvəlki adı China Gezhouba Group Overseas Investment) şirkəti arasında Azərbaycanda 2 QVt gücündə bərpa olunan enerji layihələrinin həyata keçirilməsinə dair 1 iyun 2023-cü il tarixində imzalanmış Anlaşma Memorandumunun icrası çərçivəsində Füzuli rayonu ərazisində 160 MVt gücündə günəş elektrik stansiyasının tikintisi nəzərdə tutulur. Qoyuluş gücü 160 MVt olan günəş elektrik stansiyasının tikintisi məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2024-cü il 15 noyabr tarixli 478 nömrəli Qərarına əsasən Füzuli rayonunun inzibati ərazisində dövlət mülkiyyətinə aid 482 hektar torpaq sahəsi bərpa olunan enerji mənbələrinin ərazisi kimi müəyyən edilmişdir. 15 noyabr 2024-cü il tarixində COP29 çərçivəsində Füzuli rayonunda 160 MVt gücündə günəş enerjisi layi-

həsi üzrə Energetika Nazirliyi, “China Energy Overseas Investment Co. Ltd.” və “SOCAR Green” MMC arasında İcra Müqaviləsi və Energetika Nazirliyi “China Energy Overseas Investment Co. Ltd” şirkəti ilə Azərbaycanda bərpa olunan enerji sahəsində əməkdaşlıq üzrə Anlaşma Memorandumu imzalanmışdır [3, 4].

Eyni zamanda, Cəbrayıl rayonu ərazisində, Araz çayı üzərində ümumi gücü Azərbaycan tərəfi üçün 140 MVt (100 MVt "Xudafərin", 40 MVt "Qız Qalası") olmaqla, iki su elektrik stansiyasının tikintisi hazırda davam etdirilir [5].

3. Azərbaycanın “yaşıl enerji” potensialı barədə beynəlxalq ekspertlərin fikirləri

Mərkəzi Asiya və Qafqaz üzrə misirli ekspert və tədqiqatçı Əhməd Abdoh Tarabeikin fikrincə, Azərbaycan yaşıl enerjiyə keçid prosesində və bərpa olunan enerji mənbələrinin inkişafında mühüm rol oynayır.

Ekspert bildirir ki, Azərbaycanın işğaldan azad edilmiş əraziləri “yaşıl enerji” regionuna çevrilmək üçün böyük potensiala malikdir. Azərbaycan hökuməti Qarabağda infrastrukturu yaşıl transformasiyaya uyğun müasir şəkildə yenidən qurmağa başladı. Qarabağın həm də yüksək zirvələri və dağları var ki, həmin dağların yamacları üzərindən çayların axını ilə təmiz elektrik enerjisi istehsal etmək, eləcə də bu dağlardan külək dəyirmanlarından istifadə etməklə külək enerjisindən elektrik enerjisi istehsal etmək üçün istifadə oluna bilər. Günəş batareyalarından istifadə edərək enerji yaratmaq üçün ilin əksər günlərində parlaq günəşdən istifadə etmək də mümkündür.

O qeyd edir ki, işğaldan azad edilmiş Qarabağda həm də havanın təmizlənməsinə və bu ekoloji ərazilərdən enerji istehsalına xidmət edən geniş meşə sahələri var, ona görə də işğaldan azad edilmiş Qarabağ Azərbaycanın “yaşıl enerji” regionuna çevrilə bilən və bununla da beynəlxalq sistemə görə ekoloji cəhətdən təmiz region ola biləcək ən mühüm ərazilərindən biridir.

Həmçinin, ekspert bildirir ki, Prezident İlham Əliyev işğaldan azad edilmiş Qarabağ ərazilərinin “Yaşıl Enerji Zonası”-na çevrildiyini bəyan edib. 2050-ci ilə qədər bu ərazilərin “sıfır xalis emissiya” zonasına çevrilməsi planlaşdırılır. Bu o deməkdir ki, işğaldan azad edilmiş Qarabağ ərazilərinin yaşıl enerji zonasına çevrilməsinin qrafiki mövcuddur [10].

Kiprdə fəaliyyət göstərən beyin mərkəzi və “Strategy International” konsaltinq şirkətinin enerji, geosiyasət və təchizat zəncirləri üzrə direktoru doktor Siril Vidderşovenin fikrincə, paradoksal görünsə də qeyd edilməlidir ki, ucuz təbii qaz və xam neftin mövcudluğu Azərbaycanda bərpa olunan enerji sektorunun inkişafı üçün əhəmiyyətli üstünlükdür. Külək və günəş elektrik stansiyalarının tikintisində lazım olan materialların, xüsusilə beton və metal konstruksiyaların istehsalı böyük miqdarda enerji tələb edir. Bu layihələri dəstəkləmək üçün öz neftindən və qazından istifadə Azərbaycana strateji üstünlük verir. Bundan əlavə, o, iqtisadi diversifikasiyanı təşviq edir, çünki aşağı karbonlu metallar və digər ekoloji təmiz materiallar bütün dünyada tələb olunur və onların istehsalı fəal şəkildə inkişaf etdirilməlidir.

Bərpa olunan enerji layihələrinin həyata keçirilməsi üçün Azərbaycan külək və günəş enerjisi üzrə əlverişli coğrafi mövqeyinə görə əhəmiyyətli potensiala malikdir ki, bu da iqtisadiyyatın karbohidrogenlərdən asılılığını azaltmağa imkan verir [13].

Asiyanın geosiyasəti və regional təhlükəsizlik üzrə ekspert, Niderlandın “GeoStrat” müstəqil geosiyasi konsaltinq şirkəti və akademiyasının direktoru

Riçard Giasinin fikrincə, Qarabağ və Şərqi Zəngəzur (Cəbrayıl, Zəngilan, Füzuli, Kəlbəcər, Laçın) dağlıq ərazilərdə müstəsna külək dəhlizləri ilə aran ərazilərində ən yüksək günəş radiasiyasının bir hissəsini birləşdirir. Azərbaycan Respublikası Energetika Nazirliyi yanında Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyinin ilkin hesablamaları istifadə olunmamış gücün bir neçə QVatt olduğunu göstərir. Buradakı infrastrukturun çox hissəsi sıfırdan qurulduğundan, şəbəkə dərhal bərpa olunan mənbələri və ağıllı enerji sistemlərini inteqrasiya etmək üçün dizayn edilə bilər [12].

Avropa Birliyinin Azərbaycandakı səfiri Peter Mixalkonun fikrincə, Azərbaycanın "yaşıl enerji" sahəsində böyük potensialı var. Avropa Birliyi ilə Azərbaycan arasında enerji sahəsində əməkdaşlıq kifayət qədər inkişaf edib. 2022-ci ildə imzalanmış Enerji Sektorunda Strateji Əməkdaşlıq haqqında Anlaşma Memorandumu təkcə Azərbaycan qazının Avropaya nəqlinin artırılması məsələsini deyil, həm də "yaşıl enerji" kimi mühüm məsələyə toxunur. Biz bu istiqamətdə konkret irəliləyişlərin olduğunu görürük [7].

Nəticə

Dünyada ətraf mühitin çirkləndirilməsinin qarşısının alınması məqsədilə son illər bərpa olunan enerji mənbələrindən istifadənin daha da genişləndirilməsi müşahidə edilir. Qlobal miqyasda mövcud tendensiya onu göstərir ki, yaxın gələcəkdə dünyada bərpa olunan enerji istehsalı daha da artacaqdır. Bu tendensiya üzrə Azərbaycanda da "yaşıl enerji"nin istehsalının artırılması istiqamətində kifayət qədər işlər görülməkdədir. Azərbaycanda bərpa olunan enerji sektorunu inkişaf etdirmək məqsədilə zəngin külək və günəş potensialı mövcuddur və ondan istifadə edilir. Bununla əlaqədar işğaldan azad edilmiş ərazilərdə "Yaşıl Enerji Zonası" yaradılmaqdadır.

Beynəlxalq ekspertlərin də rəyinə əsasən, Azərbaycanda, xüsusən də Qarabağ və Şəqrqi Zəngəzur iqtisadi rayonlarında kifayət qədər "yaşıl enerji" potensialı mövcuddur. Beləliklə, yaxın gələcəkdə Azərbaycan tərəfindən Avropa Birliyi ölkələrinə təkcə təbii qazın deyil, həmçinin "yaşıl enerji"nin də ixrac ediləcəyi gözlənilir.

İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT

Azərbaycan dilində:

1. Azərbaycan Respublikası Energetika Nazirliyi 2021-ci il hesabatı. -https://minenergy.gov.az/az/hesabatlar/illik-hesabatlar
2. Azərbaycan Respublikası Energetika Nazirliyi 2022-ci il hesabatı. -https://minenergy.gov.az/az/hesabatlar/illik-hesabatlar
3. Azərbaycan Respublikası Energetika Nazirliyi 2023-cü il hesabatı. -https://minenergy.gov.az/az/hesabatlar/illik-hesabatlar
4. Azərbaycan Respublikası Energetika Nazirliyi 2024-cü il hesabatı. - https://minenergy.gov.az/az/hesabatlar/illik-hesabatlar
5. Azərbaycan Respublikası Energetika Nazirliyi yanında Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyi. - https://www.area.gov.az/az/page/layiheler/yasil-enerji-zonasi/yasil
6. Azərbaycan Respublikasının Vergi Məcəlləsi. - https://www.taxes.gov.az/az/page/ar-vergi-mecellesi
7. Aİ səfiri: "Azərbaycanın yaşıl enerji sahəsində böyük potensialı var". - https://

report.az/energetika/ai-sefiri-azerbaycanin-yasil-enerji-sahesinde-boyuk-potensiali-var

8. Azərbaycanın “yaşıl enerji”yə keçidlə bağlı təşəbbüsləri. - https://cop29.az/az/sustainability/energy-transition-initiatives

9. Kəlbəcərin Vəng kəndində “Aşağı Vəng”, “Nadirxanlı” və “Çaykənd” kiçik su elektrik stansiyalarının açılışı olub - https://www.azerenerji.gov.az/newsdetail/1932

İngilis dilində:

10. Egyptian expert: Liberated Karabakh territories have great potential to transform into green energy region. /19.10.2024/- https://azertag.az/en/xeber/egyptian_expert_liberated_karabakh_territories_have_great_potential_to_transform_into_green_energy_region____interview-3237212

11. “Renewable Capacity Statistics 2025” https://www.rinnovabili.it/wp-content/uploads/2025/07/IRENA-RENEWABLE-CAPACITY-STATISTICS-2025.pdf

Rus dilində:

12. Нидерландский эксперт: Азербайджан выступает в качестве моста между региональными реалиями и глобальными климатическими приоритетами /28.08.2025/- https://azertag.az/ru/xeber/niderlandskii_ekspert_azerbaidzhan_vystupaet_v_kachestve_mosta_mezhdu_regionalnymi_realiyami_i_globalnymi_klimaticheskimi_prioritetami___intervyu-3719103

13. Эксперт: Возможности для Азербайджана в области зеленой энергетики огромны. /31 Январь 2025/ - https://br.az/economy/77841/ekspert-vozmozhnosti-dlya-azerbaydzhana-v-oblasti-zelenoy-energetiki-ogromny/

Elmir Mehdiyev

ASSESSING RENEWABLE ENERGY POTENTIAL IN THE TERRITORIES LIBERATED FROM OCCUPATION

Abstract

This article explores the current state of renewable energy production worldwide, analyzes Azerbaijan’s renewable energy potential, and assesses opportunities in the territories liberated from occupation. Drawing on the perspectives of international experts, it concludes that the demand for expanding the use of renewable energy sources is steadily growing.

Key words: renewable energy sources, hydroelectric power plant, solar power plant, wind power plant, territories liberated from occupation

MÜƏLLİFLƏR ÜÇÜN QAYDALAR

JURNAL HAQQINDA

"Sosial tədqiqatlar" jurnalı (STJ) 2019-cu ildə Sosial Tədqiqatlar Mərkəzi tərəfindən təsis edilmişdir. 06 avqust 2019-cu il tarixində Azərbaycan Respublikasının Ədliyyə Nazirliyində 4248 nömrəsi ilə mətbu nəşrlərin reyestrinə daxil edilmişdir. 2021-ci ildə Fransanın Paris şəhərində yerləşən Beynəlxalq Serial Nəşrlərin Qeydiyyatı Mərkəzi tərəfindən "Sosial tədqiqatlar" jurnalına Beynəlxalq Standart Seriya Nömrəsi (ISSN 2788-8789 print və ISSN 2959-5223 online) verilmişdir.

Jurnal Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası (AAK) tərəfindən "Azərbaycan Respublikasında məqalələrin dərc olunması tövsiyə edilən dövri elmi nəşrlərin siyahısı"na daxil edilmişdir. AAK "Sosial tədqiqatlar" jurnalında dərc edilən məqalələrin müxtəlif elm sahələrini əhatə etdiyini və müvafiq bölmələri əsas götürərək "Fəlsəfə və sosiologiya", "Siyasi elmlər, "İqtisad elmləri", "Tarix və antropologiya" elm sahələri olmaqla 4 bölmədə təqdim etmişdir.

Jurnalda əsasən sosiologiya, psixologiya, iqtisadiyyat, siyasət, hüquq və fəlsəfə kimi ictimai və humanitar elm sahələrinin ümumkonseptual məsələlərini elmi-metodoloji cəhətdən ifadə edən, müəlliflərin yeni ideya və yanaşmalarını əks etdirən elmi-analitik məqalələrin, yeni nəşrlərə dair diskussiya məzmunlu rəy və şərhlərin dərcinə üstünlük verilir.

Müstəqil, resenziyalı, elmi nəşrdir. İl ərzində 4 sayı çap edilir.

Jurnalın nüsxələri kitabxanalara, beynəlxalq indeks təşkilatlarına, abunəçilərə və məqalə müəlliflərinə çap olunduqdan sonrakı bir ay ərzində göndərilir.

Azərbaycan, türk, ingilis və rus dillərində məqalələr dərc edilir.

ÜMUMİ QAYDALAR

I. Məqalələrin məzmunu

Jurnala göndəriləcək məqalə sosial elmlər sahəsinə öz töhfəsini verəcək və sosial elmlərə yenilik gətirəcək səviyyədə aktual və orijinal olmalı, analitik xarakter daşımalı və akademik tələblərə cavab verməlidir. Elmi məqalənin **"Giriş"** hissəsində mövzunun aktuallığı əsaslandırılmalı, **"Mətn"** hissəsində tədqiq edilən məsələlər, qaldırılan problemlər bölmələr üzrə ətraflı şərh edilməli, **"Nəticə"** hissəsində elm sahəsinin və məqalənin xarakterinə uyğun olaraq müəllifin gəldiyi elmi qənaət, işin elmi yeniliyi, tətbiqi əhəmiyyəti, iqtisadi səmərəsi və s. aydın şəkildə verilməli, təklif və tövsiyələr irəli sürülməlidir.

II.Məqalələrin strukturu, tərtib edilmə qaydaları və həcmi

Redaksiyaya təqdim edilən məqalələr Ali Attestasiya Komissiyasının dövri elmi nəşrlərin qarşısında qoyduğu tələblərə (http://aak.gov.az) və STJ-nin "Müəlliflər üçün qaydalar"ına tam cavab verməlidir.

Məqalələr dəqiq strukturlaşdırılmalıdır. Hər bir məqalədə ardıcıl olaraq:

- **ORCID ID, UOT** indekslər və ya **PACS** tipli kodlar;
- **"Məqalənin adı"** (10–12 sözdən çox ola bilməz), "Müəllifin adı və soyadı", "Müəllifin işlədiyi qurumun adı və ünvanı", "Müəllifin vəzifəsi, elmi dərəcəsi, elektron poçt ünvanı";

❖ **Giriş:** Məzmunu müəllif tərəfindən müəyyən edilir.

❖ **Əsas mətn** (yarımbaşlıqlara bölmək şərtilə): A4 formatında (29,7x21 sm), "MS Word" proqramında, "Times New Roman" – 12 şrift və 1 intervalla yazılmalıdır. Səhifə kənarlarından 2 sm məsafə buraxılmalı və səhifələr nömrələnməlidir. Mətndə yarımbaşlıqlar yeni sətirdən, ilk hərfi böyük olmaqla qalın hərflərlə verilməlidir.

❖ **Nəticə:** Tədqiqatın əsas elmi nəticələri qısa və ümumiləşdirilmiş şəkildə verilməlidir.

❖ **Xülasə:** 100 sözdən az, 200 sözdən çox olmamalıdır. Xülasədə tədqiqatın məqsədi, metodikası, başlıca nəticələri, məhdudiyyətləri, orijinallığı, elmi yeniliyi və praktiki əhəmiyyəti qısa şəkildə əks etdirilməlidir. Azərbaycan və rus dillərində yazılan yazıların həmin dillərlə yanaşı ingilis dilində, ingilis dilində yazılan yazıların isə ingilis dili ilə yanaşı, Azərbaycan və rus dillərində də xülasəsi olmalıdır.

❖ **Açar sözlər** (Azərbaycan, ingilis və rus dillərində): Məqalənin məzmununa uyğun olmalı və onu əhatə etməlidir. 5-dən az, 8-dən çox ola bilməz.

❖ **Məqalənin başlığı** böyük hərflərlə, yarımbaşlıqları isə yalnız ilk hərfi böyük olmaqla, qalın şriftlə və nömrələndirilərək yazılmalıdır. Başlıq və yarımbaşlıqlardan, cədvəl və şəkillərdən (həmçinin tənliklər və düsturlardan) əvvəl və sonra bir sətir ara boşluğu buraxılmalıdır. Səhifələr ardıcıl olaraq yuxarı sağ küncdə nömrələnməlidir.

❖ **Cədvəl və şəkillər**in adı olmalı və bu ad cədvəllər üçün cədvəlin üstündə sağ küncdə, şəkillər üçün şəklin altında sol küncdə yerləşdirilərək, ərəb rəqəmlərilə ardıcıl nömrələndirilən müvafiq olaraq "cədvəl" və "şəkil" sözündən sonra yazılmalıdır. Cədvəl və şəkillərin başlıqları ilk hərfləri böyük olmaqla qalın şiriftlə yazılmalıdır. Cədvəlin sütunlarının adı qısa olmalı, ölçü vahidləri mötərizədə göstərilməlidir.

Cədvəl və şəkillər biri-birini təkrarlamamalı, göstəricilər Beynəlxalq Vahidlər Sistemində (Sİ) verilməlidir. Əlyazmada bir cədvəl və bir şəkil verildikdə, müvafiq olaraq, onlar nömrələnməli, "Cədvəl" və ya "Şəkil" sözü də yazılmamalıdır.

Şəkillər elektron formatda "jpg", "tif" fayl tipində, CMYK-rəng rejimində, 300 dpi-dən az olmayan ölçüdə, qrafik illüstrasiyalar Word, Exsell, Adobe Illustrator, Potoshop, CorelDRAW və PowerPoint proqramlarından birində təqdim edilməlidir.

Düsturlar Microsoft Equation-də standart parametr ilə yığılmalıdır.

❖ **Məqalələrin həcmi:** yuxarıdakı şərtlər nəzərə alınmaqla 8 səhifədən az olmamalıdır.

❖ **Mənbə və istinadlar:** Məqalənin mövzusu ilə bağlı elmi mənbələrə zəruri istinadlar olmalıdır. Məqalənin sonunda verilən ədəbiyyat siyahısı dillər üzrə əlifba ardıcıllığı ilə nömrələnməlidir. Elmi ədəbiyyata mətndə başqa bir yerdə təkrar istinad olunarsa, onda istinad olunan həmin ədəbiyyat əvvəlki nömrə ilə göstərilməlidir. Ədəbiyyat siyahısında verilən hər bir istinad haqqında məlumat tam, dəqiq və orijinalın dilində olmalıdır. İstinad olunan mənbənin biblioqrafik təsviri onun növündən (monoqrafiya, dərslik, elmi məqalə və s.) asılı olaraq verilməlidir. Elmi məqalələrə, simpozium, konfrans və digər nüfuzlu elmi tədbirlərin materiallarına və ya tezislərinə istinad edərkən məqalənin, məruzənin və ya tezisin adı göstərilməlidir. İstinad olunan mənbənin biblioqrafik təsviri verilərkən Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının "Dissertasiyaların tərtibi qaydaları" barədə qüvvədə olan təlimatının "İstifadə edilmiş ədəbiyyat" bölməsinin 10.2-10.4.6 tələbləri əsas götürülməlidir.

Mətndə istinad olunan bütün mənbələr, səhifə nömrələri ilə birlikdə "İstifadə edilmiş ədəbiyyat" siyahısında aşağıdakı nümunələrdə göstərilən qaydada verilməlidir:

a) Kitablar:

Adilov M.İ., Həsənov İ.C. Qloballaşma və milli mənəvi dəyərlər. Bakı: Elm, 2012, -476 s.

b) Jurnallar:

Şixəliyev E.İ. Ermənilərin "din" strategiyasının əsas istiqamətləri. // "Strateji təhlil" jurnalı, №7(35), Bakı: Elm, 2013, s. 32-45.

c) Toplularda məqaləyə istinad (konfrans, simpozium və digər):

"Azərbaycan iqtisadiyyatında keçid dövrünün başa çatması: təhlil və nəticələr. Milli inkişaf modelinin formalaşması problemləri". / Respublika elmi-praktiki konfransının materialları. Bakı: Şərq-Qərb, 2010, s. 314-316.

ç) Dissertasiyalar və avtoreferatlar:

Məmmədov H.B. Azərbaycan Respublikası müasir beynəlxalq siyasi proseslərin aktoru kimi. Elmlər doktoru dissertasiyasının avtoreferatı, Bakı: Elm, 2013, - 44 s.

d) Müəlliflik şəhadətnamələri və patentlər:

Алиев С.Г., Джалалов К.Х. А.С. 163514, СССР // Б.И. 1988, № 4, с.50

Langsam M., Savoca A. C.L. Pat. 4759776, USA, 1988.

e) İnternet səhfələri (internet səhfələrinə istinadlar mütləq gün, ay, il olmaqla, istifadə olunduğu tarix göstərilmək şərtilə tam ünvan şəklində olmalıdır):

http://www.stat.gov.az/# (15.11.2013) / 2013-cü ilin yanvar-oktyabr aylarında ölkənin iqtisadi və sosial inkişafının makroiqtisadi göstəriciləri.

Məqalənin sonundakı ədəbiyyat siyahısında son 5-10 ilin elmi məqalələrinə, monoqrafiyalarına və digər etibarlı mənbələrinə üstünlük verilməlidir.

Mətndə istifadə edilməyən mənbələr "İstifadə edilmiş ədəbiyyat" hissəsində göstərilməməlidir.

Məqalənin redaksiyaya təqdim edilmə qaydası

Məqalənin orijinalı 2 nüsxədə (həmçinin elektron formada) tədqiqatın aparıldığı müəssisənin göndəriş məktubu və elmi şurasının müvafiq iclas protokolundan çıxarış ilə birgə müəllif(lər)in özü tərəfindən redaksiyaya (AZ1073, Bakı şəhəri, Yasamal rayonu, İsmayıl bəy Qutqaşınlı küç., 18. Sosial Tədqiqatlar Mərkəzi) təqdim edilməlidir. Əlyazma mütləq müəllif(lər) tərəfindən imzalanmalı və onun redaksiyaya təqdimedilmə tarixi göstərilməlidir.

Məqalələrin elektron qaydada təqdim edilməsi də mümkündür. Bunun üçün müəlliflər məqalələrini aşağıdakı elektron poçtlara göndərməlidirlər: office@socialresearchjournal.az; socialresearch-journal@gmail.com; tahirallahyarova@gmail.com; agshin.mammadov76@gmail.com.

III. Məqalələrin qiymətləndirilməsi, resenziyalaşdırılması və dərci

STJ-yə göndərilən məqalələr əvvəlcə redaksiya tərəfindən jurnalın nəşr prinsipləri baxımından qiymətləndirilir. Nəşr prinsiplərinə uyğun olmayan yazılar düzəldilmək üçün müəllifə göndərilə və ya resenziyalaşdırmadan imtina edilə bilər.

Resenziyalaşdırma üçün qəbul edilən məqalələrin resenziya prosesində elmi obyektivlik və elmi keyfiyyət kriteriyalarına xüsusi diqqət yetirilir. Resenziyalaşdırma üçün qəbul edilən yazılar müvafiq sahəyə aid iki resenzentə göndərilir. Resenzentlərin adları məxfi saxlanılır və yazılara verilən rəylər beş il ərzində redaksiyada qorunur. Resenzentlərdən birinin rəyi müsbət, digəri mənfi olduğu təqdirdə yazı üçüncü resenzentə göndərilə bilər və ya redaksiya verilən rəyləri qiymətləndirdikdən sonra yekun qərar qəbul edə bilər. Müəlliflərin resenzentlərin və redaksiyanın tənqid, irad və təkliflərini nəzərə almaları zəruridir. Müəlliflər razılaşmadığı məqamlarla bağlı əsaslandırılmış şəkildə etiraz etmək hüququnu saxlayırlar. Nəşrə qəbul

edilməyən yazılar müəlliflərinə qaytarılmır.

Redaksiyaya təqdim edilən məqalələr (əlyazmalar) mütəxəssislər (resenzentlər) tərəfindən konfedensial olaraq resenziyalaşdırıldıqdan sonra redaksiya heyətinin mütəxəssis üzvlərindən biri tərəfindən çapa tövsiyə və ya təqdim edilir. Resenziyalaşdırma və təsdiqetmə müddəti ümumilikdə 3 aydır. Məqalələr resenziyalaşdırma prosedurunun nəticələri əsas götürülərək növbəlilik prinsipi ilə dərc edilir.

IV. Kompilyasiya və ya plagiatlıq halları

Bütün məqalələr kompilyasiya və ya plagiat ola biləcəyi ehtimalına görə nəzərdən keçirilir. Plagiatlıq hallarına rast gəldikdə məqalə dərhal çap prosesindən kənarlaşdırılır və "Sosial tədqiqatlar" jurnalının bundan sonrakı saylarında müəllifin məqalə dərc etdirməsinə icazə verilmir.

V. Müəlliflik hüquqları

Jurnalda dərc edilən məqalələrdə müəlliflik hüququ qorunur və bu məqalələrin bütün nəşr hüquqları "Sosial tədqiqatlar" jurnalına aiddir. Jurnalda çap edilmiş məqalələrin eynilə digər nəşrlərdə (məqalənin tezis şəklində dərc olunmuş variantı istisnadır) dərcinə yalnız Redaksiyanın yazılı icazəsi, sitatların verilməsinə isə mənbə göstərilmək şərti ilə yol verilir.

Əvvəllər çap olunmuş və ya cap olunmaq üçün başqa bir dövri nəşrə göndərilmiş əlyazmaların jurnala tədqim edilməsi yolverilməzdir.

Simpoziumlarda, konfranslarda təqdim olunan və tam şəkildə yayımlanmayan materiallar məqalə formasında qiymətləndirilmə və resenziyalaşdırılma mərhələsinə təqdim edilə bilər.

Yuxarıda göstərilən tələblərə cavab verməyən məqalələr çap edilmir.

Nəşrin müəlliflərə təqdim edilməsi

Dərc olunmuş məqaləyə görə müəllifə jurnalın bir nüsxəsi verilir.

Redaksiyanın ünvanı

AZ1073, Bakı şəhəri, Yasamal rayonu, İsmayıl bəy Qutqaşınlı küç., 18.
Sosial Tədqiqatlar Mərkəzi.

Əlaqə telefonları

(012) 510-70-78

“SOSİAL TƏDQİQATLAR”
jurnalının Redaksiya Şurası

PUBLICATION REQUIREMENTS FOR THE JOURNAL OF "SOCIAL RESEARCH"

1. Articles of scientific and practical significance, which cover the results of original scientific studies and scientific innovations are published in the Journal of Social Research of the Social Research Center.

2. The documents (articles, reviews, etc.) can be submitted in Azerbaijani, Russian and English in a hard copy form, on electronic media or via e-mail (office@socialresearchjournal.az; socialresearch-journal@gmail.com; tahirallahyarova@gmail.com; agshin.mammadov76@gmail.com).

3. The article shall be recommended for publication once it has received a positive feedback following the discussions at the relevant department (chair) of the scientific (higher education) institution. The author shall submit to the editorial office an extract from the minutes of the meeting of the Scientific Council.

4. The article submitted to the editorial office shall be sent to two anonymous reviewers according to the author's area of specialty. The articles of authors who received two positive feedbacks as a result of the review process will be published.

5. The article shall be 8-12 pages (including pictures, tables, charts, appendices, list of reference, and summaries). Texts shall be printed in 12 pt. Times New Roman font with line spacing of 1.

6. Each article shall include UDC (Universal Decimal Classification) indexes and keywords, (preferably DOİ (Digital Object Identifier) and ORCİD İD). Keywords shall be provided in three languages (in which the articles and summaries are written) and consist of at least 6 words.

7. The sources and bibliography used in the article shall be listed in sequentially numbered alphabetical order, following the body text, titled References, in their original languages (starting from Azerbaijani, then followed by Turkish, Russian, English, French, Arabic, etc.). The bibliographic description of the referenced source shall be based on the requirements of the “Cited Bibliography” section of the “Guidelines for Drafting Dissertations” of the State Commission for Academic Degrees and Titles re-porting to the President of the Republic of Azerbaijan (see: http://aak.gov.az).

8. The reference list shall be followed by the summary of the article. The summary for articles in Azerbaijani shall be written first in English, then in Russian, and for articles in Russian, first in Azerbaijani and then in English. The title of the article, the author's name and surname, the organization and the country he/she represents shall be provided at the beginning of each summary. Article summaries in different languages shall be identical and correspond to the content of the article. The summary shall provide a brief description of the scientific conclusions reached by the author(s), the novelty and practical importance of the scientific work, etc. Summaries shall consist of 100-200 words.

The article shall be structured in the following order:

- UDC index
- Author’s name and surname
- Author's place of work, position, academic degree and rank, country and e-mail address
- Article title

- Keywords in the original language of the article
- Main body
- Reference list
- Summaries and keywords in other two languages in addition to the original language of the article.

Articles that do not meet the requirements, have serious scientific or grammatical errors will not be published. Manuscripts submitted to the editorial office will not be returned. The editorial staff reserves the right to make editorial changes and reductions in articles.

ТРЕБОВАНИЯ К СТАТЬЯМ, ПРЕДСТАВЛЯЕМЫМ В ЖУРНАЛ «СОЦИАЛЬНЫХ ИССЛЕДОВАНИЙ»

1. В журнале «Социальных исследований» издаются статьи, содержащие результаты оригинальных научных исследований, представляющие научную новизну, важное научное и практическое значение.

2. Материалы (статья, рецензия и др.) могут быть представлены на азербайджанском, русском и английском языках в печатном виде, на электронном носителе или посредством электронной почты (office@socialresearchjournal.az; socialresearch-journal@gmail.com; tahirallahyarova@gmail.com; agshin.mammadov76@gmail.com).

3. Статья должна быть рекомендована к печати научным советом научного (высшего учебного) учреждения, получив положительный отзыв в результате обсуждения в соответствующем отделе (на кафедре). Автор должен предоставить редакции выписку из протокола заседания научного совета.

4. Представленная редакции статья в соответствии со специальностью автора направляется двум анонимным экспертам на рецензирование. При получении двух положительных отзывов в результате процесса рецензирования статья направляется в печать.

5. Объем статьи должен составлять 8-12 страниц (включая изображения, таблицы, графики, приложения, список литературы, резюме). Статья должна быть напечатана шрифтом Times New Roman – 12, с межстрочным интервалом 1.

6. В каждой статье должны быть указаны индекс УДК (Универсальная Десятичная Классификация) и ключевые слова, (так же, желательно DOI (Digital Object Identifier) и ORCID ID авторов. Ключевые слова должны быть на трех языках (на языке самой статьи и двух резюме) и составлять не менее 6 слов.

7. В статье использованные источники и литература приводятся после текста статьи под заголовком Список литературы и пронумерованы в алфавитном порядке (сперва на азербайджанском, затем турецком, русском, английском, французском, арабском и др. языках). При указании библиографического описания использованного источника следует брать за основу требования раздела “Использованная литература” действующих инструкций Высшей Аттестационной Комиссии соответствующей страны.

8. После списка использованной литературы следует разместить резюме статьи. Для статей, написанных на азербайджанском языке, необходимо разместить резюме сперва на английском, а затем на русском, а для статей на русском языке, необходимо разместить резюме на азербайджанском и на

английском языке. Над каждым резюме необходимо указать название статьи, имя, фамилия, место работы и страну автора статьи. Оба резюме должны быть идентичными и соответствовать содержанию статьи. В резюме должны быть кратко отражены научные выводы, к которым пришел автор, научная новизна работы, практическая значимость статьи и т.д. резюме должны состоять из 100-200 слов.

Структура статьи должна быть составлена в порядке, указанном ниже:

- УДК индекс статьи
- Имя и фамилия автора
- Место работы, должность, научная степень и научное звание, страна и адрес электронной почты автора
- Название статьи
- Ключевые слова на языке статьи
- Текст статьи
- Список литературы
- Два резюме и ключевые слова, написанные на двух других языках.

Статьи, не отвечающие требованиям, имеющие значительные научные, грамматические ошибки, не издаются. Представленные в редакцию рукописи не возвращаются. Редакция оставляет за собой право производить изменения редакторского характера и сокращения.

QEYD ÜÇÜN

QEYD ÜÇÜN

QEYD ÜÇÜN



SOSİAL
TƏDQİQATLAR
MƏRKƏZİ

Azərbaycan Respublikası, AZ 1073, Bakı şəhəri, Yasamal rayonu, İsmayıl bəy Qutqaşınlı küç., 18
Telefon: (+994 12) 510 70 78; (+994 12) 510 23 75; (+994 12) 510 70 69
info@stm.az www. stm.az